**Hüseyn Tövfiqi**

# Böyük dinlərlə tanışlıq

Xəzər Universitəsi Nəşriyyatı
Khazar University Press
2013

© Xəzər Universitəsi Nəşriyyatı, 2013
Bütün hüquqlar qorunur

Redaktor və ön sözün müəllifi: *Hamlet İsaxanlı*

Hüseyn Tövfiqi
Böyük dinlərlə tanışlıq. – Bakı: Xəzər Universitəsi Nəşriyyatı, 2013. – 290 səh.

ISBN 978-9952-20-080-5

1.Din tarixi 2. İslam 3. Yəhudilik
4. Xristyanlıq 5. Digər dinlər 5. Din və ədəbiyyat

200/.71-dc22

# İçindəkilər

***Bəşərin Allaha və dinə fitri ehtiyacı (Doktor Əhməd Əhmədi)................................................................................ 7***

***Dinlərlə tanışlıq necə baş verir mühit, elm və kitab (Hamlet İsaxanlı) .......................................................................................... 9***

***1. Külliyat.................................................................................... 24***
1. Din, məzhəb, millət və şəriətin tərifi: ...................................24
2. "Din" yaxud "Dinlər"...............................................................26
3. Din Sosiologiyada....................................................................26
4. Dinin mərhələləri ....................................................................27
5. Dinlər barəsindəki elmin faydası ............................................28
6. Dinlərin qruplara bölünməsi ...................................................29
7. Dinlərin dərəcələrə bölünməsi ...............................................30
8. Yerli və yerli olmayan dinlər ..................................................31
9. Dindarlığın hal-hazırki vəziyyəti ...........................................31
10. Hər şey və heçnə ....................................................................32
*2. İbtidai dinlər*............................................................................ ***34***
1. İbtidai insanların dini .............................................................34
2. Animizm..................................................................................38
3. Fetişizm...................................................................................39
*3. Qədimi dinlər*............................................................................ ***40***
1. Misir .......................................................................................40
2. Babilistan ................................................................................42
3. Yunanıstan ..............................................................................44
4. Roma .......................................................................................46
*4. Hindistan* ................................................................................ ***49***
1. Hinduizm.................................................................................50
2. Caynizm ..................................................................................64
3. Buddizm..................................................................................66
4. Sikhizm ...................................................................................72
*5. Çin və Yaponiya*...................................................................... ***76***

1. Konfusizm........................................................................76
2. Taoizm .............................................................................80
3. Sintoizm ...........................................................................82
*6. Qədim İran* **......................................................................... *85***
1. Muğan dini........................................................................85
2. Zərdüşt dini ......................................................................86
3. Mitraizm...........................................................................92
4. Manilik..............................................................................93
5. Məzdək dini......................................................................96
*7. İslamdan öncə ərəblər arasındakı mövcud dinlər* **...................... *99***
1. Cahiliyyət dövrünün ərəb dinləri ........................................99
2. Ərəblərin Tanrıları ............................................................100
3. Allaha iman......................................................................101
4. Əzabverici ruhlar...............................................................101
5. Sabiilər ............................................................................102
*8. Yəhudilik* **......................................................................... *105***
1. İbranilər...........................................................................105
2. Həzrət İbrahim (ə)............................................................106
3. İslamil və İshaq (ə)...........................................................108
4. Həzrət Yaqub (İsrail) .......................................................110
5. Həzrət Musa (ə)...............................................................111
6. Bəni-İsrailin tarixi............................................................119
7. Tənəx (Əhdi-Ətiq)............................................................132
8. Təlmud ............................................................................140
9. Qebala ............................................................................143
10. Etiqadlar.........................................................................144
11. Əhkam............................................................................148
12. Yəhudi bayramları...........................................................151
13. Yəhudi firqələri ..............................................................154
14. Məsihanın zühuru intizarını çəkərkən.............................160
*9. Xristyanlıq* **......................................................................... *166***
1. Həzrət İsanın (ə) zühuru dövrü .........................................166
2. Həzrət İsanın (ə) zühuru barəsində verilmiş xəbərlər ........166
3. Tarixdə mövcud olan İsa barəsində araşdırma..................167

4. Həzrət İsanın (ə) həyatı....................................................169
5. Qüsl verən Yəhya..........................................................171
6. Həzrət İsanın (ə) qiyamı...................................................172
7. Həzrət İsanın (ə) fəaliyyətinin sonu..................................173
8. Elçilər, yaxud Həvarilər....................................................175
9. İnqilabçı İsa..........................................................................180
10. Kilsənin yaranması............................................................189
11. Xristyanlığın yayılması.....................................................191
12. Kəlami ixtilafların yaranması...........................................191
13. Xristyanlıq Romada...........................................................192
14. İsa (ə) rahiblər üçün nümunədir........................................193
15. Papalar...............................................................................195
16. Digər xristyan quruluşları..................................................202
17. Əhdi-Cədid.........................................................................204
18. Müqəddəs kitabın mötəbərliyi...........................................209
19. İnam və etiqadları..............................................................215
20. Yeddi müqəddəs adət.........................................................227
21. Xristyanlıq bayramları.......................................................235
22. Kilsədə meydana çıxan ayrılıq...........................................237
23. Xristyanlıq firqələri............................................................238
24. Rahiblik..............................................................................241
25. Kilsə şuraları......................................................................243
26. Məzhəb islahatı..................................................................245
27. Xristyanlıqda axirət məsələləri..........................................250
28. Həzrət İsa Məsihin (ə) qayıdış həyəcanı............................252
***10. İslam və digər dinlər.................................................................. 256***
Nur və zülmət...........................................................................256
2. Adlandırılması: Müəyyənləşdirməklə və təyin etməklə ....259
3. Sonunculuq və sonrakı dinlərin gəlməsi barəsində müjdə.260
4. Düzgünlüyü.........................................................................263
5. Kəlami məsələləri...............................................................263
6. İnsanın süquta uğraması və xilas təlimi..............................269
7. Təhzib-paklanma.................................................................271
8. Adət və mərasimlərin dəyişdirilməsi..................................273

9. Allahın qüdrət dini, Allahın məhəbbət dini və Allahın
rəhmət dini ....................................................................275
10. Allahı tanımaq..........................................................276
11. Peyğəmbtanıma (Peyğəmbərşünaslıq)...........................303
12. Hökumət...................................................................314
13. Axirəttanıma...............................................................331
14. Radikal və Plüral dinlər................................................345
15. Yaxşılıq .....................................................................347
16. Qidalanma .................................................................347
17. Şərabın içilməsi............................................................349
18. Geyim........................................................................349
19. Evlilik.........................................................................351
20. Boşanma və yaxud təlaq ................................................355
21. Qisas, diyə və bağışlamaq..............................................356
22. Bəzi başqa dini əhkamlar ...............................................357

# Bəşərin Allaha və dinə fitri ehtiyacı

Bəşərin keçmiş və hal-hazırkı tarixi göstərir ki, böyük əksəriyyət üçün bu sual aktual olmuşdur: məni yaradan kimdir? Və ümumiyyətlə, yaradan varmı? Görəsən mənim həyatım elə buradaca sona çatacaqmı və ya mənim həyatım ölümdən sonra da davam edəcəkmi? Mənim bu həyatda vəzifəm nədir?

Bunlar ağıllı insanları daima düşündürən əsaslı suallar olmuşdur və hər kəs onların cavabını tapmaq üçün çoxlu və dərin araşdırmalar aparmışdır. Hərçənd ki bəziləri bu sualların yanından çox asanlıqla keçmiş və ya ümumiyyətlə, onları inkar etmişlər, lakin bu problem onları heç vaxt rahat buraxmamışdır.

Bu arada birinci sualı – yəni Allahın varlığını – cavablandırmaq üçün müxtəlif dəlillər və yollar təqdim edilmişdir ki, əksər filosofların nəzərinə görə bunların arasında ən yaxşı yol və dəlil fitrətdir; yəni insan heç bir dəlil və sübut olmadan, özünün fitri anlayışı ilə özünü bir həqiqətə bağlı hesab edir və ya bütün kamil sifətləri özündə birləşdirən həqiqəti özünün daxili şüurunda tapır və bu həqiqətdən yalnız xarici amillərin təsiri ilə qafil olur. Allahı tanımağın fitri olması da elə budur. Görürük ki, insanın öz daxili şüurunda tapdığı bu tapıntını silmək üçün edilən səylər və təzyiqlərə rəğmən bu təsiredici amillər kənara çəkilən kimi bu şüur tapıntısı yenidən canlanır və aşkar olur; elə bu səbəbdən də daim şiddətli və ya zəif dərəcədə mövcud olur və heç vaxt birdəfəlik aradan getmir. Fitri şəkildə aşkar edilən və bütün kamil sifətlərini özündə birləşdirən bu zat və həqiqətin varlığı tələb edir ki, O, bizi əbəs yerə yaratmasın və bu səbəbdən də ilahiariflər və filosoflar ölümdən sonrakı həyatın dərk edilməsini, həm dünya həyatı və həm də ölümdən sonrakı həyat üçün ali insani kamilliklərin əldə edilməsini fitri hesab edirlər. Həqiqi səmavi dinlər də buna görə gəliblər ki, insanın Allahı, ölümdən sonrakı həyatı və insanın kamal və ali sifətlərinin fitri və intuitiv şəkildə dərk edilməsi yolunda olan maneələri aradan qaldırsın və yolu hamarlasın. Əslində həqiqi dinin işi insanın daxilində olan həmin fitri və intuitiv məlumatı yenidən canlandırmaq, onun üstünü örtən pası təmizləməkdir. Belə bir iddia səhvdir ki, peyğəmbərlər hər şeyi qıraqdan gətirmiş və insanlara güclə qəbul etdirmişlər. Əgər belə olsaydı onlar öz işlərində müvəffəqiyyət əldə edə bilməzdilər.

**İslamın və ilahi peyğəmbərlərin əsl mesajı**

İslamın və həqiqi ilahi dinlərin əsas mesajı budur ki, həmin fitri meylinizə diqqət yetirin və bu intuitivin işarə etdiyi həmin ali gerçəyi – istənilən adla adlandırılmasına baxmayaraq – unutmayın. Bu ali həqiqət birdən artıq deyil. İnsanlar ölümdən sonrakı həyata da malikdirlər. İnsanların tək Allaha və ölümdən sonrakı həyata olan etiqadları və bəzi əməlləri yerinə yetirmələri, həqiqi dindarlarda gördüyümüz kimi, elə bu dünyada ruhun sakitləşməsinə səbəb olacaq. Burada qısa olaraq İslamın təməl rəftarlarının bəzilərinə - bu rəftarların bəziləri digər ilahi dinlərdə də vardır – işarə edirik:

1. Bütün adəm övladlarını şərəfli və hörmətli etdik.
2. İnsanlarla yaxşı rəftar edin.
3. Ədalətlə davranın.
4. Zülm etməyin və zülmə məruz qalmayın.
5. Əmr sahibləri cəmiyyətin ən zəif təbəqəsi səviyyəsində yaşamalıdırlar.
6. Allahın haram buyurduğu cana haqsız yerə qəsd etməyin.
7. Zinaya yaxınlaşmayın.
8. Həsəd aparmayın.
9. Güzəşt edin və bağışlayın.
10. Hər kəsi sevin.
11. Vədinizə əməl edin.
12. Doğru danışın.
13. Heç vaxt yalan danışmayın.
14. Əmanətə xəyanət etməyin.
15. Qonşuya və qohumlara yaxşılıq edin.
16. Qəzəb və məğrurluqdan uzaq olun.
17. Ata-anaya yaxşlıq edin.
18. Elm öyrənin və başqalarına da öyrədin.
19. Qeybət etməyin.
20. Hər işi Allaha görə yerinə yetirin.

Burada qısa olaraq işarə etdiklərimiz çoxun içindən az olmaqla İslamın etiqad və əməl külliyyatına işarədir ki, bu kitabda xülasə şəklində digər dinlərlə müqayisə olunub. Hərçənd onlar heç vaxt əməldə və əqidədə İslamın dərinliyinə və genişliyinə çata bilməzlər və İslam insan həyatının bütün guşələrində mövcuddur.

***Doktor Əhməd Əhmədi***

# Dinlərlə tanışlıq necə baş verir: mühit, elm və kitab

Dinlə tanışlıq çox erkən, kitab dünyası ilə yaxın dostluqdan əvvəl başlanılır. Uşaq öz ailəsi və ətraf mühitin təsiri ilə, onları nümunə götürmək və müəyyən dərəcədə təqlid etməklə mənəvi-mədəni dəyərləri, o cümlədən dini anlayışları anlamağa və mənimsəməyə başlayır. İnsanın dinə münasibəti, dindarlığı və ya möminliyi onun tərbiyəsindən, böyüdüyü və yaşadığı mühitdən qaynaqlanır, peşəsindən və digər keyfiyyətlərdən qidalanır. Ümumiyyətlə, dini və mədəni duyğuların dünyaya göz açan uşaqla bir doğulduğuna, bu duyğuların fitri olduğuna inanmıram. Mənim kimi düşünməyənlərin var olduğunu da bilirəm. Yetkinləşmiş insanın dünyagörüşü və dini baxışları ciddi surətdə dəyişmir, onlar davamlı, qərarlı, oturmuş inanc, bilik, etiqad və duyğular küllisi üzərində formalaşır (izahı çətin olan ruhi fırtınaları, “yenidən doğulmalar”ı burada bir istisna kimi kənarlaşdırıram). Hər bir insan öz sosial və fərdi təcrübəsində din və təmas etdiyi digər mədəni sistemlərlə tanış olur və əlbəttə ki, o, bu təcrübə haqqında, bu tanışlığın necə baş verdiyi barədə söhbət açmaq iqtidarındadır. Bəlli sosial-siyasi mühitdə böyümüş bir uşağın, dünyəvi təhsil alan bir şagird və tələbənin, təbiəti və cəmiyyəti öyrənmək və tədqiq etməklə məşğul olan bir elm adamının dini təsəvvürləri, dinə və dindarlara münasibəti nə qədər fərdi xarakter daşısa da, cəmiyyətin böyük bir qrupunun uyğun təsəvvür və münasibətini, sxematik olsa da, düzgün təmsil etdiyinə əminəm.

Ateizmi rəsmi ideologiya elan etmiş Sovetlər Birliyi zamanında yaşayan nənəm Zeynəb mömin insan idi. Namaz və orucu yerində olmaqla, zəiflərə və kasıblara köməyi, mərhəməti ilə seçilirdi. “İlan yerisin balaları dalınca, içində də mənimkilər” - bunu dua kimi tez-tez təkrar edərdi. Məkkəni ziyarət edə bilməmişdi, amma atası Hacı Məmməd kişi, deyilənə görə, yeddi dəfə həccə getmişdi. Nənəmi çox sevirdim. O da məni çox sevirdi. Oruclıq ayında nənəmin öz orucunu açmaq vaxtına mən nəzarət edirdim; söhbət mənim orta məktəbdə

oxuduğum illərdən gedir. Adətim üzrə gecə keçənə kimi oxuyub-yazardım, Orucluq ayında isə bu sevimli zehni işi səhərə az qalmışa qədər davam edərdim ki, nənəmi sübh açılana yaxın oyada bilim və o, yemək yesin. Evimizdə nənəmdən başqa heç kim dindar deyildi. Din haqqında hər şeyi uşaqlıqda mən ondan eşitmişdim, mənim dinlə ilkin tanışlığım onun namazı, duaları, orucu və söhbətlərindən ibarət idi. Nə Quran oxumuşdum, nə hədis. Məktəbdə isə dünyəvi elmlər öyrədilir, onların içində də ateizm tərbiyəsi verilirdi. "Kim kimi yaratdı" adlı şeirimdə bu məsələyə toxunmuşam; aşağıda onun bir hissəsi gətirilir:

Allah özü xəlq eyləyib
Ən əziz bəndəsini-insanı
Quran-i Kərimi, Musanı, Isanı…
Imanı, ilahi dini -
Bunları mənə nənəm söyləyib
Çox istəyirdim onun xətrini...

O mələkdi, ülfəti qəlbimə doldu
Onun şığındığı tanrı
Mənim də allahım oldu,
Mən onun, nənəmin allahını sevdim.

Öncə nənəm mənə bir dünya yaratdı
Sonra gördüm həyat qəribə həyatdı.
Nədir həyat? Yaşadıqca duydum az-az
Anladım ki onu tam anlamaq olmaz.
Müdriklərsə...elə hey ortanı qatdı
Ortaya hey sual atdı:
Kim kimi yaratdı?

Sonralar "Ziyarət" adlı poema yazdım. Doğulduğum diyarı və sanki uşaqlığımı və keçmişi ziyarət edirəm - duyğusu ilə yazılan bu

lirik-epik əsərin də baş qəhrəmanı, belə demək olarsa, nənəm Zeynəbdir. Aşağıda həmin poemadan kiçik bir parça gətirilir:

Sübh tezdən, axşam çağı
Sakit dua oxumağı
Məndə min hiss oyadardı
O ətrafda, o dünyada
İmansızlıq ruhu vardı
Dərdi ki, açmazlar yada –
Dərdini göyə açardı...

Oruc, namaz, dəstəmazı
Yerindəydi, dəyişməzdi
Ruhu dolu sevgi, vüqar
Allahla oturub-durar
İnsanlarla deyişməzdi.
Dilindən heç vaxt düşməzdi
Allah, peyğəmbər kəlməsi.
Hələ getmir qulağımdan
"Bismillah, üssəməd..." səsi
O pıçıltı, o ruh, iman
Mənimlə dünyanı gəzdi...

Zülm gördü, cəfa çəkdi
Ayaq altında qalmadı.
Arzusu gözündə qaldı
İmanı zədə almadı.

Bir dəfə, 11-12 yaşım ola bilərdi, evimizin həyətində böyük şairimizin növbəti şeirini oxumaqla məşğuldum. Müəllimlər şeiri ucadan, səslə oxumağı tövsiyə edirdilər. Mən də çox dərindən düşünmədən, heç nəyi vecimə almadan, hətta bir az təntənə ilə şeiri oxuyurdum:

Nəbilərin,
allahların,
kralların,
şahların
Ölümünə qərar yazırıq!

Nəbi sözünün peyğəmbər mənası verdiyini o zaman bilirdim, ya yox – doğrusu bu yadımda deyil. Allahların ölümünə qərar vermək mənə qəribə gəlirdi, amma o zaman bu məsələni tam hiss etdiyimi də düşünmürəm. Sən demə nənəm şeiri-səsimi eşidirmiş. Çox pərt olmuşdu, "o nədir oxuyursan, Allaha, peyğəmbərə də elə deyərlərmi?". Mən şairin kim olduğunu dedim, şairi təriflədim. Nənəm "nə olsun ki, yaxşı şairdir, özünü-sözünü bilsin, küfr danışmasın, Allahla, peyğəmbərlə işi olmasın" dedi. Mən, əlbəttə o zaman bilməyərəkdən necə günah işlətdiyimi tam anlamamışdım, etiraf edirəm ki, vəziyyətdən necə çıxdığım da tam yadımda deyil. İndi, bu sətirləri yazarkən, nənəmin o mələk surətindən üzr istəməkdən və "eeh" deyə nəhayətsiz bir kədərlə içimi çəkməkdən başqa çarəm qalmır.

Sonralar din və onun tarixini öyrənməyə cəhd etdim. Ali məktəbdə "elmi ateizm" dərsi də keçdik; əlbəttə ki, bu dərsdən də mənə qalan din və onun tarixi haqqında fikirlər oldu. Qur`anı oxudum. Digər dini, tarixi, fəlsəfi fikirlərlə, əsərlərlə tanış oldum. Dəqiq elmlərdən fərqli olaraq təsdiq-oluna-bilməyən və təkzib-oluna-bilməyən ideya və nəzəriyyələrlə rastlaşdım. Bu dərkedilməzliyin fəlsəfədə araşdırma mövzusu olduğunu bildim (İ. Kant) və bu problem üzrə formal (riyazi) məntiqdə alınmış məşhur natamamlıq teoremləri ilə tanış oldum (K. Gödel). Bir elm adamı, riyaziyyatçı və təbiətşünas kimi, tarix və mənəviyyat fəlsəfəsini dərk etmək istəyən bir insan kimi öz mövqeyim əmələ gəldi. Vətən, dil və mədəniyyətlə yanaşı dinin də kimliyimizi müəyyən edən mühüm ünsür olduğunu anladım, dini öz şəxsimdə sitayiş və ibadətlə deyil, kimlik və mədəniyyətlə bağlı gördüm.

* * *

Dinin əsasında müşahidə-edilə-bilməyən fövqəlgüclərə sitayiş dayanır. Din öz prinsipləri, ənənəsi, mənəvi dəyərləri (yaxşı və pis, xeyir və şər), müqəddəsləri olan inanc və ibadət sistemidir. Din kainat, həyat, ölüm, yaradılış, ölümdənsonrakı həyat haqqında, əxlaq, davranış və yaşayış normaları haqqında təsəvvürlər küllisidir. Müqəddəslik və ilahilik dinin mühüm atributlarıdır, onlar din kənarında az gözə çarpan, özünə xüsusi yer tapmayan cazibə qüvvələridir. Dinin yaranmasında və ilkin yayılmasında başqalarını ilhamlandıra, ruhlandıra, arxasınca apara bilən, böyük təsir gücünə və müstəsna keyfiyyətlərə malik xarizmatik rəhbərlər - peyğəmbər və onun layiqli davamçıları əsas rol oynayır.

Yaxşı və pis nədir, onu kim müəyyən edir? Allahın nəyi yaxşı, nəyi pis saydığı barədə müqəddəs kitablar söz deyir. Təəssüf ki, təşkilatlanmış dinin öz içində xeyir və mərhəmətin işə keçmədiyi, gücsüz qaldığı hallar da çoxdur. Dildə sülhə və sevgiyə çağıran dinin tarixində çox zorakılıqlar olmuşdur, elə müqəddəs dini kitabların özləri də zorakılığı tam inkar etmirlər. Din tarixində dinlərarası savaşlar və münaqişələrlə yanaşı qardaşın qardaşla qarşıdurması da az deyil. 16-cı əsrdə Fransa və digər yerlərdə protestant-katolik, Bağdad xilafəti dövründə (və təəssüf ki, bu gün də arası kəsilməmiş) şiə-sünni qarşıdurması günahsız qanlar axmasına, böyük qırğınlara səbəb olub. Yaxın zamanlara nəzər salsaq, M. Qandini, Ənvər Sadatı, Yitzhak Rabini öz dindaşlarının qətlə yetirdiyi yada düşür.

Dini baxışlara görə əməllərində nisbətən azad olan insan öz azadlığı zamanı sanki təkəbbürlü və özünüsevər olub, Allahı bir qədər unudub günaha bata bilir. Allah bu nöqsanlarına görə insana və ya günah işlətmiş bütöv xalqa müxtəlif şəkildə bəla göndərib cəza verə bilər. İnsan düşünməli, doğru yola qayıtmalıdır, bu halda o, bağışlanmaq ümidi ilə yaşaya bilər. İnsan birinci həyatı hesab olunan ana bətnində günah işlətmək iqtidarında deyil. Deməli insanın əməlləri onun ikinci, yəni fiziki həyatında baş verir, bu əməllərin əsil qiymətini isə o, fiziki ölümdən sonrakı keçid dövrü (?!) bitdikdən sonra - qiyamət günündə alacaq. Yəni insan öz azadlığından necə istifadə etdiyinə görə axirətdə cavab verməli olacaq, əsl mükafatını və ya cəza-

sını alacaq. Hər halda, ölümsüzlük varsa, o, ölümdən sonra başlayır. Insan öz əməlləri ilə tək həzzi, bu dünyadakı şöhrəti təmin etmir, sürəkliliyi, ölümdən sonrakı həyatı da hazırlayır.

İnsan ölür. Deməli
Qalsa qalır əməli
Və əməldən hörülür
Dünyamızın təməli.

Din vəhyə, mütləq inanca və etiqada, "mənim sahəm, mənim meydanım" olan təbiət elmləri isə müşahidəyə, təcrübəyə, ölçüyə, məntiqə, rasional düşüncəyə, şübhəyə, sübuta əsaslanır. Dinə və insan təbiətinə, duyğular aləminə xas olan irrasionallığı da rasional düşüncə ilə dərk etməyə çalışırıq. Ayrı yol hələ icad olunmayıb! Tamlıq və bütövlük üçün rasionalla irrasionalın, məhdud olanla nəhayətsiz olanın, sonlu ilə sonsuzun, müəyyən olanla qeyri-müəyyənliyin birliyi zəruridir. Ruhi və cismani vəhdətin nəticəsidir həyat! Mahiyyətcə subyektiv olana və ya subyektivizmi çox yüksək olana, bu halda irrasionala rasionalın, idrakın cığırları ilə yaxınlaşırıq. Yollar, cığırlar çoxdur, irrasionalın istənilən qədər yaxınlığında sonsuz miqdarda rasional olan var. Bu da öz növbəsində hər hansı ölçüsüzlüyün, irrasionallığın və sonsuzluğun birqiymətli şəkildə dəyərləndirilməsini, obyektiv tam anlaşılmasını mümkünsüz edir. Yaradılış, başlanğıc kimi məsələlər idrakı zora salır. Nədir başlanğıc? Başlanğıcdan əvvəl nə olub? – ağıllı da, dəli də bu sualları verəcək...

Başlanğıc olubsa, söylə, o nədir,
Öncə kainatdır, ya düşüncədir?
Məhdud ağlımızla əbədiyyəti
Dərk edə bilmirik, iş çox incədir.

Rasional yolla müşahidə-oluna-bilməyən fövqəlqüdrətə sitayiş üzərində kök atan və vəhylə gəlmiş sayılan dinin bir çox təməl müddəalarını rasional düşüncə ilə dərk etmək cəhdi ciddi problemlərlə

üzləşir. Məsələn, İsa ilə bağlı olan hadisələr və Ata, Oğul və Müqəddəs ruhdan ibarət üçlüyün anlaşılması; və ya Allahın heç kimə, heç nəyə bənzəməyən dərkedilməz zatı ilə yanaşı Onun müqəddəs dini kitablarda maddi ünsürlər və insani sifətlərlə təqdim edilməsi, insan kimi hərəkət etməsi (yaradır, nəzarət edir, nəsihət verir, yada salır, sevir, mükafatlandırır, məhkəmə qurur, cəza verir...), xüsusi halda Onun zorakılıqdan çəkinməməsi; yaxud Allahın və İblisin yanaşı mövcudluğu. Qədim zamanlardan gələn və "Epikurus paradoksu" adlanan sonuncu problemin David Hume tərəfindən deyilişini yada salaq. Allahın fövqəlqüdrətli və xeyrxah olması ilə İblisin mövcudluğu bir-birinə uymur. Əgər Allah İblisi məhv etmək istəyir, amma bacarmırsa, deməli O, fövqəl qüdrətə malik deyil. Əgər Allah İblisi məhv etmək istəmirsə, deməli, O, xeyrxah deyil. Əgər Allah İblisi məhv etmək istəyirsə və bunu bacarırsa, onda niyə İblis mövcuddur? (və ya Allahın mövcudluğu sual altına alınır). "Üç sual" adlı şeirimiz də sanki bu sualla bağlıdır:

Birinci hansı bəxtəvər daddı
Güllərin bihuş edən ətrini?
Gülə nəfəs verənmi yaratdı
Bəşəri içindən yeyən kini?
İfadə caiz isə
Kim belə qüdrət veribdir İblisə?

Bəzi qədim xristian teoloqlar "Allah bizə nə dost, nə düşməndir" deyirdilər.

Müxtəlif ideologiyalar dinin daşıdığı missiyanı, vəzifəni müəyyən dərəcədə əvəz etməyə çalışmışlar. Filosoflar və digər mütəfəkkirlər tərəfindən çox fərziyyələr irəli sürülmüş, cəmiyyət modelləri yaradılmış, ideologiyaya çevrilməyən nəzəriyyələr sadəcə utopiya sayılmışlar. Böyük insan toplumunda tətbiqini tapan ideologiya xüsusi-"düzgün" həyat tərzi bəyan edir və həmin toplumu qətiyyətlə bu həyat tərzinə, əxlaq kodeksinə uyğunlaşmağa çağırır, yəni məcbur edir.

Həyata keçirilmiş ideologiyalardan biri (və ən güclüsü) olan Marksizmə görə din insanı sosial problemlərdən yayındıran, maddi olan dünyada insanlara xəyali bir inanc sistemi quran ziyankardır, “din xalq üçün tiryəkdir”. Kommunist ideologiyalı dövlətlər də, dinlər kimi, onları qəbul etməyənləri, onlara şübhə ilə yanaşanları təqib etmiş, əzmiş, məhv etmişlər. Din kimi Marksizm də əxlaq normaları işləyib hazırlamış, tarixin və insanlığın məqsədini və inkişaf yolunu elan etmiş, bu yolda təşkilati fəaliyyətə xüsusi yer ayırmışdı; kommunust partiyası dini qurumu, kilsəni, xəlifəliyi, Papalığı əvəz etmişdi. Kommunizmi, geniş mənada, bir din kimi təqdim edənlər var; universallığa iddialı bu din digər dinlərlə yola gedə bilməzdi, ona görə də ateizmi öz ideologiyasının təməlində yerləşdirmişdi.

* * *

Çağdaş cəmiyyətdə insanları birləşdirən və insanlara böyük təsir gücü olan ən böyük, ən geniş vüsət almış fəaliyyət növləri hansılardır? Üç böyük fəaliyyət şəbəkəsinin varlığı aydındır: təhsil, din və media-əyləncə. Demək olar ki, hər kəs, hər ailə müəyyən şəkildə təhsillə bağlıdır. Hər kəs televiziya, radio, qəzet, jurnal, internet kimi informasiya qaynaqları və əyləncə növlərindən istifadə edir. Allah, peyğəmbər, axirət, dini anlayış, dəyər və ibadətlər hər kəsin həyatında, sözündə-söhbətində bu və ya digər dərəcədə yer tutur. Bu üç şəbəkə bir-biri ilə də bağlıdır. Yazının və savadlılığın yayılmasında, təhsilin inkişafında din həlledici rol oynamışdır. İslam dünyasında məktəbləşmənin necə getdiyini, mədrəsələrin necə qurulduğunu yada salmaq kifayətdir. Təhsilin dinə təsiri olub, bu təsir indi də var və birqiymətli deyil. Elm şəbəkəsi də nüfuzludur, lakin onun əhatə dairəsi nisbətən kiçikdir. Elm və din arasındakı ziddiyyətlər bir tərəfdən onların fərqli təbiəti və öz problemlərinə yanaşma sistemi ilə bağlıdır, digər tərəfdən isə, bu qarşıdurmaların ən azı bir qismi şəxsi hakimiyyət və dini hakimiyyət uğrunda gedən mübarizədən qaynaqlanmışdır. Dinin siyasət və təhsilə birbaşa nüfuz etməsini dayandıran, dini siyasətdən ayıran Dünyəvilik (sekularlıq) isə 16-17-ci əsrlərdə Qərb dün-

yasında həddini aşan dini zorakılığa etirazın və həmçinin, elmi-texniki tərəqqinin nəticəsində baş tutdu.

Elm və texnologiya inkişaf etdikcə, sanki dinin təsir dairəsi daralmışdır. Elmin qüdrəti insanları heyran etmiş, elmə sitayiş edənlər çoxalmışdır. Allahın və peyğəmbərlərin deyil, elmin qüdrətinə inanc gətirənlər üçün elm sanki dini əvəz etmiş, elm özü sanki din rolunu oynamağa başlamışdır. Elmi bilik, idrak adlı fövqəlgücə inamı, elmə pərəstişi geniş mənada bir din kimi təsəvvür etmək mümkün və bəzi insanlara da təbii görünə bilər. A. Einsteynin sözləri fikrimizə qanad verir: "Allahın göndərdiyi mələk gəlib bunları [şöhrət, qazanc, fayda məqsədilə elmə gələnləri] elm məbədindən qovsa, məbəd faciəli şəkildə boşalacaq, seyrələcək, amma boş qalmayacaq [...] Mələyin əzizlədiyi və məbəddə qalan insanların əksəriyyəti qəribə, qapalı, tənhadırlar [...] Onları elmə və sənətə gətirən – əzabverici ağırlıq və ümidsiz boşluqla dolu olan gündəlik qayğılardan uzaqlaşmaq istəyidir, öz daim dəyişən tələb və şıltaqlıqlarından uzaqlaşmaq istəyidir [...] Onlar özlərinə sadə və aydın dünya mənzərəsi yaratmaq, yaşadıqları adi dünyanı öz yeni dünyaları ilə əvəz etməyə çalışırlar. Rəssam, şair, nəzəriyyələrlə baş sındıran filosof və təbiətşünas, hərə bir cür, bununla məşğuldur". Lakin, yuxarıda qeyd etdiyimiz kimi, elmin əhatə dairəsi din, media-əyləncə və təhsil qədər böyük deyil. Hərçənd ki, təhsil elmin inkişafına birbaşa təsir göstərir, amma bu təsir elmi təfəkkürün elliklə qələbəsinə gətirib çıxarmır. Ümumiyyətlə, nəyin az, zəif, nəyin çox, güclü olması mübahisəlidir. Elmi təfəkkür dərəcəsinə yüksəlməyən ağıl, rasional düşüncə, yəqin ki, bu və ya başqa dərəcədə, hamıya xasdır, ilahi olana sitayiş və etiqad isə bir sıra insanlarda zəif və ya yox dərəsində ola bilər..

Görünür ki, elm dini əvəz edə bilməyəcək, din yox olan deyil; insanların böyük qisminə inanmaq bilik qazanmaqdan daha asan və maraqlı gəlir, inanmaq elmi-tənqidi düşüncədən daha əlçatan, asanbaşa-düşülən və cazibəlidir. Gerçəklikdən xilas üçün xəyal etmək, ümid bəsləmək, gələcəyi öngörmək, proqnozlaşdırmaq istəyir insan. Din bu istəyə çatdıra bilir. Dinlər aradan qalxmadı və həmçinin, "universal din" yaranmadı. Qərarlı inanc sisteminə malik çox müxtəlif və

inkişaf etmiş mədəni cəmiyyətləri hansısa universal bir din yaratmaqla birləşdirmək fikri utopiyadan başqa bir şey deyil. Bunun əvəzinə ümumbəşəri dəyərlərdən, ədalətdən, humanizmdən danışmaq olar. Əslində universal din rolunu oynamağa əsas namizəd məhz elm ola bilərdi. Elmi təfəkkür, dünyagörüşü insanın formalaşmasında rol oynayır, şəxsin ləyaqət hissinə də təsir edir; elm həyat tərzini müəyyən edən mühüm amildir. Lakin elmin sitayiş etdiyi mütləq həqiqətdən kənarda da zənginlik və gözəllik var - poeziya, musiqi, incəsənət və bu sırada - möminlərin qəlbində yuva salan inam, fəzilət və ahəng!

Elmi düşüncənin çox əlçatan olmaması və kütləni arxasınca apara bilməməsi elmin dinə çevrilə bilməməsini, "elmi din"in daşıyıcılarının az saylı qalmasını şərtləndirir. Hans-Georg Gadamer **e**lmin daim isbat tələb etməsini onun xoşqılıqlı (tolerant) olmaması kimi şərh edirdi (xüsusilə dinə, fəlsəfə və dünyagörüşünə qarşı).

Dini təzyiq alətinə çevirmək, siyasiləşdirmək təhlükəli nəticələrə, təməl insan haqları və insan azadlığının ciddi surətdə məhdudlaşdırılmasına gətirib çıxara bilir. Çağdaş dünyanın çox böyük qismində din dövlətdən ayrılıb. Din əvvəllər ona xas olan siyasi və dövləti idarəetmə funksiyalarını itirib; o, daha cəza aparatı deyil (hərçənd ki, insanda qorxu hissinin olmasını vacib sayır). Din Galileo Galilei (Qaliley) ilə barışıb, lakin Darvini hələ tam qəbul etmək istəmir. Dinin ifrat təəssübkeşləri Əhdi-Ətiq, Qur`an və bəzi digər müqəddəs kitabları çağdaş elmi nailiyyətləri özündə əks etdirən elmi kitab kimi qələmə verməkdə israrlıdırlar. Elm və dinin fərqli sahələr olduğu, elmin əxlaq və mənəviyyat məsələlərində dinə, dinin sırf elmi məsələlərdə elmə ehtiram göstərməsi dinlə elm arasında sülhün, əməkdaşlığın əsası ola bilər; monopolist olmaq ətrafdakıların hörmət və rəğbətini qazanmaq işinə xeyir vermir. Bununla yanaşı dinin yaşayacaq, dinə ehtiyac var. Din insanın ümid bəslədiyi inamı və sığınmaq istədiyi fövqəlqüvvəni ona bəxş edə bilir, ilahi və müqəddəs olana sitayiş etmək imkanı yaradır. Din möminlərə onların ürəklərindən keçən xoşbəxt sonluğu vəd edir və ora gedən yolu göstərir. Mömin adam varlıq, mövcudluq şübhələrinə qapılmır, o, rahatdır.

Din sülhə və ədalətə çağırır, zəifə maddi və mənəvi kömək etməyi tövsiyə edir, güclünün zəifi bağışlamasını istəyir, pis əməllərdən çəkindirir, qorxudur, əxlaqı saflaşdırır. Bu çox yaxşıdır. Xüsusilə, iradəsi zəif olan insanlara, yolunu çaşanlara, tövbə etmək istəyənlərə din əlini uzadır, onların ayaq üstə qalxmasına kömək edir. Ümidsizlik, tənhalıq və ruh düşkünlüyü olan insanlar əyləncəyə, həzzə, hay-küyə can atırlar, bu halda din sadəliyə, mənəviyyata, sakitliyə səsləyən alternativ cazibə məkanı kimi ortaya çıxır.

Din ləyaqəti qorumağa, əldə olunan və mümkün olanla qane olmağa çağırır. Din mənəvi həzzi maddiyyətdən daha yüksək saymaqla insanların özlərini xoşbəxt hiss etmələrinə kömək edir –mən bu fikrin tərəfdarları sırasındayam. Dinlər haqqında görüşlər çox müxtəlif olsa da, qardaşlıq, bərabərlik, ədalət və mərhəmət hisslərinin müdafiəsində və davamlılığında dinlərin böyük rolu şəksizdir. Əlbəttə ki, İlahi qüdrətə sitayişlə, dini çərçivələrlə, məhdudiyyətlərlə yanaşı din içində insan ləyaqəti, insan əzəməti, insan dühası da unudulmamalıdır. Burada Allaha müraciət edən Məhəmməd İqbal yada düşür:

Məhəmməd də sənin, Cəbrail də sənin, Quran da sənin
Lakin müəllifi mənəmmi, sənsənmi bu şirin sözlərin?!

* * *

Azərbaycan oxucularına İranlı müəllif Hüseyn Tövfiqi`nin "Böyük dinlərlə tanışlıq" kitabını təqdim edirik. Əsər öz məzmun və şərhləri ilə bu sahədə Azərbaycan oxucularına məlum olan kitab və digər qaynaqlardan fərqlənir, onun Azərbaycan türkcəsinə tərcümə üçün seçilməsi də məhz bu xüsusiyyəti ilə bağlıdır.

"Böyük dinlərlə tanışlıq" kitabı həcmcə bir-birinə yaxın və mövzu baxımından təbii ardıcıllığa malik dörd hissədən ibarətdir. Birinci hissədə din haqqında ümumi məlumat verilir, qədim dünyanın dinləri və Hindistan, Çin, Yaponiya xalqlarının dinləri haqqında danışılır. Ikinci hissə yəhudiliyə, üçüncü-xristianlığa və nəhayət, dördüncü hissə İslam və onun digər dinlərlə müqayisəsinə həsr olunmuşdur.

Dini anlayışların tərifi, dinlərin təsnifatı və ya qruplaşdırılması kimi məsələlər çox müxtəlif təbiətə malik subyektlər haqqında ümumiləşmiş rəy tələb edir və bu, ilk baxışdan göründüyü qədər sadə deyil. Məsələn, müəllif dini mənsubiyyətin hansı əlamətlərə görə müəyyən edilməsi məsələsinə xas olan qeyri-müəyyənliyə diqqət yetirir. Zənnimcə, bu və ya digər dinə mənsub olma bu dinə hansı şəkildə isə inananların və ya möminlərin sayı ilə müəyyən edilmir; bütün insanların dinə inanma dərəcələrini təyin etmək çox ağır iş olardı. hər hansı dinə mənsub olmanın tərifi az-çox dəqiq ölçülə bilən "tarixi-mədəni yanaşma" ilə verilə bilər. Məsələn, müsəlman deyəndə tarixən islam mədəniyyətinə aid edilmiş, müsəlman sayılmış xalqın nümayəndələri başa düşülür. Əgər müsəlman sayılan bir kəs rəsmi olaraq başqa dinə keçibsə, o, artıq müsəlmanların deyil, keçdiyi yeni dinin nümayəndələri sırasında hesaba alınır. Həmçinin, tarixi-mədəni baxımdan müsəlman və ya xristian sayılanların heç də hamısı dindar, mömin deyillər, ibadətlə məşğul olmurlar, onlar içində ateistlər də var (çox zaman bunu xüsusi bəyan etməyən). Bəzi tədqiqatçılar dünya əhalisinin təqribən beşdə birinin ateist olduğunu iddia edirlər.

Təqdim etdiyimiz kitabda təbiətə sitayişlə bağlı olan ibtidai dinlər və qədim dünyanın dinləri – Misir və Babilistanda, Yunan və Romada, ərəb dünyasında və əlbəttə ki, qədim İran və onun təsirində olan ölkələrdə mövcud olmuş dinlər (Zərdüştlük, Manilik, Məzdəkizm...) diqqətlə və yığcam şəkildə təqdim edilmişdir. Allahlar panteonu, bütpərəstlik, xeir və şərin mübarizəsi kimi prinsiplər üzərində qurulmuş müxtəlif qədim dinlərin öyrənilməsi bəşər tarixinin mühüm hissəsini təşkil edir.

Qədim dünyanın Hindistan, Çin, Yaponiya kimi böyük xalqlarının və onların təsir dairəsində yaşayan xalqlarının dinləri fəlsəfi dinlər, fəlsəfi təbiətli dünyagörüşü kimi təqdim oluna bilər. Kitabın Hindistan dinlərinə aid hissəsini oxuyarkən dil, tarix, din, çağdaş həyat və mədəniyyət baxımından çox rəngarəng, hər çalara malik Hindistana növbəti bir səfərimdə yazılmış bir miniatür (və onu oxucular üçün şərh edən cümlə) yadıma düşdü:

Biri quran, biri yıxan, biri qoruyan[1]
Allahların diyarında qaldım bir zaman.
Qurmaqdan məmnun olmuşam, yıxmaqdan uzaq
Qorumaq nə ağır dərdmiş, bərk dur, ay aman!

Din tarixinə və ya dinlərlə tanışlığa həsr olunmuş hər hansı kitabda Tövhidi, İbrahimi dinlər və ya Vəhy dinləri kimi tanıdılan Yəhudilik, Xristianlıq və İslam üçlüyü mərkəzi yer tutur; Hüseyn Tövfiqi`nin "Böyük dinlərlə tanışlıq" kitabı da bu mənada istisna təşkil etmir. Yəhudiliyə aid fəsildə yaranışdan, əsas peyğəmbərlərdən başlamış çağdaş İsrail dövlətinin qısa yaranma tarixinə qədər dövr əhatə olunur. Kitab (bunu bölgəmizi yaxşı tanıyan oxucular təxmin edə bilər) İsrail dövlətinə xüsusi məhəbbətlə seçilmir. Əhdi-ətiq kitablarının, o cümlədən tarixi (ilk beş kitab-Tövrat daxil olmaqla) kitabların, hikmət, minacat, dua və şeir kitablarının (Davudun "Zəbur"u, Əyyubun və Süleymanın kitabları daxil olmaqla) və nəhayət, peyğəmbərlərin gələcəyi xəbər verdikləri kitabların qısa məzmunu və şərhi verilmişdir. Müəllif, həmçinin, Tövratın təfsiri sayılan Təlmud, o cümlədən məad - qiyamət günündə dirilmə hadisəsi, dini ehkamlar, müxtəlif firqələr-təriqətlər haqqında məlumatlarla Yəhudilik fəslini dolğun etməyə çalışıb.

Kitabın maraqlı hissələrindən biri xristianlığa, İsanın şəxsiyyəti, əməli və ardıcıllarına həsr olunmşdur. Müəllifin şərhində İsa inqilabçıdır. 12 elçi-həvarilərin və xristianlığın memarı sayılan Pavlosun (Azərbaycanda rus dilinin təsiri ilə Müqəddəs Pavel deyirlər) fəaliyyətinə xüsusi diqqət verilmişdir; Pavlosun qüdrət sahibləri qarşısında xristianları itaətə çağırması sanki İsanın inqilabi ruhuna tərs gəlir. Kitabda kilsənin get-gedə güclənd ikcə siyasətə daha çox qarışması və Papalıq siyasətinə də yer ayrılıb. Xristianlığın əsas kitabı sayılan Əhdi-Cədidin, o cümlədən İncilin (ilk dörd kitab) qısa məzmunu, xristian adət və mərasimləri, kilsədə (xristianlıqda) yaranmış firqələr

[1] Hindistanda yazılıb. Hindi allahlar panteonunda əsas yerləri tutan Brahma (tək işi dünyanı yaratmaq olub), Şiva (rəqs edən, yıxıb-dağıdan allah) və Vişnu (yarananı qoruyan) adlı allahlara işarədir.

və kilsə islahatları da xristianlıq haqqında yığcam məlumat almaq istəyənlərə maraqlı və faydalı olacaq.

Kitabın sonuncu fəsli İslam və onun digər dinlərlə müqayisəli təhlilinə həsr olunmuşdur. Bu fəsil, ilk baxışdan zəruri kimi görünən, İslamın əsasları və ya İslam dininə girişdən ibarət deyil; görünür ki, müəllif öz kitabını İslamın əsaslarını bilən oxucular üçün nəzərdə tutmuşdur. Burada, əsasən, üç İbrahimi dinlər arasında mövcud olan oxşarlıqlar, əlaqələr və münasibətlərə baxılır. Allah və peyğəmbərlik, din, dövlət və siyasət məsələləri müzakirə olunur. Dünyanın sonu və xilas, doğruçu və yalançı xilaskarlar haqqında məlumat verilir; Dəccal məsələsinin şərhi, zənnimcə, subyektiv xarakter daşıyır. Məişət və ailə məsələlərinin, dini adət və ehkamların müqayisəli təsvirinə də xüsusi yer ayrılmışdır. Allah və onun tanınması məsələsi, istər-istəməz, antropomorfik müqayisələrə, maddi ünsürlərə, Allahın insanı sifətlərinə gətirib çıxarır. Təsvir edənin insan olduğunu və təsvirin insanlar üçün olduğunu, insanların ilahi söz sahibi olmadıqlarını nəzərə alsaq, Allahın tanınması sanki metafizika məsələsinə gəlib çıxır, maddi məna ilə məcazi məna arasında şərhlərə yol açılır. Din və irfan, sufizm və ariflər haqqında qısa məlumat verilir. Müqəddəs və səmavi kitabların müəllifləri və mötəbərliyi, tərcümə, təfsir, təvil (hermenevtika) kimi anlama, qavrama üsulları haqqında söhbət misallarla müşayiət olunsaydı, məna və məzmun, yəqin ki, daha aydın açılar, məsələ və hadisələrə nüfuz daha şəffaf olardı.

Müzakirə etdiyimiz bu sonuncu fəsildə digər İbrahimi dinlərin İslamla müqayisədə tənqidinə mühüm yer ayrılmışdır. Təəssübkeş müsəlman bir sıra hallarda alimi üstələyir, hər halda, mənə belə gəldi; az qala hər məsələdə İslamın üstünlüyünü nümayiş etdirmək səyi aydın görünür. Müəllif kitabın birinci hissəsində tərəfsiz, obyektivdir, sonra buna cəhd etsə də, İslam baxışı üstün gəlir; az olsa da, şiə baxışı da görünür. Böyük dinlərin təsviri və təhlilində, bu yolda qarşıya çıxan metafiziki problemlərin şərhində din ilə eyni anadan süd əmən fəlsəfəyə (İbn Rüşd) müraciət edilməsi arzu olunur. "Böyük dinlərlə tanışlıq" kitabı müəllifinin də bu fikirdə olduğu güman edilə bilər (kitabında din fəlsəfəsini təhlilə xüsusi cəlb etməsə də). Sadəcə, tanışlıq

xarakteri daşıyan kitabın məzmun və həcm məhdudiyyətləri olduğunu da unutmaq olmaz.

Bu kitabın Azərbaycan türkcəsinə tərcüməsi və nəşri Xəzər universiteti və İranın SƏMT –Humanitar Elmlər üzrə Universitet dərsliklərinin Tədqiqi və Tərtibi Təşkilatı (Səazman-i-Motale`i və Tədvin-i-kotob-i-insani-i-daneşgah ha) arasındakı əməkdaşlığa borcludur. 1985-ci ildə təsis edilmiş SƏMT elmi kitabların, universitet dərslikləri və dərs vəsaitlərinin tərtibi, nəşri, tərcüməsi ilə yanaşı müəyyən elmi-tədqiqat və təşkilati işlərlə də məşğul olur, ayrı-ayrı tədqiqatçı, müəllif və təşkilatlara dəstək verir. SƏMT-in fəaliyyət göstərdiyi dillər arasında fars, ingilis, rus və Azərbaycan türkcəsi seçilir. SƏMT-in möhtərəm sədri Höcətülislam Dr. Əhməd Əhmədi və müavinləri ilə Bakıda və Tehranda görüşlərimiz, müzakirə və təhlillərimiz nəticəsində əməkdaşlıq etməyi, Azərbaycan türkcəsi və farscadan bir-birinə kitab tərcüməsi və nəşri işinə başlamağı qərara aldıq. Bakıda İran Mədəniyyət Mərkəzinin sədri İbrahim Nuri də bu işə xeyrxah münasibətini əsirgəmədi. Onlara təşəkkür edirəm.

Farscadan Azərbaycan türkcəsinə tərcüməsi və nəşrə hazırlıq zamanı bir sıra çətinliklərin aradan qaldırılmasında, ilkin tərcümə mətninin təshih edilməsində tərcüməçi - Xəzər universiteti Şərq dilləri və dinşünaslıq departmentinin müəllimi Dr. Rüstəm Lazımov, adı çəkilən departmentin müdiri Elnurə Əzizova mənə kömək etdilər. Çox sağ olsunlar. Redaktə işi də asan olmadı. Vaxt məhdudiyyəti olmasa, tərcümə mətni daha mükəmməl ola bilərdi. Mümkün xətalara görə əvvəlcədən üzr istəyirik. İstənilən halda Hüseyn Tövfiqi`nin "Böyük dinlərlə tanışlıq" kitabı Azərbaycan türkcəsində yeni həyata başlayır; oxuculara faydalı olacağını düşünürəm.

***Hamlet İsaxanlı***

# 1. Külliyat

## 1. Din, məzhəb, millət və şəriətin tərifi:

Elmin inkişafı ilə dünyadakı heç bir fenomenə tam və dolğun tərif vermənin mümkün olmaması aydınlaşıb. Tərif hərtərəfli və mənalı olmalıdır. Yəni, bütün sahələri əhatə edə və bütün yad məfhumları özündən uzaqlaşdıra bilməlidir. Qədimdə hərtərəfli və mənalı tərif verilməsinin mümkün olması bildirilirdi, amma hal-hazırda bütün aspektləri özündə cəmləşdirə bilən kompleks tərifin verilməsinin mümkün olmaması məlum olmuşdur. Yəni, tərif məsələlərin yalnız bəzi sahələrini özündə əks etdirmək bacarığına malikdir.

Bəzi mövzulara tərif vermək asan olsa da, bəzilərinə tərif vermək olduqca çətin olur. Hər bir dində mövcud olan kəlam elminə istinadə həmin elmlərə tərif vermək asan olur, amma həmin tərif dinlərin müxtəlifliyi baxımından bütün dinlərə şamil edilə bilmir və məsələnin nə dərəcədə çətin olması məlum olur.

Alimlər dinlər barəsində tərif vermək üçün onların müştərək cəhətləri ətrafında araşdırmalar aparmışlar, amma onların bu səyləri heç bir nəticə vermədən başa çatmışdır. Elə bu səbəbdən də, dinlə bağlı səksəndən artıq təriflər verilmişdir, amma onların heç birisini tam və dolğun adlandırmaq olmaz. Məsələn; dinə "Allahın varlığına inam və

bu iman qanunlarına itaət etmək" kimi tərif verilməsi Buddism dini qanunları və şəriətilə üst-üstə düşmür.[1] Bəzilərinin verdiyi tərifə əsasən isə "Din, müqəddəs əmrə inanmaq və etiqadlı olmaq" mənasındadır. Bəzi insanlar isə ilahi varlıqlara iman kimi tərif etməyə çalışmışlar. Başqa bir dəstə alim belə bir iddia ilə çıxış etmişlər ki, "Din itaət və ibadətə layiq bir və ya bir neçə fövqəlbəşər və ilahi varlığa imandır!"

Keçmişdə məzhəb hər hansı bir dinin daxilində mövcud olan düşüncə məktəblərinə şamil edilirdi. (Məsələn: İslam fiqhinin dörd dənəli və beş dənəli məzhəbləri). Qərb ölkələrində "Religion" sözü həm məzhəb, həm də din mənasında istifadə olunur və təxminən yarım əsrə yaxındır ki, İranda da "Məzhəb" sözünü hər iki mənada istifadə olunmasına başlanılıb.

Millət sözünün lüğəvi mənası üslub, metod və adətdir. Amma terminoloji baxımdan tövhidə əsaslanan dinlərin kompleksi mənasını daşıyır. İslami kəlam elmində tövhidə əsaslanan dinlərin davamçılarını "Milliyin" adlandırırlar. Kitab əhlindən bir nəfəri öncə İslam dinini qəbul edib sonra dindən çıxdıqdan sonra "Mürtədi milli" adlandırılır. (Bəzi vaxtlar qeyri-tövhidi dinlərin davamçılarını "Məarif əshabı" adlandırırdılar). Bunu da qeyd etmək lazımdır ki, İslam alimləri "Millət" sözünü İslam dini üçün ixtisaslaşdırıblar. Təxminən bir əsrə yaxın vaxtdır ki "Millət" sözü dilimizdə bir ölkə xalqının toplusuna şamil edilməyə başlanılıb. Böyük ehtimallara əsasən millət sözünün belə istifadəsi Türkiyədən İrana gəlmişdir.

Şəriət adətən əhkam və səmavi qanunlar mənasında işlənilir və bəzən də din mənasını verir.

---

[1] Budda Allahdan və Allaha sitayişdən söz açmamışdır. Buddismin heç bir firqəsi Allahın varlığına və mövcudluğuna inanmır. Bu məzhəbin çoxlu sayda müxtəlif Allahları sonralar yalnız Buddismə ibadət məqsədilə meydana çıxmışdır.

## 2. “Din” yaxud “Dinlər”

Bəzən belə deyilir ki, biz müsəlmanlar Qurani Kərimə istinadən “Din” sözünü cəm formasında istifadə etməməliyik. Belə ki, İslam din sözünün cəmi olan “Ədyan”, yəni dinlər sözünü qəbul etmir. Amma bilməliyik ki, Qurani Kərimdə din sözünün cəm şəkilçisi qəbul etməməsi həmin kitabın davamçıları üçün heç bir öhdəlik yaratmır. Bunun bir neçə səbəbi var:

1. Qurani Kərimdə “Nur” sözü həmişə tək və “Zulumat” sözü daim cəm formasında qeyd olunmuşdur, amma onların belə istifadəsi müsəlmanların üzərinə öhdəlik qoymamışdır.
2. Qurani Kərim özü dinlərin sayına və müxtəlifliyinə işarə edərək kafirlərə belə buyurmuşdur: “**لكم دينكم و لى دين**” (Kafirun surəsi, ayə 6)
3. Din sözünün “ədyan”, yəni dinlər formasında cəm bağlanması İslam dinin böyük alimlərinin kitablarında da gözə çarpır.
4. Dinlər elmində dinin vəhdətinə və birliyinə diqqət yetirilmir və insan dünya xalqlarının müxtəlif etiqadlara qulluq etməsini nümayiş etdirmək üçün din sözünü cəm şəklində istifadə etmək məcburiyyətindədir.

Bu səbəbdən də, əlimizdəki kitabda istifadə olunan “Din” və yaxud “Dinlər” sözü düzgünlüyündən və səhvliyindən asılı olmayaraq bütün etiqadlar barəsində istifadə edilir. Yəni barəsində danışacağımız dinlərin haqq ya batil olması nəzərdə tutulmur.

## 3. Din Sosiologiyada

Əgər dinin tibb ilə müqayisə etsək belə bir nəticəyə çatarıq ki, din ictimai məsələ, tibb isə fərdi məsələdir. Amma fərd ilə cəmiyyət arasında möhkəm bağlılıqların mövcud olmasını nəzərə alsaq hər fərdi mövzunu ictimai mövzu ilə və hər bir ictimai mövzunu fərdi möv-

zu ilə əlaqələndirə bilərik. Sosioloqlar dini ictimai qurum kimi tanıyır və bu səbəbdən də, onun barəsində söz açır. Amma, tibb belə deyil və sosioloqların tibb elmi ilə heç bir əlaqəsi yoxdur.

Sosioloqların din bəhsinə müraciət etmələri elmi əsaslara söykənən bir addımdır. Qədim zamanlarda elmin müxtəlif sahələrini fövqəltəbii məsələlərlə əlaqələndirirdilər. Orta əsrlərin sonlarından qərb ölkələrində fövqəltəbii məsələlər elmi araşdırma işlərindən uzaqlaşdırıldı və bu metod dünyanın müxtəlif ölkələrində həyata keçirilməyə başladı.

Elə buna görə də, sosioloqların din barədə söhbətlərində onun səmavi cəhətlərinə müraciət edilməməsi, insanın öz məişət ehtiyaclarını ödəmək üçün onun insanın zehni tərəfindən yaradılması və cadugərliyin inkişaf etmiş forması kimi qəbul etmələri təəccübləndirici hal deyildir. Çünki, elmi baxışlar bütün məsələlərə səmavi və ruhanı baxışları nəzərə almadan açıqlamaq və aydınlıq gətirməyə çalışır.

Sosioloqların nəzərincə din ilkin mərhələlərində ibtidai cadugərliyə çox bənzəyir. Belə ki, həm cadugər, həm də dindar müxtəlif yollardan istifadə etməklə varlığın müxtəlif sahələrində özlərinə qarşı mehribanlıq yaratmaq və öz asayişlərini təmin etmək istəyirlər.

## 4. Dinin mərhələləri

Din digər fenomenlər kimi təkamül yolunda inkişaf etməkdədir və alimlər müxtəlif dinlərin davamçıları kimi bu nəzərlə razıdırlar. Yalnız bir sahədə onların nəzərləri arasında fərq gözə çarpır və o da bundan ibarətdir ki, dindarlar dini insanı təkamülə doğru inkişaf etdirən fenomen kimi qəbul edirlər. Amma, alimlərin nəzərincə din cadugərlikdən, təbiətə pərəstişdən və müşriklikdən tövhid və tək Allahlılıq mərhələsinə çatmışdır. Hal-hazırda da, dünyanın bir çox bölgələrində ilk yaranmış dinlərin ilkin formaları qalmaqdadır və tədqiqatçılar dinin meydana çıxması və təkamülü barəsində araşdırma qeyd

olunmş məsələləri diqqət mərkəzində saxlayırlar. Dinlər sahəsində çalışan və tədqiqat aparan alimlərin apardığı tədqiqatlar və əldə etdikləri nəticələr bütün din alimləri tərəfindən qəbul edilmir.

## 5. Dinlər barəsindəki elmin faydası

Hər bir mövzu barəsində tədqiqat və araşdırmaların aparılmasında ilkin məqsəd insanların belə məsələlərə maraqlı olmasından irəli gəlir. Elə bu səbəbdən də, alimlər müxtəlif fenomenlər barəsində araşdırma və tədqiqat apardıqda maddi cəhətləri və ümumiyyətlə bütün maddi mənfəətləri nəzərə almırlar. Yalnız tədqiqatların nəticə verməsindən sonra məsələnin maddi tərəfləri göz qabağına gəlir. Dövlətlərin isə belə məsələləri, yəni bütün tədqiqat və araşdırmaları dəstəkləməkdə yeganə məqsədləri maddi nəticə və gəlir əldə etməkdir. Qeyd etmək lazımdır ki, alimlər böyük sevgi və həyəcanla tədqiqat və araşdırma işlərinə başlamalarına baxmayaraq özləri də araşdırmalarının nəticə verəcəyindən xəbərsizdirlər.

Dinlər elmi barəsində tədqiqat aparan şəxslərdən bəzilərinin istəyi humanitar elmlərin digər fakultələrinin də bu elmi kəşflərdən istifadə etməsidir. Çünki, humanitar elmlər bölümündə mövcud olan fakultə və ixtisaslar arasında bağlılıq mövcuddur və bu bağlılıq oxşar ixtisaslarda daha güclü şəkildə nəzərə çarpır. Din insandan heç bir zaman ayrı olmayan fenomen kimi tədqiqatçılar üçün olduqca əhəmiyyət kəsb edən məsələlərdən biridir. Bununla da, dinin bəşəriyyətin formalaşmasında, elm və incəsənətin çiçəklənməsində göstərdiyi ecazkar təsiri meydana çıxır.

Dinlər elmi barəsində tədqiqat və araşdırma aparmanın digər bir faydası da müxtəlif insanlar və cəmiyyətlər arasında əlaqələrin qurulmasında böyük təsirə malik olmasıdır. Elə bu səbəbdən də, böyük dövlətlər kiçik dövlətlər üzərindəki hakimiyyətlərini saxlamaq və daha da gücləndirmək üçün şərqşünaslara müraciət edir, onların

müxtəlif xalqların milli ruhları və inancları barəsindəki dəyərli biliklərindən istifadə edirlər.

Dinlər elmi barəsində aparılan araşdırmaların dindarlar üçün də faydası çoxdur və bu onların dini inanclarını daha da dərinləşdirir. Onlar öz bəhslərində rəqib dinlərin müəmmalı baxışlarının səbəbini axtarırlar və öz dinlərinin düzgünlüyünü onlara sübut etməyə çalışırlar. Eləcə də, bu elm sayəsində xalqların dini inam və etiqadlarının düzgün başa düşülməsi mümkünləşir. Yalnız bundan sonra onlara düzgün yolu nümayiş etdirmək, həmin dinlərin çatışmayan cəhətlərini anlamaq mümkündür.

## 6. Dinlərin qruplara bölünməsi

Dinləri müxtəlif cəhətlərinə görə qruplaşdırmaq olar:

- İbtidai dinlər (İbtidai insanlar arasında mövcud olan dinlər kimi), Qədim dinlər (Yaxın şərqdə mövcud olmuş və hal-hazırda mövcud olmayan dinlər kimi), İnkişaf etmiş dinlər (hal-hazırda mövcud olan böyük dinlər)
- Sadə dinlər (Animizm, Totemizm və Fetişizm kimi), Fəlsəfi dinlər (Hiduizm, Buddizm və Konfusizm kimi), İlahi və Ruhani dinlər (Zərdüştlük, Yəhudilik, Xristyanlıq və İslam kimi)
- Qeyri-Tövhidi dinlər (Hinduizm, Buddizm və Sintoizm), Tövhidi dinlər (Yəhudilik, Xristyanlıq və İslam)
- Sam qövmünə və Həzrət İbrahimə (ə) bağlanan dinlər (Yəhudilik, Xristyanlıq və İslam), Aryayi dinlər (Qədim İran, Hindistan, Roma və Yunanıstan dinləri), Uzaq şərq dinləri (Konfusizm, tatuizm və Sintoizm kimi)
- Şərq dinləri (Hinduizm, Buddizm və Sintoizm kimi), Qərb dinləri (Yəhudilik, Xristyanlıq və İslam kimi)

Dinlərin qeyd etdiyimiz qrup və dəstələrə bölünmələrindən əlavə müxtəlif fərqli bölgüləri də mövcuddur və onların hamısı dinşünaslıq mənbələrində qeyd olunmuşdur.

## 7. Dinlərin dərəcələrə bölünməsi

Dinlər arasındakı fərqləri müxtləf aspektlərdən araşdırmaq mümkündür və əldə etdiyimiz dəlillər bir dinin imtiyaz qazanması ilə nəticələnə bilər.

1. Bəzi dinlərə inanan insanların sayı olduqca çoxdur və bu həmin dinlər üçün böyük imtiyazdır. Bütün dinlərin dinin davamçılarının dəqiq sayları barəsində əsaslı statistik məlumatlar əldə etmək mümkün deyil. Çünki, (birincisi) hər bir dində həmin dinə bağlı olan iki növ dəstə mövcuddur. Bəziləri yalnız ad cəhətdən həmin dinə bağlıdır və onların üzərindəki yalnız həmin dinin adıdır. Bəziləri isə, rəsmi olaraq həmin dinin davamçılarındandır. Statıstık məlumatların bu iki dəstədən hansına istinadən verilməsi hələ məlum deyildir və müəyyən edilməmişdir. Yəni müəllifin vurğuladığı kimi sözdə inananların sayı əsas götürülür. (İkinci) Hal-hazırda din barəsində statistik məlumat toplayan şəxslərin əksər sualları əqidələr barəsində təftiş kimi dəyərləndirildiyi üçün bir çox insanlar həmin suallara cavab verməkdən boyun qaçırırlar. (Üçüncü) Bütün dinlər və yaxud onların bəzisi dünyanın bəzi yerlərində qadağan olunub və statistik məlumat toplanılanda həmin dinlər barəsində sual vermək olmur.

2. Dinlərin bəzisi dəvət və təbliğat işləri aparmaqdadır

3. Bəzi dinlər mədəni, tarixi, siyasi, ictimai, elmi, iqtisadi və hərbi cəhətlərdən daha inkişaf etmiş ölkələrə aiddir. İslam və xristyanlıq dinləri digər dinlərdən daha çox geniş əhatə dairəsinə malikdir. İslam dini coğrafi mövqeyinə və İslam ölkələrinin enerji ehtiyatlarına görə və xristyanlıq inkişaf etmiş qərb ölkələrinin rəsmi dini olmasına görə başqa dinlərdən daha çox tanınmışdır və geniş ərazini

əhatə etmişdir. Qeyd etmək lazımdır ki, dinin tanınmış olması onun düzgün olması anlamını daşımır və qərblilər inkişaflarının əksər hissəsini xristianlıqdan uzaqlaşdıqdan sonra əldə etmişlər.

## 8. Yerli və yerli olmayan dinlər

Dünyada mövcud olan dinlərin bəziləri yerli və bəziləri isə yerli deyillər. Hiduizm, Caynizm, Sikhizm Hindistan xalqının yerli dinləridir. Amma Hindistanda yaranmış, sonralar Çinə, Yaponiyaya və cənubi şərqi Asiyaya qədər yayılmış Buddizm isə bu ölkə xalqı üçün yerli din sayılmır. Zərdüştlük dini İranlılar üçün yerli dindir. (Zərdüştlüyün bir hissəsi zərdüştlərlə birlikdə Hindistana aparılmışdır). Yəhudilik dini İsrail övladları vasitəsilə dünyada yerini davamlı olaraq dəyişmişdir və hal-hazırda da onun bir hissəsi işğal edilmiş Fələstin torpaqlarındadır. Xristianlıq heç bir xalq üçün yerli din kimi qəbul edilmir və yalnız yarandığı ilk illərdə bir neçə xalqa aid olmuşdur. İslam dini Ərəbistan xalqı üçün yerli dindir, amma İran, İraq, Şam, Misir, Liviya, Tunis, Əlcəzair, Mərakeş, Mavritaniya, Sudan, Efiyopiya, Somali, Orta Asiya, Türkiyə, Azərbaycan, Əfqanıstan, Pakistan, Hindistan, Banqladeş, Malaziya, İndoneziya və onlarla digər ölkələr üçün isə yerli din deyildir.

## 9. Dindarlığın hal-hazırki vəziyyəti

Bir neçə on illik bundan öncə mütəfəkkirlərin böyük əksəriyyəti dinlərin məhv olacağı yuxusunu görürdülər, amma bu yuxu həqiqətə çevrilmədi və dünya xalqlarının əksəriyyətinin mənəviyyatlarına qayıtması kimi proqnoz verilməmiş bir hərəkat dünyanı heyrətləndirdi. Bu dinə qayıtma dalğası dünyanın şərq və qərb regionlarında fərqli şəkildə zahir oldu. Bir çox regionlarda, xüsusən  qərb ölkələrində mə-

nəviyyata və irfana qayıdış olduğu halda şərq regionlarında yerli dinlərin və təəssübkeşliklərin güclənməsi meydana çıxdı. Dinin və xalqın milli mentalitetini qorumaq üçün təəssübkeşlik faktorunun böyük rol oynamasına baxmayaraq, qeyd etmək lazımdır ki, bizim yaşadığımız zaman qarşılıqlı əlaqələr əsridir və inteqrasiya hamımızın həyatında başlıca rol oynayır.

Elə bu səbəbdən də, dünyanın bütün nöqtələrində dinin yayılması və genişləndirilməsi məsələləri gözə çarpır, müxtəlif dinlər sülh və əminamanlıq iddialarını irəli sürməklə digər dinləri geridə qoymağa çalışırlar. Dinlər və məzhəblər barəsində aparılan tədqiqat və araşdırma işləri geniş vüsət almış, insanların bir əksəriyyəti də dinlər arasında mövcud olan bağlılıqları və oxşar cəhətləri axtarmağa başlamışlar.

## 10. Hər şey və heçnə

"Bizim dinimizdə olan hər bir şey başqa dinlərdə də vardır və digər dinlərdə bizim dinimizdə olan şeylərdən əlavə bir şey yoxdur!" Bu paradoksal tərifin mənası budur ki, bütün dinlərin irəli sürdükləri məsələlər eynidir və onların aralarında olan ixtilaflar və fikir ayrılıqları olduqca cüzidir.

**Mənbə**


1. İlliyada, Mirça, "Əfsanə, yuxu və sirr", tərcüməçi: Röya Münəccim Tehran 2006
2. İlliyada, Mirça, "Dinlər tarixi barəsindəki tezis", Tərcüməçi: Cəlal Səttari, Tehran 2003
3. İlliyada, Mirça, "Din və mədəniyyət", tərcüməçilər heyəti, Tehran 2005
4. Hikmət, Əli Əsğər, Dinlər tarixi, Tehran 1966
5. Zərrinkub, Əbdülhüseyn, "Vixdan barəsində", Tehran 1978

6. Krişnan, Rada, “Şərq dinləri və qərb təfəkkürü”, Tərcüməçi: Şəfəq Rzazadə, Tehran 1965
7. Krişnan, Rada, “Şərqdə və qərbdə məzhəb anlayışı, Tərcüməçi: Fridun Qorqani, Tehran 1965
8. Qir, Cozef, “Dinlərin fəlsəfəsi”, Tərcüməçi: Muhəmməd Hicazi, Tehran 1958
9. Qir, Cozef, “Böyük dinlərin tarixi”, Tərcüməçi: İrəc Pezeşkniya, Tehran 1971
10. Mustəfəvi, Əli Əsğər, “Qurbanlıq əfsanəsi”, Tehran 1990
11. Nas, Con. B, “Dinlərin ümumi tarixi”, Tərcüməçi: Əli Əsğər Hikmət, Tehran 1991
12. Sharma, Arvind (ed), “Our Religions”, New York: 1993

# 2. İbtidai dinlər

## 1. İbtidai insanların dini

Humanitar elmlər sahəsində araşdırma işləri aparan tədqiqatçıların nəzərincə din barəsində mövcud olan ilk nümunələr təbiətə sitayiş əqidəsinə qayıdır. Dünyanın ən ucqar yerlərində və ən uzaq bölgələrində ibtidai formada yaşayan insanlar arasında bu əqidəyə olan bağlılıqlar hələ də mövcuddur. Təbiətə sitayiş əqidəsində təbətin gücünü ram etməkdən ötrü ilk olaraq həmin qüvvəyə ibadət etmək və onlardan ehsan etmələrini istəmək lazımdır. Hal-hazırda mövcud olan və ibtidai formada yaşayan insanlar arasında müxtəlif dini mərasimlər mövcuddur. Belə mərasimlərdə qəribə geyimlər geyilir, üzlərə maskalar taxılır və ritmik hərəkətlər nümayiş etdirilməyə başlanılır. Eləcə də, həmin mərasimlərdə təbiət qüvvələrindən kömək istənilir. Buludlardan yağış yağması, çaylardan tüğyan etmədən və tufan qoparmadan onların susuzluqlarını yatırtması, torpaqdan yaşıllıq yaratması, tarla və ağaclardan daha yaxşı və daha çox məhsul vermələri və sair şeylər istənilir.[1]

---

[1] Son zamanlar insanlardan və sivilizasiyadan uzaq olan bəzi adaların yerli xalqları mal daşıyan bəzi iri həcimli böyük yük gəmilərini və onlardan suya düşən bəzi məhsulları gördükdə digər qövmlərin əcdadlarının onlar üçün göndərdiyi nemətlər kimi qəbul edirlər. Bu səhnəni görən insanlar bir gün onlar üçün də belə nemətlərin

### 1-1. Tanrı və Tanrılar

Tarix Tanrıya şərik qoşmağın çox qədim zamanlara qayıtdığını və bəşəriyyətin daim Tanrıya şərik qoşmaq çirkabına bulandığını göstərir. Hal-hazırda da təxminən dünya əhalisinin yarısı Hiduizm, Caynizm, Buddizm, Sintoizm və qeyri dinlərdə bütlərə sitayiş edilir.[1] Sosioloqlar Tanrıya şərik qoşan dinlərin tarixinin təkallahlıq dinlərindən daha keçmişə qayıtdığını bildirirlər, amma təkallahlığa sitayiş edən müxtəlif dinlərin davamçıları bu fərziyyələrlə tam zidd mövqedən çıxış edirlər və Tanrıya şərik qoşmaq idelogiyasının, bu ideologiyadan yaranan dinlərin təkallahlıq dinlərindən mənşə aldıqlarını bildirirlər.

Bəzi dinlərin nəzərindən Tanrılar tarixin müxtəlif dönəmlərində özlərini insanlara göstərmişlər və bütlər də onların bir nümunəsidir. Belə dinlərin davamçıları İlahi elçilərə, yəni Peyğəmbərlərə inanmırlar.

### 1-2. Əcdadlara sitayiş

Ölümdən qorxu ibtidai icma quruluşunda yaşayan insanların müxtəlif xürafati düşüncələr yaratması ilə nəticələndi. Elə bu səbəbdən də, həmin xalqlar ölülərlə dirilər arasındakı əlaqələr sahəsində xüsusi əqidəyə malik idilər. Qədim zamanlarda yaşayan xalqların böyük əksəriyyəti əcdadlarının geri qayıtmalarında qorxurdular və elə buna görə də, ölüləri kəndirlə bağlayırdılar və qəbirləri möhkəmləşdirirdilər ki, bu yolla onların geri qayıtmalarına əngəl törədə bilsinlər. Ölülərdən olan qorxu sonralar ölülərə qarşı hörmət və ehtirama çevrildi və sonda əcdadlara sitayiş ideologiyasının yaranması ilə başa çatdı. Bu növ sitayiş forması tarix boyu dünyanın bir çox yerlərində mövcud olmuşdur və hal-hazırda da Yaponiyada bunun nümunələrinə rast

---

göndəriləcəyi ümidi və məsələni daha da tezləşdirmək məqsədilə "yük mərasimlər" (cargo Cults) adlı dini mərasimlər keçirirlər. Onların bəziləri bu nemətləri əldə etmək məqsədilə hətta anbarlar belə hazırlamış və bəzi vaxtlar da öz mal-qaralarını bu yolda qurban vermişlər.

[1] Qeyd etmək lzaımdır ki, "Büt" sözü fars dilinə Ərəb dilində mövcud olan "Bud" sözündən gəlmişdir və həmin "Bud" sözü "Budda" sözündən götürülmüşdür. Bir məsələni də diqqətinizə çatdırmalıyıq ki, ərəb dilində Buddaya "Buzza" deyilir.

gəlmək mümkündür. Onların nəzərincə bütlər əcdadlarının heykəllərində yerləşmişlər.

### 1-3. Cadu

İbtidai dinlərdə mövcud olan cadu anlamı ilə bizim təsəvvür etdiyimiz cadu anlamı arasında fərq çoxdur. Həmin dinlərdə cadu təbii qüvvələrdən kömək və yardım üçün həyata keçirilən xüsusi mərasim mənasını daşıyırdı. Belə mərasimlərin həyata keçirilməsində cadugərlər fəaliyyət göstərir və mərasimin keçirilməsini öz üzərinə götürürdülər. İbtidai icmalarda elm və savad məsələsinin məna kəsb etməməsi üçün bu şəxslərin də digərlərindən heç bir fərqi yox idi və yalnız bu şəxslərdə olan qeyri-adi qüvvəyə hamının inanması onları digər insanlardan fərqləndirirdi.

Cadugərlər xəstələri müalicə etmək üçün də öz qüvvələrindən istifadə edirdilər. Belə cadugərləri çox vaxt şaman adlandırırdılar. Cadugərlər özlərini çətin və dözülməz şəraitlərdə saxlamaqla özlərinə əzab verirdilər, çox vaxt bədənlərində xüsusi nişanələr əmələ gətirirdilər və bəzən də, özlərini axtalayırdılar.

### 1-4. Qurban kəsmək.

Dünyanın hər bir yerində yaşayan xalqlar arasında Tanrı və yaxdu Tanrıların qəzəbini söndürmək üçün "Qurban etmək" mərasimi mövcuddur. Həmin qurbanlar meyvə, tərəvəz və məhsul hədiyyə etməkdən, heyvanların, uşaqların və böyüklərin başlarının kəsilməsindən, uşaqların oda atılmasından və bunlara bənzər digər işlərdən ibarətdir. Onlar çox vaxtlar öz ölkələrinin əhalisinin azalmamasına görə digər ölkələrə hücum edirdilər. Bəzi xalqlar arasında bütlərə hörmət əlaməti olaraq öz namus və iffətini qurban vermək (Hieroduoleia) kimi mərasimlər də mövcud idi. Hətta hal-hazırda da Hindistan qadınları Vişnu məbədində saçlarını tam kəsdirməklə öz gözəlliklərini həmin bütə qurban verirlər.

Torpağa şərab tökmək (Libation) həmişə şərab içənlərin adətlərindən biri olmuşdur və Tövratdada (Xuruc 29:41 və....) bu məsələyə işarə edilmişdir.

Sonralar insanların qurban edilməsi adəti aradan götürüldü və yalnız heyvanların qurban kimi kəsilməsi adəti qaldı. Amma, yaxın zamanlara qədər bəzi yerlərdə insanların qurban edilməsi adəti hələ də qalmışdı. Artıq heç bir ölkənin qanunları belə vəhşiliklərin həyata keçirilməsinə icazə vermir. Bəzən kütləvi informasiya vasitələrində Hindistanın bəzi kəndlərində və digər yerlərdə bir bütpərəstin polisin gözündən yayınaraq öz övladını büt üçün qurban kəsməsi, yaxud kəsmək istərkən başqalarının bu işə əngəl törətməsi xəbərləri gözə çarpır. Qeyd etmək lazımdır ki, hal-hazırda belə cinayət törədən şəxslər ağır cəzalandırılırlar.

Ola bilsin İbrahim Xəlilullah (ə) Allah tərəfindən övladını qurban etmək üçün sınaq xarakteri daşıyan bu əmri insanların öz Tanrılarına olan eşq və məhəbbətlərini nümayiş etdirmək üçün olmuşdur.

Dinlər haqqında elmi nöqteyi nəzərindən övladların qurban verilməsini iki şey əvəz etmişdir: Birincisi uşaqların sünnət edilməsi və ikincisi isə heyvanların qurban kəsilməsi. Başlanğıcı İbrahimdən (ə) başlayan dinlərdə olan bu iki adət birbaşa olaraq Həzrət İbrahimə (ə) aid edilir.

### 1-5. Totemlər

İbtidai dinlərdə hər bir qəbilənin Totemi həmin qəbiləni qoruyan nişan və yaxud əlamət mənasını daşıyırdı. Bu əlamət heyvan, bitgi və daş növü də ola bilər. Bir çox xalqların arasında böyük hörmət və ehtirama layiq heyvan növləri mövcuddur və bir çox hallarda həmin heyvanların təsvirləri ölkələrin bayraqları üzərində öz əksini tapmışdır.

Müxtəlif xalqların tarixinə müraciət etdikcə Afrikada şirə, Hindistanda pələngə, Şimali Amerikada qartal, ayı və itə, Yunanıstanda və Misirdə öküzə, Hindistan, Afrika və Skandinaviya yarımadasında yerləşən ölkələrdə inəyə, Hindistanın cənub bölgələrində camışa, Avstraliyada kenquruya sitayiş edildiyini müşahidə edə bilərik və hə-

min heyvanların adları çəkilən xalqların Totemi olmasını anlaya bilərik. Hələ də bir çox xalqlar göyərçini və ilanı müqəddəs sanırlar. Qeyd etmək lazımdır ki, “Totem” sözü Amerikanın yerli əhalisi olan qırmızıdərililərin dilindən götürülmüşdür.

### 1-6. Tabu

Tabu hər bir qəbilənin evlilik və qidalanma sahələrində qoyduğu qadağalardır. Hər hansı bir qəbilənin yalnız qəbilədaxili evliliyə icazə verməsi və digər qəbilələrlə qohumluq əlaqələrinin yaranmasının haram bilinməsi və yaxud iddanın tam tərsinəsi mümkündür. İkinci halda qəbilə üzvləri həyat yoldaşı tapmaq üçün başqa qəbilələrə müraciət etmək məcburiyyətində qalır. Qidalanma sahəsindəki Tabu belə məna daşıyır ki, hər bir kəs öz yeməyini özü əldə etməli və onu təklikdə yeməli idi. Tabu sözü Polineziya adalarında yaşayan ibtidai xalqların dilindən götürülmüşdür.

### 1-7. Mana

İbtidai dinlərdə müxtəlif xalqların bəzi əşyaların xüsusi gücə malik olması inancı mövcud idi və bu səbəbdən də, həmin əşyaya qarşı xüsusi ehtiram olurdu. Hər hansı bir daşın, çubuğun, ağacın və yaxud heyvanın xüsusi gücə malik olması qəbul edilirdi və ondan təbərrük kimi istifadə olunurdu, insanlar ona tapınırdı. Bu əşyalar Mana adlandırılırdılar. Belə təsəvvürlərin və əqidələrin qalıqlarına inkişaf etmiş dinlərdə də rast gəlmək olar. Mana sözü də Polineziya adalarında yaşayan ibtidai xalqların dillərindən götürülmüşdür.

## 2. Animizm

Bir çox xalqların antik din və məzhəbləri Animizm olmuşdur. Bu əqidəyə əsasən təbiətdə olan bütün şeylərdə ruh və güc vardır. Bu ruh və gücdən yararlanmaq üçün onlara sitayiş etmək lazımdır. Tor-

pağın, səmanın, səma cisimlərinin, alovun, ildırımın, şımşəyin, buludun, dənizin, çayın, tufanın, meşənin, bitgilərin və heyvanların, xüsusən də inəyin, kobra ilanının, eləcə də qəbilə Toteminə, əcdadların ruhuna inanmaqla yanaşı cin və şeytan kimi qorxulu mövcudlardan gücündən istifadə etmək qədim xalqların arasında geniş yayılmışdır. (Cinə ibadət etmək və bəzi nadan insanların cinlərə pənah aparması Qurani Kərimdə qadağan edilmişdir: Ənam surəsi 100, Səba surəsi 41 və Cin surəsi 6).

Animistlər təbiəti şüurlu və insanabənzər (anthropomorphic) olduqlarını qəbul edilər və ona özünəməzsus formada sitayiş edirlər, onun üçün qurbanlar kəsirlər və təbiətin belə şeylərin təsiri altına düşəcəyini təsəvvüf edirlər. Bu əqidənin qalıqları bir çox dinlərdə, xüsusən Hindu dinində günümüzə qədər gəlib çatmışdır. Bütlərin bəziləri təbiətin gücünün nümunəsidir.

## 3. Fetişizm

Fetiş Portuqal dilindən alınma sözdür və cadu mənasını daşıyır. Fetişizmə olan böyük etiqad, yəni daxilindəki cadu qüvvəsi mövcud maddi şeylərə olan ehtiram ibtidai insanlar arasında müşahidə olunur. Bu şeylər çox vaxt daşlardan və mədənlərdən əldə edilmiş maddələrdən olur və həmin qövmlərin əqidəsinə görə qeyd olunmuş əşyaların daim insanın yanında olması ona xoşbəxtlik gətirir.

**Mənbə**


1. Hikmət, Əli Əsğər, Dinlər tarixi, Tehran 1966
2. Zərrinkub, Əbdülhüseyn, “Vixdan barəsində”, Tehran 1978
3. Nas, Con. B, “Dinlərin ümumi tarixi”, Tərcüməçi: Əli Əsğər Hikmət, Tehran 1991
4. Mustəfəvi, Əli Əsğər, “Qurbanlıq əfsanəsi”, Tehran 1990
5. Eliade, Mircea (ed), “The Encyclopedia of Religion”, New York, 1987
6. Hastings, James, ‘Encyclo0106
7. 0Parrinder, Geoffrey “Worship in the World’s Religions” London 1976

# 3. Qədimi dinlər

## 1. Misir

Misir dünyanın ən məşhur qədimi ölkələrindən biridir. Bu torpaqlarda böyük sivilizasiya və qüdrətli hökumətlər mövcud olmuşdur. Misirlilərin nəsli Qibtilər idi və Avropalıların Misir üçün istifadə etdikləri “Egypt” sözü Qibt sözü ilə əlaqəlidir.

Misirlilər ibtidai dinləri müxtəlif mərhələlərindən keçiblər və müxtəlif vəhşi və ev heyvanları sifətində olan yerli Tanrılara sitayiş ediblər. Fironlara və əfsanəvi Tanrılara sitayiş də Misirlilər arasında mövcud olmuşdur.

**1-1. Misirdə dinin və onun müxtəlif formalarının yaranması.**

Qədim Misirdə qeybdən olan mövcudlara güclü şəkildə inanırdılar və onlar müxtəlif adlı, müxtəlif sifətli Tanrılara malik idilər. Tanrıların sayının çox olması artıq müxtəlif problemlər yaratmağa başlayanda onların sayını azaltmağa başladılar və qısa bir dönəm ərzində yalnız günəş Tanrısına sitayiş etməyə başladılar. O zamanlar Şir, timsah kimi bəzi vəhşi heyvanların, müxtəlif quşların, gəmiricilərin və qoç kimi bəzi ev heyvanlarının müqəddəsliyinə inam dalğası baş qaldırdı. Pişiyə pərəstiş də Misirlilər arasında geniş yayılmışdı. İranlılar Əhəmənilər sülaləsinin hakimiyyəti illərində Misirlilərlə keçirdikləri döyüşlərin birində qalxanlarının üzərinə pişik təsvirini

həkk etmişdilər. Elə bu səbəbdən də, Misirlilər həmin pişik təsvirlərinə hörmət əlaməti olaraq həmin qalxanlara ox atmaqdan və qılınc vurmaqdan çəkindilər, sonda İranlılar Misirlilərlə döyüşdə qələbə qazandılar.

Sonralar onların əqidələrinə heyvan başlı və insan bədənli fantaziyanın əmələ gətirdiyi heyvanlar daxil oldu. Misirlilər belə fantastik varlıqlara heykəllər düzəldərək onlara sitayiş etməyə başladılar. Nil çayında səfər edərkən adamyeyən timsahların hücumlarından qorunmaq üçün ilk öncə olduqca əzəmətli olan timsah məbədinə gedərdilər, sədəqə və nəzir verməklə öz canlarının bahasını ödədiklərini sanırdılar.

### 1-3. Üç Tanrı əfsanəsi: Osiris, İsis və Horus.

Qədim Misirlilər belə deyirdilər ki, Osiris (Əkinçilk Tanrısı) bacısı İsis (Ana İlahə) ilə ailə qurur və onlarına Horus (Günəş Tanrısı) adlı övladları dünyaya gəlir. Osiris qardaşı Set (Quraqlıq Tanrısı) tərəfindən qətlə yetirilir. İsis qətlə yetirilmiş həyat yoldaşı Osirisin cəsədini böyük zəhmətlərdən sonra tapır və Misirə qaytararaq orada gizlədir. Set bu hadisədən xəbərdar olan kimi yenidən Osirisin cəsədini tapır və onu on dörd hissə parçalayır. Hər parçasını Misirin bir yerində torpağa basdırır. Osirisin cəsədinin parçaları basdırılmış yerlər o cəsədin bərəkətindən abad və məhsuldar torpaqlara çevrilir. Artıq böyüyüb başa çatan Horus atasının qisasını almaq üçün əmisi ilə döyüşür və gözlərindən birini itirməsinə baxmayaraq əmisinə qalib gəlir, onu əsir tutaraq anasının hüzuruna gətirir. İsis həyat yoldaşının qardaşını bağışlayır. Bundan sonra Horus atasının cəsədinin parçalarını bir yerə toplayır və hikmət Tanrısının köməyilə onu dirildir. Osirirs bundan sonra dünyada qalmır və bu dünyanı oğlu Horusa tapşırır və özü yeraltı dünyaya gedərək ölülərin hökümdarına çevrilir.

### 1-3. Günəşə sitayiş

Dünyanın müxtəlif yerlərində günəşə sitayiş əqidəsinin tarixi olduqca qədim zamanlara qayıdır və Qurani Kərimdə də (o cümlədən

Nəml surəsi, ayə 24) buna işarə olunmuşdur. Həqiqətən də, sitayiş olunan bütün Tanrıların arasında günəşin malik olduğu sonsuz bərəkət qədər böyüklük və bərəkət mövcud deyildir. Qədim Misirdə günün müxtəlif saatları üçün günəşin nümayəndələri olan Tanrıların mövcud olduğunu bildirirdilər. Məsələn: səhər Tanrısı Xipra, günorta Tanrısı Ra, və axşam Tanrısı Atom. Eləcə də, Peyinböcəyini günəşin yer üzündəki nümayəndəsi bilirdilər. Misirlilər həmin həşəratı olduqca müqəddəs bilirdilər və onun təsvirini tilsimlərin üzərinə, şahların heykəllərinin sinəsinə və alnına həkk edirdilər. Misirlilər həmin böcəkdən bərəkət və xoşbəxtlik istəyirdilər.

### 1-4. Firona sitayiş

Qədimdə şahlara sitayiş etmək olduqca geniş yayılmışdı və onların ən son nümunələrindən biri Yaponiyanın sabiq imperatoru Hiro Hitodur. Qeyd etmək lzımdır ki, imperatorluğu onun öz istəyi ilə 1946-cı ildə ləğv olunmuşdur.[1]

Misir Fironları (Yapon imperatorları kimi) Günəş tanrısının nəslindən olan Tanrılar kimi qəbul edilirdilər və onlara sitayiş edilməsinin əsas səbəbi də elə bundan ibarət idi.

## 2. Babilistan

Babilistan uzun illər boyu sivilizasiya, mədəniyyət və elmin mərkəzi olmuşdur və bu şəhərin adı Yəhudilərin, Xristianların müqəddəs kitablarında qeyd olunmuşdur. Qurani-Kərimdə də (Bəqərə surəsi, ayə 102) Babilin adı qeyd olunmuşdur. Cəbr, bir çox riyazi və elmi məsələlər Babilistan mədəniyyətində yaranaraq günümüzə qədər gəlib çatmışdır.

[1] Yamaykada da "Rastafərinlər" Efiyopiyanın sabiq imperatoru Haylasilasinin müqəddəsliyinə inanaraq ona sitayiş edirdilər. Onun hakimiyyəti 1974-cü ildə baş vermiş çevriliş zamanı aradan getdi. Onun 1975-ci ildə edam edilməsinə baxmayaraq ona sitayiş edən insanların əqidəsi dəyişilmədən qaldı.

### 2-1. Babilistanda baş verən dini dəyişikliklər

İraqın müxtəlif ərazilərində aparılan arxeoloji qazıntılar zamanı çoxlu sayda Tanrıların heykəlləri tapılmışdır və dünyanın müxtəlif muzeylərinə göndərilmişdir. Bu tanrılar Animizmin inkişaf etmiş formasının nümunələri idi.

Babilistan Fetişizmdən müxtəlif tanrılara sitayişə qədər olan rəngarəng etiqad yolu keçmişdir. Bu tarixi dönəm təxminən dörd min il çəkmişdir. Sonda Ay, Günəş və planetlərin nümayəndələri olan ruhlara sitayiş mərhələsi meydana çıxmışdır. Amma tarixin əksər dönəmlərində Tanrıların ən üstünü və ən ucası Mərdux olmuşdur.

### 2-2. Babilistan üçlüyü

Babilistanlıların saysız-hesabsız Tanrılarının arasında altı Tanrı digərlərindən daha çox tanınmağa başladı və bunlar iki üçlüyə bölünərək sitayiş olundular. Birinci üçlüyə Anu (səma tanrısı), Enlil (hava və müharibə tanrısı) və Eaa (su tanrısı) və ikinci üçlüyə Şemş (günəş tanrısı), Sin (ay tanrısı) və İştar (qadın tanrı) daxil idi.

Bu tanrıların hamısının həyat yoldaşı var idi və məhsuldarlıq İlahəsi olan qadın tanrı İştara olduqca böyük əhəmiyyət verilirdi. İştarın həyat yoldaşı, yəni əri Təmmuz idi. Babilistan mədəniyyətinin ən güclü vaxtlarında Mərdux adlı əzəmətli Tanrının adı hallanılır və hər yerdə onun təsvirini həkk olunmağa başlanılır. Bütün başqa Tanrılar Mərduxun əlinin altında olması təsəvvür edilirdi.

Babilistan şimal qonşusu Assuriya tərəfindən süquta uğradıqdan sonra Mərdux öz yerini Assuriyalıların Tanrısı Assura verdi və bundan sonra artıq hər yerdə onun təsviri həkk olunmağa başlanıldı. Babilistanlılar Assuriyalılara yenidən qalib gəldikdən sonra isə Mərdux yenidən öncə malik olduğu yerə və hörmətə qayıtdı. Sonda Babilistanın Kir tərəfindən işğalından sonra Ahura Mazda Mərduxun yerini tutdu.

# 3. Yunanıstan

Yunanıstan Avropanın cənub şərqində yerləşən kiçik yarımadadır və qədim zamanlarda bura mədəniyyət, incəsənət və mütəfəkkirlər mərkəzi olmuşdur. Avropa dillərində bu ölkəni "Greece" adlandırırlar və Ərəb dilində olan "İğriq" sözü də bundan əmələ gəlmişdir. Yunan adı Yunanıstan bir hissəsi olan "İonia"-nın adından götürülmüşdür. Yunanlar öz ölkələrini "Hellas" adlandırırlar və bu ad da Yunanlıların əfsanəvi əcdadının adıdır. Dünyanın bir çox dinlərinin əfsanələrlə yaxından əlaqəsi olmasına görə Yunanlıların dini inancları və etiqadları dinşünaslıqda olduqca böyük əhəmiyyətə malikdir.

## 3-1. Qədim Yunanıstanda mövcud olan məzhəb

Qədim Yunanlar da erkək və qadın tanrıların mövcudluğuna inanırdılar. Onların ən böyük tanrısının adı Zevs idi və bəzən onu Zevs Paterus, yəni "Zevs Ata" adlandırırdılar. Bu Tanrını Hindistanlılar "Divs Pitar" və qədim Romalılar "Yupiter" adlandırırdılar. Yunanlıların sitayiş etdiyi tanrıların əksəriyyəti qədim Ariyayi tanrıları ilə eynidirlər. Yunanıstanın bəzi tanrıları bunlarıdr:

**Apollo (Günəş Tanrısı)**
**Poseydon (Dəniz Tanrısı)**
**Hestia (Qadın Tanrı və ailənin anası)**
**Demeter (Qadın Tanrı, əkinçilik və təsərrüfat tanrısı)**
**Hermes (Hikmət Tanrısı)**
**Ares (Müharibə Tanrısı)**

Sonrakı dövrlərdə insanların düşüncələrində dəyişikliklər meydana çıxdı və onlar Zevsin Olimp dağının başında oturması və digər Tanrıların onun ətrafında toplaşması etiqadını irəli sürdülər. Onlar ölümdən sonra həyatın mövcudluğuna inanmırdılar, amma dünyada səadət və xoşbəxtlik içərisində yaşamaları üçün bütlərə sitayiş edirdilər. Bu bütlər tanrıların, əfsanəvi qəhrəmanların simvolları idilər və onların kahinləri də var idi.

### 3-2. Əfsanələr

Bəşəriyyət həyatın sirlərinə aydınlıq gətirməkdə aciz olduğunu anladıqdan sonra müxtəlif anlayışlara və fenomenlərə aydınlıq gətirmək məqsədilə əfsanələr yaratmağa başladı və bu yolda uğur əldə etmək üçün xəyal və fantaziyanın gücündən yararlandılar. Əfsanələrin müxtəlif cəhətləri var idi və onların ən mühimi kamilliyin və mənəvi böyüklüyün genişləndirilməsi idi. Elə bu səbəbdən də, bu əfsanələr qurucu qüvvəyə malik olmaları ilə eyni zamanda həm də dağıdıcı qüvvəyə malik idilər. Yəni fəzilətlərlə insan ruhunu qururdu və müxtəlif fenomenlərə aydınlıq gətirdikdə isə insanın düşüncəsini dağıdırdı. Bəşəriətdə mövcud olan bütün cəmiyyətlərdə əfsanələr olmuşdur və bizim hal-hazırda əfsanə adlandırdığımız məsələlər öz zamanında və öz yerində həqiqət kimi qəbul edilirdi.

Firdovsinin "Şahnamə" eposunun birinci hissəsi əfsanədir və burada Rüstəm pəhləvan kimi qəhrəmanlar haqqında danışılır. Rüstəm cəmiyyətdə və dünyada olan bütün əyrilikləri uzaqlaşdırmaq, dəyərləri hakim etməkdən ötrü müxtəlif döyüşlər və müharibələr aparır. Elm nöqteyi-nəzərindən din və fəlsəfə əfsanələrdən əmələ gəlmişdir. Amma din barəsində irəli sürülmüş bu iddialar dini nöqteyi-nəzərdən tam yalnışdır və dindarların bu məsələyə yanaşması tam fərqlidir.

Yunanlar da öz əfsanəvi tanrılarına sitayiş edirdilər və onlara qurbanlar verirdilər. Həmin Tanrılardan bir neçəsinin adını qeyd etmişik. Amma onların və ümumiyyətlə müxtəlif qədim xalqların əfsanəvi tanrılarının adlarını qeyd etmək olduqca çətin bir işdir.

Yunanlılar ağıllı və dərrakəli idilər. Hələ elmin müxtəlif sahələrini kəşf etmədiklərinə görə əfsanələr yaratmaqla öz axtarış arxasınca olan zehnlərini sakitləşdiridilər. Necə ki, yerin və göyün yaradanına sitayiş etməyin əvəzinə müxtəlif bütlərə sitayiş edirdilər. Yunanlılar yavaş-yavaş əfsanələri fəlsəfəyə dəyişməyə başladılar və öz dövrlərindən elmin öncülünə çevrildilər. Qeyd etmək lazımdır ki, başqa xalqlar bu yolda lazımi uğur və müvəffəqiyyət əldə edə bilmədilər.

### 3-3. Fəlsəfənin yaranması

Eramızdan təxminə beş əsr öncə Yunanıstanda böyük filosoflar meydana çıxdı və yeni fikirlər irəli sürməyə başladılar. Bu filosofların ən tanınmışları Sokrat, Platon və Aristotel idi. (Aristotel Platonun və Platon Sokratın tələbəsi idi) Aristotelin düşüncələri təxminən iki min il Avropanın və İslam dünyasının elmi mərkəzlərində rəvac tapmışdı və olduqca az mütəfəkkir alimlər bu fəlsəfi düşüncələri tənqid edə bilmişdilər. Yunan fəlsəfəsi və Aristotelin düşüncələri qabaqkı əzəmətini itirməsinə baxmayaraq hələ də alimlər fəlsəfi məsələləri qeyd edərkən onun qədim Yunanıstanda Platonun və Aristotelin əsərlərində olan fəlsəfəyə müraciət etməyə bilmirlər. Yunan filosofları öz nəzərlərini və düşüncələrini təlim etmək üçün geniş şəkildə əfsanələrdən istifadə etmişlər. Belə ki, hal-hazırda da Platonun əsərlərinin toplusu müxtəlif tanrıların adları ilə doludur. Onlar tanrılara aid edilmiş pis sifətləri özündə əks etdirən epik dastan və hekayələrə etirazlarını bildirirdilər. Platonun tanrışünaslıq barədə irəli sürdüyü düşüncələrinə görə onu müqəddəs Platon (Divine Plato) adlandırmağa başladılar. Aristotelin birinci hərəkət nəzəriyyəsini irəli sürdü və təkallahlıq dinlərinin filosofları sonrakı dövrlərdə də onu öz dinlərinin tanrısı ilə eyni bildilər.

## 4. Roma

Qədim dünyanın ən əsas güclü və əzəmətli ölkələrindən biri Roma idi. Roma Avropa, Türkiyə və Suriyanın böyük bir ərazisini özündə cəmləşdirirdi. Romalılar ən qədim zamanlardan belə memarlıq, rəssamlıq, heykəltaraşlıq, ədəbiyyat və elmin müxtəlif sahələrində böyük nailiyyətlər əldə edərək bu sahədə öncülə çevrilmişdilər. Romalılar dördüncü əsrdə xristiyanlığı qəbul etdilər və onun yayılması üçün öz qədim mədəniyyətindən geniş şəkildə yararlandılar.

## 4-1. Qədim Romalıların dinləri

Qədim Romalıların dinləri sadə və ibtidai idi. Onların dini mərasimləri imperatora sitayiş etməkdən, qurban kəsməkdən və tanrılar üçün bayramlar keçirməkdən ibarət idi.

Qədim zamanlarda Romalıların hamısı məbədi Roma yaxınlığındakı dağlarda yerləşən tanrı Dianaya sitayiş edirdilər və il ərzində keçirilən bayramlarda həmin məbədə üz tuturdular. Onların həyata keçirdikləri dini əməllərindən biri müqəddəs odda bişirilmiş müqəddəs yeməklərdən dadmaq idi. Yalnız bu yolla Od Tanrısı onlarla eyni paya malik olurdu. Bu yeməyin hazırlanması və yeyilməsi müəyyən dini adət-ənənələr çərçivəsində keçirilirdi. Həmin adətlərin hamısını burada açıqlamaq mümkün deyildir. (Ümumiyyətlə müxtəlif dinlərin ibadət mərasimlərində yeməkdən istifadə mövcuddur və xristiyanlıqda mövcud olan "tanrının şam yeməyi" da onun nümunələrindən və qalıqlarındandır).

## 4-2. Numa və Roma tanrıları

Tərcümədə ruh mənasını kəsb edən Numa (Numen) etiqadına əsasən hər bir əşyanın və mövcud hər bir şeyin, insanın, heyvanın, daşların və təbiətdə olan hər bir şeyin ruhu vardır. Bu ruhların bəziləri xeyirxah və bəziləri bədxah idi. Sonradan müqəddəsləşən bu ruhlar qeyri-müəyyən təbiətə malik idilər. Romalılar sonrakı dövrlərdə həmin ruhlar üçün xüsusi şəxsiyyətlər də yaratdılar və onlar barəsində əfsanələr meydana çıxartmağa başladılar. Romalıların müxtəlif saysız-hesabsız Tanrıları var idi və onlardan bəziləri aşağıdakılardır: Yupiter, Canus, Mars, Vesta, Neptun, Vulkan, Venera, Apollon, Minerva, Herkules və s. Yuputer Yunanıstanlıların Zevsi kimi idi və Zevs ata mənasını verirdi. O, nur, ildırım, şimşək, tanrısı idi. Ay bədrlənmiş olanda yalnız ona sitayiş edilirdi.

### Mənbə


1. Hikmət, Əli Əsğər, Dinlər tarixi, Tehran 1966
2. Zərrinkub, Əbdülhüseyn, "Vixdan barəsində", Tehran 1978

3. Nas, Con. B, “Dinlərin ümumi tarixi”, Tərcüməçi: Əli Əsğər Hikmət, Tehran 1991
4. Mustəfəvi, Əli Əsğər, “Qurbanlıq əfsanəsi”, Tehran 1990
5. Jiran. F, “Yunan əfsanələri lüğəti”, tərcüməçi: Əbülqasim İsmailpur, Tehran 1996
6. Şiera. Edvard, “Babilistan lövhələri”, tərcüməçi: Əli Əsğər Hikmət, Tehran 1996
7. Makkal. Henrita, “Mesapatomiya əfsanələri”, tərcüməçi: Abbas Müx-bir, Tehran 1994
8. Dokolanj. Fostel, “Qədim sivilizasiya”, tərcüməçi: Nəsrullah Fəlsəfi, Tehran 1930
9. Fatemi, Səid, “Yunan əfsanələri”, Tehran 1996

# 4. Hindistan

Təxminən 3500 il bundan öncə özünü Ariyayi, yəni nəcib və şərafətli adlandıran qövm Mərkəzi Asiyadan Sind çayına (hal-hazırki Pakistan ölkəsinin cənubunda yerləşir)tərəf mühacirət etməyə başladılar və şərqə tərəf irəlilədikcə sonralar Hindistan adlanan ölkəni hücumlara məruz qoydular. Elə həmin dönəmdə Ariya qövmündən olan başqa bir dəstə sonralar İran adlanan ərazilərə köçdülər. Ariyayi qövmündən olan üçüncü dəstə isə Avropaya tərəfən hərəkətə başladı.

Ariyayi qövmlərinin əsil dilləri barədə məlumatımız olmasa da sonralar, yəni mühacirət etdikdən sonra onların dili Hind-Avropa dilləri ailəsi adlandırılmağa başladı. Yəni, bu dil ailəsinə daxil olan dillər arasında qohumluq əlaqəsi mövcuddur. Hindistanda yaşayan Ariyayi qövmünün dili Sanskritdir (Sam-skrita). Bu sözün tərcümədə mənası xoş tərkibli deməkdir və Avesta, qədim fars və Avropa dilləri ilə qohumluq əlaqəsinə malikdir. Hind-Avropa dilləri ailəsində qohumluğun mövcudluğu linqvistika elminin inkişafına böyük töhfələr vermişdir.[1]

Brahmanizm Animizmin inkişaf etmiş formasıdır və buna görə də onun banisinin kim olmasını demək mümkün deyildir. Bu din mə-

[1] Məsələn; Fars dilində olan "h" hərfi Sanskrit dilindəki "s" hərfinə bərabərdir və təxmin eyni məna kəsb edir. Nümunə olaraq qeyd edək ki, "Hind" sözü "Sind" və Zərdüştlərin müqəddəs saydıqları "Homa" sözü Hindlilərin də müqəddəs bildiyi "Soma"-ya çevrilir.

dəniyyət, ictimai adət-ənənənin bir formasıdır. Hər bir şəxs bu mərtəbəyə çatmaq üçün öz nəfsinə əzab verərək hər şeydən qorumalıdır. Brahmanizmin Hindistan xalqının fərdi və kollektiv həyatında, eyni zamanda mədəniyyətində danılmaz rolu vardır.

# 1. Hinduizm

Hinduizm Brahmanizmin təkamül tapmış formasıdır və 8-9-cu əsrlərdə Hindistanın iki görkəmli alimi tərəfindən yaradılmışdır.

### 1-1. Ariyayilərin hücumundan öncə Hindistanda yaşayan yerli əhali

Ariyayilərin İrana və Hindistana mühacirətindən öncə bu yerlərin əhalisi alçaqboylu və qaradərili insanlar idi. Onların xüsusi mədəniyyətləri, dinləri, mərasimləri var idi və onların sivilizasiya səviyyəsi Mesopotamiya sivilizasiyası səviyyəsində idi. Bu qövm İran ərazilərində demək olar ki, tamamilə aradan getdi, amma Hindistanda ölkənin cənub bölgələrinə tərəf qovuldular. Həmin qövm Dravediləri adı ilə tanınır. Onlar eləcə də, Nəces və yaxud Toxunulmazlar (Untouchables) adı ilə tanınırlar. Gələcəkdə onlar barədə söz açacağıq. Pakistanda, Sind çayının kənarında yerləşən Mohenco-Daro adlı bölgədə aparılan arxeoloji qazıntılarda onların mədəniyyətlərini əks etdirən çoxlu nümunələr aşkar edilmişdir. Bu kəşflərdən belə nəticə əldə etmək olar ki, Hinduizmin bəzi tanrıları Ariyayilərin Hindistana daxil olmasından öncə də mövcud idi.

### 1-2. Müqəddəs kitablar

Hinduların duaları və dini mərasimləri Sanskrit dilində Vedalar (Vedas- yəni Elm) adlı topluda bir yerdə cəmləşdirilmişdir. Sruti, yəni vəhy, ilham və müqəddəs elmlər ləqəbi ilə tanınmışdır. Tarix elminin tədqiqatçıları Vedaların təxminən 1000-1400 il eradan əvvəl ya-

randığını bildirirlər və elə buna görə də, eradan qabaq 1500-800-ci illər arasındakı tarixi dönəmi Vedalar dönəmi adlandırırlar. Dörd növ Veda mövcuddu və bunlar aşağıdakılardır:

1. **Riq-Veda, yəni sitayiş vedası**
2. **Yacur-Veda, yəni qurban vedası**
3. **Sama-Veda, yəni musiqi vedası**
4. **Atharva-Veda, yəni Atharvanin Vedası (Vedanın müəllifinin vedasının adıdır.**

Vedaların mətnləri Məntərlərdən (Mantaras), yəni atəşin, günəşin və təbiətin digər simvollarının sitayişində oxunan dualardır və bu dualar ruzi-bərəkətin çoxalması, məhsuldarlığın artması, günahların bağışlanması və s. məqsədlər üçün oxunurdu. Sonrakı dövrlərdə Brahmanlar (yəni ruhanilər) Vedalara şərh və təfsir yazmağa başladılar və adını Brahmanna qoydular. Brahmannalar həmin duaların nə üçün olmasını müəyyən edirdilər. Tədqiqatçılar bu münasibətlə eradan qabar 800-cü ildə 500-cü ilədək olan dönəmi Brahmanna dönəmi adlandırırdılar.

Qəbilənin və yaxud bu dini məktəbin əfsanəvi əcdadı Manu, yəni Brahmanların Manusu Dehli yaxınlığında yaşayırdı və onu tanrının oğlu kimi qələmə verirdilər. Halbuki, o bütün qanunlarını Brahmannadan götürmüşdür.

Hindistan mədəni irsində saysız-hesabsız dini, fəlsəfi, irfani və ədəbi kitablar mövcuddur və bu kitabların demək olar hamısı dünyanın müxtəlif dillərinə tərcümə olunmuşdur. Buna nümunə olaraq hamımızın yaxşı tanıdığı "Kəlilə və Dimnə" kitabını misal çəkə bilərik. "Kəlilə və Dimnə" kitabının Sanskrit dilindəki adı "Pança-Tantra", yəni beş bölüm deməkdir. Mahabaharata və Ramayana kitablarında əfsanəvi hərbi, döyüş və şənlik mövzuları bir yerə toplanılmışdır və bu kitab Hindlilər arasında böyük hörmət və ehtirama malikdir. Qeyd olunmuş bu dini və ədəbi kitablar dünyanın bütün böyük dillərinə tərcümə olunmuşdur. Olduqca məşhur və maraqlı kitablardan biri də "Bhagavad-gita", yəni böyük Tanrının musiqisi adlı kitabdır. Bu kitab əslində Mahabaharatanın bir hissəsidir və özünün iri həcimli

olduğuna görə müstəqil şəkildə mövcuddur. Bəzən qısa formada Gita kimi də qeyd olunan bu kitab “Bhakti”, yəni sözün xalisliyi hissəsində söz barədə danışılır. Qeyd etdiyimiz kitabın nə dərəcədə əhəmiyyətli olmasını sübut etmək üçün onun davamlı olaraq dünyanın müxtəlif dillərinə tərcümə olunmasını və fars dilində də bu kitabın altı növ tərcüməsinin mövcudluğunu qeyd edə bilərik.

Bu kitabda Krişna ilə şahzadə Arcuna adlı bir şəxsin arasında gedən söhbətdən söz açılır. Qeyd etdiyimiz bu kitab 1-ci əsrdə məşhur epos Mahabaharatanın tərkibində qeyd olunmuşdur. Bu kitab Hindistanlılar tərəfindən bütün dini, elmi və s. kitablardan daha çox sevilir. Onun nəzm forması eyni formada deyildir, amma bu dəyərli və qiymətli sözlərin həmin əsərdə mövcudluğu minlərlə insanı öz aşıqlərinə çevirmişdir.

### 1-3. Veda tərbiyəsi və mədəniyyəti

Təxminə b. eradan əvvəl 6-cı əsrdə Hindu ruhanilərin, yəni Brahmanların ən güclü və qüdrətli vaxtında cəmiyyətdə kəskin təbəqələnmə prossesi meydana çıxdı və təxminən 2500 il müddətində öz dəhşətli təsirini böyük Hindistan ölkəsinin hər yerində nümayiş etdirdi. Qeyd etmək lazımdır ki, bu təbəqələşmənin qalıqları hələ də cəmiyyətdə mövcuddur. Tədqiqatçılar və sosioloqlar ictimai təbəqələri “Kasta” adlandırırlar. Kasta sözü Portuqaliya dilindən götürülmüşdür və nəsl mənasını verir. Həmin quruluşda dörd əsas kasta mövcud idi:

1. Brahmanlar-Ruhanilər təbəqəsi
2. Kşatriyalar- Şahlar, şahzadələr və döyüşçülər təbəqəsi
3. Vişyalar- Tacirlər və torpaq sahibləri, mülkədarlar
4. Şudralar-İşçilər və fəhlələr

Müxtəlif və fərqli sektalar arasında əlaqələrin mövcudluğu həm şəri, həm də milli adət-ənənə nöqteyi-nəzərindən qəti qadağan idi. Sərt qanunların əksəriyyəti də sonuncu sektaya aid idi. Belə ki, onların özlərindən yüksək sektanın nümayəndələrinə toxunması və hətta baxması belə ən böyük günahlardan biri kimi qələmə verilirdi.

Bunlardan daha aşağı səviyyədə Hindistanın qeyri-Ariyayi yerli əhalisi sayılırdı və onları nəces, yaxud toxunulmazlar (Untouchables-toxunulmzlar) adlandırırdılar. Bu sektaya aid olan insanların digər dörd sektaya aid insanların yaşadığı məhəllərindən keçmələrinə belə icazə vermirdilər. Onlar zibil və digər tullantıları toplamaq üçün zərurət üzündən həmin məhəllələrə daxil olanda həmin məhəllədə olmalarını uca səslə bildirmək məcburiyyətində idilər. Nəceslərin bu işi görmələrində əsas məqsəd dörd sektaya aid insanları onları görməməsi zərurətindən doğurdu və əgər təsadüfən həmin dörd sektaya aid insanlardan kimsə nəceslər sektasına aid bir şəxsi görsəydi qüsl alaraq özlərini paklaşdırmalı idilər. Alış-veriş də bir-birilərini görmədən, yəni pulu bir yerə qoymaq və sonra aşağı sektaya aid insanların həmin pulu götürməsi ilə baş tuturdu.

Müqəddəs kitabların tilavətinə qulaq asmaq da onlar üçün qadağan edilmişdi. Əgər onlardan kimsə müqəddəs kitabların tilavətinə qulaq asardısa onu cəzalandırırdılar və qulağına əridilmiş qurğuşun tökürdülər.

Məsələnin ən təəccübləndirici məqamı bundan ibarət idi ki, Nəces və yaxud Toxunulmazlar sektasına aid insanların özləri də bu vəziyyəti səhv qiymətləndirərək bunu öz hüquqları kimi qəbul edirdilər. Onların inancına əsasən bu bədbəxtlikləri ötən həyatlarında törətdikləri günahlardan və pis işlərdən əmələ gəlmişdir. Dörd Sekta arasında olan fasiləni azaltmaq və Nəcesləri müdafiə etmək sahəsində atılmış hər bir addım şəriət baxımından qəbul olunmurdu və bağışlanmaz bir günah kimi qəbul edilirdi. Qeyd etmək lazımdır ki, həmin dörd sekta 2000-dən artıq müxtəlif sektaların tarix boyu qruplaşmasından yaranmışdır. Bu ictimai problem sonda 1955-ci ildə rəsmi şəkildə ləğv edildi və hal-hazırda həmin adət-ənənənin yalnız cüzi bir hissəsi gözə çarpmaqdadır.

Qanqa tərcümədə sürətli axan mənasını verir və coşub-daşan və bərəkətli olan bu çay Hindistanın böyük bir hissəsində axmaqdadır. Qanqa çayı olduqca müqəddəs sayıllır və bu çayda, xüsusən Benares

ayında qüsl almaq ən mühüm ibadətlərdən biri kimi qəbul edilir.[1] Hindlilər nilufər gülünü də müqəddəs qəbul edirlər.

Qurban kəsmək və xüsusən də, at qurban kəsmək ibadət əməllərindən biri kimi onların arasında geniş yayılmışdır. Buddizm və Caynizmin Hindastana hakim kəsildiyi illərdə bu adət dayandırıldı. Buddizmin Hindistanda aradan getməsindən sonra arzu-istəklərinə çatmaq üçün qurban kəsilməsi anlamı yenidən gündəmə gəldi və bu adət indiyə qədər də davam etməkdədir. Son əsrlərə qədər insanın qurban kəsilməsi də mövcud idi və bu qeyri-insani adət hal-hazırda qadağan edilmişdir.[2]

Ahimsa, yəni canlılara əzab verməkdən uzaq olmaq sonrakı dövrlərdə Caynizmin əqidəsinin banisi Mahaviranın təlimlərinin təsiri ilə diqqət mərkəzinə gəldi və indiyədək də bu düşüncə tərzinə ciddi şəkildə riayət olunmaqdadır. Bu təlimlərə və düşüncə tərzinə əsasən heyvanların ətini yemək qeyri-əxlaqi bir iş kimi qəbul olunur. Bu düşüncə tərzi Hindlilərin həyat və yaşayış tərzinə də inanılmaz təsirlər qoymuşdur.

Hindlilər ölülərinin cənazələrinin xüsusi mərasim təşkil edərək yandırırlar və külünü Qanqa çayının sularına səpirlər. Qədim zamanlarda adət-ənənə belə idi ki, ölən insanın cənazəsini yandırdıqları zaman onun həyat yoldaşı da öz vəfadarlığını nümayiş etdirmək məqsədilə yanar odunların arasına uzanırdı və öz əri ilə birlikdə yanırdı. Belə qadınlara Sati, yəni vəfalı və fəzilətli xanım adı verilirdi. (Əsli Sanskrit olan bu sözdən Ərəb və Fars dillərində çox möhtərəm xanımların tərifi zamanı istifadə edilir). Belə fədakarlığa dözə bilməyən qadınlar isə saçlarını qırxdırırdılar və xeyirli işlərlə məşğul olurdular. Həyat yoldaşlarının diri-diri yandırılması adətini ilk dəfə olaraq İngilislər 1829-cu ildə Hindistanın bəzi bölgələrində qadağan etdilər və

---

[1] Bu mərasimlərdən biri də on iki ildə bir dəfə baş verir. Belə mərasimlərdən biri 1998-ci ilin Bahar fəslində keçirildi. Mərasimdə təxminən on milyon Hindli iştirak edirdi və mərasimdə nizam-intizamın qorunması üçün iyirmi beş min polis cəlb olunmuşdu.

[2] İnformasiya agentliklərinin məlumatına görə Hindlilərin bəziləri undan insanın heykəlini hazırlayaraq onu qurban kəsmişdilər.

bu qadağa getdikcə Hindistanın bütün bölgələrində həyata keçirilməyə başladı. Saib Təbrizi yazır: "Heç kim Hind qadınları kimi sevgi və eşqdə mərd və vəfalı deyil. Sönmüş şam yolunda yanmaq da hər pərvanin işi deyil."

## 1-4. Upanişadların fəlsəfəsi

Brahmanın zamanında (Eramızdan əvvəl 800-500-cü illərdə) qurban etmək dini adət-ənənəsi ifrat nöqtəsinə çatdı və onun genişlənməsilə dinin ən dərin düşüncəli və mənalı məsələləri belə unudulmağa başlanıldı. Atın və digər canlıların qurban kəsilməsi ölkənin iqtisadiyyatına böyük zərbələr vurdu və şahlıq xəzinəsi boşaldı. Elə buna görə də, Brahmanlar çıxış yolunun yalnız dində referendumun aparılmasında və yeniləşdirilməsində gördülər. Onlar meydana iki növ ideologiya çıxartdılar:

1. Aranyakelər (Aranyakas), yəni meşə namələri. Bu namələrdə özlərinə müxtəlif zülmlər edən insanlara aid məsələlər barədə söz açılıb.
2. Upanişadlar (Upanishads), yəni yaxın oturmaq və daha geniş açıqlama versək dinin sirlərini öyrənmək məsələlərinə aydınlıq gətirilib.

Upanişad daha böyük şöhrət qazandı. Bu kitab ilk dəfə alim, incəsənətçi və arif şahzadə olan Hindistanın müsəlman padişahı Şah Cahanın oğlu Daraşukuhun zamanında İslam irfanı ilə Hinduizim arasındakı oxşar cəhətləri çatdırmaq məqsədi ilə hicri-qəməri tarixi ilə 1067-ci ildə fars dilinə tərcümə olunmuşdur. Bu kitabı "Böyük sirr" adlandırmışdılar. (Əcnəbilərin Upanişadla ilk tanışlığı da elə bu kitabın köməkliyi ilə baş tutmuşdur).

Upanişad Vedanta, yəni "Vedaların sonu" adı ilə də adlandırılmışdır. Bu kitab Vedaların daxilini açıqlayır və insanların diqqətini zahiri yayınmalardan mənəvi böyüklüyə və batini məzmunlara diqqət yetirməyə çağırır. Qeyd etdiyimiz bu kitab bütün dünyada tanınmış kitablardan biridir.

### 1-5. Hinduizmin əsasları

Hinduizmin əsasları Brahmanların dini adət-ənənələrinə və antik kitablara etiqad və ehtiramdan, qədim dövrlərdə zühur etmiş tanrılara sitayış etməkdən ibarətdir. Ruhun yeni cismlər içərisində yenidən yerləşməsi və əlaqələr qurmaqda, eləcə də, ailə qurmaqda ictimai təbəqələşməyə, yəni kastalara riayət etmək, diri varlıqlara, xüsusən də inəyə hörmət etmək bu dinin əsas prinsiplərindən biridir.

Hindular inəyi ən müqəddəs heyvan kimi qəbul edirlər və onun heykəlini mənzillərdə, məbədlərdə və şəhər meydanlarında yerləşdirirlər. İnəklər küçələrdə azad şəkildə dolanırlar və dükanlarda olan meyvə və tərəvəzləri yeyirlər, tıxaclar yaradırlar və onların belə hərəkətlərinə heç kim etiraz belə etmir. İnəyin ətindən və dərisindən istifadə etmək qəti qadağandır və inək öləndə həmin inək xüsusi dini mərasim keçirərək torpağa tapşırılır. İnəkdən əlavə digər heyvanlara qarşı da hörmət və ehtiram çoxdur. Bu canlı xırda həşəratdan filə qədər ola bilər. Amma Hindistanın digər bölgələrində hindular yaşamadıqları üçün bu yerlərdə vəziyyət adidir. Hinduların azlıq kimi yaşadıqları ərazilərdə isə inəyin kəsilməsinin və ətinin satışa çıxarılmasının tam açıq formada həyata keçirilməməsi üçün müxtəlif tədbirlər həyata keçirilir. Qeyd etmək lazımdır ki, bəzi Hidular keçi və digər heyvanların ətindən istifadə edirlər, amma bəzi yerlərdə isə hətta yumurtanın yeyilməsinə belə qadağa qoyulmuşdur. İnsanın daxilinin də mübarək olması üçün İnəyin sidiyinin içilməsi və peyinin yeyilməsi geniş yayılmışdır və Hindlilərin bir çoxu təzə inək sidiyi əldə etmək üçün əllərində müxtəlif qablarla otlaqlarda inəklərin arxasıyca qaçırlar. Həmin sidiyin bir hissəsini içirlər və qalan hissəsini əllərinə, üzlərin və paltarlarına vururlar. Zahı qadının və Hindistan torpaqlarından kənara çıxmış insanların pak olması üçün onlar "Pança qavya", yəni inəyə aid olan beş şey-süd, qatıq, yağ, sidik və peyin yeməlidirlər. Bəzən də, hər hansı bir yerin pak olması üçün bir inəyi müəyyən zaman ərzində orada saxlamalıdırlar və bu müddət ərzində həmin yerə lazımi qədər inək sidiyi və peyini dəyməlidir. Hindular üçün təxminən Amin mənası verən "Om" sözü olduqca müqəddəsdir və iba-

dətlər, xüsusi mərasimlər zamanı həmin sözü xüsusi avazla təkrarlamağa başlayırlar. Bu söz Tanrının ən böyük adıdır və müqəddəslikdə Yəhudi dinindəki "Yəhvə" adına çox bənzəyir.

### 1-6. Veda Tanrıları

Hindlilər qəribə adlara və görünüşlərə malik olan çoxlu sayda yer və göy Tanrılarına inanırlar və onların hər birisi üçün əzəmətli bütxana inşa edirlər. Bu Tanrılar arasında yaxınlıq və qohumluq əlaqələri də mövcuddur. Onların hər birinin cismi və ruhi xüsusiyyətləri Hinduların müqəddəs və dini-mədəni kitablarında geniş şəkildə açıqlanmışdır. Müxtəlif dövrlərdə tanrıların insan və heyvan formalarında təzahür etmələri məsələsi də diqqət yetirilməsi vacib olan məqamlardan biridir. Tanrıların da kastalara uyğun olaraq qruplara bölünməsi mövcuddur. Hinduların ən tanınmış və məşhur tanrıları aşağıdakılardır:

1. Aqni (Agni), yəni atəş
2. Varuna (Varuna), yəni səma
3. İşvara (İsvara), yəni qüdrətli və aliməqam
4. Rurdra (Rurdra), yəni dəhşətli
5. Rama (Rama), yəni ürəyəyatan
6. Krişna (Krishna), yəni tünd mavi
7. Yama (Yama), yəni ölülərin ruhlarına hakim Tanrının arabaçısı. Zərdüştlükdə Yamanın müqabilində Cəm dayanır.
8. Aşvin (Asvin), yəni at çapan. Hindu dinində iki mələkin adıdır. Onların dini nəzərlərinə əsasən bu iki səmavi həkim insan üçün sağlamlıq, xoşbəxtlik və var-dövlət gətirir.

Çirkin, eybəcər və  pis zatlı dişi bütə, yəni tərcümədə qara mənasını verən Kaliyə sitayiş edənlər bu büt üçün hədiyyələri yol kəsməklə əldə edə və oğurluq ilə əldə etdiyi qəniməti ona hədiyyə edə bilərlər. Bunu da qeyd etmək lazımdır ki, bütləri çox gözəl düzəldirlər. Belə ki, Fars ədəbiyyatında, ümumiyyətlə klassik şərq ədəbiyyatında büt dedikdə gözəl məhbub nəzərdə tutulur.

Hinduların sitayiş etdikləri bütlərin bəziləri bütxanalarda və bəziləri evlərdə saxlanılır. Bütlərin əksəriyyəti məxsusi görünüşləri olan metal oyuncaqlardır. İnsanlar belə bütləri mağazalrdan alaraq evlərinə gətirirlər. Onlar əldə etdikləri bu oyuncaqlarla insanlarla davrandıqları kimi davranırlar. Belə ki, onları yuxudan oyadırlar, paltar geyindirirlər, onların qabaqlarına yeməklər qoyurlar, onları tərifləyir və bəzən də tənbeh edirlər.

## 1-7. Üç tanrı

Hindistan Ariyayiləri bir çox müşriklər kimi dünyanın yaradıcısı olan Tanrıya da inanırdılar və onu Brahma, yəni əzəli və əbədi olan varlıq adlandırırdılar. Onların ilk zamanlarda bütləri və bütxanaları yox idi. Dini mərasimlərini isə açıq havada həyata keçirirdilər və onların sitayiş etdikləri Tanrılar səma cismləri olan erkək Tanrılar idilər. Sonrakı dövrlərdə saysız-hesabsız bütlər və bütxanalar meydana çıxdı və Ana ilahə, yer ilahəsi, Kobra ilanı və sair məfhumları da Tanrılaşdıraraq öz Tanrılarının cərgəsinə əlavə etdilər.

Hinduların üç tanrısı (Hindu Trimurti) aşağıdakılardır:

1. Brahma; Dünyanın yaradıcısı və xaliqi.
2. Şiva (Siva); Fani edən Tanrı. Bu Tanrının dörd əlli rəqs edən heykəli hər yerdə gözə çarpır. Şivanın rəqs eləməsi, onun məhv edə bilməsi və yenidən yaratmaq qabiliyyətinə malik olmasını nümayiş etdirir.
3. Vişnu (Vishnu); Qoruyucu Tanrı. Vişnunun 1000 adı mövcuddur və Hindistanın dini əfsanələrində[1] onun insanlara yardım etmək üçün on cildə düşməsi qeyd olunmuşdur. Vişnanın cildləri bunlardır: Balıq, tisbağa, qaban, liliput, yarı insan və yarı şir olan məxluq, əlində balta tutmuş Rama, Rama, Krişna, Budda, Kalki. Hindularına dini nəzərincə Buddizmin banisi olan Budda və qiyamət günü zühur edəcək şəxs Kalki dünyanı islah etmək və yenidən düz yola dəvət etmək üçün əllərində qılınc, at üstündə zühur edəcəklər.

[1] Şahnamədə də əfasənəvi Simurğ quşu belə xidmətlər göstərir.

Hinduizmin saysız-hesabsız firqələri vardır və onların hamısı sülh və əmin-amanlıqla bir yerdə yaşayırlar. Bu firqələrin davamçıları dinin xüsusi bir sahəsinə daha çox diqqət ayırırlar və çox vaxt da Tanrılardan birinə tapınırlar. Şiva və Vişnu tərəfdarları ayrı-ayrılıqda böyük dəstələr yarada bilmişlər.

Şivaya sitayiş edənlər onun cinsiyyət üzvünə də, yəni onun erkəklik üzvü olan Linqaya da sitayiş edirlər. Bəzən də onun qadın cinsiyyət üzvünü Yoni adlandıraraq onu boşqab formasında hazırlayırlar və erkək cinsiyyət üzvünü isə onu üzərində yerləşdirirlər. Linqanın heykəli və məbədlərinin sayı çoxdur. Sonsuzluq bəlası və nəslin artırılması sahəsində mühim rol oynaması qədim zamanalardan bu inancın geniş şəkildə yayılmasına gətirib çıxarmışdır. Cinsiyyət orqanına sitayiş edənlər qeyd olunmuş heykəllərdən kömək istəyirlər. Onlar üçün insanların əsrlər boyu saxladıqları abır-həyanın mənası yoxdur. Vill Dorantın sözlərinə əsasən Qandi qərb missionerlərinin Hindlilərin cinsiyyət orqanına sitayiş etmələrinin eybəcərlikləri barədə yazmalarından gileylənirdi.[1]

Linqaya hörmət və ehtiram məqsədilə ona ibadət üçün inşa edilmiş 12 məbəddən biri də Sumanat məbədidir. On dörd qızıl gümbəzi, saysız-hesabsız sərvəti olan bu məbəd Soltan Mahmud Qəznəvini təhrik etdi. O, hicri-Qəməri tarixilə 416-cı ildə ora hücum etdi və orada olan qızıl, gümüş, ləl-cəvahirat və bütün qiymətli şeyləri taladı. Hindular Sultan Mahmud Qəznəvinin bundan öncə digər bütxanalara hücum edərək qarət etməsini Sumanat bütxanasında olan bütün digər məbədlərdəki bütlərə qəzəblənməsi ilə açıqlayırdılar və elə buna görə bu məbədə daha çox diqqət ayırırdılar. Soltan Mahmud böyük qoşunla büt sındırma şüarı altında Sumanat məbədinə hücum etdi və saysız-hesabsız hinduları qətlə yetirdikdən sonra öz ağır gürzü ilə Linqa heykəlinin başından vurdu. O, öz böyük qələbəsini nümayiş etdirməkdən ötrü həmin heykəlin bir parçasını Qəzneyn şəhərinə gətirdi və cümə məscidinin kənarında insanlara göstərdi. Eləcə də, həmin

---

[1] Sivilizasiya tarixi, Tehran, cild 1, səh 591

heykəlin bəzi hissələrini Məkkəyə və xilafətin mərkəzi olan Bağdada və digər İslam ölkələrinə göndərdi.[1]

Şivaya sitayiş edən dəstələrdən başqa birisi də Lanqavatdır, yəni Linqa daşıyıcılarıdır. Bu firqənin əsası 12-ci əsrdə qoyulmuşdur. Onlar balaca bağlama içərisində olan Linqanın xırda heykəllərinin daim boyunlarından asılı vəziyyətdə gəzdirirlər. İnsan qurban kəsmək və ölülərin kəllə sümüklərində şərab içmək də Şiva firqələrindən bəzilərinə aid edilir. Tərcümədə güc mənasını verən Şakti firqəsinin davamçılarının inancına əsasən ilahi qüvvə zərif cinsin daxilində yerləşmişdir. Elə buna görə də, şakti məbədlərində gənc qız və qadınlar rəqs edirlər. Bəzi firqələrdə daha vəhşi rəqslərin, qulaq batıran səslərin çıxarılmasının və dəlilərin qeyri-adi hərəkətlərinə bənzər rəqslərin edilməsinin ruhun təkamülünə kömək etməsi bildirilir.

Hinduizmdə qədim zamanlardan xüsusi terminlər mövcud olmuşdur və Buddizm də həmin dini terminlərdən biri ola bilər. Son əsrlərdə Hinduizmin xristiyanlıq və Avropa mədəniyyətilə tanışlığından sonra 1828-ci ildə Kalkatada Ram Mohan Roy tərəfindən "Brahmo samac" (yəni Brahmanlar təşkilatı) adlı islahatçı hərəkat yarandı. Həmin hərəkatın əsas məqsədi Hinduizmi müşriklikdən və xürafatdan uzaqlaşdırmaq idi. 1875-ci ildə isə Bombey şəhərində Dayananda Sarasvati tərəfindən "Ariya samac" (yəni qədim Hinduizmə qayıtma) hərəkatı meydana çıxdı. Ramakrişna da dinlərin vəhdəti və birliyinə əsaslanan yeni əqidə yaratdı və bir qrup insanlar da onun islahatçı məktəbinə daxil oldular. Bu üç firqənin Hindistan cəmiyyətində az davamçıları vardır və Hinduizm xristiyanlığa meyilliləşməkdədir.

Bu hərəkatın əksinə olan hərəkat, yəni xristiyanlığın Hinduizmə yaxınlaşması "Teosofi" (Teosophy) adlandırılır. Bu hərəkatı xanım Blavatski və xanım Besant meydana çıxartdılar. Bu məktəb "New Age", yəni "Yeni əsr" məktəbinə çevrilmişdir.

---

[1] Sumanat məbədi dəfələrlə dağıdılmışdır və onun hal-hazırkı binasının əsası 1951-ci ildə qoyulmuşdur.

### 1-8. Karma, Samsara, Mokşa və Nirvana

Tərcümədə rəftar, davranış və əməl mənasını verən Karma qanunlarına əsasən insan öz əməllərinin nəticələrini bu dünyaya yenidən qayıtdıqda görə bilər. Yaxşı əməl sahibləri sonrakı mərhələdə rifah və xoşluq içərisində yaşayacaqlar, amma pis əməl sahibləri isə yenidən qayıtdıqda səfillik və bədbəxtlik içərisində yaşayacaqlar. Bəzilərinin heyvan şəklində qayıtması da mümkündür. Ruhun digər canlılarda yerləşməsinə inanan insanların bəzilərinin əqidəsinə görə insanın qayıtması dörd cür ola bilər. Bu cansızlardan tutmuş insanlara qədər ola bilər və əlifba sırasıyla tərtib etsək belə alınar:

1. Rəsx; Ölən insanın ruhunun daşa köçməsi
2. Fəsx; Ölən insanın ruhunun bitgiyə köçməsi
3. Məsx; Ölən insanın ruhunun heyvana köçməsi
4. Nəsx; Ölən insanın ruhunun insana köçməsi

Tənasux (İnsanın ruhunun yeni bədənə transformasiya olunması) mənasını verən Samsara dünyanın bir çox din və məzhəblərində (Yəhudilik, xristiyanlıq və İslam dinin bəzi səhv firqələrində) müxtəlif adlar altında mövcuddur. Amma Hinduizmdə bu əqidə böyük əhəmiyyətə malikdir. Hinduizm davamçılarının nəzərincə insan ruhu cisimləri dəyişməkdə davam edir. Yəni bu dairəvi hərəkətdə dəyişən cismlər olur, amma ruh eyniliklə qalır.

İnsanın dayanmadan dövr edən və əzab-əziyyətlə dolu ruhun cismlərdə yerləşməsində yeganə çıxış yolu onun Moşkanı (Azadlığı) əldə etməsi və Nirvanaya çatmasıdır. Bu söz tərcümədə sakitlik və sabitlik, amma terminalogiyada isə “Allahın fənasına və varlığına qovuşmaq” deməkdir.

### 1-9. Vücudun vəhdəti (Vəhdəti-vücud) fəlsəfəsi

Hindu alimləri və filosoflarının nəzərincə həmin dinin saysız-hesabsız Tanrıları bir Allahın təzahürləridir və bütün varlıqlar ilahiliyin əzəmətli bədəninin üzvləridir. Onların nəzərincə bu dünya və onda olan hər bir şey xəyaldan başqa heç nə deyildir. Bu xəyalı Maya, yəni yalan və təvəhhüm adlandırırlar. Onların inanclarına görə bütün

bu xəyallar və yalan surətlər sonda məhv olacaq, həmişə var olan Brahman qalacaq. Son əsrlərdə Hinduizm irfanı qərbliləri öz sehrinə salmışdır. Qeyd etmək lazımdır ki, İslam irfanı da qərblilərin bir hissəsini İslam dininə yaxınlaşdırmışdır.

Hinduizmin əxlaq qanunları, sufiliyi və zərif düşüncələri qədim zamanlardan indiyə qədər özünəməxsus cazibəyə malik olmuşdur. Bəzilərinin sözlərinə əsasən Hinduizmin bəzi düşüncələrinin həm Xristiyanlıq, həm də İslamda olan sufi əhlinə düşüncə baxımından güclü təsiri olmuşdur.[1]

Hinduların imanlarının əsası dörd məfhumdan ibarətdir:

1. Ruhun ilahiliyi
2. Varlıqların vəhdəti və birliyi
3. Tanrıların vəhdəti və birliyi
4. Dinləri və məzhəblərin vəhdəti və birliyi

Hinduizm özünə qapanmağı və özünü mərkəzləşdirməyi qəbul etmir və hər bir Hindus öz dinindən əlavə dünyanın hər hansı dinlərindən birini qəbul edə bilər. Amma buna baxmayaraq Hinduslaın arasında ən kəskin təəssübkeşlik mövcudur. Yalnız bir məsələni qeyd etsək kifayət edər ki, Mhatma Qandi Hindularla Müsəlmanlar arasında bərabərliyə inandığı üçün bir qrup Hindusun düşməninə çevrildi və sonda həmin təəssübkeş Hinduslardan biri onu güllə ilə qətlə yetirdi. Son zamanlar Hinduslaın təəssübkeşliyi daha da güclənmişdir. Bunun ən yeni və amansız təzahürü Babərilər məscidinin dağıdılması, çoxlu sayda müsəlman və hindusun həmin hadisədə ölməsidir. Onların bu işi etməkdə bəhanələri isə Babəri məscidinin yerləşdiyi məkanın Ram bütünün doğulduğu yer olması idi. Onlar belə iddia edirdilər ki, Vişnu həmin yerdə Ram bütü formasında gözə görünmüşdü və Hinduslar həmin məkanda bütxana tikmişdilər. Amma sonralar həmin məbəd məscid formasına salınmışdır. Təəssübkeş Hinduslar bu bəhanələri əllərində saxlayaraq öz bütlərini məscidin dağıntıları üzərində yerləşdirmişlər və onlara sitayiş etməyə başla-

[1] Mircea Eliade (ed), The Encyclopedia of Religion, vol 15, pp 1-460

mışlar. Hinduslar həmin yerdə Ram məbədinin inşa etmək istəyirlər, amma müsəlmanların İslami məscidin Hindus bütxanasına dəyişdirilməsi məsələsinə kəskin etirazlarına görə məsələ hələ də havada qalmaqdadır.

Hinduslarin Kəşmirdə törətdikləri cinayətlər də diqqətə layiqdir. Onların İslam dini və müsəlmanlarla savaşması və bu məqsəd uğrunda Sionist İsrail rejimi ilə əməkdaşlıq aparması www.Hindruunity.com internet saytında aydın şəkildə öz əksini tapmışdır.

**1-10. Yoqa fəlsəfəsi, yaxud Cukyan metodu**

Hinduslarin nəzərincə həqiqətə çatmaq və qadir Allaha qovuşmaq yalnız yoqanınköməkliyi ilə mümkündür. Yoqa çətin və nəfəskəsici əzablara dəlalət edir və çox zaman sakit oturmaq, bardaş qurub düşünməklə meydana çıxır. Amma bunun üçün başqa metodlar da mövcuddur. Məsələn; dayanmaq, başaşağı durmaq, əyilmək, qollardan sallanmaq və üzərinə mismarlar vururlmuş taxtanın üzərində uzanmaq. Bu işlər on il belə davam edə bilər və bununla yanaşı digər çətin məqamlar, suyu önünə qoyub susuz vəziyyətdə ona baxmaq kimi məşəqqətli anlar yaşanıla bilər.[1]

Nəfəsin həbs edilməsi məsələsi belədir ki, güclü məşqlərdən sonra tənəffüs sayları aşağı düşməyə başlayır və əsil yoqaçı bir ildə bir neçə dəfə nəfəs almaqla yaşaya bilir. Yoqa ilə nəbzin vurmasını və bədənin digər fəaliyyətlərini də ələ almaq olur. Belə hallarda insan bədəni digər yollardan istifadə etməklə sağ qala bilir. Belə ki, Yoqa ilə məşğul olan şəxsi altı ay ərzində qəbrdə dəfn edirlər və altı aydan sonra onun qəbrini açdıqda sağ olduğunu görürlər.[2]

Bu qədər çətinliyə və əzab-əziyyətə dözmənin həqiqətə çatmaq üçün həyata keçirilməsinə baxmayaraq belə ağır əziyyətlərə tab gətirmək yeni bacarıq və kəramət əldə olunması ilə nəticələnir. Yoqaçı

---

[1] Yoqanın adətləri və bunun üçün, yəni insan üçün lazım olan bütün şərtlər Patancali kitabında qeyd olunmuşdur. Böyük alim Əbu Reyhan Biruni bu kitabı Ərəb dilinə trəcümə etmişdir.

[2] Bunun həqiqət olmasına şübhə var (Redaktor)

belə məsələlərin onun kəmala çatması yolunda maniə kimi qəbul edir və çox vaxt belə qeyri-adi vərdişləri heç vaxt üzə çıxartmır.

Qərb alimləri bir neçə yoqaçı üzərində təcrübələr apardıqdan sonra həmin halların bəzilərinin həqiqi olmasını sübuta yetirmişlər. Məsələn, 1936-cı ildə Doktor Brossun başçılığı altında həkim heyəti nəfəsin həbsi barəsində təcrübə və tədqiqatlar apardıqdan sonra öz nəticələrini çap etdirmişlər.[1]

## 2. Caynizm

Brahmanizmin qollarından biri də Caynizmdir. Cayna söznün mənası "Qalib" deməkdir və bu firqə eradan qabaq 6-cı əsrdə meydana çıxmışdır.

### 2-1. Mahaviranın sərgüzəştləri

Caynistlərin nəzərincə bu firqənin banisi Mahavira (yəni, böyük qəhrəman) olmuşdur. O, özündən min illər öncə ərzində mövcud olan iyirmi üç liderlərdən sonra gələn iyirmi dördüncü liderdi. Mahavira eradan altı əsr öncə Hindistanın zadəgan ailələrindən birində dünyaya göz açmışdır. O, otuz yaşında dünyadan uzaqlaşdı və uzun illər boyu əzab-əziyyət çəkdikdən sonra həqiqətə çatdı. O, özü yaratdığı məzhəbi genişləndirdikdən sonra eradan öncə 526-cı ildə cismi boşaldaraq Nirvanaya qovuşdu.

### 2-2. Fəlsəfə və əxlaq

Bu firqə davamçılarının ən təəccübləndirici adətlərindən biri onların paltar geyinməni haram bilmələridir. Belə ki, onların nəzərincə Mahavira özünə əzab-əziyyət verməklə dünyəvi bağlılıqlardan qurtarmaq istəyəndə fikrinin abır-həya məsələsinə bağlı qalmasını görəndə bütün paltarlarını əynindən atdı və ömrünün sonunadək lüt yaşadı.

---

[1] Presse Medicale, 14 oktyabr 1936

Eradan qabaq 79-cu ildə bu məzhəb davamçıları arasında paltarsızlığın həddi barəsində ixtilaf və parçalanma meydana çıxdı. Beləliklə, bu tarixdən sonra həmən məzhəb davamçıları iki yerə bölündülər: **Digambara**, yəni "səmalibaslılar" heç bir paltar və libası qəbul etmədilər, amma **Svetambara,** yəni "ağlibaslılar" azacıq parçadan istifadə etməyə icazə verdilər. Hindistan inqilabının rəhbəri Qandi bu məzhəbin təsiri altına düşərək cavanlıqda tikdirdiyi bütün paltarlarını kənara qoydu və az miqdarda ağ rəngli parçadan istifadə etməyə başladı.

Bəzən xarlıq və səfillik fəzilətlərdən hesab edilir. Səmalibaslıların nəzərincə qadınlar kamilliyə çata bilməzlər və onlar yenidən bu dünyaya kişi cildində gəlmələrini gözləməlidirlər. Caynizm davaçılarından varlıq həqiqətini tanımaq barəsində qalan hekayə filin qaranlıq yerə salınması və insanların tam qaranlıqda əllərini filə toxundurmaqla onu tanımaq istəməsi və sonda hamısı səhv mühakimə yürütməsi hekayəsidir.[1]

### 2-3. Ahimsa

Caynizm Brahmanizmin təlimlərini qəbul etməkdən əlavə meydana yeni məsələlər çıxartdı və kəskin əxlaqi qaydalara riayət olunmasına təkid göstərməyə başladı. Caynistlərin əqidəsinə görə iki yolla nicat tapmaq mümkündür; Birincisi əzab-əziyyət çəkməklə və ikincisi Ahimsa, yəni canlılara əzab verməməklə. Bu firqənin inanclarına əsasən əkinçilik və kənd təsərrüfatı ilə məşğul olmaq haramdır, çünki əkinçilikdə torpağın qazılması hansısa həşəratın və yaxud qurdun ölümünə səbəb ola bilər. Torpağın altında yetişən tərəvəzlərdən, o cümlədən çuğundur, kök, turp və kartofdan istifadə etmək də haramdır. Çünki, yuxarıda qeyd etdiyimiz kimi bu tərəvəzlərində çölə çıxarılması üçün yeri qazmaq lazımdır. Bu məzhəb davamçıları ev və vəhşi heyvanların müalicəsi üçün böyük xəstəxanalar inşa etmişlər və

---

[1] Bu hekayə Mövlana Cəlaləddin Ruminin Məsnəvisinin üçüncü dəftərində səhifə 1259-1268-də qeyd olunmuşdur.

çox vaxt da ağızlarına parça bağlayırlar. Parçanın bağlamasının da səbəb hər hansı bir xırda canlının onların ağzına getməsi və orada məhv olmasının qarşısı alınsın. Onlar hər hansı bir qurdun və yaxud canlının ağızlarına daxil olub orada məhv olmasının qarşısını almaq üçün suyu çox təmizləyirlər. Eləcə də, tovuz quşunun lələklərindən hazırlanmış süpürgələrdən istifadə edərək qarşılarına çıxan xırda həşəratları yollarından uzaqlaşdırırlar. Yemək və içməkdən imtina etməklə intihar etmək ən fəzilətli işlərdən hesab edilir və Mahaviranın özü də dünyasını belə intihar yolu ilə dəyişmişdi.

### 2-4. Dini kitablar

Caynizm davamçılarının da yazılı dini irsi və mədəniyyəti mövcuddur. Onların dini kitablarının sayı təxminən otuz doqquza çatır. Səmalibaslıların müqəddəs saydığı kitabın adı Prakarana və Ağlibaslıların müqəddəs saydığı kitablar isə Aqama və Sidanta idi.

### 2-5. Davamçılar

Hal-hazırda Hindistanda Caynizmin təxminən iki milyon davamçısı mövcuddur və artıq onlar paltar geyirlər və dilənçilik əvəzinə ticarətlə məşğuldurlar. Yəni onların maddi durumu çox yaxşıdır. Onlar öz məzhəblərində və inanclarında yeniləşmə aparmışlar və onların olduqca az hissəsi və ən müqəddəs bildikləri insanlar qeyd etdiyimiz qeyri-adi metodlardan istifadə etməklə həyatlarını sürürlər.

## 3. Buddizm

Buddizm Brahmanizmin qollarından biridir. Bu din Hindistan sərhədlərini aşaraq bütün şərq regionunu öz çənginə almışdır. Buddizmin zərif irfani düşüncələrə malik olması və dünuyanın ən çox əhalisi olan regionunda yayılması səbəbindən bu dinin davamçıları çoxdur.

Qeyd etmək lazımdır ki, son zamanlar Avropa və Amerikaya da təsir göstərməyə və adları çəkilən ərazilərdə yayılmağa başlamışdır.

**3-1. Buddanın həyatı**

Tərcümədə "Oyaq" mənası kəsb edən Budda sözü əslində islahatçı Buddizm məktəbinin banisi Qautama Şakyamuninin ləqəbidir. Buddistlərin nəzərincə Hindistanın şimalında yerləşən Kapilavastu[1] şəhərinin padşahının oğlu olan Qautama eradan qabaq 563-cü ildə dünyaya gəlmişdir və ilk öncə Siddarta, yəni xoşbəxt adını daşıyırdı. Astroloqlar bu şahzadənin gələcəkdə islahatçı və böyük fateh olacağını bildirmişdilər. Eləcə də, bəzi xəstəliklərin nümunələrini, qocalığı, ölümü və böyük əzab-əziyyət çəkdidən sonra dünyadan üz döndərəcək və nəfsinin əzab-əziyyət yolu ilə tərbiyələndirilməsi yolunu seçəcəyini söyləmişdilər. Elə bu səbəbdən də, atası onu yorucu həyatdan uzaqlaşdıraraq naz içərisində yaşaması üçün şərait yaratdı və onun davranışlarını nəzarət altında saxlanılmasına təkid etdi. Şahzadə əmisi qızı Yaşudhara ilə ailə qurdu və onların Rahula adlı oğlu dünyaya gəldi. 29 yaşında onun barəsində verilən proqnozların həqiqətən də baş verdiyini görən Qutama gecə vaxtı saraydan və naz-nemətlərindən qaçdı. O, Alara adlı bir şəxslə tanış olduqdan sonra onun təlimlərdən istifadə etdi və rahiblik həyatını seçdi. Nəfsinin paklaşması üçün altı il meşələrdə yaşayaraq özünə müxtəlif əzablar çəkdirdi və sonda həqiqətə nəfsani əzablarla çata bilmədiyini gördükdə bu metodu tərk etdi, düşünmək və mənəviyyatını paklaşdırmaq mərhələsinə başladı. Onun böyük cihadı altı il çəkdi. O, sonralar "Oyanış ağacı" adlanan ağacın altında yeddi həftə oturdu, dağıdıcı şeytan Mara ilə mübarizə apardı və həqiqətə çataraq hamının yaxşı tanıdığı Budda oldu. Buddistlərin əqidəsinə görə ötən zamanlarda da bir neçə Budda mövcud olmuşdur. Buddaların hər birisi zühur etməmişdən öncə

[1] Bu şəhər hal-hazırda Nepal ölkəsinin tərkibindədir və Buddanın dünyaya gəldiyi yer həmin şəhərin 15 kilometrliyində yerləşmişdir.

**Bodisatva** adı ilə məşhurlaşmışdılar. Yəni, əxlaq, irfan və mərifətə çatmış şəxs və yaxud güclü Budda.

Budda qırx il ərzində Hindistanın müxtəlif yerlərinə səfərlər edərək öz dinini bu ölkənin hər yerində təbliğ etmişdir. Onun insanlarla keçirdiyi görüşlərdən sonra bir çox şagirdi meydana çıxdı və bu şagirdlərin ən tanınmışı əmisi oğlu Ananda idi. Budda sonda səksən yaşında təxminən eradan əvvəl 483-cü ildə bu dünyanı tərk edərək Nirvanaya qovuşdu.

Buddanın qeyri-adi həyat hekayəsi ən qədim zamanlardan belə hamının diqqətini özünə cəlb etmişdir və elə bu səbəbdən də, bu dini hekayə dünyanın müxtəlif dillərinə tərcümə olunaraq çap edilmişdir.

### 3-2. Quruluşun təsis edilməsi

Buddanın islahatçı düşüncələri Brahmanların təəssübkeşliyi ilə zidd idi və ictimai təbəqələr, yəni kastalar arasındakı fərqin səhv anlayiş olduğunu bildirirdi. Onun əxlaqi təlimləri **Tri-pitaka,** yəni "Üç səbət" toplusunda bir yerə toplanılmışdır. Brahmanizm dini üzərində qurulmuş bu təlimlər dünyadan uzaqlaşmağı, nəfsin paklaşdırılmasına, bu dünyanın əzab-əziyyətlə dolu girdabından qurtarmaq üçün düşünməyi və səy göstərməyi tövsiyyə edir, Nirvanaya qovuşmağa ciddi təkid göstərir. Sonrakı əsrlərdə Buddizm Hindistanın böyük hissəsini əhatə edir və qonşu ölkələrdə də kəskin şəkildə genişlənməyə başlayır. 8-9-cu əsrlərdə Brahmanizmin iki böyük alimi qədim dinin üzərində bəzi yeniliklər yaratmaqla Hinduizmi meydana gətirdilər. Bununla da Buddizm Hindistanda öz yerini yavaş-yavaş itirdi və Hinduizm onun yerini tutdu. Amma onun müxtəlif formaları uzaq şərqdə və digər regionlarda genişlənməyə başladı.

### 3-3. Buddanın fəlsəfəsi

Həqiqəti əldə edərək ona qovuşan Budda ilk olaraq Benares şəhərinə getdi. Onun məqsədi ondan üz döndərmiş beş rahibi tapmaq idi. Budda belə fikirləşdi ki, bu beş nəfər də onun kimi həqiqət axtarı-

şındadırlar və onları təlimləndirmək başqalarına təlim verməkdən daha asan ola bilər.

Benares şəhərinə daxil olan kimi həmin beş nəfəri gördü. Onlar şəhərin yaxınlığındakı meşədə oturaraq söhbət etdi. Onlar Buddanı görən kimi bir-birilərinə belə dedilər: "Bu gələn Siddartadır. O, rahiblikdən əl çəkib və buna görə də yaxşı olar ki onunla heç biri işimiz olmasın."

Amma Budda onlara yaxınlaşan kimi ona salam verdilər və ondan yanlarında oturmağı xahiş etdilər. Bu zaman ondan soruşdular: "Sonda axtardığın həqiqəti tapa bildin?" Budda cavab verdi: "Bəli onu tapdım."

Rahiblər dedilər: "Varlığın həqiqəti, hikməti və sirri nədir?" Budda soruşdu: "Siz Karmaya, yəni davranış qanunlarına inanırsınız?" Rahiblər cavab verdilər: "Bəli inanırıq." Budda dedi: "Elə isə bilin ki, hikmətin və agahlığın başlanğıcı həqiqətdir. Yaxşıdan yaxşı əmələ gəlir və pisdən pis. Bu həyatın ilk qanunudur və bütün başqa şeylər bu qanun üzərində qurulmuşdur."

Rahiblər dedilər: "Bu yeni məsələ deyil." Budda dedi: "Əgər belədirsə onda qurban kəsməyin, duanın və insanın öz nəfsinə işkəncə verməsi ağıllı addım deyildir."

Rahiblər soruşdular: "Necə?" Budda cavab verdi: "Çünki, su həmişə enişə doğru hərəkət edir, od həmişə yandırır və buz həmişə soyuqdur. Əgər Hindistanın bütün Tanrılarına belə dua oxusaq su yoxuşa tərəf hərəkət etməyəcək, od soyuq və buz isti olmayacaq. Çünki, bu həyatda elə qanunlar mövcuddur ki, bütün məsələlər bu qanunların üzərində qurulmuşdur. Elə buna görə də, bunu ləğv etmək olmur və dua edərək qurban kəsməyin də bu məsələyə heç bir xeyri yoxdur."

Rahiblər bu sözlə razılaşdırlar və Budda sözlərinə davam edərək dedi: "Əgər bu söz həqiqətdirsə, onda insanlara dua etməyin və qurbanlar kəsməyin adət-ənənəsini öyrədən Vedalar kitabı da düzgün deyildir və mən olanların dediklərinin tam əksinə olaraq demək istəyirəm ki, Vedalar müqəddəs deyildir."

Rahiblər onun belə cəsarətli sözlərindən təəccübləndilər və Buddadan soruşdular: “Sən demək istəyirsən ki, Brahman insanları yaradanda onları müxtəlif kastalara ayırmamışdır?” Budda cavab verdi: “Mən ümumiyyətlə Brahmanın nəsə yaratmasına inanmıram.”

Rahiblər soruşdular: “Yaxşı, de görək dünyanı kim yaratmışdır?” Budda cavab verdi: “Mənim nəzərimcə dünya əbədi və əzəlidir. Onun nə başlanğıcı, nə də sonu var. Dünyada həqiqətən də ondan uzaqlaşmağın vacib olduğu iki məsələ var: Birincisi xudbinliyin və alçaqlığın yaratdığı ləzzətlərlə dolu həyat və ikincisi əzab-əziyyətli və nəfsinə işkəncələrlə olan həyat. Belə həyatın da heç bir faydası yoxdur və bu yolun heç birisi insanı xoşbəxtliyə aparmır.”

### 3-4. Əxlaq

Sonda Rahiblər Buddadan soruşdular: “Yaxşı, onda de görək düz yol hansıdır?” Budda cavab verdi: “Ləzzətlə əzab-əziyyət arasındakı orta yol. Bunu səkkiz yolla əldə etmək mümkündür. Bu səkkiz yol həyatın səkkiz böyük qanununu öyrədir:

1. **Düzgün baxış;** Yəni, düzgünlüyün və həqiqətin insanın əsil bələdçisi olmasına inanmaq.
2. **Düzgün düşüncə;** İnsan həmişə sakit və xoş xasiyyətli olmalıdır, heç bir canlıya zərər yetirməməlidir.
3. **Düzgün söz;** İnsan heç vaxt yalan danışmamalıdır və ağzını çirkin və pozğun sözlərlə açmamalıdır.
4. **Düzgün rəftar;** İnsan heç vaxt oğurluq etməməlidir, əlini kiminsə qanına bulamamalıdır və sonradan peşimançılığa səbəb olacaq işlər görməməlidir.
5. **Düzgün yaşayış;** İnsan heç bir pis əməl arxasınca getməməlidir, sələm pul verməməlidir və onun gəlirindən istifadə etməməlidir, riyakar və ikiüzlü olmamalıdır, oğurluq maldan istifadə etməməlidir.
6. **Düzgün çalışmaq;** İnsan həmişə yaxşılıq üçün çalışmalıdır və bütün çirkinliklərdən uzaqlaşmalıdır.
7. **Düzgün diqqət;** İnsan həmişə sakit olmalıdır, şadlığın və qüssənin onun düşüncələrini dağıtmağa imkan verməməlidir.

8. **Düzgün fikirləşmək;** Yuxarıdakı yeddi qanunun əsasını və özülünü təşkil edir.

Sonra Budda düzgünlük barədə qanunları belə açıqlamağa başlayır:

1. Canlılara əzab-əziyyət verməkdən uzaqlaşmaq
2. Oğurluqdan uzaqlaşmaq
3. Həyasızlıqdan uzaqlaşmaq
4. Yalandan uzaqlaşmaq
5. Sərxoşluqdan uzaqlaşmaq
6. Pis söz danışmaqdan uzaqlaşmaq
7. Xudbinlikdən uzaqlaşmaq
8. Nadanlıqdan uzaqlaşmaq
9. Düşməçilikdən uzaqlaşmaq

**3-5. Buddizmin firqələri**

Buddizmdə üç firqə mövcuddur:

1. **Mahayana;** Yəni, "Böyük çarx". Bu şimal firqəsi Çində daha geniş yayılmışdır. Buddizimdən olan bu firqə Çində Konfusizm, Lautsa və Yaponiyada Sintoizm etiqadları və adət-ənənələrilə qarışmışdır. Onun irfani təriqətlərindən biri Sanskrit dilində Dehyana,yəni düşünmək, Çin dilində Çanq və Yapon dilində Zen adlandırılır və dünyada bu adlarla böyük şöhrət qazanmışlar.

2. **Hinayana;** Yəni, "Kiçik çarx". Bu cənub firqəsi Şrilankada və cənub-şərqi Asiya ölkələrində yayılmışdır. Bu firqə davamçıları öz məzhəblərini Teravada, böyüklərin və əcdadların dini adlandırırlar.

3. **Vacrayana;** Yəni "Almaz çarx". Bu firqə Tibetdə mövcuddur. Onlar Buddizmi sehrbazlıq, kahinlik və Totemizimlə qarışdıraraq özləri üçün güclü təşkilat yarada bilmişlər. Qeyd etdiyimiz firqə **Lamaizm** də adlandırılır və həmin firqənin qüdrətli rəhbərini Dalaylama, yəni dənizə bənzər rəhbər adlandırırlar. Bu firqənin ən maraqlı cəhətlərindən biri də budur ki, onların dini liderləri dünyasını dəyişəndə rahiblər onun canişini olmağa layiq uşağın, yəni Dalaylama ölən anda dünyaya gələn uşağın axtarışına çıxırlar. Sonra onlar bu

uşağı xüsusi olaraq bəsləyirlər. Həmin uşaq elm öyrəndikdən və müxtəlif məqamları geridə qoyduqdan sonra qeyd etdiyimiz dini məqama yüksəlir. Bizim zamanımızda Çin Kommunizminin Tibetə təsirindən sonra Dalaylama Hindistana köçməli və öz dini liderliyinə orda davam etməli oldu. Bəzi Qərb ölkələrinin Çin ölkəsilə əlaqələri pisləşən kimi onlar Lamaların sürgündə olan liderini rəsmi səfərə dəvət edirlər və bunun ardınca Çinin etiraz səsləri yüksəlir. Dalaylama bir neçə il bundan öncə dini adət-ənənəyə zidd olaraq bir oğlan uşağını öz yerinə təyin etdi və bu hərəkətdən sonra geniş etirazla üzləşdi.

### 3-6. Buddizmin kitabları

Buddistlərin ən qədim müqəddəs kitabı Tripitaka, yəni "üç səbət" adlanır. Bu kitab üç hissədən ibarətdir:

1. Rahibliyin qaydaları
2. Nicat tapmağın yolları
3. Fəlsəfi və psixoloji məfhum

Buddizmin müqəddəs kitabları Pali və Prakeriti dilindədir. Buddizmin müxtəlif firqələrinin özünəməxsus kitabları da mövcuddur.

## 4. Sikhizm

Brahmanizm (Hinduizm) dinində daha yeni şöbələr və firqələr mövcuddur və həmin firqələrdən biri və ən tanınmışı "Sikh" (Sikh), yəni "Şagird"-dir. Hindistanda İslam dini ilə Hinduizmin toqquşması nəticəsində əsrlər boyu bir çox qarışıq firqələr meydana çıxmışdır. Kəbir adlı məşhur müsəlman ariflərindən biri (1440-1518) İslami tövhid məsələsini bəzi Hinduizm əqidələri ilə qarışdırdı və ətrafına saysız-hesabsız müridlər topladı.

### 4-1. Nanak və başqa Qurular

Ən məşhur çagirdlərdən biri Nanak idi. O, Sikhizmin banisi və ilk Quru, yəni müəllim idi. O, 1469-cu ildə Lahurun kəndlərindən birində Keşatryalar ailəsində dünyaya göz açmışdır. Nanak İslam dininin və Hinduizmin ən böyük ariflərinin təlimlərindən yararlanmış, müxtəlif müsəlman ölkələrində səfərdə olmuş, Məkkəni ziyarət etmiş və sonda İslam dini ilə Hinduizmin qarışığı olan Sikhizm firqəsini yaratmışdır. O, 1539-cu ildə dünyadan köçmüşdür.[1]

Quru Nanakdan sonra bir-birinin ardınca 9 Quru meydana çıxdı və həmin on Qurunun adı, doğum və vəfat tarixləri belədir:

1. **Quru Nanak (1469-1539)**
2. **Quru Anqad (1504-1552)**
3. **Quru Amardas (1479-1574)**
4. **Quru Ramdas (1534-1581) Növbəti Qurunun atası**
5. **Quru Arcan (1563-1606) Öncəki Qurunun övladı**
6. **Quru Harqubind (1595-1644) Öncəki Qurunun övladı**
7. **Quru Harray (1630-1661) Öncəki Qurunun nəvəsi**
8. **Quru Harikrişan (1656-1668) Öncəki Qurunun övladı**
9. **Quru Tiğbahadur (1621-1675) Altıncı Qurunun övladı**
10. **Quru Qubid Sink (1666-1708) Öncəki Qurunun övladı**

Səkkizinci Quru 5 yaşında bu məqama çatmışdır və yeddi il rəhbərlik etdikdən sonra 12 yaşında vəfat etmişdir. Beşinci, doqquzuncu və onuncu Quruları qətlə yetirmişlər. Onuncu Quru yaralanadan sonra və hələ can verməmişdən öncə ondan sonra Qurunun olmayacağını elan etmişdir və səmavi kitabın Quruların yerini tutacağını bildirmişdir.

[1] Hicri-Qəməri tarixi ilə təxminən 1000-ci ildə Hindistanın müsəlman padşahı Əkbər Şah bu firqənin təsiri altına düşərək zamanının məşhur alimlərindən birinin köməkliyi ilə Əkbəri firqəsinin əsasını qoymuşdur. Bu firqənin əsas qayəsi dinlər arasında sülhü təbliğ etməkdən ibarət idi.

### 4-2. Təlimləri

Nanak dünyanın yaradıcısı olan Allahı "Haqq" adlandırırdı. O, deyirdi ki, Allah hansı adı ilə adlandırılmasına baxmayaraq yalnız Qadir və Haqqdır. Nirvanaya qovuşmaq Haqqın zikrində boğulmaq deməkdir. O, Maya, yaxud Hinduizmdə qeyd olunmuş dünyanın xəyali surətini, ruhların yeni bədənlər qayıtmasını və Karmaları müəyyən qədər qəbul etmişdir. Nanak bütpərəsliyi və insanın özünə işkəncə verməsini qadağan etmişdir. Sektalara bölünməni, çox arvadlılığı haram buyurmuş və davamçılarına ətdən istifadənin məkruh olduğunu bildirmişdir. Sikhizm davamçıları müsəlmanların heyvan kəsmə metodunu, yəni damarların bir-bir kəsilməsini haram bilirlər və heyvanın bir zərbə ilə öldürülməsini bildirirlər. Onlar şərab və siqatet məmulatlarında da istifadə etmirlər.

Sikhlər çox yekdildirlər və müstəqil ölkə yaratmaq istəyilə Hindistan dövlətilə mübarizə aparırlar. Onlar 1974-cü ildə Hindistanın Baş Naziri xanım Qandini qətlə yetirdilər.

### 4-3. Dini əsərlər və adət-ənənələr

Sikhlərin beşinci rəhbəri olan Quru Arcan Amritsar şəhərində salınmış süni gölün ortasında qızıl məbəd inşa etdirdi. O eləcə də, Qrant Sahib adlı kitab da yazdı və bu kitab Sikhlərin ən müqəddəs kitabı sayılır. Sikhlər beşinci dini rəhbərlərinin zamanında yavaş-yavaş döyüşçü qövmə və onuncu rəhbərləri Quru Qubind Sinkin zamanında dini-siyasi qrupa çevrildilər və siyasi məsələlər üçün yeni adət-ənənələr yaratdılar. Bundan sonra onlar özlərini Xalsa, yəni "qarışıqsız və təmiz" adlandırmağa başladılar. Onlar özləri üçün beş şüar da yaratdılar və bu şüarların hər birisi Pəncabi dilində "K" hərfi ilə başlayır:

1. Keys; Üz və baş tüklərinin saxlanılması
2. Kanqa; Darağı üstündə daşımaq
3. Kaça; Qısa şalvarın geyinməsi
4. Kara; Biləkdə həmişə dəmir bilərziklərin olması
5. Kirpan; Hamıda polad qılınc və ya xəncərin olması

Sikhlər daha çox ticarətlə məşğuldurlar və onların bəziləri dünyanın bütün ölkələrində səfərdə olmuşlar.

**Mənbə**


1. Elendberg. Herman, "Şərqin parıltısı", tərcməçi: Bədrəddin Ketabi, Tehran 1994
2. Upanişad
3. Bahar. Mehrdad, "Asiya dinləri", Tehran 1996
4. Behqavad Qita
5. Paşayi.A, "Budda", Tehran 1968
6. Hikmət, Əli Əsğər, Dinlər tarixi, Tehran 1966
7. Zərrinkub, Əbdülhüseyn, "Vixdan barəsində", Tehran 1978
8. Nas, Con. B, "Dinlərin ümumi tarixi", Tərcüməçi: Əli Əsğər Hikmət, Tehran 1991
9. Şayeqan. Daryuş, "Hindistan dinləri və fəlsəfi məktəbləri", Tehran 1967
10. Vedalar
11. Qrant Sahib
12. Hyum. Robert. A, "Yaşayan dünya dinləri", tərcüməçi: Əbdürrəhim Qovahi, Tehran 1994
13. Conze, Edward, "Buddhism", New York 1959
14. Dubois, Abbe, "Hindu Manners" Oxford 1906

# 5. Çin və Yaponiya

## 1. Konfusizm

Konfutsi Çinli Filosof və siyasətçi idi. O, Çin xalqı üçün yeni din yaratdı. Bu din çoxları tərəfindən qəbul olunmasına baxmayaraq bir müddətdən sonra hörmətdən düşdü və öz yerini Buddizmə verdi.

**1-1. Konfutsinin həyatı**

Eradan əvvəl təxminən 551-ci ildə Çinin Lu əyalətində Tsuvun hakimi olan Kunq ailəsində Çiu adlı oğlan dünyaya gəldi. O, hələ üç yaşında atasını itirdi və həmin hakim nə yoldaşı, nə də övladı üçün heç bir miras qoymadan bu dünyadan köçdü. Uşaq öz anasının yanında böyüməyə başladı. Müəllimlər uşaqda olan zəkaya heyran olmuşdular və onu parlaq gələcəyin gözləyəcəyini proqnoz verirdilər. Hələ on doqquz yaşında olanda baş vəzir həmin bölgənin əkin sahələrinin idarəsini ona tapşırır. O, belə yüksək dövlət vəzifəsində işləməklə yanaşı incəsənət sahəsindəki mütaliələrini və təhsilini davam etdirdi və bir çox alimlər elm almaq üçün onun yanına gəlirdilər. Xalq onu Konq Futze (Kung-Futze), yəni Filosof Konq çağırırdı və biz bu sözü Konfutsi kimi tələffüz edirik.

Konfutsinin macəralarla dolu həyatı olmuşdur və şagirdlərə dərs deməklə yanaşı dövlət işində də çalışırdı. Əlli yaşında vəzir vəzifəsi-

nə yüksəldi və qısa müddət ərzində vəzifəsi daha da yüksələrək baş vəzir seçildi. Onun ölkə idarəçiliyi sahəsindəki bacarığı bir çoxlarının paxıllıq hissini alovlandırdı. Elə bu səbəbdən də, bir müddətdən sonra öz vəzifəsindən uzaqlaşdı və şagirdlərin təlim-tərbiyəsi ilə məşğul olmağa başladı.

Eradan əvvəl 479-cu ildə həyatının sona çatdığını hiss etdi və tam müvəffəqiyyət qazanmadığı üçün qüssələndi. Amma onun şagirdləri və dostları Konfutsinin təlimlərini bütün insanlara çatdıra bildilər.

### 1-2. Əsərləri

Konfutsinin ömrünün son illərində Çinin klassik ədəbiyyatı incilərindən biri hesab edilən kitablar qələmə almışdır. Həmin kitablar aşağıdakılardır:

1. Şu Çinq (Tarix kitabı)
2. Şi Çinq (Şeir kitabı)
3. Li Çi (Adət-ənənələr kitabı)
4. Ey Çinq (Mübadilələr kitabı)
5. Çun Çiu (Bahar və payız təqvimi)

İlk dörd kitabda əcdadların sözlərindən seçilmiş hissələr də yer tapmışdır, amma beşinci kitab təmamilə onun özünə aiddir.

### 1-3. Təlimləri

Konfutsinin təlimləri əxlaq elminin əsaslarının, siyasətin və bəzi dini mövzuların birləşməsindən meydana çıxan təlimlərdir. Onun nəzərincə insanların əcdadları “Li” qanun-qaydasına uyğun olaraq yaşayırdılar və elə buna görə də, xoşbəxtliyə və müxtəlif nemət-bərəkətlərə malik idilər. Amma, onun dövrünün insanları həmin həyat dərslərini və yaşamaq metodlarından uzaqlaşdıqları üçün həmin nemət və bərəkətlərdən məhrum olmuşlar. Konfutsinin nəzərincə “Li”-nin müxtəlif mənaları var idi və paklıq, ədəb qaydaları, adət-ənənə və ibadət sahələrində istifadə edilirdi. Onun nəzərincə “Li”-dən yararlanmaqla hər bir iş yoluna düşər və utopik cəmiyyətə qovuşmaq mümkün olar.

### 1-4. Əxlaq prinsipləri

O, beş növ əlaqəni sadalayaraq həmin əlaqələrin düzgün qurulduğu təqdirdə bütün işlərin düz axarla inkişaf edəcəyini bildirirdi. Həmin əlaqələr bunlardır:

1. Ata-oğul əlaqələrində mehribanlığın mövcud olması
2. Böyük qardaşın özündən balaca qardaşa nəzakət və mehribanlıq göstərməsi və kiçik qardaşın özündən böyük qardaşa itaətini nümayiş etdirməsi
3. Ərin öz həyat yoldaşı ilə ədalətlə davranması və qadının da öz ərinə itaət etməsi
4. Aşağı mənsəbli insanların bir-birinə mehribanlıq nümayiş etdirməsi və onların yüksək mənsəb sahiblərinə itaət etməsi
5. Hakimiyyət başında dayananların rəiyyətlə mehriban davranması və rəiyyətin də öz növbəsində hökümdarlarına sədaqətli olması

Konfutsi utopiya və hökümdarla rəiyyət arasında əlaqə sahəsində təlimlər keçirdi. Onun təlimlərinə əsasən hökümdarların qanunlara sadiq qalacağı və bu qanunları həyata keçirəcəyi təqdirdə bütün insanlar, yüksək mənsəb sahiblərindən tutmuş ölkənin ən zavallı şəxsinə qədər hamı bu qanuna riayət edəcəkdir. O, kamil insan və şəxsiyyət barəsində də söz açaraq kamil insanın malik olduğu beş xislət barədə belə demişdir: “Mənəvi böyüklük və izzət, İlahilik, Niyyətin paklığı və saflığı, Əmələ göstərilən şövq və istək, Xoş rəftara malik olmaq.”

### 1-5. Dini və şəri qanun-qaydalar

Konfutsinin hər şeydən öncə əxlaq müəllimi olmasına və bundan daha çoxuna iddia etməməsinə baxmayaraq insanlar onun təlimlərində böyük mənəvi ruhun mövcudluğu müşahidə etdilər və onu dindarlığın ən yüksək mərtəbəsi kimi qəbul etdilər. Onun təbliğ etdiyi din olduqca sadə və fövqəltəbii məsələlərdən kənar idi. Onun üzərində ən çox dayandığı məsələ özünü ibadətə və dini adət-ənənələrə bağlamaqdan ibarət idi. O, həmişə deyərdi ki, keçmiş zamanların xaqanları və hökümdarları xoşbəxt insanlar idilər. Çünki, onlardan qalan övla-

dalrın bəziləri qurban mərasimlərini, ibadəti və onlara ehtiramı tam diqqətlə yerinə yetirirdilər.

### 1-6. Davamçıları və rəqibləri

Konfutsinin yetmiş nəfərdən ibarət olan şagirdləri Çinin bütün bölgələrinə səfər etdilər və hökümdarların, yüksək mənsəb sahiblərinin təlimi ilə məşğul olmağa başladılar. Onlardan bəziləri də xəlvət guşəyə çəkilərək təklikdə ibadətə üz tutdular. Bu filosofun təlimləri ondan iki nəsil sonrakı dövrədək şagirdləri tərəfindən yayıldı. Feodalizmin zəifləməsindən və müxtəlif rəqib fəlsəfə məktəblərinin meydana çıxması ilə Konfutsinin fikirlərinin və təlimlərinin yayımı müxtəlif problemlərlə üzləşməyə başladı. Bu fəlsəfi məktəblərin hər birisi ayrılıqda Konfutsinin fəlsəfi düşüncələrinə hücum edirdi. Belə qarşıdurmalarda qələbə bəzi vaxtlar Konfutsinin davamçılarının, bəzən də digər fəlsəfi məktəblərin davamçılarını olurdu. Amma sonda Buddizmin Çinə daxil olması ilə düşüncə savaşı Buddizmin qələbəsi ilə başa çatdı və Konfutsinin düşüncələri müəyyən qədər kənarda qaldı. Buna baxmayaraq onun şöhrəti və əzəməti daim Çinlilər arasında mövcud olmuşdur və hal-hazırda da mövcud olmaqdadır.

### 1-7. Rəsmi din

Çin hökümdarları müxtəlif dövürlərdə həmişə Konfutsiyə və onun fəlsəfi məktəbinə ehtiram göstərmişlər və rəsmi şəkildə onu ən böyük filosof kimi qəbul edərək onun ruhuna ehtiram göstərmişlər. Onun məqbərəsi yanında qurban kəsmək adət-ənənəsi şagirdlərinin zamanından həyata keçirilməyə başlanılmışdır, amma ilk dəfə belə addım atmış padşah Kau Tsu olmuşdur. O, eradan əvvəl 195-ci ildə hakimiyyət başında olduğu ildə Konfutsinin qəbrini ziyarət etdikdən sonra elə həmin məkanda qurban kəsmişdir. Ondan sonra digər padşahlar da bu adət-ənənəni davam etdirmişlər və böyük filosofun ruhuna qurbanlar kəsərək hədiyyələr əta etmişlər. 1911-ci ildən rəsmi və dövlət səviyyəsində Konfutsinin ruhuna ehtiram adəti yığışdırılmağa başlanıldı. Bir müddətdən sonra Çin hökuməti böyük filo-

soflsrın yanında Konfutsinin düşüncələrinin də dirildilməsi məsələsi ətrafında bəzi işlər görməyə çalışdı, amma 1949-cu ildə Çində baş vermiş Kommunist inqilabından sonra onun düşüncələri ilə kəskin mübarizəyə başlanıldı. Kommunistlər onu zəhmətkeş təbəqəyə qarşı çıxdığını və zadəganları müdafiə etməsi iddiasını irəli sürməyə başladılar.

## 2. Taoizm

Taoizm, yaxud Daoizm eradan əvvəl 517-ci ildə dünyadan köçmüş filosof Laotseyə mənsubdur. Onun həqiqətən mövcud oması, yaxud tam əfsanəvi şəxs olması sahəsində alimlər arasında ciddi fikir ayrılıqları mövcuddur. Dini adət-ənənə və tarix nöqteyi nəzərindən o eradan əvvəl 604-cü ildə Çində dünyaya gəlmişdir və ömrünün bir hissəsini şahın sarayında sənədlərin saxlanıldığı yerin, dövlət arxivinin başçısı vəzifəsində çalışmışdır. Bir müddət bu vəzifədə çalışdıqdan sonra işindən istefa vermişdir və ruhi paklığını kamilləşdirmək üçün bu işlərini, hətta təhsilini belə dayandırmışdır və evdə xəlvətə çəkilmişdir. İnsanlar onun barəsində maraqlanmağa başladılar və onun düşüncələri ilə tanış olmaq üçün görüşünə tələsdilər. Qeyd etmək lazımdır ki, Konfutsi də onun görüşünə getmişdir. O, insanların müraciətlərindən yorulduqdan sonra öz el-obasını tərk edərək mühacirət etməli olmuşdur. Şəhər qapılarının qoruyucularından biri onu səfər edərkən gördü və ona nəsə öyrətməyini xahiş etdi. Laotsey bir kənarda dayanaraq ona bir mətn yazdı və həmin mətn hələ də mövcuddur. Həmin mətnin adı Taute Çinq, yəni "Taunun vəhyi və onun xasiyyəti"-dir. Bu risalə qısa hikmətli sözlərdən ibarətdir və bəzilərinin mənası aydın deyildir. O, bu risaləni qapıçıya verdi, oradan getdi və bundan sonran ondan xəbər çıxmadı. Bəzilərinin iddialarına görə o, eradan əvvəl 517-ci ildə dünyasını dəyişdi.

Laotseyni əfsanəvi şəxs qəbul edən insanlarin nəzərincə onun meydana çıxardığı fəlsəfə Konfusiusun yaratdığı fəlsəfədən daha qədimidir və qeyd olunmuş risalə qədim zamanlardan mövcud olmuşdur.

## 2-1. Laotsey və Taute Çinq fəlsəfəsi

Laotseyə aid olan bu risalə bir nəfərin düşüncəsinin yaratdığı məhsul deyildir. Belə ki, əsrlər boyu onun üzərində bir çox dəyişikliklər aparılmışdır. Amma bu risalənin məzmununun əksər hissəsi eradan əvvəl dördüncü əsrə qayıdır.

Antik Çin filosoflarının nəzərincə dünyada baş verən bütün hadisələr **Tao** adlanan quruluşunu təsiri altında meydana çıxır. Tao Çin dilində düzgün yol və ən dərin mənasında çayın dibi mənasını verir. Bu fəlsəfə davamçıları dünyada baş verən dəyişikliklər sahəsində çayın dibinə bənzər və həmişə sabit qalan qanunun olmasını bildirirdilər. Onlar deyirdilər ki, Taonun əvvəli və sonu yoxdur və maddi dünyanın yaranmasından sonra Tao da uyğunluqların, tarazlığın meydana çıxması üçün mövcud olmuşdur. Elə bu səbəbdən də, Tao sözü məna baxımından Yunanlıların Kosmos, yəni tənasüb (qanunauyğunluq) sözünə yaxındır. Yunanlılar dünyanı kosmos adlandırırlar.

Taote Çinq risaləsində belə qeyd olunmuşdur ki, əşya hər zaman öz təbii məkanında hərəkət edərsə, onun bu hərəkəti ən yüksək tənasüb və qanunauyğunluqla olacaqdır. Amma öz təbii mühitindən kənara çıxdığı halda bu qanunauyğunluq itəcəkdir. İnsanın ən son məqsədi özünü Tao ilə ahəngdar etməkdən ibarətdir.

## 2-2. Çuanq Tse və onun məqalələri

Çuanq Tse Laotseydən sonra mövcud olan ən tanınmış Taoizm filosofudur. O, eradan əvvəl dördüncü əsrdə öz fərzi müəllimi Laotseyin təlimlərini yaymaqla məşğul olmuşdur. Bu böyük filosofun otuz üç məqaləsi olduğu bildirilmişdir və bu məqalələrin əksəriyyəti həqiqətən də ona aiddir. O, dünyada baş verən dəyişiklikləri dövran və zaman formasında nümayiş etdirmişdir. O eləcə də, ziddiyyət təş-

kil edən şeylərin bir-birinə təsir göstərməsinə və bundan sonra məhv olmasına inanırdı. Çuanq Tse xeyirlə şər arasında nisbiliyin mövcud olmasına inanırdı və öz düşüncələrini ifadə etməkdən ötrü təmsillərdən geniş şəkildə istifadə edirdi.

### 2-3. Rəsmi din

İlk dəfə olaraq 165-ci ildə Çin şahlarından biri Laotseyin adına məbəd inşa etdirdi və bu məbədə hədiyyələr verdi. Amma Taoizm heç vaxt geniş şəkildə inkişaf etmədi və çox zəif inkişaf edərək yalnız 7-ci əsrdə Çində rəsmi din statusunu əldə edə bildi. Həmin zamanlar Çində Buddizm və Konfusius fəlsəfə məktəbi güclü şəkildə inkişaf etmişdilər. Bir qrup insan Buddizmin Çinin yerli dini olmaması və Hindistandan bu ölkəyə gəldiyi üçün Taoizmi inkişaf etdirməyə başladı. Onlar yeni adət-ənənələr yaratdılar və müxtəlif şeylər üçün Tanrılar yaratmağa başladılar. Amma buna baxmayaraq Çində bu dinin davamçıları az olması səbəbindən səhnədən getdi. Çinin kommunist hökumətinin dini düşüncələrlə mübarizə aparmasına baxmayaraq, bəzi insanlar hələ də Taoizmin cadu tərəfləri ilə maraqlanırlar.

## 3. Sintoizm

“Tanrıların yolu” mənasını verən Sinto Yaponiyanın qədimi dinlərindəndir. Bu dinin təlimlərinə əsasən Günəş İlahəsi Amaterasu əcdadlardan qalan torpaqların qoruyucusudur və imperator ailəsinin bu Tanrının nəslindən olduğu və onun təcəssümü olduğu bildirilir.

### 3-1. İctimai keçmiş

Buddizmin Mahayana firqəsi təxminən eradan əvvəl 552-ci ildə Yaponiyaya daxil oldu və Sintoizm dini ilə qarşılaşdıqdan sonra Buddizmin bir çox anlamları və təlimləri Sintoizm məzhəbinə köçü-

rüldü. Milli Tanrılara və imperatora sitayiş etmək, ölülər üçün qurban kəsərək xüsusi əməllər həyata keçirtmək və vətənpərvərlik bu məzhəbin adət-ənənələrindəndir. Buşido, (yəni igidlərin yolu) adlı mərdlik məktəbi də müəyyən miqdarda Zen məzhəbindən ilham almışdır və şərəfin, mənliyin, namusun qorunub saxlanılması üçün mərdliyin və müqavimətin vacib olduğunu bildirmişdir. Elə buna görə də, əsgərlər və döyüşçülər məğlub olarkən xüsusi mərasim daxilində ömür boyu özləri ilə gəzdirdikləri xəncər vasitəsilə qarınlarını yırtırdılar. Şinto məzhəbi dəfələrlə yenilənmişdir və sonda 1946-cı ildə imperatora sitayiş etmək ənənəsi imperatorun özü tərəfindən ləğv edilmişdir. Hal-hazırda bu din Buddizmlə birlikdə Yaponiyada həyatını davam etdirir.

### 3-2. Sintoizmin müqəddəs kitabları

Sintoizmdə əcdadların adət-ənənələrini özündə əks etdirən kitablar mövcuddur. Bu kitablar tarixın müxtəlif dövrlərində hazırlanmışdır. Onlardan biri 806-cı ildə qələmə alınmışdır və bu kitab ruhani təbəqəsinin müdafiə olunması barədə yazılmış hekayələrdən ibarətdir. Kitablardan digəri 10-cu əsrdə qələmə alınmışdır və bu kitabda Sintoizmin ibadətləri, adət-ənənələri və xüsusən də imperatora sitayiş adətləri barəsində geniş məlumat verilmişdir.

### 3-3. Riyobo

Buddizm 8-ci əsrdə Yaponiyada tam formada genişləndi və ölkənin yüksək çinli məmurları belə bu dini rəsmən qəbul etdilər. Elə bu səbəbdən də, həmən zamanlar yerli və qədimi din olan Sinto ilə yeni meydana çıxmış, əcnəbi din olan Buddizm arasında uyğunluğun yaradılması ehtiyacı meydana çıxdı. O zaman Buddizmin bəzi ruhaniləri araşdırmalarını elan edərək bildirdilər ki, Yaponiyanın qədim Tanrıları hər birisi ayrı-ayrılıqda Budi Satva olublar və elə orada zühur ediblər. Eləcə də, günəş Tanrısı olan Amaterasunun Buddanın Yaponiyadakı tam zühuru olduğunu bildirdilər. Bu firqəni Riyobo, yəni qarışıq Sintoizmizm adlandırdılar və onun genişləndirməyə,

yaymağa başladılar. Beləliklə, Sintoizmizm yeniləşdi və yenidən dirildi.

### 3-4. Rəsmi din

Təxminən doqquz əsr sonra 17-ci əsrdə bəzi dini liderlər qədimi Şinto dininin yenidən dirildilməsi nəzərini irəli sürdülər və sonda 1768-ci ildə Yaponiya xalqının ictimai həyatında yeni dəyişiklik baş verdi. Bir müddət sonra imperator Sintoizmi rəsmi din elan etdi və Buddizmə aid bütün nişanələrin məhv edilməsini əmr etdi. Bu iş başlanğıcda güc yolu ilə həyata keçirilirdi, çünki hələ insanların bir hissəsi Buddizmi sevirdilər və bu dinə inanırdılar. Sonda 1889-cu ildə ölkə konistitusiyasında tam dini azadlıq hüququnun bütün yaponiyalılara aid olması bəndinin əlavə edilməsindən sonra din seçimi azad buraxıldı, amma Yaponiya hökuməti yenə də Sintoizmi dəstəklədi.

Hökumət dini olan Sintoizm 1945-ci ildə Amerikanın Yaponiyana atom bombası atdığı və ölkənin Amerikalılar tərəfindən işğal edildiyi vaxta qədər davam edirək yaşayırdı. Bu dinin təlimləri gəncləri qərb mədəniyyətinin hücumları müqabilində müqavimət etməyə dəstəkləyirdi. 1945-ci ildən sora bu dinə aid mərasimlərin keçirilməsi ixtiyarı xarakter daşımağa başladı.

**Mənbə**


1. Bahar. Mehrdad, “Asiya dinləri”, Tehran 1996
2. Hikmət, Əli Əsğər, Dinlər tarixi, Tehran 1966
3. Zərrinkub, Əbdülhüseyn, “Vicdan barəsində”, Tehran 1978
4. Nas, Con. B, “Dinlərin ümumi tarixi”, Tərcüməçi: Əli Əsğər Hikmət, Tehran 1991
5. Hyum. Robert. A, “Yaşayan dünya dinləri”, tərcüməçi: Əbdürrəhim Qovahi, Tehran 1994
6. Konfutsi, “Söhbətlər”, tərüməçi: Kazımzadə İranşəhr, Tehran 1961

# 6. Qədim İran

## 1. Muğan dini

Zərdüştün meydana çıxmasından öncə, yəni Midiyalılardan öncə İran ərazilərində yaşayan yerli qeyri-Ariyayilərin dini Muğan dini adlanırdı. Muğ (Maquş) sözü qədim İran dillərində xidmətçi mənasını verirdi. Belə nəzərə çarpır ki, Muğlar İranın yerli sakinlərindən idilər və Hindistandakı Dravedilər kimi Ariyayilərin bu ərazilərə daxil olmasından sonra öz torpaqlarını onlara təslim etdilər. Ərəblərin zərdüştlər üçün istifadə etdikləri Məcus sözü də elə həmin Məquş sözündən mənşə almışdır.

Bəzi tədqiqatçıların nəzərincə zərdüştlük dinində yaxşılıqların və pisliklərin tanrılarına olan ikili ibadət İranda qədimdən də mövcud olan Muğan dininə aiddir. Çünki, tarixi kitablara nəzər saldıqda belə qənaətə gəlmək olar ki, Muğan dininə sitayiş edənlər iki Tanrıya, Yaxşılıq və Pislik Tarısına sitayiş edirdilər. Muğanların dini əqidələrində qiyamət gününə iman da var idi.

# 2. Zərdüşt dini

Ariyayilərin İran ərazilərinə daxil olmasından bir neçə əsr keçməsindən sonra bu xalqın nümayəndələri yavaş-yavaş şəhər yaşayış tərzinə keçdi və bu da onların dünya görüşlərinə güclü şəkildə müsbət təsir göstərdi.

O zamanlar islahatçı insan meydana çıxdı, İranlıları yeni bir dinə dəvət etdi və Muğan dinini rəqabət meydanından çağırdı. Özünü yaxşılıq və aydınlıq Tanrısının elçisi kimi qələmə verən bu islahatçı peyğəmbərin adı Zərdüşt idi. O, öz dinini Ahura Mazdadan kəsb etməsini və dünyanı qaranlıqdan xilas edərək yaxşılığa və aydınlığa doğru aparacağını iddia edirdi.

Zərdüştlər məcus, Gəbr və Parsi adları ilə tanınırdılar. Məcus sözü yalnız bir dəfə Qurani-Kərimin Həcc surəsinin 17-ci ayəsində tövhidi dinləri qeyd etdikdən və müşriklərə işarə etməmişdən öncə mövcuddur. İslam alimlərinin əksəriyyəti Məcusları kitab əhli kimi qəbul edirlər və bu barədə bəzi hədislər də mövcuddur. “Gəbr” sözü Süryani dilində kafir mənasını daşıyır və “Zərdüşt” sözü hindistan zərdüştlərinə aid edilir. Zərdüştlük dini təxminən eradan bir əsr öncə bəzi dəyişikliklərə uğradı və bu dəyişilmiş formanı Məzdayəsna adlandırırlar. Məzdayəsna tərcümədə “Məzdaya sitayiş” mənasını verir.

### 2-1. Zərdüştün həyatı

Alimlər qədim İranda mövcud olan peyğəmbərin tarixi mövcudluğuna şübhə ilə yanaşırlar, amma eləcə də həmin peyğəmbərin mövcudluğunu inkar da etmirlər. Zərdüşt, zərtüşt, zəradüşt, zəratüşt, zərdəhəşt və s. Zərəsuştra sözünə bənzər sözlərdirlər ki, Qatlarda (Zərdüştlərin müqəddəs kitabının bir hissəsidir) qeyd olunmuşdur. Daha düzgün nəzəriyyəyə əsasən “Zərdaştər”, yəni “Sarı dəvə sahibi”-dir.

Onun atasının adı Puruşəsb, yəni qoca at sahibi, anasının adı Doğdo, yəni inək sağan, ailəsinin və nəslinin adı isə Spitəmə, yəni Ağ nəsilli idi.

Məşhur islam tarixçisi Təbəri və Zərdüştün bəzi şagirdləri onun Fələstindən olduğunu qeyd edirlər və onun həmin ərazilərdən İrana köçdüyünü vurğulayırlar. Amma tarixçilərin əksəriyyəti və eyni zamanda Zərdüştlərin özləri də onun İranlı və Azərbaycanlı olduqlarını bildirirlər. Onların nəzərincə Zərdüştün meydana çıxdığı yer təxminən Urmiya gölünün ətrafındakı dağlar yerləşən məkandır. Elə buna görə də, Urmiya gölünün suyu Zərdüşt dinin davamçıları üçün müqəddəsdir. Bəzi tədqiqatçıların nəzərincə isə o qədim İranın şərq bölgələrindəndir.

Zərdüştün meydana çıxdığı zaman barədə də nəzərlər müxtəlifdir və bəzi alimlərin nəzərincə onun meydana çıxdığı zaman eradan 6000 il əvvələ qayıdır. Amma daha məşhur nəzəriyyəyə əsasən o eradan əvvəl 660-cı ildə dünyaya gəlmişdir və eradan əvvəl 630-cu ildə, yəni 30 yaşında peyğəmbərliyə çatmışdır.

Zərdüşt peyğəmbərliyə çatdıqdan sonra dövrünün şahı Güştasbın yanına getdi və onu öz dininə dəvət etdi. Şah Güştasb dərhal onun dinini qəbul etdi. Əbülqasim Firdovsinin "Şahnamə" əsərində belə qeyd olunmuşdur ki, İranlıların Turanlılara bac və xərac ödədikləri zamanda Zərdüşt meydana çıxdı və şaha əcnəbilərə xərac ödəməkdən boyun qaçırmağı əmr etdi. Şah Güştasb onun sözlərini qəbul edərək bu işə son qoydu. Qeyd etmək lazımdır ki. İranlıların bu addımı Turanlıların qəzəblənməsinə səbəb oldu. Onlar Güştasba yeni dindən əl çəkməyi əmr etdilər, amma şah bunu qəbul etmədi. Elə bu səbəbdən də Turanlılar İrana hücum etdilər və bəzi rəvayətlərə əsasən Zərdüştün özü də həmin müharibə zamanı həlak oldu. Sonda Güştasb işğaıçılara qalib gəldi və Zərdüştlüyü yaymağa davam etdi. O, oğlu İsfəndiyarı bu dini yaymaq məqsədilə bir çox yerlərə göndərdi.

Zərdüşt eradan əvvəl 583-cü ildə, 77 yaşında hal-hazırda Əfqanıstanda yerləşən Bəlx şəhərindəki Atəşgahda Turanlılar tərəfində qətlə yetirilmişdir.

Zərdüştün peyğəmbərliyə çatması məsələsi Şahnamə əsərində mövcuddur, amma çox təəssüflər olsun ki, bu məsələ Şahnamənin əfsanələr bölümündə qeyd olunmuşdur. Belə ki, Güştasb (Zərdüştün

dəvət etdiyi və bu dini qəbul edən ilk şah) barəsində çoxlu ixtilaflı nəzərlər mövcuddur. Bəziləri onun Viştasb, Əhəməni şahı birinci Daranın atası olduğunu bildirirlər. Digər tərəfdən tarixi nöqteyi-nəzərdən tam məlumdur ki, Viştasb padşah olmamışdır. O, mahal əmiri olmuşdur.

## 2-2. Avesta

Zərdüştlərin müqəddəs kitabı Avesta, yəni əsas və özül mətn adlanır. Bu kitab Avesta dili və xətti ilə qələmə alınmışdır və antik İran aiddir. Qeyd etmək lazımdır ki, Avesta dili Sanskrit dili ilə eyni köklüdür. Bir çox tədqiqatçıların nəzərincə Avesta xətti 226-641-ci illərdə meydana çıxmışdır və o zamana qədər insanların əzbər olaraq zehnlərində saxladıqları Avestanın mətni bu xəttin vasitəsilə qələmə alınmışdır. Bəzi nəzərlərə əsasən isə Avesta İslam dininin peyda olmasından sonra qələmə alınmışdır.

Həm Zərdüştlər, həm də bu sahədə araşdırma aparan tədqiqatçılar yekdilliklə bu məsələni qəbul edirlər ki, əslində Avesta çox iri həcmli olmuşdur və bəzilərinin nəzərincə 12000 inək dərisinin üzərinə yazılmışdır. Hal-hazırda mövcud olan Avesta 83000 sözdən ibarətdir və böyük ehtimala görə bu kitabın ilkin mətni 345 min 700 sözdən ibarət olmuşdur. Yəni, hal-hazırda mövcud olan Avestadan dörd dəfə böyük. Əsil Avesta 21 Nəskdən, (bölüm və yaxud kitabdan) ibarət idi və indi mövcud olan Avesta da 21 Nəskdən ibarətdir.

Avesta 5 bölümdən ibarətdir:

1. **Yəsna (Bayram və sitayiş):** Bu bölmənin bir hissəsi Qat-lar adlandırılır (Nəğmə və müsiqi mənasında). Qatlar dualardan, dini elmlərdən ibarətdir və Avestanın ən mühim hissəsidir. Bu hissənin Zərdüştün özünə aid olunduğu bildirilir, halbu ki, Avestanın digər hissələri Zərdüşt dininin digər rəhbərlərinə aid edilir.
2. **Visperəd (Bütün ağalar):** Müxtəlif sitayişlərdən ibarətdir.
3. **Vəndida (Div, yəni şeytana qarşı qanun):** Bu bölümdə halal, haram, nəcis və pak şeylər barədə yazılmışdır.
4. **Yəştha (Sitayiş, dini nəğmə və zikr):**

**5. Xorde Avesta (Balaca Avesta):** Dini bayramlar və mərasimlər, eləcə də həmin mərasimlərə uyğun dini nəğmələrin seçilməsi barəsində olan bölüm.

Zərdşütlərin Avestadan əlavə "Zənd Avesta" adında təfsir kitabı və müxəlif başqa kitablar da mövcuddur.

### 2-3. Zərdüştün təlimləri

Zərdüştlükdə üç əsas prinsip mövcuddur: Düzgün danışıq, Düzgün düşüncə və Düzgün əməl. Biz müxtəlif dinlərdə buna bənzər prinsiplərlə üzləşirik.

Xeyir və parlaqlıq tanrısının nişanələrindən olan oda hörmət nümayiş etdirmək, odu həmişə yanar halda saxlamaq, Atəşkədə, yaxud atəşgah adlanan məbədlərdə odun ətrafında məxsusi mərasimlər keçirtmək bu dinin ən əsas özəlliklərindəndir. Bu dində eləcə də abadlıq yaratmaq, əkinçilik, təsərrüfat, maldarlıq və şəhərsalma sitayişə layiq məsələlər sırasındadır. Heyvanlara, xüsusən də itə və inəyə hörmətlə yanaşmaq və insanlarla xoş rəftar etmək xüsusi yerə malikdir. Zərdüştlər qədim zamanlarda öz ölülərinin cəsədlərini nə torpağa basdırırdılar, nə də suya atırdılar, çünki onlar həm suyu, həm də torpağı müqəddəs bilirdilər və onları çirkləndirmək istəmirdilər. Elə bu səbəbdən də, cənazələri Dəxme adlanan yerlərdə saxlayırdılar və leş yeyən heyvanlar həmin cənazələri yeyirdilər. Amma artıq neçə əsrlərdir ki, öz ölülərini torpağa tapşırırlar.

İrandakı bəzi adət-ənənələr, o cümlədən Novruz bayramından öncə olan çərşənbələr, işığın və çırağın parlaqlığına and içmək və digər məsələlər Zərdüştlük təlimləri ilə əlaqəlidir. İslam dininin ilk əsrlərində mövcud olan zındıqların bəziləri də Zərdüştlüyün davamçıları idilər.

### 2-4. Yaranışın və ikili sitayişin hekayəsi

Heç kim Zərdüştlərin iki tanrıya (xeyir Tanrısı Ahura Mazda və şər Tanrısı Əhrimən, yaxud işıq Tanrısı və qaranlıq Tanrısı) sitayişi məsələsi hansı əsrdə başlamışdır. Avestanın Qatlarında, yəni Zərdüşt-

lərin müqəddəs kitabının Zərdüşt peyğəmbərin özünə aid olan hissəsində Əhrimən tək Tanrı olan, parlaqlıq və qaranlıq Tanrılarından daha üstün sayılan, varlığın yaradıcısı Ahuraməzdanın deyil Müqəddəs ağılın müqabilində dayanmışdır. Sasanilərin hakimiyyəti dövründə Zərdüştlərin bir qolu da meydana çıxdı və bu dəstənin adı Zərvanilər idi. Onların nəzərincə tək Allah mövcuddur və onun adı Zərvandır. Zərvanilər tək Tanrılarını xeyir və şər Tanrılarından daha yuxarı və üstün bilirdilər. Bu dinin o zamanlar davamçıları həddən ziyadə idi.[1]

**2-5. Tanrılar**

Zərdüştlük barəsində araşdırmalar apardıqca məlum olur ki, Zərdüşt İranlılar arasında dini islahatlar aparmaq və Ariyayilərin qədim dinlərində mövcud olan xürafati düşüncələri yeniliklər yaratmaq məqsədilə meydana çıxmışdır. Belə ki, o Ahuraməzdanı təbliğ etmiş və öz qövmünün Dəevə (yəni Div) adlanan Tanrılarını səhv bilmiş, onları yalanı sevənlərin Tanrısı adlandırmışdır.

Zərdüştlükdə Ahuraməzdanın altı köməkçisi var və bu köməkçilər İbrahim peyğəmbərdən mənşə alan dinlərdə mələklərlə eyni rola malikdirlər. Həmin köməkçilər Əmşaspəndlər, yəni "Ölməz müqəddəslər" adlandırılırlar. Onların Spəntaminu, yəni "Müqəddəs ağıl" adlı rəhbərləri vardır və adları belədir:

1. **Vohumən**
2. **Əşəvəhişta**
3. **Xşəsrə-vəyra**
4. **Spənta Arməiti**
5. **Hauvərtat**
6. **Emertat**

Onlardan sonra Yəzətlər dayanıblar və onlardan otuzu daha məşhurdur. Bunlar müqəddəs ağlın köməkçiləridirlər. Amma Əhrimənin də öz köməkçiləri mövcuddur.

---

[1] Ümumiyyətlə qədim zamanlarda dünyada iki başlanğıcın mövcudluğuna inam həddən ziyadə idi və onun bir forması da Qnostiklik (Gnostic) sayılır.

Zərdüştlük dininin təlimlərinə əsasən hal-hazırki dünya 12000 il-lik dövrədən ibarətdir. Yaxşılıqlar tanrısı 3000 il ərzində dünyaya hökmranlıq edib və bu müddət ərzində pisliklər tanrısı zülmət qaranlıqda qalıb. Bu müddətdən sonra pislik tanrısı qaranlıqlardan çıxaraq yaxşılıqlar tanrısı ilə üzləşir. Yaxşılıqlar tanrısı pisliklərtTanrısına onunla üzləşmək üçün doqquz min il müddət verir. O, sonda özünün qələbə qazanacağına əmin idi. Bu zaman ərzində onlar yaxşılıqlar və pisliklər törətməklə işlərinə başladılar. Üç min ildən sonra Zərdüşt dünyaya göz açdı və bundan sonra hadisələr yaxşılıqlar Tanrısının xeyrinə inkişaf etməyə başladı.

### 2-6. Dünyanın sonu

Zərdüştlük minilliyində Zərdüştün nəslindən olan üç xilaskarın meydana çıxması məsələsi meydana çıxarılır. Bu xilaskarlar bir-birinin ardınca gələrək dünyada haqq-ədaləti bərqərar edəcəklər:

1. **Huşidər:** Zərdüştdən 1000 il sonra
2. **Huşidərmah:** Zərdüştdən 2000 il sonra
3. **Suşyans ya Suşyant:** Zərdüştdən 3000 il sonra. Suşiyantın zühurundan sonra dünyanın sonu gələcək.

### 2-7. Ruhun qalması

Zərdüştlər ruhun əbədiliyinə inanırlar. Onların nəzərincə ruh bədəni tərk etdikdən sonra qiyamət gününə qədər Bərzəx aləmində qalır. Onlar həmçinin Sirat körpüsünə, əməl tərəzisinə (Mizana), cənnət və cəhənnəmə də inanırlar. Zərdüştlük dini nöqteyi-nəzərindən olan cənnət İslam dinindəki cənnətlə çox yaxındır. Amma odun müqəddəs olması səbəbindən Zərdüştlərin cəhənnəmi olduqca soyuq və çirkli bir məkandır. Bu məkanda müxtəlif bədheybət heyvanlar cəhənnəm əhlinə əzab verirlər.

### 2-8. Hazırki vəziyyət

Müsəlmanlar ikinci xəlifənin zamanında İranı fəth etdilər. İranın fəthindən sonra İranlılar Zərdüştlük dinindən uzaqlaşaraq İslam dini-

ni qəbul etdilər və bu dinin çiçəklənməsində böyük xidmətlər göstərdilər. Bu barədə ətraflı məlumat əldə etmək üçün şəhid Mütəhhərinin "İran və İslamın qarşılıqlı xidmətləri" kitabına müraciət edə bilərsiniz. Bəhram ibn Keyqubad adlı Zərdüşt aliminin 1600-cü ildə qələmə aldığı "Səncan" hekayəsinə əsasən İranda yaşayan Zərdüştlər İranın İslam dini tərəfindən 100 il müsəlmanlar tərəfindən böyük əzab-əziyyətlərə məruz qaldılar. Sonra münəccimlərin tövsiyyəsilə dəniz yolu ilə Hindistanın Bombey şəhərinə köçməyə başladılar. Bu hekayə tarixçilər tərəfindən qəbul edilmir və onların nəzərincə Zərdüştlərin İrandan Hindistana mühacirəti islam dinindən öncə başlamışdır və İslam dininin gəlməsindən bir neçə əsr sonraya qədər davam etmişdir. Hal-hazırda onlardan 150000 nəfəri hələ də Parsi adlandırılırlar. Onların təxminən 150000 nəfər Yəzd, Kerman və Tehranda yerləşmişlər.

Zərdüştlər savadlı və mədəniyyətli qövmdür və həmişə də ətrafda olan insanlarla əlqələri çox gözəldir.

## 3. Mitraizm

Əhəmənilər sülaləsinin sona çatdığı zaman Zərdüştlük dininin yaranması ilə eyni dövrdə İranda Mitraizm dini meydana çıxaraq yayılmağa və bu yerlərdən kiçik Asiyaya tərəf genişlənməyə başladı. Mitraistlərin nəzərincə Mehr Tanrısı bir dəfə insan cildində mağaraların birində zühur etdi və həmin ərazidə qoyun-quzu otaran çobanlar ona iman gətirdilər. O zaman Mehr Tanrısı öküz öldürdü və qanını torpağın üzərinə tökdü. Həmin öküzün qanı düşən hər yer yaşıllaşdı və məhsuldar oldu. O, bir neçə ildən sonra göylərə qalxdı və onun ruhu bəndələrinə yardım etmək üçün daim yerə qaldı.

Mitraizm dininə iman gətirən hər bir şəxs yeddi mərhələdən keçməli idi və hər mərhələdə ona yeni bir ad verilirdi: "Qarğa", "Gəlin", "Əsgər", "Şir", "Parsi", "Günəşin elçisi" və "Ata". Sonra xristi-

yanların çörək və şərab adətinə bənzər çörək və bal mərasimi başlayırdı. Sonda həmin şəxsə öküzün qanını ilə qüsl verilirdi. Onlar öz məbədlərini mağaralarda düzəldirdilər və həmin mağarada Mehr Tanrısına ibadət edirdilər. Həmin məbədlərin bəzilərinə Avropanın bəzi bölgələrində rast gəlmək olar. Qeyd etmək lazımdır ki, Xristyanlıq öz dini adət-ənənələrinin əksəriyyətini Mitraismdən götürmüşlər.

## 4. Manilik

Manilik xristiyanlıqla islam dininin zühur etdiyi dövrlər arasındakı zaman kəsiyində meydana çıxmışdır və qısa müddət ərzində güclü şəkildə yayılmış, sıralarına imanlı davamçılar əlavə edə bilmişdir. Bu din Buddizmlə Sabiliyin təlimlərini və düşüncə tərzini nəzərə almaqla Zərdüştlük ilə Xristiyanlığın qarışığından əmələ gələn dindir. Bu dinin irfani və insani prinsipləri onun güclü şəkildə yayılması üçün münbit şərait yaratdı, şərqdə Çinə və qərbdə mərkəzi Avropaya qədər genişlənmişdi. İran və Roma dövlətlərinin şahları Manilərlə düşmənçiliyə başladılar və onları dəstə-dəstə qətliam etdilər. Sonda Avropanın dini təftiş məhkəməsi (İnkivizasiya) 13-cü əsrdə Manilərin sonuncu dəstəsini də yer üzərindən sildi.

### 4-1. Maninin həyatı

Mani 216-cı ildə Babilistanda iranlı ailəsində dünyaya gəldi. Atasının adı Patek idi və o Həmədandan Babilistana köçmüşdür. O Sabi dininin davamçılarından idi.

Mani 228-ci ildə peyğəmbərlik iddiasını irəli sürdü və öz dinini təbliğ etmək məqsədilə müxtəlif ölkələrə səfər etdi. O, 243-cü ildə Birinci Şapurun tacqoyma mərasimində onun yanına gəldi və onu öz dininə dəvət etdi. Birinci Şapur onun bu dəvətini qəbul etdi. Mani Sasani Pəhləvi dilində bir kitab qələmə aldı və adınl **Şapurqan** qoydu. O, öz dinini təbliğ etmək məqsədilə orta Asiyaya da səfər etdi və iyirmi ildən sonra Birinci Bəhram şahın zamanında İrana qayıtdı. Bu şah Mani ilə düşmənçilik apardı və 274-cü ildə onu qətlə yetirdi.

Maninin davamçıları onun qətlə yetirilməsindən sonra Manəvilik dinini yaymağa başladılar və Avropanın bəzi bölgələrinə, Çinə qədər genişləndirə bildilər. Manəvilərin əksəriyyəti orta Asiyada məskunlaşmışdılar. Bu din Zərdüştlük və Xristiyanlıq dinlərinin təzyiqi nəticəsində zəiflədi və daha sonra İslam dininin genişlənməsindən sonra demək olar ki məhv oldu. Manilərin qalıqları bir neçə əsr Bosniya-Hersoqovinada qaldılar və sonda təmamilə tarix səhifələrindən silindilər. İslam dininin yayıldığı ilk illərdə İranın milli hərəkatlarının bəziləri manəvilikdən ilham almışdır. Bunu da qeyd etmək lazımdır ki, İslam dininin ilk illərində zındıqların bəziləri Manilik dininin davamçıları idilər.

### 4-2. Maniliyin mənbələri

Manəviliyin əksər mənbələri İslam dininin meydana çıxmasından sonra da mövcud idi və həmin kitablardan olan bəzi mətləblər qədim tarix kitablarında əks olunmuşdur. Bu kitablar yavaş-yavaş aradan getdi. Amma bir müddət bundan öncə Çinin Türküstan əyalətindəki Turfan şəhərində Maniliyə aid bir çox yazılı əsərlər torpağın altından aşkar edilmişdir və manəviyyət barədəki məlumatların artırılması üçün gözəl fürsət yaranmışdır.

Maninin meydana çıxartdığı yeniliklərdən biri bu idi ki, o insanların arasında savadsızlığın mövcud olmasını nəzərə alaraq rəssamlıqdan istifadə edirdi və dini mətləbləri yazmaqdan əlavə onları rəsm edirdi. Onun bu işinin nəticəsi olaraq "Ərjəng" adlı kitab meydana çıxdı və həmin kitabın qalıqları son zamanlar aşkar edilmişdir. Onun bəzi rəsm əsərlərində davamçıları da qələmə alınmışdır. Aşağıda qeyd edəcəyimiz altı kitab dəqiqliklə Maniyə məxsusdur:

1. **Şapurqan:** Bu kitab Pəhləvi dilində qələmə alınmışdır və həmin kitabın qalıqları Turfan şəhərində aşkar edilmişdir.
2. **Əngeliyun (İncil):** Bu kitab rəsm əsərlərindən ibarətdir və böyük ehtimala əsasən "Ərjəng" elə bu əsərdir.
3. **Həyatın xəzinəsi:** Dini hökümlərdən təşkil edilmişdir.
4. **Pəraqəmatya**

5. **Sirlər kitabı**
6. **Divlər (Şeytanlar) kitabı**

**4-3. Təlimləri və əsas prinsipləri**

Mani deyirdi: "İlahi hikməti və həqiqəti peyğəmbərlər müxtəlif zamanlarda və müxtəlif məkanlarda yaymışdırlar. Bir zaman Hindistanda Budda, İranda Zərdüşt, Fələstində İsa və indi də mən Mani Allahın peyğəmbəriyəm. Mənim vəzifəm Babilistanda həqiqətləri yaymaqdan ibarətdir." Maninin dini təlimlərinin əksər hissəsi Xristiyanlıq və Zərdüştlük təlimləri üzərində yaranmışdı. Bu dinin təlimlərində Nurla zülmət arasındakı müharibə böyük əhəmiyyət kəsb edir. Manilər cəmiyyəti beş dini təbəqə bölürdülər:

1. **Feristeqan yaxud ferişteqan:** On iki nəfərdirlər və onlar Maninin canişinləri hesab edilridilər.
2. **İspasaqan yaxud Yepiskoplar:** Yetmiş iki nəfər idilər
3. **Mehişteqan yaxud Keşişlər:** Üç yüz altmış nəfər idilər
4. **Vizideqan yaxud Qozideqan (Seçilmişlər):** Bu təbəqəyə aid insanların sayı çox idi və onlar Manəviliyi yaymaqla məşğul olurdula.
5. **Nəğuşakan yaxud Niyuşəndeqan:** Bu təbəqəyə Manəviliyin davamçılarının əksəriyyəti daxil idi və onların sayı bütün başqa təbəqələrdən daha çox idi.

Manəvilər Zərdüştliyin dini təlimləri altına düşərək üç əsas əxlaqı prinsipə riayət edirdilər və bu prinsipləri "Üç möhür" adlandırırdılar:

1. **Ağız möhürü (Pis sözlərdən və danışıqlardan uzaqlaşmaq)**
2. **Əl möhürü (Pis əməllərdən uzaqlaşmaq)**
3. **Ürək möhürü (Pis və səhv təsəvvürlərdən uzaqlaşmaq)**

Maninin davamçıları vegeterian idilər və birinci təbəqədən sonuncu təbəqəyə qədər heç kimin evlənməyə, var-dövlət toplamağa ixtiyarı tox idi. Manilər namaz qılırdılar və oruc tuturdular, öz məbədlərini xanegah adlandırırdılar. Onların bu xahegahları İslam dinindəki Sufilərin ibadət üçün toplaşdığı məkanla eynidir.

# 5. Məzdək dini

İctimai böhranların yeni dini inanc və etiqadların yaranmasında böyük rolu vardır. Böhranlı zaman və məkanda meydana çıxan dinlər kütləvi şəkildə yayılmağa başlayır. Tam ictimai din olan Məzdəkilik dini bizim irəli sürdüyümüz bu iddia üçün gözəl misaldır. Əbülqasim Firdovsi "Şahnamə" əsərində Qubad şah barədə söz açanda Məzdəkin meydana çıxması barədə ətraflı məlumat verir. O deyir ki, Məzdək filosof idi və qıtlıq illərində insanları taxıl anbarına hücuma sövq etdi. Bu hadisədən sonra onun şöhrəti genişlənməyə başladı.

**5-1. Məzdəkin həyatı**

Bamdadın oğlu Məzdək Qubad şahın zamanında (488-531-ci illərdə) Dəclə çayının kənarında yerləşən, qədim zamanlarda Mazarya və hal-hazırda Kut Əl-İmarə adlanan şəhərdə alim ailəsində dünyaya göz açmışdır. Tarixçilər, hətta onun düşüncələri ilə müxalif olan şəxslər onun ağıllı, məntiqli və yaxşı xüsusiyyətlərə malik olmasını bildirmişlər. Onun təqvalı və həmişə sadə paltar geyinən insan olması da qeyd olunmuşdur.

Məzdək heç vaxt peyğəmbər olduğunu bildirməmişdir və özünü həmişə Bundus adlı bir şəxsin davamçısı kimi tanıdırdı. Bundus 300-cü ildə Manilikdə bəzi islahatlar aparmışdır. Onun İranda və Romada çoxlu sayda davamçıları var idi.

**5-2. Məzdəkin qiyamı**

Firdovsinin Şahnamə əsərində Məzdəkin alim və natiq insan olduğunu oxuyuruq. O, bir gün ölkənin ac və səfil əhalisindən bir dəstəsinin şahın sarayının ətrafında toplaşmasını və şahdan çörək istəmələrini gördü. Sarayda dövlət məmurlarından biri olan Məzdək şahdan soruşdu: "Əgər bir insanı ilan vurarsa və o ölüm ayağında olarsa, eyni zamanda onun qonşusunda bunun dərmanı, yaxud dirilik suyu olarsa və həmin ölüm yatağında olan xəstədən gizlədərsə həmin

insanla necə davranmaq lazımdır?” Qubad şah cavab verdi: “Onun cəzası ölümdür!” Məzdək yenidən soruşdu: “Əgər insanların çörəyə ehtiyacı olarsa və çörəyi olan insanı öz çörəyini onlardan gizlədərsə onun cəzası necədir?” Şah Qubad cavab verdi: “Onun da hökmü və cəzası ölümdür!”

Məzdək üzünü insanlara çevirərək dedi: “Anbarlara hücum edin, ərzaqları götürün və canınızı aclığın əlindən qurtarın.” Onlar belə etdikdən sonra Şah Qubad Məzdəki danlamağa başladı. Məzdək dedi: “İnsanlar ac idilər, anbarlar isə dolu idi. Mən bu addımı sizin nəzərinizə uyğun olaraq atdım.”

Bu hadisədən sonra Məzdəkin insanlar arasındakı şöhrəti artdı və Şah Qubad da onun bu dini məktəbini qəbul edərək onun yayılması üçün lazımi şərait yaratdı. Zərdüşt dininin din alimləri və zadəganları Məzdəkə qarşı qiyam etdilər və onun dini məktəbini müdafiə edən Şah Qubadı hakimiyyətdən uzaqlaşdırdılar. Qubad yenidən taxt-tacını əldə edə bildi, amma artıq Məzdəki müdafiə etmədi. Onun oğlu və canişini olan Ənuşirəvan Zərdüşt alimləri və zadəganları tərəfindən müdafiə olduğu üçün 528-ci ildə Məzdəki və onun davamçılarını qətlə yetirdi. Onlardan sağ qalanlar gizləndilər və İslam dininin yaranmasından bir neçə on il sonra belə bəzən öz varlıqlarını göstərməyə çalışdılar. Islamın ilk illərində mövcud olan zındıqların bir dəstəsi Məzdəkin davamçılarından idi.

### 5-3. Baxışları

Məzdəkin düşüncələri “Məzdəknamə” adlı kitabda bir yerə toplanılmışdır. Həmin kitab İslam dininin yaranmasından sonra İbn Müqəffə tərəfindən Ərəb dilinə tərcümə olunmuşdur. Hal-hazırda həmən kitab mövcud deyildir. Məzdək müxtəlif cəhətlərdən Konfutsiyə və Plutona oxşayır, çünki onun yaratdığı bu din də təmamilə ictimai-siyasidir. Məzdək insanların mallarının hamı arasında bərabər bölünməsinin tərəfdarı idi. O zadəganlarla qeyri-zadəganlar arasında evlilik məsələsini də rəsmiləşdirdi. Onun düşüncələri və əqidəsi barədə

irəli sürülən "Cinsi şəriklik" məsələsinin mövcudluğu barəsində qeyd olunan iddialar yalandır.

**Mənbə**


1. Avesta
2. Alberi, C.R.C. "Manəvilik Zəburu" tərcüməçi: Əbülqasim İsmailpur, Tehran 1996
3. Amuzqar. Jale və Təfəzzoli. Əhməd, "Zərdüştün həyat əfsanəsi", Tehran 1996
4. Eliada, Mirça, "Genusi və Manəvi dinləri, tərcüməçi: Əbülqasim İsmailpur, Tehran 1994
5. Uşidəri, Cahangiq, "Məzdəyəsna ensklopediyası", Tehran 1992
6. Buis, Meri, "Zərdüştlük dininin tarixi", tərcümə: Humayun Sənətizadə, Tehran 1995
7. Təqizadə, Seyyid Həsən. "Mani və onun dini", Tehran 1968
8. Hikmət, Əli Əsğər, "Dinlər tarixi", Tehran 1966
9. Xosrəvi, Xosrov, "Məzdək", tehran 1970
10. Rəisniya, Rəhim, "Məzdək və sonra", Tehra 1978
11. Zərrinkub, Əbdülhüseyn, "Vicdan barəsində", Tehran 1996
12. Zener. R.C, "Zərvan", tərcüməçi: Teymur Qaderi, Tehran 1995
13. Zener. R.C, "Zərdüştlüyün doğuşu və batışı", tərcüməçi: Teymur Qaderi, Tehran 1996
14. Kristyanson, artur Emanuel, "Qubadın padşahlığı və Məzdəkin yaranması", tərcüməçi: Əhməd Birşək, Tehran 1995
15. Gimen, Duşen, "Qədim İranın dini", tərcüməçi: Röya Münəccim, Tehran 1996
16. Nas. Con.B, "Dinlərin ümumi tarixi", tərcüməçi: Əli Əsğər Hikmət, Tehran 1991
17. Vermazrin, Martin, "Mitra dini", tərcüməçi: Bozorq Nadirzad, Tehran 1993
18. Videngern, Qeo, "İran dinləri", tərcüməçi: Mənuçehr Fərhəng, Tehran 1998
19. Hyum. Robert.A, "Dünyanının diri dinləri", tərcüməçi: Əbdürrəhim Qovahi, Tehran 1994

# 7. İslamdan öncə ərəblər arasındakı mövcud dinlər

## 1. Cahiliyyət dövrünün ərəb dinləri

Ərəblər iki dəstəyə bölünürdülər: Qəhtani və Ədnani. Qəhtani ərəbləri Sam qövmünə aid və daha qədim tarixə malik idilər. Onlar Ərəbistan yarımadsında və xüsusən də, onun cənub hissələrində yaşayırdılar. Ədnani ərəblər isə Həzrət İsmailin (ə) nəslindən olan Ədnan adlı şəxsdən yaranmaışdırlar. İstər İslam dinindən öncəki cahiliyyət dövründə, istərsə də İslamdan sonra Ərəblərin ən məşhur və ən güclü qəbiləsi Qureyş qəbiləsi idi və bu qəbilə Ədnani Ərəblərdən sayılırdılar. Allahın Rəsulu Həzrət Muhəmməd (s), onun xəlifələri və İslamın yarandığı illərdə böyük zəhmətləri olan insanlar bu qəbilədən idilər.[1]

Islamdan öncə olan Ərəblər səhrada yaşayan, savadsız qövm idilər. İslam dini nöqteyi-nəzərindən bu mədəniyyətdən uzaq olan tarixi dönəm Cahiliyyət dövrü adlandırılır. Elə bu səbəbdən də, həmən

---

[1] Ərəblərin digər tayfaları, o cümlədədn Ad və Səmud Baidə Ərəbləri adlandırılırdılar. Qəhtani Ərəblər Aribə Ərəbləri və Ədnani Ərəbləri Müstərəbə Ərəblər adlandırılırdılar. Ərəbistan yarımadasından kənarda yaşayan Ərəblər, yəni İslam dininin yaranmasından və yayılmasından sonra meydana çıxan, İslam dinini, mədəniyyətini və Ərəb dilini qəbul edən Ərəblərin məxsusi adı yoxdur.

zaman barədə əsaslı tarix yoxdur və əldə olunan bütün məlumatlar İslam mədəniyyətinin meydana çıxmasından sonra şifahi şəkildə nəql olunan məlumatların yazılı hala gətirilməsindən sonra yaranmışdır. Hal-hazırda alimlərin böyük əksəriyyəti bu tarixi məlumatları qəbul etmirlər. Qurani-Kərimdə və İslami hədislərdə bu barədə mövcud olan dəyərli məlumatlar cahiliyyət ərəblərinin etikasına və dini etiqadlarına aid ümumi məlumatlardır. Çünki, qeyd etdiyimiz mənbələrdə qeyd olunan məlumatlar tarixi məsələləri bəyan etmək deyildi.

Misirin böyük alimlərindən olan Taha Hüseyn məşhur şərqşünasların yolunu davam etdirərək cahiliyyət ərəbləri barədə mövcud olan məlumatların böyük əksəriyyətini tənqid atəşinə tutdu və bu sahədə yeni əsərlər yaratdı. İraqlı alim Doktor Cəvad Əli də Ərəb dilində on cilddə "Əl Məfsəl fi tarixil Ərəb qəbləl İslam" ensklopediyasını qələmə aldı. O, bu dəyərli əsərdə cahiliyyət Ərəblərinin bütün mədəni və tarixi tərəflərini işıqlandırdı.

Cahiliyyət dövründə ərəblərin sitayiş etdiyi ən məşhur din Bütpərəstlik idi və bu sitayiş növü Ədnani Ərərblərin arasında da geniş yayılmışdı. Bəzi Ərəblər isə yəhudiliyə və xristiyanlığa iman gətirmişdilər.

## 2. Ərəblərin Tanrıları

Ərəblər də digər bütpərəstlər kimi müxtəlif formalara malik çoxlu sayda Tanrılara inanırdılar. Bu Tanrıların bəziləri insan, bəzilər heyvan, bəziləri insanla heyvanın qarışığından yaranan məxluq formasında, yaxud xüsusi  forması olan daş idi. Tarixçilər Ərəblər arasında bütpərəstliyin Əmr ibn Luhəy tərəfindən yaradılmasını bildirirlər. Onların nəzərincə Əmr Şama səfər edərkən ilk dəfə olaraq bütpərəstləri görmüşdür. Həmin insanlardan büt barədə soruşanda cavab vermişlər ki, bu büt bizə kömək edir və bizim diyarda yağışın yağmasının əsas səbəbkarı odur. Əmr bütə sahib olmaq fikrinə düşdü və

***Hubəli*** onlardan alaraq Məkkəyə gətirdi. Hubəl Məkkə əhalisinin ən sevimli və böyük bütü idi. Hal-hazırda alimlər bu hekayəyə heç bir dəyər vermirlər və bütpərəstliyin başlanğıcının məlum olmadığını bildirirlər. Onların nəzərincə Hicaz bütpərəstlərinin də digər bütpərəstlər kimi başqa yerlərdən idxal etdiyi bütləri olmuşdur. Məsələn; Zuşşəra (Duschara) əslində İordaniya Nəbətilərinin bütü olub.

Ərəblər bəzən müxtəlif məfhumları büt halına gətirirdilər və ona sitayiş edirdilər. Məsələn; ***Mənat*** qəza və qədər Tanrısı idi. Heyvan formalarında olan bütlər də ərəblər arasında mövcud idi. Məsələn; ***Nəsr*** kərkəs formasında olan büt idi. Heyvan formasında olan bütlər Totemizmin qalıqları idi.

## 3. Allaha iman

Qurani-Kərim ayələrindən də məlum olduğu kimi cahiliyyət ərəbləri Allahı dünyanın yaradıcısı və bütü onun siması kimi qəbul edirdilər. İbadət və and içmə zamanı həm Allahın adında and içirdilər, həm də bütlərin adından istifadə edirdilər. Məsələn; İşlərini başalayanda "Bismikə Allahummə" deyirdilər, amma ibadət və hacətlərini dillərinə gətirdikləri zaman bütlərin adlarını çəkirdilər. Onlarla islam Peyğəmbəri Həzrət Muhəmməd (s) arasında ən əsas ixtilaf O Həzrətin onların bütlərə sitayiş etmələri, onlardan hacət istəmələri və şirkdən əl çəkmələri sahəsində idi.

## 4. Əzabverici ruhlar

Ucsuz-bucaqsız çöllərdə və səhralarda həyat üçün vacib olan anlayışlardan biri də bəzi gözə görsənməyən məxluqların mövcudluğuna inam idi. Səhrada yaşayan Ərəblər də ziyan və əziyyət verən ruhlara böyük əhəmiyyət verirdilər və həyatlarını elə qururdular ki,

onların pis işlərindən qoruna bilsinlər, eləcə də onların güclərindən, bacarıqlarından istifadə edə bilsinlər. Bu məsələ Qurani-Kərimdə də (Cin surəsi, 6) qeyd olunmuşdur. Onların təsəvvürünə görə cinlər müxtəlif formalara girə  və onların bəziləri insanlara ziyan və əziyyət verə bilirlər. Cindarların xidmətlərindən istifadə və həmin məxluqatların ürəklərini ələ almaq üçün müxtəlif mərasimlərin keçirilməsi mövcud olmuşdur. Divlər də cinlərin bir növü idilər və onlar səhralarda yaşayırdılar. Divlər səhralarda səfərə çıxan müsafirlərlə yol yoldaşı olurdular və fürsət tapan kimi onları öldürürdülər. İfrit cinlərin ən qorxulu növüdür. İslam dininin məqsədlərindən biri də insanlara bu məxluqların insan üçün xeyiri və ziyanı olmamasını başa salmaqdan ibarət idi.

## 5. Sabiilər

Belə nəzərə çarpır ki, Sabiilərin əvvəlcə heç bir müəyyən dini olmayıb və bu ad müxtəlif dinlərə aid edilib. Maraqlısı budur ki, İslam Peyğəmbəri Həzrət Muhəmmədin (s) zamanındakı müşrik ərəblər O Həzrəti və davamçılarını "Sabii" adlandırırdılar. Bəzən də İslam dinini izhar etmək üçün "Sabii olduq" sözünü istifadə edirdilər.

Islam dininin yaranmasından sonra mövcud olan Sabiilər iki dəstəyə bölünürlər və əslində onların heç birisi Ərəb deyillər: İslam dünyasında elmin yayılmasına köməklik etməklə tanınan dəstə Hərran Sabiiləridir. Bu dəstə Sabii adını üçüncü əsrin əvvəllərində özlərinə götürmüşlər və sonralar bu adla tanınmağa başlamışlar. İbn Nədim "Əl Fihrist" kitabının doqquzuncu məqaləsində belə yazır: "Abbasi xəlifəsi olan Məmun Hərrandan keçərkən bir dəstə insan gördü və onlardan soruşdur: "Hansı dinə qulluq edirsiniz?" Onlar bu suala düzgün cavab verə bilmədilər. Məmun dedi: "Əgər kitab əhlisinizsə hansı kitab əhli tayfasından olduğunuzu müəyyənləşdirin və əgər kitab əhli deyilsinizsə ondan vəziyyətinizi müəyyənləşdirin."

Belə qərara alındı ki, Məmun səfərdən geri qayıdana qədər onlar öz vəziyyətlərini müəyyənləşdirsinlər. Bu müdddət ərzində həmən insanların bir dəstəsi müsəlman və digər dəstəsi xristiyan oldu. Üçüncü dəstə isə Qurani Kərimdə olan "Sabiin" adını seçdilər və beləliklə özlərini İslam hökumətinin nəzarəti altına saldılar.

Sabiilərin ikinci dəstəsi ***Subtə, Sabiətul Bətaih, Məndayi, Muğtəsələ və Nasuri*** adları ilə də məşhur idilər. Onlar dəyişilmiş və yeni formaya düşmüş qədim bir dinin davamçıları idilər. Bu dinin bəzi formaları Yaxın Şərqdə də yaranmışdı və həmin dinin davamçılarından sağ qalan insanlar İranın Xuzistan əyalətində və İraqın cənub bölgələrində mövcuddurlar.

Qədim Sabiilərin hər yeddi ulduz və planet üçün məbədləri var idi və maraqlıdır ki, onların nəzərincə Kəbə Saturn planetinin məbədi idi. Onlara Aya sitayişə də böyük əhəmiyyət verirdilər. Bizim dövrümüzdə olan Sabiilər özlərini həzrət Yəhyanın (ə) davamçıları kimi qələmə verirlər. Onların məbədləri həmişə axar çayın kənarında olur və onların yalnız rahibləri bu məbədə girmək haqqına malikdirlər.

Sabiilərin təxminən yetmiş min nəfəri İraqda Dəclə çayının sahilində və təxminən iyirmi beş min nəfəri isə İranın Xuzistan əyalətindəki Karun çayının sahilində yaşayırlar. Onlar müxtəlif peşə sahibləri, o cümlədən zərgər, əkinçi, maldar, qayıq istehsalçısı, dəmirçi və son zamanlar həkim, tacir və mühəndis olurlar. Onların nəzərincə Həzrət Yəhyanın (ə) qiyamından sonra Urşəlim Yəhudilərinin qəzəbinə tuş gəldilər və məcburi şəkildə həmən şəhərdən mühacirət edərək Hərran şəhərində yerləşdilər.[1] Bir müddətdən sonra onların bir dəstəsi İraqın cənubuna və digər dəstəsi İranın Xuzsitan əyalətinə köçdülər.

Sabiilər gündə üç dəfə səhər, günorta və axşam namaz qılırlar və ildə otuz altı gün oruc tuturlar. Onların müqəddəs kitablarının adı "Gənza Rəbba" (Böyük xəzinə)-dır.

---

[1] Hərran Türkiyənin cənubunda və Suriya ilə sərhəddə yerləşmişdir

Onlar Qadir Allahı Həy, yəni Həyat adlandırırlar və onu nurun xaliqi sayırlar. Qaranlıq və zülmətin xaliqi isə Ruha adlandırılır. Bu iki Tanrı bir-birilə döyüşürlər və qələbə həmişə nur Tanrısına nəsib olur.

Sabiilərin ruhanisi Gəncur adlandırılır. Ruhanilərin vəzifəsi Sabiiləri hər həftənin bazar günü müqəddəs suya salmaqdan və onra qüsl verməkdən ibarətdir. Müqəddəs suya salınan zaman və qüsl alan, həmdə qüsl verən şəxsin üzərində beş bölümdən ibarət paltar olmalıdır. Qüsl verənin əsası və digər ləvazimatları olmalıdır. O, müqəddəs suya salma işinə başlamamışdan öncə yasəmən ağacının bir budağını götürür müxtəlif dini mərasimlər keçir və dualar oxuyur. Müxtəlif münasibətlərlə və günahların kəffarəsini çıxartmaq üçün də xüsusi qüsllər mövcuddur. Qeyd etmək lazımdır ki, Sabilər də kitab əhli kimi qəbul edilirlər.

**Mənbə**


1. Berenci, Səlim, "Unudulmuş qövm", Tehran 1988
2. Hikmət, Əli Əsğər, Dinlər tarixi, Tehran 1966
1. Nas, Con. B, "Dinlərin ümumi tarixi", Tərcüməçi: Əli Əsğər Hikmət, Tehran 1991
4. Zərrinkub, Əbdülhüseyn, "Vicdan barəsində", Tehran 1978
5. Mustəfəvi, Əli Əsğər, "Qurbanlıq əfsanəsi", Tehran 1990
6. Nuri. Yəhya, "İslam, əqidələr və bəşəriyyətin baxışı", Tehran 1974

# 8. Yəhudilik

## 1. İbranilər

Yəhudilər İbranilərin nəslindəndilər. Bu nəsil Ərəblər, Assuriyalılar və Yaxın Şərq regionunda olan bir neçə başqa xalqla müştərək kökə malikdir. Bu xalqların dili, ədəbiyyatı, mədəniyyəti, adət-ənənələri və dini etiqadları o qədər bir-birinnə yaxındır ki, alimlər bütün bu xalqların özəyinin bir qövmə, yəni Sam qövmünə çatması qənaətinə gəliblər. Bu xalqalrın hər birisinin mədəniyyəti sahəsində tədqiqat və araşdırma aparmaq üçün digər Sam xalqlarının da mədəniyyətinə nəzər salmaq lazımdır. Məsələn; əgər biz Ərəb ədəbiyyatı barədə araşdırma işləri aparmaq istəsək İbrani, Süryani və Həbəşi dilləri sahəsində də tədqiqat və mütaliə işləri aparmaqla daha böyük nailiyyətlər əldə etmiş olarıq.

İbrani xalqının tarixi keçmişi barəsində dəqiq məlumatımız yoxdur. Bəzi alimlərin nəzərincə "İbrani" adını Kənan əhli Həzrət İbrahimin (ə) Kənan ərazilərinə daxil olmasından sonra onu İbrani adlandırmağa başlamışlar.[1] Bu ad onun bütün ailəsi üzərində qaldı, çünki İbrani çaydan keçmək mənasını verir. Yəni onların nəzərincə Həzrət İbrahim (ə) Fərat çayından keçərək Kənana daxil olmuşdur.

[1] Yaranış 13:14

Bəzilərinin nəzərincə isə İbrani sözü Həzrət İbrahimin (ə) babası və əcdadı olan Abirə qayıdır.[1] Eləcə də, bəziləri Həzrət İbrahimin (ə) atasının (əmisi) adının Azər olması səbəbindən onun ailəsinin əslən Ariyayi qövmündən olmasını bildirirlər. Amma alimlər bu nəzəri təsdiqləmirlər, çünki Qurani-Kərimdə və İslami mətnlərdə qeyd olunmuş Azər sözünün lüğəti mənası barəsində düzgün informasiyaya malik deyilik. Tövratda İbrahimin (ə) atasının adı Tarəh qeyd olunmuşdur.

## 2. Həzrət İbrahim (ə)

Həzrət İbrahim Xəlil (ə) daim əzəmətli peyğəmbər olmuşdur və bütün tarix boyu müsəlmanlar, xristiyanlar və yəhudilər arasındakı çəkişmələrin mərkəzində dayanmışdır. Çünki, hər üç dinin davamçıları O Həzrətin onalara aid olduğunu bildirmişlər: *"İbrahim nə yəhudi, nə də xaçpərəst idi. O ancaq hənif (batildən haqqa tapınan, haqqa yönəlmiş olan) müsəlman (Allaha təslim olan) idi və (Allaha) şərik qoşanlardan deyildi."* (Ali İmran, 67) O, hətta müşriklər arasında belə böyük hörmət və ehtirama malik bir şəxsiyyətdir və onun Məkkədə qalan izləri onlar tərəfindən müqəddəs bir irs kimi ziyarət edilirdi. Bəzi insanlar da ad oxşarlığına görə Brahmanizm dininin (yəni Hinduizmin, Caynizmin və Buddizmin) də Həzrət İbrahimdən (ə) başlanması iddiasını irəli sürmüşlər. Yəhudilər özlərini Həzrət İbrahimin (ə) nəvəsi olan Həzrət Yaqubun (ə) nəslindən bilirlər və həm cismani, həm də ruhani baxımdan Həzrət İbrahimin (ə) nəslindən olmalarına görə böyük iftixar hissi keçirirlər.

Tövratda O Həzrətin nəslinin Həzrət Adəmə (ə) qədər uzanması qeyd olunur. Tövratda olan nəsil sənədləri İslami kitablara da yol tapmışdır və bu sənədin düzgünlüyünə və mənbəyinə diqqət yetirilmədən qəbul edilmişdir.

Kitab əhlinin (bu nəzər müqəddəs kitablarda qeyd olunmuş hədislərdən nəticə kimi çıxarılmışdır) nəzərincə Həzrət İbrahim (ə) Era-

[1] Abir adı Yaranı səfəri 24:10 və 16:11-də qeyd olunmuşdur.

dan əvvəl 2000-ci ildə, yəni 4000 il öncə Ur şəhərində dünyaya gəlmişdir və Tövratda qeyd olunduğuna əsasən öncə Abram (yəni məqam sahibi) adını daşıyırdı. Allahu-taala onun adını doxsan doqquz yaşında dəyişərək İbrahim (yəni Qövmlərin atası) etdi.[1] Ur şəhəri təxminən bir əsr bundan öncə İraqda Fərat çayının sahilində torpaq altından aşkar edildi və həmin məkanda saysız-hesabsız antik tapıntılar əldə olundu.

Tövratda qeyd olunduğuna əsasən Tarəh oğlu Həzrət İbrahim (ə), onun həyat yoldaşı Sara və qardaşı oğlu Həzrət Lutu (ə) götürərək Fələstinin qərbində yerləşən Kənan torpaqlarına köçdü. Onlar yolun yarısında köçdüklərinə görə peşiman olaraq Hərran şəhərində yerləşdilər. Bu şəhər bu günkü Türkiyənin cənubunda Suriya ilə sərhəddə yerləşmişdir.

Həzrət İbrahimin (ə) atası Tövratda Tarəh adlandırılır, amma Qurani-Kərim onu bütpərəst Azər kimi təqdim edir: *“(Ya Rəsulum) Xatırla ki, bir zaman İbrahim atası Azərə demişdi: “Sən bütləri tanrılarmı qəbul edirsən? Mən səni və sənin tayfanı açıq-aydın zəlalət içində görürəm!”* (Ənam surəsi, 74) Həzrət İbrahim (ə) atası İslam Peyğəmbəri Həzrət Muhəmmədin (s) əcdadları sırasında yerləşmişdir. Bütün şiyə və sünni alimlərinin əksəriyyəti o Həzrətin Həzrət Adəmə (ə) qədər olan bütün atalarının hamısının tək Allahlığa inandığını bildirirlər. Elə buna görə də, Azərin Həzrət İbrahimin (ə) həqiqi atası olmadığını vurğulayırlar və bunu təsdiqləmək üçün lazımi dəlillər də gətirirlər.

Tövratda qeyd olunduğuna əsasən həzrət İbrahim (ə) 75 yaşında Allahın əmri ilə Hərran şəhərindən Kənan torpaqlarına tərəf yola düşür. O, həyat yoldaşı Sara və qardaşı oğlu Həzrət Lut (ə) və Hərran əhalisindən başqa bir neçə nəfəri də özü ilə götürərək Kənana aparır. Onlar həmən məkanda Beytu İyl-in şərqindəki dağın üzərində çadır qurur. Həzrət İbrahim (ə) bir müddətdən sonra Hebronda (Əl Xəlildə) məskunlaşır və ömrünün sonuna qədər orada yaşayır. Hal-hazırda da onun ailəsinin məqbərəsi bu məkanda yerləşir. Amma Həzrət Lut (ə)

[1] Bu məlumatlar və belə adlandırma Köhnə Əhddən götürülmüşdür.

Səmud və onun ətrafındakı şəhərlərə gedir. Bu şəhərlərin sakinləri onun dediklərinə itaətsizlik etdiklərinə görə Allah tərəfindən cəzalandırılaraq təmamilə yer üzərindən silinirlər. Bu hadisə Qurani-Kərimdə də qeyd olunmuşdur.

Həzrət İbrahimin (ə) həyatında iki olduqca mühim məsələ mövcuddur və hal-hazırda mövcud olan Tövratda bu məsələlərə işarə olunmamışdır: Birincisi bütlərin sındırılması və O Həzrətin oda atılması, ikincisi Kəbə evinin inşası.

Qurani-Kərimdə (Ənbiya və Saffat surələrində) Həzrət İbrahim (ə) bütləri sındırması və O Həzrətin oda atılması hekayəsi qeyd olunmuşdur.

Qurani-Kərimdə eləcə də, Həzrət İbrahimin (ə) Həzrət İsmail (ə) ilə birlikdə Kəbə evini inşa etməsi də qeyd olunmuşdur: *"Onu da yadına sal ki, İbrahim və İsmail evin (Kəbənin) bünövrəsini ucaltdıqları zaman: "Ey Rəbbimiz! (Bu xeyirli işi) bizdən qəbul et, Sən, doğrudan da, (hər şeyi) eşidənsən, bilənsən!" – deyə dua etdilər."* (Bəqərə surəsi, 127) Həzrət İsmail (ə) O Həzrətin qoca yaşlarında əta olunmasını nəzərə alsaq, Həzrət İbrahim (ə) Kəbə evini şərəfli ömrünün sonlarında inşa etdiyi qənaətinə gəlmiş olarıq: *"İxtiyar çağımda mənə İsmail və İshaqı bəxş etmiş Allaha həmd olsun! Həqiqətən, Rəbbim duaları eşidəndir!* (İbrahim surəsi, 39) Qeyd etmək lazımdır ki, Kəbə və Məkkə kitab əhli tərəfindən müqəddəs sayılmır.

Digər tərəfdən Tövratda belə bir iddia irəli sürülür ki, Allahu-Taala Həzrət İbrahimi (ə) Nil çayından Fərat çayına qədər olan ərazini onun oğlu Həzrət İsraildən (ə) törəyən övladlarına əta edəcəyi əhd etmişdi. (Yaranış 15:1-18 və 17:18-21) Bu vədənin Bəni-İsrailə aid olacağını da müşahidə edəcəksiniz.

## 3. İslamil və İshaq (ə)

Qurani-Kərimdə və Tövratda qeyd olunduğu kimi Həzrət İbrahimin (ə) həyat yoldaşı Sara sonsuz idi və Tövratda qeyd olunduğu kimi Allahu-Taala dəfələrlə Həzrət İbrahimin (ə) onun nəslini artıracağı barədə əhd bağlamışdı. O Həzrətin Hacər adlı kənizi dünyaya bir

oğlan uşağı gətirdi və onun adını İsmail (yəni Allah eşidir) qoydular. On dörd ildən sonra Sara (hər ikisi, həm Həzrət İbrahim (əs), həm də Sara qocalmışdılar) Allahın əmri ilə dünyaya bir oğlan gətirdi və adını İshaq (yəni Gülür) qoydular.

Tövrat bu barədə az söz açır və yalnız Həzrət İsmailin (ə) Faranda yaşaması, anasının ona Misirli qız alması barədə məlum verməklə kifayətlənir. O Həzrətə aid digər məsələlər Tövratda unudulmuşdur və Kəbə evinin inşa edilməsi barədə bir söz belə gözə dəymir. Ismail (ə) üçün yerdən suyun çıxması İslam hədislərinə əsasən Məkkədə olduğu və hal-hazırda "Zəmzəm" adı ilə tanındığı halda Tövratda qeyd olunanlara əsasən bu su Fələstinin cənubundakı Biiru Şibəə[1] adlanan yerdə olmuşdur.

Tövrat övladının qurban kəsilməsi məsələsini qeyd edir və yazır ki, Həzrət İbrahimin (ə) Həzrəti İshaqı (ə) qurban kəsmək məmuriyyətini alır. O Həzrət bu məsələni İshaqa (ə) açıqlamayaraq onun sualına cavab olaraq deyir: "Ey mənim oğlum! Allah özü üçün qurbanlıq qoyun hazırlayacaq" (Yaranış, 22:8) Amma Qurani-Kərimdə İbrahim (ə) oğlanlarından biri barədə söz açılır:

فَلَمَّا بَلَغَ مَعَهُ السَّعْيَ قَالَ يَا بُنَيَّ إِنِّي أَرَى فِي الْمَنَامِ أَنِّي أَذْبَحُكَ فَانظُرْ مَاذَا تَرَى قَالَ يَا أَبَتِ افْعَلْ مَا تُؤْمَرُ سَتَجِدُنِي إِن شَاء اللَّهُ مِنَ الصَّابِرِينَ

*"O, yüyürüb qaçmaq (atasına kömək edə bilmək) çağına (on üç yaşına) çatdıqda (İbrahim) dedi: "Oğlum! Yuxuda gördüm ki, səni qurban kəsirəm. Bax gör (bu barədə) nə fikirləşirsən!" O dedi: "Atacan! Sənə nə əmr olunursa, onu da et. İnşallah, mənim səbirlilərdən olduğumu görəcəksən!" (Saffat surəsi, 102)*

Bildiyiniz kimi O Həzrət ölümdən xilas olur və Allahu-Taala onun yerinə qurban kəsilməsi üçün qoç göndərir. Şiyələrin və əhlisünnənin bir qrupunun nəzərincə bu Həzrət İsmail (ə) və bir dəstəsinin nəzərincə isə Həzrət İshaq (əs) olmuşdur.

---

[1] Bu söz bütün müsəlman kitab yazarları üçün tanınmayan yer olduğu üçün Səmat duasında "Biiru Şiyəə" formasına salınmışdır. Hazırda İsraildə adını bu quyulardan alan "Beer Sheva" (Yeddi quyu) şəhərində olduğu bildirilir.

# 4. Həzrət Yaqub (İsrail)

Tövratda qeyd olunduğuna əsasən Həzrəti İshaq (ə) Həzrət İbrahimin (ə) canişini oldu və onun əkiz oğlu dünyaya gəldi. İlk dünyaya gələnin adı İsu idi. Bu sözün mənası “tüklü” deməkdir. Tövratda qeyd olunduğuna əsasən körpə dünyaya gələrkən bədənində çoxlu tük var idi. İkinci əkiz uşaq isə Yaqub idi. Yaqub sözü tərcümədə “arxasınca gələn” deməkdir. Çünki, dünyaya gələrkən özündə öncə gələn uşağın arxasınca gəlmişdir.

Həzrət Yaqubun (ə) on iki oğlu var idi və O Həzrət İsrail ləqəbilə tanınırdı. Kitab əhli bu adın belə məna verdiyini bildirirlər: *Allaha qalib gələn şəxs.* Amma bu sözün İbrani dilindəki əsil mənası “*Qəhrəmana qalib gələn şəxs”* mənasını verir. Tövratda qeyd olunduğuna əsasən Həzrət Yaqubun (ə) Allahla güləşməsi və ona qalib gəlməsi onun belə adlandırılması ilə nəticələnmişdir.(Yaranış 32: 24-32) Kitab əhli lap qədim zamanlardan belə iddia edir ki, bu hekayədə Allah deməkdə məqsəd Allahım mələklərindən biri mənasını daşıyır.

Bir müddətdən sonra Həzrət Yusifin (ə) hadisəsi meydana çıxdı və sonda Bəni-İsrailin (İsrail övladlarının) Misir torpaqlarında qalması ilə nəticələndi. Tövratın “yaranış” bölümünə aid olan bütün mətləblər Həzrət Yusifin (ə) vəfatından sonra sona çatdı.

“Xuruc” bölümünün başlanğıcında Həzrət Yaqubun (ə) on iki oğlunun hamısının Misirdə vəfat etmələrini və onların nəsillərinin bu ölkədə çoxalmalarını oxuyuruq. Bəni-İsrailin Sibt adlanan on iki qəbiləsi müxtəlif elm və peşə sahələrində inkişaf etdilər və bu da Misirlilərin onlara paxıllıq etməsinə gətirib çıxartdı. Bundan əlavə Misirlilər hakimiyyətin də Bəni-İsrailin əlinə keçməsindən qorxmağa başladılar. Elə buna görə də, onları zəiflətməyə başladılar və ən çətin işləri onlara həvalə etdilər. Eləcə də, Misir qəbilələrinin yeni dünyaya gəlmiş Bəni-İsrail oğlanlarını qətlə yetirmək üçün həvəsləndirdilər. Onlara yalnız qız uşağı dünyaya gətirməyə icazə verilmişdi.[1]

---

[1] Bəzi İslami hədislərdə belə qeyd olunur ki, Firon Bəni-İsraildən olan bir kişinin onunla mübarizə aparacağını eşitmişdi və elə buna görə də dünyaya təzə gəlmiş oğlan uşaqlarını qətlə yetirirdi.

İbranilər ilk öncə səhrada yaşayan qövm idilər və onlar ilk olaraq Həzrət Yusifin (ə) zamanında şəhərdə yaşamağa başladılar.[1] Səhrada yaşamaq onların dini etiqadlarına və mərasimlərinə güclü təsir göstərmişdir. Musa (ə) onları Fironun əlindən xilas edəndə qırx il Sina səhrasında yaşamaq məcburiyyətində qaldılar. Amma ondan sonra həmişə şəhərlərdə yaşamağa və Yəhudi qövmünün qiymətli irsinin yaranması üçün mədəniyyət yaratdılar. Bundan sonra həmin ərazilərdə xristyanlıq meydana çıxdı.

Xalqlarda düşüncə tərzinin dəyişilməsi adi və təbii haldır. İbranilər köç zamanı müxtəlif xalqların düşüncə təsiri altına düşdülər. Məsələn; dənizdən keçəndən və Fironun əlindən xilas olduqdan sonra bir dəstə bütpərəstlə üzləşdilər və Həzrəti Musadan (ə) onlar üçün büt hazırlamalarını xahiş etdilər. Onların bu istəyi kəskin şəkildə rədd edildi: *"Biz İsrail oğullarını dənizdən keçirtdik, (sonra) onlar öz bütlərinə tapınan bir tayfaya uğradılar. (İsrail oğulları) dedilər: "Ya Musa! Bizə onların sitayiş etdikləri bütlər kimi bir büt düzəlt!" (Musa belə) cavab verdi: "Siz, doğrudan da, cahil bir tayfasınız!*" (Əraf surəsi, 138). Eləcə də, Misirdə yerləşəndə Misirlilərin dini inancları onlara güclü şəkildə təsir göstərdi. Belə ki, onlar bu ölkəni tərk etdikdən sonra belə Misirlilər kimi inəyi müqəddəsləşdirdilər. Bunun nəticəsində onlar qızıldan inək bütü yaradaraq ona ibadət etməyə başladılar.

## 5. Həzrət Musa (ə)

Tövratın Xuruc bölümünün ikinci fəslində belə qeyd olunmuşdur ki, Bəni-İsraildən bir nəfər[2] öz qəbilələrindən olan qızlardan biri ilə ailə qurur və onların oğulları dünyaya gəlir. Yeni doğulmuş körpənin anası onu Fironun məmurlarının əlindən xilas etmək üçün üç ay gizlədir. Uşağı daim gizli saxlamaq mümkün olmadığı üçün anası bir sandıq düzəldir, taxtaların birləşən yerlərini qırla doldurur, uşağı

---

[1] Bu məsələ Qurani-Kərimdə, Yusif surəsinin 100-cü ayəsində qeyd olunmuşdur.

[2] İslami hədislərdə onun adı İmran və Tövratda imram ibni Qəhat ibni Lavi ibni Yaqub kimi qeyd olunmuşdur. (Xuruc 20-14:6)

həmin sandığın içərisinə qoyaraq Nil çayının qamışlıqları arasında suya buraxır. Körpənin bacısı isə həmin ətrafda dayanaraq onun başına nə gələcəyinə tamaşa edir.

Qısa bir müddətdən sonra yuyunmaq üçün Nil çayının sahilinə gələn Fironun qızının gözü sandığa sataşır və kənizlərdən birini sandığın arxasınca göndərir. Sandığı onun yanına gətirirlər və o sandığı açanda içərisində ağlayan uşaq görür. Onun ürəyi uşağın halına yanır, amma həmin körpənin Bəni-İsraildən olduğunu bilir. Bu zaman körpənin bacısı Fironun qızına yaxınlaşır və uşağa süd vermək üçün qadın tapmasını ona təklif edir. Fironun qızı onun bu təklifini qəbul edir və qız öz anasını onların yanına gətirir. Fironun qızı həmin xanıma deyir: "Uşağı özünlə apar, ona süd ver və mən də sənin bütün xərcini ödəyəcəm." Bir neçə ildən sonra uşaq böyüyür və anası onu Fironun qızının yanına aparır. Fironun qızı onu oğulluğa qəbul edir və ona Musa (Muşe, İbri dilində "Sudan çıxarılmış") adını verir. Bu hadisə Qurani-Kərimin Qisəs surəsində qeyd olunmuş hekayə ilə yaxındır. Bəzi tarixi hesablamalara və hadisələrin analizinə görə bu hadisənin eradan 1250-1300 il öncə baş verməsi bildirilir.

### 5-1. Peyğəmbərliyi

Tövratın Xuruc bölümünün üçüncü fəslində oxyuruq ki, Həzrət Musa (ə) Hurib[1] səhrasında dağın ətəyində Allahu-Taalanın səsini bir kol topasından qalxan alovun içərisindən eşitdi və onunla danışdı. Qurani-Kərimdə Allahın Tuva səhrasındakı ağacdan buyurduğu sözlər belədir:

فَلَمَّا أَتَاهَا نُودِيَ يَا مُوسَى * إِنِّي أَنَا رَبُّكَ فَاخْلَعْ نَعْلَيْكَ إِنَّكَ بِالْوَادِ الْمُقَدَّسِ طُوًى* وَأَنَا اخْتَرْتُكَ فَاسْتَمِعْ لِمَا يُوحَى* إِنَّنِي أَنَا اللَّهُ لَا إِلَهَ إِلَّا أَنَا فَاعْبُدْنِي وَأَقِمِ الصَّلَاةَ لِذِكْرِي* إِنَّ السَّاعَةَ ءاَتِيَةٌ أَكَادُ أُخْفِيهَا لِتُجْزَى كُلُّ نَفْسٍ بِمَا تَسْعَى * فَلاَ يَصُدَّنَّكَ عَنْهَا مَنْ لاَ يُؤْمِنُ بِهَا وَاتَّبَعَ هَوَاهُ فَتَرْدَى

---

[1] Bu söz Səmat duasında "huris" formasında qeyd olunmuşdur. Hurib həmin Sina səhrasıdır.

*“(Musa) odun yanına yetişdikdə belə bir nida gəldi: “Ya Musa! * Mən, həqiqətən, sənin Rəbbinəm. Nəleynini çıxart, çünki sən müqəddəs vadidə - Tuvadasan * Mən səni (peyğəmbər) seçdim. (Sənə) vəhy olunanı dinlə! * Mən, həqiqətən, Allaham. Məndən başqa heç bir tanrı yoxdur. Mənə ibadət et və Məni anmaq üçün namaz qıl! * O saat (qiyamət saatı) mütləq gələcəkdir. Mənim onu az qala açmağım gəlir ki, hər kəs etdiyi əməlin əvəzini (mükafatını, yaxud cəzasını) alsın. (Və ya: Mən onu az qala Özümdən belə gizlədirəm; və ya: Mən onu Özümdən başqa hamıdan gizlədirəm. Yaxud: Mən onu zorla gizlədirəm, çünki qiyamətin yaxınlaşması hər addımda özünü müxtəlif əlamətlərlə büruzə verir). * Ehtiyatlı ol ki, (qiyaməti) danıb nəfsinin istəklərinə uyan bir kəs səni ona inanmaqdan yayındırmasın, yoxsa məhv olarsan!”* (Taha surəsi. Ayə 11-16)

Tövratda belə qeyd olunur ki, Allahu-Taala Həzrət Musa (ə) Bəni-İsraili Misirlilərin əlindən xilas edəcəyini və bərəkətli, məhsuldar Kənan torpaqlarını onlara əta edəcəyini vədə verdi. Elə bu səbəbdən də, Həzrət Musa (ə) Fironun yanına getməsi, ondan Bəni-İsraili azad buraxması üçün peyğəmbərliyə çatdı. Qurani-Kərimdə Həzrət Musa (ə) üçün başqa bir mühim risalət məsələsinə də işarə olunmuşdur. Bu risalət Fironu imana, yaxşı əməllərə dəvət etməkdən, kafirlik və zülmdən uzaqlaşdırmaqdan ibarət idi. Həzrət Musa (ə) müxtəlif möcüzələrlə Misirə yola düşdü və qardaşı Harun (ə) onun köməkçisi oldu.

**5-2. Möcüzələri**

Həzrət Musa (ə) Fironu Bəni-İsrailə zülm etməkdən əl çəkməsi və onları azad buraxmaları üçüm müxtəlif yollardan istifadə etməklə təzyiq altına saldı.

Qurani-Kərim və Tövratda qeyd olunduğuna əsasən Allahu-Taala Həzrət Musaya (ə) möcüzə etmək bacarığı verdi. Həzrət Musa (ə) əsa ağacını (tövratda qardaşı Harunun da əsası qeyd olunmuşdur) əjdəhaya çevirə bilirdi və əli ağ nur saçırdı. Firon bir dəstə cadugərləri çağıraraq Musa (ə) ilə yarışmalarını istədi. Qeyd etdiyimiz əjdəha

onları bütün cadugərlik sehirlərini və alətlərini uddu. Onlar Həzrət Musanın (ə) gördüyü işlərin sehir olmadığını anladılar. Qurani-Kərimdə qeyd olunmuşdur ki, cadugərlər Fironun heç bir hədə-qorxusuna baxmayaraq Allahu-Taalaya iman gətirdilər. Onların iman gətirmələri Tövratda qeyd olunmamışdır və kitab əhli tərəfindən qəbul olunmur.

Bu möcüzələrdən sonra Misirlilərə bir neçə əzab nazil oldu. Firon isə Bəni-İsraili azad buraxacağı barədə dəfələrlə vədə versə də öz vədələrinə dönük çıxdı. Tövratda on cür əzab qeyd olunmuşdur:

1. Misirlilərin suyunun qana çevrilməsi
2. Sularda qurbağaların çoxalması
3. Ağcaqənədlərin çoxalması
4. Milçəklərin çoxalması
5. Vəba xəstəliyi nəticəsində Misirlilərin heyvanlarının kütləvi şəkildə tələf olması
6. Misirlilərin və onların minik heyvanlarının dəri xəstəliklərinə düçar olmaları və bədənlərində yaraların (cüzamın) çıxması
7. İri həcimli dolunun yağması və çoxlu sayda heyvanın və əkin sahələrinin tələf olması
8. Çəyirtkənin çoxalması
9. Üç gün ərzində Misirlilərin yaşadıqları hər yerin qaranlığa qərq olması
10. Misirdə yaşayan bütün insanların, heyvanların, hətta Fironun özünün də ilk övladlarının həlak olması

Bu əzabların bəziləri Qurani-Kərimdə başqa formalarda qeyd olunmuşdur:

*"Biz Firon əhlini (illərlə) qıtlığa, quraqlığa və məhsul çatışmazlığına məruz qoyduq ki, bəlkə, düşünüb ibrət alsınlar! * Biz ayrı-ayrı möcüzələr üzrə onlara tufan, (əkinlərinə) çəyirtkə və həşərat, (evlərinə, yeməklərinə) qurbağa və (çeşmələrinə, kəhrizlərinə) qan göndərdik. Onlar yenə də (iman gətirməyi) özlərinə sığışdırmayıb kafir bir tayfa oldular."* (Əraf surəsi, ayə 130 və 133)

İstər Qurani-Kərimə, istərsə də Tövrata görə O Həzrətin möcüzələrinin sayı qeyd etdiyimizdən çox idi. Həzrət Musanın (ə) doqquz nişanəsini özündə əks etdirən Qurani-Kərim ayəsində O Həzrətin Fironun dəvəti üçün nəzərdə tutduğu nişanələr qeyd olunmuşdur:

*"Biz Musaya doqquz aşkar möcüzə (əsa, günəş kimi parlayan yədi-beyza, çəyirtkə və digər həşərat, qurbağa, qan, qıtlıq, daşların arasından fəvvarə verib çıxan su, dənizin yarılması və Tur dağının qaldırılıb İsrail oğullarının başları üstündə saxlanılması) verdik. İsrail oğullarından soruş: (Musa) onların yanına gəldikdə, Firon ona: "Ya Musa! Mənə elə gəlir ki, sən ovsunlanmışsan (ağlın başında deyildir)", - demişdi."* (İsra surəsi, ayə 101)

### 5-3. Dənizdən keçiş

Tövratda qeyd olunduğuna əsasən, sonda Firon təslim oldu, Həzrət Musa və Həzrət Harunu (ə) gecə vaxtı yanına çağırtdırdı və onlara dedi: "Bəni-İsraillə hara istəyirsəniz gedə bilərsiniz." Onlar Misirin şərqində yerləşən Qırmızı dənizə tərəf yola düşdülər və həmin məkanda çadır qurdular. Bir müddətdən sonra Firon peşiman oldu və öz ordusu ilə onların arxasınca getdi. Musanın (ə) qövmü uzaqdan Fironun öz qoşunuyla gəlməsini gördülər. Həmin anda Musa (ə) əlini dənizə tərəf uzatdı, dəniz parçalandı, qurudu və Bəni-İsrail asanlıqla dənizdən keçə bildilər.[1] Onların ardınca Fironun döyüşçüləri dənizə daxil oldular və Həzrəti Musa (ə) Allahu-Taalanın əmrinə əsasən bir əlinin işarəsilə onların hamısını suda boğdu. Tövratda Fironun özünün dənizdə qərq olması barədə heç nə yazılmamışdır və kitab əhli bunu inkar edirlər. Tövratda qeyd olunanlara əsasən Misirdən çıxan zaman uşaqları çıxmaq şərtilə Bəni-İsrailin sayı altı yüz min nəfər olmuşdur. Bəni-İsrailin Həzrət Yusifin (ə) zamanında Misirə daxil ol-

---

[1] İslam alimlərinin böyük əksəriyyəti dənizin əslində Nil çayı olmasını bildirirlər. Tövratda belə qeyd olunmuşdur ki, Bəni-İsrailin əvvəlcədən də yerləşdiyi yer Nil çayının sağ tərəfi olmuşdur və onların keçdiyi dəniz isə Misirin sərhədində yerləşən Qırmızı dəniz olmuşdur. Qurani-Kərimdə qeyd olunmuş "Bəhr" sözü də dəniz sözünə daha münasibdir.

duğu vaxtla onların Həzrət Musanın (ə) rəhbərliyi altında Misirdən çıxarılmarı vaxtı arasında dörd yüz otuz il keçmişdir. (Xuruc 12:37-40)

Qurani-Kərimdən və İslami hədislərdən belə qənaətə gəlmək olar ki, Bəni-İsrail Fironun izni ilə deyil Allahın əmri ilə Misiri tərk etdilər*: “(Sonra) Musaya belə vəhy etdik: “Qullarımla birlikdə (Misiri tərk edib) gecə yola çıx. Siz, şübhəsiz ki, (Fironun ordusu tərəfindən) təqib ediləcəksiniz!”* (Şüəra surəsi, ayə 52) Eləcə də, Qurani Kərimdə açıq şəkildə bildirirlir ki, Həzrət Musa (ə) Allahu-Taalanın əmri ilə əsasını dənizə vurdu, əlini dənizə tərəf uzatmadı.

Bəni-İsrail Sina yarımadası ətrafında yerləşdilər və onlar üçün səmadan şehə bənzər maddə və bildirçin quşu nazil edildi və bu hadisə onların səhrada olduqları qırx il ərzində hər gün təkrarlanırdı. Tövratda qeyd olunduğuna əsasən bu yeməyin adı “Mənnə” idi. Çünki Bəni-İsrail onu görən kimi İbri dilində “Man huvə”, yəni “O nədir?” sualını verdilər.

**5-4. Lövhələr və on əmr**

Bəni-İsrailin Misiri tərk etməsindən üç ay keçdikdən sonra Həzrət Musa (ə) Allahu-Taala ilə söhbət üçün Tur[1] dağına getmək əmrini aldı. O Həzrət dağda iki lövhə aldı və bu lövhələrin üzərində Allahın əmrləri həkk olunmuşdu. Qurani-Kərimdə bu sözü “Əlvah” formasında, yəni cəm halında istifadə etmişdir: *“Biz onun üçün lövhələrdən hər şeydən, moizə və təfsilata dair hər şeyi yazdıq. (Və belə buyurduq: ) “Bundan möhkəm yapış və ümmətinə də onun ən gözəl (savabı çox olan) hökmlərindən yapışmağı (onlara əməl etməyi) əmr et. (Axirətdə) sizə fasiqlərin yurdunu (Cəhənnəmi) göstərəcəyəm!”* (əraf surəsi, ayə 145) Tövratda qeyd olunduğuna əsasən (Xuruc 29 və Təsniyə 5) Bu iki lövhənin üzərində məşhur olan “On əmr” həkk olunmuşdu. Əmrlə belədirlər:

[1] Tur Süryani dilində dağ mənasını verir.

1. Özünüzə məndən başqa Allah seçməyin.
2. Bütə səcdə etməyin.
3. Allahın adını yalandan çəkməyin
4. Şənbə gününü müqəddəs bilin.
5. Ata və ananıza hörmət göstərin
6. İnsan qətlə yetirməyin
7. Zina etməyin
8. Oğurluq etməyin
9. Qonşu[1] üçün yalandan şahidlik etməyin
10. Qonşunun malına və namusuna qarşı tamahkarlıq etməyin[2]

### 5-5. Bəni-İsrailin buzova sitayiş etməsi

Tövratda belə qeyd olunmuşdur ki, Bəni-İsrail Həzrət Musanın (ə) Sina dağından geri dönməsinin gecikdiyini görəndə Həzrət Harunun (ə) yanına gəldilər və onlar üçün Tanrılar hazırlamağı istədilər. O Həzrət də onların qıymətli əşyalarından bir buzov hazırladı və onları həmin inəyə sitayiş etməyə həvəsləndirdi. Allah-Taala bu hadisəni Həzrət Musaya (ə) çatdırdı və onları məhv etmək istədi. Amma O Həzrətin şəfaət istəməsi ilə bunu etmədi. Həzrət Musa (ə) həmin lövhələri götürüb Bəni-İsrailin yanına qayıtdı. O Həzrət onların bu nalayiq hərəkətlərini gördükdən sonra həmin lövhələri yerə vurdu və məhv etdi. Sonra qardaşını mühakimə etməyə başladı və buzovu yandırdıqdan sonra parçalayaraq suya tökdü və suyunu Bəni-İsrailə içirtdi. Sonra da onlara qılınclarını çıxararaq yarım gün ərzində döyüşərək bir-birilərini qətlə yetirməyi əmr etdi. Qurani-Kərimdə də bu

---

[1] Kitab əhli nöqteyi-nəzərindən doqquzuncu və onuncu əmrdə istifadə olunan "Qonşu" sözünün mənası əslində "Həmnöv" mənasını daşıyır.

[2] "Öz qonşunuza qarşı tamahkarlı etməyin. Qonşunun xanımına, quluna, kənizinə, inəyinə, uzunqulağına və ümumiyyətlə heç nəyinə tamahkarlıq göstərməyin." Hal-hazırda Bəzi Yəhudilər və xristiyanlar birinci və ikinci əmrləri bir-birinə qoşmuşlar və sonrakı əmrləri bir say irəli aparmışlar. Beləliklə, doqquzuncu əmrdə "Qonşunun xanımına" və onuncu əmrdə "qonşunun digər malına" tamahkarlıq etmək qadağan edildi. Bununla da qonşunun xanımı onun qulu, kənizi, inəyi, uzunqulağı ilə eyni yerdə saxlanılmadı.

hekayə təxminə elə bu şəkildə, amma müxtəlif tərzlərdə qeyd olunmuşdur. Amma Quranda Həzrət Harunun (ə) belə nalayiq hərəkət etməsi qeyd olunmamış və O Həzrətin belə səhv addımlardan uzaq olması bildirilmişdir. Qurani-Kərimdə inəyi duzəldən insanın adı "Samiri" kimi qeyd olunmuşdur.

*"Harun isə bundan (Musa Tur dağından qayıtmamışdan) əvvəl onlara belə demişdi: "Ey ümmətim! Siz bununla (hansınızın əqidəcə möhkəm, hansınızın şəkkak olduğunu ayırd etmək məqsədilə Allah tərəfindən) yalnız imtahana çəkildiniz. Sizin Rəbbiniz, şübhəsiz ki, Rəhmandır. Mənə tabe olub əmrimə itaət edin!"* (Taha surəsi, ayə 90)

Kitab əhli Qurani-Kərimdə qeyd olunmuş Samiri adına etiraz etdilər və belə bir insanın mövcud olmamasını bildirdilər. Çünki, Samiri Fələstindəki Samirə şəhərinə aiddir və həmin şəhəri Həzrət Musadan (ə) əsrlər öncə yaşamış Umri adlı padşah yaratmışdı. (Padşahların birinci kitabı 16:24)

Mərhum Şeyx Muhəmməd Cəvad Bəlaği (r) cavab olaraq bu sözləri bildirmişdi ki, Bəni-İsraildə Şəmrun ibn Yəssakar ibn Yəqub adlı şəxs var idi və onun ailəsi Şəmruni adlandırılırdı (Yaranış 46:13 və Ədədlər 26:24). Şəmruni Ərəb dilində Samiri kimi tələffüz edilir.[1]

Tövratda belə yazılmışdır ki, Həzrət Musaya (ə) yeni nəsihətlərini qeyd etmək üçün qabaqkı lövhələrə bənzər iki daş lövhə hazırlamağı əmr etdi. Qurani-Kərimdə də bu məsələyə işarə olunmuşdur:

*"Musanın qəzəbi yatanda lövhələri götürdü. Onların birində: "Rəbbindən qorxanlar doğru yola və mərhəmətə nail olacaqlar!" - (deyə yazılmışdı)."* Əl-Əraf surəsi, ayə 154)

### 5-6. Həzrət Musanın (ə) vəfatı

Həzrət Musa (ə) Bəni-İsraili azad etdikdən sonra onların işlərini qaydasına qoydu, onları kafirlərlə mübarizəyə hazırladı və onlara Allahın əhkamını öyrətdi. O Həzrət Sina səhrasında dövlət yaratdı və həyatının sonuna qədər qövmünün dini və siyasi liderliyini öhdəsində

[1] Əl Huda ilə dinil Mustafa, cild 1, səh 98-99

saxıadı. Bu hadisələrin geniş açıqlanması Tövrat kitabında mövcud-dur.

Həzrət Musa (ə) Bəni-İsrailə bərəkət bəxş etdi və ömrünün 120-ci ilində Ölü dənizin ətrafında yerləşən Muab adlı yerdə dünyasını dəyişdi. Bəni-İsrail onun üçün otuz gün yas və əzadarlıq mərasimi keçirtdilər. Bu hadisə Tövratın "Təsniyə" bölümündə qeyd olunmuşdur və Tövrat bununla başa çatmışdır:

"*Allahın bəndəsi Musa orada Muab adlanan yerdə Allahın kəlamlarına uyğun olaraq öldü və onu Muab adlı məkanda Beyti Fəur adlanan yerin qarşısındakı dərədə dəfn etdilər.*[1] *Bu günə kimi heç kim onun yerini bilmir. Musa vəfat edəndə onun yüz iyirmi yaşı var idi, amma nə gözü zəifləmişdi, nə də beli bükülmüşdü. Bəni-İsrail Musa üçün Muabda otuz gün matəm saxladılar. Musanın matəm günləri başa çatdı. Yuşə ibn Nun hikmət ruhuna görə tanınırdı. Çünki, Musa əlini onun üzərinə qoymuşdu və buna görə də Bəni İsrail ona itaət etdilər və Allahın Musaya buyurduqlarına uyğun olaraq əməl etməyə başladılar. Bəni israil arasında Musa kimi Allahın üz-üzə tanıdığı kimsə olmayıb. Allahın ona bəxş etdiyi bütün nişanə və möcüzələri Misirdə Firona və onun bəndələrinə, eləcə də bütün Misirə göstərdi. Elə buna görə, də Musanın güclü əli və bütün əzəmətləri Bəni-İsraillilər üçün qalacaqdır." (Təsniyə, 34:5-12)*

## 6. Bəni-İsrailin tarixi

Həzrət Musadan (ə) sonra Allahın əmri ilə Həzrət Yuşə ibn Nun(ə) qövmün rəhbəri və lideri oldu. O, Fələstinin şimalından cənubuna qədər uzanan İordaniya çayını keçdi, Kənan torpaqlarını və onun ətrafındakı əraziləri fəth etdi. Əhdi-Ətiqdə qeyd olunduğuna görə bu ərazilərin yerli əhalisi qətliam edildilər və həmin ərazilər

[1] Dəfn edən məlum deyil və bəzilərinin nəzərinə əsasən məqsəd Allahdır.

Bəni İsrailə aid oldu. Bu müharibələrin hamısı Əhdi Ətiqdin altıncı kitabında "Yuşənin səhifəsi" adlı bölümdə mövcuddur.

Həzrət Yuşədən (ə) sonra Bəni-İsraildən olan böyük şəxsiyyətlər insanlara rəhbərlik etdilər və bu mərhələni Bəni-İsrail dövranı adlandırdılar. Onlar şah deyildilər və yalnız Bəni-İsrailin daxili çəkişmələrini həll edirdilər. Bu liderlərin tarixi "Hakimlər" bölümündə qeyd olunmuşdur.

### 6-1. Padşahların dövrü

Bəni-İsrailin sonuncu hakimi Həzrət Samuelin (ə) iki oğlu var idi və onların heç birisi hakimlik üçün yararlı deyildilər. Digər tərəfdən Bəni-İsrailin o zamanlar onları bir yerə toplaya və qonşularının hücumları qarşısında cəmləşdirə bilən padşahı yox idi.[1] Elə bu səbəbdən də dövrün peyğəmbəri olan Samuelin yanına getdilər və onlar üçün bir şah təyin etməsini xahiş etdilər:

*"Onların bu təklifi Samuelin xoşuna gəlmədi. Çünki, onlar istəklərini belə bildirdilər: "Bizə bizim üzərimizdə hakimlik edəcək bir şah təyin et. Samuel Allaha dua etdi və Allah Samuelə dedi: "Qövmünün hər barədə dediyi sözləri eşit, çünki səni tərk etmədilər, əksinə onlara hakimlik etməməm üçünməni tərk etdilər. Onları Misirdən çıxardığım gündən indiyədək etdikləri bütün əməllər onların məni tərk edərək başqa Tanrılara ibadət etmələrini göstərdi. Beləliklə, səninlə də belə davranırlar. İndi onların səslərini eşit, amma onlara təkidlə şəhadət ver və onlara hakimlik edəcək şahların şahlıq tərzləri barədə xəbərdar et."* (Samuelin kitabının əvvəli, 8:6-9)

O, buna əsaslanaraq padşahlığın ağır adət və ənənələrini öz qövmü üçün açıqladı, amma onlar öz istəklərindən əl çəkmədilər. Elə buna görə də, Şaul (Talut) adlı bir gənci onların padşahı təyin etdi və onu müqəddəs yağla məhs etdi. Bu məhsdən sonra o ilahi hakim oldu

---

[1] Hicaz əhlinin də İslam dinin meydana çıxdığı zamana qədər şahı yoxu idi və Hicazlıların nüfuzlu şəxsiyyətləri, o cümlədən Əbu Cəhl, Əbu Ləhəb, Əbu Süfyan şah sayılmırdılar. Halbuki o zamanlar və daha öncə belə Romada, İranda və dünyanın bir çox yerlərində şah və padşah anlayışı mövcud idi.

və Məsihə (Maşyəh), yəni məhs olunmuşa itaət etmək şəri baxımdan hamıya vacib idi.

Bəni-İsrailin birinci padşahı Şaul təxminən əradan əvvəl 1030-cu padşah təyin olundu. Bu padşahın adı Əhdi-Ətiqdə (Samuelin birinci kitabı, doqquzuncu fəsldən sonra) "Şaul" və Qurani-Kərimdə "Talut" kimi qeyd olunmuşdur*: "(İsrail övladının) peyğəmbəri onlara dedi: "Allah Talutu sizə padşah göndərdi". Onlar isə: "Biz hökmdarlığa daha layiq ikən və ona var-dövlət verilmədiyi halda, o, necə bizə padşah ola bilər?" – deyə cavab verdilər. (Peyğəmbər onlara) dedi: "Allah sizdən ötrü onu (bəyənib) seçmiş, elm və bədəncə (qüvvəcə) ona üstünlük vermişdir. Allah Öz mülkünü (səltənətini) istədiyinə verər. Allah (Öz lütfü və kərəmi ilə) genişdir, (Allah hər şeyi) biləndir!"* (Bəqərə surəsi, ayə 247)

Birinci padşahın təyin edilməsindən sonra İsraillilərlə Fələstinlilər arasında dəhşətli müharibə baş verdi və qələbə Bəni-İsrailin üzünə güldü. Bu qövmün ən böyük qəhrəmanı Culyat idi və Qurani-Kərimdə bu ad Calut kimi qeyd olunmuşdur. O, Həzrət Davud (ə) tərəfindən qətlə yetirildi və onun qoşunu döyüş meydanından qaçdı.

Həzrət Davud (ə) Talutun canişini oldu (təxminən eradan əvvəl 1015-ci ildə). Həm zikr və dua edən, həm də döyüşçü və fateh olan Davud (ə) Yəhudilər üçün çox müqəddəs bir şəxsdir və özünəməxsus yerə malikdir. O Həzrətin ən böyük uğurlarından biri Urşəlim[1] (İrrusəlim) şəhərinin fəthi idi. Bu şəhər Həzrət Davudun (ə) paytaxtı oldu və həmin şəhəri "Davudun şəhəri" adlandırdı. Urşəlim Yəhudilərin qibləsidir.

Həzrət Süleyman (ə) atası Həzrət Davudun (ə) yerinə keçdi və Bəni-İsrail ən mühim və əzəmətli dövrünü bu padşahın zamanında

---

[1] Jerusalem, yəni "sağlam və salamat şəhər" bu şəhərin əsil adıdır. Amma müsəlmanlar bu şəhəri Qüds, Beytül Məqdəs və yaxud Beytul Muqəddəs (İbri dilindəki Beytu Həmiqədaş, yəni "Məbəd evi" sözü ilə eyni məna verir) adlandırırlar. Bu şəhərin başqa bir adı da "İlya Kapitolina" –dır və müsəlmanlar bu adı da İlya sözü ilə əvəz etmişlər.

yaşadı. O Həzrət Urşəlim şəhərində olduqca böyük bir məbəd inşa etdi və bu məbəd "Süleymanın Heykəli"[1] adı ilə tanındı.

Bu məbəd bir dəfə eradan əvvəl 587-ci ildə Babilistanın padşahı "Nabukadnassar" (İslam mənbələrində bu ada "Buxtunəssər" kimi qeyd olunmuşdur) tərəfindən və ikinci dəfə 70-ci ildə Roma şahzadəsi Titus tərəfindən viran edilmişdir.

Qeyt etdiyimiz məbəd o zamana qədər (eradan əvvəl altıncı və ikinci əsrlərdə bir neçə on illiyi çıxmaq şərtilə) həmişə Yəhudilərin ixtiyarında olmuşdu və Yəhudi kişiləri ildə üç dəfə müəyyən edilmiş bayramlarda həcc mərasimini keçirmək üçün piyada olaraq səfərə çıxırdılar.

Bu məbəd tədricən xristiyanların əlinə keçdi və İslam dininin yaranmasından sonra ikinci xəlifənin zamanında sülh yolu ilə müsəlmanlara təslim edildi. Müsəlmanlar Süleyman məbədinin xarabalıqlarını Ömər məscidi adlı əzəmətli bir məscidə çevirdilər və onun üzərində "Qubbətus səxrə" adlı gümbəz tikdilər. Qeyd edək ki, sonradan həmin gümbəz qızılla örtüldü. Daha sonra bu məscidin kənarında mavi gümbəzli bir xırda məscid inşa edildi və "Məscidül Əqsa" adlandırıldı.[2]

Fələstin torpaqlarında yaradılan Urşəlim şəhərinin qərb hissəsi Birləşmiş Millətlər Təşkilatının qərarı ilə 1948-ci ildə İsrailə və həmin iki məscidin yerləşdiyi şərq hissəsi isə İordaniya ölkəsinə verildi. İsrail 1967-ci ildə baş vermiş altı günlük müharibədə Qüds şəhərinin şərq hissəsini də güc yolu ilə İordaniyanın əlindən aldı və həmin hissəni ixtiyarında olan qərb hissəsinə əlavə etdi. BMT-nin Təhlükəsizlik şurasının qəbul etdiyi 242 saylı qətnamədə İsrail dövlətindən altı günlük müharibə zamanı işğal etdiyi əraziləri geri qaytarmaq tələb olunsa da, İsrail dövləti hələ də bu qətnaməyə etinasızlıqla yanaşır.

---

[1] Heykəl İbri dilində "Hündür bina" mənasını verir və Ərəb dilində də hümdür mənasını kəsb edir.

[2] İsra surəsinin ilk ayələrində qeyd olunmuş "Məscidul Əqsa" adı həmin məscidin yerinə işarə edir. Kəhf surəsinin 21-ci ayəsinə də müraciət edə bilərsiniz.

Qeyd olunmuş məscidlər İslamın ilk illərindən indiyə qədər müsəlmanların ixtiyarında olmuşdur (Xaç yürüşləri zamanı bir neçə il xristiyanlar tərəfindən həyata keçirilmiş işğalı istisna etmək şərtilə), bütün İslami mərasimlər, cümə və camaat namazları həmin məscidlərdə həyata keçirilmişdir. 1967-ci ilədək Hacıların Məkkə və Mədinəni ziyarət etdikdən sonra Qüdsü ziyarət etmək üçün İordaniyaya səfər etmələri adəti də mövcud idi.

Artıq illərdir ki, arxeoloji qazıntılar bəhanəsilə həmin iki məscidin ətrafında qazıntı işləri apararaq həmin əraziləri dağıtmaq istəyirlər. Deyilənlərə əsasən həmin bu iki məscidin yerində Süleyman məbədi inşa etmək fikrindədirlər.

Kitab əhli Əhdi-Ətiqdə qeyd olunan səhv məlumata əsaslanaraq belə bir nəzər irəli sürmüşlər ki, Həzrət Süleyman (ə) bütpərəst xanımlarının vəsvəsəsinə uyaraq həyatının sonunda bütpərəst olur. Qurani-Kərimdə isə Həzrət Süleymana (ə) böyük önəm verilir və pak bir bəndə kimi qeyd olunur.

**6-2. Ölkənin parçalanması**

Əhdi-Ətiqdə Həzrət Süleymanın (ə) vəfatından sonra onun övladı Rohbiam Bəni-İsrailin padşahı olur və ölkənin idarəçiliyini ələ alır. O zülmkarlıq etdiyinə görə on iki Bəni-İsrail qəbilə başçılrında on nəfəri ona itaət etməkdən boyun qaçırır və yalnız iki qəbilə başçısı qalır. Bunlardan biri Yəhuda və digəri Benyamin olur. Həmin bu iki qəbilə başçısı nisbətən daha kiçik əraziyə malik Yəhuda (Həzrəti Yaqubun (ə) övladlarından birinin adı ilə adlandırılmışdır) torpaqlarında qaldılar. Urşəlim şəhəri də Yəhuda torpaqlarında idi və “Yəhudi” sözünün də buradan əmələ gəldiyi həmin ərazilər olduqca böyük əhəmiyyətə malik idi. Qalan on qəbilə başçıları Həzrət Süleymanın (ə) böyük sərkərdəsi Yurbiamın başçılığı altında İsrail dövlətini yaratdılar. Bu zamandan Bəni-İsrailin iki dövləti oldu: Rohbiamın padşahı olduğu cənubda yerləşən Yəhuda ölkəsi və Yurbiamın padşahı olduğu, şimalda yerləşən İsrail ölkəsi. Bu iki ölkənin şahları da həmin bu iki nəfərin nəslindən idi.

Bəni-İsrail ölkəsinin parçalanması onların zəifləməsinin və bətbəxliklərinin əsasını qoydu. Yəhuda və İsrail ölkələrinin bir çox padşahları günahkarlar idilər və insanları günaha və bütpərəstliyi dəvət edirdilər. Digər tərəfdən bəzi peyğəmbərlər deyirlər ki, bu məsələ Allahın qəzəblənməsinə səbəb oldu. Onların nəzərincə Bəni-İsrail tövbə etməzsə onları çox dəhşətli sonluq gözləyir.

### 6-3. Babilistanın əsarətində

Sonda Bəni-İsrail peyğəmbərlərinin bu sözləri həqiqət donu geyindi[1] və bir müddətdən sonra hal-hazırki Suriya və İraqın şimal bölgələrində hökümranlıq edən və paytaxtı Nineviya olan Assuriyalılar eradan əvvəl 722-ci ildə İsrailə hücum etdilər və çoxlu sayda insanı əsir götürdülər. Bəni-İsrailin on iki qəbilə başçısından on nəfərinin də daxilində olduğu bu əsirlərin taleyi barədə tarixdə məlumat yoxdur.

Təxminən bir əsr bu hadisədən keçdikdən sonra, eradan əvvəl 587-ci ildə Buxtunnəsr Urşəlimə hücum etdi. O, Yəhudiləri qətlə yetirdi və bir hissəsini də əsir edərək Babilistana apardı və uzun müddət orada saxladı. İsrail və Yəhuda xalqlarının bir hissəsinin əsir düşmələri onları Yaxın Şərq regionunda və digər ərazilərdə yayılmasına səbəb oldu. Bu əsarətin böyük əhəmiyyəti vardir, belə ki, Assuriyalıların bundan öncəki hücumlarında əsir tutulmuş İsraillilər bu yürüş zamanı Yəhuda ölkəsinin əhalisi ilə Babilistana köçürüldülər. Bu məsələ tarixdə "Babil sürgünü" kimi qalmışdır.

Yəhudilər əsirlik dövrlərində müşriklərin bəzi adət və ənənələrini qəbul etdilər və onların olduqca az hissəsi vətənlərini tərk etdiklərinə, əsir düşdüklərinə və Allaha sitayiş sahəsində çətinliklərlə üzləşdiklərinə görə əzab çəkirdi.

---

[1] Bu məsələ kəlam elmi nöqteyi-nəzərindən söylənilir və bu proqnozların dəqiq tarixi məlum deyildir.

### 6-4. Məbədin bərpası

Əhəmənilər sülaləsinin banisi Kir Babilistanı fəth edəndən sonra Yəhudilər azad edildilər və öz torpaqlarına qayıtmaq icazəsini aldılar. Amma onların böyük əksəriyyəti Babilistanı tərk etmək istəmirdilər və elə bu səbəbdən də həmin şəhərə və ətrafına yayıldılar. Kirin Yəhudilərin azad edilməsi barəsindəki bəyannaməsi eradan əvvəl 538-ci ildə hazır oldu. Kir bu addımla Yəhudilər arasında böyük məhbubiyyət qazandı.[1]

Yəhudilərin bir dəstəsi də Fələstinə qayıtdı və Qüds şəhərinin bərpasına başladı. O zamanlar həmin ölkəyə qonşu olan digər ölkələr qorxu hiss etdilər və buna görə də, Fələstin torpaqlarında güclü Yəhudi dövlətinin yaranmasına əngəl törətdilər. Bundan sonra Fələstinin müxtəlif bölgələrində zəif dövlətlər meydana çıxdı və bir neçə əsr sürən qarışıqlıqdan sonra Qüds şəhəri növbəti dəfə 70-ci ildə Romalılar tərəfindən viran edildi. Romalıların Urşəlimi viran etməsindən sonra Yəhudilər dünyanın hər yerinə yayılmağa başladılar. Bu hadisədən sonra Yəhudilərin dünyanın müxtəlif ölkələrində çətin həyat tərzi keçirməyə başladılar və müxtəlif zülm və zillətə məruz qaldılar.

Həmin zaman kəsiyində Bəni-İsrail arasında onları bu zülmdən xilas edəcək bir şəxsin gələcəyi fikri formalaşmağa başladı. Bu düşüncə məhsuldar oldu və Bəni-İsrail bu düşüncə tərzinin köməyi ilə öz məğlubiyyətlərinə sinə gələ bildilər. Məsihanı[2] gözləmək həmin qövmün qalmasına yardım etdi.

Yəhudilər itirdikləri dini dövlətin yenidən yaradılması üçün 2000 ilə yaxındır ki heç nə etmirlər və belə bir dövlətin yaradılmasının onların amalları ilə zidd olduğunu bildirirlər. (Bir neçə dəfə bu sahədə qanunsuzluqlar olmuşdur və bunlardan biri də Xəzran dövləti-

---

[1] Hindistanın Əbul Kəlam adlı müsəlman alimi iyirminci əsrdə "Səndən Zülqərneyn barədə soruşsalar" adlı kitab yazır və həmin kitabda Qurani-Kərimin Kəhf surəsinin 83-98-ci ayələrində barəsində söz açılan Zülqərneynin Əhəməni padşahı Kir olduğunu sübut etmişdir. Onun bəzi ədalətli işləri isə Əl Mizan və Nümumə təfsirlərində qeyd olunmuşdur.

[2] Məsih sözünün Həzrəti İsa ibn Məryəmə (ə) aid olmasını nəzərə alsaq Yəhudilərin intizarında olduqları şəxsin "Məsiha" (Messiah) adlandırıldığını görərik.

nin yaradılması olmuşdur. Bir neçə nəfər Məsiha olması iddiasını irəli sürsələr də bu sahədə uğur qazana bilməmişlər.)

Yəhudilərin Babilistandan qayıtmasından sonra dini cəmiyyət yeni bir qurluş tətbiq etdi və sonralar sinaqoq adlanan məbədlər inşa edildi. Bu məbədlərin digər məbədlər kimi xüsusi memarlığı yox idi. Bu məbədlər hal-hazırda da sinaqoq və yaxud Kənisə adlandırılır.

### 6-5 Yəhudilərin mübarizələri

Urşəlimin yenidən bərpa olunmasından və Yəhudilərin orada yerləşdirilməsindən sonra bir sıra problemlər meydana çıxdı. Suriyanın zalım və bütpərəst padşahları ilə müharibələr keçirildi. Məkabilərin Suriya istismarçıları ilə müharibəsi Yəhudilərin qələbəsi ilə nəticələndi və bu hadisə Epukerifa kitabında geniş şəkildə açıqlanmışdır.

Bu dövrdə Yəhudilər çox zaman müşriklərin hakimiyyəti altında olmuşlar və Həzrəti Məsihin (ə) zühur etməsi də bu dövrə təsadüf edir və bu sahədə biz ətraflı olaraq məlumat verəcəyik. Bu dövürdə eləcə də əhkam və qanunlar Yəhudi alimləri tərəfindən çıxarılırdı. Amma hökümdarlar Fələstini işğal etmiş dövlətlər tərəfindən təyin olunurdular. Yəhudi alimləri Senhedrin adlı toplumda bir araya gəlirdilər və dini məsələlər barəsində qərarlar qəbul edirdilər.[1]

### 6-6. Urşəlimin viran edilməsi və Yəhudilərin məkansız qalması

70-ci ildə Romalı şahzadə Titus Urşəlimi mühasirəyə aldı, viran etdi və çoxlu sayda dinc sakini qılıncdan keçirdi. O, Senhedrini də məhv etdi. 135-ci ildə yaranmış qiyam da yatırıldı. Həmin şəhərin o zaman dağıdılmayan qərb divarı indiyə qədər qalmaqdadır və Yəhudilərin dağıdılmış şəhərə görə onun yaxınlığında matəm mərasimləri keçirdiyinə görə "Fəryad divarı" (The Wailing Wall) adlandırılmışdır. Müsəlmanlar isə həmin divarı "Haitəl Buraq" adlandırırlar.

---

[1] Senhedrin sözü Yunan dilində toplum və asambleya mənasını verən "Sinderion" sözündən götürülmüşdür.

Bu hadisədən sonra Yəhudilər qonşu ölkələrdə, Avropada və şimali Afrikada məskunlaşmağa başladılar. Bu vəziyyət İbrani dilində Qalut, yəni "Vətəni tərk" və onların yayıldığı regionlar Yunan dilindən götürülmüş Diaspora, yəni "Dağınıqlıq" adlandırılır. Müəyyən müddətdən sonra onların bir hissəsi indi Mədinə adlandırılan və o zamanlar "Yəsrib" adlanan şəhərə köçdülər. İslam mənbələrinə əsasən Mədinəyə köçən bu Yəhudi dəstəsinin məqsədi Həzrət Muhəmməd (s)-in mübarək viladəti ilə bağlıdır.

Sonralar, ikinci xəlifənin zamanında müsəlmanlar qüds şəhərini müzakirələrin köməkliyi ilə xristiyanlardan aldılar. Təbərinin yazdığına əsasən, müsəlmanların Qüdsü təhvil alarkən xristiyanlar qarşısında öhdəliklərinə götürdüyü vəzifələrdən biri də Yəhudilərin bu şəhərə daxil olmasına icazə verməmələri idi.

### 6-7. Yəhudilər və digər qövmlər

Bəzi insanlar kiçik yəhudi xalqının inhisarçılıq və xudbinlik xüsusiyyətinə işarə edirlər.[1] Digər xalqların bəziləri onların Yəhudilər tərəfindən belə adlandırıldıqları üçün Yəhudilərlə düşmənçiliyə başlamışlar və onalrı təhqir etmək üçün müxtəlif işlər görmüşlər. Qeyd etmək lazımdır ki, Qüds şəhərinin ilk dəfə eradan əvvəl altıncı yüz illikdə viran edilməsinin və Bəni-İsrailin Babilistanlılar tərəfindən əsir götürülmələrinin əsası elə bu məsələ idi. Həmin zamanlar İrmiyay peyğəmbər Allah tərəfindən Bəni-İsrailə xəbər gətirdi ki, Bəni-İsrail düşmənə təslim olacağı təqdirdə özləri və şəhərləri to-

---

[1] Onların belə özünəməxsus xüsusiyyətlərinə nümunə olaraq dünya əhalisini iki hissəyə, "Yəhudilər" və "Quyim" (Gentiles), yəni kafirlərə bölürdülər. Onlar özlərinin "Quyim" adlandırdıqları kafirlər qarşısında heç bir öhdəçilik daşımadıqlarını bildirirdilər: "Kitab əhlindən elə kəslər vardır ki, əgər onlara bir qinar (çoxlu) əmanət verərsənsə, onu tamamilə sənə qaytararlar; elələri də vardır ki, onlara təkcə bir dinar qızıl əmanət versən, başlarının üzərində möhkəm durub tələb etməyincə sənə qaytarmazlar. Bunun səbəbi budur ki, onlar: "Ümmilərə görə (kitab əhli olmayan cahil ərəblərin mallarını mənimsəməyə görə) bizə irad tutulmayacaq", - deyər və bilə-bilə Allaha qarşı yalan söyləyərlər." (Ali İmran surəsi, ayə 75) Bir çox alim və tədqiqatçıların nəzərincə Qurani Kərimdə qeyd olunmuş "Ummilər"  Quyimlərə işarə edir.

xunulmaz qalacaqlar. Onlar ilahi tərəfindən göndərilmiş bu qurtuluş xəbərinə məhəl qoymadılar, peyğəmbəri döydülər, zindana atdılar və O, Qüds şəhərinin işğal olunduğu zamana qədər zindanda qaldı. (İrmiya, 37 və 38)

Hər halda, Yəhudilər vətənlərini itirdilər, amma dinlərini, mədəniyyətlərini, adət və ənənələrini qoruyub saxladılar və digər qövmlərin arasında assimilyasiya olunmadılar. Belə bir vəziyyət onların müxtəlif qövmlərin arasında yaşamalarına görə meydana çıxmışdır. Onlara ilk sahiblik edən müşriklər, sonra xristiyanlar və daha sonra müsəlmanlar olmuşlar.

Onlar müsəlman ölkələrində, xüsusən də Andalosiyada yaxşı yaşayırdılar və onların bəziləri ictimai sahələrdə yüksək məqamlara qədər qalxa bilmişdilər. Halbu ki, Avropa ölkələrində yaşayan Yəhudilər onlar üçün ayrılmış Qetto (ghetto) adlı yerlərdə zillət içərisində yaşayırdılar. Bir çox hallarda isə xristiyanlar onları güc yolu ilə öz dinlərinə gətirirdilər.

Xristyanlar 1492-ci ildə Andolosiyanı təmamilə müsəlmanlardan aldıqdan sonra Yəhudiləri də həmin ərazilərdən qovmağa başladılar. Həmin yurdsuz-yuvasız Yəhudilər sonda Şimali Afrikadakı müsəlman ölkələrinə, Osmanlı dövlətinə sığındılar. Amma onların az bir hissəsi dəniz quldurları və acgöz dənizçilərdən yaxa qurtararaq müsəlmanların mehr və məhəbbətlə dolu qucaqlarında yer tapa bildilər. Müsəlmanların insanpərvər və humanist xüsusiyyətləri, əcnəbilərlə xoş davranmaları Yəhudi və Xristyan tarixçiləri tərəfindən ağızdolusu ilə qeyd olunmuşdur.

Yəhudilərin özünəməxsus ruhiyələri və onların iqtisadi bacarıqları onları qəbul etmiş xalqların onlara qarşı həssasiyyətini gücləndirirdi. Təəssüf hissi ilə qeyd etməliyəm ki, aşağıda qeyd edəcəyimiz ziddiyyətli məsələlər Yəhudilərlə digər xalqlar arasında dərin parçalanmaların meydana çıxmasına səbəb oldu:

1. Onların qədim zamanlarda Həzrət İsaya (ə) qarşı kəskin mövqedən çıxış etmələri Xristiyanların müqəddəs İncil kitablarında, eləcə də, Yəhudilərin Həzrət Muhəmmədə (s) qarşı düşmənçilik aparma-

ları, müharibələr törətmələri Qurani-Kərimin Bəqərə, Ali İmran, Nisa, Maidə, Əhzab və Həşr surələrində qeyd olunmuşdur. Tarix boyu da Yəhudilər həmişə ya xristiyan, ya da müsəlman ölkələrində yaşamışlar. Onların sonrakı dövrlərdə də davranışları (İslam cəmiyyətlərində şərab paylamaları, pozğun qadınlara niyyətlərini həyata keçirmək üçün evlərini icarəyə vermələri, müsəlmanlara və xristiyanlara faizlə pul vermələri) onlara qarşı etiraz yaradır. İsrail dövlətinin hal-hazırda həyata keçirdikləri təcavüzkarlıq dünya ictimaiyyəti arasında Yəhudilərə qarşı etiraz yaratması.

2. Keçmişdə istər xristyan və istərsə də müsəlman ölkələrində yəhudilərin əzilməsi işləri aparılmışdır. Bəzən də insanlar (Məsələn; hər hansı bir uşağın Yəhudilər tərəfindən oğurlanması şayiəsinin yayılmasından sonra) onları yerli dini (Xristyanlıq və yaxud İslam dinini) qəbul etməyə məcbur edirdilər. İnsanlar öz istəklərinə çatmaq üçün onlara donuz əti, yaxud ətlə qatıq yedizdirirdilər.[1] Qeyd etmək lazımdır ki, istər Xristyanlıq və istərsə də İslam dinində belə rəftarlar düzgün hesab edilmir və müsəlman alimlər insanların belə davranışlarına kəskin etirazlarını bildirmişlər. Digər tərəfdən də insanlar məcburiyyət üzündən zahirən İslamı qəbul etsələr də daxildə Yəhudi qalırdılar. Həmin insanlar Avropada "Marrano" və İranda "Anus"[2] adlandırılırdı.

Dünya səviyyəsində aparılan Yəhudiliklə mübarizə "anti-Semetizm" adlandırılır. Hitler də çoxlu sayda Yəhudiyə işkəncə verərək müxtəlif yollarla qətlə yetirmişdir. Bəzi Yəhudilər xüsusi sobalarda yandırılmışlar və insanların belə formada edam edilmələri "Holokost" adlandırılmışdır

Dünya səviyyəsində mövcud olan Yəhudi şəbəkəsi kütləvi informasiya vasitələrini ələ alaraq beyinlərə və düşüncə tərzlərinə də təsir göstərə bilmiş, bu yolla özünə tərəfdaşlar əldə edə bilmişlər. Elə buna görə də, Ağ evə və Amerika Birləşmiş Ştatlarının digər icraedici or-

---

[1] Yəhudilər üçün donuz əti və ətlə qatıq yemək haram buyurulub. Bu iş onlara böyük əzab-əziyyət törədir.

[2] Anus ibrani dilində Məcbur deməkdir.

qanlarına daxil olmaq istəyən şəxslər ilk olaraq sionistlərin itaət kəndirini öz boyunlarına salmalıdır. Yalnız bundan sonra o vəzifəyə qalxa bilirlər. Elə buna görə də, Amerika Prezidenti və digər rəsmiləri İsrailin təcavüzkar hərəkətlərini müdafiə edirlər. Fələstinin istila edilməsi yəhudilərlə müsəlmanlar arasında münasibətləri pisləşdirir.

**6-8. Sionizmin yaranması**

Avropa Yəhudiləri onlara qarşı tətbiq olunan təzyiqlərə görə xristiyanlar arasında yaşaya bilmirdilər və mütəmadi olaraq onlara qarşı həyata keçirilən sürgün siyasətləri Yəhudilərdə müstəqil vətən ideologiyasını gücləndirməyə başladı.

19-cu əsrin sonlarında Rusiya Yəhudilərinin böyük bir dəstəsi bu ölkədən çıxarıldı. Onların bir hissəsi qərbi Avropada məskunlaşdı, başqa bir hissəsi isə Fələstin torpaqlarına gedərək Aralıq dənizinin sahilllərində məskunlaşdılar və həmən əraziyə “Sehyon”[1] adını qoydular. Fələstin o zamanlar hələ Osmanlı xilafətinin tabeliyində idi.

Elə o zamanlar Avropa Yəhudiləri özlərinə xas olan intizar adət-ənənəsini pozaraq istiqlaliyyət qazanmaq üçün səy göstərməyə başladılar. Avstriyalı jurnalist “Theodor Herzel” Sionizmin əsasını qoydu və bu niyyətinin həyata keçməsi üçün böyük səy göstərdi. Yəhudilərin iki dəstəsi onun bu işinə qarşı çıxmağa başladılar. Birinci dəstə onun bu düşüncələrinin xristiyan ideologiyası ilə zidd olduğunu bildirənlər, ikincisi isə millətlərin parçalanmasını qəbul etməyən assimilyanistlər idilər. İkinci dəstəyə daxil olan şəxslər hal-hazırkı dövrdə Yəhudilərin digər millətlərlə birlikdə sülh və əmin-amanlıq içərisində yaşaya biləcəklərini bildirirdilər. Amma Sionistlər sonda din qardaşlarını müstəqil ölkə yaratmaq barədə razı sala bildilər və bundan sonra Yəhudilərin Fələstin torpaqların geniş mühacirəti başladı. Müsəl-

---

[1] Sehyon əslində Qüds şəhərində bir təpənin adıdır və Bəni-İsrail dövlətinin çiçəklə ndiyi zamanda, yəni Həzrət Davud (ə) ilə Həzrət Süleymanın (ə) hakimiyyəti illərində hərbi mərkəz idi. Bu ad tarix boyu Yəhudi qövmünün gücünü xatırladan məfhum kimi qəbul edilmişdir. Sonrakı peyğəmbərlərin kitablarında, Əhdi-ətiqdə bu yerin adı dəfələrlə qeyd olunmuşdur.

man mütəfəkkirlər bu böyük hiylə və məkirli siyasət kimi dəyərləndirərək müsəlmanların köçkün yəhudilərlə əməkdaşlıq etməkdən uzaqlaşmağa səslədilər.[1] Amma müsəlmanlar bu məsələnin nə dərəcədə faciyəvi olmasından xəbər tutuanda artıq bütün çıxış yolları bağlanmışdı.

Digər tərəfdən Sionizmin əsası qoyulmamışdan öncə bəzi xristiyanlar belə bir ideologiya irəli sürmüşdülər ki, Həzrət İsanın (ə) dünyanın sonunda geri qayıtması üçün Yəhudilər Fələstin ərazilərinə getməlidirlər. Sionistlər bu düşüncəni daha da gücləndirərək sadə düşüncəli xristiyanlar arasında özləri üçün ifratçı müdafiəçilər qazandılar.

### 6-9. İsrailin yaradılması

Çox keçmədi ki, Sionistlər güclü qəsbkarlıq siyasətini yürütməklə ərazilərini işğal etdilər. Bunun nəticəsi olaraq 1948-ci[2] ildə Fələstinin işğal olunmuş torpaqlarında "İsrail" adlı dünyəvi yəhudi dövləti meydana çıxdı. İsrail silahlı qüvvələri 1967-ci ildə baş vermiş müharibə zamanı da qonşu ölkələrin bəzi hissələrini işğal edərək öz ərazilərinə qatdılar. Qeyd etmək lazımdır ki, İordaniyada yerləşə Məscidül-Əqsanın da yerləşdiyi Beytül-Müqəddəsin şərq hissəsi də işğal edilmiş ərazilərə daxil idi.[3]

Müstəqil ölkə yaratmaq Yəhudi qövmünün həmişəki arzusu olmuşdur. Amma qeyri-yəhudi millətləri arasında yaşamaq iqtisadi baxımdan yəhudilər üçün daha əlverişli idi və elə buna görə də, İsrail ölkəsinin yaradılmasından sonra bir çox Yəhudilər həmin ölkəyə getməkdən boyun qaçırırdılar. Bu səbəbdən də, onları köçməyə həvəsləndirmək məqsədilə dünyanın yəhudilər yaşayan ölkələrində müxtəlif təşkilatlar yaradıldı. İsrailə köçmək İbri dilində "Elya" adlandırılır.

---

[1] Belə məzmunlu xəbərdarlıqlara nümunə olaraq "Təfsir Əl-Minar" kitabında Nisa surəsinin 45-ci ayəsi barəsində verdiyi açıqlamarı misal çəkmək olar.

[2] 1947-ci ildə sionistlər tərəfindən israil dövlətinin yaranması işğalçı İngilis qüvvələrinin Fələstindən çıxmaları ilə eyni zamana təsadüf edir.

[3] Tövrat Yəhudilərə qonşunun mal və mülkünə tamahkarlıq etməyi qadağan etmişdir. (Xuruc 17:20 və Təsniyə 21:5) Eləcə də: "Öz qonşusunun torpaq sərhədini dəyişdirənlərə lənət olsun!" (Təsniyə 17:27)

Hal-hazırda dünyada on dörd milyon yəhudi var və onların iyirmi faizi İsraildə və səksən faizi müxtəlif ölkələrdə (diaspora) yaşayırlar. İlk illərdə bir dəstə Yəhudi İsrailə köçdükdən sonra oranı tərk etdilər və başqa millətlərin arasında yaşamağa üstünlük verdilər.

İngiltərə və Amerika Sionizmi hərtərəfli olaraq dəstəkləməyə başladılar.

Qeyd etmək lazımdır ki, bəzi klassik düşüncəli yəhudilər, o cümlədən İsrail, Amerika və İngiltərədə olan "Neturei Karta"[1] dəstəsi daima İsrail adlı dövlətin yaradılması ilə müxalif olublar və bunu şəriyyətlə zidd addım kimi dəyərləndiriblər. Onlar İsrailin yarandığı ilk illərdə həmin ölkədə öz dəstələri üçün xüsusi kağız əskinaslar çap etdirdilər. Çünki, onlar bəyənmədikləri dövlətin pul əskinaslarından istifadə etmək istəmirdilər. Onlar Amerikada və İsraildə İsrailə qarşı etiraz aksiyaları keçirirlər.

## 7. Tənəx (Əhdi-Ətiq)

Yəhudilər öz müqəddəs kitablarını Tənəx[2] adlandırırlar və bu xristiyanların Əhdi-Ətiqidir. Buna görə də, tam əminliklə deyə bilərik ki, Əhdi-Ətiq xristiyanların öz müqəddəs kitablarının müqabilində yəhudilərin kitablarına verdikləri addır. Xristiyanlar bu Əhdlərin hər ikisinə inanırlar, amma Əhdi-Ətiqdə olan bəzi hökmlərin Əhdi-Cədiddə dəyişdirilməsini qəbul edirlər. Məsələn Tövratda (Levilər 11:7) donuz ətinə bənzər ətlər haram buyurulurdusa və yəhudilər bu ətləri

---

[1] Netueri Karta 1935-ci ildə yaradılmışdır və bu ad (Şəhərin qoruqçusu) 1938-ci ildə həmin dəstəyə şamil edilmişdir. Qeyd olunmuş ad Təlmuddan götürülmüşdür (Heqiqa 3:76) və burada alimlər şəhərin qoruqçuları kimi qələmə verilmişdir. Bu Barədə daha ətraflı məlumat toplamaq üçün (www.nkusa.org) internet saytına müraciət edə bilərsiniz.

[2] Bu söz üç sözün baş həriflərindən T-Tövrat (İbri dilində Tura), N-peyğəmbərlər (İbri dilində Nevyeim) və X-məktublar (İbri dilində Ketubim. Bu dilin qaydasına uyğun olaraq K hərfi X hərfinə çevrilmişdir) əmələ gəlmişdir. Xristiyanların istifadə etdikləri Əhdi-Ətiq yəhudilikdə qəbul edilmir.

yeməkdən boyun qaçırırdılarsa Əhdi-Cədiddə (Həvarilərin işləri 10:9-16 və s yerlərdə) bütün ətlər halal buyurulmuşdur və xristiyanlar heç bir əti haram bilmirlər. Xristiyanların nəzərincə Əhdi-Ətiqdə qeyd olunmuş şəriyyət Əhdi-Cədiddəki şəriyyəti tərk etmək üçündür.

Əhdi-Ətiq kitabı İbrani dilindədir və onun az bir hissəsi Kəldani dilində qələmə alınmışdır. Bu dillərin hər ikisi ərəb dili kimi Sam dili qrupuna aiddirlər. Əhdi-Ətiqin İbrani dilində tərtib olunmuş nüsxələri xristyanların tərcümələrindəki tərtibatla bir az fərqlidir. Amma Tövratın beş bölümü hər tərtibatda toxunulmaz olaraq qalır.

Əhdi-Ətiqin Yunan dilində də bir nüsxəsi mövcuddur və bu nüsxə İbrani dilindən tərcümə olunmuşdur. Yunan dilində[1] olan nüsxəni "Tərcumeye səbiniyyə" yaxud "Yetmiş tərcümə" adlandırırlar. Qeyd etmək lazımdır ki, bu tərcümə təxminən eradan əvvə 258-ci ildə Misirin padşahı Batlaymus Filadelfusun əmri ilə 72 nəfər tərəfindən edilmişdir. Bu nüsxə ilə İbri dilində olan əsas nüsxə arasında fərqlər mövcuddur və daha mühim budur ki, qeyd etdiyimiz tərcümə nüsxəsində İbrani dilində olan nüsxədə mövcud olmayan bölümlər mövcuddur. Yəhudi alimləri 1-ci əsrdə öz müqəddəs kitablarını müəyyənləşdirmək üçün "Yavna" adlı yerə toplaşanda o zaman sayı 39-a çatan İbrani dilində qələmə alınmış dini kitablardan istifadə etdilər və Yunan dilində qələmə alınmış kitabları istifadə etməyərək kənara qoydular. Bu kitablar sonralar "Apokrifa", yəni "bağlı" adlandırıldı.

Xristiyanların kitabı, yəni Əhdi-Cədid Yunan dilində qələmə alındı və onlar Apokrifa kitablarında öz Əhdi-Ətiqlərindən istifadə etdilər. Bununla da, onların Əhdi-Ətiq kitablarının sayı 46-ya çatdı və müqəddəs bilinən bu kitabları qəbul olundu. Təxminən beş əsr sonra Martin Luter Kinq bu kitabların ilhamla yazılmasına şəkk etdi və bir müddətdən sonra Protestant xristiyanlar həmin kitabları kənara

---

[1] Makedoniyalı İskəndər təxminən eradan əvvəl 330-cu ildə Yaxın Şərq regionunu fəth etdikdən sonra Yunanlılara məxsus elmin yayımı işini həyata keçirməyə başladı və bu məqsədlə "iskəndəriyyə" adlı şəhərlər salmağa başladı. Bu şəhərlərdən biri Misirdədir və bizim dövrümüzə qədər də elm şəhəri olması statusunu qoruyub saxlamaqdadır. Bundan sonra Yunan dili elm və yazı dili kimi tanındı.

qoyaraq Əhdi-Ətiqin Protestant formasını meydana çıxartdılar. Bu nüsxə Yəhudilərin Tənəxi ilə eyni idi. Protestantların daha çox dini kitab çap etmələrini nəzərə alsaq deyə bilərik ki, hal-hazırda dünyada əksər nüsxələrdə apokrifa mövcud deyildir. Katolik və Ortodoks kilsələr buna qarşı çıxırlar və qeyd olunmuş bölümləri Əhdi-Ətiqin bir hissəsi kimi qəbul edirlər və onları "İkinci qanun" (Deuterocanonical) adlandırırlar.

Yunanlılara aid digər kitab dəstəsi Sudepiqrafa (Pseudepigrapha), yəni "Saxta yazılar" adlandırılır. Bu dəstəyə aid kitablrın mötəbərliyi azdır və heç vaxt Əhdi-Ətiqdə yerləşdirilməmişdir. Eradan bir neçə on il öncə bəzi ziyalı Yəhudilər tərəfindən qələmə alınmış bu yazılar kitab əhlinin onlara diqqət ayırmaması səbəbindən aradan getdi, amma həmin əsərlərin bəzilərinin tərcümələri dünyanın müxtəlif yerlərində mövcuddur və son əsrlərdə kəşf olunmuşdur. Xristyanların da bəzi əlavələr etdikləri bu kitabların sayı çoxdur və həmin kitabların toplusu İngilis və digər Avropa dillərinə tərcümə olunaraq çap edilmişdir.[1]

Tənəx 39 kitabdan ibarətdir və xristiyanlar bu kitabı tərcümə edərək Əhdi-Ətiq adlandırdılar. Əhdi-Ətiq üç bölümdən ibarətdir:

1. Tarixi bölüm
2. Hikmət, münacat, dua və şeir
3. Peyğəmbərlərin gələcək haqqında xəbərləri

### 7-1. Tənəxin tarixi bölümü (Əhdi-Ətiq)

Əhdi-Ətiqin tarixi bölümü 17 kitabdan ibarətdir və onun ilk beş kitabı "Tövrat" adlandırılır. Onun başqa bir adı isə "Pentatuk" (Pentateuch), yəni "Beş kitab" yaxud "Beş bölüm" adlandırılır.

Tövrat "Yaranış" bölümü ilə başlayır. Dünyanın yaradılışı, Adəm və Həvvanın xəlq edilmələri, yaxşı və pis mərifət ağacının meyvəsindən yemələri, onların "Ədən" bağından, yəni cənnətdən qo-

---

[1] Bu kitablardan ibarət bir məcmuə "The Forgotten Books of Eden" adı ilə 1927-ci ildə Amerikada, İngilis dilində çap olunmuşdur.

vulmaları, Adəmin övladlarının hekayəsi, Nuhun tufanı, Həzrət İbrahim, İsmail, İshaq, Yaqub və Yusifin (ə)-ların başlarına gələn hadisələr bu bölümdə qeyd olunmuşdur.

Digər dörd bölümdə isə Həzrət Musanın (ə) həyatı və Bəni-İsrailin həyatı açıqlanır. Bu bölümdə O Həzrətin dünyaya gəlməsi, peyğəmbərliyə çatması, xaric olması, dövlət təşkil etməsi və dünyadan köçməsi geniş şəkildə qeyd olunmuşdur. Bu dörd bölümdə dini hökümlər və qanunların bir əksəriyyəti, vəhy barəsində məlumatlar da qeyd olunmuşdur. Yəhudilər və xristyanların nəzərincə Tövratın beş bölümünün müəllifi Həzrət Musa (ə) özüdür.

Bəni-İsrailin tarixi Həzrət Yuşənin (ə) zamanından sonraya aid edilir və digər on iki kitabda qeyd olunmuşdur. Əhdi-Ətiqin tarixi kitabları aşağıdakılardır:

1. Yaranış bölümü; (Dünyanın yaranışı, Həzrət Adəm, Nuh, İbrahim, İsmail, İshaq, Yaqub və Yusif)

2. Xuruc bölümü (Həzrət Musanın (ə) dünyaya gəlməsi və peyğəmbərliyə çatması, Bəni-İsrailin Misirdən çıxarılaraq Sinaya köçürülməs, Əhkam)

3. Levilər bölümü; (Həzrət Harunun (ə) nəslindən və Lavi ailəsindən olan Yəhudi ruhanilərinin və kahinlərinin hökümləri)

4. Ədədlər bölümü; (Həzrət Musanın (ə) zamanında Bəni-İsrailin sayı, şəriyyəti və tarixi)

5. Təsniyə yaxud ikilik bölümü; (Öncəki bölümlərdə qeyd olunmuş dini əhkamların təkrarı və Bəni-İsrailin Həzrət Musanın (ə) vəfatına qədər tarixi)

6. Yuşənin səhifəsi; (Həzrət Musanın (ə) canişini Yuşə ibn Nunun tarixi, həyatı və sərgüzəştləri)

7. Hakimlər bölümü; (Padşahların təyin edilməsindən öncə Bəni-İsrail hakimlərinin tarixi)

8. Rut kitabı; (Həzrət Davudun (ə) nənələrindən olan Rut adlı bir qadının həyatı)

9. Samuelin birinci kitabı; (Samuel peyğəmbərin tarixi, Şaulun, yəni Talutun hakimiyyətə təyin edilməsi)

10. Samuelin ikinci kitabı; (Həzrət Davudun (ə) şahlığı)

11. Padşahların birinci kitabı; (Həzrət Davudun (ə) şahlığının davamı, Həzrət Süleymanın (ə) padşahlığı və onun canişinləri)

12. Padşahların ikinci kitabı; (Buxtənnəsrin hücumuna qədər Bəni-İsrail padşalarının tarixinin davamı və Babilistanın tərki)

13. Birinci günlər tarixi kitabı; (Bəni-İsrail nəslinin tarixi və Həzrət Davudun (ə) vəfatına qədər Bəni-İsrail tarixinin təkrarı)

14. İkinci günlər tarixi kitabı; (Həzrət Süleymanın (ə) və digər padşahların "Babil sürgününə" qədər padşahlıq tarixi)

15. Esranın tarixi; (Urşəlimin yenidən qurulması və Yəhudiləri Üzeyrlə birlikdə azad edilməsi)

16. Nehemya kitabı; (Urşəlimin yenidən qurulması, Nahamya Saqinin dilindən Yəhudilərin Əhəməni şahı Birinci Ərdəşir tərəfindən qaytarılması)

17. Ester kitabı; (Xəşayarşahın Yəhudi həyat yoldaşı Esterin vasitəçiliyi ilə Yəhudilərin məhvi probleminin həll olunması)[1]

**7-2. Hikmət, münacat, dua və şeir**

Bu bölüm beş kitabdan təşkil olunmuşdur:

1. Əyyub kitabı; (Xəstəliyə düçar olması, səbirsizliyi və sonda dostlarının öyüd-nəsihətilə səbirli olması)
2. Məzamir, yəni Davudun Zəbur kitabı; (150 hissədən ibarət düa və münacat toplusu)
3. Həzrət Süleymanın (ə) kitabı; (Hikmətli sözlər toplusu)
4. Camiə[2] kitabı; (Dünyaya pessimist yanaşmaya aid)
5. Süleymanın qızıl kitabı; (Aşiqanə şeirlər toplusu)

**7-3. Peyğəmbərlərin gələcəkdən xəbər verməsi**

Peyğəmbərlərin gələcəkdən xəbər vermələri bölümünə Bəni-İsrailin Allaha itaət etməyəcəkləri təqdirdə onları gözləyəcək pis aqibət

---

[1] Esterin və Yəhudilərin məhvi probleminin həllindən böyük rol oynamış əmisi oğlu Mordexayın qəbirləri Həmədan şəhərindədir.

[2] Bu kitabda istifadə oluanan Camiə sözü Həzrət Süleymanı (ə) nəzərdə tutur.

barəsindəki xəbərdarlıqlardan və hədə-qorxulardan ibarətdir. Gələcəkdən verilən bu xəbərləri anlamaq üçün oxucu o zamanlar baş vermiş hadisələr barəsində məlumatlı olmalıdır. Bu bölüm 17 kitabdan ibarətdir:

1. İşəya kitabı; (Əhdi-Ətiqdə gələcəkdən verilmiş xəbərlər barəsində mövcud olan ən uzun və məşhur kitab)
2. Ermiya kitabı; (Gələcəkdən verilən xəbərlər)
3. Ermiya mirası kitabı; (O Həzrətin Urşəlimin xarabalıqlarına həsr etdiyi mərsiyyələr)
4. Hezqiyal kitabı; (Gələcəkdən verilən xəbərlər)
5. Daniyalın kitabı; (Həzrət Daniyal peyğəmbərin cihadları və gələcəkdən verdiyi xəbərlər barəsində)[1]
6. Huşə kitabı (Gələcəkdən verilən xəbərlər)
7. Yueyl kitabı; (Gələcəkdən verilən xəbərlər)
8. Amus kitabı; (Gələcəkdən verilən xəbərlər)
9. Əvbədya kitabı; (Gələcəkdən verilən xəbərlər)
10. Yunisin kitabı; (O Həzrətin balığın qarnında həbs olunması hekayəsi)
11. Mikah kitabı; (Gələcəkdən verilən xəbərlər)
12. Nahum kitabı; (Gələcəkdən verilən xəbərlər)
13. Həbəqquq kitabı; (Həzrət Həbəqququn gələcəkdən xəbər verməsi)[2]
14. Sefenya kitbı; (Gələcəkdən verilən xəbərlər)
15. Həcca kitabı; (Gələcəkdən verilən xəbərlər)
16. Zəkəriyya kitabı; (Gələcəkdən verilən xəbərlər)
17. Məlaki kitabı; (Gələcəkdən verilən xəbərlər)

Bu kitabların müxtəlif baxımdan mötəbərliklərinin araşdırılması ilə xristiyanlıq bölümündə tanış ola bilərsiniz.

### 7-4. Müqəddəs kitaba müraciət metodu

[1] Bir çox tarixçilər Daniyal kitabının eradan əvvəl altıncı əsrdə yazılmasını qəbul etmirlər və bu kitabın eradan əvvəl 165-ci ilə aid olduğunu bildirirlər.
[2] İslami mətnlərdə bu ad Həyquq formasında qeyd olunmuşdur.

Bizim hamımız Qurani-Kərimə müraciət metodu ilə tanışıq. Belə ki, Qurani-Kərimdə surə və ayə bölgülərindən istifadə olunur. Yüzlərlə antik və məşhur kitabın özünəməxsus səhifə bölgüsü vardır. Belə tanınmış kitablara nümunə olaraq Platonun, Aristotelin, Homerin, Herodotun, Şekspirin və başqalarının kitablarını misal çəkə bilərik. (Qanun kitablarına və məcəllələrinə də müraciət edərkən səhifə anlayışının əvəzinə maddələrin sıralanmasını müşahidə edirik) Belə kitablara müraciət etmək üçün özünəməxsus bablar, bölümlər, hissələr, fəsllər və sıralamalar müəyyən edilmişdir. İbri dilində olan Tövrat kitabında bu fəsllərdən və bölgülərdən əlavə özünəməxsus fəsllər də mövcuddur.[1]

Onlar müqəddəs kitablarına müraciət edərkən ilk olaraq kitabın və yaxud bölümün adını, sonra fəslin nömrəsini və sonda fəqərənin nömrəsini qeyd edirlər. Məsələn; "Yaranış 1:27", yəni Yaranış bölümü, 1-ci fəsil, 27-ci fəqərə.

### 7-5. Tövratın tənqidi

Tövrat İbrani dilində "Qanun" və "Şəriət" mənasını kəsb edir, çünki Tövrat kitabında çoxlu qanun və əhkamlar mövcuddur. Yəhudi alimləri tövratdan 613 hökum çıxara bilmişlər.

Müqəddəs kitab sahəsində araşdırmalar aparan alimlər İbrani dilində qələmə alınmış Tövrat kitabının mətninin üslubuna əsaslanaraq beş bölüm üçün dörd fərziyyə edilən mənbə təyin etdilər və bu mənbələrin hər birisinə xüsusi ad qoydular:

1. Elohim mənbəsi (E): Allahın Elohim[2] adlandırıldığı bəzi hissələrə işarə məqsədilə belə adlandırılmışdır.

2. Yəhvə mənbəsi (J): Allahın Yəhvə (Jehovah)[3] adlandırıldığı bəzi hissələrə işarə məqsədilə belə adlandırılmışdır

---

[1] Xristiyanlar İslami dillərdən istifadə edərkən öz müqəddəs kitablarının bəndlərini "Ayə" adlandırırlar. Əslində bu xristiyan termini deyildir, çünki onlar öz səmavi kitablarının ibarətlərini və sözlərini möcüzə kimi qəbul etmirlər.

[2] Eloh Allah mənasını verir və Elohim hörmət əlaməti kimi cəm formasıdır.

[3] Allahın xüsusi adı.

3. Kahin və keşiş mənbəsi (P): Kahin və keşişlərin (Priests) öhdəliklərinə aid hissələr işarə.

4. Təsniyə və yaxud İkinci qanun bölümü mənbəsi (D): Bütün "İkinci qanun" (Deuteronomy) bölümünə şamil edilən məxsusi mənbəyə işarə.

Bu bölümlərin hər birisinin özünəməxsus üslubu vardır və onları müqayisə edərkən tam şəkildə anlamaq olar ki, hal-hazırda mövcud olan beş bölüm qədim zamanlarda (təxminən 2500 il bundan öncə) dörd müxtəlif mənəyə istiandən bir yerə toplanılmışdır.

Tövratın və digər müqəddəs kitabların ən qədimi və tanınmış tənqidi Hollandiyalı filosof Spinoza tərəfindən (1632-1677) "İlahiyyat və siyasət barəsində traktat" kitabında qeyd olunmuşdur.

Spinoza öz kitabında müxtəlif dəlillərdən istifadə etməklə isbat edir ki, müqəddəs kitabın mötəbərliyini araşdırmaqdan ötrü onun tarixi və tənqidi aspektlərinə diqqət yetirmək lazımdır. Təəssüflə bildirmək lazımdır ki, bizdən öncə bu işlə məşğul olanlar bu məsələləri kənara qoymuşlar və yaxud nəsə qələmə almışlarsa da bizə qədər gəlib çatmamışdır. O əlavə edir ki, hal-hazırki dövürdə təəssübkeşliklər din adı ilə tanınır və insanar öz etiqadlarında ağıl məfhumundan istifadə etmirlər. Elə bu səbəbdən də, mən nisbi psimistliklə bu sahəyə daxil oluram və ilk addım olaraq müqəddəs kitabların (ilk öncə Tövratın beş bölümünün müəllifini) müəlliflərini araşdırmağa başlayıram:

"*Demək olar ki kitab əhlinin hamısı Tövratın Musa tərəfindən yazılmasına inanırlar, belə ki Yəhudilərin Ferisilər firqəsi bu əqidəyə təkid olaraq qeyd olunmuş düşəncəyə müxalifət etməyi kafirlik kimi qəbul edirlər. Elə bu səbəbdən də, daha azad düşüncəyə malik olan alim İbn Əzra bu barədə fikir söyləməyə cürət etmədi və yalnız biz neçə qaranlıq işarələrlə bu düşüncənin səhv və yalnış olmasını bildirdi. Amma mən heç bir qorxu hissi keçirmədən İbn Əzranın qaranlıq düşüncələri üzərindəki pərdəni götürəcəyəm və həqiqəti hamının diqqətinə çatdıracağam.*"[1]

---

[1] Spinoza, Bendict de, A Theologico-Political Treatise, ch VIII.

Sonra Spinoza Tövratın beş bölümünün elmi araşdırmasına başlayır və bu kitabın müəllifinin Həzrət Musa (ə) olmadığını və O Həzrətdən əsrlər sonra yaşamış bir şəxsin olduğunu sübut edir. Məsələn Yaranış 14:14-də "Dan" adlı yeri adı qeyd olunur, amma Yuşə Kitabında 19:47-də Həzrət Musanın (ə) zamanında həmən yerin adının "Leşem" olması göstərilir və O Həzrətdən əsrlər sonra həmən yer "Dan" adlandırılır. Onda əgər Tövrat doğurdan da Həzrət Musanın (ə) yazısıdırsa onda nəyə görə bu məkan Leşem yox Dan olaraq qeyd olunmuşdur? Qeyd etmək lazımdır ki, yəhudi və xristyan alimləri bu sualı özünəməxsus tərzdə cavablandırmışlar.

Spinoza hal-hazırkı Tövratın bəzi bölümlərində istifadə olunan fikirlərə istinadən (Xuruc 17:14 və Ədədlər 21:14) yazır ki, Həzrət Musanın (ə) başqa yazıları da mövcud olub, amma hal-hazırda mövcud olan Tövrat onun qələmə aldığı kitab ola bilməz.

### 7-6. Əhdi-Ətiqin Epokrifaları

İndi də Əhdi-Ətiqin epokrifaları ilə tanışlıq məqsədilə həmin kitabların adlarını qeyd edəcəyik. Bunu da qeyd etməyi özümüzə borc bilirik ki, epokrifaları olan müqəddəs kitabların nüsxələri istər epokrifa kitabların sayı, istərsə də tərtibatı baxımından fərqlənirlər. Epokrifanın fars dilinə tərcüməsi (on qədimi və mötəbər nüsxəyə əsasən) aşağıdakı on kitabdır:

Tubiyyət, Yəhudiyyət, Ester (Yunanca) Süleyman peyğəmbərin hikmətləri, Yəşu ibn Siraxın hikmətləri, Baruk, Ermiya, Danial peyğəmbər (Yunaca), Mekabilərin birinci kitabı və Mekabilərin ikinci kitabı.

## 8. Təlmud

Təlmud sözü İbrani dilindəki "Ləmədə" (yəni öyrətmək) feli kökündən əmələ gələrək təhsil və təlim mənasını kəsb edir və Ərəb dilindəki "Tilmiz" (yəni şagird) sözü ilə eyni kökə qayıdır. Təlmud

içərisində Yəhudi hədisləri və əhkamları olan böyük kitabdır. Daha dəqiq desək Tövratın təfsiri və açıqlamasıdır və onu "Şifahi Tövrat" adlandırırlar.

Yəhudilər Babilistana köçürüləndə onların arasında "Suferim" (katiblər və yazarlar) adlı bir dəstə meydana çıxdı. Katiblər Tövratı və digər dini mətləbləri kağız üzərinə köçürən insanlar idilər. Ən böyük Sufer Ezra (Üzeyr) idi və o eradan əvvəl beşinci əsrdə yaşamışdır. Ezra Musanın (ə) şəriətini daha da genişləndirmək qərarına gəldi və Əhdi-Ətiqin köməkliyi ilə Yəhudi cəmiyyətinin ehtiyaclarını ödəmək istədi. Onun bu addımı ilə Yəhudilərin şifahi adətləri meydana çıxdı.

Ezradan sonra dini mətnlərdə təfsir və açıqlama metodu meydana çıxdı və ixtiraçısı Ezra olan bu metod "Midraş" adlandırıldı. Midraş sözünün mənası "axtarış"-dır, çünki alimlər midraşın köməkliyi ilə Tövratın gizli mənalarını axtarırdılar və bütün gündəlik məsələlərinin mənasını öz səmavi kitablarından çıxarmağa çalışırdılar. Dinin məsələlərin həlli sahəsində Baş Məclisin (Senehdrin) təsis olunmasından sonra Həzrət Musadan (ə) sonra Tövratın təfsirinin nəsildən nəsilə keçərək Baş Məclis üzvlərinə çatması fikiri formalaşdırıldı. Bu məsələlər Ferisilər tərəfindən həyata keçirilirdi və Səduqilər bununla müxalif olduqlarını bildirərək yalnız Tövratın zahiri mənası ilə kifayətlənirdilər.

Bir çox alimlərin nəzərincə Yəhuda Hənnasi şifahi dini məlumatları yazaraq sonralar Təlmud adlanacaq kitab formasına salan şəxsdir. O, 135-ci ildə dünyaya göz açmışdır və əlli ildən çox Nasi, yəni Yəhudi qövmünün dini rəhbəri olmuşdur.

Yəhuda Hənnasi bu şifahi ənənəni Mişna adlandırdı və bu da tərcümədə Tövratın təkrarı və mənası deməkdir. Miqra isə Tövratın mətni və oxunuşu mənasını kəsb edir.

Mişnanın şərhi "Qemara" adlanır və tərcümədə təfsir mənasını verir. Qemaranın yazıçıları bu kitabda istifadə olunan mətləblərin qədim zamanlarda yaşamış alimlərin sözləri olduğunu bildirirdilər. Qemara Mişna kitabını təkmilləşdirmişdir.

Mişna iki Qemaradan ibarətdir: Babilistan Qemarası və Fələstin (Urşəlim) Qemarası. Təlmud Qemaralara uyğun olaraq iki cürdür: Daha dolğun olan Babilistan Təlmudu və Fələstin (Urşəlim) Təlmudu. Birinci Təlmudda Mişnanın bir parçası nəql olunur və sonra həmin parçaya Qemara başlığı altında təfsir verilir.

Təlmud altı bölümdən ibarətdir və bunların hər birisi "Seder" adlanır və altı sederin daxilində 63 dini risalə vardır:

1. Zeraim sedri; (Toxumlar, məhsulların hökmü və heyvanların nəsil verməsi) – 11 risalə
2. Mued sedri; (Bayram bölümü, anım günləri barəsində) – 12 risalə
3. Naşim sederi; (qadınlar bölümü, evlilim əhkamları) – 7 risalə
4. Nezeyqin sederi; (Zərər və ziyanlar bölümü, mal və insanlara dəyən ziyan barəsindəki əhkamlar) – 10 risalə
5. Qedaşim sedri; (Müqəddəslər bölümü, Yəhudi dininin müqəddəsləri) – 11 risalə
6. Teharut sederi; (Təharət bölümü, pak və napak barəsindəki əhkamlar) – 12 risalə

Təlmudda iki əsas məsələ ilə üzləşirik: Birincisi "Hellaxa"-dır. Hellaxa düzgün yaşmaq üçün dini əmrlərdən ibarət metod və üslub mənasını daşıyır. İkincisi "Eqada"-dır. Eqada qədim zamanlarda yaşamış Yəhudilərin və yaxud digər qövmlərin böyük şəxsiyyətlərinin başalrına gələn hadisələrdən ibarət rəvayət mənasını kəsb edir.

Təlmuddakı mövzuların bir çoxuna İslam dininə aid kitablarda rast gəlinir və müsəlmanların bəziləri məsələnin məğzinə varmadan bu mətləblərin bir hissəsini tam olaraq qəbul etmişlər. Müsəlmanlar bu növ rəvayətləri "İsrailiyyat" adlandırırlar. Təlmudda həqiqətlə uzlaşan məsələlərə də rast gəlmək olar və bu mətləblərin bəziləri ayələr və düzgün İslami rəvayətlərlə üst-üstə düşür.

Təlmud Yəhudiliyin bütün sahələrini özündə cəmləşdirərək onu qoruyan ensklopediya mənasını daşıyırdı. Xristiyanlar Təlmudda Həzrət İsaya (ə) qarşı pis sözlərin qeyd olunması səbəbindən bu kitaba qarşı çıxmışlar. 6-cı əsrdə kilsə başçıları bu kitabla ixtilaflarını

elan etdilər, amma bir neçə əsr heç bir problem yaranmadı və Yəhudilər Xristyanların bu sahədəki təəssübkeşliklərini təhrik etməmək üçün məsələyə diqqətlə yanaşırdılar. 1239-cu ildə xristyanlığı qəbul etmiş bir yəhudi Roma Papasını bu kitabı yandırmağa sövq edir və Təlmudyandırma ənənəsinin əsasını qoyur. Bundan sonra Təlmudla dolu arabalar meydanlara gətirilərək yandırılırdı və kitabın üzərinə vurulmuş dəri cildlər çəkməçilərə və ayaqqabı tikənlər verilirdi.

Hal-hazırda Babilistan Təlmudunun yalnız bir neçə nüsxəsi mövcuddur və dünyanın müxtəlif ölkələrinin kitabxanalarında saxlanılır. Amma, yalnız Almaniyanın Münxen şəhərindəki kitabxanada Təlmudun tam və dolğun forması mövcuddur.

Təlmudun İbrani dilindəki mətninin ən birinci və ən məşhur çapı İtaliyanın Venesiya şəhərində Danial Bumberq tərəfindən həyata keçirilmişdir.(Babilistan Təlmudu 1520-1523-cü illərdə və Fələstin Təlmudu 1523-1524-cü illərdə). Babilistan Təlmudunun səhifələrinin sayı 5894 ədəddir və müxtəlif çaplarda da bu saya riayət olunur. Təlmud bəzi Avropa dillərinə tərcümə edilmişdir və bu kitabın İngilis dilindəki tərcüməsi 18 cilddə Londonda çap olunmuşdur. Bu kitabın qısaldılmış forması 1971-ci ildə "Təlmuddan bir xəzinə" adı altında Tehranda çap olunmuşdur.

## 9. Qebala

Yəhudilərin irfanı Qebala (yəni məqbul və qəbul olunan) adlandırılır. Yəhudi İrfanı məhsuldar məktəbdir. Bu məktəb Bəni-İsrailin mənəvi həyatında böyük yerə malik olmuşdur və hal-hazırda da malikdir. Bu sahədə bəzi kitablar da mövcuddur və onlardan ən mühimi "Zuher" (yəni Parlaq)-dır. Bu kitabın həqiqi müəllifi barəsində fikir ayrılıqları mövcuddur. Qebala elmi İlahi Ərş, İsmi-Əzəm, dünyanın sonunda baş verəcək hadisələr, Məsihanın zühuru, qayıdış və qiyamət barəsində söz açır və Hüruf elmi bu fənn sahəsində olduqca böyük

əhəmiyyətə malikdir. Qeyd etmək lazımdır ki, əbcəd ədədləri eradan əvvəl ikinci əsrdə Yəhudi icması tərəfindən ixtira olundu və sonra xristiyanlığa və İslama keçdi.

"Hesidim" irfani firqəsi 1740-cı ildə İsrail Beel Şem Tub tərəfindən təsis olundu və Şərqi Avropada genişlənməyə başladı. Bu Yəhudilərin əməli və praktik irfanlarının nümunəsidir. Qeyd etmək lazımdır ki, bu firqədə Səma rəqsi mövcuddur.

## 10. Etiqadlar

Yəhudi dini alimi, filosofu və həkimi Musa ibn Meymun (1135-1204) Yəhudi dininə yeni libas geyindirdi və onun üçün 13 əsas prinsip və etiqad tərtib etdi. Bu etiqad sahələri aşağıdakılardır:

1. Allahın varlığı
2. Onun təkliyi
3. Onun mücərrəd olması
4. Zamanla məhdudlaşmaması
5. Bütün işlərdə hikmət sahibi olması
6. Ədaləti
7. İbadət yolu ilə ona çatmağın mümkün olması
   (Bunların hamısı Allah barəsində idi. Digər məsələlər)
8. Peyğəmbərliyə inam
9. Həzrət Musanın (ə) daha üstün olması
10. Tövratın səmavi kitab olmasına inam
11. Dini əhkamların dəyişdirilməsinə icazənin olmaması
12. Məsihanın zühur etməsi
13. Qiyamət və insan varlığının əbədiliyi

Yəhudilər də digər qövmlər kimi yaşadıqları mühitin təsiri altına düşmüşlər və bəzi sivilizasiyalar ilə təmasda olanda istər istəməz onların bir çox düşüncə tərzlərindən və adət-ənənələrindən yararlanmış-

lar. Amma bunu da qeyd etməliyik ki, onlar həmişə bütün sadaladığımız məsələlərə özlərinəməxsus Yəhudi donu geyindirirdilər.

Ümumiyyətlə Yəhudilər dindar və adət-ənənəyə bağlı qövmdür. Digər tərəfdən liberal Yəhudilərin dindarlıqla əlaqəsi yoxdur, hətta onlar Allahı inkar həddinə də çatırlar. Onların Yəhudiliyə olan bağlılığı sırf milli, mədəni bağlılıqdır. Liberal Yəhudilərin özlərinin bildirdikləri kimi onların bu bağlılıqları milli mentalitetə sahib olmaq üçündür. İsrailin sabiq Baş Naziri Qolda Mayer (Golda Meir, 1969-1974) özü etiraf etdiyi kimi.

Yəhudilikdə təbliğ yoxdur, çünki Yəhudilər öz dinlərini Allahın yalnız Bəni-İsrail nəsli üçün  buyurduğu ilahi nemət kimi qəbul edirlər. Elə bu səbəbdən də, kim özü Yəhudi olmaq istəsə onu qəbul edirlər.[1] Təlmudda belə tövsiyyə olunur ki, kim Yəhudi olmaq istəsə ilk olaraq ona bu qövmün çəkdiyi zilləti anlatmaq lazımdır. Yalnız həmin şəxs meydana girmək cəsarətini özündə topladıqdan sonra bu dinə daxil olmaq şansını qazanır. Sonda həmin şəxsin Yəhudiliyə qəbul olunub olunmaması üçün məhkəmə qurulur.[2] Nadir hallarda Yəhudiliyin məcburi qəbul etdirilməsi mövcud olmuşdur.[3] Yəhudilər bir sıra hallarda insanları sionizmə dəvət edirlər.

### 10-1. Yəhudilikdə tövhid məfhumu

Yəhudilik (İslam və xristyanlıq kimi) başlanğıcdan tövhid üzərində qurulmuşdur və Yəhudililərin bütün peyğəmbərləri, Həzrət Musadan (ə) başlayaraq bütün çoxlu sayda peyğəmbərlərin hamısı Allaha şərik qoşmaqla mübarizə aparmışlar. Tövhidi dinlərin davamçılarının da bəzən öz dinlərindən xəbərsiz olduqları halda şirkə üz tutmaları halları da meydana çıxır. Amma qeyd etdiyimiz məsələ tədqiqatçıların bu dinin əsli və əsası barəsindəki nəzərlərini dəyişdirə bilmir.

[1] Bəzi dinlərdə ümumiyyətlə heç kimi qəbul etmirlər. Məsələ Livandakı "Dürzi"lər və İsmaili şiyələrinin bəzi qolları kimi.
[2] Yəhudilər Yəhudiliyi yeni qəbul edənləri "Ger", yəni "Yad" adlandırırlar.
[3] Məsələn; Qurani-Kərimin Buruc surəsində qeyd olunmuş "Əshabi Uxdud" kimi

Onlar apardıqları araşdırmalardan dinin iki növ olması qərarına gəlmişlər:

A. İnsanları müşriklikdən və Allaha şərik qoşmaqdan uzaqlaşdıran dinlər. (Həzrət İbrahimdən (ə) yaranan dinlər kimi)

B. İnsanlara müşrikliyi və Allaha şərik qoşmağı aşılayan dinlər. (Şərq dinləri kimi)

Allahın Yəhudilikdəki xüsusi adı "Yahveh"dir, yəni "mövcud və var olan".Bu adın hörməti olduqca çoxdur və onu Tövrat tilavət edərkən belə dilə gətirmək haram bilinir. Elə bu qadağaya görə heç kim onun dəqiq tələffüzünü bilmir və bəzən də belə iddialar irəli sürürlər ki, hər kim "İsmi Əzəmin" tələffüzünü dəqiq bilərsə möcüzə edə bilər. Şərqşünaslar çox vaxt ehtiyat məqsədilə bu adı sait səslərsiz "YHWH" formasında qeyd edirlər. Onlar "Yahveh"-i də düzgün sayırlar.

Süleyman Məbədin hələ fəaliyyət göstərdiyi 70-ci ilədək Yəhudilərin dini rəhbərinin ildə bir dəfə Yəhudi təqviminin aşura günündə (Teşri ayının 10-da, payız fəslinin əvvəllərinə təsadüf edir) həmin məbədin "Qüdsül Əqdas" adlanan yerində bu adı dilinə gətirərək dua edə bilərdi.[1] Tövratın tilavəti zamanı bu adın əvəzinə "Adoney", yəni "mənim Ağam" sözündən istifadə olunurdu və bu sözün sait səsləri həmin sözün samit səsləri üzərinə qoyulurdu. Beləliklə də, bəzən onu Yehuveh və bəzən də Yehuvəh tələffüz edirdilər.[2]

Allahın adlarından biri də "Əhiyə Əşer Əhiyə", yəni "Nə varamsa varam"-dir. Bu ad Xuruc bölməsi 3:14 -də və bəzi İslami dualarda (Ərəfə gecəsinin duasında) istifadə olunmuşdur. Bəzi savadsız katiblər bu sözü "Ahiyyən Şərahiyyən" kimi qeyd etmişlər.

---

[1] Həmin şəxslərdən biri bu işi sözün insanların qulağına çatmaması üçün onların ən həyəcanlı və ağlayan vaxtında dilinə gətirmişdi.

[2] Abbasilərin hakimiyyətinin ilk illərində saxta hədis yaymaqla məşğul olan Əbul Bəxtəri ibn Vəhb ibn Vəhb öz saxta hədislərinin birində "Yahuvə"-ni Allahın İsmi Əzəmi kimi qələmə verdi. Sonralar bu saxta söz Sufilərin xoşlarına gəlməsi səbəbindən onların arasında geniş şəkildə yayılmağa və istifadə olunmağa başladı.(Yahu, Yahuva)

**10-2. Yəhudilikdə peyğəmbərlik məsələsi**

Yəhudilər peyğəmbərliyə də inanırlar və onların bu sahədə geniş kəlami bəhsləri mövcuddur. Onlar eləcə də, peyğəmbərlik üçün xüsusi məna meydana çıxarmışlar və bu məna gələcəkdən xəbər verməkdir. Eşeya peyğəmbər, Ermiya peyğəmbər, Hezqiyal peyğəmbər və Huşe peyğəmbər gələcəkdən xəbər verən peyğəmbərlər kimi tanınırlar.

Əhdi-Ətiqdə bir çox peyğəmbərlərin adı qeyd olunmuşdur.[1] Eşeya, Ermiya, Amus və bəlağətli sözlərilə Bəni-İsraili xəbərdar edərərk onları pis və çirkin əməllərdən uzaqlaşmağa çağırırdılar və düzgün yolu tutmayacaqları təqdirdə gələcəkdə onları zillətli əsirlik həyatının gözləməsindən xəbər verirdilər. Amma Bəni-İsrailin onların qiymətli sözlərinə qəti əhəmiyyət vermirdi və peyğəmbərlərin həbsi, işkəncəsi və qətli işləri sahəsində ciddi addımlar atırdılar. (Qurani-Kərimdə bu barədə ətraflı şəkildə söz açılmışdır). Əhdi-Ətiqin “Peyğəmbərlik” adlanan on yeddi kitabı gələcəkdən verilən bu xəbərlərdən söz açır.

Yəhudilərin nəzərincə vəhy məsələsi eradan dörd əsr əvvəl sona çatmışdır və dünyanı islah edəcək sonuncu şəxsin gəlməsindən sonra yenidən bərpa olunacaqdır.

**10-3. Yəhudilikdə Məad məsələsi**

Məad məsələsinə nə Tövratda, nədə Əhdi-Ətiqin heç yerində rast gəlmək olmur. (Deməli, axirətin ümumi mənası Təsniyə 8:16 və Ermiyanın mərsiyyələri 4:18 -də “dünyanın aqibəti mənasını kəsb edir). Tövrat nöqteyi-nəzərindən (Levilər 26 və Təsniyə 28) dindarlığın bu dünya nemətlərini əldə etməklə və dinsizliyin dünya nemətlərindən məhrum qalmasında birbaşa təsiri vardır.

Digər tərəfdən Təlmud kitabında Məad barəsində geniş şəkildə söz açılmışdır. Şifahi ənənəni, yəni Təlmudu qəbul etməyən və hal-hazırda mövcud olmayan Səduqilər firqəsinin davamçıları qiyamət gününə inanmırdılar. Amma digər firqə olan Ferisilər qiyamət günü-

[1] Bu peyğəmbərlərin bəzilərinin adları Rəcəb ayının on beşinci günü oxunan “Umm Davum” duasında qeyd olunmuşdur.

nə inanırlar və onların ixtilafı qiyamətlə qayıdışın eyni vaxta olacağı barəsindədir. Onlar eləcə də cənnət və cəhənnəmə də inanırlar. Cəhənnəm İbrani dilində olan sözdür və “Hiyunnəm dərəsi” mənasını verir və bu məkan Urşəlim şəhərinin kənarında yerləşirdi. Həmin məkanda Mulek (Molech, Moloch) adınında bir büt var idi və Bəni-İsrail bir zaman onun önündə olan böyük çuxurda və yaxud dərədə od qalayaraq xüsusi bir mərasim çərçivəsində öz uşaqlarını həmin bütə qurban edərək alovun içərisinə atırdılar. (Cəhənnəm Maliki sözünündə bu Mulekdən götürülməsi iddia edilir.)

Yəhudilərin ən əsas inanclarından olan, amma bir çox alim və tədqiqatçıların nəzərincə digər xalqalrın dinlərindən götürülmüş inanclardan biri də ölülərin dirilməsinə inamdır. Qədim zamanlarda yaşayan İranlılar xeyir tanrısının şər tanrısı üzərində qələbə çalmasından və onu məhv etməsindən sonra ölülər diriləcəklər. Amma qeyd etmək lazımdır ki, bu mənəvi və ali təlim Yəhudilərin dini ilhamlarının məhsuludur və İranda olan Muğanların quru və ruhsuz inancları ilə heç bir oxşarlığa malik deyildir. Tədqiqatçıların bildirdiklərinə əsasən ən qədim zamanlardan belə Bəni-İsrail arasında ruhun əbədiliyi inancı mövcud olmuşdur və müqəddəs kitablarda dəfələrlə buna işarə edilimişdir. Amma bu inanc Yəhudilərin Babildən qayıtmalarından sonra Məsihanın qiyamı inancı ilə cəmləşərək ölülərin dirilməsi inancını meydana çıxartdı.

Həzrət Musanın (ə) peyğəmbərliyə çatması hekayəsindən bəlli olduğu və Qurani-Kərimdə açıq-aydın şəkildə yazıldığı kimi Məad məsələsi o Həzrətin ilk sözlərində və müraciətlərində mövcud idi.

## 11. Əhkam

Yəhudilərin çoxlu və olduqca qarışıq dini əhkamları mövcuddur. Belə ki, bütün bu dini əhkamların hamısını bir kitabda yerləşdirmək

mümkünsüzdür. Qeyd olunmuş dini əhkamlar murdar, pak, halal və haram yeməklər, digər məsələləri əhatə edir.

Əti halal və haram olan heyvanlar barədə mövcud olan əhkamlar Levilər 11 və Təsniyə 14-də yerləşdirilmişdir. Məsələn; cütdırnaqlı və gövşəyən heyvanların əti halaldır. Dəvə və dovşan gövşəyir, amma cütdırnaqlı deyillər. Elə buna görə də onların əti haramdır. Eləcə də, quşlar və dəniz heyvanları barəsində də çoxlu sayda dini əhkamlara malikdirlər. Yəhudilərin əti halal olan heyvanlar, onların kəsilməsi, haram və halal yerlərinin bölüşdürülməsi, bişirilməsi, yeməyin saxlanılması və yeyilməsi sahəsində geniş məhdudiyyətləri vardır. Heyvanı kəsən şəxs ya dini alim olmalıdır, yaxud heyvanın kəsilmə qaydalarını dini alimlərin yanında tam öyrənmiş şəxs olmalıdır. Halal və yeyilməyə münasib olan ət Kaşer adlanır.

Yəhudilikdə əti süd və yaxud süd məhsulları ilə yemək də haramdır. Elə buna görə də İsraildə bəzi "Əmr be məruf və Nəyh ən munkər"-lə məşğul olan xüsusi dəstələr yeməkxanalara gedərək müştərilərə haram ətin və yaxud ətlə süd məhsullarının verilməməsi işlərinə nəzarət edirlər. Yəhudilər üçün çörəyi və bir neçə başqa yeməyi yemək məqsədilə şəri əl yumaq qaydaları da mövcuddur. Yeməkdən sonra barmaqların heç olmasa iki qatlanan hissəsini yumaq vacid buyurulmuşdur.

Yuxudan oyandıqdan sonra ibadət etmək üçün əlləri dirsəklərə qədər yumaq və dəstəmaz almaq, eləcə də qola və alına üzərində Tövrat ayələri yazılmış parçaları bağlamaq vacib buyurulmuşdur.

Yəhudilər gündə üç dəfə namaz qılırlar; sübh, əsr yaxud axşamüstü və axşam namazı. Sinaqoqda namaz qılmaq daha yaxşı bilinir və sinaqoqda ən azı on kişi toplaşdıqdan sonra camaat namazı qılınır. Namaz vaxtı digərlərindən daha yaşlı və İbrani dilini daha yaxşı bilən bir kahin öndə dayanır və İbrani dilində dualar oxuyur, Tövratdan tilavət edir və bəzi hallarda rukuya gedir. Yəhudilərin ibadət zamanı ən çox oxuduğu dua Tövratdan götürülmüş Şema (yəni, "Dinlə" deməkdir) adlanır:

*Ey İsrail, dinlə: Bizim Allahımız olan Yahvəh vahid və tək Yahvəhdir. Onda öz Yahvə Allahınızı bütün gücünüz və bütün ruhuunuzla sevin!* (Təsniyə, 6:4-5)[1]

Yəhudilərin qibləsi Urşəlim şəhəridir. Yalnız Samerilər qiblənin Nablos şəhərinin yanındakı Cerezyem dağı olduğunu bildirirlər.

Yəhudilərin orucu ilin müxtəlif ayları arasında bölüşdürülmüşdür. Onların ən əsas orucu "Yovmu Kipur"-dur. Bu gün münasibətilə həmin gündən öncəki günün axşamından başlayaraq bir gün müddətində oruc tutulur. Bu gün ərzində yemək, içmək, (barmaqları çıxmaq şərtilə) yuyunmaq, daranmaq, ətir vurmaq və digər gözəllik vasitələrindən istifadə etmək, kişilərin öz qadınları ilə cinsi əlaqədə olması, dəri ayaqqabı geymək olmaz və Yəhudilər sinaqoqlara toplaşaraq ibadətlə və istiğfarla məşqul olurlar. Bundan əlavə daha dörd vacib oruc vardır və bunlardan biri İbrilərin Su ayının doqquzuna təsadüf edir. Yəhudilər bu günün orucunu eradan əvvəl 587-ci ildə Urşəlimin dağdılmasını anaraq "Yovmu Kipur" orucu kimi tuturlar. Daha üç vacib və bir neçə müstəhəbbi oruclar da mövcuddur. Məsələn; birinci və dördünçü günlər yemək və içməkdən imtina edərək gün doğandan gün batanadək oruc tuturlar.

Urşəlim məbədinin mövcud olduğu 70-ci ilədək Yəhudi kişiləri ildə üç dəfə piyada olaraq ora getmək məcburiyyətində idilər. Bunun biri Fesh bayramına, digəri Həftələr bayramına və üçüncüsü Sukkot bayramına təsadüf edirdi. Sözsüz ki, ondan sonra da Urşəlimə ziyarət səfərləri var idi və İran Yəhudilərinin adət-ənənələrinə əsasən bu zəvvarlara da Hacı adı verirdilər.

İnsanın sünnət edilməsi Yəhudilikdə təkid olunmuş vacib əməllərdəndir və Allahın Həzrət İbrahimlə (ə)[2] bağladığı əhdə əsasən uşağın dünyaya gəlişinin səkkizinci günündə Yəhudi ruhaniləri tərəfindən həyata keçirilir. Onlar vacib əməl sayılan sünnətə çox böyük əhə-

---

[1] Qeyd etdiyimzi kimi Yəhudilikdə "Yəhvəh" sözündən istifadə etmək qəti şəkildə haram buyurulmuşdur və Yəhudilər Tövratı tilavət edərkən və ibadətlə məşğul olarkən həmin sözün əvəzinə "Aduney", yəni "mənim Ağam" sözündən istifadə edirlər.

[2] Yaranış 14_9:17

miyyət verdiklərinə görə qeyri-Yəhudi uşaqları da sünnət edirdilər. Xristyanlıqda və zərdüştlükdə sünnət yoxdur.

Həzrət Musa (ə) və Həzrət Harunun (ə) qəbiləsindən olan Yəhudilər Levilər adlanırlar və təxminən İslam dünyasındakı seyyid anlayışını və mənasını verir.[1] Haxam Yəhudi alimi və kahin, yaxud ravvin Yəhudi ruhanisidir. Ravvin Həzrət Harunun (ə) nəslindən, ən aşağısı isə Levilərdən olmalıdır.[2]

## 12. Yəhudi bayramları

İbrani təqvimi Şəmsi-Qəməri Təqvimidir.Yəni, bu təqvimin illəri şəmsi və ayları qəməridir. Belə ki, aylar sıra ilə 29-30 gündən ibarət olur. Yəhudilər Qəməri aylarını sabit saxlamaq üçün hər üç ildən bir Adar ayından sonra ilin aylarına Adar Şeni (yəni, ikinci Adar) ayını artırırlar və həmin il 13 aydan ibarət olur. Belə illəri İbbur (yəni, hamilə) adlandırırlar. Onların ili payız fəslindəki Teşri ayından başlayır və onun birinci yarımilliyinə 4381 və ikinci yarımilliyinə 4382 artırmaqla İbrani tarixi əldə etmiş oluruq. Bu tarixin aləmin yaranışından hesablanması fərz olunur.

Yəhudilərin bayramları aşağıdakılardır:

1. ***Şənbə günü**:* Bu gün ailənin bütün üzvləri bir yerdə yemək yeyirlər və bu ziyafət zamanı ailə başçısı əlinə bir piyalə şərab[3] alaraq dua oxumağa başlayır və ailə üzvlərinə ötürür. Ailə üzvləri hamısı bir-bir həmin şərabdan içirlər. Şənbə gününün istirahət günü kimi təyin olunması on fərmandan biridir (Xuruc 20:8-11). Tövratda qeyd olunduğu kimi Həzrət Musanın (ə) zamanında bir nəfəri şənbə gü-

---

[1] İslam dünyasında ata nəsli Həzrət Muhəmmədin (s) babası Haşimə çatan kəs Seyyid adlandırılır. Yəhudilərdəki Lavilər də ata nəsli tərəfindən Musa ibn İmran ibn Qəhat ibn Lavinin nəslindəndirlər.

[2] Qurani Kərimdə və digər İslam mənbələrində Kahin qeybdən xəbər verən şəxs mənasında istifadə olunmuşdur.

[3] Şərab bir çox dinlərdə, o cümlədən Yəhudilikdə və Xristiyanlıqda halaldır, amma şərabdan çox istifadə zamanı yaranan sərxoşluq haram və qəbahətli hesab olunur.

nündə odun topladığı üçün həbs edirlər və O Həzrətin yanına gətirirlər. O, Allahın əmri ilə onu daşqalaq etməyi buyurdu (Ədədlər 15:32-35). Yəhudilər şənbə günü işləməyi haram və böyük günah bilirlər. Yəhudilər şənbə günü ibadətlə məşğul olurlar, istirahət edirlər və bir-birilərinə baş çəkirlər.[1]

2. ***Ayın başlanğıcı bayramı:*** İbrani dilində bu bayram "Ruş hudeş" adlandırılır və tərcümədə mənası ayın başlanğıcı deməkdir.

3. ***Yeddinci il və yaxud ayrılma ili:*** Tövrata əsasən hər yeddi ildən bir bütün borclar və pul ödəmələri bağışlanmalıdır, Yəhudi qulları azadlığa buraxmaq kimi insanpərvər işlər həyata keçirilməlidir (Təsniyə 15). Bu ilin İbrani dilindəki adı "Şemita"-dır və tərcümədə "azad olmaq" mənasını kəsb edir.

4. ***Yubil ayı:*** Bu bayram hər əlli ildən bir baş tutur və bu bayram münasibətilə bir çox insanpərvər, humanist və əxlaqi işlər həyata keçirilir. (Levilər 25)

5. ***Fish (Pesəh və yaxud Pasxa) bayramı:*** Lüğəvi mənası göz yummaqdır. Firon və onun ətrafındakılara bəlanın nazil olduğu zaman Allahın Bəni-İsraillin ilk övladlarının qətlinə göz yumması münasibətilə belə adlandırılmışdır. Amma bu bayramın belə təntənə ilə qeyd olunmasının əsas səbəbi Bəni-İsrailin Fironun zülmündən xilas olmaları münasibətilədir. Bu bayram Fələstində yeddi və başqa yerlərdə səkkiz gün keçirilir və bahar fəslinin Nisan ayının on dördündə başlayır. Bu bayram mərasimi Tövratda (Xuruc 12) qeyd olunmuşdur. Fəsh və yaxud Pasxa Yəhudilərin ən böyük bayramıdır və qeyd olunmuş bayram müddəti ərzində fətir çörəklərdən istifadə etməyə icazə verilmişdir. Birinci gecə (İsraildən kənar yerlərdə ikinci gecə də) bayram axşamı süfrəsi açılır və Misirdə keçirilmiş acı günlərin xatirəsini canlandırmq məqsədilə acı göyərtilər yeyilir. 12-ci əsrdən indiyədək bəzən Yəhudilər bir uşaq və yaxud yetginlik yaşına çatmış

---

[1] İbri dilində şənbə "Şabat" kimi tələffüz olunur və bu sözün əsil mənası istirahət etmək və işdən uzaqlaşmaq mənasını veriri. Ərəb dilindəki "Səbt" sözü də bu mənanı kəsb edir. Fars dilindəki "Şənbə" sözü də Şabat sözündən götürülmüşdür.

insanı qətlə yetirməklə onun qanında bayram fətirinin hazırlanmasında istifadə etməkdə günahlandırılmışlar.

6. ***Həftələr bayramı:*** Bu bayram Pasxa bayramından əlli gün sonra, yəni Pasxadan yeddi həftə keçməsi və məhsulların hazır olması münasibətilə keçirilir. Bu bayramın İbri dilindəki adı "Şavuut"-dur.

7. ***İlin başlaması bayramı (Yeni İl bayramı):*** Bu bayram İbrani dilində "Ruş Həşşana" (yəni, ilin başlanğıcı) kimi adlandırılır. Bu gün tövbə ongünlüyü üçün hazırlaşmaq məqsədilə şeypurlar çalınır. Onuncu günün böyük əhəmiyyəti vardır və həmin günü "Yovmu Kipur" adlandırırdılar.

8. ***Yovmu Kipur:*** Yəni, Kəffarə günü; Bu çox əhəmiyyətli bayramdır Teşri ayının onuncu gününə təsadüf edir. Bu günü "Asura", yəni "Aşura və yaxud onuncu gün" adlandırırlar. Yəhudilər həmən gündən öncəki günün axşamından bayram gününün axşamınadək günahlarının kəffarəsini vermək məqsədilə oruc tuturlar. Bu günün müqəddəsliyi şənbə gününün müqəddəsliyindən daha üstündür və bu bayram günü işləmək tam şəkildə haramdır (Levilər 16:29-34). Yovmu Kipur bayramında fundamental Yəhudilər köhnə və cındır paltarlar geyinirlər.

9. ***Kölgəliklər və yaxud çadırlar bayramı:*** Yəhudilər Teşri ayının 22-də Bəni İsrailin Həzrət Musanın (ə) zamanında Sina səhrasındakı çadırlarda yaşamalarını anma məqsədilə bir həftə çadırlarda və kölgəliklərdə yaşayırlar. İbrani dilində bu bayrama "Sukkot" deyirlər, yəni (kölgəliklər və yaxud çadırlar).

10.***Açılış bayramı:*** İbrani dilində bu bayram "Hanuka" adlanır və Yəhudilərin eradan əvvəl 168-ci ildə Yunanıstanlı istismarçılar üzərində qələbə çalması münasibətilə keçirilir. Bu gün Süleyman məbədi Yəhud tərəfindən düşmənin pisliklərindən və dağıntılarından paklaşdırıldı. Bu bayram Kölgəliklər bayramından bir həftə sonra keçirilir.

11.***Püşk bayramı:*** İbrani dilində "Purim" adlanır. Bu gün Əhəməni şahı Xəşayarşanın vəziri Hamanın fitnəsilə Yəhudilərin qətliamının baş tutmaması münasibətilə bayram keçirilir. Bu macəra ətraflı

şəkildə Əhdi-Ətiqin Ester kitabında qeyd olunmuşdur. Bayramın Püşk bayramı kimi adlandırılmasının səbəbi bundan ibarətdir ki, Haman öz qərarını şaha elan etmək üçün günü püşkatma yolu ilə təyin etmişdi. Bu bayram qış fəslinin axırlarına təsadüf edir.

## 13. Yəhudi firqələri

Bütün dinlərdə müəyyən müddətdən sonra müxtəlif firqələr meydana çıxmışdır. Firqələr ölkə, şəhər, hətta məhəllə rəhbərliyini ələ keçirmək və fərqli düşüncə tərzlərinin mövcudluğuna görə meydana çıxır. Digər məsələlər, o cümlədən qəza, qədər, ixtiyar və sair məsələlər sahəsindəki ixtilaflar isə sonradan meydana çıxır. Firqələrin bəzisi güclü və bəzisi zəif olur, eləcə də, azsaylı və çoxsaylı olur. Yəhudilərin Babilistandan geri qayıtmasından sonra bir neçə məşhur firqə əmələ gəldi. Daha qədim firqələr barəsində isə əlimizdə yetərincə məlumat yoxdur.

### 13-1. Ferisilər

Ferisi sözünün İbrani dilində mənası "Xəlvət axtaran" deməkdir. Bu ləqəb onların fərqli və daha böyük imtiyaza sahib olmalarına dəlalət edir. Bu firqə eradan əvvəl ikinci əsrdə meydana çıxdı və indiyədək də Yəhudilərin əksəriyyəti bu firqənin davamçılarıdırlar. Bu firqənin əsası "Hesidim" (yəni, pərhizkarlar və təqvalılar firqəsi) firqəsinə qayıdır. Hesidim firqəsi eradan əvvəl 3 və yaxud 4-cü əsrlərdə Yəhudilər arasındakı bütpərəstliyi və çaşqınlığı aradan götürmək üçün yaradıldı. Onlar Məkabilərin müharibələrində iştirak etmişlər və din yolunda canlarından keçərək şəhid olmuşlar. 18-ci əsrdə Şərqi Avropa Yəhudilər arasında bu hərəkatdan ilham alan Hesidim adlı Yəhudi irfan məktəbi meydana çıxdı.

Ferisilərlə Sədduqilər arasında açıq-aydın ixtilaf var idi. Bu firqə Allahı cismdən və bütün cismani sifətlərdə uzaq bilirdi. Eləcə də, in-

sanın iradəsi və ixtiyarı məsələsi sahəsində orta yol seçmişdi, ölülərin yenidən dirilməsi və İlahi ədalət məhkəməsinin olacağını qəbul edirdi, namaz və s. ibadətlərə olduqca böyük əhəmiyyət verirdi. Ferisilər Yəhudi cəmiyyətində güclü mövqe sahibi oldular və onların əksəriyyət bu firqənin davamçısı oldu.

Ferisilər yazılı Tövrat olan Əhdi-Ətiqdən əlavə şifahi Tövrata da inanırdılar. Şifahi Tövrat Yəhudi alimlərinin hikmətli sözləri idi və onların nəzərincə bu sözlər Həzrət Musanın (ə) zamanından nəsildən nəsilə keçərək Yəhudi qövmü üçün qorunub saxlanılmışdır. Bu sözlər 2-ci əsrdən başlayar 5-ci əsrə qədərki zaman kəsiyində Təlmud kitabında bir yerə toplanılmışdır və Bəni-İsrailin düşüncə və etiqadının əsasını təşkil etmişdir.

Ferisilər müxtəlif elm mərkəzləri təşkil edirdilər və vaxtlarını Tövratın mütaliəsinə və müqəddəs kitablarını daha dəqiq anlamalarına sərf etdilər, bu sahədə yeni-yeni nailiyyətlər qazandılar. Onların nəzərincə Tövratda bir hərf belə əskik və yaxud artıq deyildir, eləcə də, məqsədsiz və mənasız olaraq yazılmamışdır. Əksinə hər bir hərfin və sözün daxilində bizə məlum olmayan sirlər və təkrarolunmaz rəmzlər gizlənmişdir.

Yəhudilərin daxili məsələləri onların Babilistandan geri dönmələri ilə Qüds şəhərinin ikinci dəfə dağıdılması arasındakı zaman kəsiyində Ferisi və Sədduqi Haxamlarının əlində idi. Eləcə də, onlar Həzrət İsa (ə) ilə kəskin müxalif idilər və onun çarmıxa çəkilməsi üçün bütün səylərindən istifadə etdilər. Ferisilərin adı dəfələrlə dörd İncildə qeyd olunmuşdur.

Son əsrlərdə Ferisilər ibadət tərzlərinə, eləcə də, bəzi dini və mədəni məsələlərə görə iki dəstəyə bölünüblər: Aşkenazi (Ashkenazi) və Sefardi (Sephardi)[1]. Birinci dəstə (dünya Yəhudilərinin 80 faizini təşkil edir) Avropa, xüsusən Almaniya Yəhudilərinə və ikinci dəstə İspaniyadan qovularaq dünyanın müxtəlif ölkələrinə səpələnmiş İspaniya Yəhudilərinin qalıqlarına şamil edilir.

---

[1] Bu adlar tərtiblə Yaranış 3:10 və Ubedya 20:1-dən götürülmüşdür.

### 13-2. Sədduqilər

Bu firqənin adı Həzrət Davud (ə) tərəfindən kahin təyin edilmiş Saduq ibn Exitubun adından götürülmüşdür (Samuelin ikinci kitabı 8:17 və 15:24). Həzrət Süleymanının (ə) zamanında da Saduq kahinlikdə qaldı (Padşahların birinci kitabı). Hezqiyal peyğəmbər Bəni Saduq kahinlərini tərifləmiş və onların əmanətdar olmasını alqışlamışdır (Hezqiyal 15:44).

Sədduqilər namazın yerinə qurban kəsmək məsələsinə daha çox əhəmiyyət verirlər. Süleyman məbədinin bir çox kahinləri və Senhedrin Haxamları bu firqənin nümayəndələridirlər və onlar ilə Roma hökümdarları arasında da yaxşı əlaqə var idi.

Sədduqilər keçmiş adət-ənənələri qorumağı özlərinə vacib bilirdilər və Ferisilərin öz düşüncələrinə uyğun olaraq təfsir etmələrini qəbul etmirdilər və onların adət-ənənələrilə müxalif idilər. Onlar Allahın cismi olmasını bildirirdilər və Allahın yolunda kəsilmiş qurbanları hər hansı bir şaha verilən hədiyyə və qurbanlarla açıqlamağa, bunula da öz əməllərinin düzgünlüyünü təsdiq etməyə çalışırdılar. Sədduqilər nəfsin əbədiliyinə və qiyamətin baş verəcəyinə inanmırdılar. Onların nəzərincə istər yaxşılığın, istərsə də pisliyin mükafatının bu dünyada veriləcəyini və insanın tam ixtiyara sahib olduğunu bildiridilər.

Sədduqilər də Ferisilər kimi Həzrət İsaya (ə) qarşı çıxdılar və onların adı dörd İncildə dəfələrlə qeyd olunmuşdur. 70-ci ildə Urşəlimin dağılmasından sonra bu firqədən əsər əlamət qalmadı.

### 13-3. Samerilər

Samerilərin adı Həzrət Süleymandan (ə) sonra Fələstinin bölünməsi nəticəsində İsrailin mərkəzi şəhərinə çevrilmiş Samere şəhərindən gəlir. Bu firqə Yəhudilərin Babilistandan geri qayıtmasından sonra əmələ gəldi və bəzilərinin nəzərincə onlar ümumiyyətlə İsrail nəslindən deyillər. Böyük ehtimala görə onlar İsraillilərlə Assuriyalıların qarışığıdırlar.

Bu balaca və məhv olmaqda olan firqə Tövratın beş bölümünü qəbul edir və Əhdi-Ətiqin digər 34 kitabını rədd edir. Eləcə də, onlarda hal-hazırda geniş yayılmış Yuşe kitabından fərqli olan başqa bir Yuşe kitabı da mövcuddur. Onların Tövratı da hal-hazırda geniş yayılmış Tövratdan fərqlidir. Samerilərin İbrani dili də İbrani dilindən azacıq fərqlənir.

Samerilər Nablos şəhərinin yaxınlığında yerləşən Cerezim dağının müqəddəsliyinə inanırlar və həmin dağı öz qiblələri bilirlər. Onların sözlərinə əsasən Həzrət Musanın (ə) da qibləsi bu dağ olmuşdur, amma Həzrət Davud (ə) Süleyman məbədinin yerini (Məscidül Əqsanı) özündən qiblə təyin etmişdir.

### 13-4. İsinilər

"İsini" sözünün kökü böyük ehtimala görə "Şəfa verən" deməkdir. Belə ki, onlar öz ruhlarının şəfası fikrində idilər. Bu sözün başqa cür açıqlaması da vardır və başqa ehtimallar da mövcuddur (Müqəddəs suda qüsl verən).

Adı çəkilən firqə təxminən eradan əvvəl ikinci əsrdə yarandı və Urşəlimin dağıdılmasından sonra Sədduqilər və bir neçə başqa firqələr kimi səhnədən getdi. Bizə gəlib çatan yalnız onların adlarıdır. Amma, 1947-ci ildə Ölü dənizin sahilində yerləşən Fələstin mağaralaqrında Əhdi-Ətiqin yazılı nüsxəsilə birlikdə onların bəzi yazılı kitabələri tapılmışdır. Bununla da, onların etiqadları sahəsində qaranlıq qalmış bir çox məsələlərə aydınlıq gəlmişdir.

İsinilər fərdi malikiyyəti qəbul etmirdilər və evlilik məsələsini də yaxşı qarşılamırdılar. Gündə bir neçə dəfə qüsl alırdılar. Onlar bu məqsədlə böyük hovuzlar da inşa etmişdilər və son arxeoloji qazıntılar zamanı həmən hovuzlar aşkarlanmışdır. Onlar dan yerinin sökülməsilə yuxudan ayılırdılar və ibadətlərini başa vurduqdan sonra günortaya qədər öz işlərilə məşğul olurdular. Sonra işlərini saxlayaraq kollektiv şəkildə nahar və şam yeyirdilər. Şənbə günü təmamilə iş görmürdülər və ibadətlə, Tövratın mütaliəsi və təfəkkürü ilə məşğul

olurdular. Qeyd etmək lazımdır ki, onların qibləsi Süleyman məbədi yox günəş idi və onların bu adəti Mitraistlərdən götürməsi nəzərə çarpır.

Onların təfsir və irfan barədəki məlumat səviyyələri yüksək idi və birinci əsrdə onların təxmini sayı 4000 nəfərə çatırdı. O zamanlar üzv olmaq sahəsində mövcud olan çətinlikləri nəzərə alsaq bu o qədər də az say deyildir.

Bəzi alimlərin nəzərincə bu firqənin düşüncə tərzi Xristyanlığın əsasını qoydu. Hətta bu firqənin bütün davamçılarının Xristiyan olması da mümkündür. Qeyd etmək lazımdır ki, Həzrət Yəhya ibn Zəkəriyya (ə) da İsinilər firqəsindən olmuşdur. Həm İncillərə, həm də İslami hədislərə əsasən O Həzrətin səhralarda keçirdiyi həyat tərzi bunun bariz nümunəsidir.

### 13-5. Qariun yaxud Qaraim

Qariun, yaxud Qaraim həm Ərəb, həm də İbrani dilindəki "Qərəə" feli kökdən əmələ gəlmişdir və Ferisilərin şişirdilmiş təfsirlərinə qarşı çıxaraq səmavi kitabın qiraət və tilavət olunmasına işarədir.

Bu firqə İslam dininin yaranmasından sonra meydana çıxdı. Qariun firqəsinin davamçıları Təlmudu qəbul etmirdilər, Tövratın zahiri mənasına təəssübkeşliklə yanaşırdılar və daim Ferisilərlə üz-üzə gəlirdilər. İlk öncə onların lideri Enan adlı bir Yəhudi ruhanisi idi və o öz məktəbini əhli-sünnənin böyük alimi Əbu Hənifənin baxışları üzərində qurmuşdu. O, bu firqəni Mənsur Dəvaniqinin zamanında Bağdad şəhərində yaratdı. Sonralar Benyamin Nəhavəndi adlı şəxs bu firqəni o dövrün İran torpaqlarında yaymağa başladı, bu məktəbdə dəyişikliklər meydana çıxartdı və Qariun adını Enaniyyə adı ilə dəyişdirdi. Qaraim İbrani dilindədir və tərcümədə qiraət edənlər deməkdir.

Ötən əsrlərdə Qariunların əksəriyyəti müsəlman ölkələrində yaşayırdılar. Hal-hazırda bu firqə davamçılarının sayı 10000 nəfərdir. Onların iki min nəfəri İsraildə və qalan səkkiz min nəfəri Rusiya, Ukrayna və digər ölkələrdə yaşayırlar. Ukraynada yerləşən Krım (Crimea) yarımadasının adı da "Qaraim" sözündən götürülmüşdür.

Onların arasında böyük alimlər olmuşdur və onların Yəhudi ilahiyyatı sahəsindəki nəzərləri tədqiqatçıların geniş rəğbətilə üzləşmişdir. Qariunlarrın Ərəb dilində də kitabları vardır və onlar öz dini bəhslərində Hənəfi məzhəbinin Fiqhi terminlərindən istifadə edirlər.

**13-6. Dunmə**

Dunmə firqəsinin adı İstanbul Türkcəsindəki "Dönmə" sözündən götürülmüşdür. Bəzən onları "Şebbetien" adlandırırlar, yəni firqənin banisi olan Şabbetay Tsevinin (Shabbetai Tsevi) şərəfinə.

Şabbetay Tsevi 1626-cı ildə Türkiyənin Qərbindəki İzmir şəhərində dünyaya gəlmişdir və Yəhudi irfanı və ilahiyyatı barəsində mütaliələr etdikdən, araşdırmalar apardıqdan sonra Yəhudilərin Məsihası olduğu və onlara nicat vermək üçün gəldiyi iddiasını irəli sürmüşdü. Yəhudilər onun müydana çıxmasından öncə çoxlu müsibətlər görmüşdülər və onun Məsiha kimi qəbul edilməsi üçün bütün münbit şərait var idi. Elə bu səbəbdən də, Avropa, Türkiyə və Orta Şərq Yəhudilərinin əksəriyyəti onun dəvətini qəbul etdilər və onun ətrafına çoxlu sayda insan toplaşdı.

O, özünü tanrının ilk övladı adlandırırdı və 1666-cı ildə çevriliş edəcəyini deyirdi. O qiyam vaxtının yaxınlaşmasından öncə Urşəlimə və Qahirəyə səfər etdi. Həmin dövürdə Yəhudilər sevincdən bayram edirdilər və "Yaşasın şahımız Məsih", "Yaşasın sultanımız Tsevi" sözlərini təkrarlayırdılar.

Şabbetay Tsevi 1666-cı ildə Urşəlimə getmək əvəzinə İstanbula getdi və dərhal Osmanlı padşahları tərəfindən həbs olundu. 1666-cı ilin sentyabr ayının 16-da onu Osmanlı padşahının yanına gətirdilər və müsəlman olmasını istədilər. O, İslam dinini qəbul etdikdən sonra adını dəyişdirərək "Muhəmməd Əfəndi" etdi və müsəlman xanımla ailə qurdu.

O, öz davamçılarının əksəriyyətini İslam dinini qəbul etməyə həvəsləndirdi, amma buna baxmayaraq Yəhudilərin əksəriyyəti onun Məsiha olduğunu bildirirdilər. Yəhudilər bu məsələyə aydınlıq gətirərək bildirirdilər ki, onun oxşarlarından biri müsəlman olub və özü isə

Bəni-İsrailin itmiş qəbiləsini tapmaq üçün göylərə qalxmış və tezliklə zühur edəcəkdir. Bu firqənin ən aktiv üzvlərindən biri belə deyirdi: "Musanın Fironun sarayında böyüyüb başa çatdığı kimi Məsihanın da Osmanlı padşahlarının sarayında böyüyüb başa çatması lazım buyurulmuşdur. Yəni, bu yolla o azmış müsəlmanları da düz yola hidayət edə bilər."

Şabbetay Tsevi öz Məsiha obrazını qoruyub saxlaya bildi və beləliklə də, Yəhudilərin arasında İslam dinini yaymaq üçün onlarla təmasda ola bilirdi. Onun yaratdığı firqənin davamçıları müsəlman adət-ənənəsinə uyğun olaraq başlarına əmmamə qoydular, İslam adət-ənənəsinin davamçıları oldular və Bəni-İsrailin xilaskarı olan Şabbetay Tsevinin tezliklə qayıdacağı ümidi ilə yaşadılar.

O, 1676-cı ildə dünyasını dəyişdi. Onun qardaşı və digər yaxın şəxsləri davamçılarını öz ətraflarına toplayaraq bu hərəkatın aradan getməsinə icazə vermədilər. Sonralar bu firqənin davamçıları zahirdə özlərini müsəlman göstərmələrinə baxmayaraq batində Yəhudi adət-ənənəsinə sadiq qaldılar. Hal-hazırda onların bir hissəsi Türkiyədə yaşayır.

## 14. Məsihanın zühuru intizarını çəkərkən

Qədim dövrlərdə yaşayan xalqların hamısı yaşadıqları vəziyyətdən narazı və gələcəklərinin naməlum olması səbəbində keçmişləri ilə öyünürdülər. Belə xalqlar milli və ictimai sevinclərini yalnız bunda bilirdilər. Keçmişlə yaşayan bəzi xalqlar, o cümlədən Yunanlar və Romalıların Hesiod və Ovid qəsidə yazanları öz şanlı keçmişlərini möhtəşəm əsərlərdə böyük məharətlə təsvir etmişlər. Onların hər ikisi dünya üçün beş dövür və beş ardıcıl nəsil nəzərdə tutaraq belə deyirdilər: "İnsanlar Qızıl əsr adlanan dövrdə şad və firavan, qəm, kədərdən uzaq, qətl törətmədən və torpağın onlara bəxş etdiyi nemətlərlə yaşayırdılar. Onların ölümü də yuxusuz yatmağı və qanad çalaraq

dünyanın qoruyucu mələklərinə tərəf qanadlanmağı xatırladırdı. Eləcə də, ən son dövr Dəmir əsri adlandırılırdı. Dəmir əsrində dünya çaxnaşma içərisində idi və bu iki qəsidə yazan həmin dövürdə, yəni dəmir əsrində yaşayırdılar.

Yəhudilər dünyanın kamil varlıq tərəfindən yaradılmasını nəzərə alaraq kamilliyi yaranışın lap yuxarı təbəqəsində yerləşdirirdilər və Allah tərəfindən yaradılan ilk insanın kamil insan olduğunu bildirirdilər. Elə bu səbəbdən də, Yəhudilər fəzilət və xoşbəxtliyi Qızıl əsrdə yox gələcəkdə, *"Sonuncu gündə"* axtarırlar. Müqəddəs kitabdan götürülmüş bu ifadə Yəhudilər arasında geniş yayılmışdı: "Sənin əvvəlin kiçik olsa belə sonun çox əzəmətli olacaq!" (Əyyub 8:7)

Yəhudilər Qüds şəhərinin birinci dəfə dağıdılmasından sonra həmişə ilahi rəhbərin intizarında olmuşlar və onun qüdrət və əzəmətlə *Allahın qövmünü* Davud və Süleymanın (ə) zamanında olan parlaq əsrə aparacaqlarına inanmışlar. İntizarında olduqları şəxs *Maşiyəh* (Məsih, Məsh edilmiş) adlanırdı. Maşiyəh Bəni-İsrailin qədim padşahlarının ləqəbi idi. Çünki, öncə də qeyd etdiyimiz kimi peyğəmbərlər hamının gözü önündə padşahların başına zeytun yağı sürtərək, yəni məhs edərək onları müqəddəsləşdirirdilər. Sonralar bu ad Yəhudilərin intizarında olduqları və onlara nicat verəcək sonuncu padşaha aid edildi. Maşiyəh ifadəsi Təlmudda dəfələrlə qeyd olunmuşdur, amma Əhdi-Ətiqdə yalnız Daniyalın kitabında (9:25-26) rast gələ bilərsiniz.[1]

Məsih (Christ)[2] sözünün Həzrət İsaya (ə) aid edilməsi səbəbindən alimlər Yəhudilərə nicat verəcək şəxs üçün "Məsiha" (Messiah) sözündən istifadə etməyə başladılar. Məsiha barəsinə verilmiş ən böyük müjdə Eşəya peyğəmbər kitabında qeyd olunmuşdur:

---

[1] Klassik tarixçilər Daniyal kitabının eradan əvvəl altıncı əsrdə yazılması iddiasını qəbul etmirlər və bu kitabın qələmə alındığı il eradan əvvəl 165-ci olmasını bildirirlər.

[2] Yunan dilindəki "Christos", yəni yağ sürtülmüş sözü Avropa dillərində bəzi dəyişikliklərə uğrayaraq "Christ" formasına düşmüşdür.

*“Yəssanın (Davudun atası) nəslindən yeni tumurcuq pöhrələyəcək, bu tumurcuqlar (ağaclara çevrilərək) qol-budaq atacaq və kök salacaq və Allahın ruhu onda yerləşəcək. Yəni, onda hikmət və dərrakə ruhu, məşvərət və güc ruhu, ilahi mərifət və Allahdan qorxu ruhu qərar tutacaq. Onun ən xoş anları Allahın qorxusunu gördüyü zaman olacaq, yalnız gözləri ilə gördüyünə görə mühakimə etməyəcək və qulaqları ilə eşitdiyinə əsasən tənbeh etməyəcəkdir. Əksinə miskinlər üzərində ədalətlə hakimlik edəcək və məzlumların haqqını müdafiə üçün bütün lazımi işləri görəcəkdir. Öz əsası ilə dünyanın ağzından vuracaq və pis insanları dodaqlarının arasından çıxan üfürməsi ilə öldürəcəkdir. Belinə bağladığı qurşağı ədalət və əmanət olacaqdır. Qurdla quzu bir yerdə yaşayacaq, bəbirlə keçi bir yerdə yatacaq və şir ilə dana bir yerdə oynayacaq və balaca uşaq belə onları qova biləcək. İnək ayı ilə otlayacaq, onların balaları bir yerdə yatacaq və şir inək kimi saman yeyəcək və südəmər uşaq ilan yuvası ilə oynayacaq. Süddən təzə kəsilmiş uşaq əlini rahat şəkildə əfi ilanın yuvasına qoyacaq.*[1] *Mənim müqəddəsdağımın hər yerində zərər, ziyan və fəsad işlər etməyəcəklər. Çünki, dünya İlahi mərifətlə dolacaq, dənizin hər yerini örtən su kimi.* (Eşeya 11:1-9)

Bəni-İsarilin hamısının qəlbi Məsihaya olan sevgi ilə dolu idi, amma onlardan fərqli olaraq zalım hökümdarlar belə nicat verici rəhbərlər üçün tələlər quraraq pusquda oturmuşlar. Matta İncilinin ikinci fəslində oxuyuruq ki, Fələstinin hökümdarı olan Böyük Hirodis Həzrət İsanın (ə) dünyaya gəlməsindən sonra onu qətlə yetirmək qərarına gəlir. Amma, İlahi əmrə əsasən onu Misirə apardıqları üçün bu hadisə baş tutmadı.

Yəhudilər məsihanın amallarını genişləndirərək ona digər məsələləri də əlavə etdilər və Məsihanın dövründə təbiətin daha da bərə-

---

[1] Bəzi insanlar bu sözləri birbaşa olaraq qəbul edirlər və Məsihanın zühur edəcəyi dövürdə ədalətin hər tərəfdə bərqərar olacağı üçün sadaladığımız bu hadisələrin hamısı baş verəcəkdir. Bəziləri isə bunları məcazi olaraq qəbul edərək bunların həmin dövürdə ədalətin nə dərəcədə güclü olacağına işarə kimi qəbul edirlər. Bəziləri isə canavar, quzu və digər heyvanları yaxşı və pis insanlara işarə kimi qəbul edirlər. Qeyd etdiyimiz bu üç nəzər müxtəlif dinlərdən götürülmüşdür.

kətli olacağı iddiasını irəli sürdülər. Onlar Həzrət Davud və Süleymanın (ə) parlaq hakimiyyət dövründə olmayan bəzi şeylərin belə Məsihanın zamanında olacağını bildirdilər. Məsələn; onların iddialarına əsasən Məsihanın zühur edəcəyi zamanda günəş, ay, külək, bulud və fələk Bəni-İsrailin xeyrinə hərəkət edəcək, yerdən bişmiş çörəklər və hazır tikilmiş paltarlar çıxacaq. Bu utopik amallar bir çox kitablarda qeyd olunmuşdur və bununla da "Apokaliptik ədəbiyyat" meydana çıxmışdır. Əhdi-Ətiqdə olan Daniyalın kitabında (bir çox alimlərin nəzərincə Daniyalın kitabı eradan əvvəl 165-ci ildə qələmə alınmışdır) belə nümunələr gözə çarpır. Bir çox alimlər və tədqiqatçılar bu düşüncənin zərdüştlükdən mənşə aldığını bildirirlər. Onların nəzərincə Zərdüştlərin bu sahədə olan düşüncə tərzi Yəhudiliyə təsir etmiş və Maşiyəhin qiyam edəcəyinə inamın əsasını qoymuşdur.[1]

### 14-1. Məsiha iddiasında olanlar

Yəhudilərin və xristyanların enişli-yoxuşlu tarixində sonuncu xilaskarın intizarı məsələsi özünəməxsus yerə malik olmuşdur. Yəhudilər möhnət və çətinliklərlə dolu tarixləri boyu bu qədər məşəqqətlərə dözmələrinin yeganə səbəbi Məsihanın gəlməsi və onları zillət, dərd, əzabdan qurtarması və onların dünyanın hökümdarına çevirəcəkləri ümidi olmuşdur. Lap qədim dövürlərdən indiyədək yüzlərlə adam xilaskar olmalarını iddia etmişlər, bir müddət sadə Bəni-İsraillilləri arxalarınca apararaq bu qövmün başına müxtəlif bəlalar açmışlar. Məsələn, eranın başladığı vaxtdan bir neçə əsr sonra "Kert" adasında Musa adlı bir İlahi aşiq meydana çıxdı və özünü Məsiha adlandırmağa başladı. Musa o zamanın ən mühim Yəhudi mərkəzlərindən olan Kert adasının bütün icmalarını özünə cəzb etdi.O, dedi: "Bir gün sizi Aralıq dənizindən keçirərək Fələstinə aparmaq və orada Məsiha dövlətini qurmaq istəyirəm." Yəhudilər bütün işlərini və gündəlik həyatlarını başlı-başına buraxaraq bulanlıq ümid arxasınca getdilər. On-

[1] Yəhudi dininin minillikləri fəslində aşağıdakı mənbələrə müraciət edə bilərsiniz: CulyusQrinstoun, "Yəhdilikdə Məsihanın intizarı".

lar yeni Musanın dənizi qurutmaqla və möcüzənin köməkliyi ilə onları vədə verilmiş torpaqlara aparmaq üçün liderlik etməyə hazır olduğuna inandılar. Bəni-İsrail onun xilaskar və qüdrət sahibi olmasına elə dərəcədə inannırdılar ki, bütün var-dövlətlərini ona təqdim etdilər və hamı, istər kişi, istərsə də qadın onun ardınca dənizə tərəf yola düşdülər. O, dənizə tərəf dayanmış böyük bir daşın üzərinə çıxaraq arxasınca gələn insanları dənizin quruyacağına inandıraraq onlara suya tullanmalarını əmr etdi. Bu hadisənin nəticəsini təsəvvür etmək o qədər də çətin deyil. Bir dəstə insan suda boğuldu və bir qismini də dənizçilər sudan çıxartdılar.

Sonrakı əsrlərdə də yalançı Məsihalar Yəhudi xalqı üçün böyük problemlər yaratdılar və bəzən də bizim dövrümüzə qədər gəlib çatmış bəzi firqələr yaratdılar. Məsələn; Şabatay Sevi ən məşhur yalançı Məsiha Türkiyədə "Dönmə" firqəsini yaratdı və bu firqə bizim dövrümüzə qədər gəlib çatmışdır.

Bu arada Həzrət İsa ibn Məryəm (ə) zühur etdi və böyük şəxsiyyətə, ilahi ruhiyyəyə malik olduğu üçün böyük bir dinin təməlini qoydu. Qeyd etmək lazımdır ki, Yəhudilərin əksəriyyəti onu qəbul etmirdilər.

### 14-2. Məsihanın intizarı məsələsinin hal-hazırki vəziyyəti

Bizim dövrümüzdə də Yəhudilərin bir qismi ayağa qalxaraq Fələstini işğal etməklə Yəhudi qövmünün tarix boyu yaşadığı zəlaləti aradan qaldırmaq niyyətindədirlər. Onların qəlblərindəki son xilaskara olan ümid məsələsi zəifləməmişdir və onlar Məsihanın gəlməsi üçün günləri sayırlar. Təxminən yüz il öncə Yəhudi mütəfəkkirləri dedilər: "Bizim qövmümüz tarix boyu Məsihanın gəlməsi ümidilə yaşamışlar, amma ondan xəbər çıxmamışdır. Artıq bu intizarın sonu çatmışdır və səbr kasamız dolub daşmışdır. Artıq bu vəziyyəti yaxşılaşdırmaq üçün özümüz ayağa qalxmalıyıq." Onlar Sionizm məktəbini yaradaraq Fələstini işğal etmək qərarına gəldilər. Yəhudilərin böyük əksəriyyəti bunun düzgün iş olmamasını vurğulayırdılar, çünki dini inanclara əsasən yalnız Məsiha özü bu işlə məşğul ola bilər. Sio-

nistlər dedilər ki, Məsihanın qiyamı üçün Fələstin torpaqlarında mərkəz hazırlamalıyıq. Əsrlər boyu öz xəyallarında Məsihanın gələcəyi günü yaşadan qövmü belə bir işə razı salmaq çətin idi. Amma, onlar səbrlə bu məsələ sahəsində geniş təbliğat aparmağa başladılar, Fələstinin işğal edilmiş ərazilərinə köçkün Yəhudiləri aparmaqla İsrail hökumətini yaratdılar. Qeyd etmək lazımdır ki, hal-hazırda da Yəhudilərin olduqca az qismi Sionist hökumətin yaranmasının Məsiha amalı ilə uyğun gəlməməsini vurğulayırlar və onlara qarşı çıxaraq intizar ənənəsinin davam etdirilməsinə təkid edirlər.

Bir məsələni qeyd etməkliyik ki, hal-hazırda sionistlərin ən ifratçı dəstəsi olan "Quşemunem" və ən ifratçı anti-sionist qruplaşmalar olan "Netvari Karta" eyni dərəcəd Məsihanın zühur edəcəkləri günün intizarındadırlar.

**Mənbə**


1. Müqəddəs kitabların təfsirli tərcüməsi, İngiltərə, 1995
2. Hikmət, Əli Əsğər, "Dinlər tarixi", Tehran 1966
3. Ramyar, Mahmud, "İsrail və xristyan peyğəmbərliyinin bir hissəsi", Tehran
4. Zərrinkub, Əbdülhüseyn, "Vicdan barəsində", Tehran 1996
5. Müqəddəs kitab, London, 1904
6. Kohen.A, "Təlmuddan bir xəzinə", Tehran 1971
7. Qrinstoun. Culyos, "Yəhdilikdə mövcud olan Məsihanın intizarı məfhumu", tərcüməçi: Hüseyn Tofiqi, Qum 1998
8. Mustəfəvi, Əli Əsğər, "Qurbanlıq əfsanəsi", Tehran 1990
9. Nas. Con.B, "Dinlərin ümumi tarixi", tərcüməçi: Əli əsğər Hikmət, Tehran 1991
10. Haks Amerikalı, "Müqəddəs kitabın lüğəti", tehran 1998
11. Hyum. Robert. A, "Dünyanın diri dinləri", tərcüməçi: Əbdürrəhim Qovahi, Tehran 1994
12. Arberry, A.J.(ed), "Religion in the Middle East",Cambridge, 1969
13. Epstein, I. (tr), "The Babylonian Talmud", London
14. Epstein, I. "Judaism: A Historical Representation", England 1974
15. Peters, F.F, "Judaism, Christianity and Islam", New Jersey 1990

# 9. Xristyanlıq

## 1. Həzrət İsanın (ə) zühuru dövrü

Həzrət İsa Məsih (ə) Romalılar tərəfindən yenicə zəbt olunmuş torpaqlarda, yəni Romalıların ən gec işğal etdikləri Fələstin torpaqlarında dünyaya gəlmişdir. Həmin dövrdə Yəhudilər olduqca arzuolunmaz bir şəkildə yadellilərin hücumları və istilası altında yaşayırdılar. Roma imperiyasının onlara göstərdikləri təzyiqləri olduqca kəskin idi. Fələstinin müxtəlif bölgələrində heç bir nəticə verməyən qiyamlar və hərəkatlar baş qaldırdı. Həzrət İsanın (ə) hərəkatı da ilk illərində mərkəzi hökumət tərəfindən əzildi, amma O Həzrətin şagirdləri dəmir iradə və qorxmazlıq nümayiş etdirərək bu dinin yayılması yolunda böyük səy göstərdilər. Bu hərəkatdan öncə olan digər hərəkatların pərakəndə qüvvələri bu dinin içərisində əridilər.

## 2. Həzrət İsanın (ə) zühuru barəsində verilmiş xəbərlər

Kitabın başlanğıcında qeyd etdiyimiz kimi dünyada bir neçə din qrupu vardır: İbrahimi dinlər, Hind və Çin dinləri və s. Yəhudilik, Xristyanlıq və İslam İbrahimi dinlərin ən tanınmışıdır. Digər dinlər

də zühur olmalarının onların meydana çıxmalarından öncə xəbər verilməsini iddia etmişlər. Xristiyanlar da lap qədim zamanlardan Həzrət İsanın (ə) zühur etməsi barəsindəki xəbərin öncədən verilməsini Yəhudilərin müqəddəs kitabı sayılan Əhdi-Ətiqdə tapmağa çalışmışlar. Əhdi-Ətiqin heç bir yerində İsa ibn Məryəmin adının qeyd olunmamasına görə Xristyanlar öz məqsədlərinə çatmaq üçün bəzi dəyişikliklər aparmışlar və başqalarına aid olan öncədən verilən xəbərləri O Həzrətə aid etməyə çalışmışlar. Bu metod Matta İncilində çox gözə çarpır və bəzi iddialara əsasən Matta bu incili Yəhudiləri dəvət üçün yazmışdır.

Xristianlar bu qeybi xəbərlərin əksəriyyətini Həzrəti İsanın (ə) çarmıxa çəkilməsi ilə əlaqələndirməyə çalışırlar və onların bu iddiası Qurani-Kərim tərəfində səhv məlumat kimi dəyərləndirilmiş və təkzib edilmişdir.

*“(Onların lənətə düçar olmalarının bir səbəbi də:) ”Biz, Allahın elçisi Məryəm oğlu İsa əl-Məsihi öldürdük”, - deməlləridir. Halbuki onlar İsanı nə öldürdülər, nə də çarmıxa çəkdilər. Onlarda yalnız belə bir təsəvvür yarandı. Bu haqlı ixtilafda olanlar onun (şəxsən öldürülməsi) barəsində, albəttə, şəkk-şübhə içərisindədirlər. Onların buna dair heç bir məlumatı yoxdur. Onlar ancaq zənnə qapılırlar. Həqiqətdə onu (İsanı) öldürməmişdilər”* (Nisa surəsi, 157)

## 3. Tarixdə mövcud olan İsa barəsində araşdırma

İlahi dinlərə baş əyənlər öz dini etiqadlarına əsasən Allah elçilərinin tarixdə mövcud olmasına tam yəqinliklə inanırlar. Amma, dini etiqadı olmayan bəzi alimlərin problemlərindən biri də peyğəmbərlərin tarixdə mövcud olması barədədir. Artıq iki yüz ildir ki, alimlər Həzrət İsanın (ə) tarixdə mövcud olub olmaması barəsində mübahisələr aparırlar və bu məsələyə tərəddüdlə yanaşırlar: “Doğurdanmı İsa mövcud olub? Xristiyanlığın banisinin həyatı insanların üzləşdikləri qəm-qüs-

sədən əmələ gələn utopik düşüncələr, arzular və ümidlərdimi? Onun hekayəsi müşriklərin Tanrılarının əfsanələrinə bənzəyirmi?”

18-ci əsrdə İsanın (ə) məsələsinin və hekayəsinin əfsanə olması barədə bəhs olunurdu. Həmin əsrdə növbəti dəfə İsanın həyatını tənqid atəşinə tutan 1727-1768-ci illərdə Hamburq Universitetinin şərq dilləri üzrə müəllimi, Professor Herman Samuel Raymaros olmuşdur. Hətta 18-ci əsrdə belə artıq sübuta yetirilmiş sayılan və cəmiyyətdə tam təsdiqlənmiş inanclarla qarşı çıxmaq olduqca qorxulu idi və Raymaros həyatda olarkən öz yazılarını çap etdirməyə cəsarət tapmadığından onun yazılarını Lesinq adlı bir şəxs onun vəfatından sonra çap etdirdi.

Raymaros onunla eyni zamanda yaşayan filosofların Deisti baxışlarını qəbul edərək möcüzələrin mövcudluğunu qəti şəkildə rədd etmişdir. O, müqəddəs kitabı azad şəkildə tənqid edərək İsanı Məsihalıq iddiası ilə çıxış edən, bəzi vədlər verməklə ətrafına bir qrup insan toplayan bir şəxs kimi qələmə vermiş və ölkənin güc strukturları ilə üzləşərkən qətlə yetirildiyini bildirmişdir. İsanın davamçıları öz arzularına çatmaq üçün onun cənazəsini oğurlamışlar, onun yenidən dirilərək geriyə qayıtmaq hekayəsini qurmuşlar və kilsə yaratmışlar. Raymarosun öz baxışlarından əldə etdiyi nəticə böyük qəzəb dalğasının yaranmasına səbəb oldu və Lesinq üçün böyük problemlər yarandı. Bu nailiyyətlər bir sıra araşdırmalardan sonra tamamlanmamış halda təsdiq edildi və cəmiyyətdə olan qəzəbin yatmasından sonra yaddan çıxdı.

Raymarosdan sonra möcüzələrin faydası məsələlərini irəli sürən və xristiyanlığın köklərini araşdıran bir neçə yazıçı meydana çıxdı, amma onlar düşüncə nöqteyi-nəzərindən Raymarosdan fərqlənirdilər. Bu yazıçıların əksəriyyəti universitetlərdə və digər dövlət idarələrində çalışırdılar. Onlar artıq cəmiyyətdə təsdiq olunmuş dinə qarşı hər bir fundamental addımı onların düşüncələri ilə üst-üstə düşmədiyini bildirirdilər. Onların nəzərincə İncil kitablarındakı möcüzəli ünsürləri kənara qoysaq yalnız İsanın həyatı barədə mötəbər mənbə qazanmış oluruq. Belə olduqda İsanı müasir dünya üçün ən böyük əxlaq müəl-

limi kimi qəbul edə bilərik. Belə tənqidçiləri Rationalistlər adlandırırdılar, yəni İncildəki hekayələri məntiq və ağıl yolu ilə çözmək istəyənlər. Bundan sonra qeyd etdiyimiz termin daha geniş və dərin mənada istifadə edilməyə başladı.

Volney adlı bir alim 1790-cı ildə qələmə aldığı "İmperatorluğun xarabalıqları" adlı əsərində bu şübhəni daha qabarıq formada gündəmə çıxarmışdı. Napoleon 1808-ci ildə Almaniyanın tanınmış yazıçısı Veylandla (Wieland) görüşəndə ondan siyasət və müharibə barəsində heç nə soruşmadı, əksinə İsanın tarixdə doğurdan mövcud olub olmamasını soruşdu.[1]

## 4. Həzrət İsanın (ə) həyatı

Matta və Luka İncillərinə əsasən xristiyanlığın əsasını qoyan Həzrət İsa (ə) Beyt Ləhmdə dünyaya göz açmışdır. Bu şəhər Urşəlimin səkkiz kilometrliyində yerləşir və təxminən eradan min il əvvəl Davud şah həmin şəhərdə dünyaya gəlmiş və böyüyüb başa çatmışdır. Yəhudilərin xilaskarının Beyt Ləhmdə dünyaya gəlməsi və Davuda bənzəməsi məsələsinin vacibliyinə görə bu iki müəllif Həzrət İsanın (ə) həmin şəhərdə dünyaya gəlməsi məsələsi üzərində təkid göstərmişlər.

Həzrət İsanın (ə) doğum tarixi təxminən Miladi tarixinin başladığı ilə təsadüf edir. Amma, tarixi hesablamalara əsasən O Həzrətin İncillərdə adı çəkilmiş şahlarla eyni vaxtda dünyaya gəlməsini nəzərə alsaq Həzrət İsanın (ə) Miladi tarixin başlamasında 4 ya 8 il öncə dünyaya gəlməsini müşahidə edə bilərik. İncillərdə qeyd olunduğu kimi, anası Məryəm Nasirə şəhərindən olan Yusif adlı bir dülgərlə nişanlanmışdı. İsanın dünyaya gəlməsi hekayəsi həm Matta, həm də Luka incillərinin başlanğıcında qeyd olunmuşdur. Mark və Yühənna O Həzrətin doğum hekayəsini qeyd etməmişlər, Beyt Ləhmdən söz açma-

[1] Sivilizasiya tarixi, cild 3, fəsl 26, Bu məsələ barəsində daha geniş məlumat əldə etmək üçün Arçibald Robertsonun "İsa:əfsanə yaxud tarix?" kitabına müraciət edə bilərsiniz.

mışlar və yalnız Nasirəyə işarə etmişlər. (Mark 9:1, Yühənna 1:45-46, Yühənna 7:41-42). Matta İncilində belə qeyd olunmuşdur:

*"İsa Məsihin doğum hekayəsi belədir: Onun anası Məryəm Yusiflə nişanlanmışdı. Onlar yaxınlıq etməmişdən öncə Məryəm Müqəddəs Ruhdan hamilə qaldı. Həyat yoldaşı Yusif saleh bəndələrdən olduğu üçün ona öyüd-nəsihət vermək istəmədən gizlicə onu buraxıb getmək istədi. Amma, o bu barədə düşündüyü zaman birdən Allahın mələklərindən biri onun yuxusuna gəldi və dedi: "Ey Davudun oğlu Yusif, Məryəmi həyat yoldaşın etməkdən qorxub çəkinmə, çünki, onun daxilində olan Müqəddəs Ruhdandır. O bir oğlan dünyaya gətirəcək və onun adını İsa qoyacaqsan. Çünki, O öz ümmətini günahlardan uzaqlaşdıracaq." Bütün bunlar Allahın peyğəmbərin dili ilə dediyi kəlamın tamamlanması və bakirə qızın hamilə qalaraq oğlan dünyaya gətirməsi və adını "Emmanuel" qoyması üçün baş vermişdir. Təfsirdə bu ad "Allah bizimlə" deməkdir. Yusif yuxudan oyanan kimi Allahın mələyi buyurduğu kimi lazım olanı həyata keçirtdi və Məryəmi özünə həyat yoldaşı etdi. Birinci oğlu olmayana qədər onu tanımadı (yaxınlıq etmədi). Onun adını İsa qoydu."* (İncil Mattaya görə, 1: 18-25)

İsa Məsih (ə) üçün Matta incilinin başlanğıcında və Luka İncilinin üçüncü fəslində nəsəbnamə (nəslin sıralaması) qeyd olunmuşdur. Bu iki fərqli nəsəbnaməni açıqlamaq İncil təfsirçiləri üçün ən böyük problemlərdən biridir.

Dünyaya gəlməsindən sonra onun adını Yeşvə, yəni "Allahın xilası" qoydular. Yunanlılar və Romalılar bunu Yesus formasına dəyişdirdilər və Ərəb dilində bu ad İsa formasında istifadə olundu.

Bunu da qeyd etmək lazımdır ki, Həzrət İsanın (ə) atasının olmaması Xristiyanlıqda ən böyük etiqadi məsələlərdən biridir və yalnız İncillərdə qeyd olunduğu kimi O Həzrətin "Dülgər Yusif" adlı atası olmuşdur. Amma Qurani-Kərimdə bu tarixi bir məsələ kimi qeyd olunmuşdur və insanların Həzrət Məryəmə (ə) qarşı hücum çəkərək onu ismətsizlikdə günahlandırmaları öz əksini tapmışdır. Elə bu səbəbdən də, O "sükut orucu"[1] tutur və onun dünyaya yenicə gəlmiş

[1] Xristiyanlıqda müstəhəbbi sükut orucu, yəni danışmamaq orucu vardır.

körpəsi danışmağa başlayır və anasına verilən ittihamları puça çıxardır. (Məryəm surəsi, 26-33)[1]

İncillərdə Həzrət İsanın (ə) həddi buluğa çatdığı illər və gənclik yaşları barəsində az məlumat mövcuddur. Yalnız bir yerdə O Həzrətin 12 yaşı olanda Həzrət Məryəm və Yusiflə Nasirədən ziyarət üçün Urşəlimə getməsi, onlardan ayrılaraq Süleyman məbədinin alimləri ilə elmi müzakirələrə qoşulması və təxminən otuz yaşında qüsl almaq üçün Həzrət Yəhyanın (ə) yanına getməsi hadisələri qeyd olunmuşdur.

İncillərdə "İsanın qardaş və bacılarından" söz açılmışdır. Katolik və Ortodoks Xristyanların nəzərincə Məryəm ömrünün sonunadək bakirə qaldı və bu səbəbdən də Həzrət İsanın (ə) sözün əsil mənasında qardaş və bacılarının olması mümkünsüzdür. Bu səbəbdən, İncildəki həmin kəlamın mənasını təfsir etmək və açıqlamaq lazımdır: İsanın bakirə Məryəmdən dünyaya gəlməsindən sonra Məryəm və Yusif öz birgə həyatlarını yaşamağa başladılar və onların övladları dünyaya gəldi. Matta İncildən qeyd etdiyimiz hissənin sonunda bu iddia təsdiq olunur.

## 5. Qüsl verən Yəhya

Həzrət İsa Məsihin meydana çıxmasından bir müddət öncə Bəni İsrailin gənc və sevilən peyğəmbərlərindən olan Həzrət Yəhya ibn Zəkəriyya (ə) qiyam edərək insanlara moizələr oxumağa başladı. O Həzrət insanlara belə buyururdu: "Tövbə edin, çünki səmavi mələkut artıq yaxındır" (Matta 3:2, Mark 1:4 və Luka 3:3)

Bəni-İsrail nəzərindən Səmavi mələkut onların özləri üçün canlandırdığı utopik İlahi dövlət mənasını kəsb edir. Elə bu səbəbdən də, (İncillərin müxtəlif yerlərində qeyd olunduğu kimi Həzrət Yəhya (ə) dəvət məsələlərində böyük nailiyyətlər əldə etmişdi və insanlara böyük təsir göstərə bilmişdi. Belə ki, cəmiyyətin bütün təbəqələrindən

[1] Həzrət Məryəmin (ə) ittiham edilməsi və bu ittihamın aradan götürülməsi məsələsi Xristiyanlıqda mövcud deyildir.

olan insanlar dəstə-dəstə onun yanına gəlirdilər, tövbə edirdilər və O Həzrət onlara qüsl verirdi.

Tədricən Həzrət Yəhya ilə (ə) Celil vilayətinin zülmkar və qəddar padşahı olan Hirodis Titrarx arasında qarşıdurma yarandı və bir müddətdən sonra Hirodisin əmri ilə O Həzrətin boynunu zindanda olarkən vurdular. (Matta 14:1-12, Mark 6:14-29, və Luka 9:7-9)

## 6. Həzrət İsanın (ə) qiyamı

İncillərdə qeyd olunduğu kimi Həzrət İsa (ə) təxminən otuz yaşında olarkən peyğəmbərliyə çatdı. (luka 3:23). Həzrət İsa (ə) Həzrət Yəhyanın (ə) həbs olunması xəbərini eşitdikdən sonra Celil əyalətində yerləşən Nasirə şəhərini tərk etdi və Kefernahum şəhərinə gəldi.

İsa Celilin hər tərəfini dolandı, Kenaysda təlimə başladı, səmavi mələkutun yaxınlaşması barədə moizələr etdi, qövmündə olan bütün xəstəlikləri müalicə etdi. O, Suriyada şöhrət tapdı, müxtəlif xəstəliklərə düçar olan insanları, dəliləri, iflicləri onun yanına gətirirdilər və O Həzrət onlara şəfa verirdi. Celildən, Dikapolisdən, Urşəlimdən, Yəhudiyyədən və İordaniyanın o biri tərəfindən insanlar onun arxasınca yola düşdülər. (Matta 4:23-25, Mark 1:14-15, Luka 4:14-15)

Həzrət İsa (ə) da Həzrət Yəhya (ə) kimi səmavi mələkutun yaxınlaşdığı barədə xəbər verdiyi zamanlar insanlarla heç bir problem yaşamırdı və camaat onu böyük sevgi ilə dəstə-dəstə qəbul edirdilər və iman gətirirdilər. O Həzrətə iman gətirən insanların əksəriyyəti onun tezliklə "İlahi Utopiya" yaradacağına və özünün də həmin şəhərin padşahı olacağına inanırdılar. Heç kim, hətta O Həzrətin ən yaxın şagirdi Petros belə Allahın Məsihinin məğlub olacağını təsəvvür belə etmirdi. (Matta 21:16, Mark 32:8)

Yəhudi dininin liderləri Həzrət İsanın (ə) onların "Xilaskar Məsih" qiyamının öhdəsindən gəlməməsini və onların arzularını həyata keçirə bilməməsini, eləcə də, onların əxlaqi çatışmazlıqlarına və davranışlarına qarşı çıxdığını müşahidə etdikdən sonra onunla müxalifət etməyə başladılar.

Həqiqət bu idi ki, Həzrət İsa (ə) Bəni-İsrailin intizarında olduğu İlahi dövləti yaratmağa nail olmadı. Buna görə də O Həzrətin silahdaşları belə bir iddia irəli sürdülər ki, (birinci) O, bəşəriyyətin günahlarının qurbanı olmaq üçün gəlmişdi və (ikinci) O, sonuncu hakimlik üçün yenidən qayıdacaq. Bu iki məsələ Xristyanlığı əsası oldu. Digər tərəfdən isə Yəhudilər belə bir iddai ilə çıxış etməyə başladılar ki, Bəni-İsrailin utopik dövlətinin Həzrət İsa (ə) tərəfindən yaradılmaması və sonda çarmıxa çəkilməsi onun xilaskar Məsih yox tarixdə saysız-hesabsız olan saxta Məsihlərdən biri olduğunu sübuta yetirir.

Həzrət İsa (ə) mütəmadi olaraq Həzrət Yəhyaya (ə) təriflər yağdırırdı və müxalifləri ilə söhbətdə o peyğəmbərin gözəl əxlaqına və şöhrətinə istinad edərək onun adından bəhrələnirdi. (Matta 21:23-27, Mark 11:27-33, Luka 20:1-8)

Həzrət İsa (ə) Həzrət Yəhyanın (ə) işini davam etdirdi və İlahi dövlətin qurulacağı müjdəsini verməyə başladı. O Həzrət möminlərin və şagirdlərin təlimini və liderliyini öhdəsinə götürdü, həmin ətrafda olan sinoqoqlarda moizələr oxumağa başladı. Luka yazır: "Celil əyalətinə qayıtdı və sinoqoqlarda moizələr oxumağa başladı:

*"Allahın ruhu məndədir. Çünki, məni yoxsullara müjdə vermək üçün məsh etdi və qəlbi qırıq insanlara şəfa vermək, əsirləri azad etmək, korları bəsirət qazanmaları üçün moizə etmək və əzilməkdə olan insanları azadlığa çıxarmaq üçün məni göndərdi."* (Luka 4:18)

## 7. Həzrət İsanın (ə) fəaliyyətinin sonu

İncillərin hər dördündə Həzrət İsanın (ə) həyatı və sözlərindən bir hissəsi qeyd olunmuşdur, amma onların əksəriyyəti O Həzrətin peyğəmbərlik fəaliyyətlərinə aiddir. Belə ki, O Həzrətin çarmıxa çəkilməsi hadisəsi hər dörd İncilin sonunda qeyd olunmuşdur. İncillərdən əldə etdiyimiz məlumata əsasən O Həzrət İlahi eşqlə dolu bir zahid idi və o zamankı Fələstinin çürümüş və pozğun cəmiyyətini düzgün yola hidayət etmək üçün geniş fəaliyyət planı hazırlamışdı. Həzrət İsa (ə) bu işlərini həyata keçirmək üçün bütün səylərini səfərbər

etdi və çox çalışdı, amma O Həzrətin əldə etdiyi uğurlar olduqca az idi. Amma, bir neçə şagirdi ilə kilsənin, yəni xristiyan icmasının əsasını qoyduğu üçün ondan sonra, yəni onun şəhadətindən uzun illər keçdikdən sonra onun adı ilə bağlı olan din yavaş-yavaş meydana çıxaraq güclənməyə başladı.

Yəhudi dininin liderləri Həzrət İsanın (ə) təlimlərinin onların mənafelərinə zidd olduğunu görəndə onu qətlə yetirmək üçün məkrli plan hazırladılar. O Həzrət həyatının sonuncu gecəsində öz şagirdlərilə sonuncu dəfə İlahi Şam süfrəsinin təamlarından yedi. Sonra onun on iki seçilmiş şagirdindən biri olan Yəhuda İsxaryuta Yəhudi kahinlərindən aldığı pulun müqabilində O Həzrətə xəyanət etdi və onu Yəhudi kahinlərinin göndərdiyi dövlət məmurlarına təslim etdi.[1] Yəhudilərin kimisə edam etməyə hüququ çatmaması səbəbindən onu Urşəlimin Romalı başçılarına təslim etdilər. İncillərdə qeyd olunduğu kimi Romalı hökümdar Pilatos onu cəzalandırmaqdan boyun qaçırdı və onun hər hansı bir cinayət işləmədiyini söylədi. Amma, Yəhudilər onun edam olunmasına təkid etdilər və Həzrət İsanın (ə) edam olunmayacağı təqdirdə qiyam edəcəklərini bildirdilər.

*Pilatos onlara dedi: "Məsih adı ilə tanınan İsa ilə mən necə davranım?" Birlikdə dedilər: "Çarmıxa çəkilsin!" Hökümdar dedi: "Niyə? Nə pislik edib?" Onlar daha ucadan fəryad çəkərək dedilər: "Çarmıxa çəkilsin!" Pilatos bu sözlərin təsirsiz olduğunu və çaxnaşma yaradacağını görəndə su istədi və insanların gözü qarşısında əllərini yuyaraq dedi: "Bu ədalətli şəxsin qanı mənim boynuma deyil. Özünüz bilin!" Qövmün bütün üzvləri dedilər: "Onun qanı bizim və bizim övladlarımızın üzərindədir." (Matta 27:22-25)*

İncillərdə qeyd olunduğu kimi Həzrət İsa (ə) çarmıxa çəkildi, çarmıxda öldü və onu dəfn etdilər. Üç gündən sonra[2] yenidən dirildi. O qırx gün ərzində bəzən öz şagirdlərinin gözünə görsəndi və sonra

---

[1] O Həzrəti İsanın kim olduğunu göstərmək üçün onu öpdü və "Yəhuda öpüşü" (Judas kiss) termini Xristyanlıqda belə xəyanətlərə şamil olunur.

[2] İncillərdə qeyd olunduğu kimi O Həzrət özü də belə demişdi ki, üç gün və üç gecə yerin qarnında qalacaq. (Matta 12:40). Amma yenə də İncillərdə qeyd olunduğu kimi O Həzrəti cümə günü gün batandan sonra torpağa tapşırdılar və bazar günü gün çıxanda artıq onun qəbirdə olmadığını gördülər.

göylərə qalxdı. Xristyanların nəzərincə bu hadisə 33-cü ildə baş vermişdir.

Düzdür, Həzrət İsa (ə) insanların arasından getdi. Onun dostlarından və silahdaşlarından bəziləri dedi: "Onun dünyadan köçməsi və torpağa tapşırılması düzdür, amma üçüncü gün qəbirdən qalxdı, göylərə ucaldı və yer üzərində yenidən hakimlik etmək üçün qayıdacaq". Eləcə də, bu sözləri də dedilər: "Həzrət İsa (ə) insanların günahlarına qurban gedərək qətlə yetirildi." Belə bir iddia da irəli sürdülər ki, Əhdi-Ətiqdə qeyd olunan peyğəmbərlər onun əzablara düçar olaraq çarmıxa çəkiləcəyini öncədən xəbər vermişdilər. Məsih sözü də öz əsil mənasını itirdi, çünki heç kim Həzrət İsanın (ə) başına şahlıq məhsi çəkməmişdir. Həvarilər onun Allah tərəfindən məhs olunduğunu bildirdilər. (Həvarilərin işləri 4:27)

Xristyanlar İsa Məsihin (ə) şəhid olduğunu qəbul etmirlər, əksinə onun insanların günahlarının qurbanına çevrildiyini iddia edirlər. Tarixdən məlum olduğu kimi bu inanac Xristyanlığın əsasıdır və onlar öz təbliğat işlərində bu məsələ üzərində çox dayanırlar.

Həzrət İsanın (əs) çarmıxa çəkilməsindən əlli gün sonra Gültökmə bayramı (Əlligünlük, Pentikast bayramı) çatdı. Həmin gün müqəddəs ruh Həvarilərin yanına gəldi və onlardan sonra əsrlər boyu Həzrət İsanın (ə) risalətini çiyinlərində daşıyacaq cəmiyyət yarandı.

## 8. Elçilər, yaxud Həvarilər

Həzrət İsa Məsih (ə) öz qiyamına başlamamışdan öncə ona haqqa dəvət işlərində yardımçı olmaq üçün özünə dost və silahdaş topladı. Bu məsələ Qurani-Kərimin Səf surəsində və İncillərin hamısında qeyd olunmuşdur:

"*İsa Celil dənizinin kənarına gələndə "Petros" adı ilə tanınan Şamunu və qardaşı Anderiası suya tor tulladıqları zaman gördü. Onlar balıqçı idilər. İsa onlara dedi: "mənim arxamca gəlin və mən sizi*

*insanların ovçusu edəcəyəm." Onlar dərhal torları kənara tullayaraq onun arxasınca yola düşdülər".* (Matta 4:18-20, Mark 1:16-18)

Bu insanları çox vaxt Həzrət İsanın Məsih (ə) şagirdləri adlandırırlar.

**8-1. On iki Həvari**

Həzrət İsa Məsih (ə) şagirdlərindən on ikisini seçdi və onları "Elçi" adlandırdı. (Luka 6:13). Qurani-Kərim Həzrət İsanın (ə) elçilərini "Həvari" adlandırır. Həbəşi dilindən götürülmüş bu söz eyni mənanı kəsb edir. Həzrət İsa Məsih (ə) bu on iki nəfəri məad[1] günündə hakimlik kürsüsünə əyləşdiyi zaman onların da on iki kürsüyə əyləşərək Bəni-İsrailin on iki dəstəsini mühakimə etmək üçün seçmişdir. (Matta 19:28)

Həzrət İsanın (ə) on iki elçisinin adı İncillərdə (Matta 10:2-4, Mark 3:16-19, Luka 6:14-16, Həvarilərin işləri 1:13) belə qeyd olunmuşdur:

1. Şamun (Petros)
2. Anderia (Petrosun qardaşı)
3. Yaqub (Zabdinin oğlu)
4. Yuhanna (Yaqubun qardaşı)
5. Filippus
6. Bartalomey
7. Tuma
8. Matta
9. Yaqub (Halfanın oğlu)
10. Tidda (Lukanın yazdıqlarına əsasən Yəhuda Yaqubun qardaşı)
11. Qeyrətli Şamun
12. Yəhuda İsxaryuta

[1] Xristyanlıqda Məad, yəni qayıdışla qiyamət eyni bilinir və Həzrət İsa (ə) həmən günün hakimidir

### 8-2. Petros və digər daha tanınmış elçilər

Ən böyük elçi Şamundur və Həzrət İsa (ə) onu Petros , yəni "Qaya"[1] adlandırdı və onu kilsənin, daha doğrusu Xristyan icmasının özül daşı təyin etdi:

*"Və mən də sənə deyirəm ki, sən Petrossan və bu qayanın üzərində öz kilsəmi tikəcəm və cəhənnəmin qapıları ona tərəf açılmayacaq və səmavi mələkutun açarlarını sənə tapşırıram. Yer üzərində bağladığın hər şey göylərdə də bağlanacaq və yerdə açdığın hər şey göylərdə də açılacaqdır.* (Matta 16:18-19, Yühənna 21:15-19)

Həzrət İsa Məsihin (ə) getməsindən sonra Petros xristyanlığı təbliğ etmək məqsədilə İtaliyanın paytaxtı Romaya köçdü və elə həmən şəhərdə Neron tərəfindən şəhid edildi. Xristyanlığın ilk yepiskopunun məzarı Roma şəhərindəki Vatikan təpəliyində yerləşmişdir və həmin məkanın olduqca dini əhəmiyyətli yerə çevrilməsinə səbəb olmuşdur. Elə bu səbəbdən də, qədim zamanlardan belə Vatikan katoliklərin mərkəzinə çevrilmişdir. "Sant Piter" kilsəsi, onun ətrafında olan saraylar və bağlar dünyanın memarlıq və sənət incilərindən hesab olunur.

Yühənna hələ uşaq yaşında elçi olmuşdur (Yühənna 13:23-25 və 21:20) və xristyanların nəzərincə öz İncilini qoca yaşlarında, birinci əsrin sonlarında qələmə almışdır.

İncillərdən başqa birisini də Matta qələmə almışdır. Eləcə də Əhdi-Cədidin bəzi yazıları Petrosa, Yühənnaya və digər elçilərə aid edilir.

Bir sıra İncilləri və Epokrifa kitabları da ölçilərə aid etmişlər və bəzi xristyan icmaları kilsələrinin keçmişini elçilərdən biri ilə bağlamağa çalışırlar.

---

[1] Şəm"un Əssəfa (Səfa ərəbcə qaya mənasını kəsb edir) bütün İslami kitablarda Həzrət İsanın (ə) canişini kimi qeyd edilmişdir və Həzrət Nərgisin (ə) hekayəsində o həmin xanımın babası kimi qeyd olunmuşdur. Xristyanlar Şəm"unun (Petrosun) nəsli barədə söz açmayıblar, amma İncildən onun həyat yoldaşının olması məsələsi məlum olur. (Matta 8:14-15)

Yəhuda Esxaryuta Yəhudi dininin başçılarının yanına gedərək Həzrət İsanın (ə) həbs olunması üçün lazımi köməklik göstərə biləcəyini bildirdi və elə bu məqsədlə də O Həzrəti onlara göstərdi və bunun müqabilində onlardan müəyyən miqdarda pul aldı. Həzrət İsanın (ə) getməsindən sonra on bir elçi "Matiyas" adlı bir şəxsi Yəhuda Esxaryutanın yerinə təyin edərək saylarını yenidən on ikiyə çatdırdılar. (Həvarilərin işləri 1:15-26)

İncillərdə qeyd olunduğu kimi Həzrət İsa (ə) öncədən qeybdən belə bir xəbər vermişdi ki, onun bütün elçiləri ona qarşı səhv buraxacaqlar. Belə də oldu və O Həzrət həbs olunanda elçilərin hamısı onu tək qoyub qaçdılar.

**8-3. Pavlos**

Həzrət İsanın (ə) Petrosu öz canişini təyin etməsinə baxmayaraq O Həzrətin başqa bir elçisi Pavlos praktiki olaraq daha yaxşı mövqeyə sahib olur və xristyanlığın memarına çevrilir. Bu şəxsin adı ilk olaraq İbrani dilində olan "Şaul" idi və həmin adın Yunan dilində tələffüzü "Savlos"dur. O, xristyanlığı qəbul edəndən sonra adını Pavlosa dəyişdirdi.

O, təəssübkeş yəhudi olmasına baxmayaraq Roma vətəndaşı idi və Həzrət İsanın (ə) getməsindən sonra xristyanlara əzab-əziyyət verməklə məşğul idi. Sonda, xristyanları həbs etmək məqsədilə Qüds şəhərindən Dəməşqə gedərkən Həzrət İsanın (ə) nurunu görməsini və onun əmri ilə xristyan olmasını iddia etməyə başladı.(Həvarilərin işləri 9:1-31)

Pavlos böyük həyəcan və ruh yüksəkliyi ilə xristyanlığın təbliğinə başladı və bu yolda böyük əzab-əziyyətlərlə üzləşdi. Həzrət İsa (ə) tərəfindən peyğəmbərlik məqamına yüksəlməsini iddia edən Pavlos müxtəlif bölgələrə səfər edərək xristyanlığı Aralıq dənizinin ətrafında olan bölgələrdə yaymağa başladı. Həmin bölgələrin xristyanlığı yeni qəbul etmiş əhalisi üçün yeni kitablar da qələmə aldı və onları hidayət etdi. Həmin kitabların və risalələrin bəzisi Əhdi-Cədiddə qeyd olunmuşdur.

Pavlosun yeni fikirləri digər Həvarilər arasında gərginlik yaradırdı və onunla digər elçilər, hətta Petros arasında qarşıdurmanın yaranması “Həvarilərin işləri” kitabında və onun öz risalələrində qeyd olunmuşdur. O yazır: “Petros Antakiyaya gələndə onunla müxalifət edərək üz-üzə dayandı, çünki danlanmağa layiq idi.” (Qalatiyalılara məktub 2:11)

Pavlos öz üstünlüklərini və xristyanlığın təbliği yolunda üzləşdiyi çətinlikləri sadalayanda “Yalançı qardaşlar” sözündən istifadə edir. O bu sözləri onun fikir və düşüncələrilə müxalifət edən digər elçilərə xitabən vurğulayır:

*“Onlar İbranidirlərsə, mən də İbraniyəm. Onlar İsraillidilərsə, mən də İsrailliyəm. Onlar İbrahimin nəslindəndirlərsə, mən də on onun nəslindənəm. Məsihin xidmətçiləridirlərsə, mən daha dəlisov olduğum üçün onlardan daha üstün xidmətçiyəm. Daha çox möhnət çəkmişəm, daha çox qırmancla döyülmüşəm, daha çox zindanlarda qalmışamvə digər Yəhudilərdən beş dəfə daha çox ölümlə üzləşmişəm, qırxdan bir dəfə az qırmancla döyülmüşəm, üç dəfə çubuqla döyülmüşəm, bir dəfə daşqalaq olunmuşam, üç dəfə gəmim məhv olub və gecə-gündüz dənizlərdə olmuşam. Səfərlərin, çayların, oğruların, öz qövmümüm, öz ümmətimimim, şəhərlərin, səhraların, dənizlərin, yalançı qardaşlarımın əlindən daim qorxu, möhnət və məşəqqət içərisində yaşamışam. Dəfələrlə yuxusuzluq, aclıq, susuzluqçəkmişəm, oruc tutmuşam, soyuqda və paltarsız qalmışam, amma bunlardan daha ağır yük kilsələr üçün çəkdiyim fikirlər olmuşdur. Kimdir zəif? Mən zəif olmamışam. Əgər fəxr etmək gərəkərsə mənim zəifliyimə aid olan bütün məsələlərlə fərx edərəm ki, Allah və İsa Məsihin atası ilan Xudavənd əbədi olaraq mübarəkdirlər və onlar mənim yalan danışmadığımı bilirlər. Dəməşq hökümdarı Haris mənim həbs etmək üçün bu şəhəri qoruyurdu. O məni qalanın pəncərələrinindən birindən zənbilin içərisində aşağı atdı, amma mən sağ qaldım.”* (Korinflilərə ikinci məktub 11:22-33)

Pak İmamların, İslam alimlərinin buyurduqlarına və qərb tədqiqatçılarının bilrdiklərinə əsasən xristyanların hal-hazırki dini etiqadları Pavlosun fəaliyyətlərinin və təbliğatının bəhrəsidir.

O, Koloslulara yazdığı məktubda 1:15 İsa Məsihi (ə) "Yaradılmışların ilk yaradılmışı" kimi adlandırmasına baxmayaraq Filipililərə olan məktubda 2:1-11 belə yazır:

*"(İsa) Allahla bərabər olmağı özü üçün qənimət bilmədi və bəndə surətinə girərək insanlara oxşadı. İnsan simasına düşdüyü üçün təvazökar oldu və çarmıxa çəkilib ölənə qədər itaət etdi......."*

Pavlosun həyatı və düşüncələri Həvarilərin işləri kitabında və onun öz məktublarında mövcuddur. Eləcə də, Barnaba (Varnava) İncilinin başlanğıcında və sonunda o olduqca sərt şəkildə tənqid olunur.[1] Bəzi İslami hədislərdə də Pavlos xristyanların yollarını azması məsuliyyətini daşıması qeyd olunmuşdur.

Qeyd etmək lazımdır ki, Pavlos 64-67-ci illərdə Romada qətlə yetirilmişdir. Tarixçilərin nəzərincə Xristyanlığın genişlənməsində Pavlosun rolu olduqca əhəmiyyətlidir, amma xristyanlar Müqəddəs Ruhun daha böyük rola malik olduğunu vurğulayırlar.

Bir çox tarix kitablarında elçilər barəsində söhbət açılmamışdır.

## 9. İnqilabçı İsa

Məsihanın siyasi-ilahi ideologiyası Həzrət İsa Məsihin (ə) simasında təcəssüm tapmışdır. İncilləri mütaliə etdikdən sonra Həzrət İsanın (ə) inqilabçı bir insan və məzlumların zalımlar üzərində qələbə çalması üçün çalışan bir şəxs olduğunu tam şəkildə dərk edirik. Unutmayaq ki, xristyanlar lap əvvəldən belə onun fəaliyyətinin ilahi bir iş olmasını və bəşəriyyətin günahlarının qarşılığı olaraq qətlə yetirildiyini bildirdilər. Onlar Həzrət İsanı (ə) inqilabçı bir şəxs qeyd

[1] Xristyanlar Barnaba İncilini qəbul etmirlər

etməyi sevmirlər. İndi diqqətinizə O Həzrətin inqilabçı və siyasi işlərindən bir neçəsini çatdıracağıq:

**9-1. Düşmən təşkilatlarına təsiri**

Həzrət İsa (ə) dəfələrlə öz davamçılarından onu insanların yanında inkar etməməsini istəməsinə baxmayaraq (Matta 10:33 və...), öz müqəddəs məqsədlərinə çatmaq məqsədilə öz şagirdlərindən birinə tanınmamaq şərtilə Yəhudi şurasına (Sanhadrinə) getməsini tapşırdı. Heç kim həmin şagirdin Yəhudi şurasında iştirak etməsinin və Həzrət İsanı (ə) inkar etməsinin bilməsə də həmin şəxsin şuranın çıxardığı qərarları və Yəhuda Esxaryutanın xəyanətini O Həzrətə çatdırmasını anlamaq olar.

Sonda Həzrət İsa Məsih (ə) zahirən həbs olunub çarmıxa çəkildikdən sonra, elə bir qorxulu şəraitdə və bütün şagirdlərin qorxudan qaçıb gizlədiyi halda o hakimin yanına getdi və Həzrət İsa Məsihin (ə) cəsədini ondan aldı və böyük təntənə ilə torpağa tapşırdı.

İncil yaznlar onu belə təsəvvür edirlər:

*Rama sakini olan Yusif adlı dövlətli bir şəxsdir. O da İsanın şagirdlərindən idi.* (Matta 27:57-60)

*Rama sakini olan Yusif adlı şərafətli, şura üzvlərindən və eyni zamanda İlahi Mələkutun intizarında olan bir şəxs.* (Mark 15:43)

*Şura üzvlərindən olan Yusif adlı bir şəxs. Yaxşı və salih bir insan idi və onların əməllərində müdaxilə etmirdi. Yəhudi şəhərlərindən biri olan Rama şəhərinin sakini idi. O da İlahi Mələkutun intizarında idi.* (Luka 23:50-53)

*Yusif Ramadan və İsanın şagirdlərindən idi, amma Yəhudilərin qorxusundan gizli yaşayırdı* (Yühənna 19:38)

**9-2. Qan içində qüsl**

Həzrət İsa (ə) həyəcanla dolu moizələrindən birində Allah yolunda şəhidlik arzusunu bəyan etmək üçün "Xaç suyunda qüsl" müqəddəs sözündən istifadə etdi. Qeyd etmək lazımdır ki, "Qan içində qüls və xaç suyuna girmək" məcazən şəhid olmaq mənasını kəsb edir.

(İslami ədəbiyyatda istifadə olunan qanla dəstəmaz almaq kimi). Mark İncilində (10:38-39) xaç suyuna girmək şəhidlik mənasında istifadə olunmuşdur. İncillərdə suda xaç suyuna girmək və qüsl almaqdan əlavə odda və müqəddəs ruhda xaç suyuna girmək də gözə çarpır (Matta 2:11, Mark 1:8, Luka 3:16). Qurani-Kərimdə (Bəqərə surəsi 138-ci ayə) istifadə olunan "Sibğətullah" termini də bəzi təfsir alimlərinin nəzərincə "İlahi qüsl" mənasını verir.

*"Mən yer üzərindən od alovlandırmağa gəlmişəm. Elə isə indi alovlandığı və tutaşdığı zaman nə istəyirəm? Amma mən bir qüsl etməliyəm, onu tapmalıyam və onu tapana qədər böyük çətinliklər içərisindəyəm. Siz mənim yer üzərində salamatlıq bəxş etmək üçün gəldiyimi düşünürsüz? Xeyr, mən sizə deyərəm: təfriqə üçün! Çünki, bir evdə olan bu beş nəfərdən sonra ikisi üçündən və üçü ikisindən ayrılacaq: Ata oğuldan, oğul atadan, ana qızından, qız anasından, bəy gəlindən, gəlin bəydən".* (Luka 12:49-53)

### 9-3. Şəhidlik xaçı (Səlib)

Xristyanlar Həzrət İsa Məsihin (ə) bəşəriyyətin günahları yolunda çarmıxa çəkilməsinə görə xaç işarəsini boyunlarından asırlar. Həzrət İsa (ə) dəfələrlə böyük təkidlə onun əsil davamçısının öz xaçını özü ilə daşayan və onun arxasınca gedən şəxs olduğunu vurğulamışdır. O Həzrətin bu sözündən aydın şəkildə anlamaq olar ki, xaçın boyundan asılmasının tarixi keçmişi Həzrət İsa Məsihin (ə) hələ həyatda olduğu zamana qayıdır və xaçı onun çarmıxa çəkilməsinin nişanəsi kimi qəbul etmək yalnışdır. Bu adəti "Özünü inkar" və Allah yolunda şəhid olmağa hər an hazır olmaq kimi açıqlamaq lazımdır. Bir çox inqilablarda inqilabçıların kəfən geyərək küçələrə çıxmaları da təxminən bu mənanı kəsb edir.

*"Çoxlu sayda insan onunla gedəndə üzünü onlara tərəf çevirərək dedi: "Mənim yanıma gələn insan atasını, anasını, arvadını, övladını, qardaşlarını, bacılarını və hətta öz canını özünə düşmən bilməzsə mənim şagirdim ola bilməz. Öz xaçını götürərək mənim arxamca gəlməyən şəxs mənim şagirdim ola bilməz."* (Luka 14:25-27)

*"Camaatı şagirdləri ilə birlikdə yanına çağıraraq dedi: "Mənim arxamca gəlmək istəyən hər bir şəxs özünü inkar etməlidir, öz xaçını götürməlidir və mənim arxamca gəlməlidir. Çünki, özünü xilas etmək istəyən hər bir insan onu öldürməlidir, öz canını mənim və incilin yolunda fəda edən şəxs onu xilas etmiş olar."* (Mark 8:34-35, 16:24-26, Luka 9:23-25)

**9-4. Sabitlik əvəzinə qılınc**

Asayiş və rahatlıq sevən insanlar xilaskar Məsihanın amallarını yalnış təsəvvür etmişlər. Həzrət İsa Məsih (ə) onların düşüncə tərzlərini düzəltmək üçün öz peyğəmbərliyinin məqsədini aydın formada açıqlayır:

*"Mən yer üzərində sabitlik yaratmaq üçün gəlməmişəm, sabitlik gətirməmişəm, əksinə qılınc gətirmişəm. Çünki, gəlmişəm kişini atasından, qızı anasından, gəlini qaynanasından ayıram. Hər bir şəxsin düşməni onun ev əhli olacaqdır.* (Matta 10:34-36)

**9-5. Silahli müdafiəyə çağırış**

Həzrət İsanın (ə) təqib edilməsi və həbs olunması məsələsi qətiləşəndə, onunla adı cinayətkar kimi davranılacağı məlum olanda O Həzrət silahlı müdafiə üçün sonuncu dəfə səy göstərdi, amma lazımi cavab almadı:

*"Sonra onlara dedi: "Qılıncı olmayan insan libasın sataraq qılınc alsın, çünki sizə deyirəm ki, bu yazı (yəni öncədən verilmiş xəbər, Aşiya 53:12) artıq həyata keçməkdədir. Yəni, günahkarlarla eyni qəbul edilməm. Çünki, mənim barəmdə olan hər şey həyata keçməkdədir." Dedilər: "Ey Rəbbimiz, bu da iki qılınc." Onlara dedi: "Kifayət edər."* (Luka 22:36-38)

O Həzrətin silahdaşları xilaskar Məsiha barəsində lazımi məlumata sahib olmadıqları səbəbindən onun üçün hər hansı bir qorxunun yarana biləcəyini düşünmürdülər və bu səbəbdən də, onun qılınc almaq barəsindəki təkidlərinə o qədər də ciddi yanaşmadılar. Amma çoxlu sayda insanın qılınc və dəyənəklərlə ona hücum etdiyini görən-

də silahın nə dərəcədə əhəmiyyətli olduğu anladılar. Onlar bu vəziyyətə hazır olmadıqları üçün belə böhranlı vəziyyətdə qılıncdan istifadə nəticəsiz və mənasız bir iş idi. Elə bu səbəbdən də, Həzrət Məsih (ə) belə bir addım atmağı onlara qadağan etdi:[1]

*"Birdən İsanın silahdaşlarından biri (Şamun Petros) qılıncını qınından çıxardaraq rəisin nökərinə zərbə endirdi və onun qulağını başından ayırdı. İsa ona dedi: "Qılıncını qınına qoy, çünki əlinə qılınc alan hər bir kəs qılıncla da həlak olacaq."* (Matta 26:9, Matta 26:51-52, Mark 14:47, Luka 22:50-51, Yühənna 18:10-11)

**9-6. Padşahın təhqir edilməsi**

Həzrət İsa Məsih (ə) Celil bölgəsinin padşahı Hirodisi tülkü adlandırdı. Həzrət İsa (ə) Həzrət Yəhyanın (ə) qatılı olan Hirodisin zalimlığından və daş ürəkli olmasında zərrə qədər də ehtiyat etmədi:

*"Həmən gün Ferisilərdən bir neçə nəfər gələrək ona dedilər: "Uzaqlaş və burdan get! Çünki, Hirodis səni qətlə yetirmək istəyir." Onlara belə cavab verdi: "Gedin və o tülküyə deyin ki, bu gün ya sabah (Dəlilərin bədənlərindən) cinləri çıxaracağam, xəstələrə şəfa verəcəm və otuzuncu gün  (işlərimi görmək üçün) hazır olacağam. Amma, bu gün. Sabah, yaxud birisigün (peyğəmbərliyimi təbliğ etmək üçün) yol getməliyəm. Çünki, hər hansı bir peyğəmbərin Urşəlimdən kənarda öldürülməsi qeyri-mümkündür."* (Luka 13:31-33)

Həzrət Məsih (ə) Celil bölgəsinin padşahı ilə belə sərt davranmışdı. Amma, Paul hökümdarlara itaət etməyi tövsiyyə edərək bu sözləri vurğulayır:

*"Hər bir şəxs özündən daha qüdrətli şəxsə itaət etməlidir, çünki Allahdan savayı qüdrət sahibi olan yoxdur və əgər varsa da o Allah tərəfindən təyin edilmişdir. Özündən daha qüdrətli şəxsə müqavimət göstərən insan Allaha qarşı çıxmışdır və özünə ziyan etmişdir. Çünki, insanın yaxşı əməlinin cəzası yoxdu, əksinə pis əməlin cəzası var.*

[1] İslam Peyğəmbəri Həzrət Muhəmməd (s) də müsəlmanların Məkkə şəhərində yaşadığı çətin zamanlarda lazımi müdafiə şəraitinin yaranmamasına görə onları silahlı münaqişəə girməkdən çəkindirdi.

*Onda bu qüdrətdən qorxmaq istəmirsənsə yaxşılıq et və onun tərifini eşit, çünki Allahın sənin üçün buyurduğu yaxşı xidmətçisidir. Pislik etdiyin zaman qorx. Çünki, qılıncını boş yerə qaldırmaz, çünki o Allahın xidmətçisidir və azğınlardan intiqam alar. Buna görə də ona itaət etmək lazımdır. Yalnız qorxu üzündən yox, daxildən gələn istəklə. Çünki, buna görə xərac da verirlər, çünki bu işin qoruyucularıdırlar. Onda hər kəsin haqqını özünə qaytarın. Xəracı xərac verməyə layiq, cizyəni cizyə verməyə layiq, qorxunu qorxmağa layiq və hörməti hörmətə layiq insanlara qaytarın.* (Romalılara məktub 13:1-7)

**9-7. Allah və Sezar**

Bir məsələni qeyd etmək lazımdır ki, İncillərdə bu söz gözə çarpır: "Sezarın işini sezarın üzərinə buraxın və Allahın işini Allaha." Amma bunu da qeyd etmək lazımdır ki, (birinci) qeyd etdiyimiz məna İncillərdə belə gəlmişdir: "Sezarın malını sezara verin və Allahın malını Allaha", (ikinci) bu söz heç nəyə dəlalət etmir. Çünki, Həzrəti İsa (əs) bu sözləri təqiyyə şəraitində demişdi:

*"Onu nəzarətdə saxlayırdılar. Əməlisaleh insanlar cildində casuslar göndərdilər ki, ondan söz alsınlar və onu hakimin qüdrəti və hökmünə buraxsınlar. Elə bu məqsədlə də ondan soruşdular: "Ey Ustad, biz bilirk ki, sən düz söz danışırsan, təlim verirsən və heç kimdən də çəkinmirsən, əksinə Allahın yolunu sədaqətlə öyrədirsən. Bizim sezara xərac verməyimiz düzgündür ya yox?" O, onların hiyləsini dərk etdi və onlara dedi: "Məni nə üçün sınayırszı? Mənə bir dinar göstərin." (Onlar ona bir dinar verdilər və o soruşdu) "Üzərindəki görüntü və rəqəm kimindir?" Onlar cavab verdilər: "Sezarındır!" O onlara dedi: "Onda Sezarın malını Sezara verin və Allahın malını Allaha." Onu insanların yanında məcbur edə bilmədilər və cavabından təəccüblənərək sakit dayandılar.* (Luka 20:20-26, Matta 22:15-22, Mark 12:13-17)

Bu hekayənin əvvəlindən, orasından və axırından məlum olur ki, onlar bu sualı Həzrət Məsihi (ə) çəncələ salmaq üçün vermişdilər. O Həzrət də birbaşa cavabın əvəzinə (hə ya yox), dinar istəməklə məsə-

lənin məğzini dəyişdirir və onların xərac barəsindəki suallarını cavabsız qoyaraq onları istəklərinə çatmaqda nakam qoyur.

**9-8. Yalançı Yəhudi ruhaniləri ilə qarşıdurma**

Həzrət İsa Məsih (ə) xudbin, ikiüzlü və dünyapərəst dini başçıları kəskin şəkildə tənqid edirdi. Elə bu məsələ də, onları Həzrət İsa Məsihi (ə) məhv etmək üçün hiyləgərlik etməyə və məkirli siyasət yürütməyə sövq etdi. O Həzrətin bu barədə buyurduğu sözlərindən:

*“Vay olsun sizlərə ey ikiüzlü Katiblər və Ferisilər. Siz İlahi Məlakutun qapılarını insanların üzünə bağlayırsınız, çünki özünüz ora daxil olmursunuz və daxil olmaq istəyənlərə də mane olursunuz. Vay olsun sizlərə ey ikiüzlü Katiblər və Ferisilər. Siz dul qadınların evlərini əllərindən alırsınız və riyakarlıq üçündən namazlarınızı uzun qılırsınız. Elə buna görə də şiddətli əzab tapacaqsınız. Vay olsun sizlərə ey ikiüzlü Katiblər və Ferisilər. Siz özünüzə mürid tapmaq üçün qurunu və suyu gəzirsiniz, amma tapandan sonra onu özünüzdən daha alçaq və rəzil cəhənnəm övladına çevirirsiniz. Vay olsun sizlərə ey ikiüzlü Katiblər və Ferisilər. Siz peyğəmbərlərin qəbirlərini tikirsiniz, Sadiqlərin qəbirlərini ziynətləndirirsiniz və “Atalarımızın dövründə yaşasaydıq peyğəmbərlərin qanını axıtmaqda onlarla şərik olmazdıq” deyirsiniz. Deməli siz peyğəmbərlərin qatillərinin övladları olduqlarınızı təsdiq edirsiniz. Onda siz də öz atalarınızın badələrini doldurun ey ilanların və əfilərin övladları. Siz cəhənnəm əzabından necə qaçaqsınız......”* (Matta 23:1-36, Luka 11:39-54)

**9-9. Güc və qüdrət nümayişi**

Həzrət İsa (ə) dedi:

*“İnsan övladı öz mələkləri ilə öz atasının hüzuruna gələndə hər kəsi öz əməllərinə uyğun olaraq cəzalandıracaq. Hər halda sizə deyirəm ki, burada onlanların bəziləri insan övladının öz mələkutuna daxıl olmasını görmək istəmirlər və belə olmadan onlar ölümü dadmayacvaqlar.”* (Matta 16:27-28, Mark 9:1, Luka 9:26-27)

Sonda O Həzrət həyatının son günlərində bir uzunqulağın üzərində İlahi mələkutunun intizarında olan insanların səmimi qarşılamaları ilə Qüds şəhərinə daxil oldu. Həmən gün deyilən şüarlardan biri də belə idi: "Allahın adı ilə gələn İsrail padşahı mübarək olsun!" Mətnə nəzər saldıqda onun da bu şüarı təsdiqləməsi məlum olur:

*"O zaman Ferisilərdən bəziləri ona dedilər: "Ey Ustad, öz şagirdlərini qorxut." O onların cavabında dedi: "Sizə deyirəm ki, əgər bunlar sakit dayanarlarsa daşlar dilə gələcək!"* (Luka 19:39-40)

O Həzrət böyük əzəmətlə məbədə daxil oldu və həmin müqəddəs məkanı orada alış-verişlə məşğul olan insanlardan təmizlədi. Bəziləri xilaskar Məsihanın ata minməsini zülmkar padşahların taxtını aşırdacağını düşünürdü, amma Həzrət İsa Məsihin (ə) belə bir şəraitdə gördüyü iş adi uzunqulağa minməsi və sonra məbədə daxil olması oldu: "Sərrafların piştaxtalarını və göyərçin satanların yerlərini dağıtdı." (Matta 21, Mark 11, Luka 19 və Yühənna 12)

Həqiqətə gəldikdə isə Həzrət Məsih (ə) öz işləri ilə Bəni-İsrail cəmiyyətini sınayırdı və məbəddə islahatçı addımlarının ardınca Ferisilərin açıq-aşkar müxalifətlərindən sonra inqilab üçün lazımi şəraitin mövcud olmamasının şahidi oldu. Elə bu səbəbdən də, onları danladıqdan sonra Qüds şəhərinə xitabən belə buyurdu:

*"Ey Urşəlim, Urşəlim! Peyğəmbərlərin qatili və sənə göndərilmişləri daşqalaq edən! Neçə dəfə sənin övladlarını toplamaq istədim, balalarını öz qanadlarının altına yığmaq istəyən quş kimi, amma istəmədiz. Artıq evləriniz xarabalıqlara çevrilir, çünki sizə daha məni görməyəcəksiniz və Allahın adı ilə gələn mübarək olsun deyə bilməyəcəksiniz."* (Matta 23:37-39, Luka 13:34-35)

### 9-10. Qisası təsdiqləməsi və bağışlamağı tövsiyə etməsi

Həzrət İsa Məsih (ə) dağ başında söylədiyi nitqdə öz peyğəmbərliyini belə şərh edir:

*"Mənim Tövratı və yaxud peyğəmbərlərin Sühufunu batil etmək üçün gəlməmi güman etməyin. Mən batil etmək üçün gəlməmişəm, əksinə tamamlamaq üçün gəlmişəm. Çünki, sizə deyirəm ki, göy və yer*

*məhv olmayana qədər Tövratın bir nöqtsi belə aradan getməyəcək. Onda ən xırda dini hökmü belə pozan və insanlara tədris edən şəxs ilahi mələkutda ən aşağı şəxs hesab olunacaq. Amma, düzgün əməl edərək tədris edən şəxslər ilahi mələkutda böyük bilinəcək.... Bu sözü eşitmisiniz gözə göz və dişə diş. Amma mən deyirəm ki, şər insanlarla mübarizə aparmayın, əksinə sağ üzünə sillə vurduqda sol üzünü də irəli verin....”* (Matta 5:17-48)

Bəzi insanlar yuxarıdakı sözləri zalımlar qarşısında təslim olmaq və onların zülmlərini qəbul etmək kimi başa düşürlər, amma əslində bu biraz şişirdilmiş etik tövsiyədir və yalnız insanın şəxsi bağışlamasına aiddir. Qurani-Kərimdə və İslami hədislərdə səbr, günahkarları bağışlamaq, mədəniyyətsiz insanlara salam vermək, onların pislikləri müqabilində böyüklük göstərmək kimi bir çox tapşırıqlara rast gəlmək olar. Belə davranışları İlahi övliyaların davranışlarında da aydın şəkildə gözə çarpır.[1]

Həzrət Əmirəlmöminin Əli (ə) təqvalı insanların ən gözəl xüsusiyyətlərindən birinin ona zülm və haqsızlıq edən insanların günahından keçmək olduğunu buyurmuşdur. O Həzrət İmam Həsən Müctəbaya (ə) ünvanladığı məktubunda belə məsələlərə təkid edərək buyurub: “Bu işləri ondan kənar və ona layiq olmayan kəslər barəsində icra etmək olmaz!”[2] Başqa bir rəvayətdə isə İmam Cəfər Sadiq (ə) sillə vurmaq barədəki məsəlin Həzrət İsa Məsih (ə) aid olduğunu buyurmuşdur. İncildən oxuyuruq:

*“O zaman Petros onun yanına gələrək dedi: “Ey Xudavənd, qardaşımın mənə qarşı buraxdığı xətaları neçə dəfəyə qədər bağışlamalıyam? Yeddi dəfəyə qədər?” İsa ona dedi: “Sənə yeddi dəfə demirəm yetmiş yeddi (70*7) dəfə.”* (Matta 18:21-22, Luka 17:3-4)

---

[1] Nümunə üçün Qurani-Kərimin Nəhl surəsinin 126-218-ci ayələrinə, Möminlər surəsinin 96-cı ayəsinə, Furqan surəsinin 63 və 72-ci ayələrinə və Fussilət surəsinin 34-36-cı ayələrinə müraciət edə bilərsiniz.

[2] Nəhcül Bəlağə, məktub 31

Yühənnanın sözlərinə əsasən Həzrət İsa (ə) həbs edilərkən düşmənlərindən biri ona möhkəm sillə vurdu. O Həzrət dərhal etiraz edərək dedi: "Nəyə görə məni vurursan?" (Yühənna 18:22-23).[1]

Eləcə də Həzrət İsanın (ə) "şər insanlara müqavimət göstərməməyi" deməsinə baxmayaraq O Həzrətin şagirdləri bu sözlərin öz şəxsi məsələlərinə aid olduğunu bildirirlər və zülmkarların müqabilində həmişə müqavimət göstərirdilər. (Bu müqavimət və mübarizələrin şərhi "Həvarilərin işləri" kitabında qeyd olunmuşdur). Onlar padşahların və dinin düşmənlərinin müqabilində müqavimət göstərmək üçün Allahın dərgahına əl açaraq belə dua etdilər:

*"Ey Allah! Sən göyü, yeri, dənizi və onlarda olan hər şeyi yaradan Allahsan.... Sən öz müqəddəs bəndən olan İsanı məsh etdin. Hirodis və Pontius Pilatos İsrail ümmətləri və qövmləri ilə bir araya gələrək sənin təqdir buyurduğun hadisəni həyata keçirdilər. İndi ey Allah sən onların hədələrinə nəzər yetir və öz bəndələrinə sənin kəlamınla söz deməlҙrini əta et."* (Həvarilərin işləri 4:24-29)

## 10. Kilsənin yaranması

Barəsində Əhdi-Cədiddə söz açılan Xristyan icması "Həvarilərin kilsəsi" adlanırdı və bu sözü deməkdə məqsəd elçilərin və xristyanların birinci nəslidir. Bu icma təxminən 30-100 illərə, "Gül yağışı bayramından" müqəddəs kitabın sonuncu bölməsinin hazırlandığı vaxta qədər olan zaman kəsiyini əhatə edir.

Birinci Xristyan icması belə olmuşdur:

*"(Yeni Xristyanlar) elçilərin təlim olunmasında, onların çörək sındıraraq dualar oxumalarında ehtiyat edirdilər. Bütün insanlar qorxdu və elçilərin əlindən bir çox möcüzələr gəlirdi. Bütün imanlılar birlikdə yaşayırdılar və hər şeydə şərik idilər. Onlar bütün mal-mülk-*

[1] Eləcə də Hollandiyalı filosof Espinoza İncildə qeyd olunmuş bu sözü özünün "İlahiyyat və siyasət barəsində tezis" əsərinin yeddinci fəslində çox gözəl açıqlayır və siz oxuculara bu dəyərli sözləri oxumağı məsləhət görürəm.

*lərini satdılar və hər kəsə ehtiyacı olduğu qədər verdilərHər gün məbəddə bir ürəyə bağlanırdılar və evlərdə çörək kəsirdilər, yeməyi xoşluqla, sadəliklə yeyirdilər, Allaha şükrlər oxuyurdular və bütün insanlar arasında çox hörmətli olurdular.* (Həvarilərin işləri 2:42-47)

Bu izzət və böyüklük çox uzun çəkmədi və zaman ötdükcə öncə Yəhudilər və sonra da Roma imperatorları düşmən olmağa başladılar.

Urşəlimdə Həvari Yaqub tərəfindən əslən Yəhudi olan Xristyanlardan ibarət icma yaradıldı və həmin icmaya üzv olan şəxslərin sayı həm Urşəlimdə, həm də Fələstinin digər ərazilərində artmağa başladı. Pavlos və Barnaba adlı digər Həvarilər "müjdəni" digər qeyri-Yəhudi qövmlərə də çatdırdılar.

Bu hadisədən sonra kilsə üçün ilk problem meydana çıxdı və bu promlem ondan ibarət idi ki, xristyanlığı yenicə qəbul etmiş bütpərəstlər xristyanlığı qəbul etməmişdən öncə Yəhudi dinini qəbul etməlidirlər, ya yox? Pavlosun nəzərincə Allah İsanı ölülərin arasından qaldırıb və bu əməlilə xilas üçün yeni dövr yaradıb. Buna görə də, bundan sonra xristyanlar Yəhudi şəriyyətinə boyun əymək məcburiyyətində deyillər.

Bundan sonra Roma imperiyasının hər yerində Həvarilərin bütpərəstləri xristyan etmək fəaliyyətləri daha da gücləndi və qeyri-Yəhudilikdən xristyanlığa gəlmişlərin sayı kilsədə əksəriyyət təşkil etməyə başladı. Xırda mömin icmaları Suriyadan tutmuş Misirə qədər imperiyanın bütün şəhərlərində, daha sonra Anadoluda, Yunanıstanda və sonda İtaliyada yaranmağa başladı. Klassik deyimlərə əsasən Petros ilk olaraq Urşəlimdə, sonra Antakyada və sonda Romada elçilər icmasının başçısı seçildi və o İmperator Neronun zamanında Romada edam edildi.

## 11. Xristyanlığın yayılması

Dinin inkişafında və genişlənməsində iki amil əsas rol oynayır: birincisi, əzablara dözmək və ikincisi təbliğ. Din kənara qoyulduqda məhv olur.

Xristyanlar təxminən 300 il böyük əzab-əziyyətlər çəkdilər və bu yoldu saysız-hesabsız şəhidlər verdilər. Xristyanlığın əsası da elə bu 300 il ərzində qoyuldu və müxtəlix xalqları bu dinə dəvət etmək sahəsində də böyük uğurlar əldə olundu. Roma imperiyasında xristyanların sayının durmadan artması nəticəsində 4-cü əsrin əvvəlrində həmin imperiyanın rəsmi dini kimi qəbul edildi. Geniş təbliğat işləri nəticəsində isə dünyanın bir çox yerlərində genişlənməyə başladı.

Bəzi dinlərdə, o cümlədən Yəhudilikdə təbliğ yoxdur və davamçıların sayının çoxalmasına vacib məsələ kimi baxılmır. Amma, İslam və Xristyanlıq kimi dinlərdə təbliğ məsələsinə böyük önəm verilir. Xristiyan təbliğatçılarından ibarət heyətlər qədim zamanlardan dünyanın müxtəlif ölkələrinə səfər edərək bu dini hər yerdə yaymaqla məşğul oldular. Eləcə də, son əsrlərdə qərb mədəniyyətinin çiçəklənməsi, istismarçılığın və mədəniyyət hücumunun başlaması nəticəsində Xristyanlıq şərq ölkələrində də geniş yayılmışdır.

## 12. Kəlami ixtilafların yaranması

Sonda Xristyanlıq Roma imperiyasının hər yerinə yayıldı və dini mütəfəkkirlər Həzrə İsa (ə) ilə Allah arasındakı əlaqənin necəliyini açıqlamaq məqsədilə fəlsəfi terminlərdən, həmin dövrdə geniş yayılmış anlamlardan yararlanaraq xristyanlıq dininin ilahiyyat elmini meydana çıxartdılar.

İlkin xristyanlar Nastik düşüncə tərzinin təsiri altına düşərək İsanın (ə) insan olmasını inkar etməyə başladılar. Nastiklər onun bəşə-

riyyət üçün sirli mərifət elmini gətirən mələk olmasını bildirirdilər. Eləcə də, Doketistlər İsanın (ə) insani cismə malik olmadığını və çarmıxa çəkilərkən ölmədiyini bildirirdilər. Onların nəzərincə İsa (ə) yalnız zahirən adam şəklində idi. Xristyan kilsələri 2-ci əsrdə Nastiklərlə Doketistlərin yaydıqları dini təlimlərin səhv olduğunu elan etdilər və İsanın (ə) insan olması məsələsinə daha çox təkid etdilər.

## 13. Xristyanlıq Romada

Kilsə yarandı və möhkəmləşdi. Bütün yerli kilsələrin başında Yepiskpolar dayandılar. Keşişlər Yepiskopların müavini vəzifəsini icra etməyə başladılar və Şəmmaslar qocalarla zavallıların məsələlərini araşdırmaqla yanaşı müxtəlif növ xeyirxah işlərlə məşğul oldular. Xristyan cəmiyyəti arasında bu şəxslərdən əlavə kilsəyə xidmət göstərmək və onun möhkəmlənməsi üçün ilahi nemətlərdən bəhrələnmiş şəxslər də mövcud idi. Bunlar müəllimlər, çobanlar, elçilər və s. idilər və onlar Allahın ruhundan ilham alaraq danışırdılar. Bəzi şəxslər də möcüzə göstərmək, xəstələrə şəfa vermək və müxtəlif dillərdə danışmaq kimi müxtəlif qeyri-adi bacarıqlara malik idilər.

Roma mərkəzi hökuməti bəzi vaxtlarda kilsələrlə xoş davranırdılar. Amma, Roma hökümdarları çox vaxt möminlərə əzab-əziyyətlər verirdilər. Belə haqsızlıqlar nəticəsində Petros və Pavlos kimi insanlar qətlə yetirildilər.

Zaman ötdükcə bəzi böyük əhəmiyyət kəsb edən mərkəzlərin sayı artmağa başladı. Roma, Urşəlim, İskəndəriyyə və Antakyanı belə qüdrət mərkəzlərinə nümunə kimi çəkmək olar. Bu dörd şəhərin dini işləri Patriarxlara tapşırıldı. Eləcə də, qeyd olunmuş bölgələrdə "Yepiskopun əraziləri" adlı fərdi ərazilər meydana çıxdı və adından da məlum olduğu kimi bu ərazilər yepiskopların nəzarəti altında idi. 4-cü əsrdə Konstantinin yeni paytaxt, Konistantinopolu inşa etməsinə görə bu şəhər də böyük əhəmiyyət kəsb edən mərkəzlərdən birinə

çevrildi. Digər yerlərdə olduğu kimi bu şəhərdə də kilsə Patriarxın əlində idi.

Konstantinin zamanında (vəfatı 337-ci il) Xristyan cəmiyyəti Roma imperatorları tərəfindən əzab-əziyyətə tuş gələn dəstə anlamını itirərək "Dövlət kilsəsi" statusuna qədər yüksəldi və mərkəzi hökumət onu rəsmən tanıdı. Belə dəyişikliklər nəticəsində kilsə həyatında əsaslı dəyişikliklər meydana çıxdı, Bizans və Roma imperiyasında Yəhudiləri çıxmaq şərtiylə yaşayan insanların əksəriyyəti ən azı üzdə də olsa xristyanlığı qəbul etdilər. Şərq və qərb kilsələri arasında parçalanma tam müəyyənləşdikdən sonra hər iki tərəf müstəqil şəkildə ibadət, fəlsəfə, ilahiyyat və adət-ənənə mərasimlərini yaratdılar. Eləcə də, Misirdə Qibti (Kopt), Suriyada Suryani, İraq və İranda Nesturi kilsələri özünəməxsus dini adət-ənənələr meydana çıxartdılar.

7-ci əsrin əvvəllərində Ərəbistan yarımadasında İslam dini yaranandan və müsəlman hökümdarlar Misirdə, Şamda, Mesopotamiyada və Afrikanın şimal bölgələrində yaşayan xristyanların idarəetmə işlərini ələ aldıqdan sonra xristyanlar İslam dininə hörmətlə yanaşmağı anladılar. Onlar müsəlmanları imanlı dostları, həmvətənləri və çox vaxt da hökümdarlarını kimi qəbul etdilər.

11-ci əsrdən 13-cü əsrədək Avropa dövlətləri Xaç yürüşlərinə başladılar və beləliklə təkcə müsəlmanlarla yəhudilər arasında deyil, qərbi Avropa və Bizans xristyanları arasında da böyük nifrət qazandılar. Xristyanların 1099-cu ildə Qüdsə və 1204-cü ildə Konistantinopola hücumları zamanı törətdikləri qırğınlar və etdikləri işkəncələr istər müsəlmanların, istərsə də Şərq xristyanlarının zehnində mənfi təəssüratlar yaratmışdır.

## 14. İsa (ə) rahiblər üçün nümunədir

Həzrət İsa (ə) ibadətlə dolu pak həyat yaşadığı üçün xristiyan rahiblərin ən böyük nümunəsinə çevrildi. O Həzrət özü barəsində belə deyirdi: "Göydə uçan quşların belə yuvaları var, amma insan öv-

ladının baş qoymaq üçün yeri yoxdur."  (Matta 8:20, Luka 9:59) O Həzrətin ən böyük şagirdi Petros ona dedi: "Biz hər şeydən üz döndərərək sənin arxanca gedirik." (Matta 19:27, Mark 10:28, Luka 18:28) Elə bu səbəbdən də, xristiyanlar o Həzrəti özləri üçün nümunə götürərək evlilikdən üz döndərdilər və rahibliklə məşğul olmağa başladılar.

Eləcə də, O Həzrət təkidlə tövsiyyə edərək bildirmişdi ki, bütün davamçıları bir-biriləri ilə qardaş olsunlar, heç kim özünü başqasından üstün bilməsin və heç kim özünə "Ağa", "Ata", "Rəhbər" ləqəbini götürməsin:

*"Sizi "Ağa" adlandırmasınlar, çünki sizin ustadının birdir, Məsihdir və siz bir-birinizlə qardaşsınız. Yer üzərində heç kimi "Ata" adlandırmayın, çünki sizin atanız takdir və o da göylərdədir. Heç zaman da sizi "Rəhbər və öncül" adlandırılmasına icazə verməyin, çünki sizin rəhbəriniz də birdir, Məsihdir. Sizdən daha böyük məqam sahibləri zizin xidmətçiləriniz olacaqlar və özünü böyük bilən hər kəs alçalacaq və təvazökarlığı özünə peşə edən şəxslər də böyüklüyə çatacaqlar.* (Matta 23: 8-12)

O Həzrət sonda insanların arasından getdi və olduqca çətin, məsuliyyətli olan idarəçilik işləri elçilərin üzərinə düşdü. O Həzrətin təyin etdiyi elçilər həmin zamanlar böyük əzab əziyyətlərə dözərək İlahi tərəfindən göndərilən fərmanları dövrün ictimai şəxsiyyətlərinə və hökümdarlarının çıxardığı fərmanlara qurban vermədilər. Məsələn, Petros və Yühənna belə şəraitlərdə öz müxaliflərinə açıq-aydın şəkildə bildirdilər: "Əgər sizə itaət etməyin Allaha itaət etmədən üstün olması Allah yanında savab sayılırsa, onda əmr edin..... Allaha insanlardan daha çox itaət etmək lazımdır. (Həvarilərin işləri 4:19, 5:29)

Xristyanların sonrakı nəsilləri də uzun müddət ərzində bu yolu davam etdirərək bütün çətinlikləri alınaçıq şəkildə qarşıladılar və Romanın müşrik hökümdarlarına qarşı mübarizə apardılar. Hökümdarlara qarşı olan etinasızlıq və laqeyidlik (313-cü ildə xristyanlığın Romada azad edilməsindən sonra belə) Romanın birinci xristyan sezarı-

nın zamanınadək davam etdi. Məsələn, 4-cü əsrin sonlarında Roma imperatoru Teodosius Milan şəhərində keçirilən Pasxa bayramında kilsəyə daxil olarkən Müqəddəs Embros şəxsən özü Salonik əhalisi ilə pis davrandığına və əli günahsız insanların qanına bulandığına görə onun kilsəyə daxil olmasına icazə vermədi və tövbə etməyəcəyi təqdirdə kafir elan ediləcəyini bildirdi. İmperator səmimi şəkildə tövbə etdi və müqəddəs Embros onun tövbəsini qəbul etdi.

## 15. Papalar

Amma vəziyyət belə davam etmədi və Jan Jak Russo vəziyyətin dəyişməsi barəsində vurğuladığı sözlər çox maraqlıdır:

*“Bütpərəstlərin qorxduğu hadisə baş verdi. Hicablı və məzlum xristyanlar öz davranışlarını dəyişdirdilər. Qısa zaman ərzində axirət səltənəti kimi adlandırılan səltənət zahirpərəst və maddiyyatçı başçının hakimiyyəti altında ən kəskin istismarçı və dünyəi səltənətə çevrildi.*[1]

Kilsə yavaş-yavaş güclənirdi və siyasətə müdaxilə etməyə başlayırdı. Zaman ötdükcə kilsənin siyasi müdaxilələrinin təsiri də artırdı. 800-cü ildə xristyanların rəhbəri olan Papa Fransa şahı Şarlmanın tacqoyma mərasimini keçirtdi və bununla da “Müqəddəs Roma İmperiyasının” təməlini qoydu. Bu zamandan sonra xristyan ruhanilərinin siyasətə birbaşa və kobud müdaxiləsi başlanıldı. Xaç yürüşləri və İnkivizisiya məhkəmələri də bu dövrdə meydana çıxdı. Bu müdaxilə 1806-cı ilə qədər davam etdi.

Dini liderlər Həzrət İsanın (ə) tövsiyəsinin tam əksinə olaraq “Ata”-“Papa” adını üzərilərinə götürdülər. Yepiskop və keşiş kimi ləqəblər də onların arasında kəskin şəkildə çoxalmağa başladı. Roma şəhərinin Yepiskopu Papa adlandırılırdı və Yunan dilində bu ata mənasını kəsb edirdi. Bu sözün Fransız dilindəki tələffüzü “Pap” idi.

---

[1] İctimai saziş, dördüncü kitab, 8-ci fəsl

İndiyə qədər 260-dan artıq Papa Katolik xristyanların rəhbərliyinə nail olublar. Bir neçə müxalif Papa da mövcud olmuşdur və Onları "Antipope" yəni, Antipapa adlandırmışlar. Bir neçə nəfərin Papa və yaxud Antipapa olması ixtilaflı məsələ kimi qalmışdır. Bəzən Papalar boyunlarından daim asılmış xaçdan əlavə kəmərlərin iki ədəd qılınc bağlayırdılar. Halbuki, tarixdə kəmərinə iki qılınc bağlayan hökümdar və şah belə olmamışdır. Papalar digər rəhbərlər kimi üç hissəyə bölünürlər; bəziləri təqvalı, bəziləri orta təqvalı və bəzilər də pozğun olmuşlar. 896-cı ildə Roma Papası altıncı Stefan neçə ay öncə basdırılmış sabiq Papa Formosusun cənazəsinin qəbirdən çıxarılması əmrini verdi. Ölmüş Roma Papasını qəbirdən çıxararaq müttəhimlər kürsüsündə oturtdular və mühakimə etdərək cəzalandırılması hökmünü çıxartdılar. Cəzaya uyğun olaraq onun burnunu və qulaqlarını kəsdilər, bir neçə hissəyə parçaladılar və Romadan keçən Tibr çayına atdılar. Bir müddətdən sonra rahiblərdən biri cənazənin hissələrini toplayaraq basdırdı. Roma Papası altıncı Aleksandrın (1492-1503) həyata keçirdiyi pozğunluqlar və dəhşətli əməllər tarixdə çox məşhurdur. Amma bu işlərin heç birisi dünya katoliklərinin belə Papaları Antipapalar kimi tanımasına səbəb olmadı.

Papa olmaq müddətli deyildir və ömürünün axırınadək davam edir. Papa dünyasını dəyişəndə "Kardinal" adlandırılan yüksək məqamlı Yepiskoplar yeni Roma Papasının seçilməsi üçün Vatikanda bir araya gəlirlər və Papanın kim olması barəsində məşvərət aparırlar. Lazımi qədər səs toplanıldıqda rəy kağızları xüsusi samanla birlikdə yandırırlar və məxsusi tüstü borusundan üğ tüstü çıxır. Tüstü borusundan ağ tüstünün çıxması yeni Papanın seçilməsini insanlara çatdırmaq mənasını daşıyır. Bir müddətdən sonra Kardinallardan biri eyvana çıxaraq qaydaya uyğun olaraq Latın dilində bu sözləri söyləyir: "Habemus Papam", yəni "Bizim Papamız var". Bu sözdən sonra yeni Papanın adını söyləyir. Tanıdılma mərasiminin başa çatmasından sonra yeni Papa eyvana çıxaraq insanları əlinin yelləyərək salamlayır. Amma lazımi qədər səs toplanılmadıqda rəy kağızları xüsusi otla yandırılır və tüstü borusundan boz tüstü çıxır. Bu işarə insan-

lara yeni Papanın hələ seçilmədiyini və müzakirələrin davam etdiyini çatdırır.

Artıq min ildir ki, Papalar seçiləndən sonra öz adlarını dəyişdirirlər. Bu müddət ərzində Papaların iyirmi üç nəfərinin adı "Jan" və altı nəfərinin adı "Pol" olmuşdur. Roma Papası iyirmi üçüncü Jan 1963-cü ildə dünyasını dəyişdi və altıncı Pol onun yerinə keçdi. Onun 1978-ci ildə vəfat etməsindən sonra seçilən Papa tarixdə ilk dəfə olaraq adını " Birinci Jan Pol" qoydu. O bu addımı ilə özündən öncə olan hər iki Papanın yolunu davam etdirmək istədiyini bildirdi. Amma, bu Ropma Papası 28 gündən sonra dünyasını dəyişdi və Polşalı Kardinal Karol Voytila Papa seçildi və özündən öncə olan üç Papaya hörmət əlaməti olaraq özünü "İkinci Jan Pol" adlandırdı. İkinci Jan Pol katolik kilsənin ən məşhur Papalarından biri kimi tarixə düşdü. O, 27 illik Papalıq dövründə dünyanın müxtəlif ölkələrinə yüzdən çox səfərlər etdi. Qeyd etmək lazımdır ki, İkinci Jan Polun Papa seçilməsindən sonra Roma Papası olmaq inhisarçılığı İtaliyanın əlindən çıxdı və o ilk qeyri-İtaliyalı Papa oldu.

### 15-1. Papa və İmperator

528-565-ci illərdə Şərqi Romanın imperatoru olmuş Yustinyan din və dövlət arasındakı əlqəni belə qeyd edir:

*"Kilsə və İmperatorluq Allahın öz tükənməz rəhmətilə bəşəriyyətə bəxş etdiyi ən böyük nemətlərdəndir. Kilsə ilahi məsələlərlə məşğul olur və imperatorluq insanların işlərinə nəzarət və onlara başçılıq etmək üçün nəzərdə tutulur. Bunların hər ikisi eyni yerdən qaynaqlanır və bəşəriyyəti irəliyə doğru hidayət edir. Elə bu səbəbdən də, İmperatorlar üçün onların rifahı üçün dua edən keşişlərə hörmət və ehtiram etməkdən mühim iş ola bilməz. Əgər kilsə hər yerdə eyibsiz çalışarsa və imperatorluq Allaha tam arxalanaraq ədalət və insafla dövləti idarə edərsə, hamıya müsbət təsir göstərəcəkdir və bütün yaxşılıqlar insanlara nazil olacaqdır. Deməli, biz ilahi məsələləri təlim etmək və kilsənin hörmətini qorumaq üçün daha diqqətli olmalıyıq və bu məsələyə əhəmiyyət verməliyik. Əgər qeyd olunan məsələ-*

*lər lazımınca yerinə yetirilərsə Allahın əta edə biləcəyi ən böyük rifah və yaxşılıq meydana çıxacaqdır. Bizim əldə etdiyimiz nemətlər daimi olacaqdır və malik olmadığımız nemətlər bizə nazil olacaqdır.... Bizim nəzərimizcə bu hadisələr kilsənin müqəddəs qanunlarını həyata keçirdiyimiz təqdirdə baş verəcəkdir. Bu qanunları bizə təqvalı və möhtərəm elçilər, eləcə də Allah sözünə xidmət edənlər çatdırmışlar və müqəddəs atalar onlara açıqlama verərək bizim üçün qoruyub saxlamışlar."*[1]

Papalıq məqamı 868-1049-cu illərdə, yəni iki yüz ilə yaxın zəiflədi və öz qüdrətini itirdi. Belə ki, o dövrün bəzi Papalarını Avropanın zadəgan ailələrindən olan olan Marusya adlı bir qız Papalığa təyin edirdi. Bu Papalar namünasib şəkildə pozğun və pis insanların arasından seçilirdi. Həmən şəxslərin bəzilərinin Marusiya ilə yaxınlıq əlaqələri də olmuşdur. O zamanlar Papalıq məqamına çatmaq üçün qətl, rüşvət və digər pozğun əməllərdən istifadə olunurdu. Məsələn, doqquzuncu Benedikt 12 yaşında Papa məqamına seçildi və bu məqamda olduğu müddətdə pozğun həyat tərzi keçirtdi. Bu dövr rühanilərinin əksəriyyəti də pozğunluq və əxlaqsızlıqla məşğul olmağa başladılar.

Papalıq məqamının yenidən təmizlənməsindən və islah edilməsindən sonra onları siyasi qüdrətləri tədricən xristyan şahların qüdrətindən daha çox oldu və Papalar həmən şahları nəzarətləri və fərmanları altında saxlamağa başladılar. Roma Papası Üçüncü İnnokentin (1198-1216-cı illərdə Papa olmuşdur) İngiltərə padşahının suallarına cavab olaraq ünvanladığı məktubda bu üstünlüyün şahidi ola bilərsiniz:

*"Allahın bəndələrindən biri olan Yepiskop İnnosentdən xristyanlıqdakı sevimli oğlu, canı, İngiltərənin məşhur padşahı və onun qanun, azadi varislərinə əbədiyyətə qədər salam olsun.*

*Şahlar şahı və ağalar ağası! Əbədiyyətə qədər ən yüksək mərtəbəli kahin kimi qalacaq İsa Məsih kilsə səltənətini və kahinliyini elə*

---

[1] R. Schoel, Corpus Iuris Civilis, vol III, Novellae (Berlin, 1912) pp.35-36

*bir şəkildə təsis etmişdir ki, onlardan biri kahinlərin səltənəti və digəri padşahların səltənəti olmuşdur. Musa Tövratda (Xuruc 19:6) və Petrosun birinci məktubu(2:5-10) qeyd etdikləri kimi. O, bir nəfəri hamıdan yüksəyə qaldırdı və onu özünün yer üzərindəki xəlifəsi təyin etdi ki, bütün dizlər, istər göylərdəki, istər yerdəki və istərsə də yerin altındakı məxluqların dizləri İsa üçün qatlansın. Buna görə də, hamı onun xəlifəsinə itaət etməlidir və bir başçının və çobanının olmasına çalışmalıdır. Yer üzərində mövcud olan bütün şahlar Allahın xətrinə bu xəlifəyə və canişinə hörmət qoymalıdırlar və ona baş əymədikləri təqdirdə onların hakimiyyətinin düzgünlüyü sual altına düşməlidir.*

*Əziz və sevimli oğlum! Siz bu məsələyə ağıllı tərzdə yanaşdınız və şahların ürəklərini əlində saxlayan və onları istədiyi şəkildə idarə edən Allahın rəhmanlığından ilham alaraq öz məmləkətinizin dünyəvi işlərini mənəviyyat baxımından onun rəiyyətlərindən olan bir kəsə təslim edəsiniz. Beləliklə də, padşahlıq və kahinlik ruh və bədən kimi xeyirli işləri görmək və böyük amalları həyata keçirmək üçün Məsihin canişini olan bir şəxsdə birləşəcəkdir. (İsa) çox qeyri-adi bir iş görmüşdür..... Qədim zamanlardan belə müqəddəs Roma kilsəsini öz mənəvi işlərinin hakimi kimi təyin edən məmləkətlər indi kilsəni özlərinin dünyəvi işlərinin hakimi kimi də təyin etmişlər. Siz layiqli xidmətçi kimi Allah tərəfindən bu məqama seçilmisiniz. Siz Allaha, onun Petros, Pavlos kimi elçilərinə,müqəddəs Roma kilsəsinə, bizə və bizim canişinlərimizə ildə yüz min mark*[1] *ödəmək yolu ilə özününzün, İngiltərə və İrlandiyanın hüquq və hörmətini, eləcə də saray əhlinin gücləndirilməsi sahəsindəki əzmkarlığınızı nümayiş etdirmisiniz. Siz öz ehtiramınızı bildirdiyiniz məktuba qızıl möhürünüzü də qoymusunuz ki, bizim haqqımız və mülkiyyətimiz olsun. Məktubun mətni eynilə belədir....”*[2]

Papaların və xristyan hökümdarların qüdrətlərinin enişli-yoxuşlu tarixi və bu sahədə meydana çıxmış qarşıdurmalar orta əsrlər tarixi-

---

[1] Qızıl pul

[2] W. Stubbs, Select Charters (Oxford, Clarndon, 1885)

nin böyük hissəsini əhatə etmişdir. O dövrdə yazılmış siyasi yazılarda belə bu barədə geniş söhbətlər açılmış və katolik Roma kilsəsindən, yaxud müqəddəs Roma padşahlığından hansı birisinin daha üstün olması barədə nəzərlər söylənilmişdir.

On üçüncü əsrdə müqəddəs Tomas Akvinas (1274-cü ildə vəfat etmişdir) "İlahiyyatın xülasəsi" adlı kitabında kilsənin ifa etdiyi rolu dəstəkləmişdir və on dördüncü əsrdə yaşamış Dante "Səltənət barəsində" adlı kitabında imperatorla Papanın birgə nəzarəti altında olan vahid xristyanlıqdan söz açır.

**15-2. Papa məqamı uğrunda olan çəkişmələr**

İmperator Dördüncü Filipin təzyiqləri nəticəsində 1309-cu ildə Papanın qərargahı İtaliyanın Roma şəhərindən Fransanın Avinyon şəhərinə köçürüldü və bu vəziyyət 1377-ci ilədək, yəni təxminən yetmiş il davam etdi. Bu hadisəni Yəhudilərin eradan əvvəl 6-cı əsrdə Babilistandan qovulmasına bənzədərk "Papaların Babilsayağı qovulması" adlandırdılar.

Papaların qərargahı yenidən Romaya qaytarılanda Avinyondan yeni Papalar meydana çıxdı və onları sonralar Anti-Papa adlandırmağa başladılar. Bu məsələ tarixdə "Böyük parçalanma" kimi qeyd olunmuşdur və 1377-ci ildən 1417-ci ilədək, yəni qırx il davam etmişdir.

15-ci əsrin əvvəllərindən qarşıdurmaların və çaxnaşmaların güclənməsi nəticəsində katoliklərin kilsəsində üç Papa rəqabət etməyə başladı. Çünki, Roma Papası On ikinci Qriqori, Avinyonun Anti-Papası Üçüncü Benedikt və İmperatorun Papa kimi təyin etdiyi iyirmi üçüncü Jan Papalığa iddialı idilər. Beləliklə də, xristyanlıq üç iddiaçı ilə üzləşdi və onların hər birisi iki rəqibinin səhv, özünün haqq və düzgün olduğunu bildirirdilər. Bu və digər məsələlərə baxmaq, onları araşdırmaq məqsədilə yaradılmış Konstans Şurası (1414-1418-ci illərdə) hər üç iddiaçını bu mıqamdan uzaqlaşdıraraq Beşinci Martini Papa elan etdi və bununla da "Böyük parçalanma" sona çatdı.

Bu zaman kəsiyində güclü Papalar meydana çıxdı və onların ən tanınmışı Altıncı Aleksandr idi. Altıncı Aleksandrın böyük əxlaqi

pozğunluqlarına baxmayaraq, xristyanlığın inkişafı və çiçəklənməsi sahəsində atdığı möhtəşəm addımlara görə tarixdə adı müsbət qeyd olunmuşdur.

### 15-3. Papaların siyasi qüdrətlərinin azalması

16-cı əsrdə Nikola Makyavelli qələmə aldığı "Hökümdar" əsərində qüdrətə və hakimiyyətə çatmaq üçün hansı meyarlardan istifadə etmək məsələsini araşdırmışdır. O, hakimiyyətə çatmaq istəyən şəxslərə məsləhət verərək qüdrətə və hakimiyyətə çatmaq üçün əxlaq normalarını nəzərə almamalarını bildirilmişdir.

Papaların nəzarəti altında olan ərazilərdə onların qüdrətini və hörmətlərini aşağı saldı. Onların ən mühimi Lüterin 1517-ci ildə Papalara qarşı həyata keçirdiyi qiyam olmuşdur. O, Almaniya hökümdarlarının köməkliyi ilə müvəffəqiyyət qazandı. Lüterin 1520-ci ildə böyük hiddətlə bildirdiyi amallarından biri Almaniyanın Papa hakimiyyəti altından çıxarılması idi. Başqa silahlı şəxslər Avropanın digər bölgələrində də xırda hökümətlər yarada bildiər.

1651-ci ildə Tomas Habs (Thomas Hobbes) "Levyatlar" (Leviathan) kitabında belə yazır ki, "Hakim qüvvənin qüdrəti məhdudlaşmamalıdır. Çünki, bu qüdrət ictimai sazişdən mənşə alır və buna görə də, hökumət ictimai təhlükəsizliyi təmin etməlidir və insanların istəklərini həyata keçirmək üçün bütün lazımi işləri həyata keçirməlidir." O, bu kitabında yazır: "Papalıq məqamı Roma imperatorluğunun qəbri üstündə oturmuş və başına tac qoymuş imperatorluğa bənzər bir qurluşdur."[1]

Elə o zamanlar, Con Lok belə deyirdi: "Hökumət insanların müqabilində üzərilərinə düşən öhdəlikləri həyata keçirməkdən boyun qaçırmaq istərsə onu devirmək lazımdır.

Sonda kilsənin siyasi və ictimai məsələlərinə lüzumsuz müdaxilələrinə görə qərb ölkələrinin alim və mütəfəkkirləri belə bir nəticə çatdılar ki, dinin siyasətə müdaxiləsi yalnız və yalnız ruhani ataların

---

[11] Levtatlar, 4:47

xeyrinədir və insanların əksəriyyəti bu yersiz müdaxilədən əziyyət çəkirlər. İnsanlar da kilsənin bu ədalətsizliklərindən bezərək bu fikri dəstəklədilər və illər boyu ideloji, hərbi mübarizə aparmaq kilsənin caynaqlarından özlərini qurtara bildilər.

Papanın siyasi qüdrəti illər boyu davam edən sakitlikdən sonra zəifləməyə başladı. Fransa və İtaliyanın başçıları hərbi yolla və ümumi fikrə arxalanaraq Papaların saraylarını, imarətlərini və mülklərini müsadirə etdilər və 1806-cı ildə onları siyasi hakimiyyətinə son qoydular.

Papaların itaət altına salınması asan iş deyildi. Elə bu səbəbdən də, İtaliya hökuməti zəmanət qanunlarında (18 oktyabr 1870-ci ildə) sarayların bəzilərini Papaya qaytardılar və müəyyən qədər siyasi hüquq verdilər.

Papa zəmanət qanununu qəbul etmədi və bu hadisə 60 il ərzində İtaliya hökuməti ilə Vatikan arasındakı əlaqələrin kəsilməsinə səbəb oldu. Sonda, üç il davam edən müzakirələrdən sonra 1929-cu ilin fevral ayının 11-də Vatikanla İtaliya arasında Latran sazişi imzalandı və Papa hökumətinin Vatikanın ixtiyarında qalması ilə Romanın bu sahədə üzləşdiyi problemlər öz həllini tapdı. Beləliklə, "Dinin siyasətdən ayrılması" Avropada rəsmiləşdi.

1984-cü ildə Vatikanla İtaliya arasında yeni saziş imzalandı və Latran sazişinin yerini tutdu. Artıq iki yüz ilə yaxındır ki, Papa Vatikan hökuməti məhdud şəkildə davam edir.

## 16. Digər xristyan quruluşları

Böyük Roma İmperiyasının 395-ci ildə parçalanmasından sonra paytaxtı Konstantinopol olan Şərqi Roma, Bizans imperatorluğu ilə paytaxtı Roma olan Qərbi Roma İmperiyasının və Roma Papasının arasında 1453-cü ilədək, yəni Soltan Məhəmməd Fateh Osmanlının Konstantinopolu fəth etdiyi zamanadək rəqabət mövcud olmuşdur. 1054-cü ildə daha da kəskinləşən bu rəqabət sonda Ortodoks kilsəsi-

nin yaranması ilə nəticələndi. Ortodoks kilsəsilə katolik kilsəsi arasında mövcud olan qarşıdurma rəhbərlik və liderlik məsələsi sahəsində olmuşdur. Ortodokslar Roma yepiskopunu, yəni Roma Papasını xristyanların tək rəhbəri kimi qəbul etmək istəmirdilər və rəhbərlərin sayının çox olmasını və artırılmasını istəyirdilər.

Şərqi Roma İmperatoru ilə dini lider arasındakı əlaqə Simfoniya adlandırılırdı. Əslən Qeysəriyyə şəhərindən olan Yosebius tərəfindən yaradılmış bu quruluş İmperator üçün daha böyük ixtiyar nəzərdə tuturdu. Qeyd etmək lazımdır ki, kilsənin də özünəməxsus ixtiyarları var idi. Rusiyada da, dinlə dövlət arasındakı əlaqə möhkəm idi və Çar hökuməti zamanında Moskva kilsəsində Çarın tacqoyma mərasimini baş Yepiskop həyata keçirirdi.

1535-ci ildə Səkkizinci Henri və bəzi yepiskopların səyi ilə katolik kilsəsindən ayrılmış İngiltərə kilsəsində də şah həm dini, həm də dünyəvi məsələlər üzrə ən yüksək şəxs hesab edilirdi. İngilis kilsəsinin yaradıcısı olan Səkkizinci Henrinin özü həm şah, həm də ruhani idi. Amma, onun canişinləri və varisləri şahlıq edirdilər və özlərin ən ali dini rəhbər olduqları üçün Yepiskopların ən böyüsünü dini sahəyə rəhbər kimi təyin edirdilər.

İngiltərə şahlığının tərəfdarları 17-ci əsrdə şahlıq gücündən və qüdrətindən yararlanmaq üçün İlahi hüququn mövcud olmasına inanırdılar. Parlament tərəfdarları isə onların belə fikirlərinə qarşı çıxaraq siyasi qüdrətin insanların iradəsi ilə meydana çıxmasını bildirirdilər. 1643-1715-ci illərdə Dördüncü Luinin hakimiyyəti illərində (Onun hakimiyyəti 72 il davam etmişdir və bu Avropa tarixində ən uzun hakimiyyət kimi hesab olunur) şahın İlahi hüquqa bağlılığı kəskin şəkildə gözə çarpır və bu sonda Fransa inqilabının meydana çıxması ilə nəticələndi.

# 17. Əhdi-Cədid

Xristyanların müqəddəs kitabı iki hissədən ibarətdir: Əhdi-Cədid və Əhdi-Ətiq. Bu müqəddəs kitabların belə adlandırılmasının səbəbi Allahu-Taalanın insanla iki dəfə əhd-peyman bağlaması olmuşdur. Biri köhnə əhd-peymandır və o Həzrəti İsa Məsihdən (ə) öncə yaşamış başqa peyğəmbərlərlə bağlanılmışdır. Bu əhd-peymanda yaxşı və pis vədələrin, qanunların və şəriətin köməkliyi ilə nicat tapmağın bəzi yolları müəyyənləşdirilmişdir. Köhnə əhdin, yəni Əhdi-Ətiqin tərəfdarları Bəni-İsrail olmuşlar. İkincisi yeni Əhd-peymandır və Allahu-Taala onu Həzrət İsa Məsihə və onun tərəfdarlarına nazil etmişdir. Yeni Əhddə nicatın yalnız məhəbbət yolu ilə əldə olunması müəyyənləşir. Belə ki, onların nəzərinə görə Allah insan cildində görsənir, insan övladının günahlarını öz üzərinə götürür, çarmıxa çəkilmə əzabına dözərək bütün günahların müqabilində qurbana çevrilir. Tarixə nəzər salsaq görərik ki, belə düşüncə ağıl və məntiqlə üst-üstə düşməməsinə baxmayaraq xristyanlığın əsasını qoymuşdur. Yühənna İncilində bu sözlər qeyd olunmuşdur:

*"Allah bu dünyada o qədər məhəbbət bəslədir ki, öz yeganə oğlunu göndərdi və ona iman gətirənlərin həlak olmamasını, əbədi həyata qovuşmalarını buyurdu. Çünki, Allah öz oğlunu yer üzünə mühakimə etmək üçün göndərməmişdir, əksinə onun vasitəsilə dünya nicat tapsın. (Yühənna 3:16-17)*

Müqəddəs kitabın Köhnə Əhd barəsində olan hissəsi Əhdi-Ətiq və yeni Əhd barəsində olan hissəsi Əhdi-Cədid adlandırılır. Həqiqətdə isə Əhdi-Ətiq Yəhudilərin səmavi kitabıdır və xristyanlar həmən kitaba hörmət göstərərək onu öz kitablarının önündə yerləşdirmişlər.

Xristyanların nəzərincə Allahın bəşər əhli ilə bağladığı iki əhd-peyman mahiyyət baxımından bir-biriləri ilə ixtilafdadır və iki müxtəlif yolla ərsəyə gəlmişdir. Əhdi-Əiq Həzrət İsadan (ə) öncə yaşamış peyğəmbərlərin vasitəsilə şıfahi yolla bəyan edilmişdir, halbuki, Əhdi-Cədid Həzrət İsanın (ə) vasitəsilə insanlara çatdırılmışdır. Bu çat-

dırılma şifahi bəyanla məhdudlaşdırılmamışdır və ilahi qüvvənin insan formasına düşməsi yolu ilə insanların arasında yaşamaq yolu ilə həyata keçirilmişdir. Elə bu səbəbdən də, xristyanların nəzərincə bu əhd-peymanın bağlanılması zaman Allah iyirmi əsr bundan öncə insan cildinə girərək İsa adlı bir şəxsin daxilində qərar tapmışdır. Xristyanlar arasında çox yayılmış bir cümlə kimi istifadə etsək; “Kəlmə cismə çevrildi”. “Kəlmə” (Logos) sözü xristyan ilahiyyatında ən qədimi fəlsəfi terminlərdən biri kimi qəbul olunur.

Xristyanların nəzərincə Allahın insanlar üçün bəşər formasında təcəssüm etməsi şəriət barəsində, halal-haram barəsində söz açmaq üçün olmamışdır, əksinə Allah insan formasında təcəssüm edilməsindən sonra özünü insanların günahları yolunda özünün qurban vermək istəyirdi. Tarixə diqqət yetirsək bu düşüncə tərzinin xristyanların dini düşüncələrinin əsasını təşkil etməsinin şahidi olarıq.

Əhdi-Ətiqlə Əhdi-Cədid arasındakı fərqi sizin diqqətinizə çatdırmaq istərdim. Əhdi-Ətiqdə şəri məsələlər, dinin əhkamlar və hansı işlərin görülməsi, hansı işlərin yerinə yetirilməməsi barəsində söz açılır. Məsələn hansı işin görülməsinə icazə verilməsi, hansı işlərin qadağan buyurulması, hansı ətin halal və hansı ətin haram olması və s. kimi məsələlərə işarə edilir. Amma, Əhdi-Cədiddə belə məsələlər mövcud deyildir. Bu kitabda Allahın insanlara olan məhəbbəti üzündən insan cildində təcəssüm etməsi və bir müddətdən, yəni qısa və əzablı həyat yaşadıqdan sonra bəşəriyyətin günahları yolunda çarmıxa çəkilərək qətlə yetirildi.

Xristyanlar bu sahədə “Şəhid” və “Şəhidlik” sözündən istifadə etməyə daha çox təkid göstərirlər. Onların iddiasına görə Həzrət İsa (ə) “Qurban” edildi və insanların günahlarının bağışlanması yolunda fədakarlıq edərək özünü qurban verdi. Qeyd etmək lazımdır ki, dünyada mövcud olan bütün cəmiyyətlərdə olduğu kimi xristyan cəmiyyətində də şəhid məfhumu mövcuddur və həvarilər kimi tanınan ilk xristyanların əksəriyyəti şəhid adlandırılırlar. Amma Həzrət İsa (ə) barəsində bu sözdən istifadə etmirlər.

Əhdi-Cədid Yunan dilində qələmə alınmışdır. Əhdi-Cədidin başlanğıcında dörd incil qeyd olunmuşdur. İncil sözü Yunan dilində

“müjdə” mənasını verir, Səmavi mələkutun yaxınlaşması münasibətilə müjdə.

Əhdi-Cədidin hamısı xristyanlar tərəfindən qəbul olunur və onların arasında Epokrifa mövcud deyildir. Qeyd etmək lazımdır ki, Əhdi-Cədid barəsindəki epokrifa kitabları Əhdi-Ətiq sahəsindəki epokrifa kitablarından daha çoxdur. Amma elə ilk iki-üç əsrdə xristyanlar yavaş-yavaş Əhdi-Cədid sahəsindəki bütün kitabları ətrafında vahid məxrəcə gəldilər.

Müqəddəs kitab dəfələrlə dünyanın müxtəlif dillərinə tərcümə olunmuşdur və bu kitabın dünyanın hər yerində yayımlanması sahəsində müxtəlif təşkilatlar mövcuddur. Onlardan biri 1804-cü ildə Londonda təsis edilmiş “Müqəddəs kitablar üzrə agentlik”-dir. Bu agentliyin dünyanın müxtəlif ölkələrində nümayəndəlikləri də vardır. YUNESCO[1]-nun illik hesabatlarına və statistik məlumatlarına əsasən xristyanların müqəddəs kitabları dünyadaən çox çap olunan və yayımlanan kitabdır. Marksizmin süquta uğramasından öncə Marksizm barəsində mövcud olan kitablar ən çox satılan kitab idi. Müqəddəs kitablardan sonra ən çox satılan kitablar nağıl və hekayə kitablarıdır.

Əhdi-Ətiq və Əhdi-Cədid kitablar toplusu 66 kitabdan ibarətdir: Əhdi-Ətiq 39 kitabdan ibarətdir və onun mündərəcatı yəhudilik bölümündə sadalandı. Əhdi-Cədid 27 kitabdan ibarətdir və onlar mövzu baxımınan dörd hissəyə bölünürlər:

1. İncillər
2. Həvarilərin işləri
3. Həvarilərin məktubları
4. Apokolipsis və vəhylər

### 17-1. İncillər

Həzrət İsanın (ə) dostlarının və davamçılarının böyük əksəriyyəti O Həzrətin həyatını və dəyərli sözlərini yazmağa başladılar.

[1] YUNESCO və Birləşmiş Millətlər Təşkilatının digər bölmələri (Əsas qərar qəbul edici Təhlükəsizlik Şurasından başqa) müstəqil şəkildə fəaliyyət göstərirlər və onların yaradılmasındakı əsas məqsəd müqəddəs və böyük arzular olmuşdur.

Sonralar həmən şəxsiyyətləri qələmə aldığı bütün yazıları bir yerə toplayaraq İncil adlandırdılar. Zaman ötdükcə həmən İncillərdən dördü rəsmiləşdi və qalan İncillər isə unuduldu.[1]

Birinci və dördüncü İncilləri qələmə alan şəxslər Həvarilərdəndirlər və digər ikisi isə Həvarilərin Həvariləridirlər. İlk üç incil arasında ahəngdarlıq mövcuddur və elə bu səbəbdən də onları eyni məzmunlu İncillər adlandırırlar.Dörd İncil kitabı bunlardır:

1. Matta İncili (Əhdi-Ətiqin verdiyi qeybi xəbərləri əsas tutmaqla Məsihin həyatı və sözləri barəsində)
2. Mark İncili (Məsihin həyatı barəsində ən qədimi və ən qısa kitab)
3. Luka İncili (Ən xırdalıqlara işarə etməklə Məsihin həyatı və sözləri barəsində)
4. Yühənna İncili (Həzrət Məsihin qeyri-adi insan olmasına təkid etməklə O Həzrətin həyatı və sözləri barəsində yazılmış ən sonuncu kitab)

**17-2. Həvarilərin işləri**

1-ci əsrdə Xristyanlıq Həvarilərinin həyatları barəsində çoxlu kitab qələmə alınmışdır. Amma onlardan biri hamı tərəfindən təsdiq olunaraq rəsmiyyət qazandı.

Həvarilərin işləri (Luka tərəfindən qələmə alınmışdır. O eləcə də, üçüncü incilin müəllifidir və bu kitabında elçilər və xüsusən də Pavlos barəsində məlumat vermişdir)

[1] Müsəlmanların çox diqqət yetirdiyi Barnaba İncilində sonuncu peyğəmbər Həzrət Muhəmmədin (s) gələcəyi barəsində söz açılmışdır, amma bu İncil xristyanlar tərəfindən qəbul olunmur və onu saxta İncil adlandırırlar. Barnaba İncilinin adı Papa Qlasiusun Həzrət Muhəmmədin (s) besətindən öncə çap etdirdiyi kitabın mündərəcatında qeyd olunmuşdur, amma xristyanların nəzərincə həmin İncil itmişdir və hal-hazırda mövcud olan Barnaba İnciliylə heç bir əlaqəsi yoxdur. Qeyd etmək lazımdır ki, Xristyanlarda Barnaba risaləsi adlı bir yazı da mövcuddur və xristyanlar bu yazıya hörmətlə yanaşırlar. Amma qeyd etdiyimiz bu risalə Barnaba İncilindən fərqlidir.

### 17-3. Həvarilərin məktubları

Xristyanlığın bəzi Həvariləri öz dövrlərinin xristyan cəmiyyətlərinə və böyük şəxsiyyətlərinə məktublar ünvanlayırdılar. Bu məktublar yavaş-yavaş böyük əhəmiyyət kəsb etməyə başladı və yeni dövrə daxil oldu. Pavlosdan çıxış yolları, iddialar və öz mübahisələri barəsində yazılmış on üç məktub mövcuddur. On dördüncü məktubun müəllifi naməlum bir şəxsdir və on beşinci məktubun müəllifi isə Pavlosun düşüncələrini tənqid edən Yaqub adlı bir şəxsdir. Sonrakı məktublar Həvarilərdən sayılan Petrosla Yuhannaya aid edilir və sonuncu məktubun müəllifi "Yəhuda" adlı bir şəxsdir. Bu məktublar aşağıdakılardır:

1. Elçi Pavlosun Romalılara məktubu (Roma xalqı)
2. Elçi Pavlosun Korinflilərə Birinci məktubu (Korinf əhalisinə)
3. Elçi Pavlosun Korinflilərə ikinci məktubu
4. Elçi Pavlosun Qalatiyalılara məktubu (Qalatiya əhalisinə)
5. Elçi Pavlosun Efeslilərə məktubu (Efes əhalisinə)
6. Elçi Pavlosun Filipililərə məktubu (Filipi əhalisinə)
7. Elçi Pavlosun Koloslulara məktubu (Kolos əhalisinə)
8. Elçi Pavlosun Saloniklilərə birinci məktubu (Salonik əhalisinə)
9. Elçi Pavlosun Saloniklilərə ikinci məktubu (Salonik əhalisinə)
10. Elçi Pavlosun Timofeyə birinci məktubu (Şəxs adı)
11. Elçi Pavlosun Timofeyə ikinci məktubu (Şəxs adı)
12. Elçi Pavlosun Titusa məktubu (Şəxs adı)
13. Elçi Pavlosun Filimona məktubu (Şəxs adı)
14. İbranilərə məktub (Pavlosun və yaxud başqa bir fərdin Yəhudilərə məktubu)
15. Yaqubun məktubu (Bütün xristyanlara)
16. Petrosun birinci məktubu (Bütün xristyanlara)
17. Petrosun ikinci məktubu (Bütün xristyanlara)
18. Yuhannanın birinci məktubu (Bütün xristyanlara)

19. Yuhannanın ikinci məktubu (Bütün xristyanlara)
20. Yuhannanın üçüncü məktubu (Bütün xristyanlara)
21. Yəhudanın məktubu (Bütün xristyanlara)

**17-4. Mükaşifə**

Həzrət Məsihin (ə) gəlməsindən öncə Yəhudilər arasında ruhi kəşflər (Apokolipsis) barəsində çoxlu məktublar yayılmışdı və Əhdi-Ətiqdə mövcud olan Danialın kitabı həmin məktublardan hesab edilir. Xristyanlar da yeni mükaşifə kitabları yazmağa başladılar. Eləcə də, Yəhudilər bəzi mükaşifə kitablarında dəyişikliklər aparmaqla onarı xristyanların istəklərinə uyğun olaraq tənzimlədilər. Əhdi-Cədidin sonunda yerləşən Yühənnanın vəhyi kitabında xristyanların inkişaf edəcəyi barəsində qeybi xəbər verilir və xristyanlar üçün olduqca əhəmiyyətli yazılardan biri kimi hesab edilir. Xristyanların inancına görə Yühənna İsanın (ə) azyaşlı Həvarilərindən biri olmuşdur. O bu əsərdə ahıl yaşlarında gördüyü bir yuxunu şərh edir. Kitab Elçi Yühənnanın mükaşifəsi adlanır.

## 18. Müqəddəs kitabın mötəbərliyi

Müqəddəs kitabın mötəbər olmasını iki yolla araşdırmaq olar:
1. Kitab əhli nöqteyi nəzərindən
2. Dindar olmayan alimlər nöqteyi nəzərindən

Müsəlmanların bu sahədəki baxışları bu iki baxışdan fərqlidir və bu baxış onuncu fəsildə geniş şəkildə qeyd olunmuşdur.

**18-1. Kitab əhlinin nəzəri**

Yəhudilərin və xristyanların Əhdi-Ətiqin düzgün, müqəddəs, etibarli və ilahi olmasına etiqadı, xristyanların Əhdi-Cədidin düzgün, müqəddəs, etibarli və ilahi olmasına etiqadı və Müsəlmanların Qurani-Kərimin düzgün, müqəddəs, etibarli və ilahi olmasına etiqadı ilə

tam üst-üstə düşür. Yəni bu üç din davamçılarının öz müqəddəs kitablarına olan hörmət və ehtiramı, eləcə də imanı eynidir.

Onlar hər hansı səmavi kitaba uyğun gələn hörmət və ehtiram dolu sözləri Əhdi-Ətiq və Əhdi-Cədid barəsində istifadə edirlər. Yəni onların arasında da müqəddəs kitab, Allahın kitabı və vəhy kimi sözlərdən öz müqəddəs kitablarını tanıtmaq üçün istifadə edirlər. Müasir yazıçı olan Tomas Mişel yazır:

*"Xristyanların nəzərincə Allah müqəddəs kitabları insan övladlarından olan müəlliflərin əli ilə yazır və elə bu səbəbdən də, müqəddəs kitabların bir ilahi və bir də bəşəri müəllifinin olmasını bildirilər. Başqa sözlə desək, xristyanların nəzərincə Allah müqəddəs kitabı Müqəddəs Ruhun ilham pərisinin köməkliyi ilə yaratmışdır və bu məqsədlə də onun yazılması üçün bəşər övladlarından seçmişdir. Onları bu yazıları qələmə almaqda elə istiqamətləndirmişdi ki, ancaq onun istədiyi sözləri və məsələləri qələmə almışdılar.*

*Müsəlmanların nəzərincə xristyanların bu sahədəki etiqadı İslam və müsəlman əqidəsindən fərqlidir. Xristyanların nəzərincə Allah müqəddəs kitabı yer üzərindəki müəlliflərin əli ilə yazmasına baxmayaraq sonda müqəddəs kitabın sonuncu müəllifi özüdür. Müqəddəs kitabların yer üzərində yaşayan müəlliflərinin hər biri xüsusi bir zamanda yaşamışlar və öz zəmanəsinə uyğunlaşmışlar. Bu müəlliflər digər insanlar kimi dil və elm məhdudiyyətləri ilə üzləşmişlər. Xristyanların nəzərincə Allah müqəddəs kitabları insanlara imla formasında deməmişdir. Əksinə İlahi kəlamları və düşüncələri çatdırmaq üçün onların hər birisinə xüsusi yazıçılıq üslubu bəxş etmişdir.*[1]

Yəhudilər və Xristyanlar Tövratın birbaşa olaraq Həzrət Musa (ə) tərəfindən qələmə alındığını bildirirlər. Eləcə də, Əhdi-Ətiqin bəzi bölümlərinin başqa peyğəmbərlər tərəfindən qələmə alındığını vurğulayırlar. Xristyanların nəzərincə Həvarilər və Həvarilərin Həvariləri dörd İncili Həzrət İsadan (ə) çox illər sonra qələmə almışlar. Xristyanlığın yarandığı ilk zamanlardan yeganə müqəddəs kitab Əhdi-Əti-

[1] Mişel, Tomas, Xristyan kəlamı

qin dildə mövcud olan kitabları sayılırdı, amma sonralar Əhdi-Cədid tədricən Xristyan cəmiyyətlərinə daxil olmağa və müqəddəsləşməyə başladı.

Xristyanların hamısı həmişə və hər yerdə bu fikir üzərində təkid göstərmişlər ki, hal-hazırda mövcud olan İncillər Həzrət İsaın (ə) öz buyurduqları və həyatıdır və Matta, Mark, Luka və Yühənna onları qələmə almışlar. Luka İncilinin başlanğıcında bu sözlər qeyd olunmuşdur:

*"Bir çoxlarının bizim yanımızda baş vermiş və tamamlanmış, eləcə də lap öncədən kəlamın nəzarətçiləri və xidmətçiləri tərəfin bizə çatdırılmış hadisələrin qələmə alınmasına əl uzatmalarına görə biz onların hamısının diqqətlə əvvəldən sonadək sənə yazmaq qərarına gəldim ey əziz Tivfilos!"* (Luka 1:1-3)

Diqqətə layiq məsələlərdən biri də bundan ibarətdir ki, hal-hazırki İncillərdə yalnız O Həzrətin sözləri və hədisləri qeyd olunur və heç zaman öz hikmətli sözlərindən və dini elmlərdən birbaşa İlahi müraciətə əlavə etmirlər. (Halbuki, hal-hazırki Tövratda Həzrət Musanın (ə) həyatı və kəlamlarından başqa digər müraciətlər də mövcuddur).

Qeyd etmək lazımdır ki, Qurani-Kərimdə buyurulanlara əsasən həqiqi İncil Həzrət İsaya (ə) nazil olmuşdur (Ali-İmaran 3-4, Maidə 46-47, Məryəm 30 və Hədid 27) və həmən İncilin hal-hazırda mövcud olan İncil kitabı ilə heç bir bağlılığı yoxdur.

Tarixə nəzərə yetirsək görərik ki, Xristyanlar Həzrət İsanın (ə) kitabının olmasına heç vaxt inanmamışlar və İncillərin O Həzrətin həyatından və kəlamlarından söz açdığını bildirmişlər. Tomas Mişel yazır:

*"İncillər yazılmamışdan öncə şifahi tərz mövcud idi. Xristyanların nəzərincə İsa (ə) 30-cu ildə vəfat etdi və onun davamçıları onu tanımışdılar, etdiyi işləri görmüşdülər, sözlərini eşitmişdilər və onun xatirəsini zehnlərində saxlamışdılar. Xristyanlar ilk dəfə ibadət üçün bir yerə toplaşanda həmin xatirələrini bir-birilərinə danışırdılar. Za-*

*man ötdükcə bu söhbət xüsusi çərçivəyə düşdü və həcmi get-gedə artmağa başladı."*[1]

Həzrət İsanın (ə) kitabının olmaması məsələsi heç bir yerdə qeyd olunmur. Çünki, hər bir xristyan üçün bu tam aydın məsələdi və O Həzrətin kitaba sahib olması məsələsi heç bir xristyanın zehninə belə gəlmir. Nadir hallarda müsəlmanlarla aparılan bəhslər zamanı bu məsələyə işarə edilir və onlar öz cəmiyyətlərində belə bir inancın olması məsələsini inkar edirlər. Tomas Mişel əlavə edərək yazır:

*"Xristyanlar heç bir zaman Həzrət Məsihin İncil adlı kitab gətirdiyini demirlər. Müsəlmanları Qurani Kərim və Peyğəmbərləri barəsində malik olduğu vəhy etiqadı xristyanlıqda mövcud deyil və Həzrət İsaya (ə) vəhy gəlməsi qəbul olunmur. Xristyanlar İsanı İlahi vəhyin təcəssümü kimi qəbul edirlər və onların əqidəsinə əsasən o heç bir vəhy gətirməmişdir, əksinə o vəhyin özü olmuşdur. Elə bu səbəbdən də, biz xristyanlar İsanın yazdığı və yaxud öz şagirdlərinə yazdırdığı İncili istəmirik və qəbul etmirik.*

*Xristyanların nöqteyi nəzərindən İsanın Allah kəlamının və vəhyinin təcəssümü olması məsələsini qəbul etmələrinin aydınlaşmasından sonra bu məsələni də qeyd etməliyik ki, onların əqidələrinə əsasən incillərin hamısı Onun şagirdlərinin səyi nəticəsində meydana çıxmışdır. Yəni, Onun şagirdləri ilham və Məsihə olan iman yolu ilə onun davamçılarının əksəriyyətində olan iman məfhumunu çatdırdılar. Bu dörd İncillərdən hər birisi Məsih barəsində özünəməxsus tərzdə şəhadət verir. İncillərin ümumi baxışdan və bəzi xırdalıqları nəzərindən bir-birilərindən fərqli olmalarına baxmayaraq hamısı İsanın hüviyyəti və şagirdlərinə qədər çatmış İlahi vəhyin mahiyyəti barəsində ümumi nəzərə malikdir. Elə bu səbəbdən də, Xristyanlar bir İncili götürüb digər İncilləri tərk edə bilmirlər. Çünki, onların imanları bu dörd İncilin ümumi təlimləri üzərində qurulmuşdur. Onların nəzərincə İncillərin hər hansı birini kənara qoymaq onların imanlarında naqislik yaradacaqdır.*

---

[1] Xristyan kəlamı, səh 43-44

*Bu məsələ bizi vəhy məsələsi sahəsində müsəlmanlarla xristyanlar arasında olan başqa bir fərqi çatdırır. Xristyanların nə az, nə də çox olmamaq şərtilə dörd İncilə etiqadı vardır və yalnız bu dörd İncilin düzgün olmasını, digər İncillərin səhv olmasını bildirirlər. Çünki, xristyan cəmiyyəti onların Allah tərəfindən olduğunu düşünürdü. Qeyd etmək lazımdır ki, xristyanların iman və etiqadları İsanın şagird və elçilərinin imanı üzərində qurulmuşdur və öncədən bildirdiyimiz kimi ilk xristyanların nəzərincə Allahın ruhu onların cəmiyyətinə (yəni Kilsəyə) hidayət bəxş etmişdir.*

*Bu məsələdən başa düşürük ki, Allah İncilin yazılı şəkildə olmadığı və İsanın kəlamlarının və əməllərinin şifahi şəkildə nəql olunduğu otuz il ərzində (30-cu ildən 60-cıilədək)həmin cəmiyyəti hidayət etmişdir. Müqəddəs Ruh göndərdiyi ilhamların və gətirdiyi vəhylərin vasitəsilə İncilləri qələmə alanları Məsihin sözlərini və əməllərini qələmə almaq sahəsində hidayət etmişdir. Müqəddəs Ruhun xüsusi şəkildə həyata keçirdiyi işlərdən biri də bundan ibarət idi ki, İncil yazanların kəlami baxışlarını Allahın istədiyi kimi İsanın həyatına, ölümünə və yenidən dirilməsinə yönəltmək yolu ilə insanlara çatdırmaqdan, hidayət etməkdən ibarət idi. Sonda ilk xristyan cəmiyyəti Müqəddəs Ruhun bələdçiliyi ilə saysız-hesabsız xristyan yazılarının içindən dörd İncil də daxil olmaqla 27 kitabı seçdi və onların İlahi vəhylə yazılmasını qəbul etdi. Bu yazılar Əhdi-Cədid adlandırılmağa başlanıldı və tarix boyu xristyan etiqadının əsasını təşkil etdi.*

*Xristyanlıqda qəbul olunan vəhy və müqəddəs kitablarla bu cür anlam İslam dinində bu sahədə mövcud olan anlamlarla fərqlidir. Müsəlmanlar Quran təlimləri ilə meydana gələn ümmətdir. Onların əqidəsinə görə Allah İslam peyğəmbərini göndərdi, Quranı ona vəhy etdi və bundan sonra İslam ümməti meydana çıxdı. Amma xristyanların nəzərincə xristyan cəmiyyəti Müqəddəs Ruhun təlimləri, xüsusi iman və İsadakı İlahi vəhylər barəsində yazdıqları öz kitablarının köməkliyi ilə yaranmışdır. Buna görə də, xristyan cəmiyyəti Əhdi-*

*Ətiqin 46*[1] *və Əhdi-Cədidin 27 kitabından ibarət olan müqəddəs kitabı qəbul etdi.*

*Müqəddəs kitablar barəsində əldə olunmuş bu razılıq cəmiyyətin ümumi səyləri nəticəsində meydana çıxdı. Bu icma tez bir zamanda yarandı və müqəddəs kitabların ilk siyahısı 150-200-ci illərdə hazırlandı. Bir neçə əsr sonra kilsə açıq-aydın tərzdə hansı kitabların müqəddəs bilinməsini bildirdi. (1546-cı ildə də Trent şurası belə bir iş görmüşdür) Qeyd etmək lazımdır ki, müqəddəs kitablar sahəsində qəbul olunan ən son qərarlar xristyanların bu sahədəki klassik etiqadlarını təsdiqləməkdən başqa yeni bir şey deyildir.*[2]

Ümumi formada belə qənaətə gəlmək olar ki, xristyanlar müqəddəs ruhun köməkliyi ilə öz müqəddəs kitablarını tanıyaraq müəyyənləşdirdilər və onların səmavi kitab olmasını sübut etmək məqsədilə üç növ etiqadi baxış irəli sürdülər:

1. Təmkin: Bu sözün mənası bundan ibarətdir ki, Allah öz sərhədsiz rəhmətinə görə öz kəlamlarını biz insanların zəif dərəcəsinə uyğun olaraq nazil etmişdir.
2. İmla: Yəni, Müqəddəs kitabları müqəddəs ruh "İmla etmişdir".
3. İlahi yazı: Yəni, Əhdi-Ətiqin və Əhdi-Cədinin sonuncu müəllifi Allah özü olmuşdur. Amma bu sözdə Allahın həmin ləfzləri bir-bir yaratması vacibliyi yoxdur və mövcud deyildir.

Sonda ikinci Vatikan Şurası müqəddəs kitab sahəsindəki baxışlarını "Allah Kəlamı" (Dei Verbum) adlı qərarda bəyan edərək həmən qərarın 11-ci maddəsində onları səmavi olmasını geniş şəkildə izah etmişdir.

Kitab əhlinin səmavi kitablar barəsindəki etiqadı Qurani-Kərimdə bu tərzdə qeyd olunmuşdur:

وَمَا قَدَرُوا اللَّهَ حَقَّ قَدْرِهِ إِذْ قَالُوا مَا أَنْزَلَ اللَّهُ عَلَى بَشَرٍ مِنْ شَيْءٍ قُلْ مَنْ أَنْزَلَ الْكِتَابَ الَّذِي جَاءَ بِهِ مُوسَى نُورًا وَهُدًى لِلنَّاسِ تَجْعَلُونَهُ قَرَاطِيسَ تُبْدُونَهَا وَتُخْفُونَ كَثِيرًا وَعُلِّمْتُمْ مَا لم تعلموا و لا آباوكم قل الله ثم ذرهم فى خوضهم يلعبون

---

[1] Protestantların nöqteyi-nəzərincə Əhdi-Ətiq 39 kitabdan ibarətdir və qalan 7 kitab Epokrifadır.

[2] Xristyan kəlamı, səh 49-51

“Onlar (yəhudilər): “Allah heç bir bəşərə bir şey (Quran) nazil etməmişdir”, - deməklə Allahı layiqincə qiymətləndirmədilər. De: “Musanın insanlara bir nur və hidayət olaraq gətirdiyi kitabı (Tövratı) kim nazil etmişdir? Siz onu vərəqlərə yazıb göstərir, bir çoxunu da gizlədirsiniz. (Əslində) siz (Quran vasitəsilə) özünüzün və atalarınızın bilmədiklərini öyrənmiş olursunuz. (Ya Rəsulum!) Sən: “Allah!” deyib çağır, sonra da onları burax ki, düşdükləri bataqlıqda oynaya-oynaya qalsınlar. (Özlərinin dedi-qodularında, pis işlərində və yaramaz əqidələrində davam etsinlər).”

Nümunə təfsirində qeyd etdiyimiz bu ayə kitab əhlinin Tövrat və İncil barəsindəki baxışlarını açıqlamaq üçün qeyd olunmuşdur.

### 18-2. Qeyri-din alimlərinin nəzərləri

Müasir elm sahələrinin dinlə olan bütün əlaqələrini kəsmələri və elmin müxtəlif sahələrində, o cümlədən tarix, sosiologiya, arxeologiya və s. sahələrində fövqəltəbii qüvvələrə inamın olmaması səbəbindən alimlər müqəddəs kitabın yalnız antik bir yazı olduğunu və insanlar tərəfindən ərsəyə gətirildiyini bildirirlər. Belə insanlar Yaradanın insanla vəhy yolu ilə saxladığı əlaqənin elm çərçivəsindən kənar olduğunu bildirirlər və bu cür anlamların elmlə heç bir bağlılığı olmadığını vurğulayırlar. Onlar hətta Peyğəmbərlərin doğurdan da mövcud olmalarına belə şübhə ilə yanaşırlar. Çünki, tarixi mənbələrdə həmən peyğəmbərlər barəsində birbaşa sənəd mövcud deyildir. Qeyri-din alimləri Əhdi-Ətiqin 2500 illik keçmişə və Əhdi-Cədid üçün kilsənin bildirdiyi tarixə uyğun olan tarix, yəni 1900 illik keçmişə malik olduğunu bildirirlər.

## 19. İnam və etiqadları

Xristyanların nəzərincə Lahut elmi (yəni ilahiyyat) onların bütün səylərin üzərində qurularaq xristyan imanını dərk etmək üçün nəzərdə tutulmuşdur. Fundamental ilahiyyatçı alimlər biz Allahı tanıya

bilmərik məsələsinə təkid göstərirlər. Amma bir halda istisna nəzərdə tutulur və o da Allahın özünün bəndəsinin gözü önündəki pərdələri götürməkdir. Elə bu səbəbdən də, ilahiyyat elmi dəqiq şəkildə vəhy elmi mənasını daşıyır. Xristyanların nöqteyi nəzərindən dini mütaliə və araşdırmaların əsasını təşkil edir və bu da İslam dinindəki kəlam bəhsindən daha genişdir. İlahiyyat elminə daxil olan mövzular aşağıdakılardır:

- Müqəddəs kitabın təlimləri barəsində olan mütaliələr
- Xristyan təlimlərinin nuru altında həqiqətləri anlamaq üçün göstərilən səylər və təlaşlar
- Xristyan iman və etiqadını bəyan edən tərkiblərdə əsrlər boyu meydana çıxmış tarixi dəyişikliklər
- Allahı yalnız ağıl və düşüncə yolu ilə anlamağın mümkünlüyü barəsində olan açıqlamalar
- Xristyan müqədddəsliyi məfhumunun açıqlanması və ona çatmaq yollarının bəyan edilməsi
- Əxlaq prinsipləri və xristyan təlimlərinin xristyanların həyatında göstərdiyi praktik təsirlər.

### 19-1. Köklər və əsaslar

Qurani-Kərimdə belə buyurulmuşdur:

وَقَالَتِ الْيَهُودُ عُزَيْرٌ ابْنُ اللَّهِ وَقَالَتِ النَّصَارَى الْمَسِيحُ ابْنُ اللَّهِ ذَلِكَ قَوْلُهُمْ بِأَفْوَاهِهِمْ يُضَاهِئُونَ قَوْلَ الَّذِينَ كَفَرُوا مِنْ قَبْلُ قَاتَلَهُمُ اللَّهُ أَنَّى يُؤْفَكُونَ

“Yəhudilər: “Üzeyr Allahın oğludur”, xaçpərəstlər də: “Məsih (İsa) Allahın oğludur”, - dedilər. Onların ağzında gəzən bu (boş) sözlər daha öncə küfr edənlərin (“mələklər Allahın qızlarıdır” – deyənlərin) sözlərinə bənzəyir. Allah onları öldürsün! (Allah onlara lənət eləsin!) Necə də (yalana uyub haqdan) döndərilirlər!” (Tövbə surəsi, ayə 30)

Son əsrlərdə bir dəstə qərb alimi apardıqları müşahidələrdən sonra belə qənaətə gəlmişlər ki, xristyanların əqidəsi ilə Hindistan dinlərində mövcud olan əqidələr arasında qeyri-adi oxşarlıqlar mövcuddur. Onlar həyata keçirdikləri araşdırma işlərində xristyanlıqda mövcud olan üçlük, fədakarlıq, xaç, çarmıxa çəkilmə və sair əqidələ-

rin bütpərəst məzhəblərinin əqidələrində də mövcud olmasını görmüşlər. Qeyd etmək lazımdır ki, belə əqidə formaları Bəni-İsrail əqidələrində mövcud deyildir.

Tədqiqatçı alimlər hətta İncildən olan bəzi cümlələri də Hinduizm və Buddizmin müqəddəs kitablarından olan cümlələrlə müqayisə edərkən öz təəccüblərini gizlədə bilməmişlər. Onlar hətta İsaya (ə) aid edilən Allahın qurbanı, Allahın övladı, günahları götürən, fəda olan və sair ləqəblər belə həmən məzhəblərdə də mövcuddur. Hinduizm və Buddizm dinlərinin tarixi daha keçmişə qayıtdığı üçün alimlər xristyanlıqda olan belə etiqadların və terminlərin o dinlərdən götürülməsi ehtimalının çox güclü olduğunu bildirirlər.

1947-ci ildə Fələstin səhrasında Ölü dənizin sahillərində yerləşən mağaralarda tapılan kağızlara yazılmış yazılar xristyanlıq barəsində yeni düşüncə hərəkatı yaratdı. Bu yazılı kağızlarda təxminən 2000 yaşı olan və müqəddəs kitabların bəzi hissələrindən, təfsirlərdən və dualardan ibarət yazılar mövcud idi. Yəni onlarda aşkarlanmış xətt bu papirusların Həzrət İsaın (ə) dövründə yazılasını sübut edirdi. Alimlər papirusları diqqətlə oxuduqdan sonra belə qərara gəldilər ki, həmən papiruslar Yəhudilərin **İsinilər** adlı dəstəsinə aiddir və yəhudilik bölümündə biz buna işarə etmişdik. Bu firqə səhralarda yaşayırdı, irfani dünya görüşlərinə malik idilər və Bəni-İsrailin Məsihini gözləyirdilər. Həmən yazıları kuzələrə dolduraraq onları Ölü dənizin ətrafındakı mağaralarda gizlətdilər və sonra naməlum bəlaya düçar olaraq məhv oldular. Hal-hazırda onlar barəsində heç bir yeni xəbər mövcud deyildir.

Bu papirusların kəşfi elm aləmində geniş əks-səda doğurdu. Öncə onların bəzilərinin saxta olduğunu bildirdilər, amma texniki baxışlardan və yoxlamalardan sonra onların həqiqi olması sübuta yetirildi.

Alimlərin bəziləri bu tapıntılardan sonra belə bir iddia ilə çıxış etdilər ki, əldə olunmuş papirus yazılar bizim Həzrət İsa (ə) və xristyanlığın yaranması barəsindəki baxışlarımızı dəyişdirəcək.

İndiyədək bu papiruslar barəsində bir neçə min kitab yazılmışdır. Onlardan biri də, azad düşüncəli xristyan ruhani A. Pavel Deyvisdir və kitabının adı "Ölü dəniz papiruslarının məfhumu"-dur. Bu

kitab olduqca maraqlıdır. O, həmin papiruslari diqqətlə oxuduqdan və araşdırmalar apardıqdan sonra belə yazır:

*"Adi bir xristyanın xristyanlığın yaranması barəsindəki nəzəriyyəsi belə ola bilər ki, Məsih öz xeyir xəbərini və başarətinin təbliğ etdi, Məsih və nicat verən şəxs kimi öldü, ölülər arasında qalxaraq yenidən dirildi, xristyan kilsəsini yaratdı və sonda həvarilərin fəaliyyəti ilə həmən kilsələr bütün dünya boyu genişlənməyə başladı.*

*Eləcə də, adi bir xristyanın nəzərini öyrənsək onun nəzərincə İsanın irsi şəkildə yəhudi mədəniyyətinin davamçısı olan bir Yəhudi olduğunu bildirər. Bundan əlavə elçilərin İsanın bəşarətindən və müjdəsindən xüsusi nəticələr çıxartdığını, onun təlimlərindən yararlandıqlarını, onların İsanın həyatda olduğu zaman ondan gördüklərini və eşitdiklərini, sonda özlərinin şəxsi təcrübələrindən istifadə etməklə onun xilaskar, bəşər formasında Tanrı və Allahın oğlu olmasını anlamaları kimi məsələləri deyə bilərlər.*

*Hər halda, adi bir xristyan xristyanlıq əqidə və etiqadını belə bəyan edə bilər, amma bu etiqadların bir əksəriyyətinin xristyanlıqdan öncə də mövcud olması və bir çox etiqadların özəklərinin müqəddəs kitabda mövcud olmaması onun zehninə gəlməz.*

*Adi bir xristyanın bilmədiklərini alim bilir və bu biliklər də ondan ibarətdir ki, Məsihin zamanında və ondan sonra bütpərəstlərin öz Tanrıları sahəsində xüsusi inancları və etiqadları var idi. Həmin etiqadlar Tanrılarına verilən adlardan ibarət idi və buna bənzər məsələlər xristynalıqda da mövcuddur. Mitra bəşəriyyətin xilaskarı idi və eləcə də,Temmuz, Edonis və Osiris. Sonda xristyanlığa da daxil olan Məsihin Fadi olması Yəhudi etiqadlarından biri deyildi və Fələstində olan ilk xristyanlar da ona inanmırdılar.*

*Yəhudilərin və Yəhudi əsilli xristyanların intizarında olduqları xilaskar Məsiha Allahın oğlu deyildi. O, Allah tərəfindən göndərilən peyğəmbər idi. O, öz qanıyla başqalarının günahlarını yumamalı idi və yer üzərində xristyan hökuməti yaratmaq yolu ilə insanları xilas etməməliydi. Yəhudi əsilli xristyanlar onların göylərə daxil olmalarına icazə verən xilasa göz dikməmişdilər. Onlar yer üzərində yeni quruluş yaradacaq xilasın olacağına inanırdılar və bu onların yeganə*

*tələbi idi. Onlar eyni ruhun fani olmamasına və əbədi mövcudluğuna da inanırdılar.*

*Bütpərəstlərin Məsihanın mövcudluğuna olan inamı İsanın "Xilaskar Tanrı" olması əqidəsinin meydana çıxmasından sonra yarandı. Bu etiqad ondan öncə mövcud olan Mitra anlayışı ilə tam üst-üstə düşür. Eləcə də, 25 dekabr Mitranın dünyaya gəldiyi gündür və sonralar bu gün xristyanlar tərəfindən dəyişdirilərək İsanın doğum günükimi qeyd olunmağa başladı. Qeyd etmək lazımdır ki, Yəhudilərin istirahət günü saydığı, Musanın şəriət kitabında Allah tərəfindən müəyyənləşdirilən və müqəddəs günə çevrilən "Səbt", yəni şənbə günü də Mitraizm düşüncələri və etiqadlarının təsiri altında bazar gününə, yəni "Sunday"-ə, "Fateh Günəş gününə" dəyişdirildi.*

*Xristyanlığın kəskin şəkildə yayıldığı zaman Aralıq dənizi hövzəsində bakirə ana və onun insanların günahlarının bağışlanılması yolunda qurban verilməsi etiqadının mövcud olmadığı yer yox idi. Ümumilikdə yer ilahələrdən biri idi və hər bahar fəslində yenidən bakirə olurdu. Onun övladı yerin meyvəsi kimi qəbul olunurdu və o ölmək üçün dünyaya gəlirdi. Ölən kimi də yerdə dəfn edilirdi və onun toxumları yeni meyvənin əsasına çevrilirdi. Bu "bitmək əfsanəsi" azadlığa çatdıran Tanrı və qəmgin ana hekayələrini olduqca böyük məharətlə meydana çıxartdı.*

*Fəsillərin yer üzərində gəzməsi göylərin bənzər gəzməsi ilə əlaqələndirilirdi. Belə bir etiqad da mövcud idi ki, qütb ulduzu şərq tərəfdə yeni günəşin çıxmasını elan edəndə, bakirə ilahə ulduzu kimi tanınan qız bürcü göyün şərq hissəsində görsənməyə başlayır, qız bürcünün ulduzlarının arasında üfüqi xəttin yaranması günəş tərəfindən hədiyyə edilən bakirə ananın rəmzi kimi qəbul olunur. Beləliklə də, yer əfsanəsi səma əfsanəsi ilə qarışdı. Bu iki düşüncə tərzi qədim dövürlərin həqiqi və uydurma qəhrəmanları ilə qarışdı özünü fəda edən qəhrəman hekayəsi meydana çıxdı.*

*Həzrət İsanın dünyaya gəldiyi yer kimi hesab olunan mağara daha öncələr Horosun dünyaya gəldiyi yer kimi tanınırdı. Horos böyüyəndən sonra Osiris kimi tanınmağa başladı və o da öz qövmünün*

*azadlığı yolunda ölmək taleyinə məhkum olunmuşdu. İzis "Qəmgin ana" idi. Ümumiyyətlə fəda verilmək üçün bir çox insanlara müxtəlif qədim yazılarda rast gəlmək olar və bu məsələ bir çox yazıçılar tərəfindən şərh edilmişdir. Belə açıqlamalar və şərhlər yazan yazıçılara nümunə olaraq Freyzer və onun "Qızıl budaq" (The Golden Bough) və Yunan-Roma ədəbiyyatı sahəsində əvəzsiz alim olmuş Professor Jilber Morini misal çəkmək olar.*

*Bu sahədə bir çox adət-ənənələr mövcud idi və sonralar həmin adət-ənənələr xristyanlığın adətləri kimi tanındı. Sonuncu şam yeməyi əslində Mitraizmə aiddir və sonralar bu təfəkkürün təsiri altında xristyanların sonuncu şam yeməyi məsələsi yarandı. Adət-ənə-nələrdən əlavə bir çox etiqadlar belə, o cümlədən "Keçi qanı" (Öküz və Buğa) etiqadı da Mitraizimdən götürülmüşdür. Təkcə dini adət-ənənələr yox, hətta bir çox əxlaqi məsələlər də xristyanlığı qəbul etmiş şəxslərdən əldə edilirdi.*

*Xristyanlıqla bütpərəstlik arasındakı əlaqə o qədər sıxdır ki, bunları ayırmaq mümkün deyildir. Əgər yəhudilik əsasında qurulmuş xristyanlıq məfhumu mövcud olmuşdursa da hal-hazırda mövcud olan xristyanlıq qeyd olunan prinsiplər üzərində qurulmamşdır. Yəni müasir xristyanlıq əsil xristyanlıqdan o qədər də təsir almamışdır. Qeyd etmək lazımdır ki, İsa öləndən sonra çox nadir hallarda ona "Müəllim" deyə müraciət olunurdu. O artıq Məsih, xilaskar və xristyanların ağası olmuşdur."*

Kitabın müəllifi əlavə edir:

*"Yəhudi xrityanların fəda olmaq və qurban edilmək məsləyinə inanan digər rəqiblərindən daha üstün olmasının və bu rəqabətdən qalibiyyətlə çıxmasının yeganə səbəbi Paul olmuşdur. O bütpərəstliyin bütün incəliklərini bilən, sonradan yəhudiləşmiş Yunanıstanlı müqəddəs idi. Onun müxtəlif tərkiblər yaratmaqda xüsusi istedadı var idi. Pavel İsrail düşüncələrini Afina düşüncələri ilə, Urşəlim məbədini Mitraistləri qurban kəsdiyi məkanla və Eseni firqəsinin Yəhvəsi-*

*ni tanınmamış Aropaqos*[1] *dağı ilə peyvənd etməyibeynində canlandırırdı.*[2]

Həzrət İsanın (ə) ləqəblərindən biri Kəlmədir (Logos) və bu ad qədim Yunan fəlsəfəsindən götürülmüşdür. Xristyanlar daha çox Yühənna İncilinə istinad edərək Allahın kəlməsinin İsada yaşamasına və onun bu kəlməni daşıya biləcək yeganə şəxs olduğuna inanırlar. Yəni, Allahın hər şeyi onun vasitəsilə yaratdığı əzəli sözü insan övladı olan İsada təcəssüm tapmış və insanlar arasında qalmışdır. İsada yerləşdirilmiş əbədiyyət kəlməsi insan formasına düşmüşdür və həmən kəs digər insanlar kimi çörək arxasınca gedərək həyatını yaşayırdı, qohumları, dostları var idi və digər insanlar kimi həyatın əzab-əziyyətlərinə qatlaşırdı.

### 19-2. Xuda, xudavənd (Rəbb) və Allahın oğlu

İslam dinində "Xuda" (Ərəb dilində "İlah" və İngilis dilində "God" mənasını verir) sözündən istifadə etmənin xüsusi əhəmiyyəti, eyni zamanda məhdudiyyəti vardır və başqa dinlərdə buna bənzər halla rastlaşmaq mümkün deyildir. Məsələn, müasir Tövratda belə qeyd olunur: "Və Xudavənd Musaya dedi: "Bax, mən səni Fironun üzərində Xuda etdim və qardaşın Harun sənin peyğəmbərin olacaq. (Xuruc 7:1)

Sadaladığımız misallar "Xuda" sözü üçün nəzərdə tutulmuşdur, amma "Xudavənd sözü (Ərəb dilindəki Rəbb və İngilis dilində Lord mənasını verir) həm yaradan, həm də yaradılmışa aiddir. Elə bu səbəbdən də, Həzrət Yusif (ə) bu sözdən Misirin fironuna müraciətdə də istifadə edir:

يَا صَاحِبَيِ السِّجْنِ أَمَّا أَحَدُكُمَا فَيَسْقِي رَبَّهُ خَمْراً وَأَمَّا الآخَرُ فَيُصْلَبُ فَتَأْكُلُ الطَّيْرُ مِن رَّأْسِهِ قُضِيَ الأَمْرُ الَّذِي فِيهِ تَسْتَفْتِيَانِ (41) وَقَالَ لِلَّذِي ظَنَّ أَنَّهُ نَاجٍ مِّنْهُمَا اذْكُرْنِي عِندَ رَبِّكَ فَأَنسَاهُ الشَّيْطَانُ ذِكْرَ رَبِّهِ فَلَبِثَ فِي السِّجْنِ بِضْعَ سِنِينَ (42)وَقَالَ الْمَلِكُ ائْتُونِي بِهِ فَلَمَّا جَاءهُ الرَّسُولُ قَالَ ارْجِعْ إِلَى رَبِّكَ فَاسْأَلْهُ مَا بَالُ النِّسْوَةِ اللاَّتِي قَطَّعْنَ أَيْدِيَهُنَّ إِنَّ رَبِّي بِكَيْدِهِنَّ عَلِيمٌ(50)

---

[1] "Mars dağı" , Elçilərin əməlləri, 17:16-23

[2] Davies, A. Powell, The Meaning of the Dead Sea Scrolls, New York: New American Library, 1956, pp.89-91

“Ey iki zindan yoldaşım! (Yuxularınızın mənasına gəldikdə) sizin biriniz yenə ağasına şərab içirdəcək, digəriniz isə edam olunacaq, quşlar da onun başından (dimdikləyib) yeyəcəklər. Haqqında soruşduğunuz iş belə həll edilmişdir!” (Birinizin həbsdən azad edilməsi, o birinizin asılması barəsində fərman verilmişdir!)” ***(ayə41)*** “(Yusif) bu iki nəfərdən nicat tapacağını yəqin etdiyi kimsəyə (şərabpaylayana) dedi: “Ağanın yanında məni də yada sal!” Lakin Şeytan ona ağasının yanında (Yusifi) yada salmağı unutdurdu və buna görə də o (Yusif) bir neçə (yeddi və ya on iki) il zindanda qaldı.” ***(ayə 42)*** “Bunları eşidən) hökmdar: “Onu mənim yanıma gətirin!” – dedi. (Onun göndərdiyi) elçi (Yusifin) yanına gəldikdə o: “Ağanın yanına qayıdıb soruş ki, (Züleyxanın məclisində) əllərini kəsən o qadınların məqsədi nə idi? Həqiqətən, Rəbbim onların məkrini biləndir!” ***(ayə 50) (Yusif surəsi, ayələr 41,42 və 50)*** Bu söz ağa və sahib mənasını verir.

Xristyanların əksəriyyəti (tezliklə diqqətinizə çatdıracağıq) Həzrət İsanı (ə) həqiqi və qədimdən mövcud olan Tanrı bilirlər, amma Əhdi-Cədiddə istifadə olunan “Rəbb” sözü “Ağa” mənasını kəsb edir və bu sözün leksikonda çox da istifadə olunmamasına baxmayaraq ilahiliklə heç bir əlaqəsi yoxdur. Çünki, həmən söz Əhdi-Cədidin Yunan dilində olan mətnində Həzrət İsadan (ə) savayı digər insanlar üçün də istifadə olunmuşdur və ağa, sahib kimi tərcümə edilmişdir.

Kübar ləqəb kimi istifadə olunan “Allahın oğlu” ləqəbi müxtəlif dinlərdə peyğəmbərlər və möminlərə müraciət kimi istifadə edilirdi. Allahın Həzrət Süleyman (ə) barəsində buyurduğu kəlamda belə yazılmışdır: “Onu seçdim ki mənim oğlum olsun və mən də onun atası” (Günlərin tarixi, birinci kitab, 28:6) Bəni-israil barəsində isə belə buyurulmuşdur: “Xudavənd belə deyir: “İsrail mənim oğlumdur və ilk övladımdır” (Xuruc 4:22) Dörd İncildə və Əhdi-Cədidin müxtəlif kitablarında bu termin dəfələrlə təkrar olunmuşdur. Məsələn, bu söz Həzrət İsadan (ə) nəql olunmuşdur:

*“Mən sizə düşmənlərinizlə məhəbbətlə davranmağınızı, sizə lənət edənlərə bərəkət istəməyi, sizə nifrətlə yanaşanlara ehsan istəməyi, sizi söyən, təhqir edən və nalayiq sözlər deyənlərə xeyirli dualar etməyi tapşırıram. Çünki, bu yolla göydəki atanız üçün oğul ola bilərsiz. Çünki, günəş öz şüalarını həm yaxşıların, həm də pislərin üzərinə bərabər olaraq salır, Yağış isə adil insanlarla zalım insanların üzərinə bərabər şəkildə yağır”* (Matta 5:44-45)

Dördüncü İncilin yazıçısı olan Yühənna Həzrət İsa (əs)-a iman gətirənlər barəsində belə yazır:

*“Amma onu qəbul edən kəslərə Allahın övladları olmaq üçün güc verdi, yəni onun adına iman gətirən hər bir kəsə.”* (Yühənna 1:21)

Qurani Kərimdə isə bu barədə belə buyurulmuşdur:

وَقَالَتِ الْيَهُودُ وَالنَّصَارَى نَحْنُ أَبْنَاءُ اللَّهِ وَأَحِبَّاؤُهُ......

“Yəhudilər və xaçpərəstlər dedilər: “Biz Allahın oğulları və sevimliləriyik..” (Maidə surəsi, ayə 18)[1]

İslam dinidə də, “Yədullah”, “Beytullah” , “Alullah” və sair bəzi təntənəli ləqəblər mövcud olmasına baxmayaraq “Allahın oğlu” ləqəbindən istifadə təmamilə qadağan olunmuşdur. Çünki, bu ləqəb kitab əhlinin yolunu azması ilə nəticələndi. İkinci bir qadağa isə “Raina” sözünə qoyulmuşdur və Qurani-Kərimin Bəqərə surasi ayə 104-də bu barədə söz açılmışdır:

يَاأَيُّهَا الَّذِينَ ءَامَنُوا لَا تَقُولُوا رَاعِنَا وَقُولُوا انْظُرْنَا وَاسْمَعُوا وَلِلْكَافِرِينَ عَذَابٌ أَلِيمٌ

“Ey iman gətirənlər! “Raina” deməyin (bu söz ərəb dilində “bizi qoru”, “bizdə gözün olsun”, “bizə bax”, “bizi gözlə”, “bizə qayğı və ehtiram göstər”, mənalarında işləndiyi halda, ibrani dilində yuxarıdakı mənalarla yanaşı, “bizə çobanlıq et”, “bizim çobanımız”; “ay səfeh” mənalarında da işlədilir. Yəhudilər həmin sözdən Peyğəmbərə qarşı bir istehza vasitəsi kimi istifadə edirdilər), “unzurna” söyləyin! (Allahın hökmünü) eşidin! Kafirləri şiddətli əzab gözləyir.”

---

[1] Eləcə də son əsrdə Hindistan inqilabının rəhbəri olan Qandi əzab-əziyyətlərə düçar olmuş Nəcis təbəqəsinin ürəyini almaq üçün onları “Allahın övladları” adlandırdı.

### 19-3. Məsihin İncillərdəki ilahiliyi

Xristyanların və tədqiqatçıların nəzərincə üç İncil Yühənnanın İncilinən bir neçə on il öncə qələmə alınmışdır. Yühənna İncili təxminən 100-cü ildə, yəni Paulun ölümündən təxminən 30 il sonra, onun fikirlərinin və düşüncələrinin insanlar arasında yayılmasından sonra yazılmışdır. Üç oxşar İncilin və eləcə də, Yühənna İncilinin məzmunu barəsində müqayisəli araşdırma işləri aparsaq aydın şəkildə üç oxşar İncilin Həzrət İsa (ə) barəsində heç bir şişirtməyə yol verməməsinin şahidi olarıq. Amma bu İncillərdən bir neçə on il sonra qələmə alınmış Yühənna İncili O Həzrətin İlahiliyi kimi şişirdilmiş mətləblərlə doludur. Məsələn, Yühənna İncilində belə qeyd olunmuşdur ki, Yəhudilərin İsa ilə müxalifət etməsinin əsas səbəbi O Həzərtin özünü Allah bilməsi olmuşdur. (Yühənna 10:31-38)

Hər dörd İncildə Həzrət İsadan (ə) nəql olunmuş sözlərdə O Həzrətin dəfələrlə "Mənim Allahın" deyə Allaha müraciət etməsi qeyd olunmuşdur. Məsələn, Yühənna İncili 20:17-də bu sözləri oxuyuruq: "Mənim atam və sizin atanızın, mənim Allahım və Sizin Allahınızın yanına gedirəm." Eləcə də, O Həzrətin Allahın dərgahına olan namaz və ibadətlərini qeyd olunmuşdur. O Həzrətin həbs olunmamışdan öncə Allah münacatı dəfələrlə təkrar olunmuşdur və Matta 27:46-da və Mark 15:34-də bu sözləri fəryad çəkərək demişdir: "İlahi, İlahi, niyə məni .....?"

### 19-4. Müqəddəs Üçlük

Xristyanların müqəddəs kitabında "Üçlük və yaxud müqəddəs üçlük" sözü mövcud deyildir və bu sözdən ilk dəfə 180-ci ildə istifadə edilmişdir. Qeyd etmək lazımdır ki, xristyanların nəzərinə əsasən Əhdi-Cədiddə üçlük məfhumunun kökləri artıq hiss olunmaqdadır və Matta İncilinin sonunda xaç suyuna salınma hüququnun bağışlanılması barəsində vuruğulanmış söz bunu açıq şəkildə bəyan edir: "Onu Ata, oğul və müqəddəs ruhun adı ilə xaç suyuna salın."

Əhdi-Cədidin yazıçıları Allahı "Ata" kimi qeyd etməyi bir cür adət kimi qəbul etmişlər. Qeyd etmək lazımdır ki, bu termin Yəhudi-

likdən gəlmişdir. İncillərdə qeyd olunduğuna əsasən, İsa (ə) öz şagirdlərinə öz dualarında Allaha "Səmavi Ata" kimi müraciət etməyi tapşırmışdır. (Matta 6:9) Həzrət İsa (əs) belə buyururdu: "Mənim atam və sizin atanızın, mənim Allahım və Sizin Allahınızın yanına gedirəm." (Yühənna 20:17)

Müqəddəs Ruh Əhdi-Cədiddə çox vaxt "Allahın ruhu" kimi qeyd olunmuşdur. Qeyd etmək lazımdır ki, xristyanlıqda istifadə olunan "müqəddəs ruh" məfhumu ilə islam dinindəki "Müqəddəs ruh" məfhumu arasında fərq mövcuddur. Xristyan ənənəsi və müqəddəs kitablar nöqteyi nəzərindən Müqəddəs Ruh Allahın mələyi olan Cəbrail (ə) və yaxud Allahdan ayrı olan digər məxluqlardan hər hansı biri deyildir. Xristyanların nəzərincə Müqəddəs Ruh insanların qəlbində, ümumiyyətlə dünyada yaşayan və müxtəlif əməllər edən Allahın özüdür. O Allahın dünyadakı fəaliyyət göstərən bacarıqlı varlığıdır və İsanı anası Məryəmin qarnında yerləşdirən də o özü olmuşdur. Bir məsələni də qeyd etmək lazımdır ki, İncil kitablarında Müqəddəs Ruh göyərçin formasında çəkilmişdir. O, İsanın (ə) İordaniy çayında qüsl almasından sonra ona nazil oldu, onun daxilində yerləşdi və sınaqdan çıxarmaq üçün səhraya apardı. Müqəddəs Ruh xristyanlıq cəmiyyətini hidayət edir, təlimləndirir, Allahın sirlərini bəyan edir və müqəddəs kitabların yazıçılarına ilham verir.

Zaman ötdükcə və kilsənin keçdiyi tarix ərzində xristyanlar Allahın üç növ təbiətinin bir sirr olduğu və onu insanın bəyanına sığa bilməyəcəyi iddiasını irəli sürdülər. Xristyan yazıçılar, ariflər, sufilər və mütəfəkkirlər Əhdi-Cədidin köməkliyi ilə Allahın zatına aid olan məsələlərin bəzilərini anlamaq sahəsində göstərdikləri səylərinə baxmayaraq heç bir nəticə əldə etmədilər və müqəddəs üçlük məsələsi üzərində dayandılar.

Xristyan mütəfəkkirlər illər boyu müqəddəs üçlük barəsində mövcud olan sirri açıqlamaq məqsədilə öz dövrlərinin və zamanlarının fəlsəfi məktəblərindən və məfhumlarından yararlandılar. Papalar və kilsə şuraları bu açıqlamaların bəzilərinin düz və bəzilərinin səhv olduğunu bildirdilər.

Xristyanların Müqəddəs Ruhun kilsəni hidayət etməsinə inandıqları üçün onlar öz imanlarına istinad edərək müqəddəs üçlüyün sirrinin yalnız papaların, kilsə şuralarının, mütəfəkkirlərin və sufilərin köməkliyi ilə inkişaf yolunu davam etdirəcəkdir. İlk kilsə şuraları tək Alahın üç üqnumu var. Üqnum Yunan sözü olaraq yol mövcuddur mənasını kəsb edir. Buna əsasən də, üç Üqnum Allahın varlığı və əməli sahəsində üç yolun və təzahürün mövcud olması mənasını daşıyır.

Ərəb dilli xristyan yazıçılar müqəddəs üçlük məfhumunu çatdırmaq məqsədilə Yunan dilində olan "Üqnum" sözündən istifadə etdilər. Bu sözün latın dilindəki qarşılığı "Persona"-dır (təzahür mənasını kəsb edir).

**19-5. Müqəddəs üçlüyü əlavə etmək məqsədilə Əhdi-Cədidin təhrif olunması**

Əhdi-Cədid kitabında müqəddəs üçlüyün mövcudluğuna dəlalət edən heç bir məsələ yoxdur və "Ata, oğul və müqəddəs ruh" kəlmələri (Matta 28:19) bu kəlmələrlə tanışlığı olmayan insanların zühnində belə bir duyğu yaratmır. Yəni bu məsələ istər Əhdi-Ətiqdə və istərsə də Əhdi-Cədiddə min dəfələrlə qeyd olunmuş tövhid məsələlərini kölgədə saxlaya bilməz. Necə ki, Qurani-Kərimin ayələrində "Allah, Peyğəmbər və Məleykələrin" bir yerdə qeyd olunması müqəddəs üçlük mənasını kəsb etmir.

Əhdi-Cədiddə müqəddəs üçlüyü sübuta çatdıracaq dəlillərin mövcud olmaması cahil insanları insanlar tərəfindən hazırlanmış bu kitabda təhriflər etməyə və müqəddəs üçlük anlamını ora əlavə etməyə vadar etdi. Onlar bunu həyata keçirmək üçün İncilin möhkəm məzmunlu hissələrinə əl vura bilmədilər. Buna görə də, Yühənnanın birinci məktubuna müraciət etdilər (5:7-8) və "Ata, Oğul və Müqəddəs ruhun" birliyi barəsində qeyd olunmuş sözləri oraya əlavə etdilər. Bu sahədə mövcud olan əlyazma İncilləri bir-biri ilə müqayisə etdikdə və hansı əlyazmalarda mövcud olmasını və hansı əlyazmalarda mövcud olmamasını yoxladıqda həmən dəyişikliklərin İncilin ən son qələmə alınmış əlyazmalarında mövcud olmasının şahidi ola bilərik.

### 19-6. Xristyanlıqda günah məfhumu

Xristyanların iddia etdiyi kimi Həzrət İsanın (ə) bəşəriyyətin günahlarının qurbanına çevrilməsi məsələsi günahın məcazi məna daşımasını və az əhəmiyyət daşımasını kəsb etmir. Əksinə tam surətdə şəfaətçi olmaq mənasını daşıyır və tövbənin qəbul olunması və günahların bağışlanılması üçün bundan savayı başqa yol yoxdur. Onların inanclarına əsasən günah ruhun ölümüdür və onlar günahları müxtəlif dəstələrə bölürlər. Qeyd etmək lazımdır ki, xristyanlıqdakı dini əhkamların əksəriyyəti əxlaqi əhkamlardır və ibadət əhkamları (donuz ətinin haram olması kimi) demək olar ki mövcud deyildir.

Biz müsəlmanlar üçün xristyan ölkələrində günahların miqdarı müsəlman ölkələrindəki günahlardan daha çox olması adi haldır. Qeyd etmək lazımdır ki, bir müsəlmanın mühafizəkar və liberalist baxışı bu sahədə çox böyük əhəmiyyət kəsb edir. Bəzilərinin nəzərincə qərblilərin hicabsızlığı onların iffətsizliyi və bütün fəsadların mənşəyidir. Amma bəzilərinin nəzərincə isə bu bir növ adətdir. Üçüncü dəstənin nəzərincə isə, "İbadət insanlara xidmət göztərməkdən savayı bir şey deyildir" və onların müsbət tərəflərindən nəticə çıxarırlar. Xristyanların nöqteyi-nəzərindən günahın nə məna daşımasını ilk olaraq liberalist cəhətdən araşdıraq. Liberalist xristyan nöqteyi-nəzərindən ən mühim günah əxlaqi günahlardır və həftədə bir dəfə ibadət etmək kifayət edər. Amma qeyd etmək lazımdır ki, bütün cəmiyyətlərdə olduğu kimi xristyanların da arasında daha mühafizəkar insanlar mövcuddur. Məsələn, Ortodoks ruhanilər üzlərini qırxan katolik ruhanilərə etiraz edirlər və deyirlər ki, Tövratda (Lavilər 19:27) bu əmələ qadağan qoyulmuşdur.

## 20. Yeddi müqəddəs adət

Xristyanların nəzərincə ölülər arasından qalxan və yenidən dirilən Məsih xristyan cəmiyyətində yaşayır və həmişə də xristyanlarladır. Eləcə də, O Həzrət Fələstində yaşadığı illər boyu həyata keçir-

diyi yaxşı işləri davam etdirir. Məsihin aşkar olunmayan əməlləri kilsə həyatında müxtəlif dini adət-ənənənin köməkliyi ilə aşkar olunur. Başqa sözlə desək, belə bir dini mərasimdə iştirak edən bir xristyan bu əməli ilə ölülər arasından qalxaraq yenidən dirilmiş və xilaskarlıqla dolu olan İlahi feyzə çatmış Məsihin görüşünə getdiyinə inanır.

Bütün xristyanların hamılıqla qəbul etdiyi iki əsas dini adətlərdən biri xaç suyunda qüsl almaq və sonuncu şam yeməyidir. Katolik və Ortodoks xristyanlar bu dini mərasimlərə daha beş dini mərasimi əlavə edirlər və bütün dini mərasimlərin sayı yeddiyə çatdırırlar. Protestantlar dini mərasimlərin sayında ixtilaflı nəzərlər söyləyirlər. Amma onların əksəriyyəti iki dini mərasimi, yəni xaç suyunda qüsl almanı və sonuncu şamı qəbul edirlər. Kuykirlər və Xilas ordusu kimi bəzi Protestant kilsələri bu dini mərasimlərin hüç birini qəbul etmirlər.

### 20-1. Xaç suyunda qüsl

Bütün xristyanlar üçün ən əsas və ən birinci dini mərasim xaç suyuna salınmadır. İnsan xaç suyunda qüsl almaqla xristyan cəmiyyətinə daxil olur və kilsənin daimi məmuriyyətini öz üzərinə götürür. Bu məmuriyyət İsanın vasitəsilə ilə Allah yolunda yaxşı işlər görmək sahəsində and içməkdən ibarıtdir. Hər bir xristyanın nəzərincə xaç suyunda qüsl almaq İsanın həyatının və ölümünün bütün təsirlərini əta edən vasitədir. Hər bir xristyan xristyan cəmiyyətinə daxil olanda cəmi bir dəfə xaç suyunda qüsl alır.

Fars və Ərəb dillərində xaç suyunda qüsl almaq üçün Təmid sözündən istifadə olunur və bunu həyata keçirmək üçün yumaq və suya çəkmək lazımdır. (Təmid Sam dillərindən mənşə almışdır və "Dikəltmək və ayağa qaldırmaq" mənasını verir) Bəzi kilsələrdə mövcud olan adətlərə əsasən suyu başına tökməklə xaç suyunda qüsl alma həyata keçirilir. Başqa kilsələrdə isə hər bir insanın xaç suyunda qüsl alması üçün şəxs təmamilə suyun altına girməlidir. Belə kilsələrdə insanların xaç suyuna salınması üçün təbiət qoynunda yerləşən çaylara və göllərə aparırlar. Xaç suyuna salınanda keşiş Matta İncilinin sonundan götürülmüş bu sözləri oxuyur: "Ata, oğul və müqəddəs ruhun

adı ilə xaç suyuna salıram". Bəzi protestant kilsələrində yalnız İsanın adı ilə xaç suyuna salırlar. Uşaqların xaç suyuna salınması zamanı adətən bir şəxs dini adətlərinə uyğun olaraq uşağın xaç suyuna salınması öhdəçiliyini öz üzərinə götürür. Bu şəxsi "Xaç atası" (godfather) və yaxud "Xaç anası" (godmother) adlandırırlar. Valideynlərin vəfatından sonra və yaxud onların övladlarına laqeydlik göstərəcəyi təqdirdə xaç atası və yaxud xaç anası həmən uşaqların tərbiyəsini öz üzərinə götürür.

**20-2. Təsdiq (İmanın sabit olunması)**

Xristyanın həyatının inkişafının və ilahi həqiqətə çatmasının ikinci mərhələsi "Təsdiq" adlandırılır. Birinci mərhələsində (yəni xaç suyunda qüsl almaq) günahlardan xilas olmaq məsələsinə təkid edilir. Yəni, bu mərhələdə Allah günahkar insanlarla barışır və onu iman, itaət üzərində qurulmuş həyata tərəf çağırır. Amma ikinci mərhələdə (yəni təsdiq mərhələsində) Allahın İsa (ə) vasitəsilə bəşəriyyət üçün yaratdığı hər bir şeyə şəhadət vermək və bu ağır missiyanın öhdəsindən gəlmək üçün Müqəddəs Ruhdan kömək istəmək məsələsi üzərində təkid göstərir. Çünki, xilas olmaq yalnız günahların bağışlanması məsələsi ilə məhdudlaşmır və İsanın missiyasını davam etdirmək və dünyanı Allahın iradəsinə uyğun olaraq dəyişdirmək də buna şamil olunur. Təsdiq əsil xristyana layiq cəmiyyətdə müxtəlif məsuliyyətlərin öhdəsindən bacarıqla gəlmək istəyən insana yeni güc bəxş edir.

Təsdiqi ya yepiskop, ya da onun canişini əta edir və bu dini mərasimin əsası həmən könüllü şəxsə müqəddəs yağla məsh çəkməkdən ibarətdir. Bu dini mərasimdə aşağıdakı sözlər deyilir: "Müqəddəs ruhu qəbul et ki Məsihə şəhadət verə biləsən." Müxtəlif kilsələrdə qeyd olunmuş dini mərasim əsnasında deyilən bu sözdə müəyyən miqdarda fərq ola bilər, amma ümumi məna dəyişməz olaraq qalır.

Kilsəyə daxil olmaq istəyən şəxs həddi-büluğa çatmış şəxs olmalıdır və xaç suyunda qüsl almaqla təsdiqə çatmanı bir dini mərasimin iki mərhələsi kimi eyni zamanda həyata keçirtməlidir. Əgər həmən şəxs uşaqlıqda xaç suyunda qüsl almış olarsa təsdiq məsələsi

13-16 yaşınadək təxirə salınır. Bəzi protestant kilsələrində uşaqları xaç suyuna salmırlar və belə iddia edirlər ki xaç suyuna salınan şəxsin İsanın davamçısı olması məsələsindən xəbəri olmalıdır və bunu düşünülmüş şəkildə qəbul etməlidir.

**20-3. Xristyan evliliyi**

Xristyanlar evliliyi dünyəvi iş kimi qəbul edilmir. Çünki, evlilik və ailə qurmaq Allahın bəşəriyyətə göstərdiyi məhəbbət nümunəsidir. Evlilik iki şəxsin qarşılıqlı sədaqət və anlamla dolu müştərək həyata başlamaq üçün məhəbbətinin birləşməsidir. Evlilik zamanı hər iki tərəf nəslin artırılması, övladların iman və məhəbbət dolu mühitdə tərbiyələndirilməsi və təhsilləndirilməsi sahəsində Allah qarşısında and içərək məsulləyət qəbul edir. Elə bu səbəbdən də, xristyanlar evliliyi Allahın insanla rəftarı tərzi üçün insani rəmzlərdən biri kimi qəbul edirlər. İnsanları sevən Allah-Taala onların işlərində yardımçı olur və verdiyi vədlərinə xilaf çıxmadan həyata keçirir. Xristyanlar ailə qurarkən kişi ilə qadının birləşməsini Allahın insanlara olan məhəbbətinin və Məsihin öz şagirdlərinə olan sevgisinin nişanəsi kimi qəbul edirlər və bu ağır məsuliyyəti öz üzərlərinə götürürlər. Elə bu səbəbdən də, xristyanlar evliliyi ömür boyu davam edən məsuliyyət və öhdəçilik kimi qəbul edirlər, boşanmaq və yeni həyat yoldaşı ilə ailə qurmaq kimi məsələlərlə tam müxalifdirlər.

Katolik və Ortodoks ruhanilər (özlərinə Həzrət Məsihin davamçıları etmək sahəsində heç bir manıələrlə üzləşməmək üçün) ailə həyatı qurmamalıdırlar və evlilik, yaxud imtina dini adətlərindən birini seçməlidirlər. Amma bəzi istisnalar da mövcuddur və onlardan biri bundan ibarətdir ki, Ortodoks kilsəsində ailə qurmuş şəxs keşiş ola bilər, amma onun yepiskop dərəcəsinə yüksəlməsi mümkün deyildir. Protestantlar xristyan ruhanilərinin ailə qurması məsələsi ilə müxalif deyillər və Lüter özü də ailə qurmuşdu.

İstər katolikləri, istərsə də Ortodoksların rahib və rahibələri ailə həyatı qurmamalıdırlar. Protestantlıqda rahiblik anlamı demək olar ki mövcud deyil.

Belə insanlar cinsi ehtiyaclarını öldürmək üçün oruc tutub, müxtəlif dualar edirlər. Qədim zamanlarda isə rahiblər özlərini axtalayırdılar. Katolik ruhanilərinin mücərrədliyə üz tutmaları həmən kilsənin problemlərindən biridir və bu məsələ böyük rüsvayçılıqların yaranmasına səbəb olmuşdur.

**20-4. İmtina (Yaxud ruhaniliyin müqəddəs dərəcələri)**

**İmtina** dini mərasimindən sonra insan öz həyatını xristyan cəmiyyətinə xidmət göstərməyə və beləliklə də, bütün bəşəriyyətə xidmət göstərməyə vəqf edir. Ruhanilərin əsas dərəcələri üçdür:

1. Yepiskop: O, Yepiskopun sahəsi adlanan müəyyən olunmuş sahədə və ərazidə Məsihin nümayəndəsidir. Yepiskop Məsihin əvəzinə təlimlər keçir, müxtəlif ibadət mərasimlərinin idarə edilməsini öz üzərinə götürür və bu yolla xristyan cəmiyyətinə xüsusi xidmətlər göstərir. Yepiskop sözü Yunan dilindəki "bishop və epikopos" sözlərindən yaranmışdır və "Nəzarətçi" mənasını kəsb edir.

2. Keşiş: O, Yepiskopun müavinidir və dəstə şəklində qeyd olunmuş üç işi həyata keçirməkdə ona yardımçı olurlar. Keşiş sözü Süryani dilindəki "Qeşiş" sözündən götürülmüşdür. Yunan dilindəki "Presbyter" sözündən alınmış "Priest" sözü (Ərəb dilindəki şeyx sözü kimi) "Pir" mənasını verir.[1]

3. Rahib yaxud Şəmmas: O Allah kəlamının təbliği ilə məşğul olur, səfil və ehtiyaclı insanların, yaşlıların, xəstələrin və zavallı şəxslərin köməyinə gedir. Şəmmas ləqəbi Süryani dilindən götürülmüşdür və Yunan dilindəki "Diakonos" sözündən alınan "Deacon" sözü "xidmətçi və xadim" mənasını kəsb edir.

Kilsədə istifadə olunan digər adlar, o cümlədən Papa, Patriarx, arxoyepiskop, kardinal, misyö və sair müəyyən edilmiş vəzifələr üçün nəzərdə tutulmuşdur və yedii dini mərasimə heç bir bağlılığı yoxdur. Papa siyasi-ictimai bacarıqları nəzərə alınaraq Katolik xristyanların rəhbəri kimi seçilən yepiskopdur. Papanın elm və ibadət sa-

---

[1] Bəzi müsəlman sufilər dı öz şeyxlərini "Pir" adlandırırlar.

həsindəki imtiyazları adi yepiskopun bildiyi həddədir. Papa sözü Yunan dilindəki "Papas", yəni ata sözündən götürülmüşdür.

Xristyanlığın müxtəlif firqələrinin ruhanilərinin geyindikləri paltarlar bir-birilərindən fərqlidir və dini mərasimin həyata keçirilməsi üçün ruhani paltarını geyinmək vacib bilinir. Adi vaxtlarda isə ortodoks ruhanilərin hamısı və katolik ruhanilərinin bəziləri həmin ruhani paltarlarını əyinlərində saxlayırlar və bəziləri isə boyunları ağ lent bağlamaqla kifayətlənirlər. Müxtəlif protestant firqələri də özünəməxsus geyim tərzlərinə malikdirlər və onların çoxu xüsusi paltar geyinmək əvəvzinə yalnız boyunların həmişə ağ lent bağlayırlar. Bunu da qeyd etmək lazımdır ki, Ortodoks ruhaniləri saqqallarını qırxmırlar.

Protestantların bir çoxu (dini qanunlara uyğun olaraq) ruhanilik və yaxud yuxarı ruhanilik dərəcələrinə malik deyillər. Eləcə də, ruhanilərə Keşiş və buna bənzər digər dini adlar vermirlər. Yalnız "Pastor" (tərcümədə çoban mənasını kəsb edir) adı ilə kifayətlənirlər. Protestant firqələrinin əksər ruhaniləri dini mərasimlərin icrası zamanı belə xüsusi paltarlar geyinmirlər. Ruhanisi olmayan firqələrin dini mərasimlərində bəzi mömin insanlar öz dini təcrübələri barəsində danışırlar və hamılıqla dua oxuyurlar. Bu xırda firqələrin bəzilərində xaç suyuna salınma və müqəddəs şam kimi dini mərasimlər də mövcud deyildir.

**20-5. Etiraf**

Xristyanlar tövbə və yaxud barışıq mərasimində etiraf etmək yolu ilə İlahi tərəfindən bağışlanılmağa çalışırlar. Çünki müsəlmanlar və yəhudilər kimi onlar da tövbənin Allahın öz bədəsini bağışlamasına səbəb olmasına inanırlar. Xristyanlar tövbə mərasimində iştirak edərək Allahın bağışlama xəbərini eşitməyə çalışırlar. Onlar eləcə də, Allahın Həzrət İsanın (ə) həyatı boyu etdiyi xilaskar əməlləri vasitəsilə Allahın bağışlanılmağı bəşəriyyatın ixtiyarında və tövbə qapılarının həmişə açıq olmasını yadlarına salırlar.

Xristyanlıq tarixi boyu tövbə dini mərasiminin müxtəlif formaları mövcud olmuşdur. Kilsə tarixinin ilk əsrlərində tövbə hamının gö-

zü qarşısında həyata keçirilirdi. Sonrakı əsrlərdə hər kəs öz günahını fərdi şəkildə etiraf edərək bağışlanılmasını istəyirdi.

Etiraf və digər müqəddəs mərasimlər pulsuz şəkildə həyata keçirilir və günahların bağışlanılması üçün pul ödəmək kimi əsassız iddialar həqiqətlə üst-üstə düşmür.

### 20-6. Müqəddəs yağda sonuncu məsh

Əgər günah ruhun xəstəliyidrisə və insanla Allah arasındakı əlaqələrin zəifləməsinə gətirib çıxarırsa cismi xəstəlik də insanlara xas olan problemlərdən biridir və özü-özlüyündə dünyəvi həyatın çətinliklərlə üzləşməsinə səbəb olur. Hər iki halda xristyanlar Allahın xilaskar vəhyini eşitmək üçün özlərini hazırlayırlar. Çünki, onların nəzərincə Allah Məsihi xəstələrə baş çəkmək, onlara şəfa bəxş etmək və onların canlarını tapşıracağı zamana görə hazırlaşdırmaq üçün göndərmişdir. Xəstələrin müqəddəs yağla məsh edilməsi dini mərasimi Allahın və onun bəndələrinə qarşı olan məhəbbətinin nişanəsidir. Bu dini mərasim eləcə də, Allahın bəzi xəstəliklərlə imtahana çəkdiyi bəndələrini heç bir zaman unutmur. Başqa sözlə ifadə etsək, bu dini mərasimin keçirilməsində əsas məqsəd xəstə insanların tənhalıq və kimsəsizlik hissləri ilə mübarizə aparmaqdan ibarətdir. Daha çox bədəni yavaş-yavaş məhv olan, ruhu bədənini tərk edərək fani dünya ilə vidalaşan bəndələrə aiddir. Xəstələrin müqəddəs yağla məsh olunması onların tənha və kimsəszi olmadıqlarını bir daha sübut edir. Yəni onlar tək deyillər və Məsih onlarladı və onları Allaha tərəf aparır. Eləcə də, bir dəstə imanlı qardaşları da onunladı və onun üçün dua etməklə məşğuldurlar.

### 20-7. Sonuncu şam yeməyi

Sonuncu şam xristyan bir insanın nəzərincə yalnız yeddi müəddəs dini mərasimlərdən biri deyildir, eyni zamanda imanın və xristyanlığın ibadət yollarından birinin göstəricisidir. Bu dini mərasim eləcə də, Həzrət İsanın (ə) ölümündən öncəki gecədə şagirdləri ilə keçirdiyi sonuncu axşamın xatirəsinin anmaq mənasını da kəsb edir. Hal-hazırki İncillərdə belə qeyd olunmuşdur ki, İsa həmin məclisdə

çörək və şərabı öz əti və qanı kimi şagirdlərinə yemək və içmək üçün vermişdi. Belə mərasimlərdə iştirak edən xristyanlar Məsihin cismən onların yanında olmasına inanırlar. Onlar eləcə də, Allahın Yəhudi qövmü ilə bağladığı əhd və sazişin qurbanların qanı ilə Sina dağında möhkəmləndiyi kimi İsanın qanı vasitəsilə də Allahla bəşəriyyət arasında yeni və daha möhkəm əhd və saziş bağladığına inanırlar.

Xristyan kilsələrinin və firqələrinin hər birisi "Sonuncu şam yeməyi" dini mərasiminin həyata keçirilməsi sahəsində yeni-yeni təşəbbüslər göstərmişlər. Amma bu mərasimin iki əsas prinsipi toxunulmaz olaraq qalmaqdadır:

1. Müqəddəs kitabdan iki yaxud üç hissə oxumaq
2. Müqəddəs qurbanlığın yeyilməsi (Müqəddəs şam yeməyi)

Çörək və şərab təbərrük kimi gətirildiyi zaman mərasimin başçısı Həzrət İsanın (ə) sonuncu şam zamanı buyurduğu kəlamları oxuyur. Həm katoliklərdə, həm də ortodokslarda yepiskop və yaxud onun canişini olan keşişdən savayı heç kim bu mərasimin başçısı ola bilməz. Bundan əlavə, müqəddəs kitabın oxunmasından və qurbanlığın yeyilməsindən başqa xorla təvəssül və şükr dualarının oxunması, dini söhbətlər edilməsi (bu söhbətlərdə müqəddəs kitabdan oxunan hissələrin açıqlanması və orada qeyd olunan məfhumların gündəlik həyatımızda tətbiq edilməsi barəsində söz açılır) və sair işlər görülür. Protestantların əksəriyyəti sonuncu şam dini mərasimini ən mühim dini mərasim kimi qəbul edirlər. Belə ki, həmin mərasimin düzgün və tam şəkildə icrası üçün tam hazır olmaq lazımdır. Elə bu səbəbdən də, sonuncu şam dini mərasimini yalnız bəzi müqəddəs günlər münasibətilə həyata keçirirlər və onların əksəriyyəti ildə dörd və yaxud ayda bir dəfə sonuncu şam dini mərasimini həyata keçirirlər. Ortodokslar sonuncu şam mərasimini bazar günləri və müqəddəs bayramlarda həyata keçirirlər, amma katoliklərin nəzərincə sonuncu müqəddəs şam dini mərasimi gündəlik ibadətlərin ən mühimidir. Buna görə də, bu dini mərasimi hər gün keçirirlər.

# 21. Xristyanlıq bayramları

Xristyanlıqda bir çox bayramlar və anım mərasimləri vardır. Onların bəziləri aşağıdakılardır:

**Krismas, yaxud Mövlud** (Christmas) "Məsihin bayramı" mənasını kəsb edir və O Həzrətin dekabr ayının 25-də ehtimal olunan doğum gününə təsadüf edir. Bu bayramdan yeddi gün sonra "Yeni il" bayramı başlayır (Yanvar axşamı bayramı adı ilə də tanınır) və yanvar ayının 1 keçirilir.

**Pasxa bayramı** (Easter) Xristyanların ən mühim dini bayramlarından biridir. Bu bayram Həzrət İsa Məsihin (ə) ölüm üzərində qələbəsi və ölülərin arasından qalxması münasibətilə O Həzrətin çarmıxa çəkilməsinin üçüncü günü bütün xristyanlar tərəfindən böyük təntənə ilə keçirilir.

Fransızların istifadə etdiyi "Paques" sözü İbrani dilindəki "Pesəh" (Fesh) sözüdür və bu söz Yunan və Latın dilinin vasitəsilə Fransız dilinə daxil olmuşdur, sonra da müəyyən zamandan keçdikcə bu formaya düşmüşdür. İncillərdə qeyd olunduğu kimi Həzrət İsanın (ə) çarmıxa çəkilməsi və dirilərək ölülərin arasından qalxması Yəxudilərin Pasxa bayramı günlərinə təsadüf etmişdir.

Pasxa bayramı yaz fəslinin sabitləşməsindən sonra ilk ay bədrləşməsindən sonrakı ilk bazar gününə təsadüf edir və hesablamalara əsasən təxminən mart ayuının 22-dən aprel ayının 25-dək olan müddət ərzində baş verir. Yəhudilərin Pasxa bayramı (Bəni-İsrailin xilas olması günün yad edilməsi) İbrani ayı ilə Nisan ayında (təxminən aprel ayı ilə üst-üstə düşür) bir həftə boyunca 16-dan 21-dək (Fələstindən kənarda isə 22-dək) davam edir. Bəzi illərdə Yəhudilərin Pasxa bayramı xristyanların Pasxa bayramı ilə eyni vaxta təsadüf edir.

Xristyanların Pasxa bayramındakı mərasimlərindən bəzisi aşağıdakılardır: Gecəni oyaq qalmaq, müqəddəs kitabın tilavəti, münacat və dua, müqəddəs sonuncu şam mərasiminin keçirilməsi, İsanın (ə)

cəsədinin tamaşa formasında axtarılması, O Həzrətin yenidən dirilməsi mərasimi, bayram və çıraqlarla bəzəmə, rəngli yumurtaların hədiyyə edilməsi və sair.

Pasxa bayramından öncə və sonra da müxtəlif ibadət mərasimləri mövcuddur və belə mərasimlərlə daha yaxından tanış olmaq üçün həmən mərasimlərin keçirildiyi zamanda İtaliya kimi bəzi xristyan ölkələrinə səfər etmək və bunların hamısını birbaşa müşahidə etmək məqsəduyğun olardı. Yoxsa həmin mərasimlər barəsində yazılan yazılarda və yaxud lentə alınan filmlərdə verilən açıqlamalar qənaətbəxş deyildir.

Hər halda qeyd etmək lazımdır ki, Pasxa bayramı Krismas və Yeni il bayramlarından daha dini bayram hesab olunur. Belə ki, Pasxa bayramında ibadət mərasimləri çoxdur və aşağıdakı sıralama ilə həyata keçirilir:

1. Cümə axşamı günü günəş batanda İsanın (ə) sonuncu şam mərasimi keçirilir
2. Cümə günü günorta vaxtı xristyanlar çarmıxa çəkilmiş İsanın (ə) xatırəsini əziz tutaraq dini mərasim keçirirlər
3. Şənbə günü gün batan zamandan bazar günü gün doğan zamanadək İsanın (ə) yenidən dirilməsi və yeni həyata başlaması münasibətilə müqəddəs Pasxa bayramı böyük təntənə ilə keçirilir

Pasxa bayramı əvvəllər şənbə günü gün batan vaxtdan başlanırdı, gecə saatlarınadək davam edirdi və bazar gününün yeni səhəri açılan vaxtda başa çatırdı. Çünki, İncillərdə qeyd olunduğu kimi bu zaman İsa Məsih dirilərək ölülərin arasından qalxmışdır. Bu mərasim bizim dövrümüzdə qısaldılmışdır və iki dəfə dörd saatlıq mərasimlə məhdudlaşdırılmışdır. Pasxa bayramı mərasimində xristyanlığı təzə qəbul etmiş şəxslər xristyan cəmiyyətinə daxil olmalarını bildirərək xaç suyunda qüsl alırlar. Köhnə xristyanlar isə həzrət Məsih ilə yenidən əhd bağlayaraq imanlarını möhkəmləndirirlər.

# 22. Kilsədə meydana çıxan ayrılıq

Ayrılıq sözü xristyanlığın iki dəstəsi arasında parçalanmanın meydana çıxmasına dəlalət edir və dini etiqada heç bir aidiyyatı yoxdur. Xrsityanlıq tarixində kilsələr arasında meydana çıxmış ən böyük ayrılıq və yaxud parçalanma Konstantinopol kilsəsi ilə Roma kilsəsi arasında yaranmış parçalanma hesab olunur və bunu bəzən şərqlə qərb arasındakı parçalanma kimi də qeyd edirlər. Roma kilsəsi belə iddia edir ki, kilsələrə rəhbərlik edən şəxslər dünyanın yepiskoplarıdırlar və elə bu səbəbdən də, hamı Roma yepiskoplarının nəzarəti altında fəaliyyət göstərirlər. Konstantinopol kilsəsinin nəzərincə isə xristyanlar üçün beş mərkəz mövcuddur və bunlar iqtidar və ehtiram baxımından bərabərdirlər: Urşəlim, Antakiya, Roma, İskəndəriyyə və Konstantinopol kilsələri.

Buna baxmayaraq hakimiyyət və iqtidar uğrunda yaşanan ixtilaflara baxmayaraq Romaya və Konstantinopola tabe olan xristyanlar 9-cu əsrədək bir olmuşlar. Sonrakı əsrlərdə də bu iki kilsə bəzi vaxtlarda bir-birilərindən ayrılırdılar və bir müddətdən sonra yenidən barışırdılar. Sonda 1054-cü ildə Roma ilə Konstantinopol arasında sonuncu ayrılma və parçalanma baş verdi.

Dini parçalanmaların meydana çıxmasının əsas səbəbinin siyasi məsələlər olmasında heç bir şübhə yoxdur, amma sonuncu parçalanmada etiqadi məsələlərin də böyük rolu var idi. Katoliklər (eləcə də Protestantlar) öz imanlarını nümayiş etdirmək məqsədilə Müqəddəs Ruhun ata Tanrıdan və həm onunla birgə fəlaiyyətdə olan oğul İsadan yaranmasına inanırlar. Elə buna görə də, “və oğul” (Latınca “Filioque”) sözündən istifadə edirlər. Halbuki, Ortodokslar iman qanununun əsas tərkibi ilə kifayətlənərək qeyd etdiyimiz sözü oraya əlavə etmirlər. Ortodoksların nəzərincə Müqəddəs Ruh yalnız ata Tanrıdan yarana bilər. Bu məsələnin dini alimlər üçün çox böyük əhəmiyyəti vardır, amma adi xristyanlar bu qarşıdurmanı və anlaşılmazlığı xrist-

yanlıq tarixinin çərçivəsindən kənarda baş verən məsələ kimi qəbul edirlər.

Son onilliklərdə Roma və Konstantinopol kilsələri arasında birliyin əldə olunması üçün göstərilən səylər daha da intensivləşmişdir. Roma Papalarından bəzilri, o cümlədən  İyirmi üçüncü Jan, Altıncı Pol və İkinci Jan Pol Ortodoks dünyasının iki patriarxı Atinaqoras və Dimitriusla İstanbul şəhərində görüşlər keçirmişlər və adları qeyd olunan bu iki patriarx da öz növbələrində Romaya (Vatikana) səfər etmişlər. Bu iki kilsə nümayəndələri kilsələrin birləşməsi yolunda mövcud olan maniələri dəf etmək məqsədilə xüsusi işçi qrupları yaratmışlar.

## 23. Xristyanlıq firqələri

Bütün dinlərdə olduğu kimi xrsityanlıqda da müxtəlif firqələr və məzhəblər mövcuddur. Bu firqələrin bəziləri qədim zamanlardan indiyədək mövcud olan firqələrdir və bəziləri nisbətən daha gec yaranmışlar. Eləcə də, bu firqələrin bəzilərinin az və bəzilərinin çox davamçısı vardır. Xristyanlar firqə sözünün əvəzinə "Kilsə" sözündən istifadə edirlər. Xristyanlıqda üç böyük və bir neçə xırda firqə mövcuddur. Bəzi firqələr (məsələn Katoliklərlə Ortodokslar) arasındakı fərqlər olduqca cüzidir, amma onların bəziləri (məsələn Katoliklərlə Protestantlar) arasındakı fərq isə olduqca böyükdür. İndi siz oxucuların diqqətinə xristyanlığın üç ən böyük firqəsini təqdim edəcəyik.[1]

### 23-1. Katoliklər

Bu firqə olduqca qədimdir və onun yaranma tarixi Həvarilərin zamanına, yəni təxminən 2000 il öncəyə qayıdır. Katoliklərin bir rəhbəri var və həmən şəxs Papa (Pope, yəni Ata) adladırılır.

---

[1] Bu üç kilsənin hər birisinin ilahiyyat məsələləri xüsusi bir şəxsə qayırdır: Katolik Petyros ilahiyyatı, Ortodoks Yühənna ilahiyyatı və Protestant Paul ilahiyyatı

Həzrət İsanın (ə) elçilərinin dini dəvətlərinin başladığı zamandan tədricən xristyanlığın beş böyük mərkəzi meydana çıxmağa başladı. Urşəlimdə, İskəndəriyyədə, Antakiyada, Konstantinoolda və Romada. Roma kilsəsinin əsasının Petros tərəfindən qoyulduğuna və Pavlosun bir müddət orada müəllimlik və rəhbərlik etməsinə əsasən bu kilsə özünü digər xristyanlıq kilsələrindən daha üstün bilirdi. Zaman ötdükcə bu fərq daha da kəskinləşdi, dərinləşdi və Roma kilsəsi tədricən o biri kilsələrədən daha yüksəyə qalxdı. Bu kilsənin baş Yepiskoipu hörmət etbarı ilə Papa adlandırılırdı və kilsələr arasındakı ixtilafların aradan götürülməsi də buna bənzər digər sahələrdə onun nəzəri böyük əhəmiyyət kəsb edirdi. İmperatorluğun paytaxt şəhərinin Bizansa köçürülməsindən sonra qeyd etdiyimiz xristyanlığın beş əsas mərkəzinin başçılarını Patriarx adlandırılmağa başladılar. Amma Roma Yepiskopu bu ləqəbi qəbul etmədi və Papa ləqəbinin ona kifayət etdiyini bildirdi və bu ləqəbi özü üçün bir imtiyaz kimi qəbul etdi. Qeyd etmək lazımdır ki, Katolik (Catholic) sözü Yunan sözüdür və tərcümədə mənası təxminən "Toplum"-dur.

### 23-2. Ortodoks

Bu firqə təxminən min il bundan öncə meydana çıxmışdır və əqidə baxımından Katoliklərdən bir o qədər də fərqlənmir. Ortodokslar vahid rəhbərlik məsələsini qəbul etmirlər və belə iddia edirlər ki, Roma yepiskopu (yəni Roma Papası) dini rəhbərlərindən biri ola bilər. Ortodoks kiləsinin dörd köhnə patriarxından əlavə (Konstantinopol, İskəndəriyyə, Antakiya və Urşəlim) yeni patriarxları, o cümlədən Rusiya, Serbiya, Rumınya, Bolqarıstan və Gürcüstan patriarxları da mövcuddur. Qeyd etmək lazımdır ki, Kipr, Yunanıstan, Çexiya, Slovakiya, Polşa və Albaniya kilsələri də Ortodoks kilsəsinə aiddir.

Erməni xristyanları da əqidə etibarı ilə Ortodoksdurlar, amma iki məsələ Həzrət İsanın (ə) İlahi və insani təbiəti və erməni dilində olan ibadət metodu Ortodokslardan fərqlənir. Ermənistan xristyan dinini rəsmən qəbul etmiş və öz rəsmi dini kimi elan etmiş ölkədir. Belə ki, bu ölkənin şahı İkinci Tiridadın zamanında, təxminən 301-ci ildə

Müqəddəs Qriqorinin dəvətindən sonra şah rəsmən xristyanlığı qəbul etdi. Bu kilsənin rəhbəri Katalikosdur və onunoturduğu şəhər ermənistandakı Eçmiyazin şəhəridir. Onların Livanın Antalias şəhərində ikinci dini mərkəzləri mövcuddur.

İran ermənilərini Şah Abbas Səfəvi təxminən dörd yüz il bundan öncə Osmanlılarla sərhəd olan döyüş məntəqələrindən İranın mərkəzinə köçürtdü. Bu ermənilər artıq əlli ilə yaxındır ki Livandakı mərkəzdən təlimatlanırlar və buranı öz mərkəzləri kimi seçiblər. Bütün dünyada təxminən 6-9 milyon erməni vardır və onların iki yüz min nəfəri İranda yaşayır.

Ortodokslarla katoliklər arasında bəzi kəlami məsələlərdə də fikir ayrılıqları mövcuddur. Belə ki, daha öncə diqqətinizə çatdırdığımız kimi Ortodoksların nəzərincə Müqəddəs ruh yalnız Ata Tanrıdan yaranır. Halbuki, Katoliklərin və Protestantların nəzərincə Müqəddəs Ruh həm Ata Tanrıdan, həm də Oğul Tanrıdan yarana bilər və onların arasındakı fərq o qədər də əhəmiyyətli məsələ deyildir. Eləcə də, axirət dünyasında günahların yuyulması üçün xüsusi bir yerin mövcud olmasına inanmırlar. (Ortodoks Yunan dilindəki "Orthodox" sözündən iqtibas olunmuşdur və tərcümədə "Düzgün din" mənasını verir)

### 23-2. Protestant

Təxminən ötən beş yüz ildən indiyə kimi xristyanlıqda saysız-hesabsız Protestan firqələr meydana çıxmışdır. Protestanlar mərkəzləşdirilmiş rəhbərlik məsələsini qəbul etmirlər və xristyanlıq ruhaniliyi məsələsinə o qədər də ehtiramla yanaşmırlar. Protestantlar o biri firqələrin bir çox dini əqidələrini qəbul etmirlər və daha mədəniləşdirilmiş xristyanlığı qəbul edirlər. Qeyd etmək lazımdır ki, Protestantlar da xristyanlığın müqəddəs üçlük və fədakarlıq kimi mənəvi məsələlərini qəbul edirlər. (Protestant Fransız dilindən götürülmüş sözdür və bu öz-özlüyündə Latın dilindən gəlmişdir. Protestant sözü tərcümədə "Etirazçı" mənasını kəsb edir).

# 24. Rahiblik

Həvarilərin zamanından indiyədək bəzi xristyanlar Həzrət Məsihi (ə) təqlid edərək tək yaşayaraq zahidliklə məşğul olmağı özlərinin həyat tərzinə çevirdilər. İsa (ə) heç vaxt ailə qurmamışdı və təlmlərində insanların Allahın mələkutu xatirinə mücərrəd və tək yaşamağı buyururdu.(Matta 12:19) Qeyd etmək lazımdır ki, Həvarilərin bir çoxu, o cümlədən Petros ailə qurmuşdu, amma Pavlos tək yaşayırdı və onun vəziyyəti qeyri-adi idi. Mücərrədlik və təklik ilk öncə İsanın tez bir zamanda qayıtması və hesab gününün yetişməsi məsələsi ilə əlaqədar idi. Zaman ötdükcə və İsanın qayıtmasının belə tezliklə baş verməyəcəyi məlum olduqca bəzi xristyanlar Həzrət Məsih (ə) da yeni həyat yaratmaq üçün mücərrədliyi və təkliyi seçdilər, həyatlarının sonunadək tək yaşadılar.

Qeyd etmək lazımdır ki, Həvarilərin zamanından evlilik həyatı xristyanların nöqteyi-nəzərindən Həzrət Məsihin davamçısı olmağın və onun əmirlərinə şəhadət vermənin əsas yolu kimi qəbul olunurdu. Xristyanlıq tarixi boyu mücərrədlik və tək yaşamaq bu din davamçılarının bəzisinə aid olan müstəsna bir metod kimi qəbul olunmuşdur. Belə insanlar öz imanla dolu həyatlarını tək yaşamaqla davam etdirmək üçün xüsusi formada dəvət olunduqlarını hiss edirlər.

İlk əsrlərdə xristyanların böyük çətinliklərlə üzləşdiyi dövrlərdə xristyanlar İncilin sözlərinə əməl edərək həmin böyük çətinliklərin içərisində sıx əlaqələri olan kiçik dəstə əmələ gətirdilər. Konstantinin zamanında xristyanlıq dininin hakimiyyət dini olmasından və ölkə vətəndaşlarının əksəriyyətinin bu dini qəbul etməsindən sonra insanlar arasında dindarlıq səviyyəsi təbii olaraq kəskin şəkildə aşağı düşməyə başladı. Belə ki, xristyanların əksəriyyəti Həzrət Məsihin (ə) təlimlərinə və həyat tərzinə qəti oxşarlığı olmayan həyat tərzi yaşamağa başladılar. İctimai vəziyyətdə meydana çıxmış bu dəyişiklik səhralarda və tam təklikdə rahiblik hərəkatının yaranmasını meydana çıxartdı. Qeyd etmək lazımdır ki, Yəhudilər Xristyanlardan daha ön-

cə bu işi görməyə başlamışlar və Yəhudilik bölümündə qeyd etdiyimiz kimi Eseni adı ilə məşhurlaşan dəstələr eradan əvvəl Ölü dənizin kənarında yerləşən Qumran adlı məntəqədə ibadətgahlar inşa edərək orada yaşamağa başlamışlar. Bu dəstənin nəzərincə dünya cəmiyyəti şər və pisliyə bulanmışdır və belə bir cəmiyyətdə xilas olmaq mümkü deyildir. Bütün bunları nəzərə almalarına görə onlar bu dəstələrə aid olan insanları günaha və fəsada batmamaq üçün səhralarda yaşamağa apardılar.

Üçüncü və dördüncü əsrlərdə bəzi xristyanlar bu məsləyi davam etdirmək məqsədiylə İskəndəriyyə və Antakiya kimi şəhərləri boşaldaraq təklikdə dua və münacatla məşğul olmaq məqsədilə səhralrada yaşamağa başladılar. Səhralarda yaşayan müqəddəs rahiblərdən hər hansı birinin şöhrət tapması ilə insanlar dəstə-dəstə nəsihət almaq və həmin şəxsin yanında ibadətlə məşğul olmaq üçün onu ziyarət etməyə gedirdilər. Zəvvarlardan bəziləri onun yanında qalaraq onun həyat tərzini seçirdilər və onun kimi yaşamağa başlayırdılar. Beləliklə, ilk oxşar həyat yaşayan rahiblər dəstəsi meydana çıxdı və onlar öz ibadətgahlarında toplaşaraq Allaha ibadət və itaətlə məşğul olmağa başladılar.

Bu hadisə ilk olaraq Misir səhrasında müşahidə olunmağa başladı və qısa zaman ərzində Suriya və Ərəbistan yarımadası səhrasına da şamil olunmağa başladı. Misirdə yaşayan ilk belə zahidlərdən biri Antoni (356-cı ildə vəfat etmişdir) və Makariusdur (390-cı ildə vəfat etmişdir). Bu iki şəxs ən ağır zahidlik həyatı yaşamışlar. Pakomius (346-cı ildə vəfat etmişdir) ətrafına çoxlu sayda şagirdlər, dostlar topmışdır və doqquz ibadətgah inşa edərək onların hər birisində yüzdən artıq rahib yerləşdirmişdir. O, dəstələrlə yaşayan rahiblərin həyat tərzlərini tənzimləmək üçün rahiblik nizamnaməsi tənzim etmişdir.

Qeyd etdiyimiz məsələlərdən fərqli olaraq kilsə ataları rahiblik üçün yeni məfhum və məna verdilər. Onlar bəşəriyyətdəki ictimai pozğunluğun mövcud olması məsələsini qəbul etmirdilər və onu tərk etməyi lazım bilmirdilər. Bu şəxslərin bir çox məşğələləri var idi və həmin dövrün bir çox ilahiyyat və siyasət debatlarında və bəhslərində

yaxında iştirak edirdilər. Amma buna baxmayaraq onlar da dua və münacat etmək, düşüncələrini təkmilləşdirmək üçün bəzi vaxtlarda səhralara gedərdilər. Onlar bu əməlləri ilə bütün məşğuliyyətlərini yerinə yetirə biləcəklərini hiss edirdilər və həyatlarındakı əsas məqsədlərinin İncildə buyurulmuş təlimləri həyata keçirtməyi yada salırdılar.

Basil rahiblər üçün ümumi bir qanun hazırladı və hal-hazırda da şərq kilsələrində həmin qanundan istifadə olunur. Sonra Suriya və Ərəbistan yarımadası səhralarında, az əhaliyə malik Anadoluda, Yunanıstan ərazilərində ibadətgahlar təsis olundu. Həmin ibadətgahlarda yaşayan rahiblər onları ziyarət etmək məqsədilə gəlmiş insanlara nəsihət verərək onları haqq yoluna hidayət etməklə məşğul idilər. Onlar eləcə də, səhralarda azmış, zülm, ədalətsizklik və çətinliklərdən qaçaraq onlara pənah gətirmiş insanlara sığınacaq yeri verir, onların istirahət etmələri və sakitliyə qovuşmaları üçün bütün lazımi işləri görürdülər.

## 25. Kilsə şuraları

Yepiskoplar və kilsə nümayəndələri iman və əqidə məsələlərini araşdırmaq məqsədilə rəsmi toplantılar keçirirlər. Ümumdünya Şuraları (Ecumenical Councils) bütün dünya yepiskoplarının iştirak etdiyi toplantılara deyilir. Bölgə şuraları isə xüsusi bir regiona, yaxud bir şəhərə aid olunur və onu çox vaxt “Sinod” (Synod) adlandırırlar. Demək olar ki bütün xristyanlar, o cümlədən Ortodoks kilsələri 7 Ümumdünya Şurasın tanıyırlar və həmən şuraların qəbul etdiyi qanunları və çıxardıqları qərarları icra edirlər. Katolik kilsələri isə 21 ümumdünya şurasın qəbul edir. Protestant kilsələrinin bu barədə müxtəlif və ziddiyyətli nəzərli vardır.

Sonuncu Ümumdünya Kilsə Şurası “İkinci Vatikan Şurası” olmuşdur və bu şura Roma Papası İyirmi üçüncü Jan tərəfindən çağırılmışdır. Bu şura 1962-ci ildən başlayaraq 1965-ci ilədək davam etmişdir və məqsəd kotolik kilsələrinin müasir tələblərə cavab verə biləcək

formada rekonstruksiyası olmuşdur. Ümumdünya şurasında dünyanın müxtəlif bölgələrindən və regionlarından olan yepiskoplar iştirak edirdilər. Ortodoks, Protestant kilsələrindən olan nəzarətçilər və İslam, Yəhudilik və digər dinlərin nümayəndələri də qonaq qismində bu şuraya dəvət olunmuşdular.

Vatikan Şurasında on altı qərar çıxarıldı və onların məqsədi əqidə təzahürlərinin rekonstruksiya olunması və dini davranışların yeniləşdirilməsi oldu. Şuranın qəbul etdiyi təlimlərin ən əsasların bunlardır:

1. Kilsə imanının gücləndirilməsində müqəddəs kitabın danılmaz məqamı
2. Bütün xristyanların ruhani kimi elan olunması.
3. Xristyanlıqda vəhdətin və birliyin əldə olunması məqsədilə lazımi işlərin görülməsi
4. İnsan hüquqlarının qorunması və yer üzərində sülh, ədalət və əmin-amanlığın bərqərar olunmaı üçün ciddi səylərin göstərilməsi
5. Dini mərasimlərin yerli dildə keçirilməsi
6. Başqa dinlərin davamçıları üçün İlahi xilasın mövcud olması

Şuranın qəbul etdiyi və yayımladığı sənədlərdən birinin başlığı belədir: “Kilsənin başqa dinlərlə əlaqəsi sahəsində irəli sürülmüş nəzər və təkliflər”. Bu sənəddə İslam dini barəsində xüsusi bölüm vardır və “İslam”-a yox “Müsəlman”-lara xitabən yazılmışdır. Bu müsəlmanların məsələsini araşdıran ilk rəsmi kilsə mənbəsidir. İndi siz oxucuların diqqətinə həmən sənədin bəzi hissələrini çatdırırıq:

- Xristyanlar böyük hörmət və ehtiramla Müsəlmanlara yanaşmalıdırlar və onlara ehtiram göstərməlidirlər
- Müsəlmanlar və xristyanlar yeri və göyü yaratmış, Qüdrətli, Mehriban və bəşər övladıyla söhbət edən yeganə Allaha sitayiş edirlər.
- Müsəlmanlar və xristyanlar Allahın əmrinə itaət etmək və təslim olmaq üçün çalışırlar.
- Hər iki dinin davamçıları İbrahimin imanına istinad edirlər.

- Müsəlmanlar İsaya bir peyğəmbər kimi ehtiram göstərirlər və Məryəmə böyük hörmətlə yanaşırlar.
- Müsəlmanlar və xristyanlar ölülərin yenidən dirilməsi və qiyamət və hesab gününün intizarındadırlar
- Müsəlmanlar əxlaq üzərində qurulan həyata hörmətlə yanaşırlar
- Müsəlmanlar Allaha sitayiş edirlər və öz sitayişlərini namaz, oruc və nəfəqə yolu ilə həyata keçirirlər.

İkinci Vatikan Şurasının İslam dini barədəki nəzərləri bu sözlərlə bitir:

*"Ötən əsrlər ərzində Xristyanlarla Müsəlmanlar arasında çoxlu sayda düşmənçilik və qarşıdurmanın meydana çıxmasını nəzərə alaraq Şura təkidlə hamıdan keçmişi unutmağı, səmimi şəkildə qarşılıqlı anlamdan yararlanmağı, sülh, əmin-amanlıq, azadlığın, əxlaqi dəyərlərin və ictimai ədalətin bərqərar olunması üçün çalışmağı istəyir."*

Roma Papası Altıncı Pol 1965-ci ildə Vatikanda dinlərarası dialoqlar üçün katiblik təsis etdi və bundan sonra həmən katibliyə müsəlmanlarla dialoq komitəsini də əlavə etdi. Qeyd etdiyimiz komitənin məqsədi elmi çıxışlar, elmi araşdırmalar, ictimai və əxlaqi dəyərlərin gücləndirilməsi üçün birgə proektlərin meydana çıxarılması yolu ilə müsəlmanlara xristyanlar arasında qarşılıqlı hörmət və ehtiramın gücləndirilməsi və qarşılıqlı anlamın möhkəmləndirilməsindən ibarət idi.

## 26. Məzhəb islahatı

Orta əsrlərdə Katolik kilsəsini məhvə və uçuruma doğru aparan bəzi problemlər və çatışmamazlıqlar mövcud idi. Belə çirkin və pis işlərdən ən rəzilinin Simoni olduğunu desək yanılmarıq.[1] Simoni ruhani mənsəblərinin və kilsə imtiyazlarının pulla satılması mənasını

[1] "Simony" "Cadugər Simonun adından götürülmüşdür və o Həvarilərin möcüzə qüdrət və bacarığını pulla onlardan almaq istəyirdi (Həvarilərin işləri 8:9-24)

kəsb edirdi. Bundan əlavə, Papalar, yepiskoplar və keşişlər demək olar ki kilsənin üzərinə düşən və həyata keçirdiyi bütün işləri öz inhisarlarına keçirmişdilər və ümum insanlara o qədər də hörmətlə yanaşmırdılar, onları din və iman məsələləri sahəsində nadanlıq, cəhalət içərisində saxlamağa daha çox üstünlük verirdilər.

Qeyd etmək lazımdır ki, son əsrlərdə də kilsələrdə islahat işləri həyata keçirilmişdir. Bu islahat işlərindən bəzisi Papaların qüdrət başına gəlməsi ilə eyni zamanda kilsənin hörmətini aşağı salmış pis əməllərin və pozğunluqların islah edilməsindən ibarət idi. Bəziləri Katolik kilsəsini qəbul etmirdilər və əsil xristyan həyatı yaşamaq üçün təqvalı olmağa çalışırdılar. Elə bu səbəbdən də, belə dəstələrin arasında bəzən elə bir yeni düşüncə tərzləri və əqidələr meydana çıxırdı. Bu yeniliklərin klassik kilsə adət-ənənələri ilə düz gəlmirdi və sonda həmən şəxslərin kafir elan olunmaları ilə nəticələnirdi. Kilsə və dövlət əl-ələ verərək dində olan belə bidətləri və yenilikləri çox vaxt dəhşətli yollarla aradan götürməyə səy göstərdi.

### 26-1. Qədim qiyamlar

Kilsəyə qarşı həyata keçirilimiş ən məşhur qiyamlar aşağıdakılardır:

- Boqomillər qiyamı (10-cu əsrdən 12-ci əsrədək Balkanda)
- Elbicilər (12-ci əsrdən 13-cü əsrə qədər Fransanın cənubunda)
- Valdilər (12-ci əsrdən hal-hazıra qədər İtaliyanın şimalında)
- Vayklif (14-cü əsrdə İngiltərədə baş vermişdir)
- Hus (15-ci əsrdə Buhimiyada baş vermişdir)

1232-ci ildə dində yaranan yeniliklərlə və bidətlə mübarizə aparmaq üçün İnkvizisiya məhkəməsi təsis olundu və bu məhkəmə icraçıları azğın və dindən çıxmış insanları tövbə etmədikləri təqdirdə edama məhkum edirdilər.

**26-2. Martin Lüter**

Kilsə icraçılarının bir çoxunun insanları dinlərini islah etməyə çağırdıqları halda "Əfvnamə" məsələsinin meydana çıxması qərb kilsəsində mövcud parçalanmanı qətiləşdirdi. Məsələ belə idi ki, kilsədə moizə deyən insanlardan bir neçəsi Avropanın müxtəlif bölgələrini gəzərək insanlara "hər bir kəsin kilsəyə müəyyən miqdarda pul ödəməklə cəzadan azad ola və həyatlarını yenidən satın alaraq cəzadan xilas ola bilərlər" sözlərini çatdırmağa başladılar. Həmin dönəmdə Martin Lüter (1546-cı ildə vəfat etmişdir) qiyam etdi və 1517-ci ildə 95 tezisdən ibarət sənədini çap etdirmişdir və bu sənəddə katoliklərlə olan ixtilafını açıq şəkildə bəyan etmişdir. Həmin tezislərdən bəziləri bunlardır:

- Xilas olmaq yalnız iman yolu ilə əldə oluna bilər
- Xristyan imanının yeganə mənbəyi müqəddəs kitabdır
- Müqəddəs sonuncu şam yeməyi mərasiminin qurbanlıq olmasına inanmaq olmaz
- Onun üçün nəzir etmək və rahiblik etmək səhvdir
- Ruhani olmayan insanlar ibadət mərasimlərində və dinin rəhbərlik işlərində daha aparıcı rol oynamalıdırlar
- Yerli kilsələr Roma kilsəsindən ayrılaraq müstəqil fəaliyyət göstərməlidirlər
- Katoliklərə aid bəzi dini əməllər, o cümlədən həcc[1], oruc[2] və günahı etiraf etmək kimi əməlləri tərk etmək lazımdır.
- Qeyri-qanuni işlərlə, o cümlədən Əfvnamələrin və ruhaniyyət məqamlarının satışı ilə mübarizə aparmaq lazımdır.

Lüter kilsəni müqəddəs kitabın əsas təlimlərinə uyğun olaraq islah etməyə yaxın idi. (Elə bu səbəbdən də, onun başçılıq etdiyi hərə-

---

[1] Qədimdə xristyanlar ziyarət üçün Urşəlim şəhərinə gedərdilər və Xaç yürüşləri də elə bu bəhanə ilə başlamışdır.

[2] Xrsityanlar Pasxa bayramından qabaqdan oruc tuturdular. Xristyanlar oruc tutarkən gün ərzində bir dəfə yemək yeyirlər. İçkilər, müxtəlif kokteyllər, yüngül qəlyanaltı xristyanların orucunu batil etmir. Xristyanlığın bəzi firqələrində susmaq orucu da mövcuddur. Yəni şəxs gün ərzində danşmaqdan imtina edir.

kat "İncil islahatı" adlandırılırdı) O eləcə də, ilkin xristyan cəmiyyətində mövcud olan imana qayıtmağı təkid edirdi. Martin Lüter Almaniya hökümdarlarını Papa səltənətini qəbul etməməyə və səhv bilməyə, insanları İncil islahatını qəbulu sahəsində məcbur etməyə çağırırdı. Hal-hazırda İncil islahatına aid kilsələr Şimali Avropa ölkələri arasında, o cümlədən Almaniya, Norveç, İsveç, Danimarka və Finliandiyada geniş yayılmışdır.

### 26-3. Digər islahatçılar

Az müddətdən sonra Martin Lüter tərəfdarlarının arasında bəzi iman məsələləri və dəstələrə bölünmə sahəsində anlaşılmazlıqlar meydana çıxdı. Belə fikir ayrılıqları sonda İncil islahatı hərəkatının dağılması ilə nəticələndi və onun davamçılarından bəziləri özünəməxsus kilsələr və firqələr yaratmağa başladılar. Zvinqli (Zwingli, 1531-ci ildə vəfat etmişdir) İsveçrədəki din islahatı hərəkatının rəhbərliyini öz üzərinə götürdü və Həzrət Məsihin Sonuncu Şam yeməyi dini mərasimində iştirak etməsi məsələsinə görə Lüterdən ayrıldı. Eləcə də, ən tanınmış islahatçılardan olan Jan Kalvin (Calvin, 1564-cü ildə vəfat etmişdir) ruhanilik məfhumunun səhv olduğunu bildirmişdir və xilas olmaq sahəsindəki "ilkin seçim" təfəkkürünü xristyanlığa daxil etmişdir. Onun ən çox təsir göstərdiyi ölkələr İsveçrə, Hollandiya, Fransa və Şotlandiya olmuşdur. "Anabatistlər" yəni, xaç suyunda qüslün yenilənməsinin tərəfdarları vahid hərəkat yarada bilməmişdilər, əksinə bir neçə protestant firqəsi əmələ gəlmişdir. Onlar uşaqların xaç suyuna salınması məsələsini qəbul etmirdilər və insanın öz dünya görüşünə əsasən İsanı xilaskar qəbul etməsi məsələsinə təkid göstərirdilər. Bu sektalar batini paklığa, xristyan şəxsdə olan müqəddəs ruh əməlləri, sadə yaşamaq, sülhsüvərlik, kobudluqdan uzaqlaşmaq, kilsə səltənətinin və ölkə hakimiyyətinin ləğv edilməsi kimi məsələləri irəli sürürdülər. Belə əqidə və düşüncə tərzi üzərində qurulan kilsələr və firqələr bunlardır: Kvikelər, Muravilər, Menunilər və Qüsl alanlar. Kvikerləri "Dostlar" (Friends) yaxud "Dostlar dini birliyi" də adlandırırlar.

### 26-4. İngiltərədəki islahatlar

İngiltərədəki Protestan islahatı Səkkizinci Henrinin zamanında meydana çıxmış parçalanmadan sonra başlamışdır. Katolik əqidəsinə malik olan Səkkizinci Henri Papanın iqtidara malik olması məsələsini qəbul etmirdi və hal-hazırda da İngiltərə kilsəsi bu xüsusiyyətinə görə seçilir və bir neçə ölkənin kilsələri ilə birlikdə "Anqlikan" kisələrini yaratmışdır. Səkkizinci Henrinin qızı olan Birinci Yelizavetanın zamanında bir çox Protestant əqidəsi İngiltərə kilsəsinə daxil oldu. İngilislərin özünəməxsus dini islahatları meydana çıxdı. Anqlikan kilsəsini Kalvin və onun davamçılarının metodu ilə təmizləmə çalışan "Puritanlar", Con Vezlinin (Jhon Wesley) səyləri ilə meydana çıxmış Metodistlər (Methodists) hərəkatı İlahi kəlamlar üzərində qurulmuş imanla mübarizə aparmaq üçün batini paklığa təkid göstərirdilər.

Qeyd etmək lazımdır ki, bütün bu Protestantizm dalğaları Amerika Birləşmiş Ştatlarına təsir etdi və hal-hazır dünyanın ən böyük ölkələrindən biri olan bu ölkə əhalisinin əksəriyyətini Protestantlar təşkil edirlər. Protestantizm dalğaları eləcə də Avstraliya, Zellandiyaya, cənubi Afrika Respublikasına da təsirini göstərmişdir və missionerlər bu firqəni Asiyaya, Yaxın Şərqə və Afrika ölkələrinə də apara bilmişlər.

### 26-5. Qarşılıqlı islahat

Katolik kilsəsi sonda çarəsizlikdən islahatçıların irəli sürdükləri ittihamların bəzilərini etiraf etdi. Kilsə davamçılarının əksəriyyəti islahatçıların irəli sürdükləri ittihamların doğurdan da mövcud olmasını bildirdilər və bu qanunsuzluqların tezliklə aradan götürülməsini istədilər. Digər tərəfdən də, katoliklər islahatçıların öz islahatçı düşüncələrinə görə xristyan imanının əsasını təşkil edən bəzi məsələləri unutduqlarını müşahidə etdilər. Bu düşüncə tərzinə əsasən katolik kilsəsinin daxildən təmizlənməsi üçün çalışan yeni hərəkat meydana çıxdı. Bu hərəkat "Qarşılıqlı islahat" adlandırıldı və Papanın 1545-1563-cü illərdə İslahat şurasını çağırması qeyd etdiyimiz sahədə atılmış ilk addım oldu. Bu şura keçirildiyi şəhərin adı ilə yəni, Trent Şu-

rası adlandırıldı və Ortodokslarla Protestantlar bu şurada iştirak etmədilər.

Adı çəkilən şura islahatçıların tənqid etdiyi bütün pozuntulara son qoydu və onların düşüncə tərzlərini əzmək üçün klassik katolik təlimlərinin yenidən dirçəldilməsi məsələsinə təkid etdi. Qarşılıqlı islahatların aparılmasında ən çox səy göstərən dəstələrdən biri də yeni yaradılmış "Kapuçilər" və "Jezuitlər" rahibliklərinin üzvləri idilər. Onların hamısı Papanın iqtidarından istifadə etməklə və ona qarşı çıxmamaqla Katolik kilsəsinin daxildən təmizlənməsini istəyirdilər. Qarşılıqlı islahat fəaliyyətləri əhalisinin əksər hissəsi katoliklər olan ölkələrdə, o cümlədən İspaniya, İtaliya, Polşa və İrlandiyada həyata keçirilirdi.

### 26-6. Ortodoksların reaksiyası

Bizans imperatorluğu dövründə Ortodoks kilsəsində ilahiyyatın araşdırılmas məsələsi çiçəkləndi və antik adət-ənənələrdən mənşə alan bu çiçəklənmə Konstantinopolun fəth olunduğu zamanadək davam etdi. Ortodokslar 16-cı əsrdə katoliklərlə protestanların mübarizəsi qarşıdurması barəsində öz nəzərlərini bəyan etməyin lazım olduğu bildilər. Konstantinopol patriarxlarından olan Lukarisin (1638-ci ildə vəfat etmişdir) Kalvininin nəzərini qəbul etməsini qeyd etməsinə baxmayaraq bir çox məsələlərdə klassik xristyan adət-ənənəsinə sadiq olduğunu və katolik kilsəsinin mövqeyini dəstəklədiyini bildirdi.

## 27. Xristyanlıqda axirət məsələləri

Xristyanlıqda mövcud olan axirət məsələləri Yəhudilikdən xristyanlığa miras qalmışdır və İslam dinində olan qayıdış və qiyamət məsələləri ilə tam üst-üstə düşür.

Xristyanlıq yəhudilərin Məsihanın intizarında olmaq təfəkkürləri üzərində qurulmuşdur və Həzrət İsa Məsihın (ə) getməsindən sonra

xristyanlar daim günlərini O Həzrətin yenidən qayıtması üçün böyük çətinliklərlə keçirmişlər. Həzrət İsa Məsihin (ə) zühuru sahəsində mövcud olan həyəcan 1000 və 2000-ci illərdə ən pik həddə çatmışdır. Hal-hazırda xristyanlar 2000-ci ili geridə qoymuşlar, amma Məsih hələ də gəlməmişdir. Onların bir qrupu isə O Həzrətin çarmıxa çəkilərək öldürülməsi və yenidən dirilməsi ilini nəzərə alaraq və üzərinə 2000 ili gələrək Məsihin 2030-cu ildə gələcəyinə ümid bəsləyirlər. Qeyd olunan bu qrupun nəzərincə O həmən zamanda göydən yerə enəcək və yer üzərində qiyamət gününü başladacaq. Sonra insanları mühakimə edəcək və bir dəstəni cənnətə və digər dəstəni cəhənnəmə göndərəcək. Xristyanlıqda məadın və axirət dünyasının ruhi olması məsələsi irəli sürülür. (Matta 22:30)

Xristyan cəmiyyəti ilk əvvəllər Həzrət İsanın (ə) tez bir zamanda tam əzəmətlə qayıdacağına inanırdı və elə bu səbəbdən də, bu cəmiyyət səbirsiz halda sonuncu günün, yəni qiyamət gününün intizarında idilər. Xristyanların intizarda olmaları və Məsihin yenidən qayıtması Əhdi-Cədidin qədim hissələrində, o cümlədən Salonikilərə birinci və ikinci məktubda öz əksini tapmışdır. Amma, sonuncu risalələrdə, o cümlədən Timofeyə birinci və ikinci məktubda, Titusa məktubda və Petrosun məktubunda bu dünyada xristyan cəmiyyətnin və həyatının təşkil edilməsinə təkid edilmişdir.

Xristyanlar yeni mükaşifə kitabları yazmışlar, eləcə də, yəhudilərin də bəzi vəhy kitablarını dəyişdirdilər və xristyan amallarına uyğun olaraq yeniləşdirdilər. Əhdi-Cədidin sonunda yerləşən Yuhanna kitabı xristyanlar üçün böyük əhəmiyyət kəsb edir. Xristyanların nəzərincə Həzrət İsanın (ə) ən azyaşlı Həvarisi olan Yühənna qocalıq yaşındakı yuxusunu bu əsərdə şərh edir və sonda yazır:

*"O, bu məsələlər şahiddir və belə deyir: "Mən tezliklə gələcəm." Amin. Gəl ey Xudavənd İsa Məsih. Bizim Xudavəndimiz İsa Məsihin feyzi sizin hamınızla olsun. Amin. (Yühənnanın vəhyi, 22:20-21)"*

Yühənnanın vəhyi kitabında qarışıq və rəmzlərlə yazılmış məsələ olduqca çoxdur. Belə ki, Yühənnanın yazıları bu 2000 il ərzində

bir çox insanları çətinliklərlə üzləşdirmiş və xristyan esxatologiyasını yaratmışdır.

Xristyanların əksəriyyətinin zaman ötdükcə Məsihin qayıtmaq məsələsinin tezliklə baş verməyəcəyini başa düşməsinə baxmayaraq bəzi xristyan sektaları öz əqidələrini və inamlarına sadiq qalaraq O Həzrətin tez bir zamanda qayıdacağına inamlarını itirmədilər. Onlar Yühənnanın vəhy kitabındakı xeyirlə şər arasındakı müharibə məsələsini ləfzi formada açıqlamışlar və elə bu səbəbdən də, Həzrət İsanın (ə) tez bir zamanda qayıdacağına, min illik hökumət yaradacağına, bu hökumətin hesab və ədalət gününə qədər davam edəcəyinə inanırdılar. Lap qədim zamanlardan "Advintistlər" adlı xırda dəstələr meydana çıxdı və bu dəstə üzvləri bütün güclərini səfərbər edərək özlərini Həzrət İsanın (ə) gələcəyi günə və dünyanın sonuna hazırlayırdılar. Bu sahədə saysız-hesabsız dini terminlər mövcuddur. İndi həmən terminlərdən bir neçəsinin diqqətinizə çatdıracağıq:

- İsanın yenidən qayıtması (The second coming of Jesus)
- Məsihanın intizarı və yaxud Messianizm (Messianism)
- Hökümdarın və yaxud Tanrının günü (The day of the Lord)
- Mükaşifə və yaxud Apokalipsis (Apocalypse)
- Möhnət və bədbəxtlik (Tribulation)
- Zühur (Epiphany)
- Hüzur (Parousia)
- Cazibə və ekstaz (Rapture)
- Qəza və qədərə inanma (Dispensationalism)
- "Maran-atha" yəni, Tanrı gəldi və sair

## 28. Həzrət İsa Məsihin (ə) qayıdış həyəcanı

Xristyanların bir qrupu Həzrət İsa Məsihin (ə) qayıdışını çox istədiklərinə görə özlərindən müxtəlif təvəhhümlər yaratdılar və O Həzrətin geri qayıtması üçün tarixlər müəyyən etməyə başladılar. Bu

öncədən xəbər vermələr digər dinlərdə olan analoji hallar kimi səhv olurdu və elə bu səbəbdən də, dini liderlər onları belə işlərdən uzaq olmağa çağırdılar. Bu müddət ərzində bir çox "Advintist" firqələr meydana çıxdı və onların əsası belə təsəvvürlər üzərində qurulmuşdur. Məsələn, 1840-ci ilin əvvəllərində Vilyam Miller adlı şəxs Həzrət Məsihin (ə) 1843-1844-cü illərdə gələcəyi proqnozunu verdi. Onun proqnozu həyata keçmədi və o bir daha belə proqnoz verməyəcəyinə söz verdi. Amma buna baxmayaraq adı çəkilən şəxsin proqnozlarına əsasən "Yeddinci günün adventistləri" (The seventh-day Adventists) firqəsi yarandı və bu firqə hal-hazırda da mövcuddur.

Anabaptistlərdən olan bir qrup 16-cı əsrdə Həzrət İsa Məsihin (ə) min illik hakimiyyəti üçün münbit şərait yaratmaq üçün baş qaldırdılar və bəzi şəhərləri müəyyən müddət ərzində ixtiyarlarına götürdülər. Amma onların qiyamları qəddarlıqla yatırdıldı. "İrvingilər" (İrvingites) Həzrət İsa Məsihin (ə) zühurunu tezləşdirmək üçün on iki nəfər Həvari təyin etdi. Amma onlar bu işləri ilə heç bir nəticəyə çata bilmədilər və həmən Həvarilər bir-birinin arxasınca vəfat etdilər. Onların bir qrupu, yəni "Neo-İrvinqilər" (Neo-İrvingites) həmən Həvarilərin canişinlərini təyin etdilər və bu fəaliyyətlərini sonralar da davam etdirdilər. "Yəhvənin Şahidləri" (Jehovah's witnesses) qrupu Həzrət İsa Məsihə (ə) və O Həzrətdən öncə mövcud olan peyğəmbərləri qarşılamaq üçün Amerikada hündür mərtəbəli bina hazırlamışlar. "Mormonlar" (Mormons) və "Kristadelfienlər" (Christadelphians) və xristyan dinində mövcud olan başqa qeyri-adi firqələr Həzrət İsa Məsihin (ə) zühurunu tezləşdirmək məqsədilə belə işlərə əl atmışlar. Qeyd etdiyimiz kimi Sionizmin əsası hələ qoyulmamışdan öncə belə bəzi xristyan sektaları Həzrət İsanın (ə) gəlməsi üçün və dünyanın sonunun yaxınlaşması üçün Yəhudilər Fələstinə qayıtmalıdırlar.

**Mənbə**

1. Aryan, Qəmər, "Fars ədəbiyyatında Məsih obrazı", Tehran 1990
2. Elder, Con, "Kilsə terminləri tarixi", Tehran, 1947
3. Emerson, Heri, "Martin Lüter", tərcüməçi:Firidun Bədrei, Tehran 1989

4. Müqəddəs kitabın təffsirli tərcüməsi, Londin 1995
5. Tennir, Muhəmməd Tahir, “Kilsə məzhəblərindəki bütpərəstlik əfsanələri”, tərcüməçi: Əbdürrəhim Xəlxali, Tehran 1984
6. Toyunbi, Arnold, “Xristyanlıq və dünya dinləri”, tərcüməçi: Hüseyn Tofiqi, Qum 2003
7. Tisen, Henri, “Xristyan ilahiyyatı”, tərcüməçi: T.Mikailiyan
8. Hikmət, Əli Əsğər, “Dinlər tarixi”, Tehran 1966
9. Ramyar, Mahmud, “Xristyan və yəhudi peyğəmbərliyinin bir hissəsi”,
10. Danilo, Jan, “Ölü dəniz sənədlərindəki xristyanlıq kökləri”, tərcüməçi: Əli Mehdizadə, Qum 2004
11. Robertson, Arçibald, “İsa: əfsanə yaxud tarix”, tərcüməçi: Hüseyn Tofiqi, Qum 1999
12. Rosten, Leo, “Amerikan məzhəblərinin şərhli lüğəti”, tərcüməçi: Muhəmməd Bəqayi, tehran 1997
13. Zərrinkub, Əbdülhüseyn, “Vicdan barəsində”, Tehran 1996
14. Süleymani Ərdistani, Əbdürrəhim, “Allahın oğlunun hər iki Əhddə və Qurani Kərimdəki rolu, Qum 1999
15. Filson, Floid, “Əhdi Cədidin açarı”, tərcüməçi: Məsud Rəcəbniya, Tehran 1954
16. Müqəddəs kitab, London 1904
17. Qridi, Coan. O, “Xristyanlıq və bidətləri”, tərcüməçi: Əbdürrəhim Süleymani Ərdistani, Qum 1998
18. Muhəmmədiyan, Bəhram, “Müqəddəs kitab ensklopediyası”, Tehran 2002
19. Mustəfəvi, Əli Əsğər, “Qurbanlıq əfsanəsi”, Tehran 1990
20. Mulend, Eynar, “Xristyan dünyası”, tərcüməçi: Məsih Muhaciri və Muhəmməd Baqir Ənsari, Tehrab 1989
21. Mişel, Tomas, “Xristyan kəlamı”, tərcüməçi: Heseyn Tofiqi, Qum 1998
22. Miler, Vilyam, “Qədim kilsələrin tarixi”, tərcüməçi: Əli Noxostin, Tehran 1981
23. Nas, Con.B, “Dinlərin ümumi tarixi”, tərcüməçi: Əli Əsğər Hikmət, Tehran 1991
24. Volf, keri, “İncillərin məfhumu”, tərcüməçi: Muhəmməd Qazi, Tehran 1969
25. Haks Amrikayi, “Müqəddəs kitabın lüğəti”, Tehran 1998
26. Hordren, Vilyam, “Protestan ilahiyyatı, Tehran 1989

27. Hyum, Robert. A, “Yaşayan dünya dinləri”, tərcüməçi: Əbdürrəhim Qovahi, Tehran 1994
28. Arberry,A.J(ed), “Religion in the Middle Eas” Cambridge 1969
29. Cross,F.L. (ed), “The Oxford Dictionery of the Christian Church”, London 1974
30. Küng, Hans, “Christianity” New York? 1995
31. McManners, John (ed), “The Oxford Illustrated History of Christianity”, Oxford 1992
32. Noll, Mark A, “A History of Christianity in the United Stetes and Canada”, Michigan 1992
33. Peters, F.E, “Judaism, Christianity and İslam” New Jersey 1990
34. Rahner, Karl, “Theological Investigations” London 1974
35. Van Voorst, Robert, E. “Redings in Christianity” Belmont, CA 1997

# 10. İslam və digər dinlər[1]

## Nur və zülmət

Dinlər iki qrupa bölünürlər: tövhidi və qeyri-tövhidi dinlər. Qeyri-tövhidi dinlər Tövhid, nübüvvət (peyğəmbərlik) və məad (axirətə və insanların yenidən qayıtmasına inam) baxımından İslam dini ilə heç bir oxşarlığa malik deyillər. Onlar tövhidin əvəzinə şirkə, nübüvvətin əvəzinə hikmətə (qeyd etmək lazımdır ki, bu hikmətbütpərəstliyi alqışlayır)[2] və məadın əvəzinə ruhların yeni bədənlərdə yerləşməsi məsələsinə inanırlar. İslam dininin belə dinlərlə müqayisə olunması mənasızdır və məntiqlə üst-üstə düşmür.

Tövhidi dinlərdə (Yəhudilik, Xristyanlıq, Zərddüştlük və İslam) isə hər üç əsas prinsipi, tövhidi, nübüvvəti və məadı qəbul edirlər və

---

[1] Bu fəsldə İslam dini ilə digər dinlər arasında müqayisələr aparmaq məqsədilə yalnız nümunələr göstərməyə üstünlük verəcəyik.

[2] Brahmalar (yəni Hindlilər) nübüvvətin səhv olduğunu təsdiq etmək məqsədilə belə iddia edirlər ki, peyğəmbərlərin təlimləri ya ağılla üst-üstə düşür, ya da ağılla uyğunlaşmır və bu sahədə üçüncü yol mövcud deyildir. Peyğəmbərlərin təlimləri ağılla üst-üstə düşərsə bizim öz ağlımız bizim üçün kifayət edər və peyğəmbərlərə ehtiyac yoxdur. Amma, ağılla üst-üstə düşməzsə biz onu qəbul etmərik. Çünki bizim ağılla üst-üstə düşməyən təlimlərə ehtiyacımız yoxdur. Peyğəmbərliyə və nübüvvətə inananlar isə üçüncü yol nəzərdə tutaraq belə iddia edirlər ki, "Peyğəmbərlər (ə) təlimləri ağıldan daha üstündür."

elə bu səbəbdən də bir-biriləri ilə qohumluq əlaqələrinə malikdirlər. (Hindistan dinləri də bir-biriləri ilə qohumluq və yaxınlıq əlaqələrinə malikdirlər) Amma, xristyanlıqdakı tövhid "Müqəddəs üçlük" və Zərdüştlükdəki tövhid "Sənəviyyət" (Müqəddəs ikilik) üzərində qurulmuşdur. Bu iki dinin hər birisi, yəni istər Xristyanlıq, istərsə də Zərdüştlük bütün vasitələrdən istifadə etməklə özləri ilə əsil tövhid arasında ahəngdarlıq yaratmaq istəyir. Onların bu sahədə lazımi dərəcədə ahəngdarlıq yaratma dərəcələri müxtəlif insanların nəzərindən müxtəlif şəkildə dəyərləndirilir: Məsələyə yüngül yanaşan insanlar onların ahəngdarlıq yaratmaq sahəsindəki səylərini qiymətləndirərək qəbul edirlər, amma məsələyə daha dəqiq yanaşanlar isə onların bütün açıqlamalarını qəbul etmirlər və Qurani Kərimdə buyurulduğu kimi "müqəddəs üçlük" küfrün nişanəsidir. (Maidə surəsi, ayə 72-73)

Şübhəsiz ki, bütün tövhidi dinlərin arasında İslam bilikləri və mərifəti nöqteyi nəzərindən İslam dininə ən yaxın din Yəhudilikdir. Qeyd etmək lazımdır ki, İslam Peyğəmbəri Həzrət Muhəmmədin (s) zamanından indiyədək müsəlmanlarla yəhudilərin arasında yaranan qarşıdurmalar və anlaşılmazlıqlar onların dini əqidələrinə görə deyil düzgün olmayan davranışlarına görə olmuşdur. Amma bun baxamayaraq Allahın Qurani-Kərimə qarşı çıxan ilk kafirlərin yəhudilər olmasını bildirmişdir (Bəqərə surəsi, ayə 41)

Elə bu səbəbdən də, İslam alimləri "غَيْرِ الْمَغْضُوبِ عَلَيْهِمْ وَلَا الضَّالِّينَ" "Qəzəbə düçar olmuşların və (haqdan) azmışların (yoluna) yox!"[1] ayəsinin təfsirində "Qəzəbə düçar olmuşların" Yəhudi və "Azmışların" Nəsrani olduqlarını bildirirlər. Halbu ki, hər iki xüsusiyyəti hər iki dəstəyə aid edə bilərdilər. Bu parçalanmanın və ikiyə bölünmənin belə qeyd olunmasının əsas səbəbi bundan ibarətdir ki, Fatihə surəsi "ummul kitab" yəni kitabın anasıdır və başqa sözlə "Qurani Kərimin xülasəsidir". Bu ilahi kitabın mətninə müraciət etdikdə Yəhudilərin törətdikləri cinayətlərə və gördükləri pis işlərə görə Allahın onlara

[1] Fatihə surəsi, ayə 7

qəzəblənməsinin şahidi olarıq.[1] Xristyanları isə "müqəddəs üçlüyə" inandıqlarına və Həzrət İsa Məsihi (ə) İlahi kimi qəbul etdiklərinə görə haqq yolundan azmışlar kimi adlandırmışdır.[2] Eləcə də, Yəhudilərlə müşrikləri müsəlmanların ən pis düşməni kimi qeyd edir, amma xristyanları müsəlmanların ən yaxşı dostu kimi vurğulayır.[3] Beləliklə də, mübarək Fatihə surəsinin son ayəsi bu qeyd olunanlara əsasən təfsir olunmuşdur.

Qurani-Kərim səhv əqidələrin Yəhudilərə aid olmasını qeyd etmişdir və onları belə əqidələrə malik olduqlarına görə danlamışdır: 1. Üzeyir Allahın oğludur[4]; 2. Allah yoxsuldur və biz varlıyıq[5]; Allahın əlləri bağlıdır[6]. Yəhudilər bu məsələlərin hər üçünü təkzib edirlər və elə bu səbəbdən də, Quran təfsirçiləri belə bir nəzəri irəli sürmüşlər ki, bu sözlər bəzi yəhudilərin sözləri idi. Amma digərlərinin də bu məsələyə razılıq göstərmələrinə görə Allah onların hamısına şamil etmişdir[7]. Hər halda yəhudilər bu üç səhv əqidələrinə (eləcə də, gizli şəkildə onlara işarə olunan Cəbrayil (ə) ilə olan düşmənçiliklərinə görə)[8] bəraət qazanmağa çalışırlar və elə bu məsələlər kifayət qədərdir.

Digər tərəfdən Qurani-Kərim xristyanların da bəzi səhv əqidələrə malik olmalarını vurğulayır və onları belə yalnış əqidələrə malik olmalarına görə danlayır: 1. Məsih Allahın oğludur[9]; 2. Allah Məryəmin oğlu Məsihin özüdür[10]; 3. Allah üçündən biridir[11]. Xristyanlar bu məsələlərin hər üçünü qəbul edirlər və bunların düzgünlüyünə təkid

---

[1] Bəqərə surəsi ayə 61, 90; Ali İmarn surəsi, ayə 112; Maidə surəsi ayə 60; Əraf surəsi, ayə 152
[2] Nisa surəsi, ayə 171; Maidə surəsi, ayə 17, 72,73, 77, 116; Tövbə surəsi 30-32
[3] Maidə surəsi, ayə 82
[4] Tövbə surəsi, ayə 30
[5] Ali İmran ayəsi, 181
[6] Maidə surəsi, ayə 64
[7] Əl Mizan təfsiri, Tövbə surəsi, ayə 30
[8] Bəqərə surəsi, ayə 97
[9] Tövbə surəsi, ayə 30
[10] Maidə surəsi, ayə 17, 72
[11] Maidə surəsi, ayə 73

edirlər. (Onlar yalnız Həzrət Məryəmin (ə) ilahilik məsələsini[1] qəbul etmirlər)

Yəhudilik dininin üç əsas prinsipi olan tövhid, peyğəmbərlik və məaddan əlavə bəzi dini əhkamlar nöqteyi-nəzərindən də İslam dininə yaxındır. Belə ki, bəzi mələklərin, o cümlədən Cərayıl və Mikayılın adları İbrani dilində Qurani-Kərimdə qeyd olunmuşdur[2].

Qurani-Kərimdə eləcə də, müşriklərə xitabən belə buyurulmuşdur ki, Qurani-Kərim təlimləri ilə Bəni-İsrail alimlərinin biliklərinin üst-üstə düşməsi onun düzgün olmasını təsdiqləyir[3]. Bundan əlavə, biz müsəlmanlar Qurani-Kərimin bəzi ayələrini təfsir edərkən Bəni-İsrailin düzgün və səhv əqidələrini tanımalıyıq və belə məsələlərdən xəbərdar olmalıyıq. Çünki, Qurani-Kərimdə Həzrət Musanın (ə) adı 136 dəfə qeyd olunmuşdur və Bəni-İsrailin bir çox işlərinə işarə etmişdir.

Hər halda Yəhudilik, Xristyanlıq və Zərdüştlük dininin davamçıları İslam dininin kölgəsi altında sakit həyat yaşadılar və buna görə də, bir çox müsəlman ölkələrində, qdları çəkilən dinlərin davamçılarına o cümlədən İran İslam Respublikasında öz hüquqlarını müdafiə etmək və ölkə konstitusiyasının tənzim edilməsində Məclisdə öz nümaəndələrini təyin etmək icazəsi verildi.

## 2. Adlandırılması: Müəyyənləşdirməklə və təyin etməklə

Bir çox xalqların, qəbilələrin, tayfaların, sülalələrin, şəhərlərin və ölkələrin qədim adları təbii olaraq müəyyən müddət keçdikdən sonra müəyyənləşdi, heç kim qəsdən və bilərəkdən bu adları belə

[1] Maidə surəsi, ayə 116
[2] Cəbayıl "Allahın kişisi" və Mikayıl "Kim Allaha bənzəyir?" mənasını kəsb edir. Sözsüz ki, hər bir mələyin dünyanın hər bir dilində müxtəlif adı ola bilər.
[3] Şüəra surəsi, ayə 197

qoymamışdır. Bir çox dinlərin də adları belə meydana çıxmışdır. Yəhudiliyin (Judaism) müəyyənləşdirilmiş adı ata-babaların Yəhuda şəhərində yaşayan və bu səbəbdən də, Yəhudi adlandırılan insanların dininin adıdır. Amma, təyin olunmuş Xristyanlıq və yaxud Məsihilik (Christianity) isə Məsihə aid olduğu üçün belə adlandırılmışdır. Məsihi sözü ümumilikdə Həzrət İsa Məsihin (ə) göylərə getməsindən, qeybə çəkilməsindən sonra meydana çıxdı (Həvarilərin işləri 11:26) və onların yeni yaranmış dinləri "Təriqət" adlandırıldı (Həvarilərin işləri 9:2 və 22:4)

Yəhudilik və Xristyanlıq sözlərinin heç biri müqəddəs kitablarda mövcud deyildir. Halbu ki, İslam sözü və bu sözdən əmələ gələn digər sözlər Qurani-Kərimdə dəfələrlə təkrar olunmuşdur[1]. Çünki İslam dini Həzrət Muhəmmədin (s) zamanında kamala çatmışdır və bu səbəbdən də, ilk olaraq digər dinlərdən fərqlənməsi üçün adı bu formada müəyyənləşdirilmişdir.

Müəyyənləşdirilmiş din adlarından fərqli olaraq təyin olunmuş adlarının gözəl və məqsədəuyğun mənası olur və sonuncu peyğəmbər üçün "təslim olmaq" mənasını kəsb edən İslam sözünün də seçilməsinin də özəlliyi bundan ibarətdir[2]

## 3. Sonunculuq və sonrakı dinlərin gəlməsi barəsində müjdə

Yəhudilik, Xristyanlıq və İslam dinləri İbrahimi dinlər (Abrahamic Religions) və vəhy dinləri (Revealed Religions) adlandırılırlar.

---

[1] Müsəlmanların bəziləri belə iddia edirlər ki, tövhidi dinlərin hamısı ilk olaraq "İslam" adlandırılmışdır və "Yəhudilik" və "Xristyanlıq" dinləri bu dinlərin davamçılarının öz dinlərinə etdikləri təhriflərdən sonra meydana çıxmışdır. Kəlam elmi nöqteyi-nəzərindən bu məsələni təsdiq etmək mümkün olsa da, dinləri elmi baxımından sübut olunması mümkünsüzdür.

[2] Avropanın kinli xristyanları orta əsrlərdə "İslam" və "Müslim" sözlərinin əvəzinə "Muhammadanism" və "Muhammadan" sözlərindən istifadə edirdilər.

Bu dinlər Allah tərəfində göndərilən peyğəmbərlərin (ə) bizlər üçün qoyduqları yadigarlardır. İbrahimi dinlərin hamısı haqq olmalarını özlərindən qabaqkı dinlərin verdikləri müjdələrə əsasən təsdiq edirlər və eləcə də, sonuncu olmalarını iddia edərək sonrakı dinləri qəbul etmirlər. Belə ki;

Birinci: Yəhudilər özlərini Allah-Taalanın Həzrət İbrahimə (ə) verdiyi vədin nəticəsi kimi qəbul edirlər. Xristyanla isə, "Canişinlik" (Supersession) nəzəriyyəsini irəli sürərək özlərini Allahın vədəsinin davamı kimi qəbul edirlər, Əhdi-Ətiqdə Həzrət İsaın (ə) və Əhdi-Cədidin gəlməsi müjdəsini tapmağa çalışırlar. İslam dini də Bəni-İsrail peyğəmbərlərinə və özündən öncə gəlmiş səmavi kitablara diqqət ayırır və İslam peyğəmbəri Muhəmmədin (s) gəlməsinin bütün səmavi kitablarda mövcud olmasını bildirir. (Əraf surəsi, 157)

Ikincisi: Yəhudilər nəsx məsələsini, yəni köhnə ilahi qanunların Allah tərəfindən yeni qanunlarla əvəz olunmasını qəbul etmirlər və xristyanlar da Əhdi-Cədiddən sonra yeni ilahi kəlamın gəlməsini gözləmirlər[1]. İslam dininin də sonuncu ilahi və səmavi din olması Qurani-Kərimdə (Əhzab surəsi, ayə 40), müxtəlif hədislərdə qeyd olunmuşdur və bütün müsəlmanlar bunu İslam dininin ən zəruri məsələlərindən biri kimi qəbul edirlər.

Bu dinlərin hər üçündə gəlməsi öncədən xəbər verilən xilaskarın qayıtması məsələsi mövcuddur. Xilaskarın gəlməsi həmən dinin düzgün olmasını təsdiqləyəcək və gözlənilə xilaskar bu dini qüvvədən salaraq yeni din təyin etməyəcək.

---

[1] Xristyanlar da ilahi qanunların yeniləşməsi məsələsini inkar edirlər və Əhdi-Ətiqdə mövcud olan şəriəti Əhdi-Cədiddə olan şəriətin başlanğıcı kimi qəbul edirlər. Buna görə də, Tövratda mövcud olan dini əhkamlar xristyanlıqda inkar edilmir, əksinə öncədən nəzərdə tutulmuş plana əsasən inkişaf etdirilir. Pavlos belə deyir: "Allah bizi Məsihə çatdırmaq və ədalətli imana sahib malik olmaq üçün şəriət nazil etdi. Amma iman gəldi və buna görə də Allahın əlinin altında deyilik. Çünki, hamı İsa Məsihə olan imanları vasitəsilə Allahın oğullarına çevriləcəklər." (Qalatyalılara məktub 3:24-26) Müsəlmanlar isə bu qanunların artıq köhnə olduqlarını və qüvvədən düşdüklərini bildirirlər.

Muhəmməd peyğəmbərin (s) sonuncu peyğəmbər olması məsələsi sahəsindəki etiqad yeni dinlərin meydana çıxması məsələsini sıfıra endirir. Sonrakı dinlər bu yolu açmaq və məhdudiyyəti götürmək üçün daha öncə nazil olmuş səmavi kitablardakı sözləri səhv açıqlayaraq öz dinlərinin zühur etməsi məsələsini belə səhv düşüncələrdə axtarırlar. Elə bu səbəbdən də, xristyanlar Həzrət İsa Məsihin (ə) gəlməsi müjdəsini tapmaq üçün Əhdi-Ətiqi və müsəlmanlar Həzrət Muhəmmədin (s) gəlməsi müjdəsini tapmaq üçün Əhdi-Ətiqi və Əhdi-Cədidi təfsir edərək araşdırırlar.

Qeyd etmək lazımdır ki, lazımi şəxsin adını və xüsusiyyətini tapmaq bir arzu və istək şəklində qalır, müjdələr tanınmayan adlara aid olmağa başlayır. Məsələn; Məsihilər (Matta 1:23) Əhdi-Ətiqə müraciət etməklə Emmanuel dünyaya gəlməsi müjdəsini tapırlar (Əşiya 7:14) və müsəlmanlar Əhdi-Ətiqə müraciət etməklə Şilonun gəlmə müjdəsini (Yaranış 49:10) və Əhdi-Cədidə müraciət etməklə Faraqlitin (Yuhanna 14:16) gəlmə müjdəsini aşkarlayırlar. Sonralar meydana çıxan digər iddiaçılar da Əhdi-Ətiq, Əhdi-Cədid və Qurani-Kərimlə belə davranmışlar. Bu prosesdə müxtəlif ümmətlərin müqəddəs kitabları təfsirlərinə və izahlarına baxmadan özünəməxsus tərzdə təfsir olunmuşlar.

Bu dinlərin davamçıları özlərindən əvvəlki dinlərin vaxtlarının başa çatması və özlərindən sonrakı dinlərin saxta olmasına inanırlar. Elə bu səbəbdən də, xilaskarlığı özlərinə aid edirlər. Bu arada bir məsələni də qeyd etmək lazımdır ki, yəhudilik xüsusi qövmün dinindir və bu dində təbliğ məsələsi mövcud deyildir. Yəhudilərin əksəriyyəti dünya xalqlarını sionizmə dəvət edirlər. Digər tərəfdən, xristyanlıqda və islam dinində təbliğ mövcuddur. Xristyanlar təbliğat işlərini missonerlik və müsəlmanlar dəvət adlandırırlar.

Bir məsələni də qeyd etmək lazımdır ki, yəhudilikdə və xristyanlıqda Elçi və Rəsul sözü dinin təbliği ilə məşğul olan ilk insanlara deyilir (məsələn; “Elçi Daniyal” və “Elçi Pavel”) və yeni din gətirmiş şəxslərə aid edilmir.

## 4. Düzgünlüyü

Dünyada müxtəlif dinləri mövcud olmasını nəzərə alsaq həmən dinlərin düzgünlüyü barəsində üç məşhur baxış tərzi mövcuddur:

1. Dini xaricedicilik (Exclusivism)-İlahi peyğəmbərlərin və müqəddəs kitabların öz dinlərinin düzgün olması və başqa dinlərin səhv olması sahəsindəki baxışı. Bu baxışa əsasən özündən əvvəlki silsiləvi dinlər hamısı qəbul olunurlar. Eləcə də, həmin dinlərin davamçılarının öz dinlərinə inanmaları da toxunulmaz qala bilər və sonuncu olaraq gəlmiş din özündən əvvəllki dinlərin davamçılarına xüsusi imtiyazlar da nəzərdə tuta bilər. Amma ən düzgün din kimi özündən savayi heç bir dini qəbul edə bilməz.
2. Dini çoxluqçuluq (Pluralism)-Bəzi sufilərin və irfan əhlinin bütün dinlərin düzgünlüyü barəsindəki baxışları. Belə arif və sufilərin nəzərincə bütün dinlər düzgündür, heç birində səhvlik yoxdur və sonda onların hamısı insani xilas edəcəklər. Hal-hazırda yaşayan bəzi mütəfəkkirlər və ziyalılar da sufilərin bu baxışlarını modernləşdirərək yaymağa başladılar. Bəziləri yalnız öz dininin haqq və düzgün olması məsələsini qəbul edərək dingər dinlərin düzgün olmasını öz dini ilə olan oxşarlıqlar çərçivəsində qəbul edirlər. Qeyd etmək lazımdır ki, belə baxış tərzini ən çox yayılmış baxış kimi birinci gətirmək lazımdır. (Dini əhatəedicilik-İncluivism)
3. Dinsizlərin, mülhidlərin, ateistlərin və deistlərin bütün dinlərin düzgün olmaması və başqa bir dünyanın mövcud olmaması və yaxud bu dünya ilə heç bir əlaqəsi olmaması baxışları.

## 5. Kəlami məsələləri

Qeyd etmək lazımdır ki, dinlər arası dialoqun və ümumiyyətlə heç bir dialoqun nəticəsi olmayacaqdır. Çünki, dialoq zamanı tərəflər istədikləri bütün həqiqətləri əldə etdiklərini düşünürlər və qarşı tərə-

fin isə həqiqəti anlamaqda problemli olduğunu təsəvvür edirlər. İnsan ruhunun tanış anlamlarla yaxınlıq hissi yaşaması səbəbindən onu dünyəvi anlam kimi qəbul edir. Elə bu səbəbdən də, dialoqda iştirak edən tərəflərin üzərinə düşən vəzifə bu anlamlarla üst-üstə düşən nümunələrdən istifadə etməklə məsələni sübuta yetirməkdir. Amma bir məsələni unutmamalıyıq ki, dini anlamların əksəriyyəti ümumbəşəri deyil. Yəni, biz öz dinimizdən olan anlamları onlarla müqayisə edə bilmərik və öz dini təlimlərimizi onlara başa salmaq üçün qeyd olunmuş məsələlərə müraciət etmək iqtidarında deyilik.

Əgər dialoqun aparılmasında zərurət güclənərsə bir məsələni tam dəqiqliyi ilə bilməliyik ki, bizim məntiqimizlə peyğəmbərlərin məntiqi arasında eynilik olsa belə onun bizim qarşı tərəfimiz tərəfindən qəbul olunması mümkünsüzdür. Çünki, bizim qarşı tərəfimiz adi insan olarsa məğlub olduğu təqdirdə alimə müraciət etməlidir və alim mövcud olduğu təqdirdə özündən öncə yaşamış daha böyük alimlərə müraciət edəcəkdir. Sonda bütün alimlərin də onun kimi duşunəcəyini görəcəkdir.

Sözsüz ki, hər bir dində kəlam elmi çox güclü şəkildə inkişaf etmişdir və hər bir din öz kəlam elminin köməkliyi ilə özünün düzgün və digər dinlərin isə səhv olmasını sübut etməyə çalışır. Hər bir dinin davamçıları özlərini həqiqi davamçıları və digər dinlərin davamçılarını isə təqlid edənlər adlandırırlar. Onlar öz dini mənbələrini istədikləri formada açıqlayırlar, amma başqa dinin nümayəndələrinə bu məsələni ən zəif şəkildə belə həyata keçirməyə icazə vermirlər.

Hər bir din müştərək olmayan məsələlərin mənasız və səhv olduğunu bildirir. Məsələn, hər hansı bir katolik öz dini həyatında “Tanrımı yeyirəm” sözündən istifadə etsə başqa bir dinin nümayəndəsi onun sözünü heç vaxt anlaya bilməz. Amma, həmən katolik üçün bu sözün böyük mənası vardır. Çünki, birincisi həmən katolikin dini etiqadına əsasən “Sonuncu şam yeməyindəki” çörək və şərab həqiqətən[1] Məsihin əti və qanıdır. İkincisi isə Məsih həqiqətən Allahdır.

[1] Protestanların nəzərincə isə məcazən

Beləliklə də, çörəklə şərab yeyən şəxs həqiqətən də Allahı yemiş olur. Onun Allahı yeməkdə məqsədi Allahla birləşməsi mənasını daşıyır və bir müsəlman, yaxud yəhudi üçün bu cəfəngiyyatdan savayi bir məna daşımır. Müştərək məsələlər eynilik təşkil etdiyi şəraitdə qəbul olunur. Məsələn, həm yəhudi, həm xristyan, həm də müsəlman insanın öz duası vasitəsilə Allahın iradəsini dəyişdirə biləcəyi əqidəsini qəbul edir . Eləcə də, Həzrət İbrahimin (ə) öz övladını qurban kəsmək məsələsini bütün İbrahimi dinlərin davamçıları qəbul edirlər. Bütün dinlərin alimləri insanların tam şəkildə qəbul etmələri üçün bu məsələləri daha aydın çəkildə bəyan etmək məsuliyyətini öz üzərlərinə götürmüşlər.[1]

Hər bir din öz davamçıları üçün yəqinlik gətirir və müxtəlif mütəfəkkirlər öz qiymətli əsəsrlərində bu məsələni açıqlamağa çalışmışlar. İndi İmam Muhəmməd Qəzzalı, İmam Xomeyni və Şəhid Mütəhhərinin əsərlərində bu barədə qeyd olunmuş dəyərli fikirləri sizin diqqətinizə çatdıracağıq.

İmam Xomeyni öz bəhslərində müxtəlif dinlərin davamçılarını iki dəstəyə, avam və qeyri-avam dəstəyə bölür və yazır:

*"Digər dinlərin avam davamçıları beyinlərini qəbul edə bilmədiyi məzhəblərin qarşısında dayanırlar və avam müsəlmanlar kimi öz məzhəblərinin düzgün, sair məzhəb və dinlərin səhv olduqlarını qəti şəkildə bildirirlər. Deməli bizim dinin avam davamçıları İslam dini mühitində böyüyüb başa çatdıqları və öz dinlərinin tam düzgün və digər dinlərin səhv olduqarını bildirdikləri kimi başqa dinlərin də avam davamçıları belə düşünürlər. Bu iki dəstə arasında heç bir fərq yoxdur. Onlar belə qətiyyətli və kəskin nəzərə malik olduqlarına görə*

[1] Məsələn əhli sünnət üçün Həzrət Mehdinin (ə) mübarək vücudunun qeybdə olması məsələsi mümkünsüz və qəbuledilməz bir məsələdir. Amma həmən sünni qardaşımıza məsələni başa salmaq üçün əhli sünnətin qəbul etdiyi Xızr peyğəmbərin (ə) qeybdə olması məsələsini misal çəkmək lazımdır.  Bundan sonra artıq o məsələni tam formada dərk edəcəkdir.

*günahkar deyillər və onları belə olmalarına görə cəzalandırmaq mümkün deyildir.*[1]

İmam Xomeyninin nöqteyi nəzərindən həmin dinlərin avam olmayan təbəqəsi də öz səhv və batil dinlərinə qapandıqları üçün avam təbəqədən seçilmirlər. Amma bir fərq var ki avam olmayan təbəqənin üzrü qəbul olunmayacaq. Ola bilsin bunun səbəbi alimin üzərinə düşən vəzifə və öhdəliyinin daha ağır olmasıdır. İmam Cəfər Sadiq (ə) buyurur: "Alimin bir günahı bağışlanana qədər cahilin yetmiş günahı bağışlanar".[2] İmam Xomeyni digər dinlərin avam olmayan təbəqəsi barəsində bu sözləri vurğulayır:

*"Amma onların avam olmayanları uşaqlıqdan başlayaraq yeniyetməlik və gənclik dövürlərində də küfr mühitində yaşadıqları üçün öz səhv dinləri sahəsində etiqad sahiblərinə çevrilmişlər. Belə ki onlara müxalif olan hər bir şeyi uşaqlıqdan səhv müstəvidə qurulmuş ağılları ilə rədd etməyə və ümumiyyətlə qəbul etməməyə çalışırlar. Deməli yəhudi və xristyan alimləri müsəlman alimi kimi başqalarının gətirdikləri dəlil və sübutları qəbul etmirlər həmən dəlillərin batil olması təxminən zərurilik mənası daşıyır. Çünki onun dini və məzhəbi özü üçün çox zəruridir və buna qarşı olan heç bir məsələni qəbul etmir"*[3].

Amma eyni zamanda biz bəzi dinlərin davamçılarının inadkarlıqlarına və təəssübkeşliklərinə də biganə qalmamalıyıq:

*"Sözsüz ki onların arasında müqəssir insanlar, yəni dininin səhv olduğu halda təəssübkeşlik və inadkarlıq üzündən buna təkid göstərən insanlar da mövcuddur. Belə insanlar İslam dininin ilk illərində yəhudi və xristyan dinlərinin alimləri arasında da mövcud idi."*[4]

İmam Xomeyni sözünün sonunu belə bitirir:

*"Sonda qeyd etmək lazımdır ki, müsəlman aləmində olduğu kimi kafir aləmində də bəzi insanlar müqəssir deyillər və belə insanlar ək-*

---

1 Əl Məkasibul Muhərrəqə, cild 1 səh 133
2 Üsuli Kafi, cild 1, səh 47
3 Əl Məkasibul Muhərrəqə, cild 1 səh 133
4 Əl Məkasibul Muhərrəqə, cild 1 səh 134

*səriyyət təşkil edirlər. Amma, bəziləri isə müqəssirdirlər və hər bir işi anlamlı şəkildə həyata keçirirlər. Şübhəsiz ki, öhdəliklər birinci və ikinci dərəcəli olur və  istər alim olsun, istər cahil, istər müqəssir olsun, istər olmasın hamıya müştərək şəkildə aid edilir. Kafirlər üzərilərinə düşən öhdəliklərin birinci və ikinci dərəcəli olmasına uyğun olaraq cəzalandırılacaqlar. İslam dinində müsəlmanların bilərəkdən və bilməyərəkdən etdiyi günahlara görə ədalətin tam bərqərar olunması şərtilə cəzalandırılacaqdır. Dingər dinlərdə də vəziyyət eynilə belədir"*[1]

İmam Xomeyninin nəzərini təsdiq məqsədi ilə İmam Muhəmməd Qəzzali və Əllamə şəhid Mütəhhərinin sözlərini sizin diqqətinizə çatdırmaq istəyirik. Qəzzali deyir:

*"İnsanların əksəriyyəti uşaq yaşlarında iman gətirmişlər və onların bu dini təsdiqləmələrinin səbəbi ata-babalarını və müəllimlərini təqlid etmələri olmuşdur. Çünki uşaqların həmin insanlara qarşı müsbət fikirləri və sevgiləri çox güclü olmuşdur. Eləcə də, onların özləri də özlərini çox tərifləmişlər, onlara qarşı çıxan insanlar barəsində pis sözlər demişlər, onların inandığı məsələlərə etiqadları olmayan şəxslərin başlarına gələn bəlalar barəsində danışmışlar, hansısa yəhudinin qəbrində it cildinə düşməsini, hanısısa kafirin qəbrində donuza çevrilməsini bildirərərk yuxular üzərində qurulmuş nağıllar və rəvayətlər nəql etmişlər. Buna bənzər məsələlərə görə uşaqların qəlbində digər dinlərin və etiqadların nümayəndələrinə qarşı nifrət baş qaldırmışdır. Beləliklə də, bütün başqa din və etiqadlar onların qəlbindən silinmişdir. Çünki, uşağın qəlbi və düşüncəsi təmiz olduğundan ona öyrədilmiş hər bir məsələ daş üzərində yazılmış yazıya bənzəyir. Uşaqlar böyüdükcə onların düşüncə etibarı ilə ətiqad dərəcələri də dini etiqadları da böyüyür və bu dini əqidələr həmən şəxsin beynində və qəlbində möhkəmləşir. Həddi-büluğa çatanda isə onun qəlbində heç bir şəkk bəsləmədiyi dini etiqadları daha da möhkəmlənir və öz əqidəsində qalır. Elə bu səbəbdən də, xristyanların, yəhu-*

---

[1] Əl Məkasibul Muhərrəqə, cild 1 səh 134

*dilərin, zərdüştlərin və müsəlmanların hamısı ata-babalarının düz və yaxud səhv əqidələrində qalırlar, bu əqidələrlə həddi büluğa çatırlar. Onlar öz istər düz, istərsə də yalnız olan dini əqidələrinə elə bağlanırlar ki, bu yolda tikə-tikə doğranmağa razı olurlar. Halbuki, dinlərinin nə dərəcə düzgün olub-olmamaları barəsində heç bir əminlikləri yoxdur. Eləcə də, müşrik nökərlərin və kənizlərin yalnız İslam dinini tanımadıqları halda əsir tutulduqlarının şahidi oluruq. Müsəlmanlar tərəfindən əsir götürüldükdən sonra bir müddət onlarla yaşayırlar, onlarda İslam dininə qarşı sevgi və istək artır, müsəlmanlıq əqidəsini qəbul edirlər və onların əxlaqlarını, davranışlarını öyrənirlər. Sadaladıqlarımız bütün bu məsələlər təqlid və davamçılıq düşüncəsi əsasında meydana çıxır. Uşaqların və yeniyetmələrin təbiətləri belə məsələlər üçün daha məqsədəuyğundur. Bəhsimizdən belə məlum oldu ki, möhkəm dini təsdiqə çatmaq üçün yalnız ilahi dəlillərdən istifadə edilmir."*[1]

Şəhid Murtəza Mütəhhəri də "İlahi ədalət" kitabının "Müsəlman olmayan şəxsin xeyirli əməlləri" başlığı altındakı elmi bəhsində belə deyir:

*"Biz hər hansı bir şəxsin müsəlman olub olmaması məsələsinin dilimizə gətirəndə məsələnin həqiqi tərəfini nəzərimizdə saxlamırıq. Coğrafi nöqteyi-nəzərdən bir regionda yaşayan və müsəlman ata-babalarının yolunu davam etdirərək onları təqlid edən şəxsləri də müsəlman adlandırırıq. Eləcə də, başqa bir mühitdə yaşayaraq boya-başa çatmış, öz ata-babalarının dinlərini davam etdirərək insanları isə qeyri-müsəlman adlandırırıq.*

*Bu dünyada yaşayan bütün insanların nöqteyi-nəzərlərdən, istər müsəlman, istər qeyri-müsəlman, istərsə də kafir nəzərindən dəyərsiz olmasını anlamaq lazımdır. Bizim əksəriyyətimiz təqlid yolu ilə və coğrafi baxımdan müsəlmanıq. Bizim əksəriyyətimiz ata-babalarımızın müsəlman olması səbəbindən və müsəlmanlaqrın yaşadığı mühitdə dünyaya gəlməmiz səbəbindən müsəlmanıq. Əslində ən dəyərli-*

[1] İlcamul Ulumənil elmul kəlam, səh 115-116

*si isə əsil islamçı olmaqdır. Yəni şəxs həqiqətin önündə təslim olaraq ürəyinin qapılarını həqiqətin üzünə açmış olsun, haqqı qəbul etsin, bütün qayda-qanunlarını həyata keçirtsin, öz şəxsi araşdırmaları nəticəsində əldə etdiyi islamı qəbul edərək təəssübkeşlik hissi keçirmədən onun qarşısında baş əysin. Allahın qarşısında təslim olaraq onun iradəsi qarşısında baş əyəyn şəxsin İslami qanunlarla tanışlığı olmasa və İslam dini ona gizli qalarsa artıq onun heç bir təqsiri yoxdur. Allah buna görə heç zaman ona əzab verməz və sözsüz ki, həmən şəxs sonda xilas olan insanlardan birinə çevrilər..."*[1]

O, öz uzun və çətin bəhsinin sonunda müsəlman və müqəssir olmayan insanların yaxşı əməlləri üçün necə mükafatlandırılacağını və əzabdan necə yaxa qurtaracaqlarını aşağıdakı şəkildə izah edir:

*"Bəzi İslam filosoflarının, o cümlədən Əbu Əli Sina və Sədrəl Mutəəllihinin nəzərincə həqiqəti etiraf etməyən insanların əksəriyyəti müqəssir deyillər. Belə insanlar Allahı tanımadıqları şəraitdə heç bir əzaba düçar olmayacaqlar və eləcə də, cənnətə də daxil olmayacaqlar. Amma Allahı tanıdıqları və axirət həyatına imanları olduğu şəraitdə öz xeyirli əməllərinin müsbət mükafatlarını alacaqlar. Yalnız müqəssir olan insanlar əzab-əziyyətlərlə üzləşəcəklər və müqəssir olmayanları heç bir əzab-əziyyət gözləmir"*[2].

## 6. İnsanın süquta uğraması və xilas təlimi

Dinlərin ən əsas vurğuladığı məsələ insanın süquta uğraması və onun xilasa çatması üçün səy göstərməsidir. Haqqı batildən ayırmaq xilas olmaq yolundakı bütün maniələri aradan götürür. Elə bu səbəbdən də, hər bir din öz davamçıları üçün düzgün və yalnış etiqadları özündə əks etdirən sıralamanı nəzərdə tutur və bununla da, onlar öz

[1] Əsərlər toplusu, cild 1, səh 293
[2] Əsərlər toplusu, cild 1, səh 342

inamlarını həmin sıralamaya əsasən tənzimləyirlər. Hər bir dində mövcud olan kəlam elmi də elə bu səbəbdən yaradılmışdır.

Bu sözlər dinlərin özündə cəmləşmişdir. Amma "Dinlər elmi"-nin heç bir dinin səhv ya düz, haqq ya batil olması ilə işi yoxdur və yalnız bu dinlər, etiqadlar barəsində məlumat verməklə kifayətlənir.

Müxtəlif dinlər insanın süquta uğraması və onun xilas olmağa ehtiyacı barəsində söz açmışlar. Allah-Taala da Tin surəsində (yəni Əncir surəsində)insanın süquta uğrayaraq "alçaqların ən alçağına" çevrilməsi məsələsini çox aydın şəkildə çatdırmışdır. Müasir dünyamızda Umanizmin meydana çıxması nəticəsində insanın süquta uğraması məsələsi öz əvvəlki əhəmiyyətini itirmişdir. Bununla da, müxtəlif dinlər diqqətlərini insana xas olan vəziyyətlərin başqa sahələrinə ayırmışlar. Yəhudilər və xristyanlar insanın Allah formasında[1] yaradılmasına təkid göstərdikləri halda müsəlmanlar Allahın xəlifəsi və insanın kəraməti[2] məsələlərinin üzərində dayanırlar.

Hər bir din özünəməxsus məntiqi dəlillərini irəli sürməklə xilasın yalnız ona məxsus olduğunu bildirir və bəzi xüsusi hallarda insanların qəlbində özünəməxsus sevgini əldə etmək məqsədilə bu inhisarçılıqdan uzaqlaşır. Xristyanlar daim bu sözləri vurğulamışlar: "Kilsədən xaricdə heç bir xilas yoxdur!". Eləcə də, Pavelin Həzrət İsa Məsih (ə) barəsində sözlərini bildirmişlər: "Ondan savayı heç kimdə xilas yoxdur, çünki insanların Allahla münacat etmələri üçün göyün aşağısında bizi xilas edəcək heç kimin adı yazılmamışdır" (Həvarilərin işləri 4-12)

Biz müsəlmanlar da İslam təlimlərinin üzərində çox dayanaraq axirət dünyasının xilası və insanların nicat tapmasının müqəddəs İslam dininə aid olmasını təkidlə bildiririk:

وَمَنْ يَبْتَغِ غَيْرَ الْإِسْلَامِ دِينًا فَلَنْ يُقْبَلَ مِنْهُ وَهُوَ فِي الْآخِرَةِ مِنَ الْخَاسِرِينَ

[1] "Allah insanı öz formasında yaratdı" (Yaranış 1:27) Buna bənzər başqa bir söz Həzrət Muhəmməd (s)-in hədisində qeyd olunmuşdur: "Allah insanı öz formasında yaratmıışdır".
[2] Bəqərə surəsi, ayə 30 və İsra surəsi, ayə 70

“Kim islamdan başqa bir din ardınca gedərsə, (o din) heç vaxt ondan qəbul olunmaz və o şəxs axirətdə zərər çəkənlərdən olar!”[1]

## 7. Təhzib-paklanma

Bütün dinlər insanlardan əxlaq normaları çərçivəsində olan həyat yaşamağı istəyir və bu dinlərə aid bütün qanunlar bəşəriyyətin islah olunmasına xidmət edir. İnsanlar bu dünyada həmin qanunlara riayət etməklə mənəvi saflığa və islaha çatırlar. Şübhəsiz ki, insanlar şeytanın vəsvəsəsinə görə demək olar bütün heyvanlar üçün özünəməxsus ilahilik yaratmışlar (cırcıramadan filə qədər bütün həşərat və heyvanlara) və onlara sitayiş etmişlər. Amma, dini həyat müəyyən miqdarda əxlaqi kriteriyalara malikdir və hal-hazırda da belədir.

İmam Rza (ə) İmam Səccada (ə) istinadən belə rəvayət edir ki, Misir Əzizinin xanımı[2] Həzrət Yusifi (ə) vəsvəsə edəndə əlindəki parçanı evində olan bütün üzünə atdı və onun gözlərini bağladı. Həzrət Yusif (ə) onun bu hərəkətinin səbəbini soruşanda o belə cavab verdi: “Mən bu bütdən utanıram və bizi belə görməsini istəmirəm”. O Həzrət dedi: “Necə ola bilər ki, sən heç bir dərrakəsi və hissi olmayan bütdən utanasan, amma mən insanları yaradandan və aradılışın müəllimindən utanmayım?!”[3]

İstər ortodoks, istərsə də katolik kilsəsində günahların keşiş yanından etriaf edilməsi cəmiyyətdə günah səviyyəsini aşağı salmaq mənasını daşıyırdı. Bütün insanlar istər keşişlər, istər yepiskoplar və istərsə də Papalar etiraf mərasimini mütəmadi olaraq həyata keçirirdilər. İslamda, yəhudilikdə və protestant xirstyanlarda günahları etiraf etmək kimi işlərə icazə verilmir. Adlarını sadaladığımız dinlərdə və firqələrdə insanın öz günahını Allahın dərgahında etiraf edərək ondan bağışlanılmasını istəməsi məsələsinə təkid edilir.

---

[1] Ali İmran surəsi, ayə 85
[2] İslami mənbələrdə həmən xanımın adının Züleyxa olduğu bildirilir.
[3] Biharul Ənvar, cild 12, səh 266

Bütün dinlərin çox mənasız və qaranlıq bir məfhum kimi tanıdılması sahəsində çox işlər görülüb.[1] Dinlər insanları müxtəlif dərəcədə tərki dünya olmağa dəvət edir və rahiblik həyatı yaşamaq bu dinlərin hamısında gözə çarpır. İslamda rahiblik anlamı yoxdur[2], amma qədim zamanlarda yaşamış müsəlmanların bəziləri rahibliyə tərəf getdilər və məsum İmamlar və din alimləri onları tutduqları səhv yoldan geri döndərməyə çalışdılar.[3]

Bildiyiniz kimi xristyanlıqda şəriət anlamı mövcud deyildir. Bütün dinlərin, istər xristyanlıq, istərsə də digər dinlərin insan öldürmək, oğurluq etmək, zina etmək, yalan danışmaq, qiybət etmək, böhtan atmaq və buna bənzər başqa məsələlərə icazə vermirlər. Amma digər ibadətə aid olan şəriət məsələləri xristyanlıqda gözə çarpmır. Məsələn, donuz ətininin yeyilməsinə icazə verilməsi başqa İbrahimi dinlərdə mövcud deyildir, amma xristyanlıqda bu sahədə heç bir problem yoxdur.

Həzrət İsa Məsihin (ə) da bəşəriyyət uğrunda qurban edilməsi də insanların günah etməsinə icazə verməməlidir. Eləcə də, İslam dinində də Allahın mərhəmətli və Allahın seçdiyi bəndələrin şəfaətçi olması müsəlmanlara günah etməmələri üçün icazə kimi qəbul edilməməlidir.

Əxlaqi günahlardan çəkinmək məfhumu xristyanların bəzilərini qeyri-adi şəkildə mənəvi paklanmağa sövq etdi. Şəhid Mütəhhəri çıxışlarının birində xristyanların və xristyan keşişlərinin təqvalı olduqlarını bildirərək onların cənnət əhli olacaqlarını belə bildirdi:

*"Əgər siz təhrif olunmuş və dəyişdirirlmiş xristyan dininə diqqət yetirsəniz, onların kənd və şəhərlərinə getsəniz onların hamısının pis*

---

[1] Eyni zamanda tarixin bütün dönəmlərində dinlərdən məqsədlərə və maliyyə mənbələrinə çatmaq üçün istifadə edilib. Əldə olunmuş maliyyə mənbələrindən isə xüsusi istəklərə uyğun olaraq istifadə edilib. Ən maraqlısı budur ki, insanlar hər hansı bir din üçün pul verdikləri təqdirdə ona olan bağlılıqları daha da artır və ümumilikdə insanlardan daha çox pul yığa bilən din daha böyük uğurlar əldə edə bilir.

[2] "Mənim ümmətimin rahibliyi Allah yolunda cihad etməsidir" (Peyğəmbərin hədisləri, Biharul Ənvar, cild 8, səh 170

[3] Nəhcül Bəlağə, xütbə 209

*və fasid adam olduğunu düşünməməlisiniz. Allaha and olsun ki, onların arasında yuzlərlə, minlərlə elə insanlar var ki, iman, təqva və paklıqları ilə Məsih və Məryəmin adı ilə insanlara nə qədər düzgünlük, paklıq, təqvalılıq öyrədirlər. Elə insanlar müqəssir deyillər və onlar cənnətə daxil olacaqlar, Onların keşişləri də cənnətə daxil olacaqlar."*[1]

## 8. Adət və mərasimlərin dəyişdirilməsi

Dinlər və məzhəblər ictimai, siyasi, hərbi və emosional hadisələrin hadisələri tarixdə və coğrafiyada yazmış dindarlar okeanından ibarətdir. Bu okeanlardan olan bəzi damlalar isə bəzən başqa okeanlara düşə və yaxud keçə bilirlər. Başqa okeanların yeni damlalarını öz sularında görən hər bir okean onları ən bahalı mirvarid dənələri kimi əzizləyir və belə bir bahalı damlaya sahib olduqlarına görə çox sevinir və fəxr edir. Bu damlalar əslində yeni din seçənlərdir.

Yeni din qəbul etmiş insanların keçmişi və əxlaqi dəyərləri barəsində araşdırmalar apardıqda onların əksəriyyətinin avam insanlar arasından olduğunu və öz dinləri barəsində heç bir elmə sahib olmadığını görürük. Digər tərəfdən hər hansı bir dini alimin öz ata-baba dinindən imtina edərək yeni bir din qəbul etməsinə nadir hallarda təsadüf olunur. Keşiş Cezuit Tomas Mişel belə yazır:

*"Tarixi mənbələrdən əldə olunmuş məlumatlar bunu göstərir ki, öz dini və mənəvi aləminə tam qəlbilə bağlı olan hər hansı bir müsəlman və ya xristyanın öz dinindən üz döndərərək başqa bir dini qəbul etməsi olduqca azdır. Bunu da qeyd etmək lazımdır ki, istər keçmişdə, istərsə də indi bəzi insanların evlilik, peşə seçimi, mədəni göstəricilərinin yüksəldilməsi və ictimai təzyiqdən yaxa qurtarmaq üçün başqa bir dinin sıralarına daxil olmuşlar. Amma yuxarıda qeyd etdiyimiz məsələlərə baxmayaraq öz dininə tam şəkildə bağlı olan insanın baş-*

---

[1] Əsərlər toplusu, cild 3, səhifə 439

*qa bir din seçərək öz dinini tərk etməsinə olduqca nadir hallarda rast gəlmək olar."*[1]

Bir şəxsin öz dinini tərk edərək başqa bir din sıralarına daxil olması məsələsi sahəsində verilmiş dinlərarası bu açıqlama kəlam elmində qəbul olunmaz məsələdir. Kəlam elmində dini dəyişmək prosesi yalnız bir yolla mümkündür. Həmən şəxs seçdiyi dinin düzgün və başqa dinin isə səhv olmasını sübut etməlidir.

Yeni din qəbul edən şəxslər çox vaxt hansı səbəblər üzündən yeni bir din seçmələrini izah edə bilmirlər. Dinini yeni dəyişmiş şəxsin dostları yeni dinin hansı tərəflərinin onu özünə cəlb etməsini soruşurlar. Amma yeni din qəbul etmiş insanların əksəriyyəti nə əvvəlki, nə də yeni qəbul etdiyi din sahəsində heç bir məlumata malik olmamalarına görə onların arasında müqayisə aparmaqda aciz qalırlar və onların suallarına heç bir cavab tapa bilmirlər. Bir məsələni də unutmayaq ki, dindarların öz ata-babalarından qalan dinlərinin davamçıları olması üçün səbəbləri olduqları kimi dinlərini dəyişmiş insanların da yeni din seçmələri sahəsində özünəməxsus səbəbləri vardır.

Dinlərin əksəriyyəti sıralarına yeni insanları qəbul edirlər. Amma, bəzi dinlər həmin dini qəbul etməyən şəxsləri qəbul etmirlər və onları rəsmən bu dinin davamçıları kimi tanımırlar. Belə dinlərə misal olaraq Livandakı Dürziləri, İranda və İraqda olan sabiiləri misal çəkmək olar. Bu din nözteyi-nəzərindən yalnız həmən dinin davamçılarından ibarət olan ailədə dünyaya gəlmiş uşaqlar qeyd olunmuş dinin davamçıları ola bilərlər.

Öz sıralarına yeni insanlar qəbul edən dinlərdə təbliğ məfhumu mövcuddur. Bəzi dinlərdə təbliğ məfhumu yoxdur, amma hər hansı bir şəxs bu dinin sıralarına daxil olmaq istəsə onu qəbul edirlər. Buna misal olaraq Yəhudiliyi nümunə gətirmək olar.

Yarandığı ilk dövründən indiyədək Xristyanlıqda güclü təbliğat məsələsi mövcud olmuşdur. Bu din təbliğatçıları və missionerləri dünyanın bütün yerlərinə gedərək böyük uğurlar qazanmışlar. Onlar

---

[1] Məsihi kəlamı, səh 16-17

müxtəlif xalqların dillərini öyərnmək, müqəddəs kitabı həmin dillərə tərcümə etmək, rəngarəng təbliğat kitabları hazırlamaq sahələrində ciddi formada səy göstərirlər. Dünyanın istismarçı ölkələri də daim belə missioner fəlaiyyətlərini dəstəkləmişlər.

Xristyan missionerlərin əksəriyyəti protestantdırlar. Onlar xəstəxanalar inşa etməklə, insanları savadlandırmaqla, insanlar üçün ümumi əyləncə və istirahət mərkəzləri təsis etməklə onları xristyanlığa dəvət edirlər. Eləcə də, olduqca maraqlı radio-televizya verilişləri hazırlamaqla insanları öz dinlərinin sıralarına gətirmək üçün çalışırlar.

## 9. Allahın qüdrət dini, Allahın məhəbbət dini və Allahın rəhmət dini

Xristyanlar təxminən 2 min il bundan öncə Həzrət İsanın (ə) zühuruna qədər yəhudiliyin Allahın nəzəri altındakı din olmasını qəbul edirlər. Amma, bundan sonra, yəni Həzrət İsanın (ə) zühurundan sonra İlahi feyz artıq xrityanlığa aid olunmağa başladı. Müsəlmanlar da özlərindən öncə mövcud olmuş dinlərin haqq dini olmasını qəbul edirlər, amma İslam dinin bütün bu dinlərin hamısını qüvvədən saldığını bildirirlər.

Digər tərəfdən isə qeyd etmək lazımdır ki, yəhudilik Allahın qüdrət dini, xristyanlıq Allahın məhəbbət dini və İslam Allahın rəhmət dinidir.

Yəhudilik Allahın qüdrət dinidir, çünki Allah-Taala bir çox hallarda bu qövmün xeyrinə işlər görmüşdür. Məsələn, onlar Misirdə Firon və onun ətrafındakıların təzyiqi altında yaşayanda onları Qırmızı dənizdən keçirtdi və Fironun ordusunu isə suda batırdı. Daha sonra Sina səhrasında öz nemətlərini onlara əta etdi.

Xristyanlıq Allahın məhəbbət dinidir, çünki xristyanların nəzərincə Allah öz məhəbbəti üzündən özünü bəşər övladına göstərmişdir. Qeyd etmək lazımdır ki, xristyanlar "İnsanın Allaha məhəbbəti" mövzusundan daha çox "Allahın insana olan məhəbbəti" mövzusu

barəsində danışmağı sevirlər. Xristyan irfani ədəbiyyatında Allah aşiqdir və insan məşuqdur.

İslam Allahın rəhmət dinidir, çünki Allahu-Taala Həzrət Muhəmmədi (s) dünyada olan bütün insanlara rəhmət rəmzi olaraq göndərdi. (Ənbiya surəsi, 107)

## 10. Allahı tanımaq

Tövhid termini İslam kəlamı elmində ilk olaraq yalnız Allahı tanımaq məsələsinə aid ediliri və sonrakı mərhələd isə "Tövhidə əsaslanaraq Allahı tanımaq" məsələsinə şamil olunmağa başlanıldı.

Dinlərin əksəriyyəti (bəlkə də indiki dinlərin hamısı) Allahın varlığına inanır. Allahın varlığına inan dinlərin əksəriyyəti onun üçün özünəməxsus ad qoymuşlar. Bəzən Allahın xüsusi adı bəzi dinlərdə və inancı olan bəzi insanların zehnində unudulur. Hinduizmdə Allahın xüsusi adı "Brahman", Yəhudilikdə "Yəhvə", Zərdüştlükdə "Ahura Mazda" və İslam dinində "Allah"-dır. Xristyanlıqda Allahın xüsusi adı yoxdur və Əhdi-Cədiddə (Yunanca olan mətndə) Allaha ümumi bir ad, yəni "Tanrı" adı verilmişdir.

Din dili ilə yerli dil arasında fərq olanda bəzi vaxtlar yerli dil üçün bəzi problemlər meydana çıxa bilər. Hal-hazırda Fars dilində tərcümədə "İlah" mənasını verən "Xoda" ümumi adı "Allah" sözünün yerinə də istifadə olunur. Çünki, ilk farsdilli müsəlmanlar "Allah" xüsusi adının əvəvzinə "Ahura Mazda" sözündən istifadə etməyi rəva bilmədilər. Elə bu səbəbdən də, "La İlahə illəllah" sözünü tərcümə etmə böyük problemlər yaratdı. Xoşbəxtlikdən Türk dilində "İlah" sözünün yerinə "Tanrı" (Tenqri) sözündən istifadə olunur və xüsusi ad olan "Allah" üçün isə elə "Allah" kəlməsindən istifadə olunur. Bir çox başqa dinlərə, o cümlədən Avropa dillərində (xristyanlıq üçün) Allah üçün xüsusi ad mövcud deyildir. Məsələn, İngilis dilindəki "god" sözü həm Allahın ümumi, həm də xüsusi adıdır. Amma yüngül fərq mövcuddur və həmin fərq bundan ibarətdir ki, Allahın xüsusi adı qeyd olunanda "God" formasında, yəni böyük hərflərlə ya-

zılır. Bu o qədər də yaxşı çıxış yolu hesab olunmur. Çünki, daha çox istifadə olunan şifahi dildə bu fərqi anlamaq mümkün deyildir.

Allahın adına olan hörmət və ehtiram dinlərdə bəzi tabular yaratmışdır. Öncə qeyd etdiyimiz kimi yəhudilər on fərmandan üçüncüsünə çox diqqətlə əməl edirlər. Üçüncü fərmanda belə qeyd olunmuşdur; "Allahın adını səhv şəkildə demə!" Elə bu səbəbdən də, yəhudilər hətta Tövrat oxuyarkən belə "Yəhvə" sözünü dillərinə gətirməyi özlərinə haram bilirlər və bu sözün yerinə "Adonay", yəni "Bizim ağamız" sözündən istifadə edirlər. Bu tabu hətta başqa dillərdə olsa belə Allahın adına dəlalət edən bütün adlar barəsində də özünü göstərir. Məsələn, yəhudilərin əksəriyyəti "Xoda" sözünü "Hoda", "İlah" sözünü "İ-lah" və "God" sözünü "G-d" formasında yazırlar. Xristyanlar və başqa ümmətlərdə də belə məsələlər mövcud olmuşdur. İyirmi cildlik "Oxford" lüğətində "God" sözündə bu sözün əksərən 17-18-ci əsrlərə aid olan iyirmi cür tələffüz forması qeyd olunmuşdur və bunların bəzilərinin tələffüzü olduqca qarışıqdır.[1]

### 10-1. Tək və çox

Dünya xalqlarının Allaha olan etiqadı iki cürdür: Tövhid (yəni Allahın tək olmasını qəbul etmək) və Şirk (yəni Allaha şərik qoşmaq). Amma bu iki müxtəlif baxışı bir-biri ilə üst-üstə düşəcək formada da açıqlamaq mümkündür.

Xristyanlıqda tövhid müqəddəs üçlüklə bir yerdədir və xristyanlar Allahın təkliyinə inanmalarından əlavə müqəddəs üçlüyə də inanırlar. Onlar həm tövhidi baxışlarına, həm də müqəddəs üçlük baxışlarına heç bir xələl gəlməməsi üçün öz dini etiqadlarını uyğunlaşdırmağa çalışırlar. Amma bu iki məsələni uyğunlaşdırmaq mümkün olmadığı üçün sonda müqəddəs üçlüyün ilahi bir sirr olduğunu bildirirlər.

---

[1] İran müsəlmanları da آلله sözünü ...آ formasında qeyd edirlər. Yəni "Əlif" hərfini yazdıqdan sonra üç nöqtə qoyurlar və Allahın adını tam yazmırlar.

Digər tərəfdən çoxallahlılığa inanan insanlar öz etiqadlarına belə açıqlama verirlər ki, onların çoxlu sayda tanrılarından birinin məqamı digərlərindən daha yüksəkdir. Elə bu səbəbdən də, o biri tanrılar onun mələkləri və vasitəçiləri rolunu daşıyırlar. Yalnız İbrahimi dinlərdə bütün mələyin yerinə Allahın köməkçisi olması məsələsi qəbuledilməzdir. Qurani-Kərimdə bu barədə belə buyurulur:

مَا تَعْبُدُونَ مِن دُونِهِ إِلاَّ أَسْمَاء سَمَّيْتُمُوهَا أَنتُمْ وَآبَآؤُكُم مَّا أَنزَلَ اللّهُ بِهَا مِن سُلْطَانٍ

"(Allahdan) qeyri ibadət etdikləriniz sizin və atalarınızın (özündən uydurub) qoyduğunuz (Allaha heç bir aidiyyəti olmayan) adlardan (bütlərdən) başqa bir şey deyildir. Allah isə onlara (ibadət edilməsinə dair) heç bir dəlil nazil etməmişdir."[1]

İnsan vəhy olmadan tövhidlə şirk arasındakı sərhədi təyin edə bilməz. ***"Allahın izni olmadan (qiyamətdə) Onun yanında (hüzurunda) kim şəfaət (bu və ya digər şəxsin günahlarının bağışlanmasını xahiş) edə bilər?(Bəqərə surəsi, ayə 255)***

Tövhidə inananlar hər şeydən əzəmətli olan və insanın təsəvvüründən belə çox yüksəklərdə dayanan Allaha inanırlar. Onların etiqadlarına əsasən Allahın elmi və qüdrəti sonsuzdur və onlar dini mətnlərdə bu nəzəriyyəyə zidd yazılmış hər bir sözü məcazi mənada açıqlamağa çalışırlar.

Müşriklərin bəziləri "Allah o qədər böyük, əzəmətli və pakdır ki, maddi dünya ilə heç bir əlaqəsi yoxdur. Elə bu səbəbdən də, öz istəklərimizə çatmaq üçün onun şəriklərindən kömək istəməliyik" kimi fikirləri irəli sürürlər. Onlar belə mövcudları dünya işlərini həyata keçirən işçilər kimi adlandırmağa çalışırlar və gündəlik tələbatların ödənilməsi üçün onlara müraciət olunmağın vacibliyini vurğulayırlar. Əzəmətli peyğəmbərlər bu şəriklərin Allah tərəfindən təyin olunmadıqlarını və elə bu səbəbdən də, onların heç bir qüdrətə sahib olmadıqlarını, onlara sitayiş olunmamağı və onlardan kömək istəməməyi bildirmişlər.

---

[1] Yusif surəsi, ayə 40

**10-2. İnsanlara oxşarlığı və insani sifətlərdən uzaq olması**

İbrahimi dinlər yaradndığı ilk dövürlərdə fəlsəfə ilə o qədərdə yaxşı əlaqədə deyildilər və elçi Pavlos öz davamçılarına xəbərdalıq verərək belə deyirdi:

*"Diqqətli olun ki heç kim sizi fəlsəfə və yalnış hiylələrlə yoldan çıxartmasın (Kolusiyalılara məktub, 2:8)*

Kilsənin ilk Papalarından olan Tertuliyan (Tertulian) belə demişdir: "Afinanın Urşəlimlə nə əlaqəsi var?"[1]

Amma çox keçmədən bütün İbrahimi dinlərin davamçıları bir-birinin arxasınca fəlsəfəyə tərəf getdilər və fəlsəfə də onlara tərəf gəldi. İlkin fəlsəfə kəlam elminin əsasını qoydu və bu hadisə də öz növbəsində bütün müsəlmanların təşvişə düşməsinə səbəb oldu.[2] Daha sonra isə fəlsəfə özü meydana çıxdı, yəhudi, xristyan və islam fəlsəfələrinin əmələ gəlməsilə çaxnaşma yarandı. Ondan sonra İbrahimi dinlərin davamçılarının əksəriyyəti Allahı tanıma mövzuları sahəsində fəlsəfənin köməyindən yararlanmağa başladılar.

Fəlsəfi bəhslərdə adətən maddi və qeyri-maddi varlıqdan, materiyadan söz açılır. Amma insan yalnız maddə və təbiəti təsəvvür etmək bacarığına malikdir və qeyri-maddi həyata, təbiətdən kənarda olan məsələlərə inansa bu barədəki bütün təsdiqləyici dəlilləri onun təsəvvürü çərçivəsinə sığmayacaqdır. Ən çoxu isə o sirli aləmdən inkar sözlərindən istifadə etməklə söz açacaqdır. Elə bu səbəbdən də, Allah-Taala, mənəvi məsələlər və əqlani bəhslər barəsində söz açanda söz qıtlığı ilə üzləşirik. Həqiqətdə isə bütün bu bəhslərdə gündəlik həyatımızda istifadə etdiyimiz adi sözlərdən yararlanırıq və bu məsələ də bizim üçün bəzi çətinliklər yaradır.

Allah-Taala barəsindəki yaranmış hər bir təsəvvür (məsələn o müqəddəs zatın mövcudluq təsəvvürü), hər bir davranış (məsələn, ona sitayiş etmək), hər bir söz (məsələn Allahla insan arasındakı əlaqəni çatdırmaq üçü istifadə olunan "Ağa və qul", "Ata və oğul" söz-

---

[1] Bidətçilərə rədd cavabı, 7

[2] Sələfilər hələ də kəlam elminin müsəlmanlar arasında əmələ gəlməsindən narahatdılar.

ləri) Allahın insana bənzədilməsi (Anthropomorphism) təəssüratını yaradır. Bu məfhumları anlamaq üçün isə insan ağlı müqayisə yolundan yaralanır və bununla nəticəyə çatır.[1]

Onda yəhudilərin və xristyanların müqəddəs kitabları Allah-Taalanın güləşmək[2] məsələsini meydana çıxartmaqdan çəkinmirsə Qurani-Kərim də bəzi məqamlarda Allahın pak zatına məkr, hiylə, intiqam kimi hissləri aid edə bilər. Qurani-Kərim eləcə də, Allahın ona əziyyət verənləri cəzalandıracağını, möminlərin ona kömək etmək məcburiyyətində olmalarını, ona borc vermələrini və xəyanətdən ona sığınmaları kimi məsələləri də qeyd etmişdir. Eləcə də, Allahın taxtda oturması, onun göydə olması, pərvərdigarın gəlməsi, qiyamət günü ona baxilması və ələ, gözə, üzə və kürəyə sahib olması kimi bəzi fikirlərin Qurani-Kərimin bəzi ayələrində qeyd olunması Allahı cismanləşdirənlərin əlində şüar olmuşdur. Hədis əhli həmin sözlərin zahiri mənası ilə kifayətlənərək birbaşa olaraq cismi olmayan varlığın "Mövcud" olması mümükün deyildir fikirlərini söyləmişlər. Halbuki, Şiyələr və Mötəzililər Həzrət Əmirəlmöminin Əlinin (ə) bələdçiliyi ilə bu sözləri daha geniş şərh etmişlər və onlara çox münasib açıqlamalar vermişlər.[3] Əş'ərilər də illər boyunca yavaş-yavaş Hədis əhlinin belə dini etiqadlarından uzaqlaşaraq şiyələrin və mötəzililərin bu

---

[1] İnsanın materialist düşüncəsi İlahi vəhyin köməyi olmadan dünyada baş verən təbii hadisələri (məsələn, sevinci, qəmi, xoşbəxtliyi, bədbəxtliyi, hamı tərəfindən sevilməyi, bədnamlığı, ehtiyacsızlığı, ehtiyaclı olmağı, sağlamlığı, xəstəliyi, ömrün uzun və yaxud qısalığını, ruzinin çox və yaxud az olmasını, sel, zəlzələ, quraqlığı, təhlükəni və başqa məsələləri)insanla Allah arasındakı möhkəm bağlılığı nəzərə almadan açıqlaya bilməz. Yəhudiliyin, xristyanlığın və islamın müqəddəs kitabları, xüsusən də Qurani-Kərim yuxarıda qeyd etdiyimiz hadisələri bəşəri fəlsəfənin köməkliyi ilə əcr, savab, əzab və s. kimi açıqlayır və bunların hamısının əxlaqa və mənəvi aləmə aid olduğunu bildirir.

[2] Yaranış, 32:24-32

[3] Kəlam elmi alimlərinin əksəriyyəti Hədis əhli ilə müxalif olduqlarını bildirmişlər. Onlar Allahdan başqa hər bir varlığın, hətta mələklərin belə cismə malik olduqlarını bildirdilər. Məad və axirət dünyası barəsindəki ayələrin də zahirən şərh olunmağa ehtiyacı vardır, amma müsəlmanların əksəriyyəti belə ayələri məcazən şərh etməkdən çəkinmişlər və məadın cismən olacağını rəsmi şəkildə qəbul etdilər. Məadın və axirət dünyasının ruhi olacağına inanmaq İslam cəmiyyətində həmişə məhkum olunmuşdur.

sahədəki düşüncələrinə yaxın olan mövqedən çıxış etməyə başladılar. Amma bunu da qeyd etmək lazımdır ki, Hədis əhlinin düşüncələri hələ də qalmaqdadır.

Eləcə də, Allah-Taalaya Tövratda "Alov"[1], İncildə "Ruh"[2] və Qurani-Kərimdə "Nur"[3] adların ilə xitab olunmuşdur. Allahın bütün sifətlərdən uzaq bilinməsi zərurəti səmavi kitabların davamçılarını bu sözləri məcazi mənada şərh etməyə məcbur etdi. Din alimləri bu məqsədlə əqli və nəqli sübutlardan çox istifadə edirlər. Əqli dəlillərdən daha üstün sayılan nəqli dəlillərdən biri kimi Tövratda qeyd olunmuş "Allah insan deyil"[4] cümləsini nümunə gətirə bilərik. Müsəlmanların nəqli dəlillərindən biri kimi Qurani-Kərimdəki "Ona bənzər heç bir şey yoxdur."[5] ayəsini nümunə gətirə bilərik.

Yəhudi filosofu Filo (Philo) 1-ci əsrdə Əhdi-Ətiqi fəlsəfənin köməkliyi ilə şərh etmişdir. Filonun elmi irsi 215-ci ildə vəfat etmiş Klement İskəndərlinin (Clement of Alexandria) vasitəsi ilə xristyanlığa gətirildi və 254-cü ildə vəfat etmiş Origen onu sistemləşdirdi.

Allahın bütün sifətlərdən uzaq olması məsələsi o qədər əhəmiyyətli məsələlərdən birinə çevrildi ki dinlərin kəlam elminin alimləri "Allah necədir?" sualının əvəzinə "Allah necə deyil?" sualını soruşmağı meydana çıxartdılar. Yəhudilikdə və xristyanlıqda əmələ gəlmiş belə baxış "Apofatik ilahiyyatın" meydana çıxmasına səbəb oldu. Apofatik ilahiyyat nöqteyi-nəzərindən bütün insani sifətlər Allaha şamil edilmir, hətta "mövcud" sözündən belə Allah barəsində istifadəyə icazə verilmir. Digər tərəfdən Allah-Taalanın özünü insana göstərməsi Apofatik ilahiyyatın da kamil olmamasını sübuta yetirir.

Biz müsəlmanlar Allah-Taalanın bütün sifətlərdən uzaq olması sahəsində atılan addımlara görə sevinc hissi keçirməliyik və qeyd etməliyik ki, kitab əhli ilə əməkdaşlıq sahələrindən biri də elə budur.

Bütün deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, heç kim- başqa dinlərin mənbələrini söz çatışmamazlığı üzündən əmələ gələn

---

[1] Təsniyə və ikilik bölümü 4:24
[2] Yühənna İncili, 4:24
[3] Nur surəsi, ayə 35
[4] Ədədlər bölümü 23:19
[5] Şura surəsi, ayə 11

anlaşılmazlıqlara görə tənqid etməməlidir. Digər tərəfdən də, həmin kitabların İslam dini nöqteyi-nəzərindən insanlar tərəfindən hazırlanmalarına görə biz müsəlmanların şübhəli sözləri açıqlamaq sahəsində üzərimizə heç bir öhdəlik düşmür. Amma biz müsəlmanlar insaflı olmalıyıq və Qurani-Kərimdə buyurulduğu kimi kitab əhli ilə söhbət zamanı ən yaxşı yollardan istifadə etməliyik. (Ənkəbut surəsi, ayə 46)

**10-3. İrfan və sufilik**

Bütün dinlərdə olan irfan və sufilik bəhsləri həmən dinlərin fiqhi və fəlsəfi bəhslərinə qarşı göstərilmiş reaksiya mənasını daşıyır. İrfan zövqdən yaranır, isbat və yaxud inkar edilmir və incəsənətlə yaxın əlaqəyə malikdir. İrfan olduqca incə bir alov kimidir. Qarşısına keçən hər şeyi yandıraraq irəliləyir. Hindistan və uzaq şərq dinlərinin hamısı irfanidir və hal-hazırda da cüzi bir təbliğat aparmaq bütün Amerika və Avropa xalqlarını öz tərəfinə çəkir. Mərhum Əllamə Təbatəbai "İslamda şiyə anlamı" adlı kitabının ikinci cildində belə yazır:

*"Arif Allaha eşq və məhəbbətlə sitayiş edən şəxsdir. Onun nə savab qazanmaq ümidi, nə də əzabdan qorxma hissi vardır. Bu sözlərdən İrfanın digər məzhəblərin müqabilində dayanan yeni bir məzhəb kimi qəbul etmək düzgün deyildir. İrfan Allaha sitayiş etmə yollarından biridir (qorxu və yaxud ümidlə edilən sitayiş yox, eşqlə edilən sitayiş)və dinin həqiqətlərini əqli düşüncə və zahiri görünüşlə yox məhəbbətlə anlamaq yoludur. Allaha sitayiş edən dinlərin, hətta bütpərəstliyin davamçıları belə bu yolun, yəni irfan yolunun köməkliyi ilə həqiqətə çatırlar. Həm bütpərəstlikdə, həm yəhudilikdə, həm xristyanlıqda, həm zərdüştlükdə və həm İslamda irfan əhli olan və olmayan insanlar mövcuddur."*

Həqiqətən də irfan hər bir ölkədə özünü zamanın və məkanın dini ilə ahəngdar edir. Andalusiya səkkiz əsr İslam dininin bölgələrindən biri olmuşdur və 1240-cı ildə vəfat etmiş İbn Ərəbi kimi ariflər həmən diyarda dünyaya gəlmişlər. O ərazilər 1492-ci ildə tamamilə xristyanlaşdı və rahibliyin banilərindən biri olan 1556-cı ildə vəfat etmiş Cezuit İqnatos Dolevivla kimi arifləri ərsəyə gətirdi.

İslam irfanı Həzrət Əmirəlmöminin Əlidən (ə) qalmışdır və bütün ariflərin sıralaması sonda O Həzrətə çatır. İrfan və sufilik sözləri İslamın əsas mənbələrində, eləcə də İslam ölkələrində eyni məna daşıyır. Şeyx Əkbər Muhiyəddin İbni Ərəbi və Mövlana Cəlaləddin Rumi kimi şəxsiyyətlər asanlıqla "Arif" və "Sufi" adlandırılırlar. Bəzi ölkələrdə, o cümlədən İranda "Sufi" sözü bəzi səbəblər üzündən o qədər də müsbət məna kəsb etmir.

Daha öncə qeyd etdiyimiz kimi yəhudilərin irfanı "Qebala" adlandırılır. Unutmamalıyıq ki, xristyanlığın yarandığı zamanlarda yəhudi irfanının bir növü mövcud idi və davamçıları onu "Təriqət" adlandırırdılar. (Həvarilərin işləri 9:2 və 22:4) Sonda onlar müstəqil bir din yaratdılar. Xristyanlıqda daha öncə qeyd etdiyimiz kimi yəhudi irfanı üzərində qurulmuş irfan mövcuddur. Amma bundan əlavə xristyanlıqda dərin irfan və böyük ariflər mövcuddur. Daha öncə qeyd etdiyimiz kimi Hindistan və Uzaq şərq dinləri tamamilə irfan üzərində qurulmuşdur.[1] Xristyan irfanındakı rahiblik, Hindistan və Uzaq Şərq irfanı çətinliklərə dözmək və düşünməkdən ibarətdir. Bəzi dinlər teorik və bəziləri praktik irfana üstünlük verirlər, amma ümumilikdə böyük dinlərin hamısında irfanın hər iki növü mövcuddur. Bir müsəlman nöqteyi-nəzərindən dağın başında nitq söyləyən (Matta 5:7) və Tövrata əməl olunması məsələsinə təkid edən (Matta 5:17) Həzrət İsanın (ə) irfanı düzgün irfandır. Amma Pavelin Tövratda buyurulan şəriətə qarşı çıxan irfanı tamamilə yalnışdır.[2] (Romalılara

---

[1] Mərhum Əllamə Təbatəbainin sözləri mətndə qeyd olunmuşdur: "Həm bütpərəstlikdə, həm yəhudilikdə, həm xristyanlıqda, həm zərdüştlükdə və həm İslamda irfan əhli olan və olmayan insanlar mövcuddur" Bu sözlərə əlavə olaraq bildirmək istəyirik ki, bütpərəst arifdən "irfanla bütpərəstlik arasında nə əlaqə vardır?" sualını soruşsaq belə cavab verəcək ki, "İnsanların bəziləri bu bütlərin vasitəsilə mənəfi paklığa çatırlar."

[2] Bəzi ölkələrdə və xüsusən də İranda düzgün olmayan irfanı "Təsəvvüf-sufilik" və bununla məşğul olan insanı isə "Sufi adlandırılar. Bəzi səhv sufilər "Yəqin" məqamına çatdığını və "Allahın eşqi onu "məst" elədiyini iddia edərək "Və sənə yəqin (ölüm) gələnədək Rəbbinə ibadət et!" (Hicr surəsi, ayə 99) və "Sərxoş ikən nə dediyinizi anlamayana qədər namaza (namaz qılınan yerə) yaxınlaşmayın." (Nisa surəsi, ayə 43) ayələrini əllərində rəhbər tutaraq ibadəti tərk etmişlər.

məktub, 4:13-15) Hər iki irfan xristyanlıqda bir-birinə qarışmışdır və hər hansı bir xristyan üçün onları ayırmağın heç bir mənası yoxdur.

### 10-4. Vəhy

Vəhy əsası və mənşəyi Allaha qayıdan hər bir dində Allahla insanlar arasındakı əlaqə mənasını kəsb edir. İslam dinində istifadə olunan "Vəhy" termini ilə xristyanlıqda istifadə olunan "revelation" (yəni, açılış) termini arasında azacıq fərq mövcuddur:

"Vəhy" ərəb dilində"İşarə" mənası verir və İslam terminalogiyasında İlahi hidayətə dəlalət edir. Qurani-Kərim bu termindən dəfələrlə varlıqların, insanın və bütün yaradılmışların hidayət məsələləri barəsində istifadə etmişdir. Məsələn; Səmaya olan vəhy (Fussilat surəsi, 12), bal arısına olan vəhy (Nəhl surəsi, 68), Mələklərə olan vəhy (Ənfal surəsi, 12), Peyğəmbərlərə olan vəhy (Nisa surəsi, 163),öz yeni dünyaya gəlmiş körpəsini qorumaq üçün Həzrət Musanın (ə) anasına olunan vəhy (Qəsəs surəsi, 7)

"Revelation" (Latın dilindəki "revelare", yəni zühur və açılış sözündən götürülmüşdür)xristyanlıq terminologiyasında insanları xilas etmək məqsədilə Allahın insanların gözü önündə zühur etməsi məsələsinə dəlalət edir. Yaradanın təzahürlərindən sayılan bu dünyadan əlavə Bəni-İsrailin dənizin parçalanması ilə nicat tapması, Tövratın əhkamı və Həzrət İsa Məsihin (ə) həyatı xristyan vəhyinin nümunələrindən sayılır.

Yəhudilikdə olan irfan isə İslam dinində mövcud olan irfana bənzəyir və yəhudilərin dini etiqadlarına əsasən vəhy və peyğəmbərlik eradan 400 il öncə başa çatmışdır.

Dünyanın əksər dinlərində vəhy mövcuddur. Amma ibtidai dinlərdə də vəhyin olub-olmaması məsələsi isə bizim vəhyə necə tərif və açıqlama verməmizdən asılıdır.

### 10-5. Səmavi kitablar

İlahi vəhyin sonrakı nəsillər üçün qalan maddi forması dinlərdə mövcud olan müqəddəs kitablardır. Müqəddəs kitablar keçmişdə na-

zil olmuş vəhyləri gələcək nəsillərə çatdırır və hər hansı bir dinin davamçıları onları səmavi və müqəddəs kitablar adlandırırlar. Məsələn; “Vedalar”, “Tripitaka”, “Avesta”, “Əhdi-Ətiq”, “Əhdi-Cədid” və “Qurani-Kərim”. Müqəddəs kitablarda istifadə olunan ədəbiyyat müxtəlifdir və bu kitabların müqəddəs olması yalnız həmən dinin davamçıları tərəfindən qəbul olunur. Hər hansı bir dinin müqəddəs kitabı başqa bir dində xürafatla dolu və yaxud əksinə adlandırıla bilər.

Bəzi müqəddəs kitablar əsrlər boyu sinələrdə əzbərlənmiş formada qalmışdır və nəsildən nəsilə ötürülmüşdür. Yalnız uzun zaman keçdikdən sonra kitab formasına salınmışdır. Amma bəzi müqəddəs kitablar isə ilk dövrdən qələmə alınaraq qorunub saxlanılmışdır.

### 10-6. Qurani-Kərim və müqəddəs kitablar

Əksər dinlərin müqəddəs kitabları əvvəlcə onun səmavi olub-olmamasına diqqət yetirilmədən qələmə alınmışdır və insanlar zaman ötdükdən sonra onun səmavi olmasını qəbul etmişlər. Halbuki, Qurani-Kərimin səmavi, ilahi və nazil olunmuş vəhy olması qətiyyətlə vurğulanır.

Qurani-Kərimlə başqa müqəddəs kitabları müqayisə etdikdə görürük ki, bu müqəddəs kitabda Tövrat və İncildən daha çox tövhidi, nəsihətamiz, əxlaqı və s. məsələlər mövcuddur. Qurani-Kərimdəki Həzrət Yusifin (ə) hekayəsini Əhdi-Ətiqin Yaranış bölümündəki (37-46) eyni hekayə ilə müqayisə etsək bu fərqin nə dərəcədə kəskin olduğunu aydın şəkildə müşahidə etmək olar. Həzrət İbrahimin, Həzrət Musanın (ə) hekayələri də müqayisə olunmaz dərəcədə daha geniş qeyd olunmuşdur. Hələ Əhdi-Ətiqdə Həzrət Davud (ə) və Uryanın xanımı tükürpədici hekayələrini qeyd etmirəm. (Samuelin ikinci kitabı, 11)

Şübhəsiz ki, yəhudilər, xristyanlar və başqa dinlərin davamçıları da müsəlmanlar kimi öz müqəddəs kitablarından əxlaqi mənalar daşıyan məfhumlar əldə edirlər.

Bir məsələni də qeyd etmək lazımdır ki, Qurani-Kərim İslam dininin əsasıdır. Halbuki, xristyanların təsəvvürünə əsasən İncil və

Əhdi-Cədiddə mövcud olan başqa kitablar xristyanlıq yaranandan bir onillikdən sonra meydana çıxmışdır və xristyanlıq bu kitab olmadan belə mövcud olmuşdur.

**10-7. Allah kəlamının qədim olması**

Yəhudilikdə Allah kəlamının qədim olması dini əqidəsi xristyanlıqda Məsihin məxluq sayılmaması əqidəsinin yaranmasına səbəb oldu. İslam dinində əhli-sünnə tərəfindən Qurani-Kərimin məxluq olmaması əqidəsi yarandı. Onlar belə bir nəzər irəli sürdülər ki, "Qurani-Kərim yazıldıqda, hifz olunduqda və tilavət edildikdə Allah kəlamıdır və məxluq deyildir. Amma, bizim yazmamız, hifz etməmiz və oxumağımız məxluqdur.

Yəhudilər Tövratın yaradılışdan öncə də mövcud olduğunu və ağ-qara alovlarla yazıldığını bildirirlər. Daha sonra Allah-Taala onu imla şəklində demişdir və Həzrət Musa (ə) onu göz yaşları ilə yazmışdır.[1] (Yəni Tövratın yazılmasında emosiyalardan və hisslərdən çox istifadə olunmuşdur.)

**10-8. Müqəddəs kitabların müəllifləri**

Müqəddəs kitabların heç bir müraciəti olmayan hissələrinin müəllifləri barəsindəki bəhs olduqca əhəmiyyətli bəhsdir. Qurani-Kərimin hamısı və hal-hazırki Tövratın bəzi hissələri Allah tərəfindən birbaşa olaraq göndərilimiş müraciətlərdir. Amma, Luka İncilinin giriş hissəsində həmin İncili qələmə almış müəllifin Həzrət İsa Məsihin (ə) həyatı və sözləri barəsində məlumat toplamaq üçün bir çox insanlara müraciət etməsi və sonda topladığı məlumatları İncil formasına salması qeyd olunmuşdur. O eləcə də, "bir çox" insanların da onun atdığı addımla üst-üstə düşən addım atmasına işarə edir. Həqiqətdə də, xristyanların Əhdi-Cədidi hazırlamaları bir az vaxt apardı və onlar bir neçə on illiklər ərzində çoxlu sayda yazıların arasından bu müqəddəs kitabı meydana çıxarda bildirlər.

---

[1] Urşəlim Təlmudu, Şikalim 6:1

Hər bir insan Qurani-Kərimə baxdıqda asanlıqla onun İlahi kitab və Allah-Taalanın insana olan müraciəti olmasını anlayır. Yəni bu kitabın ərsəyə gəlməsində Allah-Taaladan savayı kiminsə rolu yoxdur.

Qurani-Kərimdə olan ilahi müraciətlər ən yüksək dəqiqliklə nəql olunmuş və yazılmışdır. Belə ki, "قل هو آلله احد" "De: O Allah birdir!" müraciətindəki "قل" sözü həmişəlik olaraq müraciətin əsli ilə qalmışdır və sonrakı nəsillərə gəlib çatmışdır. Müsəlmanlar da onu elə "قل" kimi istifadə etmişlər və heç bir dəyişikliklər aparmadan təkrarlamışlar.

Hal-hazırki Tövrat Bəni-İsrailin tarixi və keçmişi, Həzrət Musanın (ə) həyatı və fəaliyyətləri, Allahın O Həzrətə göndərdiyi müraciətlər barəsində söz açan bir kitabdır.

Əhdi-Cədiddə mövcud olan dörd kitab Həzrət İsa Məsihin (ə) həyatı və O Həzrətin sözləri barəsində söz açır. Amma bu kitabda, birbaşa olaraq Allahdan göndərilmiş müraciətlər qeyd olunmamışdır. Bir məsələni bildirmək vacibdir ki, xristyanlar Həzrət İsa Məsihi (ə) tanrı bilirlər və onun bir çox elçilərinin olmasını bildirirlər. Bu ölçilərin bəziləri isə İncilləri və Əhdi-Cədidin başqa hissələrini qələmə almışlar. Elə bu səbəbdən də, bu kitabların hamısı ilahi müraciət kimi qəbul olunmuşlar.

İstər Əhdi-Ətiqdə, istərsə də Əhdi-Cədiddə münacat, hikmət, fəlsəfə, şeir, peyğəmbərlik və başqa mükaşifələr mövcuddur. Misal olaraq Həzrət Davudun (ə) Zəburda qeyd olunmuş minacatlarını göstərmək olar.

Əhdi-Cədiddə isə elçilərdən olan 21 məktub mövcuddur və bunların hamısı yeni ədəbi üslubda qələmə alınmışdır. Yəni, Əhdi-Ətiqdə həmən məktublara bənzər başqa yazılar gözə çarpmır.

### 10-9. Səmavi kitabların mötəbərliyi

Dinin daxilindən baxanda İbrahimi dinlərin müqəddəs kitablarının mötəbərliyi eyni səviyyədə deyildir. Yəhudilər İncilin və Quranın səmavi və müqəddəs kitab olmasını qəbul etmirlər. Xristyanlar isə Qurani-Kərimin səmavi kitab olmasını qəbul etmirlər. Digər tərəfdən

müsəlmanlar da hal-hazırda mövcud olan Tövrat və İncilin Allah-Taalanın Qurani-Kərimdə təsdiqlədiyi Tövrat və İncil olduğunu qəbul etmirlər. Qurani-Kərim Tövrat və İncili Həzrət Musaya (ə) və Həzrət İsa Məsihə (ə) göndərilmiş Quran kimi qələmə verir. (Ali İmran surəsi, ayə 3, 4 və başqa ayələr) Halbuki, kitab əhli dini etiqadlarını əllərində şüar edərək Tövratın Həzrət Musa (ə) tərəfindən qələmə alındığını bildirirlər. Xristyanların nəzərincə isə Həzrət İsa Məsihin (ə) heç bir kitabı yoxdur və İncillər ona gələn vəhylər toplusu deyil, O Həzrətin həyatı və sözləri əsasında yazılmış kitabdır. İncillərdə də Həzrət İsaya (ə) Allah-Taala tərəfindən göndərilmiş vəhylərin olması iddia olunmur. İncillərin yazılış tərzinə də diqqət yetirsək ilahi söz tərzinin mövcud olmaması gözə çarpır. Amma unutmayaq ki, Yəhudilər və xristyanlar Tövratı, İncili və digər kitabları onların məfhum və məzmununa əsasən vəhyli, müqəddəs və səmavi kitab kimi qəbul edirlər.

İbrahimi dinlərin davamçılarının vəhylə göndərilmiş, müqəddəs və səmavi kitablar üçün ümumi tərifi olmaması səbəbindən yəhudilər, xristyanlar və müsəlmanlar öz dinlərinə uyğun olaraq müqəddəs kitablarına inanırlar.

Məsələyə qeyri-dini aspektdən yanaşsaq Qurani-Kərimin İslam sivilizasiyası çərçivəsində bizə gəlib çatması səbəbindən aydın tarixə malik olmasının şahidi olarıq. Hər bir tədqiqatçı və araşdırmaçı bu müqəddəs kitabın müsəlmanlar arasında tam şəkildə yayılmasını görə bilər. Amma, hal-hazırki Tövrat və İncilin tarixin qaranlıq səhifələrindən baş qaldırası səbəbindən şəffaf tarixi keçmişə malik olmaması bildirilir və heç kim bu müqəddəs kitabların Həzrət Musa (əs) və Həzrət İsanın (ə) zamanından indiyədək dəyişilməz olaraq qalmasını iddia edə bilməz. Yəhudilər və xristyanlar öz kitablarının ilahi və səmavi kitab olmasını sübut etmək üçün başqa yoldan istifadə edirlər.

Eləcə də, Qurani-Kərimdə qeyd olunduğu kimi həm Tövratda, həm İncildə İslam dininin müqəddəs peyğəmbəri Həzrət Muhəmmədin (s) gəlməsi mövcud olmuşdur.[1] Amma kitab əhli hal-hazırda Töv-

[1] Əraf surəsi, ayə 157

rat və İncilin islamdan öncə mövcud olmuş və indi dünyanın mötəbər kitabxanalarında və muzeylərində saxlanılan bəzi nüsxələrini əllərində rəhbər tutaraq öz kitablarında Həzrət Muhəmmədin (s) gələcəyinə olan ən cüzi işarələri də danırlar. Kitab əhli müsəlmanların bu sahədə olan nəzərlərini qəbul etmirlər. Kitab əhli eləcə də, bu başarətə görə öz dinini tərk edərək islamı qəbul edən insanların sözlərini dəlil və sübut kimi qəbul etmirlər. Bütün bu deyilənlərdən belə nəticə çıxarmaq olar ki, Qurani-Kərim Tövratdan və İncildən söz açanda məqsəd Həzrət İbrahimə (ə)[1] göndərilmiş və hal-hazırda mövcud olmayan müqəddəs səhifələr kimi hal-hazırda əsli qalmayan Tövrat və İncildən danışır.

Unutmayaq ki başqa bir Tövrat və İncilin mövcud olması iddiası Qurani-Kərimin bir çox ali təlimləri kimi yalnız müsəlmanlar tərəfindən qəbul olunr. Belə kitabların mövcudluğunu qəbul edən hər bir kəs dərhal müsəlman olur.

**10-10. Görəsən Müqəddəs kitablar təhirf olunub?**

İslam kəlamı ilə xristyan kəlamı arasında ən mübahisəli məsələlərdən biri də təhrif və müqəddəs kitablarda dəyişikliklərin aparılmasıdır. Qurani-Kərim on ayədə Tövrat və İncilin (İncillərin yox) nazil olunması məsələsinə işarə etmişdir:

وَأَنْزَلَ التَّوْرَاةَ وَالْإِنْجِيلَ مِنْ قَبْلُ هُدًى لِلنَّاسِ وَأَنْزَلَ الْفُرْقَانَ

“Tövratı da, İncili də O endirdi. Daha öncə insanları hidayət etmək üçün. Furqanı da O nazil etdi.”[2]

Müsəlmanlar ən qədim dövrlərdən Allahın nazil etdiyi Tövrat və İncilin kəskin şəkildə təhrif olunması, həmən müqəddəs kitablarda Həzrət Muhəmmədin (s) sonuncu peyğəmbər kimi gələcəyi məsələsinin pozulmasını və Allah-Taalanın cismaniliyi kimi məsələlərin kitablara əlavə olunmasını məsələsini qəbul etmişlər.

[1] Əla surəsi, ayə 18-19
[2] Ali İmran, ayə3-4

Kitab əhli isə öz müqəddəs kitablarında hər hansı bir təhrifin mövcud olması məsələsini qəbul etmirlər və belə iddialar onların qəzəblənməsinə səbəb olur. Onlar Əhdi-Ətiqin təxminən 2000 il yaşı olan və Əhdi-Cədidin təxminən 1600 yaşı olan və dünyanın böyük muzeylərində, kitabxanalarında saxlanılan əlyazmalarına işarə edərək belə bir sual irəli sürürlər: "Tövrat və İncilin təhrifi nə zaman, harada və nə məqsədlə edilə bilər?" İslam alimləri və tədqiqatçıları onların bu suallarını cavablandırırlar və bu cavablarda Tövrat və İncilin nazil olması məsələsinə tam yəqinlik müşahidə olunur. Bu əqidə xristyanlar üçün o qədər də yaxın deyildir və onlar Həzrət İsanın (ə) kitaba malik olması məsələsini qəbul etmirlər.

Tövrat və İncilə bir baxışla bu kitabların Qurani-Kərim kimi olmamasını və daha çox tarixi kitaba bənzəməsini asanlıqla anlamaq olar. Dörd İncilin heç birisində bir kəlmədə olsun vəhylə göndərilmiş söz yoxdur. İncillərdə qeyd olunmuş hikmətli sözlər də Həzrət İsa Məsihin (ə) özünə aiddir. O kitablar yazılışına diqqətə yetirsək və səhifələrin qeyd olunmuş "İncil" sözünü götürərək mütaliə məqsədilə hər hansı bir müsəlmana versək Qurani-Kərimdə qeyd olunmuş İncil kitabı olmadığını asanlıqla anlayacaq.

Xristyanların özləri də bu kitabların insanlar tərəfindən qələmə alındığını bildirirlər, amma xristyan kəlamının meyarlarına əsasən onu ilahi kitab kimi qəbul edirlər və müsəlmanlara da səmavi kitabın bundan artıq ola bilməyəcəyini söyləyirlər. Deməli hər şeydən öncə olduqca məşhur deyim olan "Papadan daha qatı katolik olmayaq!" deyimini əlimizdə rəhbər tutaq. Həqiqət budur ki, xristyanlar bu dörd İncili bizə təqdim edəndə onu qəbul etməyimizi istəyirlər. Onlar bu kitabın Allah-Taalanın Həzrət İsa Məsihə (ə) göndərdiyi vəhy kimi təqdim etmirlər. Əksinə öncə də qeyd etdiyimiz kimi xristyanlar dörd İncilin O Həzrətdən sonra peyğəmbərliyini bəyan etmək məqsədilə qələmə alındığını vurğulayırlar. İslam dinində peyğəmbər kitabın bə-

yan edicisidir, amma xristyanlıqda kitab peyğəmbərin bəyanedicisidir.[1]

### 10-11. Qurani Kərim və təhrif məsələsi

Qurani Kərim nurundan qidalanmış müsəlmanın hal-hazırda mövcud olan Tövrat və İncili səmavi olmayan təhrif olunmuş kitab kimi qəbul etməsini anladıq. Tövratda və Əhdi Ətiqin bəzi bölümlərində buyurulmuş İlahi kəlamlar da kitabın qurluşunu pozmur və peyğəmbərimiz Həzrət Muhəmmədin (s) həyatını bəyan edərkən istifadə olunan Qurani-Kərim ayələri təəssüratını bağışlayır. Bu ayələrin sayı nə qədər çox olsa belə peyğəmbərin həyatı barəsində yazılmış kitabı Qurani-Kərim səviyyəsinə qaldıra bilməz.

Bəzi insanlar Tövratın və İncilin təhrif olunması məsələsinin Qurani-Kərimdə qeyd olunmasını soruşa bilərlər. Burada qeyd etmək lazımdır ki Qurani-Kərim heç yerdə Tövrat və İncilin təhrif olunmasından söz açmır. Tövrat və İncilin təhrif olunmasını sübut edən ayələr aşağıdakılardır:

**Birinci ayə:**

أَفَتَطْمَعُونَ أَنْ يُؤْمِنُوا لَكُمْ وَقَدْ كَانَ فَرِيقٌ مِنْهُمْ يَسْمَعُونَ كَلَامَ اللَّهِ ثُمَّ يُحَرِّفُونَهُ مِنْ بَعْدِ مَا عَقَلُوهُ وَهُمْ يَعْلَمُونَ

“Ey möminlər!) İndi onların (yəhudilərin) sizə inanacaqlarına ümidmi edirsiniz? Halbuki (Musa dövründə) onların içərisində elələri vardır ki, Allahın kəlamını (Tövratı) dinləyib anladıqdan sonra, onu bilə-bilə təhrif edirlər.”[2]

**İkinci ayə:**

وَإِنَّ مِنْهُمْ لَفَرِيقًا يَلْوُونَ أَلْسِنَتَهُمْ بِالْكِتَابِ لِتَحْسَبُوهُ مِنَ الْكِتَابِ وَمَا هُوَ مِنَ الْكِتَابِ وَيَقُولُونَ هُوَ مِنْ عِنْدِ اللَّهِ وَمَا هُوَ مِنْ عِنْدِ اللَّهِ وَيَقُولُونَ عَلَى اللَّهِ الْكَذِبَ وَهُمْ يَعْلَمُونَ

“(Ey müsəlmanlar!) Onlardan (kitab əhlindən) bir zümrə də vardır ki, siz onların oxuduqlarını (Tövratdan) hesab edəsiniz deyə, kitab oxuyan zaman dillərini (qəsdən) o tərəf-bu tərəfə əyirlər (bükürlər).

---

[1] Xristyanların əksriyyəti Həzrət İsanı (ə) həm peyğəmbər, həm də Tanrı kimi qəbul edirlər.

[2] Bəqərə, ayə 75

Halbuki onların bu oxuduqları kitabdan (Tövratdan) deyildir. Onlar isə: “Bunlar Allah tərəfindəndir”, -dedilər. Bunlar isə heç də Allah tərəfindən deyildir. Söylədikləri Allah dərgahından olmadığı halda, “Bu, Allah dərgahındandır”, - deyirlər. Onlar bilə-bilə Allaha qarşı yalan söyləyirlər.”[1]

**Üçüncü ayə:**

مِنَ الَّذِينَ هَادُوا يُحَرِّفُونَ الْكَلِمَ عَنْ مَوَاضِعِهِ وَيَقُولُونَ سَمِعْنَا وَعَصَيْنَا وَاسْمَعْ غَيْرَ مُسْمَعٍ وَرَاعِنَا لَيًّا بِأَلْسِنَتِهِمْ وَطَعْنًا فِي الدِّينِ وَلَوْ أَنَّهُمْ قَالُوا سَمِعْنَا وَأَطَعْنَا وَاسْمَعْ وَانْظُرْنَا لَكَان خيراً لهم و اقوم ولكن لعنهم الله بكفرهم فلا يومنون الا قليلا;

“Yəhudilərin bir qismi (Tövratdakı) sözlərin yerini dəyişib təhrif edir və dillərini əyərək dinə (islama) tənə vurmaq məqsədilə (sənə qarşı): “Eşitdik və qəbul etmədik; eşit, eşitməz olasan (kar olasan) və raina”, - deyirlər. Əgər onlar: “Eşitdik və itaət etdik; eşit və bizə tərəf bax!”,- desəydilər, əlbəttə, onlar üçün daha xeyirli və daha doğru olardı. Lakin Allah onları öz küfrləri ucundan lənətə düçar etmişdi. Onların yalnız az bir hissəsi iman gətirmişdir.”[2]

**Dördüncü və beşinci ayələr:**

فَبِمَا نَقْضِهِمْ مِيثَاقَهُمْ لَعَنَّاهُمْ وَجَعَلْنَا قُلُوبَهُمْ قَاسِيَةً يُحَرِّفُونَ الْكَلِمَ عَنْ مَوَاضِعِهِ وَنَسُوا حَظًّا مِمَّا ذُكِّرُوا بِهِ وَلَا تَزَالُ تَطَّلِعُ عَلَى خَائِنَةٍ مِنْهُمْ إِلَّا قَلِيلًا مِنْهُمْ فَاعْفُ عَنْهُمْ وَاصْفَحْ انّ آلله يحبّ المحسنين;

“Sonra əhdlərini pozduqları üçün onları lənətlədik və ürəklərini sərtləşdirdik. Onlar sözlərin (Tövratda peyğəmbərin vəsfinə dair kəlmələrin və bəzi başqa ayələrin) yerlərini dəyişib təhrif edir və xəbərdar edildikləri şeylərin bir hissəsini (Muhəmməd peyğəmbərə iman gətirməyi) unudurlar. Onların az bir qismi müstəsna olmaqla, sən onlardan həmişə xəyanət görəcəksən. Bununla belə, onları bağışla, günahlarından keç. Şübhəsiz ki, Allah yaxşılıq edənləri sevər!”[3]

يَاأَيُّهَا الرَّسُولُ لَا يَحْزُنْكَ الَّذِينَ يُسَارِعُونَ فِي الْكُفْرِ مِنَ الَّذِينَ قَالُوا ءَامَنَّا بِأَفْوَاهِهِمْ وَلَمْ تُؤْمِنْ قُلُوبُهُمْ وَمِنَ الَّذِينَ هَادُوا سَمَّاعُونَ لِلْكَذِبِ سَمَّاعُونَ لِقَوْمٍ ءَاخَرِينَ لَمْ يَأْتُوكَ يُحَرِّفون

---

[1] Ali İmran, ayə 78
[2] Nisa, ayə 46
[3] Maidə, ayə 13

الكلم من بعد مواضعه يقولون ان أُوتيتم هذا فخذوه و ان لم توتوه فاحذروا و من يرد الله ان يطهّر قلوبهم لهم فى الدّنيا خزىٌ و لهم فى الاخرة عذاب عظيم;

“Ya Peyğəmbər (Ya Rəsulum!) ürəklərində inanmadıqları halda, dildə (ağızları ilə): “İnandıq”, deyənlərin (münafiqlərin), yəhudilərdən yalana qulaq asanların, sənin hüzuruna gəlməyən başqa bir camaata qulaq asanların (onlara casusluq edənlərin) küfr içində vurnuxanları səni kədərləndirməsin. Onlar (Tövratdakı) sözlərin yerini sonradan dəyişib təhrif edir və deyirlər: “Əgər sizə bu (təhrif olunmuş dini hökm) verilsə, onu qəbul edin. Əgər verilməsə, ondan qaçının”. Allahın fitnəyə (azğınlığa) düşməsini istədiyi şəxs üçün Allaha qarşı sənin əlindən heç bir şey gəlməz. Onlar elə kəslərdir ki, Allah onların ürəklərini təmizləmək istəməmişdir. Onları dünyada rüsvayçılıq, axirətdə isə böyük (dəhşətli) bir əzab gözləyir!”[1]

Yuxarıda qeyd etdiyimiz Qurani-Kərim ayələrinə ümumi baxış keçirməzdən öncə bir məsələyə diqqət yetirməliyik ki, bu ayələrdə yəhudilərin yalnız Tövratda apardıqların təhriflər nəzərdə tutulur. Çünki xristyanlara “Yəhudilər sizin İncili təhrif etmişlər!” sözünü demək çox çətin məsələdir.

Qurani-Kərim Yəhudilərin və xristyanların kitablarının təhrif olunması barəsində heç nə deməmişdir:

Birinci: Yuxarıdakı ayələrin heç birisində Tövrat və yaxud İncilin təhrif olunması barəsində birbaşa söz açılmamışdır, əksinə gördüyümüz kimi yalnız bir dəfə “Allah kəlamı” məfhumu mövcuddur və bu da Qurani-Kərim təfsirçilərinin nəzərincə Həzrət Musanın (ə) dövründə yaşamış yəhudilərin törətdikləri əməllərə işarə edir. Yəni, Həzrət Muhəmmədin (s) besətə çatmasından sonra Tövrat və İncilin təhrif olunması ilə heç bir əlaqəsi yoxdur. Qeyd etdiyimiz ayə İslamın ilk illərində yəhudilərin Allahın kəlamına qarşı etdiyi pis əməllərə işarə də ola bilər. Yəni yəhudilər Allahın kəlamını, Qurani-Kərimi eşidirdilər, amma təhrif olunmuş şəkildə başqalarına nəql edirdilər və onun mötəbərliyini azaltmağa çalışırdılar.

---

[1] Maidə, ayə 41

İkinci: Qeyd etdiyimiz ayələrdə təhrif həm danişiq dilində, həm də eşitməkdə mövcuddur: "يَسْمَعُونَ كَلَامَ اللَّهِ ثُمَّ يُحَرِّفُونَهُ" , "يَلْوُونَ أَلْسِنَتَهُمْ بِالْكِتَابِ", "لَيًّا بِأَلْسِنَتِهِمْ"

Qeyd etdiyimiz kimi Qurani-Kərim üç ayədə "kəlmələrin təhrifi" barəsində söz açmışdır. Təhrif olunmuş sözlər onların düzgün formaları ilə Nisa surəsinin 46-cı ayəsində qeyd olunmuşdur:

1. "سَمِعْنَا وَعَصَيْنَا"-nı yerinə "سَمِعْنَا وَأَطَعْنَا" istifadə edilmişdir. Yəhudilərin bəziləri İbrani dilindəki "عسنو" yəni "yerinə yetiririk" sözünün əvəzinə məsxərə etmək məqsədi ilə "عصينا" yəni "üsyan edirik" sözündən istifadə etmişlər.

**2.** "اسْمَعْ" yəni "eşit" əvəzinə "اسْمَعْ غَيْرَ مُسْمَعٍ"–dən istifadə olunmuşdur.

Sözlərlə oynamaq və xüsusi məqsədlər uğrunda sözləri bir-birinə qatmaq yəhudilərin adətlərindən biri hesab olunur. Yəhudilərin söz oyununun şahidi olmaq istəyənlər Təlmuda nəzər sala bilərlər. Həzrət Muhəmmədin (s) həyatı barəsində yazılmış kitablarda bəzi yəhudilərin O Həzərət salam verərkən "Əssəlamun əleyk" əvəzinə "Əssamun əleyk", yəni "Sənə ölüm olsun!" sözünü deyirdilər. Həzrət Muhəmməd (s) də öz növbəsində "Əleyk", yəni "Sənə də" formasında cavab verirdi.

Qurani-Kərimin Tövrat və İncilin təhrif olunmasını birbaşa olaraq deməməsini və "kəlmələrin təhrif olunması" barəsində söz açdığını bildik. Bu təhrif bir neçə danışıq sözündə qeyd olunmuşdur və Tövrat, yaxud İncillər heç bir əlaqəsi yoxdur. Bizim yuxarıda vurğuladığımız təhrif "demək və eşitmək" mərhələsindən qırağa çıxmamışdır, birbaşa olaraq qeyd olunmamışdır. Təhrif olunmuş ayələr də hal-hazırda mövcud olan Tövrat və yaxud İncilə ünvanlanaraq söylənilməmişdir. Bu barədə hökm çıxarmaq üçün qeyd etdiyimiz ayələri nəzərə almamalıyıq.

Bir məsələni də vurğulamaq lazımdır ki, hər hansı bir müsəlman şəxsin kitab əhlinin müqəddəs kitabı olan Tövrat və İncili təhrif olunmuş səmavi kitablar kimi təqdim etməsi böyük ehtiyatsızlıq olardı. Onların sözlərinin müsəlmanlar üçün nə əhəmiyyəti vardır? Həqiqi

Tövrat və İncilin İbrahihimin sühufları və başqa müqəddəs ilahi kitablar kimi itməsini və onların insanlar tərəfindən qələmə alınmış mötəbər sayılmayan kitablarla dəyişdirilməsini desək daha məqsədəuyğun olmazmı? Həqiqi Tövratda olan cümlələrin müasir Tövratda heç bir rolu yoxdur. Çünki, Həzrət Muhəmmədin (s) həyatı barəsində qələmə alınmış kitablarda da Qurani-Kərim ayələri mövcuddur, amma bu kitablar Qurani-Kərim deyildir.

Allah-təala bu barədə belə buyurur:

فَوَيْلٌ لِلَّذِينَ يَكْتُبُونَ الْكِتَابَ بِأَيْدِيهِمْ ثُمَّ يَقُولُونَ هَذَا مِنْ عِنْدِ اللَّهِ لِيَشْتَرُوا بِهِ ثَمَنًا قَلِيلًا فَوَيْلٌ لَهُمْ مِمَّا كَتَبَتْ أَيْدِيهِمْ وَوَيْلٌ لَهُمْ مِمَّا يَكْسِبُونَ

“Vay o kəslərin halına ki, öz əlləri ilə (istədikləri kimi) kitab (Tövrat) yazıb, sonra (onun müqabilində) bir az pul almaqdan ötrü: “Bu, Allah tərəfindəndir!” - deyirlər. Öz əlləri ilə (təhrif olunmuş kitab) yazdıqlarına görə vay onların halına! Qazandıqları şey üçün vay onların halına!”

Həzrət Muhəmməd (s) də belə bir hədis rəvayət edirlər: “Həqiqətən Bəni-İsrail bir kitab yazaraq ona itaət etməyə başladılar və Tövratı tərk edərək ondan uzaqlaşdılar.”[1]

**10-12. Səmavi kitabların başa düşülməsi**

Müqəddəs kitabların mətnlərində mövcud olan məzmun və mənaları araşdırarkən dörd metoddan istifadə etmək olar. Bu metodlar sadədən mürəkkəbə, gözlə aparılan metoddan zehni metoda və geniş yayılmış metoddan tanınmamış metodlara qədər dəyişir. Həmin metodlar aşağıdakılardır:

1. Tərcümə: və yaxud müqəddəs kitablarda əsas dildə yazılmış, çox vaxt ədəbi və açıqlaması olmayan mətnlərin mənasının başqa bir dilə çevrilməsi sahəsində göstərilən səylər.

2. Təfsir: Müqəddəs mətnlərdə olan məfhumların açıqlanması, müqəddəs məntlərin bir hissəsindən, müxtəlif əqli, elmi və dini mən-

[1] Sünənüd Darəmi, Əl Müqəddimə, 480

bələrdən istifadə etməklə başqa hissələrdə olan qaranlıq məqamlara aydınlıq gətirilməsi

3. Təvil: yəni müqəddəs mətnlərin zahiri mənasına fikir vermədən bəzi ali məna və məfhumları təyin etmək üçün müqəddəs mətndəki mənanın ümumiləşdirilməsi, dərinləşdirilməsi və bəzən də məcazi baxışlarla açıqlanması

4. Müqəddəs mətnlərin açıqlanması sahəsində dördüncü metod da mövcuddur və bu metoda əsasən sözlərin və cümlələrin nə zahiri, nə də batini mənası nəzərdə tutulmur. Müqəddəs mətndəki hərflərin və sözlərin ümumi düzülüş formasına, sayına və digər aspektlərinə diqqət yetirməklə hər bir alimin öz zövqünə uyğun olaraq verdiyi hesablama tipli açıqlamalardır. Bu metodun İslam dini elmlərində xüsusi adı yoxdur və təvilin bir başqa forması kimi qəbul edilir. Amma kitab əhli bunu "Anaqogika" (Anagogy) adlandırırlar.

Bu metodları bir-birindən ayırmaq heç də asan iş deyildir. Çünki, bir tərəfdən sadə metodların daha mürəkkəb metodlara olan ehtiyacını nəzərə almaq lazımdır. Belə ki, tərcümə edərkən bəzən təfsirə və təvilə ehtiyac yaranır. Eləcə də, müqəddəs mətnlərin təfsiri zamanı bir çox hallarda təvilə ehtiyac yaranır. Digər tərəfdən isə daha mürəkkəb metodlar daha asan metodların lazımsız olduğunu bildirmir, əksinə həmən sadə metodları daha da təkmilləşdirir və tamamlayır.

Şübhəsiz ki bu metodların heç birisi müqəddəs kitabların meydana çıxdığı yerdə və vaxtda mövcud olmamışdır. Çünki, vəhy kəlamı ilk müxatiblərinin düşüncə tərzi ilə tam üst-üstə düşürdü və heç kimin bu sözləri (hətta Qurani-Kərimdəki qısaldılmış sözləri belə anlamaq sahəsində) problemi yox idi. Problemlər başqa zamanda və başqa məkanda yaşamış sonrakı nəsillər üçün meydana və insanlar müqəddəs kitabları dərk etmək sahəsindəki problemlərini həll etmək üçün tərcümələrə, təfsirlərə və təvillərə üz tutdular.

Gələcəkdə qeyd edəcəyimiz kimi oxşar və mütəşabih ayələr ətrafında olan problemlər həmin ayələrin mənalarını dərk etmək sahəsində deyil verdiyi vədələrinin həyata keçməsi sahəsində meydana çıxmışdır.

Təfsirlə təvil arasındakı fərqi hiss etmək o qədər də asan iş deyil və insan zehninin yürütdüyü fərziyyələrə əsasən bəzi təvilləri təfsir və bəzi təfsirləri təvil kimi anlaya bilər.

Məsələn, "Leyl", "Fəcr", "Zuha+İnşirah"[1] və "Əsr" surələrinin əvvəlində qeyd olunmuş andlar günün müxtəlif vaxtlarına dəlalət edən andlardır. Bu nözqteyi-nəzərdən Əsr vaxtına içilən and günün axşam çağına içilən and mənasını kəsb edir. Amma bunun başqa mənaları da vardır. Əsr vaxtına içilən andda "Peyğəmbərin (s) əsrinə", "zühur əsrinə", "əsr namazına", gecə-gündüzə" və sair mənalara içilən andlar kimi təvil oluna bilər. Bu təvillər olduqca gözəl və insanın ruhunu oxşayandır və ilahi kəlamı təfsir edən insanların əksəriyyəti sözlərin belə təvil və təfsir olunmasını yaxşı qəbul edirlər.

Digər tərəfdən bəzən də təfisir təvil kimi qələmə verirlər. Nur və zülmət, həyat və ölüm, oyaq olmaq və yatmaq, agah olmaq və bixəbər olmaq, görmək və görməmək, eşitmək və kar olmaq və sair məcazi məna kəsb edən sözlər müqəddəs kitablarda çox gözə çarpır və onları anlamaq çətin deyil. "Onlar kar, lal və kordurlar (haqqı eşitməz, danışmaz və görməzlər). Buna görə də (öz pis adətlərindən, yaramaz əməllərindən) dönməzlər" [2] ayəsini anlamaq sahəsində heç kim problemlə üzləşmir, amma onu təvil edərək açıqlamağı da artıq bilmirlər. Belə təvillər və açıqlamalar təfsir adlandırılır.

### 10-13. Səmavi kitabların təvil olunmaları və şərh edilmələri

"Təvil" sözünün lüğəti tərcüməsi "əvvələ qaytarmaq" mənasını verir. Bu söz on yeddi dəfə Qurani-Kərimdə qeyd olunmuşdur və bu sözü istifadə etməkdə məqsəd bütün ilkin mərhələləri hazır olan işlərin həyata keçməsidir. Məsələn, savab və əzab barəsində Quran

---

[1] "Zuha" və "İnşirah" surələri ayrı-ayrı qeyd olunsalar da ikisi birlikdə bir surə hökmündədirlər.Elə bu səbəbdən də, namaz qılarkən bu surələrdən birini namazda oxuyarkən ikincisini də ona əlavə etmək lazımdır. "Fil" və "Qureyş" surələri arasındakı əlaqə də belədir.

[2] Bəqərə surəsi, 18

vədələrinin çatması[1], yuxuların açıqlanılması[2], Həzrət Xızırın (ə) işlərinin nəticə verməsi[3] və dünyada görülən əməllərin nəticəsinin axirətdə zühur etməsi.[4]

"Təvil" sözünün təfsir alimlərinin terminologiyasındakı mənası müqəddəs mətnlərdəki zahiri mənaya diqqət yetirməməkdən və mətnin zahirindən anlaşılmayan mənanın nəzərdə tutulmasıdır.[5]

"Təvil" sözü bəzi İslami mətnlərdə "Tənzil" (yənil nazil edilmiş) sözünün əksi mənasını kəsb edir. Bu mətnlərdə "tənzil" Qurani-Kərim ayələrinin zahiri və dəqiq mənası deməkdir, amma "təvil" bu mənaların daha geniş və dərin şəkildə şərh edilməsi mənasını kəsb edirdi.[6]

"Təvil" terminini din alimləri Qurani-Kərimin Ali-İmran surəsinin 7-ci ayəsinə əsasən kəşf etmişlər. Amma, bu ayə və digər Quran ayələrindən istifadə olunana "təvil" sözünün Qurani-Kərimin nazil olmasından neçə əsrlər sonrayaradılmış dini terminlə heç bir əlaqəsi olmaması labüddür.

Eləcə də, hər hansı bir şəxsin sözündən yeni bir sahədə istifadə etmək və ona yeni məna bəxş etmək mümkündür. Bu metod "İqtibas" adlandırılır və təvil ilə heç bir əlaqəsi yoxdur.

Təvil zamanı sözlərin zahiri mənası nəzərdə tutulmur. Yəni, təvil əhlinin təklif etdiyi məna mətnin zahiri mənası ilə üst-üstə düşmür və bəzi zərurətə uyğun olaraq irəli sürülür.

Təvilin meydana çıxma zərurəti dini mətnlərdə istifadə olunan dilin dini çərçivəyə aid olmasına görədir. Zaman ünsürü, yəni elmin, insani təcrübələrin günü-gündən çoxalması və məkan ünsürü, yəni dinin dünyanın müxtəlif regionlarına yayılması və dünyada genişlənməsi səmavi kitabların möhkəm ayələrini yavaş-yavaş oxşar ayələrə

---

[1] Ali İmaran, 7(iki dəfə), Əraf , 53 (iki dəfə) və Yunis surəsi 39
[2] Yusif surəsi, 6, 21, 36, 37, 44, 45, 100, və 101
[3] Kəhf surəsi, 78 və 82
[4] Nisa surəsi, 59 və İsra surəsi, 35
[5] İslam dininin yayıldığı ilk illərdə təvil təfsir mənasını verirdi.
[6] Məsələn bir çox hədislərdə Həzrət Muhəmməd (s)-in Həzrət Əmirəlmöminin Əli (ə) barəsində vurğuladığı bu söz qeyd olunmuşdur: "Mən Qurani Kərimin tnzili yolunda döyüşdüyüm kimi Həzrət Əli də onun təvili yolunda döyüşəcəkdir.

çevirir. Belə olduqda dini çərçivə dağılır,  dərin, zərif və dəqiq düşüncələr meydana çıxır. Qeyd etdiyimiz dərin, zərif, dəqiq düşüncələr nə yolla olursa olsun əsas mətnə istinad olunmalıdır və beləliklə də, həm bu düşüncələr dəyər qazanaraq mötəbərliyini sübut etməlidir, həm də müqəddəs mətnlərin məfhumu hal-hazırkı oxucuların düşüncə tərzi ilə üst-üstə düşməlidir.

Yəhudi, xristyan və müsəlman cəmiyyətlərinin mədəni irsini araşdırarkən davamçıları tərəfindən olduqca mötəbər bilinən müqəddəs mətnlərin bəzi hallarda onların istək və arzularına zidd olan məsələlər barəsində danışmasının şahidi oluruq. Qeyd etdiyimiz məsələlə həmin cəmiyyətlərin ziyalı şəxsiyyətlərinin diqqətlərindən kənarda qalmamışdır.

Müxtəlif dinlərin ziyalı şəxslərinin bəziləri səbirsizlik edərək müqəddəs mətnlərdən üz döndərmişlər və həm Allahın, həm də milyonlarala mömin şəxslərin qəzəbi ilə üzləşmişlər. Belə şəxslərin davranışları yəhudilərin, xristyanların və müsəlmanların əvvəlki nəsillərinin fəlsəfə ilə düşmənçilik etməsinə gətirib çıxartdı.

Amma ziyalı şəxslərin böyük bir hissəsi insanların düşüncə cəhətindən yüksəlmələri üçün çalışdılar. Onlar diqqətlərini müqəddəs mətnlərin batininə yönəldərək təvilin zəruri məsələlərdən biri olmasını qeyd etdilər və müqəddəs mətnlərdən almaq istədikləri mənaları təvilin köməkliyi ilə əldə etdilər. Sonda bu ziyalılar fəlsəfəni irfanla dəyişdirdilər və onları bu sahədə göstərdikləri əvəzsiz fəaliyyətlər İbrahimi dinlərin davamçılarını fəlsəfəyə yaxınlaşdırdı.

Bütün deyilənlərdən belə nəticə çıxarmaq olar ki, təvil müqəddəs mətnlərin zahiri mənası baxımından dəstəklənməməsi səbəbindən subyektiv forma və təfsir müqəddəs mətnlərin zahiri mənası baxımından dəstəklənməsi səbəbindən obyektiv forma kimi qəbul edilir.

Təvilin müqəddəs mətnlər tərəfindən birbaşa dəstəklənməməsi səbəbindən təvil yazanlar öz təvillərini təfsirlərin kənarında qeyd etmək məcburiyyətində qaldılar. Amma bir az düşündükdən sonra təvillə məşğul olan bütün insanların müqəddəs mətnlərin zahiri təfsirini təsirli forma kimi qəbul etməmələri məlum olur. Onların öz təvillərini təqdim etməkdə yeganə səbəb insanların əqli cəhətdən inkişaf et-

məsindən sonra bu təvilləri müqəddəs mətnlərin əsas təfsiri kimi qəbul edəcəkləri olmuşdur.

Gözlənildiyi kimi də oldu və insanların zehni gücü artmağa başladı və məsələləri daha dərindən anlamaq bacarıqları yüksəldi. Yəhudiliyin və islam dininin davamçıları tədricən dini mətnlərdə qeyd olunmuş Allah-Taalanın, mələklərin, qiyamətin, cənnətin, cəhənnəmin və maddi formada təcəssüm olunmuş sair məsələlərin mücərrədliyə yaxınlaşdırılaraq təvil olunmasını başa düşməyə başladılar. Bu sahədə atılmış ilk addım Haqq-Taalanın mücərrədliyi etiqadını yaratmaqdan ibarət oldu. Qeyd etmək lazımdır ki, alimlərin bəziləri elə bununla da kifayətləndilər və daha irəli getmədilər.

İslam dünyasında Allahın və ümumiyyətlə heç bir mövcudun mücərrədliyini qəbul etməyənlər isə "Əhli hədis", "Mücəssəmə" və "Müşəbbəhə" adlandırıldılar. Hal-hazırda mövcud olan "Sələfilər" bu düşüncə tərzinin davamçılarıdırlar.

Elm də inkişaf etdi və onun inkişaf etməsi ilə insanların qəbul etdikləri səmavi kitablar barəsindəki təvəqqələri yüksəldi. Onların bir əksəriyyəti müqəddəs kitablarının ayələrində müxtəlif elmlərin, o cümlədən riyaziyyat, fizika, kimya və sair elmlərin mövcud olması məsələsinə inanırdılar. Artıq müasir suallar meydana çıxmağa başladı və hər bir dinin alimləri təvilinköməkliyindən yararlanaraq bu sualların hər birinə qənaətbəxş cavablar verdilər.

İctimai düşüncə tərzinin də inkişaf etməsi müxtəlif dinlərin mütəfəkkirlərini yeni addımlar atmağa sövq etdi və onlar da öz növbəsində səmavi kitabları təvilin köməkliyi ilə qeyd etdiyimiz ictimai düşüncələrlə müqəddəs mətnlər arasında ahəngdarlıq yaratdılar.

### 10-14. Təvili qəbul etməyənlər

Təvil malik olduğu faydasına və vacibliyinə baxmayaraq müqəddəs mətnlər tərəfindən birbaşa olaraq dəstəklənməmələri səbəbindən həmişə diqqətdən kənarda qalmışdır və tüfeyli həyat tərzi keçirmişdir. Şəxsi rəyə əsasən təfsir etmək və yaxud bu ittihamla ittihamlanmaq düşüncəsi heç vaxt təvil əhlini sakit buraxmamışdır və onların bəziləri zaman keçdikcə təvillərini azaltmağa başlamışlar. Təvil

alimlərinin bəziləri isə ömürlərinin sonunda ümumiyyətlə təvil məsələsindən üz döndərmişlər və bu məsələləri öz vəsiyyətnamələrində qeyd edərək öz dinlərini səmavi kitaba əda etmişlər.

Həqiqət isə bundan ibarətdir ki, keçmişdə İsmaililər kimi öz təvili baxışlarını şücaətlə müdafiə edən və öz dini məktəblərini bu təvillər üzərində quran insanları keçmişdə tapmaq çətin idi. Yalnız indiki dövürdə hermenevtika elmi müqəddəs mətnlərin geniş təvilini baş ucalığı ilə təqdim edə bilirlər.

Təvil elminin həmişə müxalifləri olmuşdur. Bu müxaliflər özlərinin malik olduqları təvilin dərəcəsinə diqqət yetirmədən təvili səhv və qeyri-əxlaqı proses kimi qələmə verməyə çalışmışlar. Onlar təvili insanın öz sözünü sözünün mötəbərliyi daha çox olan başqa bir nəfərin ağzına qoymağa bənzətməyə çalışmışlar. Təvil elminin tərəfdarları isə onların cavabında, "müqəddəs mətnlərin ədəbi mətnlər olması səbəbindən onlarda qeyd olunmuş məfhumların və düşüncə təkamülü ilə eyni səviyyədə təkamül tapmalıdır və təvil bu təkamül prosesinin bir hissəsisdir" fikrini irəli sürmüşlər.

İbn Meymun yazır:

*"İnsanlar təvil məsələsi sahəsində iki dəstəyə bölünürlər: birinci dəstə təvilin mətnin bəyan açıqlanılması üçün olduğunu düşünürlər və ikinci dəstə təvili yüngül bir nəzər kimi qəbul edərək məsxərə etmişlər. Çünki, mətndə təvil mənasının olmaması məlumdur. Birinci dəstə təvilin düzgünlüyünü sübut etmək məqsədilə bütün yollara əl atdılar və mətnin mənasının bu olmasını güman etdilər. Amma, bu iki dəstədən heç birisi bunların şeir incəlikləri olmasını anlamadılar və onun hansı səbəbdən istifadə olunması düşüncə sahibləri üçün sirr deyildir. Bu metod keçmişdə daha geniş yayılmışdır və hamı qeyd etdiyimiz metoddan istifadə edirdilər. Necə ki, şairlər də öz şeirlərində şerin incəliklərindən istifadə edirdilər."*[1]

İbn Meymun insanın ağlı və düşüncəsi ilə ziddiyyət təşkil edən bəzi Tövrat ayələrini təvil edəndə və bu addımı ilə Yəhudilik üçün olduqca dəyərli əsərlər yaradanda başda Yəhud ibn ƏlFəxxar (1235-ci

---

[1] Dəlalətul Hairin, 3/43

ildə vəfat etmişdir) olmaqla yəhudi alimlərinin bir dəstəsi onun bu əməlinə qarşı çıxdılar. Əndəluslu bu yəhud alimi İbn Meymunun təvil məktəbinə qarşı etiraz dalğası, daha dəqiq desək etiraz tufanı yaratdı. O, müqəddəs kitabların yalnız müqəddəs kitabın özü ilə üst-üstə düşməyən ayələrini təvil etməyin mümkünlüyünü bildirirdi.

Xristyanlıqda da, din təvil üzərində qurulmuşdur. Bəzi insanlar təvil məsələsinə çox diqqət ayrılması fikri ilə müxalif olduqlarını bildirmişlər. Qeyd etmək lazımdır ki, Jerom (420-ci ildə vəfat etmişdir) müqəddəs kitabın Latın dilində olan məşhur "Vulqata" tərcüməsini öz zamanında geniş yayılmış ifratçı təvillərdən istifadə etməklə yaratmışdır. Orta əsrlərdə də bir qrup xristyan ruhanisi 1274-cü ildə vəfat etmiş Tomas Akvinasın (Thomas Aquinas) təvillərinə qarşı çıxaraq bu məsələyə kəskin etirazlarını bildirmişlər.

Qəzzali sonuncu kitabı olan "İlcamul-əvam ənil elmul-kəlam" kitabında təvillərin yarada biləcəyi problemlər barəsində xəbərdarlıq vermişdir. İbn Ruşd "Fəslul-məqal" adlı kitabında hansı şəxslərin Qurani-Kərim və peyğəmbərin (s) sünnəti barəsində verdiyi təvillərin vacib və hansı şəxslərin Qurani-Kərim və peyğəmbərin (s) sünnəti barəsində verdiyi təvillərin haram olması barədə olduqca geniş məlumat vermişdir. O, bu məsələləri qeyd etməklə təvilin nə zaman yararlı və nə zaman yararsız olmasını çatdırmağa çalışmışdır.

İslam dünyasının tanınmış arif və mütəfəkkiri Mövlana Cəlaləddin Rumi təvil barəsində belə deyir:

"Bakirə sözləri təvil etməyə çalışan insan! Birinci özünü təvil etməyə çalışı İlahi zikri yox. Qurani-Kərimin havadan və özündən təvilini verib şərh etmək istəyirsən?! Sənin açıqlamandan sonra onun bütün mənaları dəyişdi və mənasını ititrdi."[1]

İslam dininin tanınmış alimlərindən olan mərhum Əllamə Məclisi də təvili pisləmək məqsədilə Hindistanlı bir şəxsdən sitat gətirir. Hindistanlı alimin sözlərinə əsasən dini mətnlətin təvil olunması ümumilikdə düzgün iş deyildir. Çünki, mətnə verilmiş təvillə mətnin əsas məqsədi arasında ahəngdarlıq olmasa həmin mətnə özümüzdən

---

[1] Məsnəvi, 1/1080-1081

yalan məna əlavə etmiş oluruq. Onun məqsədi elə həmin məna olduğu halda isə mənanın gizlədilməsində hərə hansı bir məqsədin güdüldüyü və bizim həmin məqsədi pozduğumuz meydana çıxacaqdır.[1]

Mərhum Əllamə Təbatəbai də "Əl Mizan" təfsirinin giriş hissəsində Qurani- Kərim ayələrinin təvil olunması məsələsini pisləmişdir və onun təqdim etdiyi təfsir metodunda artıq heç bir təvil ehtiyac duyulmadığını vurğulamışdır.

Təvilin çox da sevilməməsi səbəbindən İbn Meymun (Yəhudilikdə), Tomas Akvinas (Xristyanlıqda) və Qəzzali, İbn Ruşd, İbni Ərəbi, Molla Sədra (İslamda) kimi təvilə diqqət ayıran alimlər lazımınca hörmət qazana bilməmişlər və bəzən də kafir elan edilmişlər.

Digər tərəfdən, bu ziyalı və mütəfəkkir insanların təvilləri İlahi dinlərin dinamikliyini, əbədiliyini, qüdrətini və onların zamanla ayaqlaşmasını sübuta yetirdi. Bu mütəfəkkir insanlar bu yoldan istifadə etməklə bəşəriyyətin əxlaqi, mənəvi, düşüncə və təfəkkür, mədəniyyət və sivilizasiya dünyasının güclənməsinə böyük xidmətlər göstərmişlər. Qeyd olunmuş dinlərin hər birisinin gələcək nəsilləri məşhur alimlərinin yüksək düşünclərindən yararlanaraq onlara böyük əhəmiyyət vermişlər və belə alimləri öz ümmətlərinin və dinlərinin fəxr və iftixar rəmzi kimi qəbul etmişlər.

## 11. Peyğəmbtanıma (Peyğəmbərşünaslıq)

Müsəlmanlar bəzi hədisləri əllərində rəhbər tutaraq 124000 peyğəmbərin olmasına inanırlar. Amma, onların 124 nəfərinin belə adı tam düzgün və dolğun deyildir. Onlardan 313 nəfərinin kitabı olub və beş nəfəri "Ululəzm" (Ən əzəmətli) peyğəmbərlərdir. Bu beş pey-

---

[1] Biharul Ənvar, cild 58, səh 153. Qeyd etmək lazımdır ki, təvillə məşğul olan alimlərin işlərinin nəticəsi əsas məqsədlə ziddiyyət təşkil etmir. Onların nəzərincə qədim zamanlarda yaşamış insanların dərrakə cəhətdən tam inkişaf etməmələrinə və qədim zamanlarda yaşamış müxatiblərin dəqiq və incə mənaları dərk etmək qabiliyyətinə malik olmamalarına gör sözü deyən şəxs gələcək nəsillərin onun əsas məqsədini şərh etmək və insanlara çatdırmaq üçün əsas məqsədini xəzinə kimi sözlərin altında gizlətmişdir.

ğəmbərin öz şəriəti olmuşdur və onlar aşağıdakılardır: Nuh, İbrahim, Musa, İsa və Muhəmməd(s). Adları çəkilən beş peyğəmbərin dinə dəvəti ümumdünya xarakteri daşımışdır. Amma qeyd etdiyimiz bu dini etiqadların heç birisi kitab əhli yanında qəbul olunmur.

Qurani-Kərimə müraciət edərkən adları çəkilən beş böyük peyğəmbərdən yalnız Həzrət Muhəmmədin (s) dini dəvəti ümumdünya xarakteri daşıyır.[1] Amma başqa peyğəmbərlərin dini dəvəti isə tayfa və qövm dəvəti xarakteri daşıyır.[2] Xristyanların nəzərincə Həzrət İsa

---

[1] Əraf surəsinin 158-ci ayəsində belə buyurulur:

"قُلْ يَاأَيُّهَا النَّاسُ إِنِّي رَسُولُ اللَّهِ إِلَيْكُمْ جَمِيعًا الَّذِي لَهُ مُلْكُ السَّمَوَاتِ وَالْأَرْضِ لَا إِلَهَ إِلَّا هُوَ يُحْيِي وَيُمِيتُ فَآمِنُوا بِاللَّهِ وَرَسُولِهِ النَّبِيِّ الْأُمِّيِّ الَّذِي يُؤْمِنُ بِاللَّهِ وَكَلِمَاتِهِ وَاتبعوه لعلكم تهتدون"

"Ya Rəsulum!) De: "Ey insanlar! Mən Allahın sizin hamınıza göndərilmiş peyğəmbəriyəm. (O Allah ki) göylərin və yerin hökmü Onundur, Ondan başqa heç bir tanrı yoxdur. O dirildir və öldürür. Buna görə də Allah, eləcə də Onun Allaha və Allahın sözlərinə (ayələrinə, nazil etdiyi kitablara) inanan və ümmi peyğəmbər olan Rəsuluna iman gətirin və ona tabe olun ki, doğru yolu tapa biləsiniz!"

Bu ayə Məkkədə nazil olmuşdur və Həzrət Muhəmməd (s) Mədinə şəhərində İslam hökuməti yaratdıqdan sonra İran, Bizans, Efiopiya və bir neçə başqa məmləkətlərin şahlarına məktub göndərərək onları İslam dininə dəvət etdi və həmən məmləkətlərin müsəlman olması üçün şərait yaratdı. Həzrət Muhəmməddən (s) öncəki peyğəmbərlər üçün belə bir addım atmaq adi yolla mümkün deyildi.

[2] Bu peyğəmbərlərin dini dəvətlərininyalnız öz tayfalarına aid olmasını sübut etmək üçün Qurani Kərimdən onlarla yə qeyd etmək mümkündür. Məsələn Həzrət Nuh (əs) barəsində belə buyurur:

إِنَّا أَرْسَلْنَا نُوحاً إِلَى قَوْمِهِ أَنْ أَنذِرْ قَوْمَكَ مِن قَبْلِ أَن يَأْتِيَهُمْ عَذَابٌ أَلِيمٌ * قَالَ يَا قَوْمِ إِنِّي لَكُمْ نَذِيرٌ مُّبِينٌ

"Həqiqətən, Biz Nuhu: "Qövmünə şiddətli bir əzab gəlməmişdən əvvəl onları (Allahın əzabı ilə) qorxut!" – deyə öz tayfasına peyğəmbər göndərdik. O dedi: "Ey qövmüm! Həqiqətən, mən sizi (Allahın əzabı ilə) açıq-aşkar qorxudan bir peyğəmbərəm!" (Nuh surəsi, ayə1-2)

Eləcə də, O Həzrətin qövmünün tufanda qəra olması (Ənkəbut surəsi, ayə 14). Tufanla bağlı ayələrdə qeyd olunan "Yer" sözü, o cümlədən Həzrət Huhun (ə) öz qövmünə lənət oxumasında bütün dünya nəzərdə tutulmamışdır. Eləcə də, Yunis surəsi 78-ci ayədə "Yer" Misir ölkəsi mənasını daşıyır. O Həzrətin bütün dünyada olan kafirlərə lənət oxuması mənası da daşıya bilər, amma Allah-Taala yalnız onun qövmünü əzaba düçar etdi.

Həzrət İbrahimin (ə) da qövmü olmuşdur: Ənam surəsi/83, Həcc surəsi/43, Ənkəbut surəsi/16, Zuxruf surəsi/26. Bu məsələ Həzrət Musa və Həzrət İsa (ə) barəsində də qeyd olunmuşdur: Səf /5-6, Ali İmran/49

(ə) belə buyurmuşdur: “Mən Bəni İsrailin itmiş qoyunlarına görə göndərilmişəm” (Matta 15:24). Amma qəbirdən dirilərək qalxdıqdan sonra və qeybə çəkilməmişdən öncə öz həvarilərinə bütün ümmətləri öz şagirdlərinə çevirmələrini və onlara Ata, oğul və müqəddəs ruhun adı ilə xaç suyunda qüsl vermələrini tapşırmışdır. (Matta 28:19)

### 11-1. Ortaq və müştərək peyğəmbərlər

Qurani-Kərimdə 26 peyğəmbərin adı qeyd olunmuşdur və onlardan 20-nin adı müqəddəs kitablarda da çəkilmişdir: Adəm, Nuh, İbrahim, Lut, İsmail, İshaq, Yaqub, Yusif, Musa, Harun, Davud, Süleyman, İlyas, İlyəsə, Üzeyr(Əzra)[1], Əyyub, Yunis, Zəkəriyya, Yəhya və İsa.[2] Bu peyğəmbərlərin adı müqəddəs kitabda qeyd olunmamışdır: İdris[3], Şüeyb[4], Zulkifl, Hud, Saleh və Həzrət Muhəmməd (s). İslamın əksinə olaraq yəhudilikdə və xristyanlıqda peyğəmbərliyin xüsusi çərçivəsi yoxdur və tanınmış şəxsiyyətlərdən, o cümlədən Həzrət İbrahimdən (ə) tutmuş ən adi insanlara qədər bir çox insan peyğəmbərlik edir.[5]

### 11-2. Peyğəmbərlərin isməti

Yəhudilər və xristyanlar peyğəmbərlərin məsum olmalarını qəbul etmirlər və onların da böyük günahlara düçar olmalarını bildirirlər. Məsələn; Buzovun Həzrət Harun (ə) tərəfindən düzəldilməsi (Xuruc 32), Həzrət Davudun (ə) zina etməsi (Samuelin ikinci kitabı 11), Həzrət Süleymanın (ə) bütxana tikməsi (Şahların birinci kitabı 11:1-13) və s. Həzrət Harunun (ə) peyğəmbərliyi Tövratda qeyd olunmuş-

---

[1] Qurani Kərimdə Üzeyrin peyğəmbərliyi sübut olunmamışdır.

[2] Zəkəriyya, Yəhya və İsa (ə) yalnız Əhdi Cədiddə qeyd olunmuşlar. Əhdi Ətiqdə adları çəkilən Zəkəriyyalar Qurani Kərimdə qeyd olunan Zəkəriyyadan fərqlidirlər.

[3] Yaranış bölümündə 5:24-də “Xənux” adı ilə qeyd olunmuşdur.

[4] Xuruc bölümündə 2:18-də “Rauil” və yaxud Xuruc bölümündə 3:1-də “Yətrun” adı ilə qeyd olunmuşdur. Bunu da qeyd etmək lazımdır ki, yalnız Həzrət Şüeybin (ə) Həzrət Musanın (ə) qayınatası olduğu təqdirdə qeyd etdiyimiz adlar həqiqətlə üst-üstə düşür.

[5] Filippus adlı bir şəxsin dörd qızı bakirə qızı var idi və bunların hər dördü “peyğəmbərlik” edirdilə. (Həvarilərin işləri, 21:9)

dur, amma Həzrət Davudun (ə) peyğəmbərliyi yalnız bir dəfə "Həvarilərin işləri" bölümündə (2:30) qeyd olunmuşdur. Həzrət Süleymanın (ə) peyğəmbərliyi isə "Süleyman peyğəmbərin məsəlləri" kitabındanəşr olunmuşdur.

Xristyanlar yalnız Həzrət İsanın (ə) məsumluğunu qəbul edirlər. Çünki, xristyanların nəzərincə Həzrət İsa (ə) da peyğəmbərlikdən başqa ilahilik olmuşdur və tanrı da heç vaxt günah iş görməz.

### 11-3. Peyğəmbərlərin tarixi mövcudluğu

Peyğəmbərlərin tarixi mövcudluğu barəsində qeyd etmək lazımdır ki, hal-hazırkı tarix elmi dünyəvidir və elə bu səbəbdən də, onlar mövcud olmasını sübut etmək üçün səmavi kitabların qarşısında təslim olmaq istəmir. Hal-hazırkı tarix elmi səmavi kitablar meydana çıxdığı dövrün hadisələrini özündə canlandıra bilər. Məsələn, tarixçilər ərəblərin cahiliyyət dövründə öz qız uşaqlarını diri-diri torpağa basdıqmalarını Qurani-Kərimə istinadən bildirirlər. Amma, Fironun dövründə yeni doğulmuş Bəni-İsrailin oğlan uşaqlarının öldürülməsi məsələsinə görə Qurani-Kərimə istinad etmirlər. Tövratın bu barədə verdiyi məlumat isə o qədər də dolğun deyildir. Çünki, tarixçilərin nəzərincə Tövrat Həzrət Musadan (ə) əsrlər sonra qələmə alınmışdır.

Müasir tarix elmi müstəqil mənbələrin qədim dinlərin baniləri barəsində səssiz dayanmaları və bizim onlar barəsində məlumata sahib olmağımızın həmin dinlərin öz mənbələrinin informasiya inhisarçılığında olması səbəbindən Nuh, İbrahim, Musa, İsa, Zərdüşt, Mahavira, Budda və Laotse kimi tarixi şəxsiyyətlərin mövcudluğuna şübhə ilə yanaşır. Bəzən onların bir qrupunun mövcudluğu qəbul etsə belə onların möcüzələrini qəbul etmir. (Şübhəsiz ki, İbrahimi dinlərin davamçıları qeyri-İbrahimi dinlərin tarixi rəhbərlərinin həqiqətən mövcud olub-olmaması vacibliyini sübut etməyin onların üzərinə düşməməsi səbəbindən qeyd etdiyimiz məsələni qəbul etmirlər və yaxud əksinə)

Tarix şahlara və onların yaxınlarına aid olmuşdur və peyğəmbərlərin adi insanlar arasından çıxması səbəbindən tarix səhifələrində gözə çarpmırlar. Məsələn, hal-hazırda tarixçilərin əllərində Fironların

sülaləsinin 26 dönəmi barəsində qiymətli məlumatlar mövcuddur. Amma, İbrahimi dinlərin təqdim etdiyi rəvayətlərə əsasən Misirdə yaşayaraq siyasi gücə malik olan Həzrət İbrahim (ə), Həzrət Yusif və Həzrət Musa (ə) barəsində tarixdə heç bir tutarlı məlumat gözə çarpmır. Halbuki, bəzi Fironların, onların xanımlarının, hətta bəzi pişiklərin, timsahların, mumiyaların Misirin və dünyanın müzeylərində diqqətlə qorunub saxlanılır. Tövrat Həzrət Musa (ə) barəsində belə yazır: "Heç kim indiyədək onun qəbrinin harda olmasını bilmir" (Təsniyə 34:6). Urşəlimdə də (yəni Qüdsdə) boş qəbir mövcuddur və xristyanlar o qəbrin Həzrət İsaya (ə) aid olduğunu bildirmişlər və qəbirin üzərində olduqca əzəmətli kilsə inşa etmişlər.

Digər tərəfdən isə, dünya alimlərindən və tarixçilərindən heç birisi Həzrət Muhəmmədin (s), O Həzrətin Mədinə şəhərində yerləşən "Peyğəmbər məscidində"[1] yerləşən pak hərəminə, O Həzrətin özünün Qurani-Kərimi davamçılarının ixtiyarına verməsinə qəti şübhə etmirlər. Qeyri-müsəlmanların Həzrət Muhəmmədin (s) peyğəmbərliyini qəbul etməmələri, Qurani-Kərimin O Həzrətin özü tərəfindən deyilməsi məsələsini bildirmələri heç kimə sirr deyildir.

Həzrət Muhəmmədin (s) mövcudluq tarixində heç bir şək-şübhənin olmamasının səbəbi isə bundan ibarətdir ki, O Həzrət adları öncə qeyd olunan şəxslərdən fərqli olaraq Mədinə şəhərində qüdrətli ilahi hökumət qurdu və qısa müddətdən sonra bu hökumət bütün dünyaya yayılmağa başladı. Belə əzəmətli və qüdrətli hökumətin yaradılması O Həzrətin adını tarixdə möhkəmləndirdi. Belə ki, 1978-ci ildə Amerikada tarixdə ən böyük yerə və təsirə malik yüz şəxsiyyətin müəyyənləşdirilməsi sahəsində aparılan elmi araşdırmalara əsasən Həzrət Muhəmməd (s) siyahının başında yer aldı.

Şərqşünaslar böyük ehtimala görə "Tarixin tənqidi" adlanan qeyd etdiyimiz metoddan istifadə etməklə müxtəlif dinlərin davamçılarının qəzəbləri ilə üzləşdilər.

---

[1] İslam alimlərinin böyük əksəriyyəti İslam sünnəti nöqteyi-nəzərindən bizim peyğəmbərimizdən başqa heç bir peyğəmbərin qəbrinin yeri tam məlum deyildir.

**11-4. Peyğəmbərin həyatının üç mərhələsi**

Peyğəmbərlərin həyatlarını ümumilikdə üç hissəyə bölmək olar:

1. Viladətindən besətə qədər olan zaman (bütün insanlarda olduğu kimi)
2. Besət vaxtından hökumət qurduğu zamanadək
3. Hökumət yaratdığı zamandan dünyasını dəyişdiyi vaxtadək

Bildiyimiz qədər həm Həzrət Musanın (ə), həm də Həzrət Məhəmmədin (s) həyatında sadaladığımız hər üç mərhələ olmuşdur. Amma, Həzrət İsanın (ə) həyatında üçüncü mərhələ olmamışdır və eləcə də, hökumət qurmağı bacarmamışdır. Peyğəmbərlər ikinci mərhələdə müşriklik və zülmlə söz savaşı, üçüncü mərhələdə isə güc savaşı aparmışlar.

Onlar ikinci mərhələdə eləcə də, yalnız əxlaqi və əqidəvi fərmanlar vermişlər və icra olunmalı hökümlər verməmişlər. (Məsələn, cihad, qisas, və diyə kimi əhkamlar Məkkədə nazil olmuş surələrdə gözə çarpmır. Amma, Mədinədə nazil olmuş surələrdə, o cümlədən Bəqərə, Ali-İmran, Nisa, və Maidə surələrində belə əhkamlar gözə çarpırlar.)

Həzrət İsa Məsih üçüncü mərhələni yaşamaması və hökumət yarada bilməməsi səbəbindən xristyanlıqda müstəqil şəkildə əməl edəcək şəriət mövcud deyildir və o Həzrət Tövratın qoyduğu şəriətin təbliği ilə məşğul idi.[1] Məlum olduğu kimi xristyanlıq Həzrət İsa Məsihdən (ə) sonra Pavlosun göstərdiyi səylər nəticəsində Tövratın dar çərçivəli şəriət qaydalarını qıraraq özünəməxsus əxlaqi şəriət sahibi oldu. Zaman ötdükcə xristyanlar xristyanlıq hökuməti qurdular və icraçı əhkamları sahəsində mövcud olan nöqsanları aradan götürmək məqsədilə bütün səylərini səfərbər etdilər.

**11-5. Peyğəmbərlik və döyüş**

Əsrlərdir ki yəhudilər və xristyanlar İslamı kobudluqda və savaşa meyilli olmaqda ittihamlandırırlar. Müsəlmanlar da öz növbələrin-

[1] Ali-İmran, 49 və Matta 5:17

də ilahi qanunları müdafiə etmişlər və İslam dininin böyük alimləri öz dəyərli əsərlərində belə ittihamların onların dinləri ilə daha münasib olmasını sübut etmişlər və onların o qədər də mötəbər bilinməyən kitablarının bu həqiqəti dəstəklədiyini bildirmişlər.

Amerika Birləşmiş Ştatlarında 2001-ci ilin 11 sentyabr ayında baş vermiş hadisədən sonra ittihamlar daha da kəskinləşməyə başladı. Elə bu səbəbdən də, həmin alimlərin apardığı araşdırmaları qısa şəkildə burda qeyd etməyi özümüzə borc bilirik.

Xristyanlar uzun illər boyu Xaç yürüşlərində[1] nümayiş etdirdikləri kimi Məsihin və xristyanlığın sülhün elçisi olması məsələsini qəbul etmirlər.[2] Son əsrlərdə xristyanlar Həzrət İsa Məsihin sülh və əmin-amanlıq üçün gəlməsini iddia etməyə başlamışlar. O Həzrətin hökumət qura bilməməsi isə qeyd etdiyimiz məsələnin daha da şiddətlənməsinə səbəb oldu.

Qeyd etmək lazımdır ki, başqa dini liderlər də, o cümlədən Həzrət Musa (ə), Həzrət Muhəmməd (s), Həzrət Əmirəlmöminin Əli (ə) da hökumət qurmamışdan öncə heç kimlə döyüşmürdülər. Amma, hökumət qurduqdan sonra döyüşmək məcburiyyətində qaldılar. (Məsələn, Həzrtə Muhəmməd (s) Mədinə şəhərində İslam hökuməti qurduqdan sonra Məkkə üşrikləri İslam dinini məhv etmək məqsədilə tam təchiz olunmuş böyük ordu ilə Mədinə şəhərinə hücum etdilər və müsəlmanlarla döyüşdülər.)

Müqəddəs kitab döyüşün müqəddəsliyini çatdırmaq üçün belə deyir: “Tanrı döyüş adamıdır.” (Xuruc 15:3) Əhdi-Ətiqin üç ən böyük və müqəddəs şəxsiyyəti, yəni Həzrət Musa (ə), Həzrət Yuşa (ə) və Həzrət Davud (ə) eyni zamanda zamanlarının ən böyük döyüşçüləri olmuşlar.

“Döyüş adamı” olan bu Tanrı eyni zamanda Tövratda Bəni-İsrailə müharibə zamanı ən böyük vəhşilikləri və qarəti həyata keçir-

---

[1] Xaç yürüşləri Papaların və xristyan ruhanilərinin dəvətin ilə həyata keçirilmişdir.

[2] Güya onlar Həzrət İsa Məsihin (ə) “Mənim yer üzünə sülhq bərqərar etmək üçün gəlməmi güman etməyin. Sülhü bərqərar etməyə gəlmişəm, amma qılınc vasitəsilə” (Matta 10:34) tövsiyyəsinə əməl edərək bu addımı atmışlar.

məyi rəva bilir. O xalqları iki hissəyə bölür: Birincisi bütün xalqlar və ikincisi, Bəni-İsrailin şəhərlərini ələ keçirəcəkləri xalqlar. Birinci dəstəyə aid xalqlar yaşamalıdırlar və Bəni-İsrailə xərac verməlidirlər, onların xidmətçiləir olmalıdırlar. Amma ikinci dəstəni isə təmamilə məhv etmək və yer üzərindən silmək lazımdır:

*"Döyüşmək məqsədilə hər hansı bir şəhərə yaxınlaşanda*[1] *onu sülhə dəvət edin. Onlar sənə sülhlə cavab versələr, qapıları üzünüzə açsalar orada olan bütün sakinlər sənə xərac verməli və sənə xidmət göstərməlidir. Amma səninlə sülh etməsələr və döyüşmək istəsələr onu mühasirəyə al. Əgər Tanrı Yəhvə onu sənin ixtiyarına buraxsa orada olan bütün kişiləri qılıncdan keçirt. Amma qadınlara, uşaqlara və heyvanlara şəhərdə qalmalarına icazə ver. Yəni bütün qənimətləri ələ keçirt və Yəhvə Tanrının sənə bəxş etdiyi bu qənimətləri ye. Səndən çox uzaq olan və sənin ümmətindən olmayan bütün şəhərlərlə belə davran.*

*Amma Yəhvə tanrının malikiyyətini sənə verdiyi şəhər və ölkələrdə diri heç nə saxlama. Yəni Hettilər, Amurilər, Kənanllar, Fereffilər, Hevvilər və Yebusilərdən savayı hamını məhv elə. Öz Yəhvə Tanrına qarşı günah işlətmə."* (Təsniyə, 20:10-18)

Müqəddəs kitabda Həzrət Davudun (ə) döyüşlərindən biri barəsində bu sözləri oxuyuruq:

*"Davud bütün qövmünü topladı, Rabbaya getdi, onlarla döyüşdü və işğal etdi. Onların şahlarının qızıldan olan və daş-qaşla bəzədilmiş tacını başından götürdülər və Davudun başına qoydular, əldə etdikləri qənimətləri isə apardılar. Onları mişarların, ağır dəmirlərin, dəmir baltaların ağzından keçirtdilər və kərpic bişirən sobalarda bişirdilər. Bəni-Ammun şəhərlərinin hamısı ilə belə davranıldı.* (Samuelin ikinci kitabı, 12:29-31)

Müqəddəs kitab nöqteyi-nəzərindən belə dəhşətli qətliamlar düzgün olmuşdur və Allahın razılığı ilə həyata keçirilmişdir. Çünki, Həz-

[1] Bu sözlər Bəni-İsrailə xitabən deyilir

rət Davudun (ə) vəfatından illər sonra Allah onun adını yaxşı formada qeyd edir və onun barəsində bu sözləri buyurur:

*"Mənim əmrlərimi həyata keçirtdi, bütün qəlbi ilə mənə itaət etdi və mənim düzgün bildiyim bütün işləri həyata keçirtdi.* (Samuelin birinci kitabı, 14:8)

Xristyanlar Əhdi-Ətiqdə qeyd olunmuş peyğəmbərlərin dəhşətli qətliamlarına göz yumaraq İslam dininin əzəmətli peyğəmbəri Həzrət Muhəmmədin (s) özünü müdafiə məqsədliə həyata keçirdiyi döyüşlərinə tənqidi baxışlarla yanaşırlar və etirazlarını bildirməyə çalışırlar.

Bir müqayisəni sizin diqqətinizə çatdırmaq istərdim: İslam dinində əsir düşmüş hər bir kafir döyüşçü Qurani-Kərimin əmrinə əsasən (Muhəmməd surəsi, 4) qarşılıqsız və yaxud fidyə, yəni müəyyən olunmuş pul müqabilində azadlığa buraxılır. Əsirlərin dəyişdirilməsi məsələsi də həmişə İslam dinində mövcud olmuşdur. Amma indi Tövratdan diqqətinizə çatdıracağım mətndə Bəni-İsrailin döyüşdə bütün kişiləri öldürərək qadın-uşaqları əsir tutmaları və Həzrət Musanın (ə) yanına gətirmələrini çatdıracağıq. Amma maraqlısı budur ki, o əsirləri gördükdə əsəbləşdi, qadınları və oğlan uşaqlarını da qətlə yetirməyi əmr etdi.[1] Qızlarını isə özünə saxladı. Bütün qənimətlərin hesablanmasından sonra mətnin sonunda otuz iki min qızın mövcud olması qeyd olunur:

*"Və (Bəni-İsrail)Allah Musaya əmr etdiyi kimi Medilər (qövmü) ilə döyüşdülər və onların bütün kişilərini qətlə yetirdilər..... Və Bəni-İsrail Medilərin qadınlarını və uşaqlarını əsir tutdular, heyvanlarını, mallarını, mülklərini qarət etdilər, bütün şəhərləri, yaşayış məskənlərini və qalaları yandırdılar. Əsirləri və qənimətləri Musanın, kahin Əlazarın, Arihanın qarşısında, İordanın yanındakı Muab Ərəbatında yerləşən ordunun qərargahına gətirdilər. Musa ordu başçılarına, yəni minbaşılara və yüzbaşılara qəzəbləndi. Musa onlara dedi: "Bütün*

---

[1] Bizdə mövcud olan məlumatlara əsasən yalnız Firon öz düşmənlərinin oğlanuşaqlarını qətlə yetirirdi.

*qadınları diri saxlamısınız? Bunlar Bəlamla*[1] *məşvərət edərək Bəni-İsraili Fəğfura görə Allaha xəyanət etməyə məcbur edənlərdir və onların üzündən insanlar arasında vəba yarandı. İndi bütün oğlan uşaqlarını və kişi ilə yaxınlıq etmiş hər bir qadını öldürün! Hələ kişi əli dəyməmiş və kişilərlə yatmamış qızları özünüz üçün saxlayın!"*

*Döyüşçülərin əldə etdiyi qənimətlərdən savayı 675 min baş qoyun, 72 min baş inək, 61 min baş uzunqulaqvə kişi əli dəyməmiş qızlardan isə 32 min baş qız var idi.* (Ədədlər 31:7-35)

Bəni-İsrailin törətdiyi qətliamlar, qarətlər, yanğınlar və vəhşiliklər Yuşa, Hakimlər, Samuel kitablarında qeyd olunmuşdur. Xristyanların Əhdi-Cədid kitabında isə bu müharibələr və onları həyata keçirənlər, o cümlədən Cidun, Baraq, Samson[2], Yaftah, Davud və Samueli böyük təntənə ilə təriflərə layiq görülmüşlər:

*"Başqa nə deyə bilərik ki vaxt bizə Cidun, Baraq, Samson, Yaftah, Davud, Süleyman və başqa peyğəmbərlər barəsində xəbər verməyə imkan vermir. Onlar öz imanları ilə müxtəlif məmləkətləri işğal etmiş, saleh əməllər görmüş, vədələri qəbul etmiş, şirlərin ağızlarını bağlamış, odun şiddətini azaltmış, qılınclardan canlarını qurtarmış, zəiflikdən güclülüyə çatmış, döyüşlərdə şücaət qazanmış və yadellilərin qoşunlarını darmadağın etmişlər."* (İbranilərə məktub 11:32-34)

### 11-6. Peyğəmbərlik və itaət

Peyğəmbərlər insanlardan onlara itaət etməyi istəyirlər[3]: İtaət ya sevgi və istək üzündən, ya da axirət əzabından qorxu üzündən olmalıdır. Sonda bəzi itaətsizliklər üçün dünyaya aid olan cəzalar, şallaq vurmaq, bədənin bəzi üzvlərinin kəsilməsi və edam kimi cəzalar nəzərdə tutuldu. Müasir insan hüququ dünyada həyata keçirilən cəza vasitələrini qəbul etmir və dinlərdə o qədər də gözə çarpmayan həbs

---

[1] O zamanlar dağlardan birinin qülləsində Bəəl Fəğfur adında büt var idi və Bəni-İsrail o bütə səcdə edərək orada olan qadınlarla zina etdilər. (Ədədlər 25:1-3)

[2] Bu şəxsin qəhrəmanlıqlarından biri də ölü uzunqulağın alt çənəsi ilə min nəfəri qətlə yetirmək olmuşdur. (Hakimlər 15:15-17)

[3] Biz hər bir peyğəmbəri, ancaq ona Allahın iznilə itaət olunsun deyə, göndərdik. (Nisa surəsi, 64)

olunma və cərimə ödəmə kimi cəzaların tətbiq olunmasını tövsiyyə edir.

Xristyanlar öz qara keçmişlərini unutmağa və öz dinləri ilə qərbin insan hüquqları arasında ahəngdarlıq yaratmağa çalışırlar. Bu dində Həzrət İsa Məsihin (ə) ilahiliyini sübut etdiklərini düşünən və onu gələcək nəsillər üçün yadigar kimi qoyub gedən ruhanilər onların sözlərindən çıxan bidətçi xristyanlara qarşı müxtəlif işkəncələrdən və edamlardan istifadə etmişlər. Onlar belə xristyanların cəzalandırılmalarını dövrlərinin hakimlərindən istəmişlər. Müqəddəs Tomas Akvinas belə yazır:

*"Bidətçilər barəsində iki məsələyə riayət etmək lazımdır: birincisi bidətçilərlə əlaqəlidir və ikincisi kilsə ilə əlaqəlidir. Bidətçilərlə əlaqəli məsələ bundan ibarətdir ki, onlar günahlarına görə kafir bilinərək kilsədən uzaqlaşdırılmaqdan əlavə qətlə yetirilməli və yer üzərindən silinməlidilər. Çünki, ruhu yaşadan həyat mənasını kəsb edən imanın çirkləndirilməsi və məhv edilməsi maddi həyatın ən dəyərli amillərindən sayılan pulu saxtalaşdırmaqdan daha böyük cinayətdir. Deməli sekular hökumətlər saxta pul buraxan və oğurluqla məşğul olanları belə pis işlə məşğul olduqlarına görə ölümə məhkum edirsə bidətçilərin dinə bidət etmələri sübuta yetirildikdən sonra kafir bilinmələrindən əlavə edam olunmaları vacib hal alır.*

*Kilsə ilə əlaqəli məsələdə isə yolunu azmışların yenidən haqq yoluna qayıtmaları üçün rəhmət mövcuddur. Elə bu səbəbdən də, belə insanları məhkum etməkdə tələsmir və Elçi Pavelin hidayət etməsi kimi "Bir-iki nəsihətdən sonra" (Tituslulara məktub, 3:10) düz yola dəvət edir. Bundan sonra həmin şəxs yenə də haqq yoluna qayıtmaqdan boyun qaçırarsa və kilsənin artıq onun qayıtmasına ümidi qalmazsa başqa xilas yolu nəzərdə tutularaq o kafir elan olunur və kilsədən uzaqlaşdırılır. Bundan əlavə onu sekular məhkəməyə tapşırırlar və beləliklə həyatdan məhrum edərək edam edirlər."*[1]

[1] İlahiyyatın xülasəsi, 2/2, 11-ci məsələ, 3-cü məqalə

# 12. Hökumət

Bəşəri cəmiyyətlərin böyüməsi və ictimai əlaqələrin daha da dolaşması səbəbindən insanlar tədricən hökumətin yaradılması zərurətini anlayırlar. Bu zərurət o qədər güclü olur ki, bəzi vaxtlar insanlar öz fərdi azadlıqlarının bir hissəsini hökumətin yaradılması yolunda fəda edirlər və özlərini çox zaman xudbin və zalım hökümdarlara təslim edirlər. Min illər keçdikdən sonra bəşəriyyət seçimlə həyata keçirilən hökumətin varisliklə çatan hakimiyyətdən daha yaxşı olmasını tədricən anlamağa başladı. Amma, bəşəriyyət heç vaxt münasib və problemsiz hakimiyyət metodunu heç vaxt kəşf edə bilməyəcəkdir. Müasir dünyamızda artıq qadınlara da seçmək hüququ verilmişdir. Bir ölkə əhalisinin təxmin yarısı seçkilərdə iştirak etmək hüququnu qazanır və seçkilərdə bu hüquqa malik insanların təxminən yarısı iştirak edir. Bu qədər insanın seçkilərdə iştirak etməsi Prezident seçkilərinin hüquqi baxımdan düzgün sayılmasını bildirir. Qeyd etmək lazımdır ki, seçkilərdə əsas məsələ aparılan təbliğatın üzərinə düşür.

Həzrət Muhəmmədin (s) Mədinə şəhərindəislam hökuməti yaratması hökumətin yaranması sahəsində mövcud olan vacibliyin ən sonuncu nümunəsidir. Hicaz regionunda yaşayan insanların İslam dini meydana çıxana qədər hökuməti olmamışdı və Əbu Cəhl, Əbu Ləhəb, Əbu Süfyan kimilər (Roma, İran və sair ölkələrin rəhbərləri və başçıları kimi) şah və yaxud prezident deyildilər.

Qədim zamanlarda dinlə dövlət arasındakı bağlılıq o qədər təbii idi ki, heç kim onların bir-birindən ayrı şəkildə fəaliyyət göstərməsini təsəvvür belə edə bilməzdi. Hökumətin qanuniliyi dindən asılı idi və qədim cəmiyyətlərin rəhbərləri dini və dünyəvi rəhbərliyi bir yerdə cəmləşdirirdilər. Hindistandakı kasta quruluşunda, padşahlar zamanında mövcud olan Bəni-İsrail cəmiyyətində, Avropadakı katolik xristyanları, Rusiyanın ortodoks xristyanları, Osmanlı xilafətində dini rəhbərlə dünyəvi məsələlər üzrə rəhbər bir-birilərindən fərqlənirdilər. Amma buna baxmayaraq, dini rəhbər dünyəvi rəhbərdən daha üstün

idi və ruhanilər istədikləri şəxsi hökümdarlığa təyin edə və hökümdarlıqdan uzaqlaşdıra bilərdilər.

Din və dövlət arasındakı möhkəm bağlılıq heç vaxt mütəfəkkirlərin diqqətindən kənarda qalmamışdır və onlar öz əsərlərində daim bu məsələyə işarə etmişlər. Fransalı mütəfəkkir Jan Jak Russo bu barədə belə yazır:

*"İnsanlar ilk olaraq Allahlardan başqa padşahları və Teokratiyadan başqa hökuməti tanımırdılar."*[1]

Fransalı tarixçi Fostel Dokolanj belə yazır:

*"Qədim zamanlarda hökumətlə din bir yerdə fəaliyyət göstərirdilər və bir-birilərinə bağlılıqları var idi. Hər bir xalq öz Tanrılarına sitayiş edirdilər və Hər bir Tanrı ona sitayiş edənlərə hökümdarlıq edirdi."*[2]

19-cu əsrdə yaşamış Almaniyalı filosof Hegel də tarixi ağılla uzlaşdırmağa çalışırdı və bu barədə belə yazırdı:

*"Dövlət dindən yaranmışdır və əbədiyyətə qədər də varlığını dindən alacaqdır. Hər bir məxsusi hökumət məxsusi dindən əmələ gəlmişdir....*

*Beləliklə, dinlə dövlətin əsası birdir və müştərəkdir. Din dövlətdən kənarda əmələ gələn və dövlətin idarəçilik yolu ilə insanların dövlət qarşısında davranış yollarını kənardan tənzim edən bir məfhum deyildir. Əksinə, dövlətin və yaxud ölkənin daxilində hər bir şeyə dinamiklik və məna verən ən əsas və fundamental prinsiplərdən biridir. Dindarlığı insanlara tərbiyələndirmək yolu ilə öyrətmək məsələsi düzgündür və insanları daim bu sahədə diqqət altında saxlamaq lazımdır. Eləcə də, elm və incəsənəti təlim və təhsil yolu ilə insanlara öyrətmək lazımdır. Amma, dinlə dövlət arasındakı əlaqəni siyasi cəmiyyətin təsis olunmasından sonra dinin təkmilləşdirici və tamamlayıcı amil kimi açıqlamaq lazım deyil. Əksinə, daha öncə qeyd etdiyimiz kimi bu əlaqənin mənası bundan ibarətdir ki, hər bir dövlər*

---

[1] İctimai saziş, dördüncü kitab, səkkizinci fəsl
[2] Qədim sivilizasiya, beşinci kitab, üçüncü fəsl

*müəyyən bir dindən əmələ gəlmişdir və dinlə dövlətin əsası eynidir. Hər bir ölkənin elmi, siyasi və incəsənət həyatı həmən ölkədə mövcud olmuş və mövcud olan dindən birbaşa asılıdır."*

Qədim hökumətlərin və dövlətlərin hamısı dini olmuşdur. Daha dəqiq desək, qədim zamanlarda olan dinlərin hamısının ictimai və siyasi dinlər olmuşlar. Hal-hazırki dinlər qədim dövlətlərin ruhudur və onları ulduzların parıltısına bənzətmək olar. Yəni, bəzi ulduzların partlayaraq məhv olmasına baxmayaraq onun parıltısı və nuru hələ bizə yenicə gəlib çatmışdır.

İslam dünyasının böyük filosofu İbni Sina cəmiyyətdə nizam-intizamın bərqərar olunması üçün peyğəmbərliyin ən əsas faktorlardan biri olduğunu vurğulayır. Onun nəzərincə ibadət və dini mərasimlərin mənası isə insanların daim onu yadlarında saxlamasıdır. Hər halda, peyğəmbərlərlə hökümdarları müqayisə etsək onların təsir səviyyəsi arasındakı fərqin nə dərəcədə kəskin olmasının şahidi olarıq. Mövlana Cəlaləddin Rumi belə buyurur:

"Şahların adı bir gündən sonra artıq unudulur, amma Əhmədin (Həzrət Muhəmməd (s)-in adı) adı əbədiyyətə qədər qalacaqdır."[1]

### 12-1. Zərdüştlük, Yəhudilik, Xristyanlıq və İslam cəmiyyətlərindəki dini hökumət.

Daha öncə qeyd etdiyimiz kimi, Zərdüşt peyğəmbərliyə çatan kimi dövrünün şahı Güştasbın yanına getdi və onu dinini qəbul etməyə dəvət etdi. Güştasb da öz növbəsində dərhal Zərdüştün dinini qəbul etdi. Qeyd etmək istərdik ki, dünyanın bir çox yerlərində olduğu kimi qədim İranın əfsanəvi şahları da dini və siyasi rəhbərliyi bir yerdə cəmləşdirmişdilər. Bu şahların dindarlığı və Allaha sitayişi "Şahnamə"-də qeyd olunmuşdur və onların hamısı zərdüştlükdə dini lider mənasını kəsb edən "Mubəd" adı ilə adlandırılmışlar. Məsələn Cəmşid şah barəsində belə qeyd olunmuşdur:

---

[1] Məsnəvi, 4/2873

*"Məndə ilahi böyüklük var. Mən həm şaham, həm də mubədəm. Bu səbəbdən də əlimi bütün pisliklərdən çəkmişəm və ruhumu yalnız paklığa doğru yönəltmişəm."*[1]

Mənuçehr barəsində:

*"Yer üzərindəki bütün pəhləvanlar ona afərin oxumağa başladılar. Qoy əbədiyyətə qədər həm taxt-tac, həm də Mubədlərin böyüklüyü səndə olsun."*[2]

İranın tarixi padşahları da dinlə siyasəti bir yerdə cəmləşdirmişdilər. Məsələn, Sasanilər sülaləsinin banisi Ərdəşir BabəkanZərdüşt ruhanisi idi və rəsmi yazışmalarda özünü "Ərdəşir Mubəd" adlandırırdı. O dövlətin ən yüksək vəzifələrini mubədlərə tapşırdı və zərdüştlük dinini kəskin şəkildə gücləndirdi. Ərdəşir Babəkanın siyasi baxışları belə idi:

*"Əgər şah dini dəstəkləyərsə, şahlıq və din arasında qardaşlıq yaranar. Çünki, dindarlıqla şahlıq eyni məxrəcdəndirlər və elə bil bir çadır altında yaşayırlar.*

*Şahlıq tac-taxtı olmadan din bir yerə çata bilər, nə də dinsiz şahlığın təsiri ola bilər.*

*Dinsiz padşahlıq ola bilməz və din də öz növbəsində şahsız çiçəklənə bilməz.*

*Əgər dinin qoruyucusu şah olarsa, sən bunların ikisini (yəni dinlə şahlığı) qardaş adlandırmalısan."*[3]

Ərdəşir Babəkanın siyasi yazılarından sayılan "Ərdəşirin əhdnaməsində" bu sözləri oxuyuruq:

*"Bilin və agah olun ki, əgər ölkədə bir gizli dini başçılıq və bir də aşkar şahlıq bir-biriləri ilə düz gəlməzlərsə dini lider sonda şahın əlindəki bütün iqtidarı öz əlinə keçirəcəkdir. Çünki, din əsasdır və özüldür, amma şahlıq bu özül üzərində olan sütundur. Özülə sahib*

---

[1] Şahnamə, səhifə 27
[2] Şahnamə, səhifə 48
[3] Şahnamə, səhifə 380

*olan şəxs sütunu əlində saxlayan şəxsə rahatlıqla qalib gələ bilər və bütün binanı ələ keçirməyi bacarar."*[1]

Müxtəlif şahların dinlə dövlət arasındakı əlaqə barəsində söylədiklərini mütaliə etdikdən sonra diqqətinizə Zərdüştlərin müqəddəs kitablarındadinlə siyasət arasındakı əlaqənin hansı şəkildə açıqlanılmasını çatdırırıq:

*"Ən yaxşı dində (Zərdüştlükdə) padşahlıq dindir və din də padşahlıqdır.... Padşahın böyüklüyü Ahuramazda dininə sitayiş etməsindədir və Ahuramazda dininin böyüklüyü padşahlıqdadır. Məxluqlar üçün ən böyük xoşbəxtlik padşahlıqla ən yaxşı dinin birləşdiyi zaman yaranır. Düzgün və doğru padşahlıq yaranır və düzgün padşahlıq ən yaxşı din vasitəsilə çiçəklənir."*[2]

Yəhudilikdə hökumət düşüncəsi həmişə mövcud olmuşdur. Daha öncə qeyd etdiyimiz kimi Həzrət Musa (ə) işini siyasətlə başladı və Firona müxtəlif yollarla təzyiq göstərərək onu Bəni-İsrailə zülm verməkdən çəkindirdi. Həzrət Musa (ə) sonda bu siyasətlərinin nəticəsini gördü və Bəni-İsraili Fironun zülmündən xilas edərək azadlığa çıxartdı. O Həzrət Bəni-İsraili azadlığa çıxartdıqdan sonra Sina səhrasında dövlət yaratdı və ömrünün sonunadək öz qövmünün istər dini, istərsə də siyasi başçısı oldu. Bu məsələ geniş şəkildə Tövratda qeyd olunmuşdur. Ondan sonra Yuşa ibn Nun Bəni-İsrailin lideri oldu və ondan sonra bir çox hakimlər qövmün daxili ixtilaflarını həll etməklə məşğul oldular. Bəni-İrailin o zamanlar onları işğalçı qonşuları qarşısında müqavimət aparmaq üçün bir yerə toplaya biləcək padşahları yox idi. Elə bu səbəbdən də, öz dövürlərinin peyğəmbəri olan Samuelin yanına getdilər və onlar üçün padşah təyin etməsini xahiş etdilər. O Həzrət, Şaul (Talut) adlı bir gənci onların padşahı təyin etdi və onu müqəddəs yağla məsh etdi. Bu məsh padşahın ilahiliyini göstərirdi və müqəddəs yağla məsh olunmuş Məsihə itaət etmək şəri cəhətdən hamıya vacib sayılırdı. Şauldan sonra Həzrət Davud (ə)

---

[1] Ərdəşirin əhdnaməsi, 5-ci hissə
[2] Dinkərd,47

və ondan sonra isə oğlu Həzrət Süleyman (ə) padşah və məsih oldular. Həzrət Süleyman (ə) dünyasını dəyişdikdən sonra oğlu Rohbaam onun canişini oldu və padşahlıq onun nəsli ilə davam etdi. Digər tərəfdən on iki Bəni-İsrail qəbiləsindən onu Rohbaamı qəbul etmədilər və Həzrət Süleymanın (ə) sərkərdələrindən olan Yurbaam ibn Nabatı padşah seçdilər. Bu zamandan sonra Bəni-İsrailin iki ölkəsi olmuşdur: Cənubda Rohbaamın başçılıq etdiyi Yəhuda ölkəsi və şimalda Yurbaamın başçılıq etdiyi İsrail ölkəsi. Bu iki ölkə padşahlığı həmən padşahların nəsli ilə davam etdirildi və sonda İsrail ölkəsi eradan əvvəl 722-ci ildə Assuriyalılar tərəfindən və Yəhuda ölkəsi eradan əvvəl 587-ci ildə babilistanlılar tərəfindən süquta uğradıldı, bu ölkə əhalisi isə qətliam olunaraq əsarətə məhkum oldu. İsrail ölkəsindən əsir düşmüş insanlar barəsində məlumat mövcud deyildir, amma Yəhuda ölkəsindən əsir düşənlər Babilin Kir tərəfindən fəth olunmasından sonra azadlığa buraxıldılar və onların bir hissəsi Kirin köməkliyi ilə Fələstin torpaqlarına qayıtdılar.

Belə bir çətin şəraitdə Bəni-İsrailin beynində xilaskar Məsih düşüncəsi formalaşmağa başladı. Bu düşüncə get-gedə daha da inkişaf etməyə başladı və Bəni-İsrail onun köməkliyi ilə öz ümidsizliklərinə, ruh düşkünlüklərinə qalib gəldilər. Yəni Bəni-İsrail xilaskar Məsihanı gözləməklə öz mövcudluğunu qoruyub saxlaya və bu günümüzədək gəlib çata bildi.

İntizar çəkən Yəhudilər məhv olmuş dini hökumətlərini qurmamaq üçün 2000 ildən artıq vaxt gözlədilər. Onlar yeni hökumətin və dövlətin yaradılmasının onların intizar amalları ilə üst-üstə düşmədiyini bilirdilər. Dünyanın bəzi yerlərində Məsiha iddiası ilə bu fikrə düşənlər isə nə qədər çalışsalar da sonda uğur qazana bilmədilər və öz istəklərini həyata keçirməyi bacarmadılar. Təxminən bir əsr öncə sionistlər din qardaşlarını müstəqil dövlət yaratmağa razı sala bildilər və 1948-ci ildə işğal olunmuş Fələstin torpaqlarında yəhudilərin İsrail adlı dünyəvi ölkəsi meydana çıxdı.

Xristyanlıqda da qeyd etdiyimiz kimi Papalar təxminən min il ərzində (800-1806-cı ilədək) insanların həm dini, həm də dünyəvi li-

derləri vəzifəsini həyata keçirmişlər. Onlar iki sahədəki liderliyi öz üzərlərinə götürdüklərinə görə kəmərlərinə iki qılınc bağlayırdılar. Bu hökumət o qədər qüdrətli idi ki, Roma Papası Yeddinci Qriqori Almaniya padşahı Dördüncü Henriyə qəzəblənərək onu kafir elan edəndə və padşahlıqdan uzaqlaşdıranda Henri böyük əzab-əziyyətlə Papanın sarayına getdi, üç gün əynində ağ paltar ayaqyalın qarda dayanaraq bağışlanılmasını istədi. Onun bu işləri nəticə verdi və Dördüncü Henri yenidə taxt-tacını geriyə qaytara bildi. Qeyd etmək lazımdır ki, üç il sonra həmin Roma Papası onu yenidən kafir elan etdi və padşahlıqdan uzaqlaşdırdı, amma bu dəfə Henri güclü ordu ilə Romaya hücum etdi və Papa Yeddinci Qriqorini vəzifəsindən uzaqlaşdıraraq başqa bir nəfəri onun yerinə Roma Papası təyin etdi.

Artıq 200 ildir ki Papa hökuməti Vatikanda məhdudlaşdırılmışdır, halbuki İslam xilafəti qeyd edəcəyimiz kimi təxminən 80 il bundan öncə təmamilə yığışdırılmışdır.

İslamın əzəmətli Peyğəmbəri Həzrət Muhəmməd (s) də mərkəzi Mədinə şəhəri olan qüdrətli bir dövlət yaratdı və Uca Yaradana qovuşandan sonra O Həzrətin canişininin müəyyənləşdirilməsi müsəlmanlar üçün ən çətin məsələlərdən birinə çevrildi. Elə bu səbəbdən də, O Həzrətin bəzi silahdaşları onun dəfn işləri ilə məşğul olmağın əvəzinə "Səfafətu Bəni-Saidə" adlı yerdə toplaşaraq Əbu Bəkr ibn Əbi Quhafəni müsəlmanların başçısı seçdilər. Şiələr isə Həzrət Muhəmməd (s) Allah-Taalanın əmri ilə Həzrət Əmirəlmöminin Əlini (ə) rihlətindən yetmiş gün öncə "Qədir-xum" adlı məkanda öz canişini təyin etməsini bildirirlər və elə bu səbəbdən də, başqa bir şəxsin xəlifə təyin olunması məsələsini qətiyyən qəbul etmirlər.

Səfafədə toplaşan müsəlmanlar bu əməlləri ilə İslamda yeni bir qurum yaratdılar. Bu qurumun adı "xilafət" idi. İslam dinindəki xilafət anlayışı xristyanlıqdakı Papa anlayışı ilə üst-üstə düşürdü. Tarixin bəzi dönəmlərində çevriliş edərək qüdrəti ələ alan şəxslərin, o cümlədən Ali-Buyənin xilafət qurumu ilə heç bir işi yox idi və xilafətə olan hörmət və ehtiram toxunulmaz olaraq qalırdı.

Şübhəsiz ki, qüdrət başında dayanan şəxslər xəlifəni öz krsüsündən uzaqlaşdırmaq üçün bəzən təzyiq siyasətindən istifadə edirdilər və onlar öz istəklərinə nail olanda başqa bir xəlifəni keçmiş xəlifənin yerinə təyin edirdilər. Üçüncü xəlifə belə təzyiqlərin qarşısında müqavimət göstərmək və yerini heç kimə vermək istəmədi. Elə bu səbəbdən də, qətlə yetirildi. Amma təzyiq və işkəncə yolundan istifadə etmək bəzən nəticə verirdi və Abbasi xəlifələrindən bir neçəsi belə şəkildə xilafətdən uzaqlaşdırıldı. Bəzən xəlifləikdən uzaqlaşdırılmış keçmiş xəlifənin gözləri kor edilirdi və o da, yaşamaq üçün dilənçilik etmək məcburiyyətində qalırdı. Hülakü xanın Bağdada hücumundan sonra xilafətin zahirən dayanmasına baxmayaraq malik olduğu müqəddəsliyə görə Misirdə davam etdirildi. Ümumilikdə xilafət 13 əsr davam etdi. Sonda 1924-cü ildə Mustafa Kamal Atatürk tərəfindən ləğv edildi.

O zamanlar müsəlmanlar arasında cümə xütbələrindən kimi adını çəkmək və xütbələri kimi adına oxumaq sahəsində problemlər yarandı. Çünki, o günə qədər xəlifələr insanların həm dini, həm də dünyəvi məsələlər üzrə başçıları idilər və ibadi-siyasi cümə namazlarının xütbələrində onların adlarının qeyd olunması vacib sayılırdı. Elə həmin dövrlərdə bəzi İslam ölkələri öz padşahlarını islam dünyasının yeni xəlifəsi kimi tanıtmağa çalışsalar da onların bu səyləri heç bir nəticə vermədi. Yəni, hər ölkədə demək olar ki, siyasi-ibadi namazların xütbələri yerli padşahların adına oxunmağa başlanıldı.

Bəzi məmləkətlərdə, o cümlədən İranda, Andalusiyada, Şimali Afrikada və İslam dünyasının müxtəlif regionlarında müstəqil dövlətlər də yaradıldı. Bu dövlətlər bəzi vaxtlar xilafətin köməkçilərindən hesab olunsalar da bəzi hallarda tam müstəqil şəkildə fəaliyyət göstərirdilər. Xəvariclərin, Zeydi şiyələrin, İsmaililərin İslam dünyasının müxtəlif regionlarında müstəqil dini dövlətləri olmuşdur.

Qeyd etdiyimiz kimi xəlifələr İslam dünyasının istər dini, istərsə də dünyəvi baxımdan ən yüksək məqamı qəbul olunurdular və onları xristyan aləminin Papaları ilə müqayisə etmək düzgün olardı.

İmamət, yəni Həzrət Muhəmmədin (s) canişinliyi barəsində müxtəlif siyasi baxışlar mövcuddur və bu siyasi baxışlar müsəlmanlar arasında üç əsas məzhəbin yaranması ilə nəticələndi:

1. Əhli Sünnət məzhəbi: Onlar imamın müsəlmanların özü tərəfindən təyin olunmasını qəbul edirlər.
2. Şiyə məzhəbi: İmamın Allah-Taala tərəfindən təyin olunmasını qəbul edirlər və vacib sayırlar.
3. Xəvaric məzhəbi: Onlar imamın heç kim tərəfindən təyin olunmasını qəbul etmirlər.

Cəbr, ixtiyar, qəza, qədər namaz və orucun xırdalıqları sahəsində olan ixtilaflar isə sonradan meydana çıxmağa başladı. Yəni, bu ixtilaflar rəhbərlikdə və firqələrin təşkil olunmasında meydana çıxan ixtilaflardan sonra yaranmağa başladı.

**12-2. Rəqib məktəblər**

Tarixə nəzər salsaq görərik ki, dinlə dövlət arasında dostluq olduğu kimi rəqabət də mövcud olmuşdur. Hegel kilsə ilə dövlət arasındakı rəqabətlərə işarə etdikdən sonra belə yazır:

*"Kilsə hüququ ilə dövlət hüququ bir-biri ilə qaşı-qarşıya gəldikləri zaman hökumətlərin əksəriyyəti istər katolik olsun, istər protestant kilsələrinin qarşısında təslim oldular və öz hüquqlarına göz yumdular."*[1]

Humanizm, Liberalizm, Sosializm, Modernizm, Sekularizm, Feminizm və sair yeni və qüdrətli rəqiblər son əsrlərdə dinin müqabilində dayanaraq dinin cəmiyyətin liderliyi sahəsində ifa etdiyi rolu öz üzərinə götürmək və siyasi qurluşları dəstəkləmək sahələrində bütün problemlərin öhdəsindən layiqincə gələ biləcəklərini iddia etmişlər. Kilsə bu məktəblərin hər birisi ilə mübarizəyə qalxdı, amma öz rəqiblərinin öhdəsindən layiqincə gələ bilmədi və adları qeyd olunmuş ideoloji məktəblər bir müddətdən sonra qərb dünyasında özünəməxsus yer tuta bildilər. Həqiqətdə isə yeni yaranmış ideoloji mək-

[1] Xristyan məzhəbində şəriətin bərqərar olunması, səh 83

təblər yeni mütəfəkkirlərin özlərinin yaratdığı saxta düşüncələr idilər və bu məktəblər kilsə ağalarının qədim zamanlarda yaratdıqları klassik xristyan ictimai düşüncəsinin üzərində qələbə qazana bildilər.

Bəlkə də, bu düşüncə tərzlərinin heç birisinin Makyavellinin düşüncəsi ilə əlaqəsi olmamasını xatırlatmağa ehtiyac yoxdur. Belə ki, yarandığı zamandan indiyə kimi tarix boyu siyasətçilər tərəfindən istifadə olunan düşüncə tərzini və ideologiyanı dəstəkləmir.

Şübhəsiz ki, yalnız dinlər və məzhəblər tarix boyu istər yerli, istərsədə əcnəbi millətlər və hökumətlər üçün bəzi çətinliklər əmələ gətirmişlər. Bu dinlərin və məzhəblərin səhvləri isə qeyd etdiyimiz ideoloji məktəblərin cəmiyyətdə öz yerini tutmasından sonra məlum olmağa başladı və dünya ictimaiyyəti müəyyən qədər də olsa dinclik qazana bildi. Məsələn; yalnız dinin xürafatlarının qurbanına çevrilmiş, ölkə daxilindəki ictimai qurluşu bu yalnışlığa uyğun olaraq irəli aparan və həyatlarını cəhənnəmə çevirən Hindlilər Sekular quruluşu qəbul etməklə canlarını bütün çətinliklərdən qurtardılar və sonda rahat nəfəs ala bildilər. Bu xürafatla dolu din kağız üzərində kənara qoyuldu, amma onun təzahürləri, məsələn müxtəlif bəhanələrlə müsəlmanların qətliam edilməsi, Baberi məscidinin dağıdılması və digər hadisələr hələ də mövcuddur.

Yeni ideoloji məktəblərin qəbul edilməsi ilə azlıqların və əcnəbilərin də vəziyyəti yaxşılaşmağa doğru irəliləməyə başladı. Çünki, dünyadakı bütün dinlərdə inhisarçılığın mövcud olması və şərin nisbi anlam olması məsələsini qəbul etsək görərik ki, hər hansı bir cəmiyyətin dinləşməsi həmin cəmiyyət üçün xeyirli və başqa cəmiyyətlər üçün isə ziyanlıdır.[1]

### 12-3. Dinin siyasətdən ayrı olması

Dünyanın siyasi quruluşları bir-birinin ardınca dinin siyasətdən ayrı olması məsələsini elan etməyə başladılar. Bu məsələ ilk dəfə

[1] Həkim Əbul Əla Məərri belə deyir: "Dinlər bizim aramızda düşmənçilikər yaratmışdır və bizə düşmənçiliklərin müxtəlif növlərini öyrətmişdir.

1791-ci ilin dekabr ayının 15-də Amerika Birləşmiş Ştatlarının Konstitusiyasına əlavə edildi. Fransa Məclisi 1905-ci ildə 1801-ci ildə papa ilə Napaleon arasında bağlanılmış ən güclü Konkordu ləğv edərək dini dövlətdən ayırdılar. 1929-cu ildə imzalanmış və Roma katolik məzhəbini İtaliyanın rəsmi dini edən və məktəblərdə dini elmlərin tədris olunmasını vacib bilən Konkord 1984-cü ildə bağlanmış yeni Konkordla ləğv edildi. Beləliklə də, İtaliyanın rəsmi dininin katoliklik olması və İtaliya məktəblərində dini elmlərin tədris olunması məsələsi başa çatdı.

Türkiyə dövləti 1937-ci ildə Konstitusiyada apardığı dəyişikliklərə əsasən dinin siyasətdən ayrı olmasını elan etdi.

Əli Əbdürrəzzaq 1925-ci ildə "Əl İslam və Usulul Hikəm" kitabını yazdı və iddia edərək bildirdi ki, İslamda siyasi quruluş adlı məfhum mövcud deyildir. Misir hökuməti onun bu kitabına reaksiya olaraq Əli Əbdürrəzzaqı həbs etdi və cəzalandırdı. Qeyd etmək lazımdır ki, Misir hökuməti də bir neçə on illiklərdən sonra tamamilə sekularlaşdı və Əli Əbdürrəzzaqa müsbət fikirlərlə yanaşmağa başladı.

İran Məşrutəsi zamanı mövcud olan Konstitusiyanı tamamlayan məsələ dinlə siyasət arasında vəhdət yaratmaqdan ibarət olmuşdur. Pəhləvi rejimi isə Konstitusiyanın bu bölümünü nəzərdə saxlamayaraq qeyri-rəsmi şəkildə sekular dövlətə çevrildi.

Yer üzərində elə ölkələr və quruluşlar vardır ki dinin siyasətdən ayrı olmasını heç bir zaman qəbul etməmişlər. Buna nümunə olaraq Səudiyyə Ərəbistanındakı və Vatikandakı dövlət quruluşlarını misal çəkmək olar.

### 12-4. Əxlaqla siyasət arasındakı vəhdət

Sekularizmdə mövcud olan mənəvi nöqsanlar əxlaqla əvəz olunur. Yalnız din əxlaq dünyasıdır və bütün cəmiyyətlər onun xeyirli cəhətlərindən yararlanırlar. "Özünə məsləhət bilmədiyini özgəsinə də məsləhət bilmə" kimi qızıl qanun əxlaqdan sərçeşmə almışdır və istər düzgün, istərsə də, yalnış olan bütün dinlər bu əxlaqi hökmü imzalayaraq təsdiq etmişlər.

Dünya xalqlarının sekularizmi çox isti qarşılamaları xristyan dininin başçılarını səylərini gücləndirməyə sövq etdi və onlar dinin qalan hissəsini həqiqətlə uzlaşdırmağa və tətbiq etməyə çalışdılar. Onlar bu sahədə İncildən o qədər də əlaqəli olmayan cümlələrdən yararlanmağa çalışdılar. Məsələn: "Sezarın malını sezara və Tanrının malını Tanrıya verin."[1]

Digər tərəfdən, onlar insanları düzgün yola hidayət etməklə dinin məşəlini həmişə yanar vəziyyətdə əllərində saxlaya bilmişlər və dini əxlaqı güclü formada insanlar arasında yaya bilmişlər. Buna nümunə olaraq hələ də Avropa ölkələri parlamentlərində və məhkəmələrdə müqəddəs kitaba and içmə inamını misal gətirmək olar. Dinin dövlətdən istifadə etməsi və dövlətin də öz növbəsində dindən suiistifadə etməsi tarix boyu həmişə mövcud olmuşdur və hələ də mövcuddur.

### 12-5. Qüdrət və dəyər

Bəzi dinlər və məzhəblər güc-qüdrətə görə və bəziləri malik olduqları dəyərlərə görə həyatlarını davam etdirə bildilər. Konstantinopolun xristyanlığı qəbul etməsindən və Roma imperatorluğunun xristyanlığı rəsmi din kimi təsdiq etməsindən sonra bu din qüdrət məsələsinə daha ciddi yanaşmağa başladı. Roma Sezarları və Papalar təxminən 15 əsr tam qüdrətlə hakimiyyətdə dayandılar və vətəndaşlar da öz növbəsində bunu tam şəkildə qəbul edirdilər. Qüdrətin bəzi fəsadlara yol açması məsələsini nəzərdə saxlasaq görərik ki, Papa hakimiyyəti də bəzi fəsadların meydana çıxmasına səbəb oldu və insanlar itirdikləri mənəvi dəyərləri yenidən əldə etmək məqsədilə silahlı qiyama əl atdılar və çevriliş etməyə çalışdılar. Silahlılar qələbə qazandıqdan sonra isə iki dəstəyə bölündülər: Bəziləri yerli hökümdarların və xanların köməkliyi ilə yeni hökumət yaratdılar və sonda qiyam etdikləri problemlərə özləri də düçar oldular. Bəziləri isə həmin hö-

---

[1] Bu barədə kitabın xristyanlıq bölümündə "Tanrı və Sezar" başlığı altında olan hissədə söz açmışdıq.

kumətin kölgəsi altında həyatlarını davam etdirdilər və hökumətə sahib olmamalarına görə beş əsr öncə dəm vurduqları mənəvi dəyərləri dirçəldə bildilər. Amişlər (Amish) və Mennonilər (Mennonites) kimi sülhçü (Pacifist) firqələri buna nümunə kimi misal göstərmək olar.

İslam dünyasında Əhli-Sünnənin Papalar kimi əzəmətli xəlifələrə malik olmaları səbəbindən qüdrətə daha meyilli olması və xəlifələrin törətdikləri fəsadları ört-basdır etməyə çalışmaları da gözə çarpır. Xilafətin 1924-cü ildə Atatürk tərəfindən süquta uğramasından sonra bu məsələ də öz-özlüyündə zəifləmişdir. Şiyələr məsum İmamlara malik olmaları səbəbindən Həzrət Məsihin (ə) müqəddəsliyinə dəyər verirdilər və yalnız məsum rəhbəri qəbul edirdilər. Amma bir məsələni də qeyd etmək lazımdır ki, 16-cı əsrin əvvəllərində Səfəvilər dövlətinin yaradılması əlaqəni azaltmışdır.

### 12-6. Hökumət və intizar

Bütün dinlərin davamçılarının ya öz hökumətləri var, ya da hökumət qurmaq arzusu ilə günlərini sayırlar. Xristyanlığın 4-cü əsrdən xüsusi dövləti olmuşdur və onlar özlərinə bununla təskinlik verirdilər. Amma, yəhudilk eradan əvvəl 587-ci ildə qüdrətli səltənətlərinin məhv edilməsindən sonra Davud, Süleyman, Maşiyah kimi padşahların yenidən gələcəklərini gözləmişlər. Yəni, peyğəmbər Allah tərəfindən onu müqəddəs yağla məsh etmiş olsun, hamı ona itaət etsin və o da öz növbəsində yəhudilərin qarşılarına qoyduqları məqsədləri və amalları həyata keçirə bilsin. 1948-ci ildə İsrail hökumətinin təsis edilməsi də bütün yəhudilərin fikri deyildi və bu intizarın qüvvədən düşməsi mənasını daşımırdı. Elə bu səbəbdən də, yəhudilər öz intizar əməllərini hələ də həyata keçirirlər.

İslam dünyasında da Əhli-sünnənin dövləti olmuşdur, amma şiyələr Həzrət Mehdinin (əc) mübarək intizarındadırlar və bunun üçün günləri sayırdılar. Səfəvilər dövlətinin bərqərar olunması və İslam Respublikasının yaradılması bu etiqada olan inamın azalması mənasını daşımır, əksinə hər iki halda intizar məsələsi davam etmişdir.

Cəfəri şiyələr dini etiqad nöqteyi-nəzərində pak İmamlardan (ə) birinin qiyam etməsinin intizarında idilər və sonda bu intizar məsələsi On İkinci İmam Həzrət Mehdinin (əc) mübarək vücuduna aid oldu. O Həzrətin qeybdə olduğu dövrdə idarəetmə işlərinin bəzən şiyələrin üzərinə düşməsinə və şiyə alimlərinin hakimlik işlərində və digər sahələrdəki vəzifələri bəzən mümkün, bəzən də vacib bilməmələrinə baxmayaraq dini hökumətin yaradılmasının dəyərli intizar düşüncəsi ilə üst-üstə düşməməsi bildirilmişdir. İntizar düşüncəsi o qədər güclü idi ki, xümsün toplanılmasının və sərf olunmasının idarəçiliyi böyük qeybə çəkilmə zamanı kəskin problemlərlə üzləşdi. Bəzi din alimləri xümslərin toplanılaraq əmanətdar insanlara tapşırılmasını və həmin şəxslərin də İmam Zamanın (əc) qiyamından sonra toplanılmış xümsləri ona çatdırması təklifini irəli sürdülər. Başqa çıxış yolları da təklif olundu və xüms məsələsinin münasib çərçivəyə və qanun-qaydaya salınması sonrakı nəsillərdə yaşamış böyük dini alimlərin göstərdiyi səylər nəticəsində ərsəyə gəldi.

Sonrakı dövrlərdə Səfəvilər kimi şiyə dövlətləri təşkil olundu və şiyə aləminin böyük alimləri yeni yaradılmış dövlətlərin varlığını təsdiq etdilər. O dövrdə din və siyasət arasında mövcud olan birlik həmin hökumətlərin İran və İraqda yerləşən müqəddəs məkanların, məscidlərin və mədrəsələrin inşa edilməsinin vacibliyini meydana çıxarırdı. Eləcə də, o dövrün padşahları şahlıq və hökümdarlıq etmək üçün böyük fəqihlərdən və dini alimlərdən icazə almaq məcburiyyətində idilər. Qazilik və məhkəmə sahələri də dini alimlərin ixtiyarında idi.

Müxtəlif dini alimlərin intizar məsələsi barəsində maraqlı fikirləri və nəzəriyyələri vardır. İndi siz oxucuların diqqətinə İmam Xomeyninin sürgündə olduğu illlərdə İmam Zamanın (əc) intizarı və Vilayəti-Fəqih məsələsi barəsində vurğuladığı fikirləri çatdıracağıq:

*"İmam Zamanın (əc) kiçik qeybə çəkilmə hadisəsindən min ildən çox vaxt keçib. Yüz min il keçsə belə lazımi şərait yaranmasa O Həzrət gəlməyə də bilər. Onda belə bir sual meydana çıxır ki, bu müddət ərzində İslam dininin əhkamları yerdə qalmalıdır və icra olunmamalıdır, hər kim nə istəsə etməlidir?! İslam Peyğəmbərinin bəyan edil-*

*məsi, təbliği, yayılması və icrası yolunda iyirmi üç il əziyyətlərə qatlaşdığı dinin qanunlar yalnız qısa müddət üçün nəzərdə tutulmuşdur? Məgər Allah dini əhkamlarının icrasını iki yüz il həddində məhdudlaşdırmışdır və kiçik qeybə çəkilmədən sonraİslam hər şeyini itirmişdir? Belə məsələyə inanmaq və yaxud dilə gətirmək islam dininin qüvvədən düşməsinə inanmaqdan daha pisdir!"*[1]

### 12-7. Batini rəhbərlik

Qeyd etdiyimiz kimi, Cəfəri şiyələr dini etiqad nöqteyi-nəzərindən pak İmamlardan (əs) birinin qiyam etməsinin intizarında idilər və sonda bu intizar məsələsi On İkinci İmam Həzrət Mehdi (əc)-in mübarək vücuduna aid oldu.

İndi isə diqqətinizə İmam Zamanın (əc) intizarı dövründə batini rəhbərliyin mövcudluğunu çatdıracağıq. Batini rəhbər on bir məsum İmamlar (ə)[2] kimi gündəlik həyatda mövcud və yaxud İmam Zaman (əc) kimi qeybdə ola bilər. Şiyələr batini rəhbərlərini də İmam adlandırırlar və bu söz (xristyanlıqdakı "Məsih" və Sufilikdəki "şah" sözü kimi) zahiri rəhbərə aid edilir. Elə bu səbəbdən də Qurani-Kərimdə düz yola hidayət edən[3] imamlardan əlavə insanları cəhənnəmə sürükləyən pis imamlara[4] da işarə edirlər.[5] Həzrət İmam Sadiq (ə) buyurur: "Cəmiyyətdə nizam-intizamın bərqərar olunması üçün insanların yaxşı və pis əməlli İmamlara ehtiyacı var."[6] İmam ləqəbi sonralar batini rəhbərlərə də (Məsih və şah kimi) aid olunmağa başladı.

Yəhudilər Həzrət İsanın (ə) Məsih adlandırılmasını və sufiliyinin müxalifləri Sufi başçılarının "Şah" adlandırılmasını lağa qoyurlar, amma Əhli-Sünnə Şiyələrin on iki batini rəhbərlərinin "İmam" ad-

---

[1] İslam hökuməti, səhifə 30-31
[2] Bu məsum İmamlar 250 il ərzində cəmi Həzrət Əmirəlmöminin Əlinin (ə) beş illik, İmam Həsən müctəbanın (ə) altı aylıq və İmam Hüseynin (ə) qiyam etdiyi zamanda aşkar rəhbər də olublar.
[3] Ənbiya surəsi, 73
[4] Tövbə surəsi, 12
[5] Qisəs surəsi, 41
[6] Biharul Ənvar, cild 24, səhifə 157

landırılmasını qəbul edirlər. Çünki, bütün müsəlmanlar dini alimləri "müsəlman" adlandırırlar.

### 12-8. Ruhani

Dünyadan mövcud olan dinlərin əksəriyyətində ruhanilər mövcuddur. Yəni dünyada mövcud olan bütün cəmiyyətlərdə kahin və keşiş ləqəbini öz üzərinə götürən, Tanrı ilə insanlar arasında vasitəçilik missiyasını boynuna götürən təbəqə mövcuddur. Bu dindar təbəqənin imtiyazları olduğu kimi bəzi məhrumiyyətləri də vardır. Dini mırasimlərə başçılıq etmək belə imtiyazlardan biri sayıldığı kimi ailə həyatı qurmaqdan və mülk sahibi olmaqdan boyun qaçırtmaq da məhrumiyyətlərdən biri kimi qəbul edilir.

Ruhani din aləmində fərqlənə bilər. Yəni, din alimi ilahiyyat üzrə mütəxəssisdir. O, həmən dinin elmi sahələrində dərs deyə və dini təlimlər sahəsində kitab və məqalə yaza bilər. Belə bir şəxs ruhanilik vəzifəsinə təyin olunduqadan sonra dini mərasimlərə rəhbərlik etmək icazəsini də almış olur və qeyd etdiyimiz vəzifəyə təyin olunmadıqda belə bir iş üçün hüququ olmur.

Bəzi adi məsələlər belə hər hansı bir dində ruhanilərin üzərinə düşən öhdəliklərdən biri kimi qəbul oluna bilər. Məsələn; yəhudilik və xristyanlıqdakı evlilik məsələsi. Yəhudi ruhanilərinin müxtəlif, eyni zamanda olduqca qeyri-adi öhdəlikləri Tövratın Levilər bölümündə qeyd olunmuşdur. Xristyanlıqda olduqca müqəddəs əməl hesab olunan və böyük əhəmiyyət kəsb edən evlilik məsələsi keşişin və yaxud yepiskopun kəbin kəsmə mərasimini kilsədə icra etdiyi zaman düzgün hesab edilir və qəbul olunur.

Dünya dinlərinin əksəriyyətində ruhani vəzifələrinin əksəriyyəti və ən əsası da ibadət müqəddəs məbədlərdə həyata keçirilir və bu müqəddəs məkanlardan xaricdə baş tutan ibadətlər düzgün hesab edilmir.

Dini elmlərə yiyələnmək və bü sahədə ixtisaslaşmaq heç bir dəstənin və yaxud təbəqənin ixtiyarında deyildir. Hamı, istər kişi, istərsə də qadın və bu dinə etiqadı olmayan insanlar belə həmən dinin müxtəlif elmlərini öyrənə bilərlər. Qadının ruhani olması və hər hansı dini

mərasimləri icar etməsi məsələsi sahəsində bəzi ixtilaflar mövcuddur. Məsələn, xristyan dininin müxtəlif firqələrində qadının keşiş və yaxud yepiskop olması sahəsində fikir ayrılıqları mövcuddur. Protestant firqələrinin əksəriyyəti bunun mümkün olmasını bildirirlər.[1]

İslam dinində ruhani anlamı mövcud deyildir və elə bu səbəbdən də, ruhani məfhumunu dərk etmək müsəlmanlar üçün olduqca çətindir.[2] İslam dininin alim və fəqihləri bizlərə bu dindən möminin birbaşa olaraq Allahla təmasda olmasını öyrətmişlər və xristyanlıqdan, eləcə də, bir çox dinlərdən fərqli olaraq insan tək başına da namaz qıla və ibadət edə bilər. Camaat namazı üçün də ruhaniyə ehtiyac yoxdur və camaat namazı qıldırmaq üçün həmən şəxs üç şərtə əməl etməlidir: Ədalətli olmalıdır, Həmd və Surəni düzgün oxumağı bacarmalıdır və namazın məsələləri ilə tanışlığı olmalıdır.

Amma İslam dinində "Alim" mövcuddur və dini elmlərin daxilinə gedərək araşdırmaq, Qurani-Kəriminin əmrinə uyğun olaraq (Tövbə surəsi, 122) "din barəsində düşünmək" vacib məsələlərdən biridir. Digər tərəfdən, fiqh alimini təqlid etmək hər bir müsəlmanın şəri vəzifəsidir. Bu hər bir ağıllı insanın hər bir sahədə həmin sahənin ekspertinə müraciət etməsinə bənzəyir. Alimə iqtida etmək də daha yaxşı hesab olunur.

Dünyadakı bütün dinlərdə, o cümlədən xristyanlıqda namaz yalnız məbəddə yerinə yetirilməlidir və namazın başqa məkanda həyata keçirilməsi mümkünsüzdür. Amma İslam dinində yer üzünün hər bir məkanı məbəd kimi qəbul olunur.

---

[1] Bir neçə il bundan öncə Anqlikan kilsəsi xanımların keşiş olmasına icazə verdi. Bu fətva həmən kilsənin bir çox ruhanilərinə ağır gəldiyi üçün Anqlikan kilsəsini tərk edərək katolikliyi qəbul etdilər. Anqlikan kilsəsindən gələn ruhanilərin həyat yoldaşları var idi və bu məsələ bəzi arzuolunmaz problemlər yarada bilərdi. Çünki, katolik ruhani subay olmalıdır. Amma, Roma Papası onlara ailəli olmalarına baxmayaraq katolikliyi qəbul etməyə icazə verdi. Bu qərar bir çox katolik ruhanilərinin etirazları ilə üzləşdi. Onlar bildiridilər ki, əgər ruhaninin həyat yoldaşı ola bilərsə bəs bizim niyə xanımımız olmasın?

[2] Maraqlısı budur ki, son əsrdə din alimlərini və dini təhsil alan tələbələri "Ruhani" adlandırırlar. Qeyd etmək lazımdır ki, bu söz artıq adət halını almışdır və heç bir xüsusi məna kəsb etmir.

# 13. Axirəttanıma

Dünyanın sonu barəsində bəhs edən sahə (qayıdış və qiyamət) “Axirəttanıma” (Eschatology) adlandırılır. Qayıdışın qiyamətin özü olması barəsində yəhudilikdə və islamda iki müxtəlif nəzəriyyə mövcuddur. İslam dinindəki bəzi nümunələri sizin diqqətinizə çatdıraq: Şiyələr həm qayıdışa, həm də qiyamətə inanırlar. Halbuki, əhli-sünnət yalnız qiyamətə inanırlar. Elə bu səbəbdən də, şiyələrin “rəcət” qayıdış kimi təfsir etdikləri bəzi Quran ayələrini əhli-sünnət qiyamətə aid edirlər.[1] Xristyanlar rəcətlə qiyamətin bir olmasına inanırlar və onların Tanrı kimi qəbul etdikləri Həzrət İsa Məsihin (ə) ikinci dəfə qayıdacağını və min illik hökumət yaradacağına inandırlarını vurğulayırlar. O Həzrət insanların sonuncu mühakiməsi üçün qiyamət yaradacaq və onları cənnətə və yaxud cəhənnəmə göndərəcəkdir. Yəhudilər ümumiyyətlə yalnız bəzi insanların yenidən diriləcəyinə inanırlar və rəcətlə qiyamət arasındakı bağlantı barəsində elə də yaddaqalan nəzərlər söyləmirlər.

### 13-1. Dünyanın sonu barəsindəki dəhşətli xəbərlər

Dünyanın sonunun çatması bəşəriyyətin diqqətini özünə cəlb edən ən mühim məsələlərdən biri olmuşdur və dünyanın sona çatması barəsində verilən məlumatlarda olduqca dəhşətli və narahat edici xəbərlər mövcud olmuşdur. Yəhudilikdə bu fitnələr o qədər dəhşətli dərəcədə qeyd olunmuşdur ki, keçmiş zamanlarda yəhudi böyüklərinin əksəriyyəti dünyanın sonunun yaranması üçün lazım bilinən hazırlıqların qorxusundan Məsihanın onların zamanında zühur etməməsinə dua edirdilər. Qeyd etmək lazımdır ki, xristyanlıqda dünyanın sonu çatanda şeytan yenidən azadlığa qovuşur və dünyanın hər yerində fitnə-fəsad törədir, zalım insanları sayı çoxalır və dünyanın hər yerin-

[1] Məsələn Nəm surəsinin 83-cü ayəsində hər bir ümmətdən bir dəstənin həşr olunacağına və ayağa qaldırılacağına işarə edilmişdir. Halbuki, Kəhf surəsinin 47-ci ayəsində bütün insanların istisnasız olaraq dirildiləcəyinə işarə edilmişdir.

də qanlı müharibələr başlayır. Dünyanın sonu barəsində verilən dəhşətli və qorxulu xəbərlər İncillərdə bu formada qeyd olunmuşdur:

*“İsa məbəddən çıxıb gedirdi. Lakin şagirdləri ona yaxınlaşıb məbədin binalarını gəstərmək istədilər. İsa da cavab verib onlara dedi: “Bütün bu şeyləri görürsünüzmü? Doğrusun sizə deyirəm: Buranın daşı üstündə daş qalmayacaq, hər şey məhv olacaqdır.” İsa Zeytun dağında oturarkən, şagirdləri təklikdə Onun yanına gəlib dedilər: “Bizə söylə görək bu şeylər nə zaman olacaq? Sənin gəlişinin və dünyanın sonunun əlaməti necə olacaq?”İsa cavab verib onlara dedi: “Diqqətli olun ki, kimsə sizi aldatmasın. Çünki, bir çoxları: “Məsih mənəm”-deyə mənim adımla gələcək və çox adamları aldadacaqlar. Siz müharibə barədə və hərbi şayiələr eşidəcəksiniz. Baxın, dəhşətə gəlməyin; çünki, bunların həyata keçməsi qaçılmazdır. Ancaq bu hələ son deyil .Çünki, millət millətə, padşahlıq padşahlığa qarşı qalxacaq; bəzi yerlərdə qıtlıqlar və zəlzələlər olacaqdır. Bütün bunlar isə yalnız ağrıların başlanğıcıdır. O zaman sizə əziyyət verib öldürəcəklər və mənim adıma görə bütün millətlər sizə nifrət edəcəklər. O zaman bir çoxları büdrəyib bir-birini ələ verəcək və bir-birinə nifrət edəcəklər. Bir çox yalançı peyğəmbərlər qalxıb çoxlarını yoldan çıxaracaqlar. Bu fəsad çoxaldığından bir çoxlarının sevgisi soyuyacaqdır. Fəqət sona qədər dözən qurtulacaqdır. Padşahlıq haqqında olan bu müjdə millətlərin hamısına şəhadət olaraq bütün dünyada təbliğ olunacaqdır və son zaman gələcəkdir. Beləliklə, Danial peyğəmbərin bəhs etdiyi viranəlik gətirən iyrənc şeyin müqəddəs yerdə durduğunu gördüyünüz zaman. Yəhudeyada olanlar dağlara qaçsınlar. Damda olan evindən əşya götürməyə enməsin. Və tarlada olan da əbasını götürmək üçün geri dönməsin. Fəqət o günlərdə boylu və əmzikli olanların vay halına! Dua edin ki, qaçmanız qışda və ya bir şənbə günündə olmasın. Çünki, o zaman elə böyük məşəqqət olacaqdır ki, beləsi dünyanın başlanğıcından indiyədək olmamışdır və heç olmayacaqdır. Əgər o günlər qısalmasaydı heç bir insan xilas olmazdı. Fəqət seçilmiş olanlar naminə o günlər qısalacaqdır. Əgər o zaman kimsə sizə: “Budur, Məsih burdadır, yaxud ordadır deyərsə inanmayın. Çünki, yalançı Məsihlər və yalançı peyğəmbərlər qalxıb böyük əlamətlər və*

*xariqələr göstərəcəklər ki, mümkünsə seçilmiş olanları da aldatsınlar. Budur, mən əvvəlcədən sizə söylədim. Əgər sizə: "Budur, səhradadır"-desələr də çıxmayın, "Budur, daxili otaqlardadır"-desələr də inanmayın. Çünki, şimşək şərqdə çıxıb qərbdə göründüyü kimi insan oğlunun gəlişi də belə olacaqdır. Leş haradasa qaraquşlar da orada toplaşacaqlar. Fəqət o günlərin məşəqqətindən dərhal sonra günəş qaralacaq, ay işığını verməyəcək, ulduzlar göydən düşəcək və göylərin qüdrəti sarsılacaqdır. O zaman İnsan oğlunun əlaməti də göydə görünəcək; o vaxt yer üzünün bütün qəbirləri şivən qaldıracaq və İnsan oğlunun göyün buludları üzərində qüdrətlə və böyük izzətlə gəldiyini görəcəklər. Mələklərini böyük səsə malik boru ilə göndərəcək. Mələklər də göyün bir ucundan o biri ucuna qədər onun seçdiklərini dörd külək istiqamətindən toplayacaqlar. İndi, əncir ağacından ibrət alın. Onun budağı yumşalıb yarpaqlar çıxan zaman yayın yaxın olduğunu anlayırsınız. Eləcə də, siz bütün şeyləri görəndə bilin ki, O yaxındır, qapılardadır. Doğrusunu sizə deyirəm: Bütün bu şeylər baş verincəyə qədər bu nəsil keçməyəcəkdir. Göy və yer keçəcək, fəqət mənim sözlərim keçməyəcəkdir. Lakin, o günü və o saatı nə göylərin mələkləri, nə də oğul bilir. Atadan başqa heç kim bilmir. Nuhun günləri necə idisə insan oğlunun da gəlişi elə olacaqdır. Çünki, Nuhun gəmiyə girdiyi günə qədər tufandan əvvəlki günlərdə insanlar yeyib, içib, evlənib, ərə gedirdilər. Və tufan gəlib hamısını aparıncaya qədər necə bixəbər idilərsə, İnsan oğlunun gəlişi də bu cür olacaqdır. O zaman tarlada iki nəfər olacaq, biri alınacaq, bir isə qalacaqdır. Dəyirman çəkən iki qadın olacaq, biri alınacaq, biri isə qalacaqdır. Beləliklə, oyaq olun, çünki Rəbbinizin hansı gün gələcəyini bilməzsiniz. Fəqət bunu bilin ki, əgər ev sahibi oğrunun hansı saatda gələcəyini bilsəydi, oyaq durub öz evini oğurlatmağa qoymazdı. Bunun üçün siz də hazır olun, çünki İnsan oğlu sizin zənn etmədiyiniz saatda gələcəkdir. Belə isə, vaxtlı-vaxtında onlara çörək vermək üçün ağasının öz ev xalqı üzərinə qoyduğu sadiq və ağıllı qul kimdir? O qul nə bəxtiyardır ki, ağası gəldiyi zaman onu bu cür iş görməkdə tapacaqdır. Doğrusunu sizə deyirəm: "Ağası bütün malikanəsi üzərinə onu qoyacaqdır. Fəqət, əgər o pis qul olaraqürəyində deyərsə ki, "Ağam gec gələ-*

*cək". Və öz yoldaşlarını döyməyə və sərxoşlarla yeyib-içməyə başlarsa o qulun ağası onun gözləmədiyi bir gündə və bilmədiyi bir saatda gələcək. Və onu iki yerə böləcək və ikiüzlülərlə eyni aqibətə uğradacaq. Orada ağlaşma və diş qıcırtısı olacaq."* (Matta 24:1-51)

Müsəlmanlar da "İnsanlar (möminlər) yalnız: "İman gətirdik!" – demələrilə onlardan əl çəkilib imtahan olunmayacaqlarınımı sanırlar?"[1] ayəsini əllərində rəhbər tutaraq həmişə dünyanın axırında meydana çıxacaq fitnələrə görə narahat olmuşlar. Ümumiyyətlə "Fitnə" termini də islam dininin yarandığı vaxtdan müsəlman aləmində və ürfündə mövcud olmuşdur. Islam dünyasının ən qədim hədis kitablarında və toplularında, o cümlədən "Hicri-Qəməri tarixilə 3-cü əsrdə qələmə alınmış "Səhih Buxari" əsərində "Fitnə kitabı" adlı bölüm də mövcuddur. Bu bölümdə dünyanın sonunda meydana çıxacaq çaxnaşmalar barəsində söz açılır. Belə hədislər "Məlahim" adlandırılırlar və bu sözün lüğətdəki mənası müharibələrdir.

### 13-2. Dinlərdə vədəsi verilmiş xilaskarlar

Dünyanın bütün məşhur dinlərində barəsində vədə verilmiş xilaskar mövcuddur və bu şəxsiyyətlərin hər birisinin öz adı və xüsusiyyəti vardır. Sonuncu xilaskarlardan öncə gələcək şəxsiyyətlər də, o cümlədən İlyas (ə), Həzrət İsa (ə), Seyyid Həsəni və sair, sonuncu xilaskarla mübarizə aparacaq adamlar, məsələn Dəccal, Süfyani və başqaları da müxtəlif dinlərdə müxtəlif formalarda qeyd olunmuşdur. Müxtəlif dinlərin davamçılarının öz xilaskarları barəsindəki düşüncələri onların özlərinin bu sahədəki düşüncələrinin güclü və yaxud zəif olmasından asılıdır. Yəhudilər hökumətlərinin Buxtunnasr tərəfindən süquta uğratmasından sonra və xristyanlar Konstantinin köməkliyi ilə ilk dəfə dövlət yaratmasından öncə xilaskarın gəlməsini gözləmişlər. Müsəlmanlar arasında isə dövlət başında olmayan şiyələr dövləti əllərində saxlayan əhli-sünnətdən daha çox sonuncu xilaskarın intizarında olmuşlar.

---

[1] Ənkəbut surəsi, ayə 2

Yəhudilər Həzrət Davudun (ə) nəslindən olacaq xilaskarın gəlməsini gözləyirlər və onun adının dəqiq nə olduğunu bilmirlər. (Bəzən bu adın Davud və bəzən də, Minahim olduğunu bildirirlər) Xristyanlar təxminən 2000 il bundan öncə çarmıxa çəkilmiş və ölülərin arasından qalxaraq dirilmiş, sonra da göylərə getmiş Həzrət Məsihin (ə) yenidən geri qayıtmasının intizarındadırlar. Ümumiyyətlə xristyanlığın əsası xilaskarın gəlməsi etiqadının üzərində qurulmuşdur. Qeyd etdiyimiz kimi xristynalıq ilk olaraq yəhudiliyin irfanı kimi meydana çıxmışdır, amma özünün də özünəməxsus irfanı vardır.

Hinduizmdə bəzi insan və heyvan cildində olan Tanrıların zühur edəcəyi düşüncə tərzi mövcuddur və onu "avatar" adlandırılar. Hindlilər əlində qılınc və ağ at üzərində olacaq Vişnunun onuncu cilvəsinin, yəni "Kalki"-nin intizarındadırlar. Buddistlər isə buddanın Maitreya[1] cildində zühr edəcəyini gözləyirlər.

**13-3. Şəhid və xilaskar**

Keçmiş dövrlərdə yaşamış şəhidlər və gələcəkdə gəlməsi gözlənilən xilaskarlar hər bir dinin sabitliyi və həyatını davam etdirməsi üçün olduqca böyük əhəmiyyət daşıyır. Şəhidlər heç vaxt ölmürlər və bəzi dinlərin şəhidlərin cismən də diri olmasını iddia edə bilərlər.

Xristyanlığın şəhidi və xilaskarı da Məsihdir.[2] İncillərdə qeyd olunduğu kimi o öldürüldükdən sonra qəbrindən qalxaraq qırx gün ərzində öz silahdaşları ilə görüşlər keçirmişdir və sonra göylərə qalxmışdır. İslam dünyasında şəhid sonuncu xilaskardan fərqlidir. Şiyələrin nəzərində Üçüncü İmam şəhiddir və On ikinci İmam vədə verilmiş xilaskar. O Həzrət Aşura günü olacaq öz qiyamının ilk anlarında ulu babasının məzlumcasına şəhid olmasınıbütün dünya əhlinə elan edəcəkdir. Digər tərəfdən O müqəddəs şəhid rəcət zamanı sevimli öv-

[1] Maitreya Sanskrit dilində "Sevən" mənasını kəsb edir.

[2] Bir məsələyə diqqət yetirmək lazımdır ki, xristyanlar heç vaxt həzrət İsanı (ə) "Şəhid" adlandırmırlar. Əksinə fədakarlıq əqidəsinə əsasən O Həzrəti "Qurban" adlandırılar. Şəhid termini mətnlərdə yalnız müqayisə məqsədilə istifadə edilmişdir. Sözsüz ki, xristyanlıq da hər bir din kimi Həvarilərin zamanından indiyədək saysız-hesabsız şəhidlər vermişdir.

ladına qoşulacaqdır və ondan sonra üzün müddət ərzində hakimiyyət sürəcəkdir.[1]

Yəhudilərin xilaskarı əhli-sünnətdəki Mehdi anlayışı ilə üst-üstə düşür. Hər iki düşüncəyə əsasən xilaskar hələ dünyaya gəlməlidir.[2] Xristyanların xilaskarı isə şiyələrin Həzrət Mehdi (əc) barəsindəki düşüncələri ilə eynilik təşkil edir. Bu iki firqənin nəzərincə xilaskar artıq çoxdan dünyaya gəlmişdir və dünyanın sonunda yenidən zühur etmək üçün qeybə çəkilmişdir. Başqa dinlərdə və məzhəblərdə qeyd etdiyimiz iki düşüncə tərzlərinə uyğun nəzərlər mövcuddur. Qurani Kərimdə mövcud olan axirəttanıma bəhslərində insanların yenidən dirilməsindən əlavə hesab-kitab, cənnət və cəhənnmə məsələləri də dünyanın sonunda baş verəcək hadisələr hesab olunurlar. Ənbiya surəsinin 95-96-cı ayələrində və Nəml surəsinin 82-85-ci ayələrində rəcət, Yəcuc və Məcucun azadlığa çıxması, "Dəbbətul Ərz" məsələlərinə işarə olunmuşdur. Ənbiya surəsinin 105-ci ayəsinə əsasən Allah-Taala Zəburda saleh insanları yerin varislərinə çevrəcəyi qeyd olunmuşdur. Bu sözlər 37:29cu Məzamirdə mövcuddur.[3]

### 13-4. Xilas intizarında olmaq

İbrahimi dinlərin ər üçündə dünyanın axrının (rəcətin və qiyamətin) yaxın olması barəsində söz açılmışdır və hər üç din insanları dünyanın sonunun nə vaxt gələcəyi barəsində nəzər verməkdən uzaq olmağa çağırmışlar. Amma qeyd etmək lazımdır ki, dünyanın sonu-

---

[1] Bürhan təfsiri kitabında "Yəvmul Kərrət" barəsindəki hədislərə əsasən İsra surəsinin 6-cı ayəsinin təfsirində qeyd olunmuşdur ki, Həzrət İmam Hüseyn (əs) rəcət (qayıdış) zamanı olduqca mühim rol oynayacaqdır və Həzrət Mehdini (əc) təchiz etmək O Həzrətin üzərinə düşəcəkdir. İmam Cəfər Sadiqə (ə) istinadən nəql olunun bu hədisdə O Həzrət cəza gününün hakimi kimi qeyd olunmuşdur. Bu da öz növbəsində xristyanların Həzrət İsa (ə) barəsindəki dini əqidəsi ilə üst-üstə düşür.

[2] Əhli-sünnətin olduqca az bir hissəsi Məhdəviyyəti inkar edirlər və belə insanlardan biri də İbn Xəldundur. Eləcə də, Əhli-sünnətin az bir hissəsi də şiələrin On ikinici İmamının Məhdəviyyətinə inanırlar və belə şəxslərdən biri də İbn Ərəbidir. (Bu barədə ətraflı məlumat toplamaq üçün Şəhid Mütəhhərinin əsərlər toplusunun 4-cü cildinə, səhifə 944-ə müraciət etmək mümkündür.)

[3] Hal-hazırda mövcud olan Zəbur Həzrət Davudun (ə) Allahla münacatları toplusudur və kitab əhli onu vəhy, eyni zamanda səmavi kitab kimi qəbul edir.

nun nə vaxt gələcəyi barəsində proqnoz vermək bu dinlərin davamçılarının arasında həmişə kəskin şəkildə mövcud olmuşdur və hal-hazırda da mövcuddur. Onlar dinlərin adət-ənənələrində mövcud olan zühur əlamətlərini öz zamanları ilə uzlaşladırmağa çalışırlar. Bu əlamətlərin bəziləri dünyada baş verən təbii hadisələr və bəzilər insanların əxlaqi davranışları ilə əlaqədardır.

Düyanın sonunun nə vaxt olacağı barədə danışan insanlar Əbcəd hərflərindən istifadə etməklə zühurun dəqiq vaxtını müəyyənləşdirməyə çalışırlar və buna inanırlar. Bu üç dinin hər birisində bəzi insanlar bütün döyüş yaraq-yasaqlarını hazırlayaraq tam təchiz olunmuş halda xilaskarın və dünyanın sonunun nə vaxt gələcəyini gözləmişlər. Yəhudilər onun dağın arxasından çıxacağı ümidi ilə üfüqə göz dikmişlər, xristyanlar onun üçün çox böyük bir bina icarəyə götürmüşlər və müsəlmanlar cümə günlərində çöllərə və səhralara gedərək "Əl Əcəl ya Sahibəz Zaman (əc)!" fəryadlarını qaldırmış və O Həzrətin mübarik zühurununun çatmasını böyük sevgi ilə gözləmişlər.

Vədə verilmiş xilaskarın müqəddəs özünəməxsusluqları vardır: Yəhudilərin xilaskarı Həzrət Davudun (ə) nəslindən olması səbəbindən O Həzrətin dünyaya gəldiyi Beyt-Ləhm şəhərində dünyaya göz açacaqdır. Böyük ehtimala əsasən onun adı Davuddur. Xristyanların xilaskarının 12 Həvarisi[1] var və onlar Bəni-İsrailinin 12 nəslinə başçılıq edəcəklər. İslam dinindəki xilaskarın adı və künyəsi (bəzi rəvayətlərə əsasən isə atasının adı) Həzrət Muhəmməd Mustafa (s) ilə eynilik təşkil edir. Silahdaşlarının sayı Bədr döyüşündəki döyüşçülərin sayı qədər, yəni 313 nəfər olacaqdır. O Həzrətin qiyam etdiyi yer Kəbə evinin yanında olacaqdır. Hökumətinin əsas şəhəri Həzrət Əmirəlmöminin Əlinin (ə) hökumətinin əsas şəhəri Kufə şəhəri olacaqdır. Məlumat üçün bildirmək istərdik ki, Kufə şəhərinin sakinləri Həzrət Əmirəlmöminin Əliyə (ə) sədaqətsizlik göstərdikləri kimi O Həzrətin canişinləri İmam Həsən (ə) və İmam Hüseyn (ə) də sədaqətsizlik göstərmişlər.

[1] Həvari sözü Həbəşi dilində Elçi mənasını verir

Qeyd etdiyimiz özünəməxsusluqlar bəzi iddiaçıları çarəsiz qoymuşdur. Yəhudilər Həzrət İsanın (ə) aşağıda qeyd edəcəyimiz səbəblərdən xilaskar Məsiha omasını bildirmişdilər və O Həzrəti xilaskar kimi qəbul etməmişdilər. Həmən səbəblər bunlardır:

1. O Həzrət Davudun (ə) nəslindən deyildir
2. Beyt-Ləhmdə dünyaya gəlməmişdir.
3. Heç kim onu müqəddəs yağla məsh etməmişdir
4. Ondan öncə İlyas göylərdən geri dönməmişdir
5. O, öz düşmənlərinə qalib gəlməmişdir

Bu iradları aradan götürmək məqsədilə bəzi addımlar atılmışdır:

1. Həm Matta, Həm Luka (Bəlkə də bir-birindən xəbərsiz) Həzrət İsa Məsihin (ə) ögey atası Dülgər Yusifin nəslini araşdıraraq Həzrət Davudu (ə) da onun ata-babalarının arasında yerləşdirmişdilər. Bu iki şəcərənamə və nəsil piramidası bir-biri ilə üst-üstə düşmürlər.[1] Digər tərəfdən Həzrət İsaya (ə) istinadən bildirmişlər ki vədə verilmiş xilaskar Məsihanın Həzrət Davudun (ə) nəslindən olması nəzərdə tutulmamışdı və vacib bilinmirdi.[2]

2. Celil əyalətininin Nasirə şəhərindən[3] olan Həzrət İsanın (ə) əslində Yəhudiyyə əyalətinin Beyt-Ləhm şəhərində dünyaya gəldiyini iddia etmişlər.[4]

---

[1] Həzrət Məryəm (ə) da Həzrət Davudun (ə) nəslindən olmamışdır. Çünki, Luka İncilinin birinci fəslinə diqqət yetirsək görərik ki, Həzrət Yəhyanın (ə) anası Elisabat Harun (əs)-ın nəslindən olmuşdur (Luka 1:5) və Həzrət Məryəm (ə) Elisabatın qohumlarından olmuşdur (Luka 1:36). Həzrət Harunun (ə) nəslindən olan şəxsin nə özü, nə də qohumları Həzrət Davudun (ə) nəslindən ola bilməz. Çünki, Həzrət Davud (ə) Həzrət Harunun (ə) nəslindən deyildir.

[2] Matta 22:41-46; Markos 12:35-37; Luka 20:41-44

[3] "Bəziləri dedilər: "O Məsihdir", bəziləri isə dedilər ki, məgər Məsih Celildə dünyaya gəlməli idi? Məgər müqəddəs kitabda onun Davudun nəslindən və Davudun dünyaya gəldiyi Beyt-Ləhmdən olması bildirilməmişdir?! Beləliklə onun barəsində insanlar arasında fikir ayrılıqları meydana çıxdı" (Yühənna 7:41-43)

[4] Matta və Luka İncillərində Həzrət İsa Məsih (əs)-ın dünyaya gəlməsi hekayətlərinə müraciət edə bilərsiz. Yühənna İncilində (7:41-43)-də oxuyuruq: "Bəziləri dedilər: "O Məsihdir", bəziləri isə dedilər ki, məgər Məsih Celildə dünyaya gəlməli idi? Məgər müqəddəs kitabda onun Davudun nəslindən və Davudun dünyaya gəldiyi Beyt-Ləhmdən olması bildirilməmişdir?!" "Beləliklə onun barəsində insanlar arasında fikir ayrılıqları meydana çıxdı"

3. Onun məsh olunması barəsində isə onun Allah tərəfindən məsh olunması bildirilmişdir.[1]

4. Həzrət İsanın (ə) özünə istinadən bildirmişdilər ki Həzrət Yəhya (ə) Məsihdən öncə gəlməli olan İlyasdır.[2]

5. Düşmənlərin üzərində qələbə çalmağı isə hər bir insan üçün iddia etmək olar və elə bu səbəbdən də Həzrət İsaya (ə) istinadən bu sözlər nəql olunmuşdur: "Özünüzü ələ alın, çünki mən dünyaya qalib gəlmişəm!"[3] Eləcə də, xristyanlar daim O Həzrətin ölümə və şeytanlara qalib gəlməsindən söz açmışlar.

Həzrət İsanın (ə) Məsiha kimi qəbul olunması üçün Əhdi-Cədidin bəzi yerlərində buna bənzər apokalipsislərə rast gəlmək mümkündür. Bu şübhələrin aradan götürülməsindən sonra xristyanlıq daha da möhkəmləndi və milyonlarla insan bu dini qəbul etməklə pak və dindar həyatı seçdilər, özlərini Həzrət İsa Məsihin (ə) sevgisi odunda yandırdılar.

### 13-5. Dinlərdə mövcud olan yalançı xilaskarlar

Xilaskarın zühur etməsi istəyi yəhudilikdə çoxlu sayda Məsihanın, xristyanlıqda Məsihin və İslamda Mehdinin meydana çıxmasına səbəb oldu. Bunlardan əlavə hər üç dində saxta peyğəmbərlər və Tanrılar meydana çıxmışlar. İstər saxta xilaskar olsun və istərsə də saxta peyğəmbər onların hamısı qiyam etməyə və çaxnaşma yaratmağa səy göstərmişlər. Yəhudilərin nəzərincə Həzrət İsa Məsih (əs) yalançı Məsiha olmuşdur və yəhudilik tarixində belə insanlar həddən ziyadədir və onlar eləcə də, O Həzrətin edamı üçün münasib işlər gördüklərini də gizlətmirlər. Amma qeyd etmək lazımdır ki, O Həzrət yəhudilərin ondan gözlədiklərini həyata keçirə bilmədi və yəhudilərin üzləşdikləri müsibətləri, əzab-əziyyətləri və müsibətləri azalda bilmədi.

---

[1] Həvarilərin işləri 4:27 və 10:38

[2] Matta 11:14 və 17:10-13 və Markos 9:11-13. Qeyd etmək lazımdır ki, Həzrət Yəhya (ə) özünü yəhudi rəhbərlərinə təqdim edərkən onun İlyas olmadığını bildirmişdir (Yühənna 1:21)

[3] Yühənna 16:33

Xilaskarın zühur vaxtı və əlamətləri barəsində araşdırma aparan və fikirlər irəli sürən insanların bəziləri özünəməxsus psixoloji xəstəliyə tutulurlar. Onlar sonda özlərini ya xilaskar, ya da xilaskardan öncə gəlməli olan şəxs kimi qələmə verməyə çalışırlar. Amma onların bu iddiaları çox zaman mənsəb və var-dövlət qazanmaq məqsədi daşıyır.

Seyyid Əli Muhəmməd Şirazi Hicri-Qəməri tarixi ilə 1260–cı ildə özünü Babe İmam Zman (əc) (Yəni İmam Zamanın (əc) qapısı) etdi və sonra da İmam Zamanın onun özü olduğunu bildirdi. O, sonda özünü peyğəmbər elan etdi. Tarixçilərin verdiyi məlumatlara əsasən onda psixoloji natarazlıq var idi.

İslam alimləri onu mühakimə etməyə başladılar və onu dəli olmasına görə müəyyən müddətlik əl dəymədilər və edam etmədilər. Sonra o bütün iddialarına yazılı və şifahi formada tövbə etdi. Onun öz xətti ilə yazdığı tövbənaməsi İranın parlament kitabxanasında qorunub saxlanılır.

O, bir müddətdən sonra öz tövbəsini pozdu və yenidən öz batil iddialarını irəli sürməyə başladı. Sonda ikinci dəfə Təbriz şəhərində mühakimə olunduqdan sonra edam olundu.

Babın canişinlərindən biri Hüseyəli Nuri idi. O, özünü Bəhaullah adlandırdı və Babiliyi Bəhailiyə çevirdi. Vəzifə və ad-san düşkünü olan bu insanın heç bir psixoloji problemi yox idi və o özünü ilk olaraq peyğəmbər və sonra Tanrı elan etdi. Ondan sonra oğlu Əbdülbəha ləqəbi ilə tanınan Abbas Əfəndi hiyləgərliklə bəhailiyi genişləndirməyə və insanlar arasında yaymağa başladı. Onun canişini qızının nəvəsi Şövqi əfəndi idi. Onun övladı yox idi və ölümündən sonra, yəni 1975-ci ildə Beytül Ədl Əzəm Bəhailərin başçılığını ələ aldı. Bu üç şəxs Fələstinin Əkka şəhərində İngilislərin işğalı altında olan ərazilərdə yaşayırdılar və bu istismarçı dövlət tərəfindən dəstəklənirdilər. İsrail ölkəsi Şövqi Əfəndinin zamanında yarandı və Beytül Ədl Əzəmin, bu firqə başçılarının qəbirləri hələ də qorunur və qorunmaqdadır. (Bəzi iddialara əsasən edam olunmuş Bab da elə orada dəfn olunmuşdur.)

Müxtəlif dinlərdə meydana çıxmış saxta və yalançı xilaskarların sayını Allahdan başqa heç kim bilmir. Belə şəxsləri yəhudilikdə Maşiyah Şeker, xristyanlıqda Yalançı Məsih və İslamda Mutəməhdi adlandırırlar.

### 13-6. Dəccal

Dəccal (Antixrist) hər üç dində, yəni istər yəhudilikdə, istər xristyanlıqda və istərsə də İslamda mövcuddur.[1] Bu söz ərəb dilində "Qızıl suyu" mənasını verir və elə bu səbəbdən də, batili haqq kimi qələmə verən yalançı insanlar Dəccal adlandırılırlar. Dəccal dünyanın sonunda gələcək, insanları azdıracaq hiyləgər və zalım insana qoyulmuş bir ləqəbdir. Yəhudilər onun adının "Armilos" və müsəlmanlar "Said ibni Seyd" olduğunu bildirirlər. Belə deyirlər ki, O müqəddəs Mədinə şəhərində dünyaya gələndə Həzrət Muhəmməd (s) onu görmək üçün evinə getdi və anası ilə söhbət edərkən onun dünyanı fitnə-fəsad meydanına çevirəcək Dəccal olduğunu buyurdu. İkinci xəlifə hətta Said ibni Seydi öldürmək qərarına gəldikdə belə Həzrət Muhəmməd (s) ona bu işi görməyə icazə vermədi. Belə ki, əgər o doğurdan da dünyanın sonunda fitnə-fəsad törədəcək Dəccaldırsa onu öldürə bilməyəcəkdi və əgər Dəccal olmasaydı onu öldürməkdə heç bir xeyir yoxdur.[2]

Dəccal barəsindəki narahatlıq o qədər kəskin olmuşdur ki, İkinci xəlifə Şamı fəth edərkən kitab əhlinin alimlərindən belə Dəccal barəsində soruşmuşdur. Dəccalın adı həmişə dini cəmiyyətlər və şəxsiyyətlərin arasında çəkilmişdir və bəzi kitabların, kinofilmlərin adı da Dəccalın adı ilə bağlıdır. Hər üç İbrahimi dinin davamçılarının bəziləri onun dünyaya gəldiyini və hal-hazırda da sağ olduğunu bildirirlər.

---

[1] "Ay uşaqlar bu sonuncu saatdır və eşitdiyiniz kimi Dəccal gəlir. Hal-hazırda çoxlu dəccallar yaranmışdır və bundan sonuncu saatın çatmasını anlayırıq" (Yühənnanın birinci vəhyi 2:18) Əhdi Cədiddən götürülmüş bu mətn yəhudilikdə ən qədim zamanlardan belə Dəccala olan etiqadın bariz nümunəsidir. Qeyd etmək lazımdır ki, hər üç dində bu sahədə çoxlu sayda mənbələr mövcuddur və mütəxəssislər qeyd olunan mətnlərə çox müraciət edirlər.

[2] Müsnədül İmam Əhməd ibni Hənbəl, hədis 6063

İslamda eləcə də, (əsasən də şiyəlikdə) Süfyani adlı bir şəxsin adı təkrar olunur. Onun adı "Osman ibni Ənbəsə" olacaqdır. Təxminən bir əsr bundan öncədən indiyədək bir çox insanlar onu Suriyada gördüklərini bildirirlər. İslam dünyasında eləcə də, Süfyani adı altında qiyam edən insanlar da olmuşdur.[1]

Xristyanların nəzərincə "Nişanəli vəhşi"-nin adının rəqəmləri 666-dır (Yühənnanın apokalipsisi 13:18) və bu ədədləri bir çox insanlar özlərinə aid etmişlər.

Lap qədim zamanlardan belə xristyan cəmiyyətinin bəzi dini və siyasi şəxsiyyətləri öz düşmənləri tərəfindən "Dəccal" (Antixrist) kimi tanıdılıblar. Xüsusən də, Avropada Papalarla şahlar arasında fikir ayrılıqları və düşmənçiliklər meydana çıxanda onlar bir-birilərini bu adla ittihamlandırırdılar. Lüter katolik kilsəsinə qarşı qiyam edəndə və Pap tərəfində kafir elan ediləndə Papanın idarəsi onu "Dəccal" adlandırdı. Fransa inqilabı, Sosializm və kommunizm də "Dəccal" hərəkətləri kimi qələmə verildi.

İndi sizin diqqətinizə həmişə ölümün pəncəsindən qaçan zülmün simvolu və hiyləgər "Dəccal" "Antixrist" və yaxud "666 nişanəli vəhşi" adına namizədlərdən bir neçəsinin adını açıqlayacağıq:

- Napoleon və Hitler, dünyada müharibələr yaratdıqlarına görə
- Mixail Qorbaçov, alnında olan qan rəngli xala görə
- Amerika Birləşmiş Ştatlarının sabiq Dövlət Katibi Henri Kesincer, Hiyləgər sionist olduğuna görə
- Amerika Birləşmiş Ştatlarının sabiq Prezidenti və "Ulduz müharibələri" planının banisi Ronald Reyqan. Onun adları da ümumilikdə 666 rəqəmini bildirirdi (Ronald Wilson Reagan). Qeyd etmək lazımdır ki, o bir sui-qəsd zamanı da ağır yaralanmasına baxmayaraq ölməmişdir.

---

[1] Onlardan biri "Əbu Muhəmməd ibn Abdullah ibn Yəzid ibn Müaviyə" idi və Hicri-Qəməri tarixi ilə 132-ci ildə (yəni Abbasilərin xilafəti Əli Mərvanın əlindən almaq üçün Məhdəviyyətə diqqət yetirdikləri vaxtda) meydana çıxdı. Başqa birisi isə "Əli ibn Abdullah ibn Xalid ibn Yəzid ibn Müaviyə" idi və Hicri-Qəməri tarixi ilə 195-ci ildə qiyam etmək istəmişdir. (Təbərinin tarix kitabı)

- Səddam Hüseyn, Küveyti işğal edərkən dünya ictimaiyyətinin istəklərinə qarşı çıxmasına görə
- Papa İkinci Jan Pol. Ən əsas da, ona edilən sui-qəsd zamanı ağır yaralanmasına baxmayaraq ölümün pəncəsindən qaçmasına görə.

Eləcə də, bəşəriyyətin əldə etdiyi bir çox nailiyyətlər, o cümlədən atomun nüvəsinin parçalanması, kosmosa səfər, sputnik antenalarının, kompyuterin və internet şəbəkəsinin ixtira olunması da dünyəvi dəyişikliklər, eləcə də, Dəccalın (Antixristin) zühurunun nişanələri kimi qəbul olunmuşdur.

### 13-7. Armageddon (Hərməciddun)

Fələstindəki Armageddon (Hərməciddun) adlı bir ərazi dünyanın sonunda olacaq müharibənin meydanı kimi qeyd olunmuşdur (Apokalipsis 16:16). Armageddon xristyanlar üçün olduqca böyük əhəmiyyət kəsb etmişdir və 2000-ci ilin tamamında yeni minilliyə daxil olmaq münasibətilə minlərlə turist bu məkanı ziyarət etmək üçün gəlmişdir.

Bəzi Evangelistlər (Evangelicals) İsrail dövlətinin təsis olunmasını Həzrət İsa Məsihin (ə) zühur edəcəyinin nişanəsi kimi qəbul edirlər və O Həzrətin zühur etməsi üçün sionistlərə daha böyük azadlığın verilməsinin tərəfdarıdırlar. Amma belə düşüncə tərzi ilə mübarizə aparan firqələr də mövcuddur. Belə firqələrə nümunə olaraq 1986-cı ildə təsis olunmuş "Yaxın Şərqi başa düşmək üçün İncil tərəfdarlarl" (Evangelicals for Middle East Understanding-EMEU) firqəsini misal çəkmək olar. Bu firqə davamçılarından biri sayılan Donald Vaqner belə sionist düşüncəsinin səhv olmasını sübut etmək üçün kitab yazmışdır.[1]

### 13-8. Məad, savab və cəza

Axirəttanımanın digər sahələrindən biri də savab və cəza məsələlərinə aiddir. Demək olar ki bütün dinlər bu məsələyə inanırlar və fəlsəfə dinlə qarışmadan bu məsələni dərk edə bilməzlər.

---

[1] Donald E. Wagner, Anxious for Armageddon, Herald Press, 1995

İnsanların törətdikləri əməllərin savabı və cəzası barəsində dinlərdə üç müxtəlif düşüncə tərzi mövcuddur:

1. Dünya nemətlərini əldə etmək yolu ilə savab və dünya nemətlərini özündən uzaqlaşdırmaqla günah qazanmaq. Belə düşüncə tərzi Tövratda təsniyə bölümünün 28-ci babında müqəddəs kitabın ən uzun fəslində, eləcə də Levilər bölümünün 26-cı babında qeyd olunmuşdur. Bu əqidə cüzi şəkildə də olsa İbrahimi dinlərdə gözə çarpır və məad məsələsi ilə heç bir əlaqəsi yoxdur.[1]

2. Ölümdən və ölülərin başqa dünyada yenidən dirilməsindən sonra savab və günahın qarşılığının alınması. Belə dini yanaşma zərdüştlükdə, yəhudilikdə, xristyanlıqda və İslamda mövcuddur. Vədə verilmiş xilaskarın zühuru ilə rəcət və qiyamət arasındakı vaxt, eləcə də, bu iki hadisə[2] arasındakı digər məsələlər adları çəkilən hər dörd dində mübahisəli məsələlərdən biri olaraq qalmaqdadır. Dinlə əlaqəsi olmayan bir qrup tədqiqatçıların nəzərincə ölülərin yenidən dirilməsi və qiyamət xilaskarın intizarından yaranan məsələlərdəndir.

3. Günahın və savabın qarşılığının ölümdən sonra elə bu dünyada alınması. Bu yanaşma tərzi təsadüf nəticəsində yuxarıda qeyd etdiyimiz iki yanaşmanın tərkibindən əmələ gəlmişdir və Tənasux-Yeni şəklə salma (Reincarnation) adlandırılır. Daha öncə diqqətinizə çatdırdığımız kimi Hindularda belə bir əqidə mövcuddur və onu "Samsara" adlandırırlar. Bunun başqa formaları Buddizmdə, Caynizmdə, Sikhizmdə, bəzi yəhudi, xristyan və islam firqələrində gözə çarpır.

---

[1] Tövratdan əlavə İncil də dünyada baş verən bəlaların və fəlakətlərin insanların günahları üzündən meydana çıxmasını bildirir (Luka 13:1-9). Qurani Kərimdə də bu ayəni oxuyuruq:

وَمَا أَصَابَكُم مِّن مُّصِيبَةٍ فَبِمَا كَسَبَتْ أَيْدِيكُمْ وَيَعْفُو عَن كَثِيرٍ

"Sizə üz verən hər bir müsibət öz əllərinizlə qazandığınız günahların (etdiyiniz əməllərin) ucbatındandır! (Bütün bunlara baxmayaraq) Allah (günahlarınızın) çoxunu əfv edər." (Şura surəsi, ayə 30) Qeyd etmək lazımdır ki, Qurani Kərim bəlaların imtahan xarakteri daşımasını da vurğulayır və İslam mənbələri onların arasındakı fərqləri dəqiqliklə araşdırır.

[2] Bu hadisələrin hər ikisinin cismani və ruhi olması və onların bütün insanlara, yaxud bəzi insanlara aid olması və bundan başqa bütün heyvanların və canlıların həşri Qurani-Kərimdə qeyd olunmuşdur. (Ənam surəsi, 38 və Təkvir surəsi, ayə 5)

İslamdakı bəzi firqələr arasında Tənasux mərhələləri Kəvr və Dəvr adlandırılır.[1] Bu firqələrin davamçıları məad barəsində buyurulmuş ayələri Tənasux kimi yozurlar.

Bu yanaşmaya əsasən insan öldükdən sonra başqa bir yerdə yenidən dünyaya gəlir. O başqadığı yeni həyatında keçmiş həyatında etdiyi əməllərin cəzasını çəkir və yaxud mükafatını alır. İnsanların xoşbəxt və bədbəxt olmalarının səbəbi də elə bidir. Onun hal-hazırda həyata keçirtdiyi əməllər də onun gələcəyini müəyyənləşdirir və yenidən dünyasını dəyişdikdən sonra onun nəticəsini görür. İnsanlarda mövcud olan əxlaqi pozğunluq da elə bu düşüncə tərzindən qaynaqlanır.

## 14. Radikal və Plüral dinlər

Dinlərin radikallığı və plürallığı arasında olan fərqlər də müxtəlifdir. Məsələn, Əhli-sünnətin İmamlarından olan İmam Əzəm fiqhi məsələlərdə Plüral və İmam Şafei Radikal idi. Şiyə alimləri arasında da belə radikallıq və plürallıq mövcuddur. Bəzi dinlərin davamçıları dinlərinin radikal və bəziləri dinlərinin plüral olması ilə fəxr edirlər.

İslam dini radikal din deyildir və İslam şəriəti plürallığa daha çox meyillidir. Müsəlmanlar İlahi təlimləri əllərində rəhbər tutaraq Allahdan onları unutqanlıqlarına, etdikləri səhvlərə görə bağışlanılmaqlarını və cəzalanmamalarını, onlardan öncəkilərin çiynlərinə qoyduğu ağır yükü onların çiynlərinə qoymamalarını istəyirlər. (Bəqərə surəsi, 286) Həzrət Muhəmməddən (s) nəql olunmuş hədisə istinadən O Həzrətin ümmətindən olan şəxslər üçün 9 şey günaha yazılmayacaqdır: Xəta, unutqanlıq, bilmədiyi işlər, dözə bilmədiyi şeylər, çarəsizlikdən və ehtiyacdan yaranan məsələlər, məcbur olunmuş işlər, bədgümanlıq, yaranışın necəliyi barəsindəki düşüncələrin vəsvəsəsinə düşmək, dildə və əldə görsənməyən qibtəyə görə.[2]

---

[1] Biharul Ənvar, cild 53, səhifə 13
[2] Üsuli Kafi, cild 2, səhifə 463

Bəli, bu azadlıq İslam ümmətinə aiddir. Amma başqa dinlərdə məsələlər belə asanlıqla həll olunmur. Yəhudilik olduqca radikal və çətindir. Xristyanlıqda günahı qərara almaq belə günahdır və təqiyyə (Canının xətərə düşəcəyi təqdirdə dinini və məzhəbini gizlətmək) haramdır. Hind və Çin dinlərində insanlar özlərinə dözülməz işkəncələr verirlər. Belə işkəncələrdən ən asanı insanın daxili təmizliyi üçün inəyin sidiyini içməsi və peyinini yeməsidir.

İslam dinində günahların əksəriyyəti üçün dünyada heç bir cəza nəzərdə tutulmamışdır. Az bir günahlar üçün nəzərdə tutulmuş cəzaları həyata keçirmək üçün isə bütün şərtlər qorunub saxlanılmalıdır və günah sahəsində yaranmış hər hansı bir şübhə cəzanın ləğv olunması ilə nəticələnir.

İslamda məsələlərə daha asan yanaşmanın olmasından əlavə Allah insanlar üçün daha asanını istəyir və insanları çətinliklərə salmaq istəmir (Bəqərə surəsi, 185). Dində insanlar üçün onları taqətdən salacaq heç nə yoxdur (Həcc surəsi, 78). İslam dini praktik və əməli cəhətdən də olduqca asandır. Məsələn, İslamda və Qurani-Kərimdə müqəddəs üçlüyün və Həzrət İsanın (ə) ilahilyi qəbul olunmasa da (Maidə surəsi, ayə 17, 72, 73) xristyanları öz pənahında saxlayır və onların ictimai hüquqlarını qoruyur.

İslam cəmiyyətində hakim olan məsələlərə asan yanaşma düşüncə tərzinə görə münafiq və müsəlman ata və anadan dünyaya gəlmiş uşaq da İslam cəmiyyətinin bir üzvü kimi qəbul olunur. Ona müsəlman adı vermək olar və onun başqa bir müsəlmanla ailə qurması mümkündür, kəsdiyi heyvan halaldır və dünyasını dəyişdikdə onu müsəlman kimi dəfn etmək lazımdır. Yəni, ona meyid qüslü vermək, kəfənləmək, meyid namazı qılmaq və müsəlman adət-ənənəsinə uyğun olaraq dəfn etmək vacibdir.

## 15. Yaxşılıq

Dinlər yaxşılığa və yaxşı əməllər sahibi olmağa dəvət edir. Beynəlxalq səviyyədə fəaliyyət göstərən bəzi qurumlar və təşkilatlar, o cümlədən Beynəlxalq Qızıl Xaç Komitəsi elə bu məqsədlə yaradılmışdır. [1] Xristyanlar bəzən humanist xidmətlərə işarə məqsədilə "Yaxşı Sameri" (Good Samaritan) terminindən istifadə edirlər. Həzrət İsadan (ə) nəql olunmuş rəvayətə əsasən Yaxşı Sameri (təhqir olunmuş Samerilər firqəsinin bir üzvü) yolkəsənlərin səhrada yaraladığı bir insana yardım edərək onu ölümün pəncəsindən xilas edir. (Luka 10:25-37)

## 16. Qidalanma

Qidalanma dinlərdə mövcud olan ən mühim məsələlərdən biridir. İnsanın qidalanmasına böyük yer tutan ət barəsində 3 müxtəlif nəzəriyyə mövcuddur.

1. Bütün ətlərin haram olması: Çünki, ətin əldə olunması üçün heyvanlara zülm edilir. Bu Caynizm davamçılarının hamısının, Hinduizm davamçılarının böyük əksəriyyətinin və Büddizm davamçılarının bir çoxunun nəzəridir.

2. Bütün ətlərin halal olması: Bu xristyanların nəzəridir. Xristyanların nəzərincə insanın ruhi baxımından səadətə və xoşbəxtliyə qovuşması yolunda ət heç bir rol oynamır.

[1] Dinlərin özünəməxsus nişanələri də vardır: İslamın nişanəsi Aypara və xristyanlığın nişanəsi xaçdır. Qeyd etmək lazımdır ki bu nişanələrin arasında böyük fərq vardır. Belə ki islam fiqhində aypara nişanəsi qeyd olunmamışdır, halbuki, xaç xristyanların dini mərasimlərində və digər yerlərdə istifadə olunur. Yəhudilər Davudun qalxanının nişanəsini yəhudiliyin və xüsusən də sionistliyin işarəsi kimi qəbul etmişlər. Bu nişanə müəyyən şəkildə üst-üstə qoyulmuş iki üçbücağın birləşməsində əmələ gələn altı bucaqlı fiqurdur.

3. Bəzi ətləri halal və bəzilərinin haram olması: Bu nəzər müsəlmanların, yəhudilərin, zərdüştlərin, saiibləri və bəzi başqa dinlərin davamçılarının nəzərləridir. Belə yanaşmaya malik olan insanlar ətləri yeyilməli olan heyvanlar barəsində kəskin fikir ayrılıqlarına malikdirlər və bu fikir ayrılıqların hər hansı bir dində mövcud olan firqələr arasında da mövcuddur.

Yəhudilikdə ətin süd məhsulları ilə yeyilməsi də haram bilinir. Elə bu səbəbdən də, İsraildə mövcud olan bəzi dəstələr müştərilərə haram və yaxud süd məhsulları ilə ətin verilməsinə nəzarət etmək üçün restoranlarda xüsusi reydlər keçirirlər. Yəhudilər üçün çörək və bəzi yeməkləri yeyərkən şəriət qanunlarına uyğun olaraq əllərini yumaq vacib bilinir. Bu yəhudilərin dəstəmazıdır ki bəzi başqa əməllər zamanı da alınması vacib bilinir. Yeməkdən sonra da barmaqlarının yarısını yumaq vacib bilinir. İncillərdə Yəhudilərin Həzrət İsa Məsihə (ə) etiraz edərək Həvarilərin yemək yeyərkən əllərini şəriət qanunlarına uyğun olaraq yumalarına etiraz etmələri qeyd olunmuşdur. Həzrət İsa Məsih (ə) belə adətlərin insanların özü tərəfindən yaradılmasını vurğulayaraq buyurur:

*"Qulaq asın və bilin! İnsanın ağzına gedənlər yox onun ağzından çıxanlar onu nəcis edir.... İnsanın ağzına daxil olanlar onun qarnına gedir və sonra çölə çıxarılır, amma ağzından çıxanlar isə onun ürəyindən əmələ gəlir və belə şeylər insanı nəcis edir. Çünki insanların ürəyindən gələn pis fikirlər, qətllər, zinalar, pozğunluqlar, oğurluqlar, yalançı şahidlik və küfrlər insanı nəcis edir və yuyulmamış əllərlə yemək insanı nəcis etmir. (Matta 15:10-20)"*

Halal yemək bəzi digər məsələlərə görə haram ola bilər. Məsələn ölü heyvanın əti müxtəlif dinlərdə haram bilinir.

Hər hansı bir yeməyin müəyyən vaxtda haram olması mümkünlüyü də vardır. Məsələn İslam dinində Məhərrəm ayında zəfəranla hazırlanmış yeməklər haram bilinir. Eləcə də, katoliklər cümə günlərində qırmızı ət yemirlər. Çünki, İncillərdə qeyd olunmuş rəvayətlərə əsasən Həzrət İsa Məsih (ə) cümə günündə çarmıxa çəkilmişdir.

## 17. Şərabın içilməsi

Şərab müasir dinlərin əksəriyyətində, o cümlədən yəhudilkdə və xristyanlıqda halal qəbul edilmişdir. Amma, şərabı həddən ziyadə içəndən sonra əmələ gələn sərxoşluq xoşagəlməz və haram bilinmişdir. Bundan əlavə, müxtəlif dinlərin dini mərasimlərində şərabdan istifadə olunur. Amma bəzi dinlər, o cümlədən Sikhizm, bəzi xristyan firqələri və başqa dinlər şərabın haram bilinməsini qəbul edirlər və bəzi xristyanlar isə "Rəbbin sonuncu şam yeməyi" dini mərasimində şərabın əvəzinə sudan, yaxud üzüm şirəsindən istifadə edirlər. İslam dinində şərabın tam şəkildə haram buyurulması hamıya məlumdur və bu dində çox istifadə olunduqda sərxoşluq verə biləcək hər bir şeyin az bir hissəsi də birmənalı olaraq haram bilinir.

Şərab və spirtli içkilər bəşəriyyəti çənginə almış ən böyük bəlalardan biridir.

## 18. Geyim

"Kişinin" yaxud "qadının"[1], "məbəddə" yaxud "ibadət zamanı" "başını" yaxud "bədənini" "örtməsi" və yaxud "örtməməsi" müxtəlif dinlərin dini əhkamlarında gözə çarpır. Bəzən kişilər Allah qarşısında təvazökarlıq göstərmək və qadınlar həyat yoldaşlarının yanında paklıqlarını və təvazökarlıqlarını nümayiş etdirmək məqsədilə öz saçlarını gizlədirlər.[2]

---

[1] Burada istər pozğun qadınların və istər başqalarının, istər ailə qurmazdan öncə, istərsə də sonra, istər həyat yoldaşından, istərsə də başqalarından.

[2] Saçın, saqqalın, bığın, qaşın və bədəninin qırxılmasının vacib, yaxud haram buyurulması barəsində hər bir dində özünəməxsus əhkamlar vardır. Eləcə də, qadınların və kişilərin saçlarını kəsməsi, rəngləməsi və daraması, dırnaqların kəsilməsi barəsində də bəzi dinlərdə xüsusi dini hökümlər mövcuddur.

Yəhudilikdə ailə qurmuş qadınlar üçün hicab vacib atributlardan sayılırdı və hal-hazırda da bəzi radikal yəhudi xanımları ailə qurduqdan sonra müxtəlif baş örtükləri, şlyapalarla və pariklərlə saçların ərlərindən başqa hamıdan gizlədirlər. Bəziləri isə elə bu məqsədlə saçlarını ümumiyyətlə tam dibdən kəsdirirlər.[1]

Xristyan qadınlar da bir neçə on il bundan öncəyədək saçlarını gizlədirdilər. Həzrət Məryəmin (ə) və digər müqəddəs xanımların bütün portretləri və heykəlləri hicablı şəkildə hazırlanırdı.

Xristyan rahibələr də saçlarını gizlədirdilər və onların baş örtüklərinin rəngi (rahiblərin papaqları kimi) onların rahiblik qurluşunun təzahürü kimi hesab olunurdu.[2] Hindu və zərdüşt xanımlar da hicabdan istifadə edirdilər.

Yəhudilikdə yun və kətanın qarışığından hazırlanmış paltarların geyilməsi haramdır (Təsniyə, 22:11). Radikal yəhudilər həmişə və başqa yəhudilər bəzi dini mərasimlər zamanı başların "Yarmulka" adlanan balaca araxçın qoyurlar.

Sikhlər başlarına nisbətən böyük əmmamə qoymağı vacib bilirlər və bu məsələ bəzi hallarda xüsusi problemlər yaradır. Məsələn motosklet sürmək üçün təhlükəsizlik dəbilqəsinin qoyulması vacib bilinən ölkələrdə onlar bu qanunu qəbul etmirlər. Eləcə də, müsəl-

---

[1] Yəhudilik tarixinin ən əhəmiyyətli hadisələrindən biri 2004-cü ilin bahar fəslində meydana çıxdı. Belə ki, dünyada mövcud olan pariklərin əsasən Hindistandakı Vişnu məbədində gözəlliklərini qurban verərək saçlarını kəsən hindli qadınların saçlarından düzəldilməsi şayiəsi yayıldı. Həmin məbədin xidmətçiləri də öz növbələrində kəsilmiş saçları xüsusi qablara toplayaraq parik istehsal edən fabriklərə satırlar. Belə bir məsələnin təsdiq tapması yəhudi qadınlarının parikdən istifadə ehtimalını sıfıra endirirdi. Çünki, yəhudiliyin ikinci hökmü bütpərəstliyin qadağan olunmasıdır və bu dini hökm qeyd etdiyimiz məsələyə də aid olunur. Yəhudi ruhanilərindən biri məsələnin dügün olub-olmamasını yoxlamaq üçün Hindistana göndərilir. Hadisənin düzgünlüyü doğrudan da təsdiqləndi və bundan sonra istər dünyadakı yəhudilər arasında, istərsə də İsrailin daxilində böyük problemlər meydana çıxdı. Qəzəbli yəhudilər saysız-hesabsız pariki oda atdılar və bu hadisədən sonra parik istehsalı ilə məşğul olan fabriklərə külli-miqdarda zərər dəydi.

[2] Yaxın vaxtlaradək Papanın yanına gedən hər bir xanımın başında qara rəngli örtük olmalı idi. Amma İspaniyanın kraliçası istisna olaraq başına ağ rəngli baş örtüyü atırdı.

manlara qarşı xüsusi düşmənçilikləri olan ölkələrdə sikhlər barədə məlumatı olmayan insanlar onları müsəlmanlarla səhv salaraq onlara hücum edirlər.

Hicab Həzrət Muhəmmədin (s) hicrətindən bir neçə il sonra ilk olaraq O Həzrətin xanımları üçün, sonra isə bütün müsəlman xanımlar üçün hicab vacib buyuruldu və Qurani-Kərim də bu vacibliyi təkidlə dəstəklədi. Xanımlar namaz qılarkən belə hicablarına riayət etməlidirlər. Müsəlman olmayan xanımlar və kənizlərin hicab bağlaması vacib deyildir.

Ehram zamanında kişilər tikili paltarlarını, ayaqqabılarını və papaqlarını geyinməməlidirlər. Başları açıq olmalıdır, üstüaçıq ayaqqabılar, səndəllər geyinməlidirlər və tikişi olmayan parçanı ehram kimi bədənlərinə bağlamalıdırlar. Qadınların da üzləri açıq olmalıdır.

Katolik və ortodoks ruhanilərinin hamısı və bəzi protestan firqələrinin ruhaniləri xristyanlıq dini mərasimlərinin həyata keçirilməsi üçün xüsusi ruhani paltarlarından istifadə etməyi vacib bilirlər. Dərvişlər və sufilər də bəzi dini mərasimləri üçün, o cümlədən Səma mərasimi üçün xüsusi paltar geyinirlər.

Yoqalar üçün paltarlar yüngül olmalıdır və yalnız övrətlərini örtməlidir. Caynizmin "Səma paltarlılar" firqəsinin müqəddəsləri daim lüt və paltarsız yaşayırlar.

## 19. Evlilik

Evlilik dinlərdə mövcud olan ən mühim məsələlərdən biridir:

1. Dinlərin əksəriyyətində bağqa dinlərin davamçıları ilə ailə qurmaq qadağan olunmuşdur. Əhli-sünnət müsəlmanın kitab əhli ilə də ailə qurmasına icazə verirlər, amma şiyəlikdə bu icazə daimi kəbinlərə aid edilmir.

2. Bəzi şəxslərin bəzi şəxslərlə ailə qurması qadağandır: Məsələn, ailə daxili evliliklərə qoyulmuş qadağa bütün qəbiləyə də şamil

edilə bilər. Bəzi hallarda qəbilə daxili, hətta ailədaxili evliliklərə də rast gəlinir. Tarixdə mövcud olan ailədaxili evliliklərin hamısı ana oğul arasında qeydə alınmışdır. Ailədaxili evliliklər bəzi hallarda səltənət və şahlıq sülaləsinə (Fironlar kimi) aid olmuşdur və bu addımı atmaqda məqsəd şahlıq qanının rəiyyət və adi insanların qanı ilə qarışmaması olmuşdur.

İslam dinində ailə qurulmasına qadağa qoyulmuş insanların əksəriyyəti məhrəmləridir. Məhrəmlik qan qohumluğu, növbəti evlilik və süd qohumluğu ilə əmələ gəlir. Ailə qurmağa hələlik qadağa qoyulmuş insanlar isə xanımın bacısı (baldız) və ərli xanımlar ola bilər. Yəhudilikdə və xristyanlıqda da məhrəmiyyət məsələsi təxminən bu formadadır. Amma bir məsələ mövcuddur ki, yəhudilikdə əminin öz qardaşı qızı ilə ailə qurması mümkündür və xristyanlıqda əmi, dayı, bibi, xala uşaqları ilə ailə qurmağa icazə verilmir. Bir şərtlə icazə verilir ki, sonrakı nəsildən olsun və yaxud uşağın səlahiyyəti xaç atasına keçsin. Zərdüştlükdə bacı ilə qardaşın, hətta ata ilə qızının ailə qurması barəsində nümunələr mövcuddur. Amma sonralar İbrahimi dinlərin təsiri altında bu adət təmamilə qadağan olundu. Firdovsinin Şahnamə əsərində İranın əfsanəvi padşahı Bəhmənin öz qızı Humayla ailə qurması və onu öz vəliəhdi etməsi qeyd olunmuşdur.

3. Bir çox dinlərdə evlilik İlahi bağlılıq kimi dəyərləndirilir. Yəhudilər evliliyi “Qiduşin”, yəni müqəddəs adlandırırlar. Xristyanlar evliliyi müqəddəs dini mərasimlərdən biri kimi qələmə verirlər. İslam isə onu mübarək təkid olunmuş müstəhəbbi əməl adlandırırlar. Amma bu müstəhəbbi əməl bir çox hallarda zərurət üzündən vaciblik səviyyəsinə yüksəlir. Şənliyin təşkil olunması, kəbinin oxunmasının vacibliyi və bir çox başqa məsələlər bu mərasimin nə qədər əhəmiyyətli olmasını vurğulayır.

Başqa İbrahimi və qeyri-İbrahimi dinlərin nəzərləri üst-üstə düşür. İstər katolik, istərsə də ortodoks xristyanlar evliliyi yeddi müqəddəs adətdən biri hesab edirlər və onu ibadətlə eyniləşdirirlər. Elə bu səbəbdən də, kəbinin kilsədə keşiş tərəfindən oxunmasını vacib bilirlər. Xristyanların kəbin mərasimlərinin özünəməxsus xüsusiyyətləri

də vardır. Məsələn, ortodokslar kəbin mərasimində gəlinlə bəyin başına balaca taclar da qoyurlar.

İstər katolik olsun, istərsə də ortodoks rahiblər, rahibələr, şəmmaslar, keşişlər və yepiskoplar ailə qura bilməzlər. Onlar bu müqəddəs adətin əvəzinə başqa müqəddəs adət-ənənələri həyata keçirirlər. Yəni, rahiblik və yaxud ruhanilik xristyanlığın müqəddəs adət-ənənələrindən ikincisidir.

4. Böyük ehtimala görə xristyanlıqda mövcud olan müqəddəslərdən biri ailəliklə təklik arasındakı fəziləti bir araya gətirmək üçün cinsi yaxınlığı olmayan ailə həyatı qurmuşlar. Hinduizmin davamçıları cinsi yaxınlıqdan üz döndərməyi "Brahmançarya" adlandırırlar və evlilikdən sonra olan yaxınlığın yalnız nəslin artırılması üçün həyata keçirirlər (Qandi kimi).

5. Amerika xristyanları arasında Kuikerlərdən (Quakers) ayrılmış Şeykerlər (Shakers) adlı firqə mövcuddur və bu furqədə ailə qurmaq ümumiyyətlə haramdır. Dinlər və məzhəblərin varisləri tərəfindən çoxalaraq genişlənmələrinə görə təxminən 250 il bundan öncə yaranmış bu firqə artıq yer üzərindən silinmək üzərədir. Sonuncu statistik məlumatlara görə 21-ci əsrin əvvəllərində bu firqədən yalnız yeddi qadın Şeyker qalmışdı.

6. Dünya dinlərinin adət-ənənələri həyat yoldaşlarının çoxluluğu üzərində qurulmuşdur və bir çox dinlərin banilərinin çoxlu sayda həyat yoldaşı olmuşdur. Həzrət İsa Məsihin (ə) isə ümumiyyətlə həyat yoldaşı olmamışdır. Budda öz arvad və uşağını tərk edərək özünə əzab-əziyyət verməklə mənəvi saflığını qazanmaq üçün getdi.

Avropa yəhudiləri arasında çox arvadlılıq Ravin Qarşum ibn Yəhuda tərəfində 1028-ci ildə qadağan edildi və bu qadağa zaman ötdükcə şərqdə yaşayan yəhuilərə də təsir etməyə başladı. Xristyanlarda heç vaxt çox arvadlılıq mövcud olmamışdır. Çox arvadlılıq məsələsi öncədən xristyan olan Mormoniyalıların adət ənənəsində daha öncələr mövcud olmuşdur, amma bu adət sonralar onların arasında da qadağan edilmişdir. Sikhizmin davamçıları da çox arvadlılığı qəbul etmirlər. Cahiliyyət dövrünün ərəbləri arasında bu sahədə heç bir məhdudiyyət mövcud deyildi, amma İslam dini bunu dörd arvadla

məhdudlaşdırdı. Amma ədalət bərqərar olunmayacağı təqdirdə yalnız bir dəfə ailə qurmağa icazə verilir.[1] Ailəlik və çox arvadlılıq sahəsində dörd yanaşma mövcuddur:

A. Bir kişinin bir qadınla ailə qurması (Monogamy): Bu xristyanlıqda və bəzi başqa dinlərdə mövcuddur.

B. Bir kişinin bir neçə qadınla ailə qurması (Polygamy): Belə yanaşma bir çox dinlərdə mövcuddur.

C. Bir neçə kişinin bir qadınla ailə qurması (Polyandry): Belə adət-ənənələrə Tibetdə yaşayan Buddistlər arasında rast gəlmək mümkündür. Həmin cəmiyyətlərdə bir neçə qardaş bir xanımla ailə qururlar və o xanımın uşaqları onların hamısına aid olunur.

D. Bir neçə kişinin bir neçə xanımla ailə qurması: Belə yanaşmaya hələ heç bir cəmiyyətdə rast gəlinməmişdir.

7. Tövratda qardaşlıq qanunu (Levirate) barəsində bunlar qeyd olunmuşdur:

*“Əgər qardaşlar bir yerdə yaşayarlarsa və onlardan biri övladı olmadan dünyasını dəyişərsə, ölən qardaşın həyat yoldaşı ailədən olmayan bir adamla yenidən ailə qurmamalıdır və ölənin qardaşı onun həyat yoldaşı olmalıdır. Dünyaya gəlmiş ilk uşağa ölən qardaşın adı verilməlidir və adının İsrail arasından getməsinə icazə verilməməlidir. Əgər həmin kişi ölən qardaşının həyat yoldaşını arvadı etməyə razı olmazsa qardaşının həyat yoldaşı qəbilə başçılarının və şeyxlərin yanına gedərək deməlidir: “Mənim yoldaşımın qardaşı qardaşının adının İsrail arasında qorunub saxlanılmasını qəbul etmək istəmir və mənim qardaşı arvadı kimi davranmaqdan boyun qaçırır!” Bundan sonra şəhərin şeyxləri həmən kişini yanlarına çağıraraq onunla söhbət edirlər. Əgər yenidən qardaşının həyat yoldaşı ilə evlənməkdən boyun qaçırarsa və “Mən onu almaq istəmirəm!” deyərsə qardaşının həyat yoldaşı kişinin yanına gələrək şeyxlərin gözü qarşısında onun ayaqqabılarını çıxartmalı, üzünə tüpürməli və cavab olaraq bu sözləri deməlidir: “Öz qardaşının evini qurmaqdan boyun*

[1] Nisa surəsi, ayə 3

*qaçıran insanla belə davranılmalıdır!" Həmən insanın adı İsrail arasında "Ayaqqabısı çıxarılmış" qalır.*(Təsniyə25:5-10)

8. Mehriyyə və başlıq pulu sahəsində də 4 yanaşma tərzi mövcuddur:

A. Bəy gəlinə mehriyyə verir: İslam dinində olduğu kimi.
B. Gəlin bəyə mehriyyə verir: Hinduizm ənənəsində olduğu kimi.
C. Bəy və gəlin qarşılıqlı olaraq bir-birilərinə mehriyyə verirlər: Yəhudilikdə belə bir adət mövcuddur.[1]
D. Heç kim heç kimə mehriyyə vermir: Xristyanlıqda olduğu kimi

Qeyd etmək lazımdır ki, ilk üç halda mehriyyəni verən və alan başqa bir şəxs, o cümlədən bəyin və yaxud gəlinin atası ola bilər.[2]

## 20. Boşanma və yaxud təlaq

İslamda və yəhudilikdə boşanmaya icazə verilir, amma xristyanlıqda boşanma qadağan olunmuşdur. Bu qadağa Həzrət İsanın (ə) özünə istinadən qeyd olunan məsələlərdən biridir:

*Feriseylər Onu sınamaq məqsədilə yaxınlaşıb dedilər: "Hər səbəblə qadını boşamaq caizdir?" İsa cavab verib dedi: "Başlanğıcdan Yaradanın onları kişi və qadın yaratdığını, dediyini oxumadınızmı? Və buna görə insan ata-anasını buraxacaq və arvadına bağlanacaqdır. İkisi də bir bədən olacaqdır. Elə ki, onlar artıq iki deyil, bir bədəndirlər. Beləliklə, Allahın birləşdirdiyini insan ayırmamalıdır." Onlar İsaya dedilər: "Belə isə, Musa nə üçün bir boşanma kağızı ve-*

---

[1] Bəyin mehriyyəsi belədir ki, ailə qurarkən üzərinə öhdəçilik götürür. Bu öhdəliyə əsasən bəy gəlini boşadıqda və yaxud ondan daha tez öldükdə 200zuz (dul olarsa 100 zuz) ödəməlidir. Gəlinin mehriyyəsi isə onun cehizi və başqa malıdır və yəhudilikdə gəlinin gətirdiyi cehiz kişinin malı olur. İslam dinində mehriyyə evliliyə aid bir məsələdir və boşanmaqla, yaxud ölməklə heç bir əlaqəsi yoxdur. Gəlinin gətirdiyi cehiz və başqa mal da onun şəxsi malıdır.

[2] Məsələn, Həzrət Musanın (ə) qayınatası öz qızının mehriyyəsini özü alır. (Qisəs surəsi, ayə 27)

*rərək qadını boşamağı əmr etdi?" İsa onlara dedi: "Daşürəkli olduğuna görə Musa arvadlarınızı boşamanıza icazə verdi, fəqət belə olmamışdır. Və mən sizə deyirəm: "Kim zinadan başqa səbəblə arvadını boşayıb başqası ilə evlənərsə, zina edər; boşanmış olanla da evlənən zina edər!"* (Matta 19:3-9)

Bəzən xristyanlar evliliyi əvvəlcədən səhv olaraq dəyərləndirirlər və bu ailəliyi pozmaq üçün nəzərdə tutulmuş şəriyyət hiyləsidir. Amma bir məsələni də nəzərə almaq lazımdır ki, hal-hazırda Amerikada və bəzi başqa xristyan ölkələrindəki evliliklərin yarısı boşanma ilə nəticələnir. Bu boşanmalar dövlət səviyyəsində icra edilir və kilsə bu məsələni qəbul etmir.

Yəhudilikdə boşanma kişinin əlindədir. Amma təxminən min il bundan öncə adını daha öncə qeyd etdiyimiz Ravin Qarşum qadının razılığını da boşanmanın əsas şərtlərindən biri kimi təsdiqlədi. Yəhudilər Tövratda qeyd olunduğu kimi (Təsniyə 24:1) öz xanımları ilə boşananda boşanma məktubu yazmalıdırlar və nigah kəsiləndə nəzərdə tutulmuş mehriyyəni ödəməlidirlər.

## 21. Qisas, diyə və bağışlamaq

Qisas, diyə və bağışlamaq sahəsində də üç yanaşma tərzi mövcuddur:

1. Ancaq qisasa icazə verilmişdir: Tövratda belə qeyd olunmuşdur
2. Həm qisas, həm də diyə (qanpulu) qeyd olunmuşdur: Təlmudda yazıldığı kimi
3. Həm qisas, həm diyə, həm də bağışlamağa icazə verilmişdir: Qurani-Kərimdə buyurulduğu kimi
4. Yalnız bağışlamağa icazə verilmişdir: İncilin zahirində belə qeyd olunmuşdur (Matta 5:38-39). Amma, Həzrət İsa Məsihin (ə) Tövratın əhkamlarını batil etmək niyyətində olmaması (Matta 5:17),

həm qisasın, həm də bağışlamağın Həzrət İsa Məsihin (ə) şəriətində olmasını təsdiq edir.

## 22. Bəzi başqa dini əhkamlar

Müxtəlif dinlərdə pak və nəcis məfhumu mövcuddur. Qeyd etmək lazımdır ki, bu iki məfhumu bizim beynimizdə tutduğumuz məsələlərdən daha geniş şəkildə qəbul etməliyik. Məsələn, yəhudilərin qədimi şəriətində (70-ci ildə məbədin dağıdılmasından öncə) bəzi dəri xəstəlikləri xəstəlik sahibini murdar edirdi. Bu hadisədən sonra həmin şəxs insanlardan ayrılmalı və xüsusi formada xarabalıqda yaşamalı idi. Kimsə ona yaxınlaşanda qışqıraraq “Nəcis, Nəcis!” deməlidir (Levilər 13:45). O yaxşılaşandan sonra kahinin yanına getməlidir, kahin onu müayinə etməlidir və onun paklaşması barəsində hökm çıxartmalıdır. Bundan sonra olduqca qeyri-adi qurban kəsmək mərasimi keçirməli idi. Bu qurban kəsməyin qayda-qanunu Levilər bölümündə (14:1-57) qeyd olunmuşdur.

Çirklilik həm insanda, həm də qeyri-insanda meydana çıxan bir formadır. İslam dinində insanın napak və çirkli olması iki cürdür: Cismi və ruhi. Hər iki napaklıq insanın önündən və arxasından xaric olan bəzi maddələrlə əlaqəlidir, amma yalnız bununla bitmir. Yatmaq, cinsi yaxınlıq, ölmək, ölüyə toxunmaq və bəzi başqa məsələlər insanın napak və çirkli olmasına səbəb olur. Ruhi napaklıqlar isə aşağıdakı formalarda yaranır:

1. Bilərəkdən və ümumi xarakter daşıyan (cinsi yaxınlıq nəticəsində)
2. Bilərəkdən və cüzi xarakter daşıyan (yatarkən cinsi boşalma)
3. Bilməyərəkdən və ümumi xarakter daşıyan (heyz və aybaşı olmaq barəsindəki ehtimal)
4. Bilməyərəkdən və cüzi xarakter daşıyan(insanın yuxuya getməsi kimi)

İslam dinində istər insan və istər qeyri-insan üçün paklıq su, torpaq, günəş, istihalə, şəhadəteyni deməklə və sair yollarla əldə olunur. İnsanın ruhi cəhətdən paklaşması üçün isə onun niyyət etməsi lazımdır. Napak olub qurtardıqdan sonra bədəninin hər yerinə qüsl verə və yaxud bəzi yerlərini təyəmmüm edə bilər.

Müxtəlif dinlərdə qeyri-adi nəcislik və paklıq məfhumları mövcud ola bilər. Amma, bütün bunların hamısını qeyd etmək üçün başqa bir kitab yazılmalıdır.

Katolik və ortodoks keşişləri nöqteyi-nəzərindən günahı etiraf etmək və boyuna almaq dəstəmaz almaq mənasını daşıyır. Çünki, etiraf etməmiş bir insan ibadət mərasimlərində iştirak etmək hüququna malik deyillər.

Hər bir dində müxtəlif ibadət formaları vardır və onların həyata keçirilməsi müxtəlif dinlərdə bir-birindən fərqlidir. İbadət həm dua (namaz), həm də ziyarət formasında ola bilər. Duaların ləfzi olmasına baxmayaraq tərkibindən qiyam, ruku, səcdə, ağlamaq, ah çəkmək kimi hərəkətlər də mövcuddur. Ziyarətlər də həmçinin daha çox əməli olmasına baxmayaraq xüsusi ləfzlərdən də istifadə olunur.

**22-1. Qiblə**

Dinlərin bir çoxunda qiblə məfhumu mövcuddur. Qiblə həm xüsusi bir məkan və yaxud dörd istiqamətdən biri ola bilər. Müqəddəs Məkkə şəhəri müsəlmanların, Urşəlim (Qüds) Yəhudilərin məkan qibləsidir (Samiri yəhudilər Cerezim dağını məkan qibləsi kimi qəbul edirlər). Şərq qədim zamanlarda bütün xristyanlar üçün istiqamət və cəhət qibləsi olmuşdur. Hal-hazırda isə yalnız ortodokslar bu adəti qoruyub saxlamışlar. Sabiilərin qiblə istiqaməti şimal istiqamətinə olmuşdur. Hiduizm, caynizm, buddizm davamçılarının sitayiş etdikləri bütlər qiblə sayılmırlar.

Müxtəlif dinlərin və firqələrin davamçıları müqəddəs məkanlara görə bir-biriləri ilə savaşdadırlar. İslam dini ilə müşriklərin Kəbə üzərində apardıqları müharibələr sonda Hicri-Qəməri tarixi ilə 8-ci ildə müsəlmanların qələbəsi ilə nəticələndi.

Müxtəlif dinlər keçmiş zamanlarda Urşəlim (Qüds) şəhəri və onun hərəmi üzərində kəskin mübarizələr aparmışlar. Xaç yürüşləri zamanı müsəlmanlarla xristyanlar və müsəlmanlarla yəhudilər arasında meydana çıxan müharibələr hələ də müxtəlif formalarda davam etməkdədir. Hal-hazırda həmin şəhər qəsbkar İsraillilərin və onun pak hərəmi Fələstin müsəlmanlarının ixtiyarındadır.

Müxtəlif dinlərin müqəddəs məkanlarına edilmiş hücumların bir neçə səbəbi vardır. İslam dinində qeyd olunmuş Əbrəhənin kəbəyə nəticəsiz nücumu, Yəzid ibn Müaviyənin ordusunun Hicri-Qəməri tarixi ilə 64-cü ildə Hüseyn ibn Numeyrin başçılığı altında hücumu, Hicri-Qəməri tarixi ilə 73-cü ildə Həccac ibn Yusifin başçılığı altında Əbdülməlik ibn Mərvanın hücumu. Bizə yaxın dövrlərdə isə Vəhabilərin Müqəddəs İmamların Bəqi qəbristanlığında və Kərbəladakı məzarlarına hücumu, Rusların toplarla Həzrət İmam Rızanın (ə) mübarək hərəminə hücumu, Amerika işğalçılarının İraqdakı müqəddəs məkanlara hücumu və Hindlilərin Baberi məscidinə hücum edərək partlatması da İslam dininin müqəddəs məkanlarına olan hücumlardan bir neçəsidir.

Başqa məbədlər də tarix boyu belə hücumlara məruz qalmışlar. Misal üçün Buxtunnəsrin eradan əvvəl 587-ci ildə Süleyman məbədinə hücumu və Roma şahzadəsi Titusun 70-ci ildə həmən məbədə hücum edərək dağıtması. Soltan Mahmud Qəznəvinin təxminən min il öncə Hindistan bütxanalarına və hinduların 1984-cü ildə Hindistanın Amritsar şəhərində yerləşən Sikhlərin Qızıl məbədinə hücum etmələri də belə hücumlara bir nümunədir.

Eləcə də, bir dinə aid məbədin başqa bir dinin məbədinə çevrilməsi də geniş yayılmış məsələlərdən biridir. Məsələn, tövhid məbədi olan Kəbənin cahiliyyət dövründə bütxanaya çevrilməsi və Hicri-Qəməri tarixi ilə 8-ci ildə yenidən tövhidi məbədə, Qüds şəhərindəki Süleyman məbədinin, Şam və Konstantinopol kilsələrinin, iran atəşgahlarının və Hindistan bütxanalarının bəzilərinin məscidlərə çevrilməsi. Eyni zamanda Əndəlusdakı məscidlərin kilsələrə çevrilməsi.

**22-2. Müqəddəs dil**

Bütün dinlərdə müqəddəs dil məfhumu mövcuddur və müqəddəs dil dedikdə səmavi kitabın nazil olduğu dil nəzərdə tutulur. Islam dininin müqəddəs dili ərəb dilidir və namazın başqa dildə qılınması düzgün deyildir. Eləcə də, bəzi əqdlərin, o cümlədən nigah əqdinin də ərəb dilində oxunmasına təkid edilir. Yəhudilərin müqəddəs dili İbrani dilidir. Xristyanlar müxtəlif zamanlarda və müxtəlif məkanlarda başqa dilləri, o cümlədən Yunan, Latın, Süryani, Qibti dillərini müqəddəs bilmişlər. Elə bu səbəbdən də, müxtəlif xristyan firqələrinin ibadət mərasimləri də yuxarıda qeyd etdiyimiz dillərdən birində keçirilir. Hal-hazırda dinlərin əksəriyyəti müqəddəs dil məfhumunun əhəmiyyətsiz olmasını vurğulayır və xristyanlar bu cəhətdən başqa dinlərdən daha irəlidə addımlayır. Katoliklər təxminən 40 il bundan öncəyə qədər Latın dilində ibadət edirdilər. İkinci Vatikan şurasında ibadət zamanı Latın dilindən istifadə vacibliyi ləğv olundu. Hal-hazırda katoliklərin bəzi azsaylı firqələri bu məsələni qəbul etməyərək hələ də latın dilində ibadət edirlər. Papa öz fitvalarını Latın dilində verir və bu dini fitvalar dərhal müxtəlif dillərə tərcümə olunur.

Ortodoks kilsəsi Yunan dilini, Suriya kilsəsi Süryani dilini, Erməni kilsəsi erməni dilini və Qibti kilsəsi Misirdəki Qibti dilini (İslam dini meydana çıxmamışdan öncə) müqəddəs sanır. Protestantlar lap əvvəldən belə müqəddəs dil məfhumunu qəbul etməmişdilər və ibadətlərini, eləcə də, dini mərasimlərini öz ana dillərində icra etmişlər.

Zərdüştlərin müqəddəs dili Avesta dili, Hinduların müqəddəs dili Sanskrit dili, Sabiilərin müqəddəs dili isə Mandayi dilidir. Buddizmin müqəddəs kitabları Pali və Prakriti dillərində qələmə alınmışdır, amma artıq məlum olmuşdur ki, Buddistlə bu dilləri heç vaxt müqəddəs dil kimi qəbul etməmişlər.

Hindularda ləfzdən və sözdən istifadə olunmayan və barmaq işarələri ilə həyata keçirilən müqəddəs dil də mövcuddur. Bu dili Mudralar (Mudras) adlandırırlar. Bəzi bütlərin barmaqlarının dayanma forması da bu dildə olan bəzi məfhumlara dəlalət edir.

The past and current histories of humanity show that these questions are relevant to the vast majority of people: who created me? And in general, is there a creator? I wonder, will my life just end here or will it continue after death? What is my role in this life?

***Doctor Ahmad Ahmadi***

We present to Azerbaijani readers the book *Introduction to Major Religions* by Iranian author Hüseyn Tövfiqi. The book's content and explanations set it apart from other works that are available to Azerbaijani readers, and for these characteristics it was selected to be translated into the Azerbaijani language.

*Introduction to Major Religions* consists of four sections that are similar to one another and that flow in a natural order according to their themes. The first section gives general information about religion, faiths of the ancient world and the religions of India, China and Japan. The second section is dedicated to Judaism, the third to Christianity, and the fourth to Islam and its comparison to other religions.

***Prof. Hamlet Isaxanli***

This book is published on the basis of a joint project by Khazar University (Baku, Azerbaijan Republic) and the SAMT organization (Iran Islamic Republic).

**Hüseyn Tövfiqi**

# Introduction to Major Religions

Xəzər Universitəsi Nəşriyyatı
Khazar University Press
2013